Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

XIII cild

Bakı-2023

Redaktor:

**Zahid Xəlil**

Rafiq Yusifoğlu. Seçilmiş əsərləri, XIII cild. Bakı, ADPU nəşriyyatı, 2023. – 512 səh.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, görkəmli şair, ədəbiyyatşünas, Prezident mükafatçısı, "Qızıl kəlmə", "Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı" və s. mükafatların laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun "Seçilmiş əsərləri"nin on üçüncü cildinə nağıl və rəvayətlər, Amerikada yazılan hekayə və nağıllar, "Xatirə kəcavəsi" kitabındakı bəzi yazılar, müsahibələr, eləcə də müəllifin ayrı-ayrı vaxtlarda real hadisələr əsasında qələmə aldığı yumoristik hadisələrin bir qismi daxil edilmişdir.

$©\frac{1947892R42}{1957(H)2023}$ - Qrifli nəşr

**© Rafiq Yusifoğlu**

# NAĞILLAR, RƏVAYƏTLƏR

## TAPMACALAR ÖLKƏSİ

Biri var idi, biri yox idi, qədim bir ölkə var idi. Bu ölkə çox qəribə bir ölkə idi. Buranın adamlarının hamısı tapmaca ilə danışdığından, həmin diyara tapmacalar ölkəsi deyirdilər. Bu ölkədə yaşayan adamların nə demək istədiklərini hər adam başa düşə bilməzdi. Onların sözlərini anlamaq üçün xeyli düşünmək, baş sındırmaq lazım gəlirdi.

Bir dəfə Bitdilicə həmin ölkəyə qonaq getmişdi. Şəhər darvazalarından onu içəri buraxmaq istəmədilər. Dedilər ki, tapmacaya cavab verməyən adamı ölkəmizə qoya bilmərik. Tapmacanın açmasını deyə bilməyən adamın üzünə bizim şəhərin qapıları çətin ki, açıla.

Keşikçi bir neçə tapmaca söylədi.

“O yanı qaya, bu yanı qaya,
İçində sarı maya. “
“Altı bulaq içərlər,
Üstü zəmi biçərlər.”
“Bir il əkərlər,
Yeddi il biçərlər.”

Bitdilicə güldü. O dedi ki, nə var bu tapmacaların cavabını bilməyə. Birincinin cavabı yumurta, ikincinin cavabı qoyun, üçüncünün cavabı isə yoncadır.

Bitdilicə bu sözləri deyən kimi onu birinci qapıdan içəri buraxdılar. O, elə bir az getmişdi ki, qarşısına yeni bir qapı çıxdı. O qapının arxasından yenə kimsə üç tapmaca söylədi:

“Sarı-sarı sandıqlar,
İçi dolu fındıqlar.”

“Bir evim var bir dirəkli.”
“Ağacla tutmaq olmaz,
Ətrindən yatmaq olmaz.”

Bitdilicə bir az fikirləşdi. Bu tapmacaların da cavabını tapdı. Dedi ki, birinci tapmacanın cavabı boranı, ikincinin cavabı göbələk, üçüncünün cavabı isə qızılgüldür.

Söz onun ağzından çıxan kimi ikinci qapı da Bitdilicənin üzünə açıldı. O, xeyli gedəndən sonra qarşısına yeni bir qapı çıxdı. Burada da ona üç tapmaca verdilər:

“Torpaq deyil, daş deyil,
Quru deyil, yaş deyil.
Buynuzu var, qoç deyil,
Qanadı var, quş deyil…” (Kəpənək)
“Bir parça atlaz,
Dənizdə batmaz.” (Neft)
“Məndə də var,
Səndə də var,
İnsanda var,
Adamda yox… ! (“N” hərfi)

Bitdilicə nə qədər fikirləşdisə, bu tapmacaların cavabını tapa bilmədi. Elə buna görə də üçüncü qapı onun üzünə açılmadı.

Uşaqlar, bu tapmacaların cavabını tapmaq üçün Bitdilicəyə kömək eləyin. Yoxsa onu sirli-sehrli Tapmacalar ölkəsinin mərkəzinə buraxmayacaqlar.

Bu ölkə çox qəribə bir ölkədi. Bitdilicəyə kömək eləyə bilsəniz, sizi də həmin qəribə diyara buraxacaqlar. Sirli-sehrli tapmacalar sizi o qədər düşündürəcək, o qədər düşündürəcək ki… Siz düşünə-düşünə hər şeyi öyrənəcəksiniz.

Elmin yolu düşüncədən başlayır.

# PALID AĞACININ NAĞILI

Biri var idi, biri yox idi, qədim zamanlarda Qusar meşələrində bir qocaman palıd ağacı var idi. Bir il həmin palıd ağacı çoxlu qoza gətirdi. Qozalar onun budaqlarına xüsusi yaraşıq verirdi. Bu qozaların arasında yekə, yepyekə bir qoza da var idi… Bu qoza qozadan çox uzunsov, yepyekə bir qoza oxşayırdı. Külək əsdikcə qozalar yellənir, böyük qoza isə zınqırov kimi səs salırdı. Meşədə uçan quşlar da külək əsəndə səslərini kəsib bu qəribə, ecazkar zınqırov səslərinə qulaq asardılar. Bu sehrli səsi dinləyən o biri qozalar öz böyük qardaşlarına baxıb həsəd çəkərdilər:

– Kaş biz də bu boyda olaydıq, kaş biz də külək əsəndə zınqırov səsləri çıxara biləydik!

Böyük qoza lovğalandı, lovğalandı, o qədər yerli-yersiz yırğalandı ki, birdən üsküyəbənzər papağından ayrılıb yerə düşdü. Onu kənardan izləyən bir yekə qarğa tez, sevincək yekə qozanı dimdiyinə alıb havaya uçdu. O biri quşlar da qarğanın dalınca düşdülər ki, bəlkə sehrli qozanı onun dimdiyindən ala bilsinlər…

Qoza qarğanın dimdikləri arasında sıxılsa da, dörd tərəfə baxanda sevinməyə başladı:

– Oy, göylər necə gözəl, necə qəşəng imiş! Kaş mən də həmişə göylərdə yaşayaydım…

Qoza unudurdu ki, göylərdə yaşamaq üçün ona mütləq qanad lazımdı! Qanad isə ancaq quşlarda olur… Bir də qoza bilmirdi ki, qarğa onu əzizləmək üçün yox, yemək üçün aparır! Qarğa uça-uça yekə bir daş axtarırdı ki, qozanı onun üstünə buraxıb sındırsın, içindəki ləpəni yesin!

Qarğa üzü dənizə sarı, Nabrana doğru uçurdu. O, çalışırdı ki, arxasınca uçan quşlardan mümkün qədər çox aralansın ki, qənimətinə şərik çıxan olmasın…

Birdən bir bulağın üstündən uçarkən qarğanın dimdiyi boşaldı və qoza yerə düşdü. Qarğa yerə enib ha axtardısa,

qozanı tapa bilmədi… Nabranın qupquru çöllərində özünü qərib və kimsəsiz hiss elədi…

Sizə kimdən xəbər verim, yekə, yepyekə qozadan. O, göydən yerə şığıyanda çox sevinirdi, elə sanırdı ki, onun da qanadı var! Ancaq tappıltı ilə yerə dəyəndə isə ağrıdan huşunu itirdi… Bir də gözlərini açdı ki, bulağın yanındakı dərin, dəpdərin bir çuxura düşüb… Çuxur o qədər dərin və yaş idi ki, qozanı ağlamaq tutdu… Elə bu zaman külək əsməyə başladı. O, hirslə ətrafdakı toz-torpağı qozanın üstünə örtüb, çuxuru doldurdu…

Budaqda yellənməyə öyrənən qozannın torpağın altında gözlərinə qaranlıq çökdü… Nə qədər çalışdısa, buradan çıxa bilmədi ki, bilmədi… Bulağın suyu onun qalın qabıqlarını lap yumşaltmışdı… Torpağın altına bir iynə ulduzu boyda günəş şüası süzüldü… Qoza bu şüanı görüb çox sevindi… Ona elə gəldi ki, bu şüa deyil, onu xilas etmək üçün quyunun dibinə atılan sehrli bir kəndirdi… Qoza bu şüadan yapışıb göyə qalxmağa çalışdıqca, ondan qəribə zoğlar çıxdı və torpağın dərinliklərinə işlədi… Bir yandan günəş dartdı, bir yandan torpaq… Axır ki, yekə, yepyekə qoza ağaca dönüb torpağın altından işıqlı dünyaya çıxıdı. Ancaq nə qədər dartındısa, torpaq onu buraxmadı…

İllər, aylar keçdi. Nabranda ilk palıd ağacı bitdi… Əvvəlcə bu ağac tənhalıqdan darıxırdı… Sonra yan-yörəsindən başqa ağaclar da baş qaldırdılar… Gündüzlər gün işığından yapışıb ucalmağa çalışan ağaclar gecələr ay işığında bir-biri ilə dərdləşdilər və beləliklə dünyanın ilk nağılları meydana gəldi… Nabranın bomboz düzü yaşıl meşəliyə çevrildi… İnsanlar bu meşənin yerini öyrənəndən sonra tez-tez bura ziyarətə gəldilər… Ağacların sərin, təmiz havasından uddular, onların dibindən çıxan bulaqların səpsərin suyundan içdilər, yaxınlıqdakı Xəzər dənizində çimdilər…

Beləliklə Nabran gözəlliklər diyarına çevrildi…

Bir vaxt qarğa dimdiyində gəlib bura düşən qoza nəhəng, nəpnəhəng, uca, upuca bir ağaca, meşədəki cavan ağacların ağsaqqalına çevrildi… İndi o ağacın nə qədər yaşı olduğunu heç kəs bilmir… Ona görə ki, insan nəsilləri bir-birini əvəz eləyib, qoca palıd isə öz ömrünü yaşamaqda davam eləyir…

Bir gün qoca palıd yuxudan səs-küyə oyandı.Gördü ki, yanındakı ağacları balta ilə, mişarla kəsirlər… Palıd nə qədər uca, nə qədər yoğun olsa da, onun da canına vicvicə düşdü… Günlər ayları, aylar illəri əvəz elədi… Bulağın yanında kababxana tikdilər… Qoca palıdın bəxti onda gətirdi ki, onu kəsmədilər… Ancaq nəsə uzun bir şeyi onun belinə dolayıb, ordan-burdan mıx vururdular… Qoca palıd əvvəl elə bildi ki, onu ağcaqanad dişləyir, ancaq tezliklə anladı ki, bu belə deyil… Ay aman, bu insanlar nə eləmək istəyir görəsən?!

Qoca palıd gecə mürgüləmək istədisə də, yata bilmədi… Elə bil canına od düşmüşdü… Bir sehrli qızıl ilan onun gövdəsinə dolanmışdı… Ancaq yox, bu ilan əvvəlki ilanlara bənzəmirdi… Bu ilan gecələr nur saçırdı…

Palıd çox gec anladı ki, onun belinə dolanan işıq xətti imiş… Gecələr bu işıqlar yananda palıd daha da əzəmətli görünürdü…

Gündüzlər bu qocaman palıdın kölgəsində nə qədər qoyun-quzu, insan kölgələnmişdi… Qəribədi, indi gecələr də bu palıdın dibi qonaq-qaralı olmağa başladı… Palıdın yuxusu pozulmuşdu… Daha o, gecənin nə vaxt, gündüzün nə vaxt olduğunu da bilmirdi… Sakitcə mürgüləyib ötən günləri xatırlamağa da vaxtı yox idi biçarənin… Gecə səhərə qədər dambadurup səsi kəsilmir, onun ətrafında yorulmaq bilmədən dəli kimi rəqs eləyirdilər…

Biri var idi, biri yox idi, bir palıd ağacı var idi…

Var idi yox, o palıd ağacı indi də var… Ancaq yazıq yaşamaqdan bezib. O, səs-küydən başını götürüb meşədən

qaçmaq istəyir, ancaq bacarmır ki, bacarmır… Ürəyindən keçir ki, kaş yenə qoza olaydım, kaş yenə o qarğa məni dimdiyində götürüb göyə qalxa, qohum-əqrabamın yanına aparaydı…

İndi yekə, yepyekə qozadan əmələ gələn nəhəng palıdın gözləri yol çəkir… Belinə dolanan qızıl ilan onu sıxır. Arzulayır ki, kaş bu qızıl ilan bir qızıl şimşəyə dönüb onu yandırıb yaxa, canını bu əzabdan xilas eləyəydi… İndi o qoca, yepyekə palıd o vaxtı gözləyir ki, nə vaxtsa, kimsə öz nəvələrinə nağıl danışıb deyəcək:

– Biri var idi, biri yox idi, Nabran meşələrində nəhəng, nəpnəhəng bir palıd ağacı var idi…

**28-30 iyul 2014**
**Nabran, Sumqayıt**

## BİTDİLİCƏ

Biri var idi, biri yox idi, bir Bitdilicə var idi. Hələ dünya yaranandan bir nəfər də olsun onun üzünü görməmişdi… Ona da Bitdilicə deyərəm, gözə görünməsə də, nə özü dinc durur, nə də ürəyinə, qəlbinə girdiyi adamlara, otlara, çiçəklərə, quşlara, böcəklərə dinclik verirdi…

Bir də görürdün Bitdilicə yavaşca girdi sünbüldəki dənin içinə. Quş bu buğdanı yeyən kimi göylərə uçur, qanad çalmaqdan yorulmurdu. İçində Bitdilicənin gizləndiyi arpanı yeyən at da göylərə meydan oxuyur, yerlə, göylə əlləşirdi. O qaçanda nalından qığılcımlar sıçrayırdı, lap Koroğlunun Qıratı kimi…

Bitdilicə çiçəyin qəlbinə girəndə isə çiçək nəinki torpağı, hətta sərt qayaları belə dəlib keçmək gücündə olurdu. Bir də görürdün daşın üstündə bir çiçək bitib… Arılar bu çiçəyin üstündən gecə-gündüz şirə daşıyıb bala çevirsələr də, çiçəyin şirəsi tükənmirdi ki, tükənmirdi… Bitdilicə hansı arının içinə girirdisə, o, daha zəhmətkeş,

daha güclü olur, bu çəməndən o çəmənə uçub bal daşımaqdan yorulmurdu ki, yorulmurdu…

Qarışqa içində Bitdilicə olan dəni daşıya bilmirdi, ancaq onun öz içinə Bitdilicə girən kimi qarışqa filə dönür, bir anbar buğdanı belə daşımağa qadir olurdu.

Qışdan çıxan meşələri çılın-çılpaq görəndə Bitdilicənin onlara ürəyi yanırdı. O, ağacların içinə girən kimi tumurcuqlar çırtlayır, budaqlar yarpaqlayır, meşə yamyaşıl bir dona bürünürdü. Çəmənləri, dağları qurumuş görən Bitdilicə qədəmlərini ora basan kimi hər yan yamyaşıl olur, ətrafı gül-çiçək ətri bürüyür, gül-gülü, bülbül-bülbülü, çiçək-çiçəyi, kəpənək-kəpənəyi çağırırdı… Bağlarda meyvə ağacları, bostanlarda xiyar, pomidor, qarpız, yemiş çiçəkləyəndə bilmək olurdu ki, onları da həvəsləndirən Bitdilicədi…

Bitdilicə buludların arasına qalxdımı, şimşək çaxır, yağış yağır, sısqa arxların içinə girdimi, sel-su aləmi bürüyürdü…

Bir dəfə Bitdilicə tənbəl-tənbəl yeriyən tısbağanı görüb onunla məzələnmək istədi. Yavaşca, gözə görünmədən onun çanağına girdi. İçinə Bitdilicə girən Tısbağa qaçmağa başladı. Çanağı o daşa, bu daşa dəyib çatladı. Bunu görən Bitdilicənin Tısbağaya rəhmi gəldi. Tez onun içindən çıxdı ki, yazıq bir az dincəlsin, rahatlansın.

Bitdilicə yuyunub sərinləmək üçün dənizə girdi. Dəniz coşdu, dalğalandı. Bunu görən Bitdilicə balaca balıqların arasına girmək istədi ki, onlar heç nədən qorxmasınlar. Ancaq qəribə bir mənzərə yarandı. Qorxaq kilkələr ən yırtıcı balıqların, balinaların yanından şəstlə üzüb keçməyə başladılar, onları heç saya da salmadılar. Bitdilicənin onlara da rəhmi gəldi. Düşündü ki, əvvəl-axır məsələnin nə yerdə olduğunu anlayan yırtıcı balıqlar onlara divan tutacaqlar.

Bitdilicə indi də köpək balıqları, balinalar ilə məzələnmək fikrinə düşdü. Ancaq tez də fikrindən daşındı. Anladı

ki, belə etsə, onlar daha da qəddarlaşacaq, dənizlərdəki, okeanlardakı bütün balıqları yeyib qurtaracaqlar.

Bir dəfə Bitdilicə cəngəlliklərə, savannalara, dağlara səfər elədi. Ceyranları, cüyürləri, dağ keçilərini görəndə onun ürəyi açıldı. Pələnglərin, şirlərin, digər yırtıcıların onlara hücümunu görən Bitdilicə məzlumların ürəyinə girdi ki, zalımlar onları incidə bilməsinlər. Pələnglərdən, şirlərdən, canavarlardan zahirən xoşu gəlsə də, Bitdilicə onların yanında yaşamaq istəmədi. Qorxdu ki, onların yanında yaşasa, bu vəhşilər daha da quduzlaşar, ceyranlara, cüyürlərə, quzulara, oğlaqlara divan tutarlar…

Beləcə, Bitdilicə bütün dünyanı gəzib dolandı, özünə əbədi yaşaya biləcəyi bir yer tapmadı ki, tapmadı. Nəhayət, bir gün o gizlicə insanın ürəyinə girdi. İnsanın yaşamaq həvəsi daha da artdı. O, şəhərlər, kəndlər saldı, təbiətin qoynunda qoruqlar yaradıb canlıları, bitkiləri qorumağa başladı, uca dağlara, ətirli çəmənlərə, qoynunda sellər-sular çağlayan dərələrə, ulduzlu göylərə heyranlıqla baxdı, Ulu Yaradanın böyüklüyünü, ucalığını dərk elədi…

O zamandan xeyli illər keçib, fəsillər fəsilləri, nəsillər nəsillərəi əvəz edib. Bitdilicə uzun illərdir ki, insanların ürəyini özünə vətən seçib. Çünki o, burada özünü daha rahat, daha xoşbəxt hiss edir…

Bitdilicə də sevgi kimi, həvəs kimi, həyat eşqi kimi gözə görünmür, ancaq hamını böyük-böyük işlər görməyə həvəsləndirir…

**08-30.08.2014**

# BAŞ VƏ DİL

Baş tez-tez ağrıyır, ufuldayırdı. Bunu görən dil ondan soruşdu:

– Ay qardaş, nə olub sənə? Heç özündə-sözündə deyilsən. Dərdini de, bəlkə sənə bir əlac eləyə bildim.

Baş mənalı-mənalı başını buladı:

– Mənə kömək eləyənə bax! Ağrımağımın elə əsas səbəbkarı sən özünsən.

Dil təəccübləndi:

– Bu nə sözdü, qardaş? İndiyəcən mənim hansı pisliyimi görmüsən?

– Başıma nə bəla gəlirsə, sənin ucbatından gəlir. Məni ağrıdan da, başımı dost-tanış yanında aşağı eləyən də sənsən…

– Bıy… Sənin ürəyin dolu imiş ki? Axı mən sənə neyləmişəm ki?!

– Sən mənə neyləməmisən ki?! Düşünmədən bir söz deyib qaçıb ağızın içində gizlənirsən. Sənin dediklərinə görə isə hər gün mənim başıma qapaz dəyir. Əgər yerində dinc dursan, mən çox rahat yaşayaram… Danışan sənsən, onun cəzasını isə mən çəkirəm.

– Bəs indi mən neyləyim?

– Neyləyəcəksən ki?! Mənim icazəm olmadan bir kəlmə də danışma. Əgər sözümə qulaq asıb mənalı kəlmələr söyləsən, mən həmişə uca olaram, rahat yaşayaram. Başıma dəyən qapazları isə sığal əvəz edər…

**08.06.2014**

## DAĞ VƏ DƏNİZ

Dağ dedi:

– Ay dəniz, unutma ki, səni dəniz eləyən mən olmuşam. Sən mənə sığınmasaydın, heç dəniz ola bilərdinmi? Suyunu səpələnməkdən, dağılmaqdan qoruyub bir yerə yığmışam.

Dəniz şaqqanaq çəkib güldü:

– Mən öz dərinliyimdə neçə-neçə sənin kimi dağı qərq eləyərəm.

– Öyünmə, sən mənim damla-damla göz yaşlarımdan yaranmısan. Qoynumdan çıxan bulaqları çaylara döndərib sənin qoynuna axıdan mənəm. Əgər belə olmasa, heç sən yaranardınmı?

Dağa sığınan dəniz xoşbəxtdi. Dəniz qoynuna alan dağ əzəmətlidi…

## İT OĞLU İT

Oğlaqla quzu çəməndə otlayırdı. Bir küçük də onların yanında sümsünürdü. Bir az kənarda isə uşaqlar oynayırdılar. Birdən necə oldusa, uşaqların sözü çəp gəldi. Bir oğlan hirslənib o birisinə dedi:

– İt oğlu it!

Bu sözdən sonra bir həngamə qopdu ki, gəl görəsən…
Küçük təəccübləndi:

– Bilmirəm heç bu uşaqlar niyə dalaşırlar? Mənə it oğlu it desələr, çox sevinərəm. Bunlar isə bu gözəl sözü eşidən kimi bir-birlərini yumruqlayırlar…

Oğlaq mələdi, quzu da ona qoşuldu. Onlar dedilər:

– Ay küçük, yadında saxla ki, adam oğlu adama it oğlu it demək olmaz!

**21.06.2015**

## QARIŞQALARIN SÖHBƏTİ

Yerin altında nərə çəkə-çəkə o başa, bu başa gedən qatarlar qarışqaların yuxusunu, dincliyini pozmuşdu. Ancaq onlar insanları o başa, bu başa daşıyan bu sehrli nəqliyyata maraqla baxır, bir-birləri ilə söhbət eləyirdilər.

Bir ağsaqqal qarışqa soydaşlarını başına yığıb deyirdi:

– Bilmirəm bu insanların əlindən hara qaçaq? Nəhəng-nəhəng təyyarələr düzəldib lacivərd göyləri quşların, gəmilər, sualtı qayıqlar düzəldib dənizləri, okeanları balıqların, metro tikib yeraltı dünyanı bizim əlimizdən aldılar… Ancaq onlar çox da öyünməsinlər, uçmağı quşlardan, üzməyi balıqlardan, yerin altında lağım atıb qatara düzülməyi isə bizdən öyrəniblər…

Dünyagörmüş qarışqa haqlı idi. Doğrudan da, insanı təbiətin hakiminə çevirən onun düşüncəsi, zəhməti, yorulmaq bilmədən təbiətin sirlərini öyrənmək, ondan bəhrələnmək həvəsi idi…

**04.04.2016**

## BULUD QOÇLAR, GÜNƏŞ NƏNƏNİN SUSƏPƏNİ VƏ ÇİÇƏKLİ KÖRPÜ

Günəş gülümsəyir, dağların qoynundakı göl isə nazlı-nazlı cilvələnirdi. Günorta üstü günün istisi artdı. Otlar, çiçəklər əziyyət çəkməyə başladılar. Onlar öz dillərində gileyləndilər:

– Belə də isti olar? Elə bil heç Günəş ananın bizə rəhmi gəlmir. İstisi bizim ləçəklərimizi qarsır. Ayağımız da yoxdu ki, qaçıb meşəyə girək, ağacların dibində kölgələnək.

O biri çiçək də ah çəkdi:

– Hə, düz deyirsən. Belə getsə, günəşin şəfəqləri dibimizdəki nəmi qurudacaq. Onda biz neyləyəcəyik?

– Gölün nə vecinədi?! Görmürsən nə abırsız-abırsız cilvələnir?! Biz burda istidən nəfəs ala bilmirik, o isə Günəşin üzünə gülümsəyir…

Günəş ana isə elə bil heç bu giley-güzarı eşitmir, bir az da artıq yandırıb-yaxırdı…

Günün istisi o qədər çoxaldı ki, göldəki su zərrəcikləri onun şəfəq saçaqlarından tutub göyə qalxmaq istədilər…

Damlalar öz arzularına çatdılar. Onlar buxarlanıb göyə qalxdılar… Qalxdılar, qalxdılar, təklikdən qorxub, göydə birləşdilər və buluda çevrildilər…

– Oy, bulud olub göydən yerə baxmaq nə gözəl imiş!

– Oy, gör biz harda yaşayırmışıq.

– Bizim göl anamıza baxıb güzgülənən yamaclar, dağlar, meşələr, ağaclar, kollar nə gözəl imiş… Hələ heç çiçəkləri demirəm…

Damlalar buludun içində qaçdı-tutdu oynamağa başladılar. Bir də gördülər ki, qonşu gölün damlalarından yaranan qara, bədheybət bir bulud onlara sarı uçur. Külək buludu qabağına qatıb gətirdikcə, o, göydə qəribə bir görkəmə düşdü. Damlalardan biri qışqırdı:

– Oy, ora baxın, ora baxın!

– Nə olub axı?

– Görmürsünüz, o tərəfdən gələn bulud qara bir qoç kimi bizim üstümüzə şığıyır?

Damlaların sahibi olan bulud onlara toxtaqlıq verdi:

– Qorxmayın, indi mən də qoç görkəmi alıb onların qarşısını alaram.

Külək sürətləndi. Bir-birinə sarı uçan iki bulud qoç kəllə-kəlləyə gəldi… Göy guruldadı. Qığılcımlar od saçdı… Bulud qoçların gözündən yaş axıb yerə səpələndi… Bir yağış yağdı ki, gəl-görəsən!

Damlaların yerə düşdüyünü görən güllər, çiçəklər, saralmış çöl-çəmən sevindi…

Buludlar Günəş ananın əlində nəhəng susəpənə bənzəyirdi. O, gülümsəyə-gülümsəyə göllərdən götürdüyü damlaları düzlərə, çəmənlərə səpirdi… Susamış güllər-çiçəklər ləzzətlə, qurtum-qurtum su içirdilər… Günəşin təbəssümü indi onlara elə gözəl, elə gözəl görünürdü ki…

Birdən çiçəklərin birinin gözü göyqurşağına sataşdı:

– Oy, ora baxın, ora baxın! Bayaq göldən damlaları götürüb bulud susəpən yaradan, bizi onunla suvaran Günəş ana indi də göylə yer arasında çiçəkli bir körpü salıb…

**27.01.2017**

## QIŞ NƏNƏ VƏ ONUN OĞULLARI

Biri var idi, biri yox idi, bir Qış nənə var idi. Bu qış nənənin üç oğlu gəlmişdi dünyaya. Böyük oğluna Böyük Çillə, kiçik oğluna Kiçik çillə, sonbeşiyinə isə Boz ay adı vermişdi insanlar.

Qış təbiətə rahatca gəlmək, soyuğu, şaxtanı, çovğunu sevməyən təbiətdən, canlılardan, insanlardan intiqam almaq, onlara daha çox sıxıntı vermək üçün məqam axtarır. Bunun üçün ən münasib vaxt isə ilin ən uzun gecəsidir. Bu gecəyə el arasında Şəbi-yelda da deyirlər, çillə gecəsi də…

Qış ona görə payızı ilin ən uzun gecəsində hakmiyyət taxtından uzaqlaşdırıb yerinə keçmək istəyir ki, üfüqdə gec görünən, istiliyi nisbətən azalan Günəş ona mane ola bilməsin… Həmin gecə, yəni çillə gecəsi Qış nənə öz övladlarını da götürüb gəlir canlıların, insanların yanına…

Çillə məşəqqət, üzüntü, sıxıntı, çətinlik anlamına gələn sözdür. Çillənin sınağından çıxan canlılara zaval yoxdur… Hərə donmamaq üçün bir vasitə, yol axtarır… Ağaclar yarpaqlarını töküb, qış yuxusuna gedirlər. Otların, çiçəklərin kökü torpağın altında gizlənir… Canlılar öz yuvalarına,

mağaralarına çəkilirlər. Bəziləri qış yuxusuna gedir… Quşların bəzisi isti ölklərə köçür, bəziləri isə orda-burda daldalanır…

Soyuqla, qarla, çovğunla, çillələrin sınağı ilə üzləşən, yaşamaq uğrunda mübarizə aparan canlıların ən alisi insanlardır. Onlar mübarizə apara-apara dünyanın ən ali varlığına çevriliblər.

İnsanlar əvvəlcə soyuqdan qorunmaq üçün mağaralara, kahalara sığınıblar, təbiətdən od almaqla ocaq qalamaq, soyuqdan qorunmaq yollarını öyrəniblər. Ehtiyac geyimlərin yaranmasına, evlərin tikilməsinə, elektrik enerjisinin, digər yanacaq növlərinin istehsalına  səbəb olub…

Özlərinə ev tikən insanlar heyvanları üçün tövlə, quşları üçün hin düzəltmək qayğısına da qalıblar…

Müasir insan üçün soyuğun, qarın, şaxtanın, çovğunun heç bir qorxusu yoxdur. Ancaq bu mübarizə hər il davam edir. Qış hər il canlıları sınağa çəkir, onlara əzab-əziyyət verməkdən zövq alır…

Qış qışlığını sübut eləmək üçün birinci öz böyük oğlu Böyük Çilləni döyüşə göndərir… Qırx gün, qırx gecə hakimiyyətdə olan Böyük Çillə çovğunu, qarı, sazağı başına toplayıb, gücü gəldikcə canlılara daha çox əzab verməyə çalışır.

Qırx gündən sonra onu daha amansız, daha sərt Kiçik Çillə əvəz eləyir… “Kiçik Çillənin soyuğu, təndirə təpər toyuğu” ifadəsi də elə belə yaranmayıb… Fevral ayının ilk iki ongünlüyündə hakimiyyətdə olan Kiçik Çillə nə qədər amansız olsa da, ömrü uzun deyil… Cəmi iyirmi gün, iyirmi gecə…

Sərtliklə, şaxta ilə bir şeyə nail olmayan Qış nənə bu dəfə insanların zəhləsini tökmək, onları bezdirmək qərarına gəlir. Ona görə də sonbeşiyi Boz Aya meydan verir. Boz ay gələndə soyuq, çən, çisgin, duman canlıların hövsələsini daraldır… Boz ayın hakimiyyəti isə 30 gün davam eləyir…

Martın iyirmi birində gecə ilə gündüzün bərabərləşdiyini, günlərin indən belə uzanacağını görən Qış nənə öz övladlarını da götürüb qaçır…

Beləliklə də təbiətə yaz gəlir… Boz dünya yaşıl rəngə boyanır… Həyat yenə öz axarı ilə davam eləyir…

Qış da, onun övladları da hər il gəlir, hər il gedirlər… Bu, təbiətin qanunudur. Qış insanlara, canlılara əziyyət versə də, onun pisliyindən çox yaxşılığı keçir… Çünki Qış nənə təbiəti yaza hazırlayır…

**02.02.2017**

## AĞAC, SAĞSAĞAN VƏ KORONAVİRUSUN NAĞILI

Havada, torpaqda yazın nəfəsi duyulan kimi qış uzunu mürgüyə gedən ağaclar yavaş-yavaş yuxudan oyanmağa başladılar. Zoğlar ana torpağın sinəsindən şirə sorub dirçəldi. Ota, bitkiyə, ağaca, kola qida kimi vacib olan bu sehrli maye gövdənin içi ilə yavaş-yavaş budaqlara qalxdı. Elə bil yuxarıdan kimsə onları səsləyir, gəl-gəl deyirdi.

Günəş şəfəq əllərini uzadıb, budaqları göyə qaldırmağa kömək elədi... Ağaclar qorxa-qorxa çiçək gözlərini açdılar, yarpaq qulaqlarını şəklədilər. Quşlar oxuyurdu... Adamların isə nə özləri görünür, nə də səsləri gəlirdi...

Ağaclardan biri dil açıb budağında yuva quran quşdan soruşdu:

– Elə bil mən qərib bir ölkədəyəm. Sən bilərsən, niyə çiçək gözlərimə adamlar görünmür? Niyə yarpaq qulaqlarım insan səsi eşitmir?

Sağsağan ağaca xoşgəldin nəğməsi oxudu:

Durdun qış yuxusundan,
Sevinəsən sən gərək,
Mənim sevimli dostum,
Təzə yazın mübarək!

Bu xəbərçi quşun nəğməsi ağaca xoş gəldi. Ancaq o, nəğməyə nəğmə ilə cavab vermək hayında deyildi. Ona görə çiçək gözlərini ətrafa gəzdirib, baxdı, baxdı, nəyisə xatırlamağa başladı. Birdən həyəcana gəldi. Sağsağandan xeyir xəbər almaq ümidi ilə onu dilə tutmağa, əzizləməyə başladı:

Qəribə görünməsin,
Sənə mənim sözlərim.
Deyəsən yaxşı görmür,
Mənim çiçək gözlərim.

Narahatam yamanca,
Bəlkə onlar kor olub?
Yarpaq qulaqlarım da,
Elə bil ki, kar olub.

Sağsağan ağaca təskinlik verdi. Ona dedi ki, narahat olma, ola bilsin ki, qış yuxusundan təzəcə oyanmısan. Ona görə də gözlərin alacalanıb, qulaqların uğuldayır.

Ağac onun sözünü kəsdi.

–Yox-yox, belə deyil. Hər yeri aydın, apaydın görürəm. Qulaqlarım da pis eşitmir. Məsələ ondadı ki, həmişə səs-küylü olan bu xiyabanda indi qu desən qulaq tutulur. Nə insanların özlərini görürəm, nə də onların şaqraq gülüş səslərini eşidirəm. Elə bil adamlar harasa köçüb gediblər.

Sağsağan ağacı indi başa düşdü... Dimdiklərini bir-birinə vurub şaqqıldatdı...

Ağac təəccübləndi:

– Niyə belə eləyirsən?

– Gülürəm da!

– Belə də gülmək olar? Özü də mən gülməli nə dedim ki?

Saxsağan yenə də dimdiklərini şaqqıldada-şaqqıldada oxumağa başladı:

Ay dünyadan bixəbər,
Məndə xəbər var, xəbər...
Şəhərə virus gəlib,
Nə qədər adam ölüb...
Bu dəhşəti görüblər,
Qaçıb evə giriblər...

Ağac budağını yelləyib sağsağanın başına bir qapaz endirdi.

– Sus! Hamı səni xeyir xəbər carçısı adlandırır. Sən isə mənə bəd xəbər verirsən. Heç utanmırsan! Bapbalaca virus nədi ki, dünyaya meydan oxuyan adamlar ondan qorxalar?

Sağsağan hirsləndi:

– Niyə başıma vurursan? Elə hər yerdə belədi. Kim doğru danışırsa, başından qapaz əskik olmur...

Budaq bir az yumşaldı. Sağsağanın könlünü alıb, ondan təzə xəbər çəkmək istədi:

– Yaxşı, xətrinə dəyməsin. Məni başa sal görüm nə olub? Bu adamlar niyə gözə görünmür?

– Ona görə ki, karantindi...

– Nə? Karantin nədi?

– Karantin qadağadı da... Hamı küçədə olanda adamların bir-birini yoluxdurmaq ehtimalı çoxalır. Elə buna görə də təhlükəli xəstəliyin qarşısını almaq üçün hamı öz evində oturub...

Ağac təəccübləndi:

– Anlamadım doğrusu. Bəs dəcəl uşaqlar niyə gözə dəymir? Yaxınlıqdakı məktəbin də həyəti bomboşdu...

– Hə, deməli bundan da xəbərin yoxdu... Dünyanın hər yerində məktəbləri bağlayıblar uşaqları xəstlikdən qorumaq üçün...

– Nə danışırsan, heç məktəbləri də bağlanaq olarmı? Axı uşaqlar oxumalı, öyrənməlidilər! Onlar oxumasalar cahil kimi böyüyərlər... Küçəyə zibil atarlar, ağacları sındırarlar, yuvaları dağıdarlar...

– Hə, burda səninlə razıyam... Ancaq...

– İnsanlar hər dərdin əlacını tapırlar. Onlar çox viruslar yola salıblar: Donuz qripi, quş qripi, ebola... Bəs bu nə virusdu belə?

– Adına koronavirus deyirlər. Çox sürətlə yaylır...

Sonra ağacın qorxduğunu görən sağsağan qanadlarını çırpa-çırpa məzələndi:

– Xəbərin var xəbərdən,
Koronavirus gəlib.

Ağac qorxa-qorxa dedi:

– Bizi də yoluxdurar
Birdən o dəyyus gəlib.

Sağsağan şaqqanaq çəkib güldü.

– Qorxma, o virus insanlar üçün qorxuludu, bizim üçün yox...

– Necə qorxmayım. İnsansız dünya kimə və nəyə lazımdı axı?

– Elə olmağına elədi. Ancaq insanlar öz günahlarının əzabını çəkirlər.

– Daha bundan artıq neyləyəcəklər ki? Bütün viruslar natəmizlıkdən yaranır. İnsanlar axır zamanlar təbiəti çox çirkləndiriblər. Bir yandan zavodların, maşınların tüstüsü, bir yandan barıt qoxusu, ac-yalavac, evsiz-eşiksiz insanlar...

– Hə, bir-birinə qənim kəsilən insanları Allah cəzalandırır deyəsən...

– Axı bu necə virusdu? Niyə ona koronavirus deyirlər?

– Korona tac deməkdi. Bu virus da taclı olduğuna görə ona koronavirus deyirlər.

– Hə, anladım. Bəs bu virus harda yaranıb, necə yaranıb?

– Nə bilim Vallah... Hərə bir söz deyir... Fakt odur ki, ilk dəfə Ufan şəhərində at oynadıb bu virus...

– Ufan? Birinci dəfədi eşidirəm bu şəhərin adını...

– Bu şəhər Çindədi. Özü də böyük şəhərdi. Əhalisinin sayı on milyondan çoxdur, – deyirlər...

– Bu virusa Ufanda yaşayanlar da yoluxublar?

– Yoluxublar nə sözdü. Bu virus elə birinci ufanlıların özünə divan tutub. Nə qədər günahsız adamları özünə qurban edib...

– Sağsağan, sən dünyagörmüş bir quşsan. Deyirlər ki, hər xəstəliyin bir yaranma səbəbi var... Görəsən bu virusun ildırım sürəti ilə bütün dünyaya yayılmasının səbəbi nədir?

– Nə deyim Vallah! Hər ağızdan bir avaz gəlir... Əslində bütün günahlar elə insanların özündədi... Onlar özlərinə aid olmayan yerlərə burunlarını soxurlar. Təyyarə düzəldirlər, raket düzəldirlər, bir-birlərini öldürmək üçün tank, top düzəldirlər...

– Dayan, dayan, mənim fikrimi qarışdırma. Texnikanın insanlara köməyi az deyil axı...

– Elə olmağına elədi. Texnika o vaxt faydalıdı ki, xeyir gətirir... Bunlar isə indi soydaşlarını məhv etmək üçün böyük silahlar yox, balaca, bapbalaca viruslar düzəltməyə girişiblər.

– İnanmağım gəlmir. Bu, onların nəyinə lazımdı axı?!

– Elə bunu mən də bilmirəm. Ancaq eşitmişəm ki, bu qorxunc virusu Ufandakı labaratoriyaların birində alimlər hazırlayıblar. İlk dəfə yarasaların üstündə təcrübə aparıblar. Sonra o yoluxdurulmuş yarasalardan biri necə olubsa, uçub bu cəhənnəm ocağından yaxasını qurtara bilib... Ancaq onu ac-yalavac bir kasıb tutub yeyib... Sonra bazarda işləyən dostlarını yoluxdurub... Sonra da bütün dünyaya yayılıb bu qorxunc virus...

– Yox-yox, bu ola bilməz. Virus quşdu ki, uçub dünyanın bu başından o başına gedə?

– İndi yer üzü çox kiçilib. Dünyanın çox ölkəsinin bir-biri ilə əlaqəsi var. Bir virusa yoluxmuş insan təyyarəyə minib o biri ölkəyə uçur... O, ciyərində, nəfəsində o biri ölkəyə də virus aparır...

Ağac üşəndi... Bütün yarpaqları, budaqları titrədi:

– Ay aman, sən nə danışırsan... Ömrümdə ilk dəfədi ki, yazı belə bəd xəbərlə qarşılayıram...

Sağsağan ona təskinlik verdi:

– Qorxma, hər şey yaxşı olacaq... İnsanlar səbirli olsalar, əllərini sabunla təmiz yusalar, bir-birlərindən uzaq gəzsələr, koronavirus da öz qoşununu çəkib yer üzündən gedəcək... Yenidən məktəblər açılacaq, yenidən uşaqların şən səsləri eşidiləcək...

Ağac bir az dirçəldi:

– Xeyir xəbər olasan, ay sağsağan! Xeyir xəbərlər sənə çox yaraşır...

Elə bu vaxt radio səsləndi. Uşaqlar mahnı oxuyurdular:

Bütün insanlar üçün
Yer kürəsi vətəndi...
Onun havası, suyu
Hamımıza yetəndi...

Ehtiyac yox davaya,
Döyüşə, qalmaqala!
İnsan gərək həmişə
Özcə evində qala.

İnsan olduğu üçün
Gərək insan sevinə.
Heç zaman göz dikməyə,
Özgəsinin evinə.

İnsan bir iş görməmiş
Gərək yaxşı düşünə.

Mənəm-mənəm söyləib,
O, döyməyə döşünə.

Silahları yandırıb,
Şükür edə Tanrıya,
Heç zaman qarışmaya
Yaradanın işinə...

Elə bu vaxt bahar yelləri əsdi... Ağac arxayın-arxayın yırğalandı. Sağsağan yuvasını tamamlamağa tələsdi... Çayların şırıltısı, quşların pırıltısı eşidildi... Çiçəklər açıldı, kəpənəklər, arılar uçuşdu...

Bitdi, narahatçılıq bitdi... İnsanları bir-birinə mehriban görən koranavirus öz qoşununu çəkib dünyadan ilim-ilim itdi...

**10.10.2020**

## KİM NƏ ELƏYİR ÖZÜNƏ ELƏYİR

Rəvayət

Kasıb bir kişi var imiş. O, həmişə öz-özünə deyinərmiş:

– Kim nə eləyir, özünə eləyir!

Bir gün şah gəzintiyə çıxanda həmin kişinin sözünü eşidib, düşüncələrə dalır. Söz o qədər onun xoşuna gəlir ki, kişiyə bir qızıl verib deyir:

– Hər gün mən gəzintiyə çıxanda yaxınlaşıb o hikmətli cümləni söylə! Əvəzində hər dəfə sənə bir qızıl bağışlayacağam.

“Dama-dama göl olar”, – deyirlər. Günlər bir-birini əvəz etdikcə, qızılların sayı artır, kasıb kişi gündən-günə varlanmağa başlayır.

İçindən qırıla-qırıla qalan vəzirin hər gün heç nədən bir qızıl qazanan kəndliyə paxıllığı tutur. Çox düşünüb-daşınandan sonra həmin adamı yanına çağırtdırıb, ona qonaqlıq

verir. Şahın sarımsaqdan zəhləsi getdiyini bildiyi üçün vəzir xörəyə çoxlu sarımsaq vurdurur.

Növbəti dəfə kasıb kişi şaha yaxınlaşıb "Kim nə eləyir, özünə eləyir!" kəlamını söyləyəndə hökmdar sarımsaq qoxusu hiss edir. Özünü ələ alıb, bu dəfə kişiyə iki qızıl verir. Bir məktub yazıb tapşırır ki, bunu apar filan yerdə filankəsə ver. Məktubu oxuyan kimi o adam səni mükafatlandıracaq.

Kişi sevinə-sevinə yola düşür. Yolda vəzir onun qabağını kəsib, hara getdiyini soruşanda bəxti gətirən kasıb başına gələnləri danışır.

Vəzir kişini dilə tutub məktubu ondan alır. Aparıb həmin adama verir ki, mükafatı özü alsın.

Məktubu oxuyan cəllad tez qılıncını çəkib, vəziri iki şaqqa eləyir.

Sən demə şah məktubda yazıbmış: "Bu məktubu sənə gətirəni iki şaqqa elə!"

Səhərisi gün şah vəzirin başına gələnləri eşidib, pərişan olur. Kasıb kişini çağırıb, ondan məsələnin nə yerdə olduğunu soruşur.

Kişi başına gələnləri şaha danışıb, sözünü yenə də həmin cümlə ilə bitirir:

– Kim nə eləyir, özünə eləyir!

Şah kasıbın cavabından çox razı qalır və ona çoxlu qızıl bağışlayır.

## ELM VƏ HELM

Cavan bir oğlanı bir müdrik insanın yanına aparırlar ki, ondan elm öyrənsin.

Günlər-aylar bir-birini əvəz elədikcə oğlan öz müəllimindən çox şey öyrənir. Ustad da öz şagirdindən razı qalır.

Bir gün oğlan müəllimindən soruşur ki, mən bu biliklə kəndimə qayıdıb işləyə bilərəmmi?

Müəllim gülümsünüb deyir:

– Oğul, elminə sözüm yoxdu, ancaq gərək bir il də yanımda qalıb helm öyrənəsən.

Oğlan soruşur:

– Ustad, elmlə kifayətlənmək olmazmı?

– Olmağına olar, oğul, ancaq sözünün yerini bilməyəndə – helm sahibi olmayanda bəzən elm də insanın köməyinə gəlmir…

Evlərinə tələsən oğlan bir il artıq qalmaq istəmir. Müəllimindən icazə alıb kəndlərinə qayıdır.

Oğlan kəndə çatanda görür ki, bir molla camaatı başına yığıb cəfəng-cəfəng sözlər danışır.

Öz elminə güvənən gənc üzünü adamlara tutub deyir:

– Ay camaat, bu mollanın elmdən xəbəri yoxdur, ağzına gələn boş-boş sözlərlə sizi aldadır.

Qəzəblənən molla üzünü adamlara tutub deyir ki, bu kafirin dərsini verməsəniz, ağlı başına gəlməyəcək.

Əsib-coşan avamlar oğlana hücum çəkib, onu o ki var döyürlər. Bir təhər öz canını qurtaran gənc yenidən öz müəlliminin yanına qayıdıb başına gələnləri danışır.

Müəllim gülümsünüb deyir:

– Ay oğul, sənin dediyin sözlər elmi cəhətdən düzdür. Ancaq eyni zamanda helm sahibi olsaydın, bilərdin ki, o savadsız camaatın yanında bu cur danışmaq olmaz.

Beləliklə, oğlan bir il də ustadının yanında qalıb helmin sirlərini öyrənir və yenidən kəndlərinə qayıdır. Yenə də görür ki, həmin savadsız molla samaatı başına yığıb boş-boş şeylər danışır. Qisas hissi oğlanın ürəyini bürüyür. O, yaxına gəlib uca səslə adamlara deyir:

– Camaat, mən çox avam olmuşam. Bu mötəbər, hörmətli insanı təhqir eləmişəm. İndi başa düşürəm ki, bu molla çox bilikli bir adam imiş. Bu insan o qədər müqəddəsdir ki, kim onun saqqalından bir tük qopardıb saxlaya bilsə, böyük savab sahibi olar.

Söz oğlanın ağzından çıxan kimi, adamlar mollanın saqqalını yolmağa başlayırlar.

Beləliklə, təkcə elmlə düşmənlə basarmayan insan helmi ilə ondan intiqam almağa nail olur…

## KEÇİ

Padşahın sevimli bir keçisi var imiş. Bir gün səhər-səhər şah taxta çıxandan sonra şəhərin başbilənlərindən birini yanına çağırır, keçini ona göstərib soruşur:

– Sən bir dünyagörmüş adamsan. De görüm bu nədir?

Kişi ədəblə baş əyib söyləyir:

– Şah sağ olsun, keçidi.

Şah bərk hirslənir və cəllada əmr edir:

– Bu sarsaq düzgün cavab verə bilmədi, apar onun boynunu vur!

Cəllad heç bir şey soruşmadan əmri icra edir.

Şah başqa bir saray adamını yanına çağırıb soruşur:

– De görüm bu nədir?

Özündən əvvəlkinin aqibətini görən saray xadimi qorxa-qorxa cavab verir:

– Padşah sağ olsun, qoyundu...

Şahın yenə qəzəbi tutur. Cəllada əmr edir ki, aparıb bu avaranın da boynunu vursun.

Camaatın üstünə elə bil su ələnir. Hamının canına vic-vicə düçür. Hamı qorxur ki, əvvəl-axır onları da sorğu-sual təhlüksi gözləyir.

Şah üzünü başqa bir saray adamına tutub soruşur:

– De görüm bu nədir?

Yazıq kişi qorxa-qorxa deyir:

– Qibleyi-aləm sağ olsun, bu nə keçidi, nə qoyundu. Bu Allah-təalanın səhər-səhər bizə göndərdiyi dərd-bəladır...

Söz padşahın xoşuna gəlir. Əmr edir ki, bu kişiyə xələt versinlər...

Saray adamlarının çiynindən elə bil dağ götürülür...

## YAĞIŞ SUYU

Belə rəvayət edirlər ki, bir münəccim ölkənin üstünü alan təhlükə haqqında şaha məlumat verir. Deyir ki, bir neçə gündən sonra elə bir yağış yağacaq ki, onun suyunu içənlərin hamısı dəli olacaq.

Şah narahat olanda vəzir onu sakitləşdirir. Deyir ki, bizim ehtiyat suyumuz var, yağış suyundan yox, ondan içərik.

Deyilən gün, doğrudan da, yağış yağır. Sudan korluq çəkən camaat yağış suyundan acgözlüklə içir. Hamı dəli olur. Təkcə şah və onun yaxın adamları ehtiyat sudan içdikləri üçün bu bəladan xilas olurlar. Lakin dəlilər ağıllılara elə bir toy tuturlar ki, padşahın az qalır ki, ürəyi partlasın. O, başbilənlərdən təcili tədbir görməyi tələb edir. Vəzir deyir ki, şahım, ağıllı adamların dəlilər arasında yaşaması fəlakət imiş. Lakin heç ürəyinizi sıxmayın. Hər ehtimala qarşı işimi ehtiyatlı tutmuşam, yağış suyundan bir qədər qaba yığıb ehtiyat saxlamışam. Onu içib dəli olmaqdan başqa çarə yoxdur.

Şah və onun adamları yağış suyundan acgözlüklə içib dəli olurlar. Bundan sonra onların işi qaydasına düşür və xoşbəxt həyat yenidən öz axarına düşür…

## ZİYARƏT

Zəvvarlar mehmanxanada yatanda biri yuxusunda görür ki, iki göyərçin bir-biri ilə danışır. Göyərçinlərdən biri o birindən soruşur ki, bacılı, bacılı, bu il ziyarətə nə qədər adam gəlmişdi?

– Beş milyon. Ancaq onların heç birinin ziyarəti qəbul olunmayıb. Təkcə bir pinəçinin ziyarəti qəbul edilib.

Zəvvar yuxudan qalxır və ziyarətdən sonra gedib həmin pinəçini tapır. Məlum olur ki, pinəçi ziyarət üçün topladığı pulu acından ölən uşaqlara veribmiş…

## ƏRİŞTƏ

Bir çoban həmişə padşahı görəndə ondan soruşarmış:

– Qibleyi-aləm, heç “daban döyməsi”, “çörək qızartması” yemisiniz?

Padşah yox deyəndə, çoban təəssüflənərmiş:

- Şah sağ olsun, ta deyin ki, dadlı heç nə yeməmisiniz.

Bir gün çoban  şahı evinə qonaq dəvət edir. Şah fikirləşir ki, gedim görüm bu “daban döyməsi”, “çörək qızartması” nə olan şeydi ki, çoban onu bu qədər tərifləyir?

Şah çobanın daxmasına girəndə çoban qışqırıb arvadını çağırır:

– Arvad, hörmətli qonağımız gəlib, bir “daban döyməsi”, “çörək qızartması” hazırla.

Çobanın arvadı bir baş soğanı götürüb torpaq döşəmənin üstünə atır. Kirli dabanı ilə onu əzib, stolun üstünə qoyur. Sonra bir quru yuxanı da gətirib padşaha verir:

– Ye, qibleyi-aləm!

Padşah çox pərt olur. Dinməz-söyləməz durub saraya gedir. Yol boyu deyir ki, ay qanmaz çoban, gör indi sənin başına nə oyun açacam?!

Şah əmr edir ki, bir qoca camış kəssinlər. Onun dərisindən köşə çəkdirib, suyun içinə töksünlər.

Şah adam göndərib çobanı çağırtdırır və deyir ki, sənə yaxşı bir əriştə qonaqlığı verəcəyəm.

Şah bir qazan "əriştə"ni – camış gönünün alaçiy köşəsini çobana içirdir.

Aradan bir müddət keçir. Çoban şahın yadından çıxır. Bir gün o, bazarı gəzərkən gözləri quyuya düşmüş bir adam görür. Ona baxanda kiməsə oxşadır. Ona görə bu adamdan kimliyini soruşur. Biçarə kişi yazıq-yazıq deyir ki, şah sağ olsun, tanımadın, çobanam da!

Şah təəccüblənir:

– Ay çoban, bu nə sir-sifətdi düşmüsən?!

Çoban məzlum-məzlum cavab verir:

– Qibleyi-aləm sağ olsun! O ki mənə əriştə vermişdin e, bayıra gedirəm, gedirəm, qurtarmır ki, qurtarmır…

## DƏLLAL

Bir nəfər araq içib küçədə gəzir və deyirmiş:

– Mən bu şəhəri satıram.

Söz şəhərin böyüyünə çatır. Əmr edir ki, başından yekə qələt eləyən həmin əyyaşı yerin deşiyində də olsa, tapıb gətirsinlər.

Həmin adamı o saat tapıb gətirirlər. Şəhər rəhbəri hirsli-hirsli ondan soruşur:

– Ay yekəbaş, bu şəhər sənindi ki, onu satasan?

Əyyaş cibindəki araq butulkasını çıxarıb göstərir və deyir:

– Əlahəzrət, mən nə karəyəm ki, şəhər satam. Alan da bu araq şüşəsi idi, satan da. Mən sadəcə dəllallıq eləyirdim...

# OKEANIN O TAYINDA

## (Amerikada yazılan hekayələr və nağıllar)

## FATEHİN MƏKTUBU

Nənəyə dedilər ki, bəs Fateh sənə məktub yazıb. Nənə təəccübləndi.

– Fateh heç hərfləri tanıyır ki, məktub da yaza!

– İnanmırsan, al bax! – Gursel sənədlərinin arasından bir vərəq kağız çıxarıb nənəsinə verdi.

Nənə kağızı açanda təəccübləndi. Kağızın üstündə bir əl şəkli var idi. Eynən Fatehin əli boyda. Bu çoxbilmiş əlini kağızın üstünə qoyub onun sərhədləri boyu karandaşla dövrələmə cızıq çəkmiş, sonra öz əlinin şəklini rəngləyib nənəyə göndərmişdi. Üstəlik sifariş də eləmişdi ki, bax nənə bu şəkildəki əlin ölçüsündə mənə əlcək toxusun!

Nənə sevindi. Elə bil ki, bütün yorğunluğu yadından çıxdı. Nəvəsinin məktubuna cavab yazmağa başladı. Onun əlindəki millər sehrli qələmi xatırladırdı. Ancaq nənə o millərlə məktub yazmır, Fatehin əlinin ölçüsündə əlcək, qəşəng bir əlcək toxuyurdu…

**15.01.2012**

## BABACANIN BAĞI

Fatimə ilə Fateh valideynləri ilə birlikdə Amerikaya getməli idilər. Hava limanında onları babaları, nənələri, əmi və dayısı yola saldılar.

Təyyarə uçdu, uçdu, uçdu, nəhayət, Amerikaya çatdı. Onlar taksi ilə Santa Monikaya getdilər.

Bu kiçik kurort şəhərindəki həyət evinə gedəndə balaca Fatimə dedi:

– Ay ata, deyirdin Santa Monikaya gedirik, sən isə bizi Babacanın bağına gətirmisən…

**2013**

## FATEHİN RƏSMLƏRİ

Santa Monika gözəl şəhərdi. Təmiz, səliqəli. Burada yaraşıqlı parklar, xiyabanlar var. Hələ üstəlik düz Sakit okeanın sahilində salınıb bu şəhər. Okean da gözəldi, şəhər də… Ancaq elə bil ki, burada nəsə çatışmır…

Fateh məhz o çatışmayan şeylərin rəsmini çəkməyə çalışır. Onun rəsm albomunun hər səhifəsini Bakıdakı evlərinin, havada dalğalanan üçrəngli Azərbaycan bayrağının şəkilləri bəzəyir…

**2013**

## FATEHİN İNŞASI

Fateh Amerikada birinci sinfə gedir. Vətəni Azərbaycan, nənələri, babaları, doğmaları, əzizləri üçün çox darıxsa da, o, dərslərini yaxşı oxumağa çalışır. İngilis dilini hələ yaxşı bilməsə də, fikrini izah eləməyi bacarır.

Bir dəfə yoxlama üçün verilən testlərin nəticələrinə görə 23 uşaq arasında dördüncü nəticə göstərməsi müəllimini heyrətləndirmişdi. Başqa bir vaxt ağacdələnin adını ingilis dilində yalnız və yalnız Fateh deyə bilmişdi. Elə buna görə də müəllimi onun xətrini çox istəyirdi.

Bir gün müəllim uşaqlara tapşırdı ki, kiçik bir inşa yazsınlar. Fatehin inşası onu kövrəltdi. Ona görə ki, bu balaca oğlanın yazısı bütün uşaqların inşasından fərqlənirdi.

Fateh yazmışdı ki, başqa ölkəyə köçmək heç də yaxşı iş deyil. Başqa ölkədə adam özünü tənha hiss edir, vətən üçün, nənə-baba üçün darıxır…

# ULDUZLAR

Amerikada birinci sinif uşaqlarına qiymət verilmir. Əvəzində onları həvəsləndirmək üçün müəllim uşaqlara ulduzlar bağışlayır. Uşaqlar isə o ulduzları verib, istədikləri oyuncaqları alır, evlərinə aparırlar.

Fateh sinifdə ən çox ulduz alan uşaqlardandır. O, yaxşı davranışı, dərs oxuması üçün çoxlu sayda ulduzlarla mükafatlandırılıb. Digər uşaqlar kimi Fateh də aldığı ulduzların sayı qədər oyuncaq seçmək hüququna malikdir. İndi Fatehgilin qaldığı evdə çoxlu oyuncaq var. Özü də Fateh bu oyuncaqların çoxunu bacısı Fatiməyə bağışlayır…

Fatehin ən çox sevdiyi oyuncaq zebr idi. Nədənsə uşaq yatanda da o oyuncaq zebrlə yatmağı xoşlayırdı. Ancaq məktəbə gedəndə sevimli oyuncağını çarpayısının üstünə qoyub gedirdi.

Bir gün anası gördü ki, Fateh məktəbə gedəndə həmin zebri də çantasına qoydu. Təəccüblə soruşdu ki, axı sən zebri heç vaxt məktəbə aparmırdın, indi nə əcəb onu da özünlə götürürsən?

Fateh özünü saxlaya bilməyib ağladı. Dedi ki, müəllim tapşırıb ki, evdəki oyuncaqlarınızdan gətirin aparıb kimsəsiz uşaqlara verək. Mən də ona görə bu zebrimi aparıram. Ancaq doğrusu heç onu vermək istəmirəm.

Anası dedi ki, vermək istəmirsən vermə. Fateh təəccübləndi:

– Necə verməyim? Axı o uşaqların oyuncağı yoxdu…

– Oğlum, onda sevimli zebrini yox, həmin uşaqlara vermək üçün evdəki başqa oyuncaqlarını apar.

Fateh sevindi. Zebri çıxarıb yenə də əvvəlki kimi çarpayısının üstünə qoydu. O biri oyuncaqlarının bir neçəsini isə götürüb sevinə-sevinə məktəbə apardı… Yol boyu düşündü ki, çoxlu-çoxlu ulduz qazanacam və onları oyuncağa dəyişib bütün kimsəsiz uşaqlara hədiyyə edəcəm…

**2013**

## FATEHİN TƏBRİKİ

Fatehin ata-anası Amerikadan Azərbaycana bağlama göndərəndə bu balaca oğlan öyrəndi ki, bu yaxın günlərdə Rafiq babanın ad günü olacaq. O da babasını təbrik etmək üçün bir rəsm çəkdi. Həmişə olduğu kimi günəş, Azərbaycanın bayrağı, öz şəkli və göydə uçan bir quş rəsmi.

Bu quş rəsmi Fatehin çəkdiyi şəklin yeni elementi idi. Bu quş Azərbaycanın bayrağına sarı uçur, bir balaca oğlan isə onun arxasınca baxırdı. Bu oğlan elə Fatehin özü idi. O, çəkdiyi quş rəsminin qanadında yazmışdı ki, baba, ad günün mübarək…

Quş havada uçur, Fateh isə həsrətlə onun arxasınca baxır, xəyalən bu quşa qoşulub Azərbaycana uçmaq, babasını təbrik etmək istəyirdi…

**28.12.2013**

## KÖÇ

Fateh ilə Fatimə evdə çox dəcəllik eləyirdilər. Anası onların üstünə acıqlanıb dedi:

– Bu qədər atılıb-düşməyin, yoxsa bizi burdan köçürərlər.

Fateh doluxsundu:

– Ay ana, köçürsələr yaxşıdı, qayıdıb Bakıya, öz evimizə gedərdik…

**29.12.2013**

## VƏTƏN ƏTRİ

Novruz baba Amerikaya bağlama göndərmişdi. Fatimə ilə Fatehin atası gedib poçtdan o bağlamanı alıb gətirdilər. Uşaqlar səbirsizliklə bağlamanın açılmasını gözləyirdilər. Və nəhayət, bağlama açıldı. Bağlamanın bir küncünə qoyulmuş kəkotunun ətri ətrafa yayılanda balaca Fatimə dedi:

– Ata, Bakının iyi gəlir…

**29.12.2013**

## FATEH

Fateh balaca vaxtı əl çalıb gülümsəyəndə ondan bir az böyük olan bibisi qızı Sara demişdi:

– Baba, Fatehə bax, elə bil meymundu.

Baba isə ona belə cavab vermişdi:

– Yox, mənim ağıllı balam, Fateh elə Fatehdi, ona heç bir ləqəb, ayama yaraşmır. Fateh fildən də, dəvədən də, şirdən də, pələngdən də güclüdür, qüdrətlidir. Onun adını ona görə Fateh qoymuşam ki, zirvələr, ölkələr, könüllər fəth eləsin!

Təbii ki, Sara o vaxt bu sözlərin mənasını başa düşməmişdi…

Aradan illər keçdi. Fatehgil atasının işi ilə əlaqədar Amerikaya köçdülər. Aradan bir neçə il keçdi.

Bir gün Sara gülə-gülə babasına dedi:

– Ay baba, sən düz deyirmişsən, Fateh Amerikanı fəth elədi. İndi o, Venis şəhərində təhsil alır. Yəqin ki, məktəbi bitirəndə böyük adam olacaq… Səsi-sorağı böyük-böyük universitetlərdən gələcək…

## KÖMƏKÇİ

Baba əlyazmalarını qaydaya salır, lazımsız kağızları cırıb atırdı. Fateh ona yaxınlaşıb dedi:

– Baba, sənə kömək eləyim?

– Nə kömək, mənim balam?

– Baba, sən tək yorularsan, kağızlardan bir az da ver mən cırım…

## MƏN DƏ NƏNƏYƏM

Balaca Fatiməni çimizdirəndən sonra başına yaylıq bağ-ladılar ki, ona soyuq olmasın. O, bir güzgüdə özünə, bir də nənəsinə baxıb gülə-gülə dedi:

– Ay nənə, sən də nənəsən, mən də nənəyəm!

## GET BABANI ÇAĞIR

Balaca Fatiməyə dedilər ki, get babanı çağır, gəlsin birlikdə yemək yeyək.

Fatimə babanın otağına sarı gedib geri qayıtdı və nənəsinə dedi:

– Ay nənə, qapıya qulaq verdim, baba hələ Allahü əkbər eləyir!

## AD GÜNÜ

Nənə zarafatla Fatimədən soruşdu:

– Mənim balam, sən nənəyə ad günündə nə alıb bağışlayacaqsan?

Fatimə bir az fikirləşib dedi:

– Ay nənə, mənim ad günüm sənin ad günündən qabaqdı, əvvəl sən mənə hədiyyə al, sonra baxarıq…

## KİTABXANAYA QAROVUL ÇƏKƏN KÜÇÜK

Fatehin bir balaca küçüyü var. O, kitab oxuya bilmir, ancaq kitabxanaya getməyi çox xoşlayır. Heyf ki, onu kitabxanaya buraxmırlar. Qapıda dayanıb Fatehin yolunu gözləyir. Bu balaca oğlan qoltuğunda kitablar kitabxanadan çıxanda o, çox sevinir. Hürə-hürə dostunun qarşısına gəlir.

Bir dəfə Fateh üstündə it şəkli olan bir kitab alıb gətirmişdi evə. Şəkil küçüyün çox xoşuna gəlmişdi. Elə buna görə də qəflətən kitabı ağzına alıb həyətə qaçmışdı. Yəqin ki, onu aparıb, it, küçük dostlarına göstərmək istəyirmiş bu zavallı. İstəyirmiş görsünlər ki, onlar haqqında da kitablar yazan var imiş.

Ancaq heç bir it bu kitabı oxuya bilməmişdi. Ona görə də Fatehin iti onu yenidən evə gətirmək məcburiyyətində qalmışdı.

Fateh kitabı bərkdən oxudu. İt ona diqqətlə qulaq asmağa başladı. Sözləri başa düşüb-düşmədiyini bilmirəm. Bircə onu bilirəm ki, şən-şən hürməyə, tullanıb-düşməyə başladı. Elə sevinirdi ki…

Fateh həmin kitabı kitabxanaya qaytaranda küçük bərk kədərləndi.

Deyirlər ki, o küçük indi it olub. Gecə-gündüz kitabxananın başına fırlanır. Onu içəri buraxmasalar da, it üstündə öz küçüklük şəkli olan kitabın xətrinə gecə-gündüz kitabxananı qoruyur, ona keşik çəkir…

**06.08.2015. Los Anseles**

## YER TƏMİZDİ, YA SKAMYA

Baba, nənə, Fateh və Fatimə Analar çimərliyi deyilən yerə çimməyə getmişdilər. Hava bir az buludlu və sərin idi. Fateh qumun üstündə quyu qazır, Fatimə nənəsi ilə gedib yelləncəkdə yellənir, baba isə ayaqyalın qumlu sahillərdə gəzişirdi…

Hələ adamlar gəlmədiyi üçün sakitlik idi. Körfəzin dayaz yerində bir vağ elə dayanmışdı ki, guya uyuqdu. Baba da əvvəlcə elə bildi. Yaxınlaşanda isə quşun oxa bənzəyən boynu gərildi və o, havaya uçdu. Lakin uzağa getmədi. Bir az o biri tərəfdə yerə qondu. Görünür o, dayaz yerdə balıq tutmaq istəyirdi. Sahilə yaxın yerdə adamların olmadığından

istifadə edən balıqlar qaynaşır, şənlənir, bəlkə də yem axtarırdılar…

Nəhayət, günəş səmada göründü və görünməyi ilə də ətrafı qızdırmağı bir oldu. Qum da qızdı, su da… Baba suya baş vurub üzdü. Bunu görən Fateh də onun yanına qaçdı, üzməyə başladı. Fatimə də, nənə də gəldilər. Tərtəmiz, hələ heç kəsin girmədiyi çimərlikdə çimdilər, çimdilər…

Bir az keçdi. Gün adamı yandırmağa başladı. Nənə uşaqları duşun altında çimdirdi, paltarlarını dəyişdirdi… Fateh paltarlarını yerə atdı. Baba onu danlayıb dedi ki, niyə paltarları skamyanın üstünə yox, yerə qoyursan?

Fateh güldü:

– Ay baba, yer skamyanın üstündən təmizdi. Çünki yerə təkcə ayaq dəyir, skamyanın üstündə isə gömbul adamlar suları süzülə-süzülə əyləşirlər… Yerə ayaq dəyir, skamyaya isə…

Baba gülməkdən özünü saxlaya bilmədi və Fatehi sözünü tamamlamağa qoymadı…

– Bəsdi, bəsdi…

Babanın güldüyünü görən nəvə də ona qoşulub güldü. Söhbətin nədən getdiyini bilən nənə və Fatimə də onlara qoşuldu…

**09.08.2016. Venis.**

## ƏL - ƏLƏ

Fatehlə Fatimə baba ilə nənəni şəhəri gəzməyə aparmışdılar. Onlar birlikdə Venis körpüsünə getdilər. Əslində bura körpü yox, okeanın içinə uzanan estekada idi. Günəşin bathabat vaxtı idi. Estakadanın üstündən baxanda Sakit okean da, Los Anceles şəhəri də çox gözəl görünürdü.

Baba heyranlıqla şəhərə baxıb dedi:

– Doğrudan da, Los Anceles Sakit okeana yaraşır. Böyük şəhər böyük okeanın sahillərində çox əzəmətli və gözəl görünür…

Xeyli gəzdikdən sonra evə qayıtdılar. Fateh Fatiməyə dedi:

– Bacı, yadındadı, balaca olanda nənə ilə baba bizi həyətə gəzdirməyə aparırdılar. Əlimizdən tuturdular ki, itməyək, azmayaq. İndi aradan illər-aylar keçib. Biz böyümüşük, Amerikada yaşayır, burda məktəbə gedirik. Baba ilə nənə bizim yanımıza gəliblər. Onları darıxmasınlar deyə hər gün gəzməyə aparır, şəhərin gözəl yerlərini göstəririk. İndi də biz onların əlindən tuturuq ki, tanımadıqları şəhərdə azmasınlar…

**09.08.2016. Venis**

## ŞƏKİL ÇƏKDİRMƏYƏ GƏLƏN QUŞLAR

Burdakı çimərlik çox qəribədi. Qağayılar, göyərçinlər adamdan qətiyyən çəkinmirlər. Elə sənin yanındaca gəzişirlər…

Bir dəfə okeanın sahilində gəzərkən quşlar lap yaxına gəldilər. Zarafatla dedim ki, bu quşlar nə istəyirlər e, bizdən?!

Şəklimi çəkməyə hazırlaşan Fateh zarafatıma zarafatla cavab verdi:

– Ay baba, yəqin onlar eşidiblər ki, "Göyərçin" jurnalının baş redaktoru Amerikaya gəlib. Elə ona görə də səninlə şəkil çəkdirməyə gəliblər… Görmürsən, hamısı göyərçinlərdi?! İstəyirlər ki, onların şəkillərini çəkib jurnalda çap eləyəsən, Azərbaycandakı bacı-qardaşları da görsünlər…

**10.08.2016. Venis**

## TUTUQUŞULAR

Hər səhər yuxudan quşların səsinə oyanırdım. Maraqlanırdım ki, görəsən indiyəcən eşitmədiyim bu nəğməni oxuyan hansı quşdur. Bir neçə gün o nəğməkar quşları izlədim və oxuyanın tutuquşu olduğunu görüb çox təəccüblən-

dim. Bu necə ola bilər. Biz həmişə eşitmişik, görmüşük ki, tutuquşu kimisə yamsılayır, onların öz nəğməsi yoxdu. Əslində isə belə deyilmiş…

Maraqlanıb öyrəndim ki, bu ərazidə çoxlu tutuquşu var. Dedilər ki, əvvəlcə Koliforniyada tutuquşu olmayıb. Hansı bir səyyahsa Amerikaya gələndə özü ilə çoxlu tutuquşu alıb gətirib və onları təbiətin qoynuna buraxıb. Tezliklə buraların iqliminə uyğunlaşan quşlar yuva qurub bala çıxarıblar. Beləliklə də Venisdə tutuquşuların sayı əhəmiyyətli dərəcədə çoxalıb.

Hər səhər yuxudan quşların səsinə oyanıram. Tutuquşular elə gözəl oxuyurlar ki… Adam onların nəğməsinə qulaq asanda ləzzət alır. Qəribədir ki, evlərdə yox, təbiətdə yaşayan tutuquşuların öz nəğmələri var imiş. Sən demə onlara kimisə yamsılamağı insanlar öyrədibmişlər.

Azadlıq ölkəsində azad tutuquşular kimsəni yamsılamır, öz dillərində nəğmə oxuyurlar…

**10.08.2016. Venis**

## BABANIN KÖYNƏYİNİ GEYİNƏN ŞARIN NAĞILI

Anam mənə bir top almışdı. Əslində buna top da demək olmazdı. Çünki böyüklüyünə, yüngüllüyünə görə o, topdan çox şara bənzəyirdi… İstəyirdim ki, bu allı-güllü balonumu özümlə çimərliyə aparım və oynadım… Uşaqlar görsünlər ki, mənim necə gözəl topum – şarım var…

Çimərliyə kiminlə gedəsiydik ki… Atam səhərdən axşama kimi işdə olur, evə yorğun qayıdır. Anamın isə heç ev işlərindən başı ayılmır ki, ayılmır…

Ümid baba ilə nənəyə qalmışdı. Eşitmişdik ki, keçən il olduğu kimi onlar bu ildə Amerikaya bizi ziyarət eləməyə gələcəklər. Baba dənizi çox sevir. Keçən il burda qaldığı müddətdə demək olar ki, hər gün onunla birlikdə Sakit okeanın sahillərinə gedir, ya Santa Monika, ya Venis, ya da

Marina Del Reydəki Analar çimərliyində ləzzətlə çimirdik…

Nəhayət, gözlədiyimiz gün gəlib çatdı. Atamla gedib baba ilə nənəni qarşıladıq. Elə sevinirdik ki…

Elə baba ilə nənənin bizə qonaq gəldikləri günün səhərisi çimərliyə getdik. Okean çox dalğalı idi. Bizim də sevincimizin hədi-hüdudu yox idi.…

Növbəti gün atam işləri ilə məşğul olduğu üçün bizi okeana yox, Analar çimərliyinə apardı. Bizi baba ilə nənənin yanında qoyub özü işə getdi. Burada dalğa olmur. Elə buna görə də uşaqlı valideynlər burada çimməyə daha çox üstünlük verirlər. El arasında buraya Analar çimərliyi deyilməsi də təsadüfi deyil. Şəhərin içinə uzanan bu körfəzin yalnız sahilə yaxın bir hissəsində çimməyə icazə verilir. O biri tərəflər çox dərindir. Sahil boyu gəmilər, yaxtalar, katerlər, qayıqlar lövbər salıb. Çimərlik üçün nəzərdə tutulan sahənin bir hissəsi isə xüsusi lövhələr üzərində dayanıb avar çəkənlər üçündür.

Bir tərəfdə adamlar çimir, digər tərəf də voleybol oynayırlar. Uşaqlar üçün əyləncə mərkəzi, böyüklər üçün isə yeyib-içmək, kabab bişirmək üçün xüsusi guşələr…

Bir sözlə, burada hamı üçün gözəl şərait var…

Babam yer seçdi, nənəm ora dəsmal sərdi. Paltarlarımızı soyunub üstünə yığdıq. Qum elə narın, elə təmizdi ki, onun üstündə oynamaq adama ləzzət eləyir…

Topumu çıxartdım. Bir xeyli oynadıq. Ancaq çox yüngül olduğu üçün adicə meh də onu əlimizdən alıb uzağa aparırdı. Ona görə qərara gəldik ki, sabah çimərliyə gələndə onu gətirməyək.

Topu bir kənarda qoyub özümüz qumun üstündə oynamaq istədik. Ancaq top öz yerində durmaq istəmədi ki, istəmədi. Bir də gördük ki, qoyduğumuz yerdən fırlana-fırlana yanımıza gəlir… Onu bir təhər tuta bildik. Nənəm aparıb sevimli topumu yerinə qoydu. Külək onu aparmasın

deyə babamın köynəyini də üstünə atdı. Qardaşım Fateh gülə-gülə dedi ki, Fatimə, sənin şarın babanın köynəyini əyninə geyib…

Hamımız gülüşdük… Günorta gün qızana qədər oynadıq. Sonra paltarlarımızı dəyişib, evə qayıtmağa hazırlaşdıq. Babam köynəyini geyinəndə gördük ki, top yoxdu… Nə qədər axtardıqsa topu tapa bilmədik.

Fateh gülə-gülə dedi ki, Fatimə, babanın köynəyinin altında topuna isti olub. Ona görə bizim başımız qarışanda köynəyi soyunub və Sakit okeanda üzməyə gedib…

Anam gəlib bizi maşınla evə qaytardı. Gecə yatanda yuxumda şarımı gördüm. O, mənə dedi ki, məndən ötrü darııxma, Fatimə, mən küləklərə qoşulub sənin dədə-baba yurduna, Azərbaycana getdim…

**10.08.2016. Venis**

## SƏN DƏ MƏNƏ ÇƏKMİSƏN

Atam bizə baba haqqında çox danışıb. Onun alim olmağını da, şairliyini də, müəllimliyini də, zarafatcıl, hazırcavab bir adam olduğunu da yaxşı bilirəm. Ancaq mənim diqqətimi ən çox bilirsiniz nə cəlb eləyir? Bu il düz əlli ildi ki, baba hər səhər dəniz sahilinə gedir. Ləpədöyəndə gəzir, dalğaların qoynunda çimir.

Baba üçün fərqi yoxdu, ya qış olsun, ya da yay. Payızda da, yazda da onu axtaran dəniz sahilində tapar. Bir gün də dənizdən qalmır. Hətta dənizin üzünü buz tutanda da babanın dəniz sahilinə getməsinin, üzünü buz tutan suların üstünə çıxmasının videosunu da görmüşəm.

Baba yayda o qədər günəşin altında qalır ki, rəngi qapqara olur. Nə dəniz sahilində, nə də şəhərdə onun kimi günəş şəfəqləri altında dərisi tunca dönən ikinci bir adam görə bilməzsən.

Hələ eşitmişdim ki, bir dəfə bibim qızı Sara Türkiyədə zarafatla babaya belə deyib:

– Ay baba, bu çimərlikdə səndən qara adam yoxdu…

Həmişə yayda Türkiyəyə istirahətə gedən, Egeydə, Aralıq dənizində çimən babam iki ildi ki, tətil vaxtı bizim yaşadığımız Los Anseles şəhərinə gəlir. Onun gəlişi bizi həm də ona görə sevindirir ki, babamın sayəsində hər gün səhər-axşam çimərliyə gedirik. Sakit okeanda çimməkdən xüsusi zövq alır babam…

Sirr deyil ki, bizim yaşadığımız şəhərdə qara dərili adamlar çoxdur. Baba onların yanında elə də qara görünmür. Nədənsə adamlar dil bilməsə belə burda da ona çox hörmət eləyirlər. Yol verirlər, təbəssümlə salamlaşırlar.

Bir dəfə avtobusda baba avtobusun kassasına jeton atmaq istəyəndə qara dərili sürücü əlini qutunun ağzına qapayıb qoymadı. Nə dediyini başa düşmədi. Məndən soruşdu:

–Ay Fateh, bala, bu kişi nə deyirdi?

Zarafatla babama dedim:

– Ay baba, qaralar bizə hörmət eləyirlər. Deyəsən elə bilirlər ki, sən də onlardansan…

Babam dediyim sözdən incimədi. Əksinə o qədər güldü ki… Məni məhəbbətlə süzüb dedi ki, köpək oğlu, zarafatcıllıqda elə sən də mənə çəkmisən…

**11.08.2016. Venis**

## FATEHİN SALDIĞI ŞƏHƏR

Yenə çimərlikdə idik. Nənə bacımı uşaqlar üçün olan meydançaya apardı. Baba həmişəki kimi ləpədöyəndə gəzişdi, mən isə qumdan bir şəhər tikməklə məşğul oldum. Hovuz tikdim. Körfəzdən onun yanına arx çəkdim…

Bir sözlə, günümüz gözəl keçdi. Sonra birlikdə çimib evə qayıtdıq…

Səhərisi gün çimərliyə hamıdan qabaq biz getmişdik. Gördüm ki, mənim qumdan düzəltdiyim şəhərciyin içində iki qara qarğa var. Onları qovmaq istəyəndə babam gülə-gülə dedi:

– Fateh, bu qarğalar deyəsən sənin saldığın şəhərdə gecələyiblər…

Gülümsədim. Babamın sözü çox xoşuma gəldi. Ürəyimdən keçdi ki, böyüyəndə gözəl bir şəhər salacam. Onun küçələri geniş, yaraşıqlı olacaq. Mütləq, mütləq parklardan birində gözəl bir göl düzəldəcəm. Elə bir göl ki, baba ilə nənə qocalanda onun sahilində oturub dincəlsinlər…

**12.08.2016. Venis**

## FATİMƏNİN ÇƏKDİYİ ŞƏKİLLƏR

Balaca Fatimə həmişə atasını işə yola salar, evə qayıdanda isə onun qabağına qaçar, boynunu qucaqlayır, gördüyü işlər haqqında məlumat verərdi. Ən axırda isə çəkdiyi şəkilləri göstərib soruşardı:

– Ata, xoşuna gəlir?

– Gəlir, əlbəttə, gəlir… Mənim balam nə qəşəng şəkillər çəkir!

Fatimə həmişə öz şəkillərinə şərh də verməyi xoşlayardı: “Bax, bu evimizdi, bu ana, bu qaqaş, bu da mənəm”…

Şəkillərin forması dəyişsə də, Fatimə demək olar ki, həmişə eyni şəkillər çəkərdi. Bu, atanın gözündən yayınmadı. Onun əllərindən öpüb soruşdu:

– Balaca, hamının şəklini çəkirsən, bəs mənim şəklim hanı?

Fatimə fikirləşmədən cavab verdi:

– Ay ata, sən evdə olursan ki, şəklini də çəkəm? Həmişə işə gedirsən… Mən şəkil çəkəndə axı sən işdə olursan?

Ata güldü. Dedi ki, mənim balam, işə getməsəm olmaz. Söz verirəm ki, istirahət günü sizinlə birlikdə qalacam. Sən də söz ver ki, bu dəfə mənim də şəklimi çəkəcəksən!

– Yaxşı, ata, söz verirəm!

Bazar günü çəkdiyi şəkli atasına göstərən Fatimə dedi:

– Ata, bax, sənin də şəklini çəkmişəm… Bu ata, bu ana, bu qaqaş, bu da mən…

**12.08.2016. Venis**

## İSTİOT VƏ DUZ

Demək olar ki, hər gün səhər-səhər Marina Del Reydəki çimərliyə gedir, orada qumun üstündə oynayırdıq. Biz oynadığımız vaxt babam sahildə gəzməyi çox xoşlayırdı. Ən azı bir saat ləpədöyəndə o başa, bu başa gəzirdi. Bir saat tamam olmamış o, bizi də çimməyə qoymurdu…

Vaxt tamam oldu, Babamdan soruşdum:

– Baba, çimək?

– Çimək, mənim balam, çimək!

Elə bu vaxt suyun içində nəsə qəribə bir balıq gördüm. Nə balıq kimi balıq idi, nə də tısbağa kimi tısbağa. Babam yaxın gələndə bu haqda ona dedim. Söylədi ki, yəqin balıq, ya da tısbağa imiş

Çimmək istəyəndə nə görsək yaxşıdı? Suyun dayaz yeri həmin qəribə, adamın ürəyini vahiməyə salan varlıqlarla dolu idi. Babamın gəldiyini görən kimi hamısı qumu bulan-dıra-bulandıra dərinliyə sarı üzdülər…

Babam mənə toxtaqlıq verdi:

– Qorxma, mənim balam, balıqdı da üzüb getdilər. Sonra o, suya girdi məni də yanına çağırdı. Çimməyinə çim-dim, üzməyinə üzdüm, ancaq boynuma alım ki, qorxurdum. O biri uşaqlar da bu balıqları görəndə sudan qaçıb sahilə çıxdılar.

Günorta atam maşınla gəlib bizi evə aparanda gördüklərimizi ona dedim. Atam interneti açıb baxdı və həmin balıqlar haqqında video görüntülər tapdı. Sən demə bu balıqlar elə, doğrudan da, qorxulu imişlər. Onların 9 santimetrlik sancaqları var imiş. Qorxu hiss eləyən kimi sancaq atırmışlar. Hətta atamın tapdığı bir məlumat məni lap vahimələndirdi. Bir səyyah film çəkərkən həmin balıqlardan birini tutmaq istəyəndə balığın atdığı sancaq düz onun ürəyinə sancılır…

Səhərisi gün çimərliyə gedəndə baba zarafatla mənə dedi ki, sözümə baxmasan, səni atacam o balıqlara, qoy yesinlər. Bacım Fatimə babaya dedi:

– Ay baba, bir az istiot, duz da götürək özümüzlə?

Baba onu başa düşmədi:

– İstiot, duz bizim nəyimizə lazımdı axı?!

Fatimə bic-bic güldü:

– Qaqaşın üstünə istiot, duz səpərsən ki, balıqlar onu ləzzətlə yesinlər…

Babam gözləri yaşarana qədər güldü.

Biz yenə həmin çimərliyə getdik. Həmin balıqlar azalmışdı. Baba əvvəlcə onları qovdu, sonra biz həmişə olduğu kimi ləzzətlə çimdik. Heç istiota, duza ehtiyacımız da qalmadı…

**11.08.2016.Venis**

## İLK DƏRS GÜNÜ

Dünən yay tətilimizin axırıncı günü idi. Ona görə Sakit okeana gedib çimərlik mövsümünü bağlamaq qərarına gəldik. Birlikdə Venis çimərliyinə getdik. Sakit okean çox dalğalı idi. Ləzzətlə çimdik və sonra atam bizi maşınla evə gətirdi.

Bu da ilk dərs günü… Babam, nənəm, atam, anam və bacım Fatimə – ailənin bütün üzvləri məktəbə getməyə

hazırlaşırdıq... Mən artıq dördüncü sinfin şagirdiyəm. Keçən il hazırlığı bitirən bacım isə bu il birincidə oxuyacaq...

Anam bizə dedi ki, baba ilə çıxıb həyətdə gözləyin, biz də gəlirik. Çantalarımız elə ağır idi ki... Anam içərisinə yeməkdən, meyvədən, sudan tutmuş hər şey doldurmuşdu...

Səhər-səhər qapıdan çıxmağa hazırlaşarkən fürsətdən istifadə edib suyu içməyə başladıq. Babam bunu görüb soruşdu:

– Ay bala, heç evdən çıxmamış susamısınız ki...

Bacımla bir-birimizin üzünə baxıb güldük. Babam bunun səbəbini soruşanda gizlincə onun qulağına dedim:

– Ay baba, anam bilməsin, suyu içirik ki, bir az çantamız yüngülləşsin...

Babam o qədər güldü ki... Sonra bacımın çantasını nənəmə verdi, mənim çantamı isə özü götürdü...

Birlikdə məktəbə yollandıq. İlk dərs günümüz belə başladı...

**16.08.2016. Venis**

## FATİMƏNİN XAHİŞİ

Çarpayımda uzanıb kitab oxuyurdum. Nəvəm Fatimə məktəbdən gələn kimi üstümə cumdu:

– Baba, xahiş eləyirəm, mənə nağıl danış...

Əlimdəki kitabı yerə qoydum. Onu təbəssümlə süzüb yanıma çağırdım. Ancaq nəvəm "indi gəlirəm", – deyib getdi. Xeyli gözlədim. Ondan bir xəbər çıxmadı. Arxasınca o biri otağa keçəndə gördüm ki, Fatimə Azərbaycandan ona hədiyyə gətirdiyim "Göyərçin" jurnallarını yerə töküb seçir. Nəhayət, bir neçə nömrəni gətirib mənə verdi və xahiş elədi ki, baba burdan mənə nağıl oxu!

Oxumağa başladım. Fatimə başını sinəmə qoyub elə diqqətlə dinləyirdi ki... Mənə elə gəldi ki, nəvəm başını

təkcə babasının yox, doğma Azərbaycanımızın sinəsinə qoyub dilimizin şirinliyindən ləzzət alırdı…

O elə bil ki, nağıl dinləmir, musiqiyə qulaq asırdı…

**17.08.2016. Venis**

## MALYUSKA ÇANAQLARI

Bilirdim ki, babam hansı ölkədə qonaq olursa olsun, mütləq dənizə, çaya, gölə çimməyə, dağa, meşəyə gəzməyə gedir. Hələ bu azmış kimi, hər bir çayın, dənizin, gölün sahilindəki xırdaca daşları da özü ilə yığıb aparır… Babamın evində gözəl bir sərgi var… Burada dəniz daşlarından, balıqqulağından tutmuş, ota, çiçəyə, yarpağa qədər çox şeyə rast gələ bilərsən… Babam onların hamısını göz bəbəyi kimi qoruyur… Doğrusu, onun ota, çiçəyə, yarpağa, hətta daşa canlı kimi baxması mənə çox qəribə gəlir… Babam bu eksponatlara baxanda getdiyi yerləri, çimdiyi dənizləri, gölləri, çayları, gəzdiyi meşələri, çəmənləri xatırlayır…

Babam elə Amerikaya gəldiyi günün səhərisi bizi də özüylə götürüb Sakit okeanın sahillərinə apardı. Kefimiz idi… Babamın xətrinə atam da işdən qalmış, bizi çimərliyə gətirmişdi…

Çimən kim, qumların üstündə dincələn kim, ləpədöyəndə gəzişən kim…

Babam da bizə qoşulub ləzzətlə çimdi. Ancaq gileyləndi ki, okeanın dalğaları imkan vermir ki, üzəsən, heyf deyil Xəzər dənizi…

Babam okeandan çıxıb onun sahilində gəzişməyə başladı. Mən də onu müşayiət eləyirdim… Bu dəfə babam nədənsə dəniz daşlarından çox sahilə atılan malyuska çanaqlarına daha çox maraq göstərdi. Onlardan bir xeyli maraqlı nümunələr yığdı. Mənim diqqətlə baxdığımı görən babam dedi:

– Fateh, bax, malyuska çanaqları kəpənəyə oxşayır.

Yaxına gəlib baxdım. Doğrudan da, oxşayış var idi…

Elə bu zaman bacım Fatimə də bizə yaxınlaşdı. Babamın yığdığı malyuska çanaqlarına baxıb dedi:

– Yox, ay baba, bünlar ürəyə oxşayır!

Babam heyrətlə Fatiməyə, bir də əlindəki malyuska çanaqlarına baxdı. Fatimənin başını sığallayıb dedi:

– Hə, elədi, mənim balam.

Fatimə gülə-gülə onun sözünü tamamladı:

– Balam yox, ağıllı balam…

Babam gülüb Fatiməni başının üzərinə qaldırdı:

– Mənim ağıllı balam! Mənim ağıllı balam!

Hamımız güldük. Gülüşlərimizin səsi okeanın dalğalarının səsinə qarışdı…

Babam topladığı malyuska qabıqlarını aparıb şalvarının cibinə qoyandan sonra qayıtdı. Biz birlikdə çimməyə davam elədik. Ancaq nədənsə öz-özümə fikirləşirdim:

– Görəsən babam bu kəpənəyə, bacım demişkən ürəyə bənzəyən malyuska çanaqlarını aparıb Azərbaycanda kimə bağışlayacaq?

**21.08.2016. Venis**

## SÖRFİNQ

Amerikaya gələndə babam mənə dedi:

– Fateh, ürəyin nə istəyirsə, de sənə alım.

Çiynimi çəkdim. Sonra dilimdən necə oldusa sörfinq sözü çıxdı.

Babam məni başa düşmədi. Təəccüblə soruşdu:

– Sörfinq nədi, a bala?

Nə qədər çalışdımsa, babanı başa sala bilmədim. Axırda atam köməyimə gəldi:

– Ata, sörfinq burda çox dəbdədi. Demək olar ki, okean sahillərində yaşayanların hamısının sörfinqi var.

– Sörfinq nədi axı?

– Görməmisən, adamların əksəriyyəti qoltuqlarına bir qayığabənzər lövhə alıb çimərliyə gedirlər?

Babam dedi:

– Hə, indi başa düşdüm. Televiziyada, kinolarda görmüşəm. Adamlar bu lövhənin üstünə qalxıb dalğaların üstündə min oyundan çıxırlar. Bu sözün mənası nədi?

– "Sörf" sahil deməkdi…

– Hə, onda yəqin sörfinq də "sahilə üzən lövhə" mənasını verir.

– Hə, təxminən elədi…

Babam pul verdi, gedib özümə sörfinq aldım. Ondan xahiş elədim ki, okeana gedək. Razılaşdı… Mən öz sörfinqimin ipini qoluma bağlayıb suya girdim. Xeyli irəli getdim ki, üzən lövhəmi yanımdan keçən dalğanın üstünə qoyub sahilə qədər üzə bilim…

Əvvəlcə bir şey alınmırdı. Sonra qərara gəldim ki, bir az da dərinə gedim. Yanımda mənə nəzarət eləyən babam üstümə qışqırdı:

– Geri qayıt, oralar dərindi…

Mən isə sözə baxmaq istəmirdim. Öz sörfinqimin üstündə daha uzaq məsafəyə üzmək arzusu var idi ürəyimdə…

Babam lap hirsləndi:

– Çıx qırağa dedim sənə! Bilsəydim heç bu zibili almazdım sənə!

Mısmırığımı salladım. Babam evə qayıdanda atama dedi ki, bir də sən özün getməsən, bu uşaqları okeana çiməyə aparmayacam…

Bir neçə gündən sonra atam bizi öz maşını ilə Malibu körpüsünün yanına apardı. Bura dağlardan gələn Malibu çayının dənizə töküldüyü yerdi.

Təbiət mənzərələrini çox sevən babam heyranlıqla çayın qurtaracağını, buradakı saysız-hesabsız quşları seyr eləyirdi… Mənimsə fikrim okeanda idi…

Nəhayət, gəlib sörfinq sürülən yerə çatdıq. Burada dalğalar çox güclüdür. Ona görə çimməyə isazə verilmir. Adamlar ancaq burda sörfinq sürürlər… Əksəriyyəti də əyinlərinə xüsusi qara paltar geyinirlər. Elə buna görə də okeanın nisbətən dayaz yerində cərgə ilə dayanan adamlara uzaqdan baxanda elə bilirsən ki, qarışqa sürüsüdür…

Dalğa gələndə hərə öz məharətini göstərmək istəyir. Elələri olur ki, dalğaların üstündə öz sörfinqi ilə çox maraqlı bir üzmə səhnəsi yarada bilir. Dalğaların vurub yıxdığı adamlar daha çox olurdu…

Nəhayət, mən də sörfinqimi götürüb atamla birlikdə okeana girdim. Bir neçə dəfə uğurlu üzməm alındı. Bir dəfə isə dalğa elə güclü gəldi ki, nəinki məni, atamı da vurub yıxdı… Hələ bu azmış kimi mənim başımı qumun içinə soxdu…

Burnum bərk ağrısa da, özümü sındırmadım. Amma dərk elədim ki, babam düz deyirmiş, okeanla zarafat eləmək olmaz!

Babam gülə-gülə dedi:

– Hə, sən mənim sözümə baxmadın, okean da ona görə sənin burnunu qumun içinə soxdu…

Bir söz demədim. Burnum isə, doğrudan da, bərk ağrıyırdı… Nənəm onun üstünə xüsusi soyuducusu olan yemək çantamı qoydu…

Evə qayıdanda mənim lövhəmi babam götürmüşdü. Zarafatla dedi ki, bu necə olur, sənin dənizdə belinə mindiyini indi mənim belimə yükləmisən?!

Mən də güldüm. Sörfinqi babamdan aldım. Ona söz verdim ki, üzməyi, sörfinq sürməyi yaxşıca öyrənəcəyəm.

Zarafatla onun mənə öyrətdiyi şeiri söylədim:

Hər işin bir qaydası var,
Hər işin bir faydası var.
Öyrənməsən qaydasını,
Görənməzsən faydasını…

Babam güldü. Ona söz verdim ki, mütləq sörfinq sürməyin qaydalarını öyrənəsəyəm… Özü də tezliklə…

**19.08.2016. Malibu**

## QUŞ BEYNİ

Uşaqlar həyətdə mübahisə elədilər. Necə oldusa, bir uşaq o birisinə dedi:

– Ə, səndə lap quş beyni var imiş ki…

– Sənin beynindi quş beyini…

Mübahisə uzandı. Ancaq kimsə izah edə bilmədi ki, insanlar nə üçün acıqlananda bir-birlərinə bu sözü deyirlər.

Fateh evə gələndə babasından soruşdu:

– Baba, nə üçün bəzi adamlara quşbeyin deyirlər?

– Bu hardan ağlına gəldi?

– Uşaqlarla mübahisə eləmişik. Ancaq heç kəs dəqiq bilmir ki, bu sözün mənası nədi?

Baba gülümsündü:

– Hə, adamlar hərdən belə söz işlədirlər. Quşların başı balaca olduğu üçün onların beyni də balacadı. Beyin balaca olanda düşünmə qabiliyyəti də, ağıl da azalır. Adamlar ona görə bəzən belə deyirlər…

– Ay baba, məgər quşlar ağılsızdılar?

– Yox, kim dedi ki, ağılsızdılar. Heç bilirsən o kiçik quş beyni nələrə qadirdi? Quşların beyni balaca olsa da, onlar dəqiq işləyir. Lap saat kimi… Əgər belə olmasa, köçəri quşlar uzaq-uzaq ölkələrdən necə uçub yanımıza gələrlər? Hətta gecənin qaranlığı, yağış, qar, külək də onları çaşdıra

bilmir… Bizsə tanımadığımız bir yerə düşən kimi döyükə-döyükə qalırıq, azırıq… O quşların beyni, bu da bizim?!

Fateh təəccübləndi. Uy da, gör quşlar nəyə qadir imiş-lər? Onlar çox ağıllıdırlar. Kaş bəzi adamların da beyni elə quş beyni kimi işləyəydi…

**28.09.2016**

## İNGİLİSCƏ, AZƏRBAYCANCA

Hər həftənin altıncı günü Los Ancelesdə yaşayan oğlumla, gəlinimlə, nəvələrimlə danışıram. Nə yaxşı ki, skayp var. Üz-üzə, göz-gözə oturub söhbətləşir, zarafatlaşırıq. Həftə ərzində başlarına gələnləri bizə danışırlar.

Bu həftə də belə oldu. Eşitdim ki, orada yağışlar mövsümü başlayıb. Deyirlər ki, Koliforniya ştatına on bir ildən bir belə güclü yağış yağır, özü də qış mövsümündə…

Dördüncü ildi ki, Amerikada yaşayan, yağış, qar üzünə həsrət nəvələrim – Fateh və Fatimə yağışı sevinclə qarşılayıblar. Deyiblər ki, elə bil bu yağışdan vətənin ətri gəlir…

Yağışlı bir gündə anası Fatehi məktəbdən götürməyə gedəndə görür ki, gözünə döndüyüm Fateh ayaqqabılı girib yağış gölməçəsinə, o başa, bu başa gəzir. Bunu görən gəlinim bərk hirslənir. Amerikada uşağın üstünə qışqırmaq qadağandır. Ona görə anası əvvəlcə rusca uşağı tənbeh eləyir ki, ətrafdakılar başa düşməsinlər. Sonra görür ki, digər valideynlər ona təəccüblə baxırlar. Hiss eləyir ki, ətrafdakılardan rus dilini başa düşən var. Ona görə keçir öz dilimizə – Azərbaycan dilinə. Uşağı əməlli başlı danlayır…

Skaypla danışanda əvvəlcə nəvəmi başa düşmədim. Sən demə anasını yamsılayırmış:

– Heyvansan, girmisən suyun içinə? Gör bir üst-başını nə günə qoymusan? Eşşək eşşəkliyi ilə belə eləməz!

Nəvəm bu sözləri deyə-deyə elə gülür, elə gülürdü ki… Sonra başlarına gələn əhvalatı danışdılar.

Mən də gülə-gülə dedim:

– Mənim gəlinimə bax e, nəvələrimi ingiliscə əzizləyir, Azərbaycanca danlayır…

Sözüm uşaqların xoşuna gəldi. Tutuquşu kimi dediyim sözləri təkrarladılar:

– İngiliscə əzizləyir, Azərbaycanca danlayır…

**20.02.2017**

## FATİMƏNİN FALI

Fatimə kağızdan bir gül düzəldib ləçəklərinə nəsə yazmışdı. Onu nənəsinə göstərib soruşdu:

– Nənə, hansı rəngi xoşlayırsan?

Nənəsi dedi:

– Portağal rəngini.

– Bəs hansı rəqəm xoşuna gəlir, 1, 2, 3, 4, 5 ya 6?

– 5.

Fatimə ləçəyin üstündə yazdığını oxudu.

– Nənə, sən mənim ürəyimi günəş kimi nurla doldurursan…

Nənə sevindi. Nəvəsinə təşəkkür elədi.

Növbə babaya çatdı:

– Baba, bəs sən hansı rəngi xoşlayırsan?

– Qırmızını.

– Bəs hansı rəqəmi?

– 1-i…

Fatimə ləçəyin üstünə yazdığını oxudu. Baba bir şey anlamadı. Sonra Fatimə ingiliscə yazdığı sözü atasının köməyi ilə tərcümə elədi:

– Baba, sən çox yaşa ki, mən həmişə sənin ürəyində yaşaya bilim!

**20.03.2017**

## PAPAQ TULLAMALI QAPI

Okeanın o tayında yaşayan nəvələrimlə – Fateh və Fatimə ilə skaypla danışıb bayramlaşdıq. Çox sevindilər. Mənim üçün yaz ətirli şeirlər söylədilər. Həmişə olduğu kimi yenə də zarafatlaşdıq.

Süfrələrində şəkərbura da, paxlava da var idi. Xonçanın kənarına şamlar da düzülmüşdü… Ancaq elə bil nəsə çatışmırdı…

Fatehdən soruşdum:

– Bayramı necə keçirirsiniz, mənim balalarım?

Nəvəmin üzündə qəribə bir təbəssüm gördüm. Onun dediyi bu söz məni duyğulandırdı:

– Baba, hər şey yaxşıdı… Bircə bu boyda şəhərdə papaq tullamağa bir qapı tapa bilmirik ki, içinə bayram sovqatı yığsınlar…

**20.03.2017**

## DONDURMA

Mağazadan təzəcə qayıtmışdıq. Hərəmiz öz dondurma payımızı götürdük. Yavaş-yavaş yeməyə başladıq… Dadlı, ləzzətli, meyvə ətrli dondurmalar… Adamın tez yeməyi gəlmirdi… İstəyirdin ki, ləzzətin dadını bir az da uzadasan.

Bircə baba öz işində idi… Onun dondurmasından bir azca qalanda, biz hələ payımızın üçdə birini də yeməmişdik…

Fateh gülə-gülə dedi:

– Ay baba, nə olub, bir az yavaş-yavaş ye da…

Baba da öz zarafatından qalmadı:

– Kim dondurmasını tez yesə, geridə qalanlara kömək eləyəcək…

Fateh güldü:

– Ay baba, nənə hələ dondurmasını yeməyə təzə başlayıb, bizə yox, ona kömək eləyərsən…

**01.08.2017.**
**Los Angeles**

## SAKİT OKEANIN SAHİLLƏRİNDƏ

Uşaqlarla çimmək rahatdı deyə onları Analar çimərliyi deyilən sahəyə apardıq… Onlar heç sudan çıxmaq istəmirdilər… Məni də qoymurdular ki, bir qədər qumluqda uzanıb istirahət eləyim… Çimək, çimək deyə yaxamdan əl çəkmirdilər. Birdən necə oldusa Fateh qaça-qaça gəlib dedi ki, baba, suda yastı, yekə balıqlar üzür…

Gedib baxdım. Mən də o balıqları gördüm. Əlimə bəhanə düşdü… Suya girmədim ki, balıqlardan qorxuram. Sahildə uzanıb rahatca istirahət elədim.

Uşaqlar da sudan çıxıb ləpədöyəndə oynadılar… Onlar mənsiz suya girməkdən çəkinirdilər. Beləcə xeyli vaxt keçdi. Evə getməyə yaxın onları çağırdım. Dedim ki, qorxmayın, balıqları qovaram, çimərik…

Baba-bala ləzzətlə çimdik. Sonra birlikdə evə qayıtdıq.

Səhərisi yenə çimərliyə getməyə hazırlaşanda Fatimə dedi ki, ata, bu gün "analar biç"inə getməyək, çünki baba ordakı balıqlardan qorxur…

Hamımız güldük. Fatimənin istəyi ilə bu gün şəhərin ən məşhur çimərliklərindən birinə – Venis çimərliyinə getdik…

Mən paltarlarımızı soyunub yerə qoyanda Fateh dedi ki, baba, yerdəki yosunları görürsən?

– Görürəm. Hə, nə olsun ki?!

– Bax bir azdan qabarma olanda dalğalar bura gəlib paltarlarımızı apara bilər…

Söz ağlıma batdı. Paltarları sahilə sarı çəkdik.

Səhər-səhər olduğu üçün çimərlikdə hələ az adam var idi…

Qağayılar başımızın üstündə uçuşurdu… Sahilə yaxın yerdə delfinlərin üzməyini gördük…

Ləzzətlə çimdik, ləpədöyəndə gəzdik…

Adamlar çoxalanda Sakit okean elə bil əsəbiləşdi… Dalğaları böyüdü… Köpüklü sular adamı vurub yerə yıxırdı…

Bir azdan dalğalar nəhəng bir canlı kimi dilini uzadıb sahildəki paltarları "yaladı". Adamlar onun dalınca baxa-baxa qaldılar…

**3.08.2017.**
**Venis, Los Angeles**

## BADIMCAN DOLMASI

Nənə Amerikada nəvələri üçün badımcan dolması bişirdi. Hamı "bəh-bəh"lə yeməyə başladı. Bircə Fatehdən başqa. O, dolmanın içindəki çəkilmiş əti çıxarıb yedi, badımcanı, bibəri, pomidoru isə boşqabın kənarına yığdı.

Nənə dedi:

– Fateh bala, bu dolmanı sənin üçün bişirmişəm e, niyə yemirsən? Balaca vaxtı sən çox xoşlayırdın axı badımcan dolmasını?

Fateh gülə-gülə dedi:

– Ay nənə, onda uşaq idim da, ağzımın dadını bilmirdim…

**04.08.2017.**
**Venis, Los Angeles**

## FATEHLƏ SÖHBƏT

Fatehlə axşam Venis körpüsünə getdik. Okeandan şəhərə baxmaq adama ləzzət eləyirdi. Los Angelesin özü də Sakit okean kimi böyük və əzəmətli görünürdü…

Günəş qürub etməkdə idi. Estakadanın üstündə dayanıb sulara qərq olan günəşə baxa-baxa düşüncələrə dalmışdım. Birdən Fateh dilləndi:

– Baba, Günəş okeanın içinə düşsə, onun odu sönər?

Xəyaldan ayrılıb Fatehə baxdım. Duydum ki, mənimlə zarafatlaşmaq istəyir. Ona görə mən də onun sualına eyni tərzdə cavab verdim:

– Yox, sönməz… Ancaq Sakit okean səhraya çevrilə bilər…

Nəvəm gülümsündü. Cavabım onun xoşuna gəldi deyəsən…

**09.08.2017.**
**Venis, Los Angeles**

## BİR MANATA BİR GÜNLÜK SƏYAHƏT

Yuxumda gördüm ki, bir manatım var və o bir manata dünya səyahətinə çıxmışam… Elə yuxunun şirin yerində ayıldım. Molla Nəsrəddin kimi bir də gözlərimi yumdum ki, bəlkə yuxunun ardını görəm, qəribə bir dünyaya səyahət eləyəm… Ancaq nə qədər gözlərimi yumdumsa, alınmadı ki, alınmadı… Günəşin hər bir şəfəqi bir kirpiyimdən yapışıb göz qapağımı qaldırdı… İstər-istəməz yatağımdan qalxdım…

Evdə tək idim. Əl-üzümü yuyub səhər yeməyimi yedim. Pəncərədən həyətə baxdım…

Birdən ağlıma nə gəldisə, gedib təzə şalvarımın cibinə baxdım. Doğrudan da, cibimdə bir manat pulum var idi… Heç onu xərcləmək haqqında düşünmürdüm də… İndi isə…

Fikir məni aparmışdı… Deyəsən yuxum çin olur axı?! Öz-özümə düşündüm. Bir manata bir günlük necə səyahət eləyə bilərəm?

Çox düşündüm, daşındım. Qərara aldım ki, gedib avtobusa bilet alıb kəndimizə gedim. Həm nənəni, babanı görüm, həm də rəğbətli bir səyahət eləyim. Kəndimizin dağlarını, meşələrini gəzim. Bulaqlardan su içim. Çaylarda çimim. Çəmənlərdən çiçək dərim, kəpənəklərin uçuşuna tamaşa eləyim…

Xəyalımda planlar qura-qura getdim şəhərlərarası avtovağzala. Sürücülər müştəri üstündə dava eləyirdilər… Elə yuxarı qiymət deyirdilər ki, elə bil cibimdəki bir manat utanırdı…

Kassaya yaxınlaşıb ədəblə salam verdim:

– Əmi, bir manatım var. Onunla hansı rayona, kəndə səyahət eləyə bilərəm?

Kassir üzümə tərs-tərs baxıb dedi:

– A bala, deyəsən məni dolayırsan? Bir manata heç bilet olar? Get işinin dalınca…

Kor-peşman kassadan aralandım. İndi mən neyləyim? Ağlıma qəribə bir fikir gəldi. Dedim gedim bazara, bir kilo meyvə alım, yeyə-yeyə xəyalən kəndimizə səyahət eləyim…

Birinci dəfə idi ki, bazara girirdim. Elə bilirdim ki, hamı mənə, daha doğrusu, sibimdəki bir manata baxır…

Burada bir uğultu var idi ki, gəl görəsən. Alan kim, satan kim…

Piştaxtaların önündən keçə-keçə gəldim meyvə satılan yerə… Səliqə ilə düzülən almalara, armudlara, əriklərə, şaftalılara baxanda ağzım sulandı… Hələ üzüm, əncir… Düşündüm ki, görəsən nə alıb yeyim. Yaxınlaşıb meyvələrin üstünə qoyulan qiymətlərə baxdım. Gözlərim kəlləmə çıxdı. Vay dədəm vay… Meyvə nə qədər baha imiş?! Ağzım sulana-sulana almanın, armudun, şaftalının, əriyin üzünə baxdım. Hiss elədim ki, cibimdəki bir manat yenə də

utanır… Onu sıxıntıdan qurtarmaq üçün tez bazardan çıxmalı oldum…

İndi mən neyləyim? Mağazalara baxa-baxa küçə ilə gedirdim… Ay dad, şəhərimizdə nə qədər mağaza var imiş! Vitrinlər elə gözəl görünürdü ki… Bir istədim içəri girəm, gördüm cibim dartılır. Hiss elədim ki, bir manat mənim mağazaya girməyimi qətiyyən məsləhət bilmir…

Gəzə-gəzə getdim şəhər parkına. Hər yan gözəl, səliqəli… Kafelər, kababxanalar ağzınacan dopdolu idi… Qəribə kabab qoxusu ağzımı sulandırdı… Kabab yemək istədim. Yaxınlaşıb işçilərin birindən soruşdum:

– Əmi, bir şiş kabab neçəyədi?

Oğlan tərs-tərs məni süzdü. Əyin-başıma baxıb dedi:

– Sənlik deyil, qaqaş, çıx get, əl-ayağa dolaşma… Get evdə şor-çörək yeyib toqqanın altını bərkit…

Çarəsiz kababxanadan uzaqlaşıb dəniz sahilinə getdim ki, bəlkə bu zəhrimar kababın iyindən uzaqlaşam… Ancaq mümkün olmadı…Vay dədəm vay, hara baxırsan kababxana, çayxana, pivəxana… Bəs indi mən neyləyim?

Parkda bir skamyanın üstündə əyləşib düşüncələrə daldım. Uşaqlar karuselə minib əylənirdilər. İstədim ki, mən də bir manatımı verib əylənim… Ancaq yenə də pulum çatmadı… Məni ağlamaq tutmuşdu… Heç bilmirdim ki, neyləyim…

Bəlkə gedib bir kitab alım, onu oxuyaraq xəyalən də olsa dünya səyahətinə çıxım?… Özümün özümə gülməyim tutdu… İndi bir manata kitab almaq olar? Oxuyan olmasa da, kitablar od qiymətinədi…

Birdən ağlıma gəldi ki, "Bukinist"ə gedib bir münasib kitab alım… Çünki burada kiitablar çox ucuzdu… Lap su qiymətinə… Ancaq yenə də bir münasib kitab tapa bilmədim…

Bütün günü bir manat cibimdə şəhəri ələk-vələk elədim… Bir şey ala bilmədim ki, bilmədim… Ancaq o qədər

veyil-veyil gəzmişdim ki, ayaqlarım ağrıyır, sızım-sızım sızıldayırdı…

Bir manat cibimdə kor-peşman evə qayıdanda ağlıma gələn fikrə özümün də gülməyim gəldi:

– Uy dad! Doğrudan da, bir manata gözəl bir səyahət eləyibmişəm ki… Cibimdə bir manat bütün günü avtovağzalı, şəhərin küçələrini, bazarı, kitab mağazalarını, parkları, xiyabanları, bulvarı gəzmişəm… Quşların səsini, bazardakı adamların giley-güzarlı söhbətini dinləmişəm, güllərin ətrini ciyərlərimə çəkmişəm… Yarpaqların rənginə tamaşa eləmişəm… Bu da səyahətdi da… Səyahətin buynuzu olmur ki…

Bir manat çox bərəkətli imiş… Sabah onunla səyahətimi davam etdirmək fikrim var…

**14.08.2017.**
**Los Angeles, Venis**

## YER FIRLANIRSA

Baba ilə nəvələri Amerikada qlobusu fırlada-fırlada xəritəyə baxır, Azərbaycanı, Bakını axtarırdılar. Nəhayət, axtardıqlarını tapdılar. O boyda Bakı balaca görünürdü, bapbalaca…

Söhbət əsnasında Fateh dedi ki, baba, yer də qlobus kimi doğrudanmı fırlanır?

– Elədir, fırlanır. Bax bu qlobus yerin kiçik modelidir. O, necə fırlanırsa, yer də o şəkildə fırlanır.

– Hə, baba, yadıma düşdü. Los Ancelesdəki rəsədxanaya gedəndə onun necə fırlanmasını bizə göstərdilər. İzah elədilər ki, Yerin Günəş ətrafında fırlanması nəticəsində fəsillər bir-birini necə əvəz edir.

Sakitcə baba ilə qardaşının söhbətini dinləyən balaca Fatimə gözlənilmədən soruşdu:

– Baba, yer doğrudan da fırlanır?

Fateh onun sözünü kəsdi:

– Fatimə, bayaqdan bu haqda danışırdıq da…

– Qaqaş, bilirəm… Ancaq yer fırlanırsa, niyə Azərbaycan, Bakı, evimiz fırlanıb yanımıza gəlmir?

Baba da, Fateh də təəccüblə bir-birlərinə baxdılar. Onlar məsələnin nə yerdə olduğunu anlasalar da, bildilər ki, bunu Fatiməyə izah etmək çətin olacaq…

Fateh zarafatla dedi:

– Fatimə, yer fırlanır ki, baba ilə nənəni bizim yanımıza gətirib da…

Fatimə bir az düşündü. Sonra ağlamsına-ağlamsına dedi:

– Mən təkcə babanı, nənəni yox, həm də Bakını, evimizi istəyirəm…

Baba nəvəsini sinəsinə sıxıb onun alnından öpdü:

– Darıxma, Fatimə, Azərbaycan bura gəlməsə də, siz ata təhsilini başa vurandan sonra Bakıya, öz evinizə qayıdarsınız…

**28.08.2017.**
**Los Angeles, Venis**

## BABANIN KƏPƏNƏYİ

Nəvələrimi görmək, onlarla ünsiyyət xətrinə hər il yol xərcinə, uzun, üzücü yolun əzab-əziyyətinə qatlaşıb Amerikaya, Koliforniya ştatına, daha dəqiqi Los Angeles şəhərinə gedirəm. Sakit okeanın sahilindəki bu şəhər olduqca böyük və gözəl bir şəhərdir…

Nəvələrim bizi görəndə sevinirlər. Həm də onu yaxşı bilirlər ki, baba, nənə gələndə onları da gəzmək, səyahət gözləyir…

Bu dəfə də belə oldu… Nəvələrim oğlumla gəlib bizi qarşıladılar, evə getdik…

Həmişə balaca Fatimədən soruşanda ki, sən mənim nə balamsan, gülə-gülə deyirdi ki, mən sənin kəpənək balanam…

Elə doğrudan nəvəm də kəpənək kimi yüngüldür… Uzanıb dincəlmək istəyən kimi uçub sinəmin üstünə qonur…

Bir gün necə oldusa nəvəm məndən küsdü… Dedi ki, mən babanın heç nəsiyəm…

Gülə-gülə dedim:

– Fatimə, bəs deyirdin ki, babanın kəpənəyisən?

Fatimə hazırcavablıqla söylədi:

– Ay baba, kəpənək uçdu getdi…

Bir aylıq vaxt da qanadlanıb uçdu. Vətənə qayıtmaq vaxtı gəlib çatdı… Oğlumla nəvələrim bizi təyyarə limanına gətirdilər… Vidalaşanda zarafatla Fatiməyə dedim:

– Bax, babanın kəpənəyi uçdu, baba da küsüb təyyarə ilə uçacaq…

Hamımız güldük. Görüşüb ayrılandan sonra Fatimə bizə əl elədi. Onun əlləri arxamızca kəpənək qanadı kimi yellənirdi…

**29.08.2017.**
**Los Angeles**

## FATİMƏNİN LƏPƏDÖYƏNDƏ ÇƏKDİYİ RƏSMLƏR

Atası ilə qardaşı Sakit okenda çimir, Fatimə ilə babası isə ləpədöyəndə gəzişirdilər. Dalğalar elə bil ütüləmişdi sahili... Hər yer haphamar idi. Birdən Fatimənin ağlına nə gəldisə, yerdən bir balıqqulağı qırığı götürdü və onunla yerdə iki bayraq şəkli çəkdi.

Cizgilərdən aydınca görünürdü ki, bu bayraqlardan biri Azərbaycanın, o birisi isə Amerikanındır... Sonra Fatimə bayraqların yanında iki söz cızdı: baba, Fatimə... Yanda isə bir ürək şəkli çəkdi... Sonra gülə-gülə üzümə baxıb dedi:

– Baba, bax!

Baba əvvəldən hər şeyə baxsa da, özünü ilk dəfə görürmüş kimi göstərdi:

– Oy, nə qəşəngdi!

Elə bu vaxt nəhəng bir dalğa sahilə sarı şütüdü. Fatimə həyəcanla onun qarşısını kəsmək istədi... Səsiylə bir qışqırdı:

– Yoooxx!

Dalğa işə öz işindəydi. Bircə dəfə sahilə gəlib qayıtmaqla hər şeyi silib təmizlədi.

Fatimənin pərt olduğunu görən baba ona təskinlik verdi:

– Narahat olma, mənim balam! Dalğa sənin də, mənim də adımı apardı ki, okeanın içindəki balıqlar oxusun... Bayraqlarımızı apardı ki, bu gözəl bayraqları balıqlar da görsünlər...

Fatimə gülümsündü:

– Hə, baba, düz deyirsən...

Dalğalar Fatimənin çəkdiyi şəkilləri yuyub aparsa da, o şəkillər babanın yaddaşına əbədi həkk olundu...

**09.08.2018.**
**Los Anceles, Venis çimərliyi**

## HASARI QORUYAN RƏSMLƏR

Amerikada şəxsi villalara çəkilən hasarlar rəmzi səciyyə daşıyır. Evlərin küçəyə baxan ön hissəsi hasarsızdır. Lakin yaşıllıq, bir parça çəmən, əkilən güllər, düzülən çaylaq daşları ərazinin hansı evə məxsusluğunun göstəricisidir. Demək olar ki, bir-birinin təkrarı olan ev və həyət yoxdur...

Hər dəfə oğlumgil yaşayan çoxmərtəbəli evin birinci mərtəbəsindən, daha doğrusu, onun zirzəmisindəki çoxyerlik qarajdan maşınla çıxanda istər-istəməz cərgənin düz kənarındakı evin yan hasarı diqqətimi cəlb edirdi... Bu ağ

hasarın divarlarında uşaq təxəyyülünə uyğun çəkilən rəngarəng rəsmlər, kəpənəklər, çiçəklər, şarlar həmişə məni düşündürürdü... Fikirləşirdim ki, bura yəqin uşaq bağçasıdır...

Maşın sürən oğlumun fikri yayınmasın deyə ondan heç nə soruşmurdum... Ancaq hər dəfə xüsüsi düyməni basanda qapı açılan kimi gözlərim üstü rəsmlərlə bəzədilmiş həmin divara sataşır, hər dəfə də ürəyimdən eyni şey keçirdi...

Bir gün elə bil oğlum bunu hiss elədi. Gülümsünüb soruşdu:

– Dədə, nə fikirləşirsən?

Suala cavab vermədən özüm sual verdim:

– Yəqin bu uşaq bağçasıdır?

– Yox, şəxsi evdi...

– Bəs elə isə niyə divarın üstünü bu cür şəkillər bəzəyir?

– Hə, dədə, bunun qəribə bir tarixçəsi var. Bu hasarın divarı kağız kimi ağ olduğundan, şirə arıları özünə çəkdiyi kimi uşaqların da diqqətini özünə çəkirdi. Kimin əlinə nə keçirdisə, bu ağ lövhənin üstünə onunla şəkillər çəkirdi... Kimi fısıldayan rənglərdən, kimi qələmdən, kimi şüşə qırığından, kimi rəngli karandaşdan, kimi kömürdən istifadə edirdi... Hasarın üstü əcaib-qəraib şəkillərlə dolurdu...

Sahibi divarı neçə dəfə rənglətdirsə də, nadinc əllər dinc durmur, yenə bir neçə günə bəmbəyaz divar tanınmaz hala düşürdü... Çarəsiz qalan ev sahibi valideynləri xəbərdar etsə də, cərimə ilə hədələsə də, xeyiri olmurdu ki, olmurdu...

Nəhayət, uşaq psixologiyasını yaxşı bilən bir insan evin sahibinə məsləhət verdi. Dedi ki, bu divarda elə rəsmlər çəkdir ki, uşaqların xoşuna gəlsin...

Hasar yenidən rənglədiləndən sonra, peşəkar bir rəssam çağırdılar. O, uşaqların görmək istədikləri, ancaq çəkə bilmədikləri rəsmlərlə bəzədi divarların üstünü...

Elə o vaxtdan uşaqlar divara bir dənə də olsun rəsm çəkməyiblər. Necə deyərlər, peşəkarcasına çəkilən rəsmlər hədə-hərbənin, öyüd-nəsihətin görmədiyi işi gördü...

İnsan gözəllık yaratmaq istəyir... Düzdür, buna həmişə ürəyi istəyən kimi nail ola bilmir... Ancaq gözəlliyə əl qaldırmaq insana məxsus sifət deyil...

Görünür, bu fikir təsadüfi deyilmiş: "Dünyanı gözəllik xilas edəcək"...

**21.08.2018.**
**Los Anceles. Venis**

## MEDALYON

Fatimə məktəbdəki kitab mağazasına girib, xoşuna gələn iki kitab seçdi. Baba kitabların pulunu verdi. Onlar kitabları da götürüb birlikdə evə gəldilər... Kitabların birinin üstünə hədiyyə olaraq bir medalyon da yapışdırmışdılar. Ancaq Fatimə bu hədiyyəni açmağa tələsmədi... Dedi ki, ancaq kitabı oxuyandan sonra onu açıb boynumdan asacam!

Fatimə belə də elədi. Medalyonu boynuna asıb babanın yanına gəldi. Gördü ki, baba kompüterdə işləyir. Ürəyindən qəribə bir istək keçdi... Sakitcə gəlib babasının boynuna mindi... Dedi ki, ay baba, mən sənin medalyonunam!

Baba onu öpdü, saçlarını sığalladı... Ancaq öz işindən də ayrılmadı...

Fatimə babanın boynundan düşəndə, onun medalyonu qırıldı... Qızcığaz ağlamağa başladı... Nə qədər elədilərsə, onu sakitləşdirmək mümkün olmadı... Baba dedi ki, Fatimə, ağlama, sənə ondan da yaxşı medalyon alaram.

Fatimə isə ağlaya-ağlaya deyirdi:

– Yox, mən öz medalyonumu istəyirəm...

Səsə Fateh gəldi. Bacısının qırılmış medalyonuna baxıb dedi:

– Fatimə, ağlama, indi sənin medalyonunu düzəldəcəm.

Fateh hardansa qaynaq edən alətini tapıb çıxardı. Bir neçə dəqiqədən sonra medalyon hazır idi...

Fatimə sevindi. Yenə medalyonu boynundan asıb, ora-bura qaçmağa başladı.

Nənə Fatehi öpüb dedi:

– Gəl ustanın haqını verim...

– Nənə Fatehə 10 dollar verəndə Fateh zarafatla dedi:

– Fatimə, xahiş eləyirəm, get medalyonunu yenə qır!

Hamı güldü... Fatimə də onlara qoşuldu...

**26.08.2018**

## ÇƏKMƏLİ ÇİÇƏKLƏR

Çəmənə səs düşdü ki, ay aman, möcüzəyə baxın, yanımıza çəkməli çiçəklər gəlir…

Təzəcə yatmaq istəyən güllər gözlərini açdılar. Əvvəlcə onlar heç nə görmədilər. Ona görə də İşıldaböcəkdən xahiş elədilər ki, yolu işıqlandırsın. Elə ki, işıldaböcək qanadlarındakı işıqları yandırdı, hamının gözləri çəkməli çiçəklərə dikildi…

– Ay aman, gör bəxtəvərlərin nə qəşəng çəkmələri var! Kaş bizim də belə çəkmələrimiz olaydı!

– Çəkmə sənin nəyinə lazımdı axı?

– Onları ayağıma geyinib şəhərə, insanların yanına gedərdim.

– Sərsəm-sərsəm danışma, insanların yanı yaxşı olsaydı, bu dibçək çiçəkləri heç onları yuxuya verib ayaqqabılarını oğurlamaz, geyinib bizim yanımıza qaçmazdılar!

– Hə, doğrudan da! Heç bunu fikirləşməmişdim…

Güllər söhbət eləyir, çəkməli çiçəklər isə iri addımlarla onlara sarı gəlirdi.

Birdən çiçəklərin canına vahimə düşdü:

– Birdən bu çəkməli çiçəklər bizi tapdayar, ha! Ay aman, başımızı götürüb hara qaçaq?

Çəkmələr çəmən çiçəklərini tapdalamaq istəyirdi ki, Fatimə vahimələndi, yox! – deyib yuxudan ayıldı.

Yadına içində gül-çiçək əkdiyi sevimli çəkmələri düşdü…

Bu çəkmələri Fatimə çox xoşlayırdı. Ancaq o, sürətlə böyüdüyü üçün balaca çəkmələr daha Fatimənin ayağına olmadı.

Qızcığazın ağlına qəribə bir fikir gəldi. Anası ilə məsləhətləşdi. Sonra çəkmələrə torpaq doldurub içinə gül əkdi. Onlara böyük həvəslə qulluq eləməyə başladı. Çəkməli çiçəklər qapının girəcəyində dayanmışdılar. Elə bil onlar içəri girməyə qorxurdular…

Fatimə tez çarpayısından qalxdı. Qaçıb qapının kandarındakı çəkməli çiçəklərə baxdı. Onlar heç hara getməmişdilər. Fatimə buna çox sevindi. Ancaq ayaqqabıların altındakı bir damcı palçıq, güllərin gözündəki şeh Fatiməni bir az şübhələndirdi:

– Bəlkə, doğrudan da, mənim çəkməli çiçəklərim gecə çəmənə gedib geri qayıdıblar? Yox bir, heç balaca çiçəklərin içi torpaq dolu bu boyda ayaqqabıları qaldırmağa gücü çatar?

Fatimə gülümsündü. Gətirib çəkmənin içində əkdiyi çiçəklərə su verdi və öz-özünə mahnı oxumağa başladı:

Mənim çəkmələrimi
Geyinən güllərə bax!
Elə bil ki, şamdanın
İçində yanır çıraq!

Kimin hünəri çatar
Gülümü soldurmağa?!
Güllərin gücü çatmaz
Çəkməmi qaldırmağa.

Yarpaqları yamyaşıl,
Ləçəkləri rəngbərəng.
Güllər çəkmədən qəşəng,
Çəkmələr güldən qəşəng…

**16.09.2015**

## İTƏN FINDIĞIN TAPILMASI

Fateh fındıq ağacının dibindən bir fındıq tapdı. Onu daşın üstünə qoyub, o biri daşla vurdu ki, sındırıb ləpəsini yesin. Ancaq fındıq sıçrayıb kənara düşdü. Nə qədər axtardısa, həmin fındığı tapa bilmədi ki, bilmədi.

Aradan bir neçə il keçdi. Fateh yenə həmin bağa gələndə gördü ki, həmin fındıq ağacının yanında balaca bir fındıq pöhrəsi baş qaldırıb. Bunu görən Fateh çox sevindi. Öz-özünə dedi ki, axır ki, səni tapdım!

Baba onun sözlərini eşidib təəccüblə soruşdu:

– Nəyi tapdın, mənim balam?

Fateh güldü:

– Baba, yadındadı, bir neçə il bundan qabaq bir fındığı sındırmaq istəyəndə sıçrayıb kənara düşmüşdü?

– Hə, yadımdadı.

– Nə yaxşı ki, o vaxt həmin fındığı sındıra bilmədim. Yoxsa bu fındıq kolu da bitməzdi…Mənə elə gəlir ki, bu ağac bir neçə il əvvəl mənim əlimdən qaçıb çuxurda gizlənən həmin fındıqdan əmələ gəlib…

Baba gülümsündü:

– Ola bilər.

Fateh də gülümsündü:

– Yaxşı ki, o fındıq əlimdən düşüb gizləndi. Yoxsa bu fındıq kolu da olmayacaqdı!

**08.02.2016**

# BİTDİLİCƏ, CİVİRTDƏK VƏ YER KÜRƏSİ

Uşaqlar, siz Bitdilicəni az-çox tanıyırsınız... İndi də onun kiçik qardaşı Civirtdəklə sizi tanış eləmək istəyirəm. Yəqin ki, təəccübləndiniz... Düşündünüz ki, Bitdilicənin adı qardaşının adının yanında lap toya getməli imiş! Civirtdək nədi? Heç belə də ad olar?

Məsələ bundadı ki, hamıdan kiçik olduğuna görə bu uşağa Civirtdək deyiblər. Sonra əsl adı unudulub... Bu ad Civirtdəyin o qədər xoşuna gəlib ki, əsl adı ilə onu çağırmağı hamıya qadağan eləyib. Bir də ki, Bitdilicənin qardaşı elə Civirtdək olar da! Burda təəccüblü nə var ki...

Civirtdək də böyük qardaşı Bitdilicə kimi hər şeylə maraqlanır, hara gəldi gedir. Boyu balaca olduğu üçün heç onu görən də olmur. Camaatın viza ilə getdiyi ölkələrə vizasız gedə, bahalı biletlə uçduğu təyyarəyə biletsiz minə bilir... Lap kefi istəyəndə təyyarəçinin papağından rahatca kreslo kimi də istifadə edir. Orada əyləşib göylərə baxır... Xüsusən gecə uçuşları onun daha çox xoşuna gəlir. Təyyarə elə bil ki, ulduzların arası ilə uçur... Bu ulduzlar saysız-hesabsız işıldaböcəkləri, bəzən də qığılcımları xatırladır...

Bir dəfə Bitdilicə ilə Civirtdək məktəbin yanından ötəndə qulaqlarına qəribə bir səs gəldi. Boylanıb içəri baxdılar. Balaca bir oğlan həvəslə şeir oxuyurdu.

Şeir Bitdilicə ilə Civirtdəyə o qədər xoş gəldi ki, ikisi də cıqqırlarını çıxarmadan əl-qol ata-ata şeir deyən uşağa əvvəldən axıra kimi qulaq asdılar:

Yer yerində durur ki,
Gecə-gündüz fırlanır...
Günəşin işığından
Gah o üzü nurlanır,
Gah bu üzü nurlanır...

Aqilə yol göstərir,
Nadanları azdırır...
Gah o, gah bu böyrünü
Günə verib qızdırır...

Yer yedirir, içirir
Hər an böyüdür bizi.
Dəyirman tək fırlanıb,
Dən tək üyüdür bizi...

Bircə an fırlanmasa,
Yer dayansa yerində,
Axan çaylar quruyar,
Hamı donar yerində...

Həyatı tənzimləyir
Əbədi bir hərəkət,
Tanrı səxavətlidir,
Yerə səpir bərəkət...

Gün sehrli ələkdi,
Ondan şəfəq ələnir.
Hər tərəf işıqlanır,
Dünya nura bələnir...

Hər zərrədə gizlənən
Hikmətə, mənaya bax:
Yer qazanda su çıxır,
Suyun dibində torpaq...

Elə ki, şeir bitdi, uşaqlar əl çaldılar. Bitdilicənin də, Civirtdəyin də ürəyində qəribə bir hiss baş qaldırdı. Onlar pıçıltı ilə bir-birlərinə dedilər ki, bəlkə biz də məktəbə gedib müəllimdən yaşadığımız Yer kürəsi haqqında nəsə öyrənək?

– Yox-yox, mən bunu istəmirəm... Məktəbdə uşaqlardan dərs soruşurlar.

– Burda pis nə var ki? Öyrənib-bildiklərini danışmaqdan gözəl nə ola bilər ki?!

– Yox, eşitmişəm ki, dərsə hazır gəlməyən uşaqları müəllim danlayır, onların gündəliyinə “2” yazır. Hələ bu azmış kimi uşaqları küncdə saxlayırlar.

– Ay dəli, heç bizi görəcəklər ki, küncə də qoyalar?

Bitdilicə ilə Civirtdək nə qədər sakit danışsalar belə, səsləri sinfi götürmüşdü... Müəllim qələmin arxasını yerə döysə də, səs kəsilmədi. Ona görə üzünü uşaqlara tutub uca səslə əmr etdi:

– Kəsin səsinizi.

Uşaqlar təəccüblə bir-birlərinin üzünə baxırdılar. Heç kəs danışmır, amma yenə də söhbət səsi gəlirdi...

Müəllim bir də acıqlananda Bitdilicə əli ilə Civirtdəyə işarə elədi ki, danışmasın.

Sakitliyi görən müəllim soruşdu:

– Hə, indi deyin görüm yaşadığımız Yer kürəsi haqda məlumat dinləmək istəyirsinizmi?

Hamı bir ağızdan söylədi:

– Bəli...

Bitdilicə ilə Civirtdəyin səsi də uşaqların səsinə qarışdı.

Müəllim böyük qlobusu yavaşca-yavaşca fırlada-fırlada uşaqlara Yer kürəsi haqda məlumat verməyə başladı. Dedi ki, Yer Kainatda, Günəş sistemində canlı orqanizmlərin yaşadığı yeganə planetdir. Alimlər belə hesab edirlər ki, Yer neçə milyard ilsə bundan qabaq günəş dumanlığından yaranmışdır. Ay da elə o zaman yaranmış və Yerin təbii peykinə çevrilmişdir. Təxminən Yerin, Ayın əmələ gəlməsindən milyard il sonra kürəmizdə həyat əlamətləri görünməyə başlamış, canlılar yaranmışdır.

Məlumat nə qədər maraqlı gəlsə də, Civirtdək bəzi şeyləri başa düşmədi. Pıçıltı ilə Bitdilicədən soruşdu:

– Qaqaş, o müəllimin danışa-danışa firlatdıgi nədir elə?

– Qlobus.

– Qlobus nədi?

– Qlobus Yer kürəsinin modelidi... Uzun illərdən bəri tədqiqat aparan alimlər dəstəsi bu qənaətə gəliblər ki, Yer kürə şəklindədir və fırlanır... Qlobusun üstündə yerin mükəmməl xəritəsi var... Bu xəritədə demək olar ki, heç nə unudulmayıb.

Səsin haradan gəldiyini bilməyən müəllim bu dəfə xəritədə okeanları, qitələri, ölkələri göstərdiyi çubuğunu bərkdən stolun üstünə vurdu. Səs kəsilən kimi o, söhbətinə davam elədi:

– Yer kürəsini əhatə edən, orada yaşayışı təmin edən hava təbəqəsi atmosfer adlanır. Bu hava qatı olmasa, Yer kürəsində yaşayış da ola bilməz. Atmosfer elə bil ki, yerin bələyidir, onu yad planetlərdən gələn meteor yağışlarından mümkün qədər xilas eləyir.

Civirtdək yenə özünü saxlaya bilmədi. Pıçıltıyla qardaşından soruşdu:

– Ay Bitdilicə, meteor yağışı nədi axı?

Bitdilicə gülümsündü. Kiçık qardaşı Civirtdəyin üzünə təbəssümlə baxdı. Sonra qaşlarını düyünləyib yalnız qardaşının eşidə biləcəyi bir səslə dedi:

– Ay Civirtdək, bu dünyanın işi uzundu... Onun o qədər sirləri var ki... Danışmaqla qurtarmaz... Bir də nə gəldi, harda gəldi danışsan, adaına zəvzək deyirlər...

– Nə, zəvzək? Bu sözü birinci dəfədi ki, eşidirəm...

– Bildi, bilmədi, ağzına nə gəldi danışanlara zəvzək deyirlər.

– Yox, mən zəvzək olmaq istəmirəm... Öz adıma nə gəlib ki? Mən Civirtdəyəm... O qədər, o qədər kiçiyəm ki, məni səndən başqa kimsə görmür... Amma böyük-böyük arzularım və dünyanın sirlərini öyrənməyə çox həvəsim var...

– Onda çox gəzmək, çox görmək, çox müşahidə aparmaq, çox oxumaq və çox düşünmək lazımdır... Ancaq unutma ki, gəzməklə, görməklə, müşahidə aparmaqla, oxumaqla da hələ iş bitmir... Gərək daim düşünəsən, fikirləşəsən, müqayisələr aparasan ki, bir nəticəyə gələ, dünyanın sirlərini az da olsa öyrənə biləsən...

Müəllim isə öz söhbətini davam eləyirdi:

– Alimlər çox-çox sonra öyrənmişlər ki, Yer kürə şəklindədir və öz oxu ətrafında fırlanır. Gecə ilə gündüzün növbələşməsi də məhz bu fırlanma nəticəsində yaranır. Yerin günəş düşən üzündə gündüz, kölgə düşən hissəsində isə gecə olur. Fəsillərin yaranması, onların ardıcıllıqla bir-birini izləməsi də məhz Yerin günəş ətrafında fırlanması nəticəsində əmələ gəlir. Kürəmizin 71 faizi okenların, dənizlərin, göllərin, cəmi 29 faizi isə quru ərazinin payına düşür...

Yenə Civirtdək özünü saxlaya bilmədi. Qardaşı Bitdilicəyə sual verdi. Özü də bu dəfə səsi lap bərkdən çıxdı:

– Kürəmizin böyük hissəsi sudursa, niyə ona su kürəsi yox, yer kürəsi deyirik?

Müəllim danışığına ara verdi. Sual onu bir qədər çaşdırdı. Uşaqlara əsəbi şəkildə dedi ki, söhbətimə axıra qədər diqqətlə qulaq assanız, hər şey sizə aydın olacaq. Əvvəla, Yer deyəndə təkcə torpaq nəzərdə tutulmur. İkincisi, kürəmizin böyük sahəsi su ilə örtülsə də, suyu öz qucağında saxlayan torpaq, daş, digər süxurlar deyilsə, bəs nədir?

Söz uşaqların ağlına batdı... Elə Bitdilicə ilə Civirtdəyin də... Araya sükut çökdü. Vəziyyətdən yaxşı çıxa bildiyinə, uşaqların yanında pərt olmadığına sevinən müəllim daha inamla öz söhbətini davam elədi:

– Atmosfer, hidrosfer, biosfer və litrosfer kimi örtüklərin yer səthində qeyri-bərabər paylanması da təsadüfi səciyyə daşımır. Bütün bunlar Yerin bir canlı orqanizm kimi tamlığından xəbər verir...

Civirtdək istədi ki, hidrosfer, biosfer və litrosfer sözlərinin də mənasını soruşsun. Bitdilicə barmağı ilə ona sus işarəsi verdi. Civirtdək düşündü ki, qardaşım düz deyir. Uzaqbaşı sözlərin mənasını axtarış saytları vasitəsilə də tapa bilərəm... Canlı şərh isə tamam başqa aləmdi. Yaxşısı budur, müəllimin sözünü kəsməyim, onun söhbətinin ardına qulaq asım.

Müəllim isə Yer haqqında bütün bildiklərini söyləməyə, uşaqların yanında özünü çoxbilmiş kimi göstərməyə çalışırdı. Əslində o, həqiqətən də, çox şey bilirdi:

Yer kürəsi elə qurulub ki, onun bir üzü sudursa, o biri üzü qurudur. Bunu əyani şəkildə sübut etmək üçün asan bir vasitə var. Əgər biz iynə ilə, biz ilə, yaxud başqa bir iti alətlə qlobusun quru hissəsini deşsək, iynənin ucu okeandan çıxacaq. Əgər okean olan hissədən deşsək, iynənin ucu qurudan çıxacaq...

Uşaqlar heyrətləndilər. Civirtdəklə Bitdilicənin ürəyində isə tez evə qaçmaq, qlobusun o üzündən, bu üzündən deşik açmaq arzusu baş qaldırdı. Lakin sonra pıçıltı ilə dedilər ki, bunu sonra da etmək olar, indi isə mütləq, mütləq müəllimin söhbətlərini dinləmək, çoxlu məlumat əldə etmək lazımdır.

Müəllim isə söhbətini davam etdirməkdə idi:

– Qlobusa diqqətlə baxın. Görürsünüzmü, Şimal buzlu okeanının əks istiqamətində Antarktida, Afrika və Avropanın əksində Cakit okean, Hind okeanının əksində Şimali Amerika, Avstraliyanın əksində isə Şimali Atlantika yerləşir...

Xəritəyə diqqətlə baxan uşaqlar təəccüblərini gizlədə bilmədilər. Birdən Bitdilicə özü də bilmədən bərkdən sual verdi:

– Ay müəllim, Cənubi Amerikanın əks tərəfində dəniz yoxdu axı?

Sualın kim tərəfindən verildiyinə o qədər də əhəmiyyət verməyən müəllim razılaşdı:

– Bəli, elədir! Bu bir istisnadır. Cənubi Amerikanın o biri üzündə Cənub Şərqi Asiya yerləşir. Ancaq kürəmiz üçün ən səciyyəvi cəhət onun bir üzünün su, o biri üzünün quru olması ilə əlaqəlidir... Yer üzündə qəribə bir simmetrya, qanunauyğunluq var. Əslində Yer kürəsini yaşayış üçün yararlı edən də elə budur.

Yer kürəsindəki materiklər də qoşa-qoşadır...

Civirtdək ağzını Bitdilicənin qulağına söykəyib pıçıltı ilə soruşdu:

– Qaqaş, materik nədir?

– Evə gedəndə axtarış saytında bu sözü axtararıq. Gəl müəllimin sözünü kəsməyək.

Müəllim isə danışırdı:

– Şimali Amerika Cənubi Amerika ilə, Avropa Afrika ilə qoşalaşır... Elə bil bu qoşalıq bir tarazlıq yaradır. Bu məsələdə də təkcə Antarktida müstəsnadır...

Əgər biz yer kürəsini şərti olaraq, xəyalən dörd dilimə bölmüş olsaq, onun üç dilimi okean hissəsi olacaq. Antraktida isə dilimlərin ucunda dörd hissəyə "parçalanmış" şəkildə görünəcəkdir. Bu cəhəti diqqətlə öyrənən Reklyu adlı alim 1868-ci ildə öz kəşfini "Üç birgə paralel əkiz materiklər qanunu" adlandırmışdır. Hər bir dilimdə olan materiklər cənub hissədə yerləşən şimaldakı materikə nisbətən şərqə doğru öz yerini dəyişmişdir. Deməli, onlar bir meridian üzrə yerləşməmişdir…

Civirtdək yenə Bitdilicənin qulağına pıçıldadı:

– Oy, bu müəllim nə qədər qəliz danışır! Elə sözlər deyir ki, heç indiyə qədər eşitməmişəm.

Bitdilicə onu sakitləşdirdi:

– Diqqətlə qulaq as. Başa düşmədiyin sözləri yadında saxla. İmkan olsa, sonda müəllimdən soruşarıq. Olmasa da problem yoxdu... Axtarış saytları yaradanların canı sağ

olsun! Nə yaxşı ki, daş dövründə yox, internet əsrində yaşayırıq...

Müəllim isə daha da həvəslə danışırdı. Bəs necə! Adam bilikli olanda özünə inamı çox olur!

– Bütün kainatı, o cümlədən də onun zərrəsi olan Yeri sərt qanunauygunluqlar idarə edir. Adam az-çox nəyisə öyrənən kimi heyrətə gəlir və Yaradanımızın qüdrətini dərk eləyir!

Bir növ üçbucaq şəklində olan materiklərin cənub hissəsi bir qanun olaraq nazik olub, oxvarı şəkildədir. Onların şimal hissəsi isə çox genişdir.

– Ay qardaş, bu materik nədi e axı? - Civirtdək pıçıltıyla soruşdu...

– Sakit ol, müəllimin sözünü kəsmə! Hər dəfə adamın əlinə belə fürsət düşmür!

Civirtdək qardaşının sözünə baxıb susdu. Müəllim isə danışmağında idi:

– Bəzi materiklərin şərq hissəsində adalar olduğu halda, onların qərb hissəsində belə adalar silsiləsi yoxdur. Asiyanın şərqində olan nəhəng adalar silsiləsi buna misal ola bilər.

Əvvəl dediklərimi bir də xatırladıram ki, Yer də digər planetlər kimi daim hərəkətdədir. Öz oxu ətrafında fırlanan Yerin səthində ara-sıra zəlzələlər nəticəsində qalxma və çökmələr olur ki, bunun da nəticəsində yeni dağlar, göllər və sair yaranır. Materik və okeanların simmetrik quruluşda yerləşməsi planetimiz fırlanarkən onun müvazinətini saxlamasına xidmət edir...

Vay dədəm vay! Gör bizim bilmədiyimiz nə qədər şeylər var imiş! – Bitdilicə qardaşını dümsüklədi! – Yatma, hələ öyrənməli çox şey var!

– Yer kürəsində elə yerlər var ki, ora daim qalın buz qatları ilə örtülü olur. Məsələn, Antarktidada buzlağın qalınlığı 4200, Qrenlandiyada isə 3400 metrə çatır. Allah eləməmiş, bu buzlaqlar ərisə, hər yer, hətta hündür zirvələr belə su

altında qalar... Deməli, buzlaqların özü də tarazlıq yaratmağa xidmət edir...

Civirtdək yenə özünü saxlaya bilmədi:

– Doğrudan da, səbəbsiz heç nə yox imiş... Allah hər şeyi ölçülü-biçili yaradıb....

– Hə, elədi, təsadüfi heç nə yoxdu. – Bitdilicə sakit səslə Civirtdəyə dedi.

Müəllim isə söhbətini davam etdirirdi:

– Yer qabığı da sirli, sehrlidir. Dağların, dərələrin, çökəkliklərin, düzlərin yaranması həm yerin özü, həm də səma cisimlərinin hərəkəti ilə əlaqəlidir. Yer qabığının qalınlığı Himalay, Pamir, Qafqaz dağları altında kilometr, sualtı silsilələr altında 20-30 kilometrdir.

Yer kürəsində həyatı təmin edən atmosfer, hava qatı və temperaturdur. Əgər hava olmasa, canlı aləm də təsəvvürə gəlmir. Allah günəşlə Yerin arasını elə yaradib ki, planetimizdə temperatur yaşayış üçün daim yararlı olsun! Yoxsa, günəşin hərarəti bütün canlıları yandırıb yaxardı... Hər şey ideal ölçüdə-biçidədir...Yerin fırlanma sürəti temperatur tarazlığını da tənzimləyir...

Yer üzünün formaları da temperaturun bərabər paylanmasına kömək edir.

Bitdilicə pıçıldadı:

– Yaradanın böyüklüyünə min şükür! Dünyada hər şey ölçülü-biçili yaradalıb...

– Hə, doğrudan da, elədir. – Civirtdək qardaşının sözünə dəstək verdi...

Müəllim isə danışırdı:

– Atmosfer Yer kürəsindəki canlıların həyatını təmin edir, onları Günəşin yandırıcı istisindən qoruyur. Bir tərəfdən də yer fırlanmaqla bu qaynar istidən öz yaxasını qurtarır. Günəş işığının Yer kürəsinin hansı üzünə düşməsindən asılı olaraq gah gecə, gah gündüz olur.

Dərsin əvvəlində qeyd etdiyim kimi fəsillərin növbələşməsi də Yerin Günəş ətrafında fırlanması və hansı məsafədə dayanması ilə əlaqəlidir.

Yerətrafı fəzada güclü maqnit sahəsi var. Bu sahəyə maqnitosfer deyilir. Maqnitosfer planetin ətrafındaki fəzadır və günəşin şüaları onun maqnit sahəsi vasitəsilə idarə olunur.

Atmosferin stratosfer, mezosfer və termosfer adlı hissələri var. Hər təbəqə fərqli bir dövran sürətinə malikdir. Stratosferin Yer səthini ultrabənövşəyi şüadan qismən qoruyan ozon təbəqəsi həyat üçün çox əhəmiyyətlidir. Atmosferdəki oksigen, hidrogen də yaşayış təminatçılarıdır...

Bu qədər mürəkkəb quruluşlu təbəqə Ulu Yaradanın qadirliyinin göstəricilərindəndir. Ümumiyyətlə, Allah Yer üzündə yaşayış üçün hər cür şərait yaratmışdır. Yer Kürəsi bizim və digər canlıların əbədi-əzəli vətənidir. Ona görə biz yaşadığımız Yerin qədrini bilməli, onu çirkləndirməməli, qorumalı və gözəlləşdirməliyik...

Müəllimin sözləri qurtaran kimi qəribə bir uğultu qopdu... Qeybdən bir mahnı səsi eşidildi. Bu səsi isə Yalnız Bitdilicə və Civirtdək eşidirdi:

Yerəm, Yerəm, Yerəm mən!
Möcüzəyəm, sirrəm mən!

Bulağım var, çayım var,
Hərəyə öz payım var!

Bağçalarım, bağlarım,
Dərələrim, dağlarım...

Çiçəkli çöllərim var,
Sonalı göllərim var...

Okeanlar, dənizlər,
Sənin yolunu gözlər!

Daşdırmayın səbrimi,
Bilin mənim qədrimi!

Bitdilicə Civirtdəyin qulağına pıçıldadı:

– Hə, doğrudan da, yaşadığımız dünya sirlərlə, möcüzələrlə doludur. Bu sirlərdən, möcüzələrdən baş açmaq üçün insan çoxlu oxumalı, öyrənməli, gəzməli və görmləldir.

Atalar doğru deyiblər ki, dünya gör-götür dünyasıdır... Görmək üçün gəzmək, baxmaq lazımdır, götürmək üçün isə düşünmək... Təsadüfi deməyiblər ki, baxmaq hələ görmək deyil...

Bu günkü dərs qurtardı... Uşaqlar çantalarını götürüb dincəlmək üçün evə getdilər. Bitdilicə ilə Civirtdək də onlara qoşulmuşdu. Yerin nəğməsi onların qulaqlarında təkrar-təkrar səslənirdi:

Yerəm, Yerəm, Yerəm mən!
Möcüzəyəm, sirrəm mən!

**18-28 avqust, 2018.**
**Los Anceles, Venis**

## BİTDİLİCƏ, CİVİRTDƏK VƏ NAĞILÇI BABANIN NƏVƏLƏRİ NAĞIL QƏSRİNDƏ

Elə ki, Bitdilicə ilə Civirtdək nağılçı babanın Amerikaya getmək, nəvələrini ziyarət etmək niyyətin bildilər, narahat olmağa başladılar. Həm də bir az qısqandılar elə bil. Bitdilicə dərindən bir ah çəkib dedi:

– Görürsən da, ay Civirtdək, nağılçı baba bizi qoyub gedir... Ayrı vaxt deyirdi ki, sizi çox istəyirəm. Sən demə onun çox istədiyi biz yox, nəvələri imiş!

– Hə, doğrudan da! – Civirtdək kədərlə Bitdilicənin sözünə qüvvət verdi...

Bitdilicə nə fikirləşdisə, nağılçi babaya haqq qazandırmaq fikrinə düşdü:

– Bəs neyləsin, bir tərəfdən heç onu qınamıram da. Gör nə qədər vaxtdı ki, nəvələrini görmür...

Civirtdək əsəbiləşdi:

– Necə yəni görmür! Həftə səkkiz, mən doqquz skaypla danışan kimdi bəs?

– Orası elədi, ancaq ay Civirtdək, bir şey var ki, görməklə hələ iş bitmir... Skaypla nəvvələrini qucaqlamaq, onları bağrına basmaq, öpmək, qoxlamaq olmur axı?

– Hə, orası elədi... Yəqin bir neçə ildən sonra bu da mümkün olacaq...

– Yəqin ki... Ancaq hələ bu sonranın işidi... Fakt odur ki, nağılçı baba bizi atıb nəvələrinin yanına gedir... Fikirləş gör necə eləyək ki, onu yolundan saxlayaq...

– Bu bir az çətin məsələdi. Nağılçı babanın ağlına bir şey gəldisə, onu yolundan döndərmək mümkün deyil... Digər tərəfdən, onu nəvələrlə görüşmək zövqündən məhrum eləmək də heç insafdan deyil...

Birdən Bitdilicənin ağlına qəribə bir fikir gəldi:

– Evrika! Evrika!

Civirtdək təəccübləndi və əsəbiləşdi:

– Məşədi İbad demişkən, heç gör hənanın yeridi?! Evrika nədi, ay dəli?!

– Eşitməmisən? Görkəmli alimlərdən biri öz kəşfini eləyəndə həyəcanla bu sözü deyib:

– Evrika!

– Pah, buna bax! Sən də özünü alim sayirsan?

– Yox, alim saymıram. Alim olmaq o qədər də asan məsələ deyil.

– Bəs onda niyə deyirlər ki, alim olmaq asandı, insan olmaq çətin?

– İnsan insan balası olanda insan olmaq heç də çətin deyil. İnsan balası heç bir zəhmət çəkmədən elə atası, babası kimi yaşayacaq. Ancaq alim oğlu zəhmət çəkməsə, oxumasa, öyrənməsə, araşdırma aparmasa, ondan alim olmaz. Əslində alım olmaq daha çətindi. İslam Peyğəmbəri nahaq deməyib ki, qiyamət günü alimlərin qələminin mürəkkəbi şəhidlərin qanı ilə tərəziyə qoyular və alimlərin qələminin mürəkkəbi şəhidlərin qanından ağır gələr...

– Hə, bunu eşitmişəm. “Alim öldü, aləm öldü” kəlamını da eşitmişəm, “Elmi beşikdən qəbrədək öyrənin!” tövsiyəsini də... Ancaq bunun məsələyə nə dəxli var axı? Sən nə kəşf eləmisən ki, “evrika” deyə bağırırsan!

– Məsələ bundadı ki, mən vəziyyətdən çıxış yolu tapmışam. Gəl babanı yolundan saxlamayaq. Bu, heç insafdan deyil...

– Bəs onda neyləyək?

– Neyləyəsiyik, babaya qoşulub biz də onunla Amerikaya gedək!

– Heç nə danışdığının fərqindəsən? Xarici ölkəyə getmək üçün viza, yəni icazə almaq lazımdı...

– Ay gic, Bitdilicəyə, Civirtdəyə nə icazə?

– İcazə almasaq, bizi sərhəddən kim buraxar?

– Bəs babanı necə buraxırlar?

– Ona görə ki, onun oğlu, nəvələri xaricdə yaşayır. Babaya icazə veriblər ki, gedib öz doğmalarını ziyarət eləsin...

– Bizə də viza versinlər da!

– Verməzlər...

– Axı niyə?

– Ona görə ki, bizim Amerikada doğmamız, əzizimiz yoxdu ki, onu ziyarət etmək üçün müraciət edək...

– Hə, doğrudan da...

– Dayan, dayan, ağlıma qəribə bir fikir gəldi. Babanın nəvəsinin oxuduğu kitabların qəhrəmanları bizə viza göndərə bilməzlər?

– Hə, heç bu mənim ağlıma gəlməmişdi... Ancaq orada hansı nağıl qəhrəmanları var axı!

– Niyə yoxdu ki! Məslən, elə biri Harri Potter...

– Harri Potter kimdi?

– Babanın nəvələrinin, həm də bütün Amerika və dünya uşaqlarının oxuduğu kitabların qəhrəmanı.

– Bu kitabları kim yazıb axı?

– Coan Rolinq adlı bir xanım. Özü də bu əsər nə az, nə azacaq, 7 cilddən ibarətdir!

– Vay dədəm vay!

“Harri Potter və Fəlsəfə Daşı" bu romanlar silsiləsinin ilk,“Harri Potter və Ölüm Hədiyyələri” isə sonuncusudur…

Bu kitablardan biri də “Harri Potter və sirlər otağı” adlanır... Doğrusu, bu əsər mənim daha çox xoşuma gəlir...

– Məzmununu danış görüm orada nədən danışılır?

– Ay dəli, babanın getməyinə az qalıb, sən də istəyirsən ki, roman danışım?

– Roman nədi?

– Dedim də bayaq. “Harri Potter və sirlər otağı” romanı...

– Nə? Roman? Mən də elə bilirəm balaca bir nağıldı...

– Nağıla bax ha! Yeddi cildlik romana balaca nağıl deyirsən?

– Nə? Yeddi cild?

– Fikrin hardadı sənin? Bayaq dedim axı... Hə, hə, yeddi cild!

– İnanmağım gəlmir ki, yeddi kitabdan ibarət romanı oxusunlar... Heç bir uşağın buna hövsələsi çatmaz...

– Çatar, çatar, elə çatar ki! Nəinki başqaları, hətta bizim nağılçı babanın nəvələri də bu kitabı bir neçə dəfə oxuyublar... Bu əsər dünyanın bir çox ölkələrində nəşr olunub, hətta onun əsasında film də çəkilib...

– Yəqin çox maraqlıdı...

– Hə, çox maraqlıdı...

– Ay qardaş, baba gedir, sən də mənə cəfəngiyyat danışırsan! Bəlkə ürəyindən keçir ki, Harri Potter bizə viza göndərsin?

– Göndərsə, pis olmazdı. Ancaq, ay dilbilməz, nağıl qəhrəmanlarına nə viza axı?!

– Vizasız bizi Amerikaya kim buraxacaq?

– Kim bizi görəcək ki, buraxmaya?

– Bəs ora necə gedəcəyik?

– Lap sadə... Girərik nağılçı babanın kompüterinin içinə, burada bizi heç kəs görməz...

– Hə, yaxşı fikirdi...

Baba kompüterini söndürüb çantaya qoymaq istəyəndə, Bitdilicə ilə Civirtdək macal tapıb cəld onun içinə girdilər... Kompüterin qapağı örtüləndə az qala Civirtdəyın sol ayağı onun arasında qalacaqdı... Xoşbəxtlikdən son məqamda o, ayağını qapağın arasından çəkə bildi...

Bitdilicə ilə Civirtdək nağılçı babanın kompüterinin içində yatmaq istədilər... Ancaq gözlərinə yuxu getmədi ki, getmədi... Elə bil nağıl qəhrəmanlarımız kimi onlar da barmaqlarını kəsib, üstünə duz səpmişdilər ki, gözlərinə yuxu getməsin...

Babanın böyük oğlu onu maşını ilə Heydər Əliyev adına hava limanına apardı. Bitdilicə ilə Civirtdək səslərini içlərinə salıb dayansalar da, maraq onlara güc gəldi. Kompüterin içindən çıxıb, babanın köynəyinin döş cibinə girdilər və düymənin deşiyindən ətrafa baxdılar. Hava limanı çox səliqəli və gözəl idi... İşıqlar bərq vururdu. Burada o qədər maşın var idi ki... Babanın oğli maşın saxlamağa yer tapmırdı. Çox fırlanandan sonra axır ki, bir yer tapıb maşını saxladı.

Təkərli çomadanlar hərəkətə başladı. Bu, Bitdilicənin də, Civirtdəyin də çox xoşuna gəldi. Onların hərəsi tullanıb bir çomadanın üstünə mindi... Hava limanınına çatan kimi qapılar taybatay açıldı... Lap nağıllarda olduğu kimi...

İnsanlar illər boyu xəyallarında yaşatdıqlarını həqiqətə çevirməyi bacaran yeganə məxluqlardır. Qanad çalıb uçan quşlara həsədlə baxanların ürəyindən uçmaq arzusu keçib əsrlər boyu. Bu istək uçan xalça ideyası doğurub... İllər, əsrlər keçib və nəhayət, təyyarələr yaranıb... Özü də bu günün təyyarəsi ötən əsrin təyyarəsi deyil ha! Kimin ağlına gələrdi ki, təyyarə ilə dünyanın bu başından o başına uçmaq olar?!

Bitdilicə bu haqda fikirləşirdi ki, bir də gördü ki, çomadanlar baqaj üçün təhvil verilir, yük yerində getməyi özünə sığışdırmadı. Tez sıçrayıb yenidən babanın kompüterinin içinə girdi. Civirtdək də ondan geri qalmadı...

Əşyaları xüsusi nəzarət qurğusundan keçirəndə Bitdilicənin də, Civirtdəyin də ürəyi həyəcanla döyünməyə başladı. Nəzarətçi elə bil şübhələndi. Babadan xahiş etdi ki, kompüteri işə salsın. Baba kompüteri açanda Bitdilicə ilə Civirtdək cəld ordan çıxıb, babanın cibinə girdilər. Sərhəd xidmətçiləri babanın pasportunu yoxlayıb möhür vurdular... Ona yaxşı yol dilədilər... Yalnız təyyarəyə minib yerlərini rahatlayandan sonra Bitdilicə ilə Civirtdək rahatca nəfəs

aldılar. Onlar arxayınlıqla keçib düz illüminatorun – təyyarənin pəncərəsinin üstündə öz yerlərini rahatladılar...

Nəhayət, təyyarə hərəkətə gəldi. Uçüş zolağına çıxıb sürətini anbaan artırdı və qəflətən göyə qalxdı... Təhlükəsizlik kəməri taxmadıqları üçün Bitdilicə və Civirtdək müvazinətlərini saxlaya bilməyib havaya uçdular. Onlar elə bil çəkisizlik şəraitində idilər... Təyyarənin içində ora-bura hərəkət edirdilər. Yalnız təyyarə lazımi uçuş yüksəkliyinə qalxdıqdan sonra adamlar kəmərlərini  açdılar.

Bitdilicə və Civirtdək kimsənin gözünə görünmədən yenidən əvvəlki yerlərinə qayıtdılar. İllüminatordan maraqla aşağı baxmağa başladılar... Mənzərələr bir-birini əvəz edirdi... Dağlar, çaylar, göllər, şəhərlər və kəndlər elə gözəl görünürdü ki... O qədər baxdılar, baxdılar ki, Bitdilicəni yuxu tutdu...

Birdən Civirtdək həyəcanla dilləndi:

– Bitdilicə, ay Bitdilicə, aşağı bax! Hər yan qar içindədi...

Bitdilicə gözlərini açmadan dilləndi:

– Gop eləmə! Yayın bu cırhacırında qar nə gəzir! Yəqin bəyaz buludlardı gözünə görünən...

– Yox, məgər mən buludla qarı seçə bilmirəm? Bir gözlərini aç bax da!

Bitdilicə tənbəl-tənbəl gözlərini açıb aşağı baxanda həyəcanla dedi:

– Uy dad! Doğrudan da, hər yan qardı ki!

– Bax, sən də mənə inanmırdın...

– Görəsən haradı bura?

– Uçuş xəritəsində Qrinlandiya yazılmışdı...

– Hə, hə, bu haqda hardasa oxumuşdum. “Qrin” yaşıl, “land” isə torpaq deməkdi...

Civirtdək təəccüblə etirazını bildirdi:

– Burada nə yaşıllıq var, nə də torpaq görünür...

– Elə olmağına elədir... Bura Şimal yarımkürəsində yerləşdiyi üçün havanın temperaturu həmişə aşağı olur... Elə buna görə də Qrinlandiyaya yağan qar heç vaxt ərimir...

– Hələ bir donmuş dənizin içindəki qar tığlarına bax! Elə bil pambıq tayalarıdır...

– Mən eşitmişəm ki, bu adada insanlar yaşayır... Ancaq nədənsə inanmağım gəlmir... Heç belə yerdə də yaşamaq olar?

– Olar, niyə olmur ki...

Onlar söhbət eləyə-eləyə aşağı baxırdılar... Və nəhayət, gözlərinə yaşayış yerləri sataşdı... Qar altında qalan evlər...

Doğrudan da, insan qəribə məxluqdur... O, dünyanın hər yerində yaşamağı bacarır... Elə bil ki, bu ada qışın iqamətgahıdır... Havalar isinən kimi yayın əlindən qaçıb bura sığınır...

Civirtdək Bitdilıcəyə dedi:

– Ora bax, ora bax, nağılçı baba da aşağı, qarla örtülmüş adaya baxır... O biri sərnişinlər isə mürgüləyirlər...

– Görəsən nağılçı baba nə düşünür? Onun fikirlərini bilmək maraqlı olardı...

– Hə, elədi...

– Bəs necə soruşaq? Bilsə ki, ondan icazəsiz Amerikaya gedirik, lap hirslənər...

– Hə, hirslənəndə onun üzünü görmə! Ancaq çox ürəyi yuxa, həssas, kövrək adamdı...

– Həssas, kövrək sözünü anladım... Bəs ürəyi yuxa nədi?

– Heç yuxa yeməmisən?

– Yox.

– Onda heç ağzının dadını bilmirsən ki?!

– Axı nədi yuxa?

– Lavaş, fətir sözlərini necə, eşitməmisənmi?

– Eşitmişəm, əlbəttə, eşitmişəm...

– Dadına necə, baxmısanmı?

– Hə, özü də çox. Təndirdə bişən çörəkləri çox xoşlayıram... Pendirlə lavaşın dadı ayrı aləmdi...

– Yuxa da elə lavaş kimi bir şeydi...

– Yuxanı da təndirdə bişirirlər?

– Yox, yuxanı təndirə yapsan, yapışıb divarda qalar...

– Niyə?

– Ona görə ki, yuxa çox nazik olur. Yalan olmasın, lap kağız kimi...

– Bəs onu harda bişirirlər?

– Sacın üstündə. Xəmiri nazik yayıb altında ocaq yanan sacın üstünə sərir, sonra şişlə çevirirlər... Yuxa bişəndə qupquru olur... Sonra yemək vaxtından bir az əvvəl onun üstünə azca su cəpirlər ki, yumşalsın... Elə dadlı olur ki, yeməklə doymaq olmur.

– Hə, anladım. Ancaq yenə bilmədim ki, "qəlbi yuxa" nə deməkdi?

– Dedim axı, yuxa nəpnazik olur. Ona görə də el arasında həssas, kövrək adamlara "qəlbi yuxa" deyirlər...

– Sözə bax e, "qəlbi yuxa"... Ancaq ifadə mənim də çox xoşuma gəldi... Ancaq sən fikrimi yayaındırma. De görüm necə eləyək ki, nağılçı babanın fikirlərini öyrənək?

– Bundan asan nə var ki? Görmürsən, baba qarlı düzlərə baxa-baxa nəsə yazır?

– Bəs o yazıları necə oxuyqaq?

– Bundan asan nə var ki? Hiss etdirmədən, sakitcə hərəmiz onun bir çiyninə çıxaq və kompüterdə nə yazdığını oxuyaq.

Dostlar dedikləri kimi də etdilər. Zənləri onları aldatmamışdı. Baba "Qrinlandiya" adlı şeir yazırdı. Bitdilicə ilə Civirtdək cakitcə bu şeiri oxumağa başladılar:

Təyyarədən baxıram,
Hava soyuq, ayazdı…
Adı yaşıl olsa da,
Bu ada bəmbəyazdı…

Bura Qrinlandiyadı,
"Qrin" yaşıl, "lənd" ada…
Qarlı dağlar, dərələr
Nələri salmır yada?

Şaxta coşqun suların
Dilinə kilid vurub.
Qış dənizdə elə bil
Qardan tayalar qurub.

Günəş əridə bilmir
Bu yerdə buzu, qarı.
Yuxularında görür
Yaşıl ada baharı.

Günəş şəfəq saçsa da,
Ada sazaqdan əsir…
Soyuqluğu artırır
Təyyarənin kölgəsi…

Yaz yaşıl libasına
Bürünüb, burdan köçüb.
Qış buranı özünə
Əbədi məskən seçib…

Günəşin gücü çatmır
Gətirməyə baharı…
Bəlkə insan nəfəsi
Əridə burda qarı…

– Hə, doğrudan da, gözəl şeirdi… Ancaq "lənd" sözü ingiliscə torpaq deməkdi, bəs görəsən niyə nağılçı baba "torpaq" yerinə "ada" sözü işlədir?

– Ada elə torpaqdan olur da! Məncə, ada sözü daha yerinə düşür…

Cöhbət o qədər uzandı ki, Bitdilicə ilə Civirtdək 12 saat vaxtın necə keçdiyini bilmədilər.

Təyyarə uçdu, uçdu, uçdu və nəhayət, Los Anceles aereportunda yerə endi...

Hamı kimi nağılçı baba da öz əşyalarını götürüb, təyyarədən aereporta daxil oldu... Ay aman, burda nə qədər adam var imiş... Pasportlara icazə möhürü vurdurmaqdan ötrü növbəyə durmaqdan başqa çarə yox idi...

Axır ki, nağılçı babanın növbəsi çatdı. Səlahiyyətli məmur pasportu yoxladı, babanın barmaqlarının izini götürdü, digər lazımi sənədlərə baxıb qol çəkdi, möhür vurdu... Bitdilicə ilə Civirtdək babanın sumkasının içinə girib cıqqırlarını da çıxarmırdılar... Qorxurdular ki, birdən onları Amerika Birləşmiş Ştatlarına buraxmazlar...

Ancaq xoşbəxtlikdən onları görən olmadı... Baba çamadanlarını götürmək üçün fırlanan eskalatorun yanında dayandı... Eskalator fırlandıqca çamadanlar gəlir, hərə özünə məxsus bağlamanı götürüb kənara çəkilirdi... Nəhayət, babanın da təkərli çamadanları gəlib çıxdı... Ağsaqqal yazıçı onları götürəndə elə bildi ki, çamadanlar yüngülləşib. Düşündü ki, bəlkə açıb içindən nəsə götürüblər. Ancaq o bilmədi ki, bu ağır bağlamaları qaldıranda Bitdilicə ilə Civirtdək də ona kömək eləyirmiş... Çamadanları yüngülləşdirən bu, bir də nəvələrini görmək istəyi idi...

Təyyarədən düşənləri qarşılamağa gələnlər cərgə ilə dayanıb hava limanından çıxanlara baxırdılar. Kim öz doğmasını, əzizini görürdüsə, qarşısına qaçırdı.

Gömrükdən rahatca keçdiklərinə görə bir qədər arxayınlaşan Civirtdək Bitdilicədən soruşdu:

– Görəsən babanın nəvələri onu qarşılamağa gəliblər?

– Əlbəttə!

– Bəs biz onları necə tanıyacağıq?

– Narahat olma, onlar hardansa baxırlar.

Bir az getmişdilər ki, əcnəbi səslər arasından iki doğma səs ucaldı:

– Baba! Nənə! Biz burdayiq!

Baba da, nənə də, Bitdilicə də, Civirtdək də çox sevindilər. Qürbət ölkədə doğma səs, doğma söz eşitmək necə gözəl imiş, İlahi!

Uşaqlar öz baba və nənələrinin boynuna sarılanda Bitdilicə də, Civirtdək də sevindilər... Ancaq bir qədər qısqandılar. Ürəklərindən keçdi ki, kaş bizi də qarşılayaydılar...

Sonra özləri özlərinə toxtaqlıq verdilər:

– Elə biz də nağılçı babanın nəvələriyik də!

– Hə, ümid eləyirəm ki, biz də bu qeyri-adi, ürəyi həyat eşqi, sevgi ilə dolu insanın nəvələri ilə dostlaşacağıq. Uşaq uşağı daha yaxşı başa düşür!

– Elədi! – Bitdilicə Civirtdəyin sözlərinə qüvvət verdi...

Onlar öpüşüb-görüşəndən, hal-əhval tutandan sonra hava limanından çıxdılar. Piyada keçidi üçün nəzərdə tutulan zolaqlı xəttin qarşısında durub, yolu keçmək üçün icazə düyməsini basdılar və gözlədilər. Bir az keçəndən sonra piyada keçidinin yaşıl işığı yandı. Elə bil ki, yanıb sönən əl işarəsi tez gəlin, – deyirdi!

Üzbəüz bina maşınları saxlamaq üçün yer idi... Piyada keçidini keçən kimi bu binaya girib, liftə mindilər. Üçüncü mərtəbədə qapı açıldı və nağılçı baba və nəvələri maşınların yanına çıxdılar. Babanın bir əlindən bir, o biri əlindən o biri nəvəsi tutmuşdu... Əvvəlcə Bitdilicə ilə Civirtdək qısqandılar, sonra bir-birinə göz-qaş elədilər. Hərəsi sıçrayıb babanın bir çiyninə mindi. Baba istər-istəməz addımlarını bir az yavaşıdanda nəvəsi soruşdu:

– Ay baba, nə tez yoruldun?

– Ay bala, yorulmağına yorulmadım, ancaq elə bil bədənim bir az ağırlaşdı...

– Yəqin yorulmusan, ona görə!

– Ola bilər.

Onlar çamadanları yük yerinə yığıb, maşına əyləşdilər və elə o dəqiqə də təhlükəsizlik kəmərini bağladılar. Maşın hərəkətə gəldi. Böyük bir çayın üstündən keçəndə nağılçı baba soruşdu:

– Bu, Ballona çayıdı deyəsən...

– Hə, baba, düz deyirsən. Nə yaxşı yadında qalıb?

– Keçən il şəhərə girən körfəzlə Ballona çayının arasındakı çığırla düz Sakit okena qədər getdiyimiz yaxşı yadımdadı...

Bitdilicə Civirtdəyin qulağına pıçıldadı:

– Babaya bax e, getmədiyi yer yoxdu...

– İndən belə bizdən xəbərsiz heç hara gedə bilməyəcək! – Civirtdək bic-bic güldü...

Bitdilicə dedi:

– Söhbət eləməyin vaxtı deyil. Yaxşısı budur əfsanəvi Los Anceles şəhərini seyr edək, küçələrə, parklara, xiyabanlara baxaq...

Onlar belə də elədilər... Babanın nəvələri isə bircə an da olsun sakit dayanmır, ona suallar verirdilər.

– Ay baba, bizə diskə yazılmış Azərbaycan xalq mahnıları gətirmisənmi?

– Əlbəttə, heç bunsuz olarmı? O mahnılar sizə qəribliyinizi unutduracaq... Qürbətdə də özünüzü elə vətəndə olduğu kimi hiss edəcəksiniz...

Nənə də söhbətə qarışdı:

– Mən də sizə şəkərbura, paxlava, qoğal bişirib gətirmişəm...

– Sağ ol e, ay nənə! Deyəsən kəklikotu da gətirmisən...

– Heç onsuz olarmı?

– Deyirəm axı, sənin sumkandan vətən qoxusu gəlir...

Söhbət yola nərdivan qoydu... Babanın oğlu düyməni basan kimi yeraltı qarajın qapısı açıldı. Onlar içəri girdilər. Maşından düşüb, əşyaları götürdülər... Liftin qabağına gəlib düyməni basdılar. İkinci mərtəbəyə çatanda düşüb, 202-ci qapının zəngini çaldılar... Babanın gəlini qapını açdı... Öpüşüb-görüşdülər. Sonra paltarlarını dəyişib yuyundular...

Süfrə hazır idi. Burada hələ heç kəs oturmamışdı... Ancaq bəzi yeməklər yeyilmişdi... Anaları uşaqları danladı ki, hamı birlikdə süfrə arxasında əyləşməyincə yeməyə əl vurmaq olmaz.

Ana hardan biləydi ki, uşaqların bir günahı yoxdu... Yeməyi onlar yox, Bitdilicə ilə Civirtdək yemişdi... Çünki onlar bərk acmışdılar...

***

Baba ilə nənə axşam yeməyindən sonra nəvələri ilə gəzməyə çıxanda Bitdilicə ilə Civirtdək də onlarla gedirdilər...

Elə evin yanındakı küçənin bu üzündən o biri üzünə təzəcə keçmişdilər ki, Bitdilicə sevincək dilləndi:

– Civirtdək, ay Civirtdək! Bir bura bax...

Civirtdək Bitdilicənin göstərdiyi tərəfə baxdı və gözlərinə inanmadı.

– Ay dad, Amerikada da nar ağacı var imiş ki!

Nağılçı baba da üstü narla dolu ağaca təəccüblə baxdı. Nəvəsindən soruşdu ki, bu bağ-bostan kimindi belə düz şəhərin ortasında?

Nəvə dedi ki, ay baba, bura torpaq sevən, əkib-becərmək istəyən insanlar üçündü. Kim istəsə gəlib burada nə istəsə əkə, becərə bilər...

Baba bir az düşünüb dedi:

– Hə, yəqin təcrübə sahəsidi.

Nəvəsi onun fikrini təsdiqlədi...

Onlar yollarına davam elədilər... Evlərin arasındakı küçələr çox geniş və yaraşıqlı idi... Yan-yana düzülmüş şəxsi evlər qətiyyən bir-birinə bənzəmirdi... Ancaq elə bil ki, ümumi bir ahəng, stil onları birləşdirirdi... Evlərin demək olar ki, əksəriyyətinin qabağında bizdə olduğu kimi hasar gözə dəymirdi... Hasarı simvolik çəmənlik, yaxud gül kolları, bənzərsiz ağaclar əvəz eləyirdi... Bunlar nağılçı babanın çox xoşuna gəldi...

Evlərin əksəriyyətinin birmərtəbəli olması, taxtadan tikilməsi də babanı təccübləndirdi. Bunu hiss edən oğlu ona dedi ki, ata, bura həm zəlzələ zonasıdı, həm də Sakit okeana çox yaxındı. Elə buna görə də həm zəlzələdən, həm də rütubətdən qorunmaq üçün bu tipli evlərə üstünlük verilir. Digər tərəfdən, Koliforniyanın, o cümlədən də Los Ancelesin iqliminin mülayimliyi də bu cür evlərin tikilməsinin başlıca səbəbləridir...

Burada yağış qış aylarında, yazın əvvəlində yağır... Qardan heç əsər-əlamət də olmur...

– Bura doğrudanmı qar yağmır?

– Yox, yağmır... Qar görmək üçün qışda gərək bir-iki saat maşın sürüb dağların o biri üzünə aşasan...

Kardaley dağları şimaldan gələn soyuq hava axınının qarşısını alır.

Baba təəccüblə dedi:

– Onda burda adam istidən ölər ki...

– Yox, burda heç yayda da Azərbaycanda olduğu kimi istilər olmur... Ona görə ki, Sakit okeanın havası buranı həmişə sərin saxlayir...

Baba dedi:

– Hə, doğrudan da, belədi... Lap Şuşanın havasına bənzəyir. Günün altında istidi, kölgədə üşüyürsən...

Araya sükut çökdü. Babanın da, nənənin də üzünü elə bil buludlar aldı...

Civirtdək təəccüblə Bitdilicədən soruşdu:

– Nağılçı babaya nə oldu görəsən?

– Nə olacaq, görmədin Şuşanın adını çəkdi... Yəqin ki, düşmən tapdağı altında qalan el-obasını düşünür...

Bitdilicə öz mülahizəsində yanılmamışdı. Baba dərindən bir ah çəkib dedi:

– Belə də ədalətsizlik olar? Dünyanın hər yerinə gedə bilirəm, bircə doğulduğum torpaqdan başqa... İndi bizsiz qalan dağlarımızın, yaylaqlarımızın, meşələrimizin, çaylarımızın, bulaqlarımızın gözü yol çəkir... Ot basan yollar, cığırlar doğma qədəmlərə həsrətdi...

Baba susdu. Gözləri yol çəkdi. Oğlu ona toxtaqlıq verdi:

– Darıxma, ata! İnşallah nəvələrini də götürüb Qarabağa, Şuşaya, Qubadlıya, Laçına, Kəlbəcərə, Zəngilana, Ağdama, Füzuliyə, Cəbrayıla gedərsən...

Baba dərindən bir ah çəkib dedi:

– Allah ağzından eşitsin!

Araya sükut çökdü... Babanın gözləri gözəl-gözəl parklara, xiyabanlara baxsa da, elə bil heç onları görmürdü... Könlünün quşu yenə də əlçatmaz, ünyetməz doğma yurda uçmuşdu...

***

Oğlu, nəvələri nağılçı babanın fikrini dağıtmaq üçün planlar qurur, onu hər gün görmədiyi yerlərə aparırdılar ki, fikri dağılsın... Bilirdilər ki, baba dənizi çox sevir, elə buna görə də onu hər gün Sakit okeana çimməyə aparırdılar...

Babanın ürəyində Harri Potterin "Sirlər otağı"na getmək arzusu baş qaldırdı. Onun bu istəyi nəvələrinin də ürəyincə oldu... Bitdilicə ilə Civirtdək də sevindilər. Dönədönə baxdıqları filmin harada, necə çəkilməsi onları da çox maraqlandırdı...

Nəhayət, bir gün babanın oğlu onları maşına mindirib Hollivuda sarı sürdü... Yol boyu baba da, onun nəvələri Fatehlə Fatimə də, Bitdilicə ilə Civirtdək də televiziyada

gördükləri yanan dağlara baxırdılar... Ağacların budaqları yansa da, sehrli təbiət onları müalicə eləyirdi... Yanıb kösövə dönmüş ağacların kökündən yeni-yeni yaşıl şivlər boy atırdı...

Nəhayət, onlar Hollivud filmlərinin çəkildiyi şəhərciyə gəlib çatdılar. Bu da "Universal CityWalk Hollywood". Nağıllar dünyasıdır. Deyirlər ki, kim burada olmayıbsa, deməli, Los Ancelesdə olmayıb.

Əvvəlcə maşınla çoxmərtəbəli parklama sahəsinə daxil oldular. Mərtəbə-mərtəbə qalxıb maşın saxlamaq üçün yer axtardılar... Bitdilicə ilə Civirtdək heyrətlərini gizləyə bilmədilər:

– İlahi, burda nə qədər maşın var imiş...

Axır ki, bir yer tapıb maşını saxladılar. Sonra liftə minib aşağı qata endilər... Hollivud filmləri efirə gedəndə fırlanan simvolik Yer kürəsinin önünə gəldilər. Burada şəkil çəkdirmək üçün o qədər növbə var idi ki... Elə buna görə də vaxt itirməmək üçün elə adamların yanındaca şəkil çəkdirdilər... Əslində bu, daha yaxşı imiş... İnsan insanlar arasında olanda özünü daha güclü, qadir hiss edir...

Həhayət, növbəyə durub içəri keçmək üçün turniketlərə yaxınlaşdılar. Biletlərini verib, xüsusi icazə kağızı aldılar. Burdan keçəndə də adamları lap təyyarəyə minəndə yoxladıqları kimi yoxladılar...

Bitdilicə ilə Civirtdək gözə görünmədikləri üçün yavaşca nəzarətçinin yanından keçib şəhərciyə daxil oldular. Kənarda dayanıb cibləri yoxlanan nağılçı babaya, onun nəvələrinə baxıb ləzzətlə güldülər. Civirtdək dedi:

– Bax, nağıl qəhrəmanı olmağın ləzzəti də elə bundadı... Bizi yaradanı yoxlayırlar, ancaq heç bizə əhəmiyyət verən də yoxdu...

Söz Bitdilıcənin xətrinə dəydi:

– Nə demək istəyirsən? Deyirsən yəni heç bizi adam saymırlar, eləmi?

– Yox, mən elə demək istəmədim. Ancaq bu həqiqətdir ki, biz hamının yox, nağılçı babanın kitablarını oxuyanların gözünə görünürük... Burada da onun kitabını oxuyan kimdi axı?

– Hə, təəssüf ki, orası elədi... Burada Azərbaycan dilini kim bilir ki!

– Ümid babanın nəvələrinə qalıb... Bəlkə onun əsərlərini ingilis dilinə tərcümə eləyib nəşr eləsələr, elə biz də məşhur olarıq...

– Lap Harri Potter kimi...

– Hə, hə, onun bizdən nəyi artıqdı ki?!

Bitdilicə ilə Civirtdəyin başı söhbətə elə qarışdı ki, bir də gördülər ki, nağılçı baba ilə nəvələri ekskursiyaya getmək üçün avtobus qatarına miniblər... Onlar növbə gözləyən adamların çiyninə çıxıb qaçdılar, avtobus tərpənhatərpəndə özlərini zorla maşının içinə sala bildilər. Qaçıb biri Fatehin, o birisi də Fatimənin çiynində oturdu...

Maşın hərəkətə gəldi... Avtobus getdikcə, ekskursavod adamlara məlumat verməyə başladı... Civirtdək nəfəsi tıncıxa-tıncıxa dedi:

– Nə yaxşı ki, gəlib maşına çata bildik... Yoxsa, lap bu qədər adamın içində azardıq...

– Ay axmaq, azmaq nədi? Nağıl qəhrəmanları azmırlar...

– Bizim ölkədə olsa, sən deyən idi... Burada isə nə biz adamların, nə də adamlar bizim dilimizi bilirlər... Dövrəsində olan adamların dilini bilməyən lap vətəndə olsa belə qərib kimi bir şeydi...

Düz sözə nə deyəsən... Onlar susub düşünməyə başladılar. Avtobus qaranlıq bir tunelə girəndə adamların hamısının qara eynək taxdığını görən Bitdilicə ilə Civirtdək təəccübləndilər... Birdən ekranda gördükləri kino qəhrəmanları qaranlıqdan çıxıb avtobusdakı adamların üstünə hücüm eldılər. Bitdilicə qorxudan qaçıb Fatehin, Civirtdək isə Fatimənin eynəyinin altına girib gizləndilər. Eynək şüşə-

sindən ətrafa baxanda onlar lap özlərini kino qəhrəmanları ilə bir sırada gördülər...

Qorxu, səksəkə yavaş-yavaş arxa plana keçirdi. Sən demə "Kin Qonq" filmi məhz bu tuneldə çəkilibmiş... Birdən canlı Kin Qonq onlara hücum elədi... Avtobuslardan birini ovcuna alıb ovum-ovum ovanda adamlar vahiməyə düşdülər... Bu hələ bir yana, qorxunc heyvanlar, dinazavrlar ağızlarını açıb adamları udmaq istəyirdilər...

Elə ki, bu mağaradan çıxdılar, adamlar gülüşdülər. Başa düşdülər ki, bu film qəhrəmanları real yox, uydurmadır...

Elə təzəcə toxdamışdılar ki, avtobus başqa bir tunelə girdi. Silahlı quldurlar atışa-atışa avtobusa hücum elədilər...

Baba oğluna dedi:

– Yağışdan çıxdıq, yağmura düşdük... Ə, bura lap dəlixanadı ki!

Oğlu gülə-gülə nağılçı babaya dedi:

– Darıxma, yağış, yağmur hələ qabaqdadı...

Tuneldə silahlı quldurlar maşınla bir-birini qovur, min bir oyundan çıxırdlar. Maşınların bir-birinə toxunması, dəhşətli avtomobil qəzaları, partlayışlar, yanğınlar adamı lap vahiməyə salırdı...

Tuneldən çıxanda nağılçı baba da, onun qəhrəmanları Bitdilicə ilə Civirtdək də, nəvələri Fateh və Fatimə də bir qədər rahatlandılar...

Elə bu zaman göy guruldadı, ildırım şaqqıldadı, bir yağış yağdi ki, ucundan tut göyə çıx! Bir anda sel-su aləmi götürdü... Bu, qondarma yox, həqiqi yağış, həqiqi sel idi...

Oğlu nağılçı babaya dedi:

– Ata, bax yağış səhnələri burada çəkilir...

Doğrudan da, heyrətamiz bir mənzərə idi... Bu yağışı lazım olanda yağdırmağa qadir insanlar var imiş... Sən demə filmlərdəki yağış səhnələri məhz burada çəkilirmiş...

Nağılçı baba oğluna dedi:

– Ay bala, bəs o balinaların, köpək balıqlarının insanları parçalaması səhnəsini necə çəkirlər?

– Darıxma, indi məhz o əraziyə giririk...

Avtobus bir az gedəndən sonra okeanın bir parçasını xatırladan bir gölün yanında dayandı... Əvvəlcə rezin akulaları göstərib, sonra onları xüsusi qurğu ilə suyun dibinə endirdilər... Suyun üzündə yalnız üzən akulanın quyruğu görünürdü. Bir aktyor suya endi... Suyun altında nə oldu, nə olmadı onu bilmirəm, bircə onu bilirəm ki, akulanın dartıb suyun dibinə apardığı hissədə suyun üzü qıpqırmızı "qan"a bələndi...

Baba dedi:

– Gör bunlar film çəkəndə nə oyunlardan çıxırmışlar e?!

Babanın nəvələri şaqqanaq çəkib güldülər... Bitdilicə ilə Civirtdək də onlara qoşuldu...

Ekskursiya davam etdikcə məşhur filmlərdə gördüyümüz mənzərələr göz oxşayırdı.

Elə bil nağıllar dünyasına daxil olmuşdular... Bənzərsiz binalar, küçələr, evlər... Bir tərəfdə Paris, digər tərəfdə London, o biri yanda Nyu York...

Baba da təəccübləndi, Bitdilicə ilə Civirtdək də... Bu nədi, bütün ölkələrin məşhur şəhərləri bura köçürülüb elə bil...

Fateh bir ekskursavod – gid kimi danışmağa başladı:

– Baba, təəccüblənmə. Burada iri şəhərlərin maketini düzəldiblər. Film çəkərkən başqa ölkələrə getməyə ehtiyac qalmır... Hadisələrə uyğun şəkildə bu studiyalarda filmlər çəkirlər... Fransa həyatından bəhs edəndə Parisin, İngiltərə həyatından bəhs edəndə Londonun, Amerikadan bəhs edəndə Nyu Yorkun, eləcə də digər şəhərlərin hazırlanmış maketlərinin yanında filmlər çəkirlər... Elə buna görə də bura Universal Studio adlanır...

Baba xeyli düşündü. Sonra dedi:

– Yaxşı, bunlar aydındı. Bəs görəsən heyvanları necə filmə çəkirlər?

Oğlu babaya dedi:

– Onda gəlin həmin əraziyə gedək...

Baba etiraz elədi:

– Yox, mənim daha tunelə girməyə halım yoxdu...

– Narahat olma, bu dəfə açıq havada olacayıq...

Onlar növbəyə durub teatr, tamaşa salonunu xatırladan böyük bir salona girdilər... Salon deyəndə bura üstüaçıq nəhəng tamaşa zalı idi... Pillə-pillə ucalan oturacaqlar, qarşıda böyük bir sənə...

Zal ağzına qədər dolandan sonra təlimçilərin işarəsi ilə heyvanlar növbə ilə səhnəyə çıxıb, əməlli-başlı tamaşalar göstərdilər... Elə bil onların hamısı dil bilirdi... Ssenari üzrə bu heyvanları, quşları hazırlayıb filmə çəkmək o qədər də asan məsələ deyil...

Oy, insan zəkası, insan iradəsi nələrə qadir deyilmiş?!

Səhnəyə əlinin üstündə tutuquşu olan bir xanım çıxdı... O adamlara müraciətlə dedi ki, kim istəyirsə, ayağa durub mənə yardımçı olsun.

Orta cərgədən bir xanım ayağa qalxanda təlimçi dedi ki, əlində bir dollar tut, quşu göndərim, gəlib onu mənə gətirsin...

Qadında bir dollarlıq yox idi, ona görə 20 dollarlığı çıxarıb əlində saxladı və oturacağa əyləşdi. Quş təlimçinin işarəsi ilə uçub həmin qadının yanına gəldi, dimdiyi ilə pulu ovcundan götürüb təlimçinin yanına apardı.

Hamı əl çaldı. Baməzə qadın zarafatla dedi ki, bu pul artıq mənim oldu... Kim bu tamaşada iştirak eləyirsə, ovcunda iyirmi dollar tutsun...

Hər yana sükut çökdü... Pulun qayıtmağına əmin olmayan insanlar risk etmək istəmədilər. Necə deyərlər, ilan vuran ala çatıdan qorxar...

Elə bu zaman təlimçi ovcunu açıb, quşun gətirdiyi pulu göstərdi. Tutuquşu bir göz qırpımında iyirmi dollarlığı dimdiyinə alıb uçdu, havada dövrə vurmağa başladı... Adamlar gülüşdülər... Tutuquşu uçdu, uçdu və həmin 20 dolları qaytarıb öz sahibinin ovcuna qoydu...

Hamı əl çaldı... Bitdilicə heyran qaldı:

– Ay Civirtdək, bu quşdakı fərasəti görürsən!

– Hə, doğrudan da, möcüzədi... Ayrı vaxt düşüncəsiz adamlara quşbeyin deyirlər...

– Quşların beyini balaca olsa da, çox gözəl işləyir... Bu məsafədən o məsafəyə, bu ölkədən o ölkəyə dəqiq marşurutla uçan köçəri quşlara ağılsız deyənlərin özləri ağılsızdılar...

– Hə, düz deyirsən... İnsanlar uçmağı quşlardan, üzməyi balıqlardan öyrəniblər əslində...

– Təkcə balıqlardan yox, həm də üzməyi bacaran quşlardan...

– Hə, elədi. Qayıqların altı lap ördəyin, qazın, qu quşunun sinəsinə oxşayır...

Sonra təlimçilərin səyi ilə ayılar, şirlər, tülkülər, porsuqlar, itlər, pişiklər, siçanlar, toyuqlar min bir oyun çıxardılar... Peşəkar kino işçiləri isə bu hərəkətləri müasir texnologiyanın köməyi ilə lentə alır, reallığı qəribə effektlər hesabına möcüzəli bir görüntüyə çevirirdilər.

Alqışlar kəsilmək bilmirdi... Heyvanları, quşları isə bu sürəkli alqışlar yox, onlara çıxardıqları oyunlara görə təlimçilərin verəcəyi qida daha çox maraqlandırırdı...

Fateh babasının fikri ilə maraqlandı, gülə-gülə ondan soruşdu ki, ay baba, necədi, bu heyvanların hərəkəti xoşuna gəldimi?

– Nəinki xoşuma gəldi, hətta məni təəccübləndirdi də... Ağlıma maraqlı fikirlər gəldi. Heyvanların hərəkəti, tapşırıqları peşəkar aktyorlar kimi səhvsiz yerinə yetirmələri məni xeyli düşündürdü...

– Nə düşündün, ay baba?

– Düşündüm ki, çox qəribədi, yeməyini verəndə heyvan adam kimi hərəkətlər eləyir, yeməyini kəsəndə isə ən abırlı insan belə ac canavara çevrilir...

Heyvanların iştirakı ilə tamaşa bitəndən sonra nəvələri nağılçı babaya dedilər ki, indi də gedib canlı kinoya baxaq...

– Canlı kino nədi, ay bala?

– Canlı kino odur ki, aktyorların döyüş səhnələrinə, hərəkətlərinə ekandan yox, elə canlı-canlı baxmaq imkanımız olacaq...

– Teatrda olduğu kimi, eləmi?

– Hə, bir az teatra bənzəyir. Ancaq teatr səhnəsində bu hadisələri bütünlükdə canlandırmaq imkanı yoxdu...

– Bəs orda səhnə necədi?

– Tələsmə, baba, gedərik, özün görərsən...

Nağılçı babanın ən çox zəhləsi gedən şey növbədə durmaqdı... Burada isə maraqlı bir şeyə, tamaşaya baxmaq üçün növbəyə durmaq məcburiyyətindəsən...

Nağılçı babanın xasiyyətini yaxşı bilən Bitdilicə ilə Civirtdək qorxdular ki, birdən baba canlı filmə baxmaq istəməz... Ancaq xoşbəxtlikdən o, canlı film "göstəriləcək" yerə getməyə razılaşdı...

Tamaşa göstəriləcək yer çox böyük idi... Lap stadion kimi... Burada o qədər tamaşaçı var idi ki... Meydança əvəzi yer isə əməlli-başlı bir dənizi xatırladırdı... Elə belə dəniz yox ha, doğruçu dəniz. Hətta onun içində adalar da var idi... Sularında qayıqlar, katerlər o başa, bu başa üzürdü...

Canlı kinonun aktyorları tamaşaçıların yanına gəlib, onlarla görüşür, zarafatlaşırdılar... Hətta onların biri dənizdən vedrə ilə su götürüb, adamların üstünə atırdı...

Növbəti dəfə dənizdən su götürən aktyor pillələrlə düz orta cərgəyə qalxdı...

Baba istər-istəməz narahat oldu. Aktyor üzünü o biri tərəfə döndərib tamaşaçılarla söhbət eləyəndə isə bir qədər

arxayınlaşdı və gülə-gülə dedi ki, çox şükür, deyəsən xata bizdən sovuşdu...

Birdən aktyor üzü o tərəfə danışa-danışa bir vedrə suyu başının üstündən geriyə – düz nağılçı baba oturan cərgəyə atdı... Bir vedrə suyun hamısı düz babanın üstünə töküldü... Sel babanın çiyinlərində oturan Bitdilicəni də, Civirtdəyi də bir göz qırpımında dənizə apardı... Hamı güldü... Sel isə Bitdilicə ilə Civirtdəyi babaya gülmək ləzzətindən məhrum elədi... Ona görə ki, onlar öz başlarının hayında idilər... Dənizin ortasında əl-qol atıb çabalayır, sahilə çıxmağa çalışırdılar...

Elə bu zaman bir kater sürətlə dəniz-meydançaya daxil oldu... Onun altından çıxan su tamaşaçıların üstünə sıçradı və Bitdilicə ilə Civirtdək də o su ilə birlikdə yenidən tamaşaçıların yanına qayıtdılar. Onlar üstlərindən su süzülə-süzülə qayıdıb babanın nəvələrinin çiyinlərində əyləşdilər. Çünki onların üstü qupquru idi... Ancaq elə bərkdən gülürdülər ki, gözlərindən yaş sel kimi axırdı... Baba isə qaş-qabağını tökmüşdü... O nəvəsinə məzəmmətlə dedi:

– Sənin canlı kinon bu imiş, a bala? Soruşanda ona görə deyirdin ki, özün görərsən?

Fateh babası ilə zarafat elədi:

– Yox, baba, kino hələ qabaqdadı...

Bayaq babanın üstünə su atan aktyor indi avtomatdan atəş açırdı...

Baba yarızarafat, yarıgerçək dedi:

– Hə, bircə güllələnməyimiz çatışmır...

Nəvələr güldülər... Bitdilicə ilə Civirtdək də, suları süzülə-süzülə onlara qoşuldular...

Bir kater sürətlə üzə-üzə gəldi... Onun içindəki bir dəniz quldutu pulemyotla atəş açırdı. Birdən güllə qüllənin üstündə dayanıb harasa atəş açan həmin aktyora dəydi və o kəlləsi üstə aşıb dənizə düşdü.

Baba gülə-gülə dedi:

– Elə yaxşı oldu sənə...

Hadisələr, döyüş səhnələri, yumruqlaşma elə sürətlə bir-birini əvəz eləyirdi ki, adam gördüyünün kino, yoxsa həqiqət olduğunu dərk eləməyə macal da tapmırdı...

Fakt faktlığında qalırdı və ən əsas o idi ki, bütün tamaşaçılar həyəcan içində idilər... Elə bu vaxt havada bir təyyarə göründü və gəminin içindəki pirat pulemyotu ona tuşlayıb atəş açmağa başladı... Və birdən təyyarə yana-yana tamaşaçıların başının üstündən keçib meydançaya bənzər dənizin içinə düşüb tüstüləndi... Bu, uydurma deyildi ha, doğruçu təyyarə idi...

Bu cür və buna bənzər səhnələr bir-birini əvəz elədi və nəhayət, canlı film başa çatdı... Güllələnib “ölən”, suda batan aktyorlar da ayağa qalxıb tamaşaçılara əl elədilər... Ən maraqlısı isə bu idi ki, babanın üstünə bir vedrə su atan, sonra güllələnib təpəsi üstə dənizə düşən həmin aktyor düz nağılçı babanın yanına gəldi və ona əl verib görüşdü...

Baba öz-özünə deyindi:

– Məşədi İbad demişkən, nə bunu yerə yıxıb ağzına-ağzına vurasan! Üstümə bir vedrə su atdığı bəs deyil, hələ bir abırsız-abırsız mənə əl də uzadır...

Fatehlə Fatimə şaqqanaq çəkib güldülər, yadlarına “O olmasın, bu olsun” filmində babanın zarafatla xatırlatdığı səhnə düşdü...

Onlar zarafatlaşa-zarafatlaşa canlı film səhnəsi çəkilən ərazidən uzaqlaşdılar... Şəhərciyin içində gah Parisi, gah Londonu, gah da Nyu Yorku xatırladan sahələrdə gəzdilər, şəkil çəkdirdilər...

Nəvələr əl çəkmədilər ki, ay baba, axı sən də uşaq yazıçısısan, gəl bütün dünyada şöhrət qazanan filmin çəkildiyi qalaya gedək...

– Hansı filmi deyirsən?

– Harri Potterə həsr olunmuş filmi...

Baba çar-naçar razılaşdı. Onlar qəribə nağıllar dünyasına daxil oldular... Burada adam özünü, doğrudan da, lap nağıl qəhrəmanı kimi hiss eləyir...

Təzə tikilsələr də, nağıllar dünyasının tələblərinə uygun ucaldılmış binaların taxtapuşlarının üstünün "qarla" örtülməsi, xüsusi qurğular vasitəsilə yaradılan süni duman adama yay olduğunu unutdururdu...

Qalaya girmək üçün uzun, upuzun bir növbə var idi... Əslində vaxt uzandıqca adam özünü daha çox nağıllar diyarında hiss edirdi...

Uşaqlar babaları darıxmasın, "gəlin evə qayıdaq" deməsin deyə ona Harri Potter və onun başına gələnlər haqqında danışırdılar... Bu nağıl baba üçün maraqsız olsa da, Bitdilicə ilə Civirtdək Fatehi maraqla dinləyirdilər.

Əsərin məzmunundan tam xəbərdar olandan sonra Bitdilicə ilə Civirtdək sakitcə, nağılçı babadan başqa kimsənin anlamayacağı bir dildə söhbət eləməyə başladılar.

Bitdilicə kinayəli şəkildə söylədi:

– Elə də tərifləyirlər ki, guya burda qeyri-adi nəsə var. Pah, böyük iş olub! Harri ilan dilində danışır...

– Məgər bizim ovçu Pirim heyvanların və quşların dilini bilmirdi?

– Harri sehribazlar mühitinə düşür...

– Məgər bizdə sehribaz, cadugər yoxdu? Nağıllarımızda azmı insan ilana, qurbağaya çevrilib, sonra dua oxumaqla insan cildinə dönüblər?

– Sehribazlar otağında süpürgəyə minib uçan cadugərlərdən danışılır.

– Məgər bizim nağıllarda küpəgirən, cadugər, süpürgəyə minib uçan qarılar azdır?

Öz qəhrəmanlarının söhbətini dinləyən baba gülümsündü. Onun yadına qəribə bir əhvalat düşdü. Bir qadın mağazaya girib satıcıların başına oyun açır, çox çək-çevirdən sonra bircə süpürgə alır...

Catıcı deyir:

– Xanım, cüpürgəni büküm, yoxsa minib uçacaqsınız? Bitdilicə ilə Civirtdəyin söhbəti isə davam eləyirdi:

– Harri dua oxumaqla cildini dəyişə bilir...

– Məgər bizim nağıllarda belə qəhrəmanlar azdır?

– Harriyə Simurq quşu kömək edir...

– Bəs bizim nağıllarda belə deyil? Məlikməmməd qaranlıq dünyadan işıqlı dünyaya Simürq quşunun qanadı üstündə gəlmirmi? "Qa" deyəndə ət, "qu" deyəndə su istəmirmi?

– Bu romanlarda sirlər otağından danışılır...

– Bəs bizim nağıllarımızdakı qırxıncı otaq sehrli deyilmi?

– Uy dad, bu kitabda elə bizim nağılların motivlərindən istifadə olunub ki? Bəs elə isə necə olur ki, bu eynəkli gədədən yazılan kitabı bütün dünya uşaqları oxuyur, bizim nağıllarımızdan isə dünyanın xəbəri yoxdu?

– Bütün günahlar elə özümüzdədi... Yeməyənin malını yeyərlər...

– Hə, bunu düz deyirsən...

Söhbət xeyli uzandı. Axır ki, onlar Harri Potterin qalasına daxil oldular... Hər yan qaranlıq idi... Gün işığından birdən-birə belə qaranlığa düşmək adamı lap darıxdırırdı...

Qalanın divarının aşağısından lap tavana qədər filmdə çəkilən qəhrəmanların portreti asılmışdı... Onların hansına yanaşırdınsa, çərçivədəki şəkil canlanır, danışmağa başlayır, ziyarətçiləri darıxmağa qoymurdu.

Doğrudan da, maraqlı idi... Babanı nağılın özündən çox onun motivləri əsasında tikilən bu bina, ekskursiya üçün seçilən forma, üsul daha çox heyrətləndirirdi...

Onun sakitcə dediyi sözü nəvələri də, Bitdilicə ilə Civirtdək də eşitdilər:

– Gör insan düşüncəsi, insan təxəyyülü nələrə qadirdir! Bu qalaya ekskursiya bəlkə də əsərin, filmin özündən də çox pul gətirir...

Birdən Harri Potter və onun dostları balkona çıxıb ziyarətçiləri salamladılar və onlara gözəl, mənalı səyahət arzuladılar...

Adamlar qatara bənzər eskalatorlar hərəkət edə-edə boş oturacaqda əyləşir, nəzarətçilərin göstərişi ilə təhlükəsizlik kəmərini bərk-bərk bağlayırdılar... Bu sehrli qatar isə onları nağıllar dünyasına aparırdı...

Harri Potter sehrli süpürgəsinə minib uçur, sehrli qatar isə onun arxasınca şütüyürdü... Bəzən dik yuxarı qalxan bu qatar qəflətən dərin, dibsiz quyuya enirdi... Adama elə gəlirdi ki, bu saat nəhəng bir ox kimi kəlləsi üstə yerə sancılacaq... Hələ bu azmış kimi real dünya adamlarının üstünə dinazavrlar, əcaib-qəraib heyvanlar, küpəgirənlər, cadugərlər hücum eləyirdilər...

Uşaqlar "qıyya çəkib" gülüşürdülər... Baba isə Allaha yalvarırdı ki, burdan sağ-salamat çıxsın! O, yanında əyləşən nəvəsinə bərkdən dedi ki, ə, bura lap dəlixana imiş ki...

Fateh ilə Fatimə, Bitdilicə ilə Civirtdək isə sevinc içində idilər... Bu səyahət onların lap ürəyincə idi...

Nəhayət, sehrli qatar real dünyaya yaxınlaşdi. Baba tez kəmərini açlb yerə tullandı... Nəvələri isə ona baxıb gülür, gülürdülər...

Nəhayət, baba və nəvələri qaranlıq nağıllar qəsrinin qapısından bayıra çıxdılar. Günəşin isti, parlaq şəfəqləri onların gözünü qamaşdırdı...

Bitdilicə başı nəyəsə baxmağa qarışan Civirtdəyi dümsüklədi:

– Tez ol, tez ol! Nağılçı baba ilə nəvələri bayıra çıxdılar. Bir az ləngisək, bu boyda adam selinin içində onları itirə bilərik...

Bitdilicə ilə Civirtdək tələssələr də, onların qarşısında o qədər adam var idi ki... Çarə yox idi. Onlar sıçrayıb adamların çiyninə çıxdılar. Çarəsizlikdən bununla da kifayətlənmədilər.

Ayaqlarını adamların başına qoya-qoya elə qaçırdlar ki, elə bil qıjıltılı dağ çaylarının bu sahilindən o sahilinə keçmək üçün düzülən iri daşların – addamacların üstünə ayaq basırdılar...

Nəhayət, onlar nağılçı baba ilə nəvələrinə çatdılar...

Nəvələr babalarından soruşdular:

– Ay baba, "Nağıl qəsri" xoşuna gəldi?

– Gəlməyinə gəldi, ancaq o qədər də yox...

Uşaqlar təəccüblə bir-birlərinin üzünə baxdılar?

– Niyə?

– Mənim əziz nəvələrim, ona görə ki, qaranlıq, uydurma nağıl dünyasından işıqlı real həyat daha gözəldir! O qaranlıq dünyada əcaib-qərayib heyvanlar, sehribazlar, küpəgirən qarılar varsa, bu işıqlı dünyada mənim sizin kimi gözəl-göyçək nəvələrim var!

**28 avqust – 2 oktyabr 2018.**
**Los Anceles – Sumqayıt.**

# “Xatirə kəcavəsi” (1999) kitabından

## ÖMRÜN İZLƏRİ

Əlli illik ömrün ağrılı-acılı, sevgili, sevincli günləri muncuqlar kimi illərin, ayların qaranlıq guşələrinə səpələnib. Əlbəttə, o muncuqların hamsını yığıb-yığışdırmaq mümkün deyil. Ancaq elə muncuqlar var ki, illərin qaranlıq guşələrindən işarır, gəl-gəl deyir. Məhz o işaran muncuqları bir yerə toplayıb, övladlarıma, nəslimin gələcək üzvlərinə yadigar qoymaq arzusu baş qaldırdı ürəyimdə. Düşündüm ki, bəlkə də bu, digər oxucular üçün də maraqlı olar.

Bu arzuları həyata keçirmək üçün məni həvəsləndirən digər bir amil də bizim tərəflərin – Qubadlının, Zəngilanın tanınıb-seçilən ziyalılarından birinin, qocaman jurnalist, uzun müddət Qubadlıda çıxan “Avanqard”, Zəngilanda çıxan “Kənd həyatı” qəzetlərinin redaktoru işləmiş Mürsəl Qocayevin bir məktubu oldu. Mürsəl müəllim qardaşı qızı Məhbubə Qocayevadan, mənim tələbəmdən göndərdiyi məktubda yazırdı:

“Hörmətli Rafiq müəllim! Sizə dərin ehtiramlar və salamlar.

Verilişlərini müntəzəm izləyirəm, çox böyük iftixar hissi ilə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Çox sevinirəm ki, həm ata, həm də ana tərəfinin ən nəcib nəsil ənənələrini davam etdirirsən.

Rafiq, səhhətim mənə imkan vermədiyi üçün görüşə bilmirəm. Yaxşı ki, səs-sorağını televiziyadan alıram. Çox təəssüf ki, səndən oxumağa bir şey tapmıram. Buna görə də öz kitablarından mənə göndər. Bir də xahiş edirəm ki, Nuşi-

rəvan müəllimin (mənim ana babamın – R.Y.) bir portret şəklini tapıb mənə göndər.

Məndən bütün ailənizə, Fəzilənin anasına və qardaşlarına səmimi salamlarımızı çatdır.

Hörmətlə, **Mürsəl Qocayev".**

Aradan bir az keçdikdən sonra Mürsəl müəllimdən ikinci bir məktub aldım. O, yazırdı:

"Əziz Rafiq, böyük ehtiramla salamlar olsun!

Müntəzəm görüşməsək də, mən sənin bütün yaradıcılığını diqqələ, maraqla izləyirəm. Hələ rayonda olarkən bütün Qubadlı ziyalıları kimi sənin də kitablarını toplayıb kitabxanama yığırdım. Bu gün sənin "Həsrət köçü" kitabını alanda xatirələrim yenidən həsrət hissi ilə baş qaldırdı. Tayfanızın ağsaqqalı Mirağa müəllim, Atan Yusif, əmin Mehdi, ana baban Nuşirəvan, onun oğlanları Şokət, Kərim, Kazım, Ruqənd, İlıç, Mais yadıma düşdü, onları kövrək hisslərlə xatırladım.

Sizin nəsli camaatımız nəcib ənənəli, xeyirxah, qayğıkeş, insanpərvər bir nəsil kimi tanıyır. Sənin yaradıcılığında bu keyfiyyətlər çox aydın duyulur.

Şairlik Allahın nəinki öz bəndəsinə, hətta bir xalqa əvəzsiz bəxşişidir. Sənə nəsib olan bu Allah vergisi üçün son dərəcə iftixar hissi keçirirəm. Buna görə can sağlığı, ailə xoşbəxtliyi ilə bərabər sənə yeni-yeni yaradıcılıq uğurları arzu edirəm. Çox şadam ki, Zəngəzurun Süleyman Rəhimov, Əli Vəliyev kimi qələm qartallarının yuvasında sənin kimi gənclər vardır.

Səhhətimə görə görüşməyə imkan olmur. Ancaq yeni kitabınızla həmsöhbət olacağam. Bütün ailə üzvlərinizə salamımız var. Xavərin də salamlarını əlavə edirəm.

Hörmətlə, **Mürsəl Qocayev**

**8 iyun 1998**

Bu məktublar məni Mürsəl müəllimin sözləriylə desək: "nəcib ənənəli, xeyirxah, qayğıkeş, insanpərvər bir nəsil" haqqında nəsə yazmağa həvəsləndirdi. Düşündüm ki, dünyasını dəyişən bu insanlar haqqında nəsə yazmaq, gələcək nəsillərə yadigar qoymaq lazımdır.

Ata babam Əliyev Seyidəli İbrahim oğlunun nə özünü, nə də şəklini görmüşəm. O, mən doğulandan bir neçə il əvvəl vəfat edib. Qəbri Qubadlı rayonunun Çardaxlı kəndindədir.

Babam ağır seyid olub. Bibim Firuzə Seyidəli qızının dediyinə görə Seyid İbrahim, mənim ulu babam əslən Cənubi Azərbaycandan imiş. O, ailəsi ilə birlikdə Zəngəzur mahalının Qafan rayonuna köçübmüş. Çox təəssüf edirəm ki, vaxtilə bibimin dediklərinin hamısını qələmə almamışam. İndi o, dünyada yoxdur, nəslimizə aid bilgiləri də özü ilə bərabər o dünyaya aparıb.

Bir dəfə Firuzə bibimin kürəkəni ilə bu barədə söhbət edərkən mənə dedi ki, bir gün gəl bizə, Pakizəni danışdır, o, çox şey bilir.

Mirağa əmimin oğlu Cəfərin yas yerindən qayıdanda Firuzə bibimin qızı Pakizəni Bakıdan Sumqayıta mən gətirdim. Yolda onu söhbətə tutdum. Pakizə dedi ki, Seyid İbrahim çox ağır, camaat arasında dərin hörmət qazanan bir seyid imiş. Mən uşaq vaxtı eşitmişdim ki, o, zəvvarların bələdçisi imiş, onları Məkkə ziyarətinə aparıb-gətirirmiş. Bir dəfə ziyarət zamanı ziyarətgahın tavanından ləl-cəvahirat qopub Seyid İbrahimin qucağına düşür. Bunu müqəddəsliyin, peyğəmbər övladı olmağının sübutu kimi qəbul edən zəvvarlar onun paltarlarından hissələr qopardıb müqəddəs yadigar kimi götürübmüşlər...

Seyid İbrahimin üç qızı, dörd oğlu olub. Bu qızlardan yalnız birinin adını bilirəm: Zeynəb. Qazı oğlu Məhəmməd

kimi tanınan Məmməd əmini – Zeynəbin oğlunu uşaq vaxtı görmüşdüm. Onun ölümünü dumanlı şəkildə olsa da, xatırlayıram. Məmməd əminin övladları: Maya, Mehparə, Səyyarə, Fazil, Nazim, Məhbubə. Mayanın oğlu Səfa Axundov Azərbaycanın milli qəhrəmanıdır. O, xalqımızın yaddaşında əfsanəvi qəhrəmanlıq göstərən bir pilot kimi qalacaq.

Bacılardan biri Bilqeyis bibinin, o birisi isə Dürnisə xalanın anası imiş. Bilqeyis bibi çox xanım-xatın bir qadın idi. El ağsaqqalı Şəmil əminin həyat yoldaşı idi. Övladları olmadığından Şəmil əminin qardaşı Səməd kişinin oğlu İmanı övladlığa götürmüşdülər. Çox mehriban bir ailə idilər.

Seyid İbarahimin oğullarından biri Seyid Həsən imiş. Onun övladları: Mirhəşim, Mirəyyub, Həcər. Mirhəşimin üç oğlu olub. Mirəyyubun oğlu Məcid əmini yaxşı tanıyırdım. Mən şəhərə gələndə o, Sumqayıtda 5 nömrəli Mənzil İstismar İdarəsində rəis işləyirdi. Məni də, həyat yoldaşımı da öz evlərinə qeydiyyata almışdı.

Məcid əminin üç qızı, bir oğlu var idi: Elza, Qətibə, Lətifə, Natiq. Çox təəssüf ki, yaxşı bir həkim olan Natiq çox erkən dünyasını dəyişdi. Nə onun, nə də bacılarının övladlarının adını bilirəm.

Seyid Həcəri uşaq vaxtı görmüşdüm. Mən Bakıya oxumağa gələndə verdiyi 10 qəpiyi indi də saxlayıram.

Mirəyyubun qızı Telli Suqra xanımın anasıdır.

Seyid İbrahimin bir oğlu isə erməni-müsəlman davası vaxtı Füzuliyə köçübmüş. Onun övladları Şəmil əmi, Bəbir əmi Dədəli kəndində yaşayırdılar. Təəssüf ki, onların övladlarını da tanımıram.

Seyid İbrahimin bir övladına onun öz adını qoyubmuşlar: İbrahim. İbrahimin övladları: Mirabdulla, Mirhəsən, Mələknisə, Fizzə, Cəngiz. Bu nəsildən isə Mirabdullanın

oğlu İbrahimi və Mələknisə xalanın oğlu Zeynal müəllimi tanıyıram. Onların övladlarını isə tanımıram.

Seyid İbrahimin övladlarından biri – **Seyidəli** mənim doğma babamdır. Atamın, əmilərimin, bibilərimin dediyinə görə Seyidəli bəstəboy, üzü nurlu bir kişi imiş. Ona hamı Seyidəli ağa deyirmiş. Övladları isə atalarına “ağa” deyə müraciət edərmişlər.

Mehdi əmim deyirdi ki, uşaq vaxtı yaylaqda inəyi quyruğundan tutub çəkdim, o, dağdan dərəyə aşıb öldü. Ağamı görəndə qorxudan ağladım. Günahımı boynuma aldığıma görə mənə bir kəlmə də ağır söz demədi, əksinə, başımı sığalladı.

Hüseyn deyir ki, Seyidəli ağa ferma müdiri idi. Mənə dağda bir qoyun qaymağı verib, dadı indi də ağzımdadı. Yaxşı “qurdağzı” bağlayırdı. Ağalı dərəsində, Çəbrayıl bəyin yurdunda canavarlar sürü ilə bir inəyin üstünə hücum etdilər. Qaçıb Seyidəli ağanı çağırdıq. O, sümük saplı bıçağının ağzına dua oxuyub tiyəni bağlayan kimi canavarlar inəkdən əl çəkib onun yanında mırıldamağa, yeri eşməyə başladılar. Hamımız təəccübləndik. Ağaya yalvardıq ki, bıçağın ağzını açsın. O, dediyimizə əməl eləyən kimi canavarlar inəyə cumur, bağlayanda isə sakit dayanırdılar.

Nənəmin kiçik bacısı Tamaşa xalanın dediyinə görə ceyranlar Seyidəlinin ocağına sağına gəlirmişlər.

Babamgil Ecanan dərəsində, Dorfnu kəndində yaşayırmışlar. 1918-ci ildə Seyidəli erməni-müsəlman davasından sonra Qubadlı rayonunun Çardaxlı kəndinə köçüb, burada özünə ev tikdirib. Xoşbəxtəm ki, mənim uşaqlığım da babamın tikdirdiyi həmin evdə keçib. Sonradan atam babamın evinə bitişik bir anbar, dəhliz və qonaq otağı tikdirmişdi.

Qeyd elədiyim kimi mən babamın üzünü görməmişəm. Bir dənə də olsun şəkli yadigar qalmayıb. Ancaq qəribədir

ki, babamı həmişə yuxularımda görürdüm. İndi də tez-tez yuxuma girən onun qəbridir. Çox vaxt bu müqəddəs məkanın yanından bulaq çıxdığını da görmüşəm yuxumda.

Babamın qəbrini ziyarət edər, onun adına nəzir deyərdilər. Yadımdadır, Mikayıl kişinin oğlu Əmirin ağzı əyilmişdi. O, niyyət eləyib, babamın qəbrinin üstündə yatdıqdan sonra şəfa tapmışdı.

Yayda Mirağa əmimin uşaqları kəndə istirahətə gəlirdilər. Bir dəfə əmimin kiçik oğlu Cəfəri Həcətkə deyilən yerin aşağı hissəsindəki kənd qəbristanına apardım. Ona babamızın qəbrini göstərdim. O vaxt kənddə qəbir üstü götürtmək adət deyildi. Şəriət qaydasına görə qəbirin itməsi vacib sayılırdı. Onu da qeyd eləyim ki, nənəm Gülzar da bu qəbristanda dəfn olunsa da, onun yerini kimsə bilmirdi.

Cəfər şəhərə qayıdanda atasına deyib ki, nə üçün babamın qəbrini şəhərdəki qəbirlər kimi düzəltdirməmisiniz? Bu söz Mirağa əmimə çox pis təsir eləyib. O, təqaüdünü yığıb atama göndərib ki, qəbrin üstünü yenidən düzəltdirsin. Firuzə bibim dindar olduğu üçün buna qətiyyən razı deyildi. O qəbrin üstünün götürüldüyü gün indi də mənim yadımdadır. Bibim etiraz edir, atam isə ustalara göz eləyirdi ki, işinizdə olun. Qəbrin üstündəki hörgünü sökəndə daşların altından bir qırmızı rəngli ilan çıxdı. Bibim ahfəğan elədi, atamın isə qolları boşaldı. Qəribə bir mənzərə idi. İlan çıxıb getmir, adamları da qəbrə yaxınlaşmağa qoymurdu. Elə bu zaman yoldan ötən bir kişi yanımıza gəldi. Bibimin etirazına baxmayaraq, o, ilanı öldürdü və çıxıb getdi. Firuzə bibimin dediyinə görə həmin kişi bir neçə gündən sonra vəfat edibmiş. Onu da deyim ki, ağasının – atasının cəddinə ən çox inanan Firuzə bibim idi.

Hüseynlə Pakizənin dediyinə görə, Seyidəli ağa çox müdrik, nüfuzlu, səxavətli bir adam imiş. O, həmişə kasıb-

kusuba əl tutar, onların ehtiyaclarını ödəməyə çalışarmış. İlin çox qıtlıq bir vaxtında babam imkan verib ki, 12 sağıcıdan hər biri özləri üçün bir motal tutub, qış azuqəsi kimi evlərinə aparsınlar. Ferma yaylaqdan arana qayıdanda hətta zarafatla buna işarə olaraq  şeir də yazıbmışlar:

Nübar hamıdan fağırdı,
Tutduğu motal ağırdı.
Ferma müdiri sakitcə
Zərnişanı çağırdı...

Babamın bir alapaça atı var imiş... Bir dəfə Cərgədaşın yanında canavarlar sürü ilə ona hücum ediblər. Seyidəli ağa qurdağzı bağlamaqla özünü və atını ac canavarlardan xilas edə bilibmiş...

Babam sakit adam olsa da, əsəbiləşəndə qarşısında durmaq olmazmış. Şinətağ kəndindəki qoruqçu Apo kolxozun qoyunlarını qabağına qatıb aparırmış. bunu Seyidəli ağaya xəbər verirlər. O, gedib qudurğan Aponu döyür və sürünü alıb geri qaytarır.

Babamdan danışanda Pakizə qohumlarımızdan birinin – Tovuz xanımın qəhrəmanlığından danışmağı da unutmadı. Xahiş elədi ki, bu haqda mütləq yazım. Tovuz xanım Bilqeyis bibinin yaxın qohumlarından biri imiş. O, xırmanı süpürtdürüb qara zurnanın sədaları altında oynayanda, rəqs edəndə bütün kənd onun tamaşasına durarmış. Erməni-müsəlman davasında Tovuz xanım əlində tapança ermənilərə qan uddurur, Kərki kəndində 20 adamı xilas eləyir. Gülləsi qurtarandan sonra ermənilər onu öldürürlər.

Roza bibimin qırx mərasimində Nərgiz xalanın oğlu Ədil dayı ilə görüşdük. O, mənə Seyidəli babam haqqında bilmədiyim maraqlı faktlar söylədi. Dedi ki, Seyidəli ağa çox mərd, qorxmaz, ədalətli, səxavətli bir kişi idi. Seyidəli

ağa atını minib Qubadlıya gedibmiş. Elə həmin vaxt Türkiyədən qaçan ermənilər gəlib dolublar Qafanın Dorfnu kəndinə. Onlar ağılagəlməz vəhşiliklər törətmiş, adamları öldürmüş, kəndi yandırmışlar.

Seyidəli gecə atı minib Danzaverdən qalxır İncəbelə – Meşəbaşına. Görür ki, atın ayağının altı doludur gilizlə. Başa düşür ki, ermənilər çox vəhşiliklər törədiblər. Gecə ilə öz kəndlərinə enir, görür ki, evlərinin qapısı bağlıdır. Qapını sındırıb içəri girir, iki məfrəş yorğan-döşək götürüb kənddən çıxır. Gedir Qaradığa kəndinə – professor Qəhrəman Qəhrəmanovun kəndinə. Eşidir ki, kənddən 3-4 kilometr aralıda, Zeynal kişinin tövləsində adamlar gizlənib. O, bura gəlib görür ki, erməninin əlindən baş götürüb qaçan otuz nəfər qohum-övlad buradadır. Əl-ayağını kol-kos, şaxta aparan adamları ac-yalavac vəziyyətdə görəndə Seyidəlinin ürəyi ağrıyır. Atı minib gecə ilə Dərəyurddan çıxıb çayın sahilindəki Lahıc kəndinə gedir. Bir dağarcıq un, bir balaca cam tapır. Dumanlı bir gecə imiş. Çaxmağı çəkib çayın qırağında ocaq qalayır. Xəmir eləyib bir dağarcıq unu daşların üstünə yapıb çörək bişirir. Gecə həmin çörəyi gətirib əlsiz-ayaqsız, günlərlə ac qalan adamlara çatdırır.

Erməni qarovulda dayanan Gülzar nənəmin qardaşı Allahverdini güllə ilə vurub öldürür. Seyidəli qəbir qazıb öz qaynını divarın dibində dəfn eləyir. Gecə ermənilər yatanda atı minib kəşfiyyata gedir. Sonra gəlib adamları özü ilə aparır. Müsəlman qarovulçuları onlara güllə atanda Seyidəli qışqırıb onlara tanışlıq verir. Beləliklə, o, adamları Kəpəzdən aşırıb Əyinə, oradan da Çardaxlıya aparıb çıxarır.

Yüzbaşı Mehdiqara ilə Məşədi Abbasın qızı Gülgəzin nikahından dörd qız, iki oğlan dünyaya gəlib. Mehdiqara çox mərd, qoçaq bir kişi olub. Onun xatirəsini yaşatmaq üçün Seyidəlinin kiçik oğluna Mehdi adı qoyubmuşlar.

Mehdiqaranın qohum-əqrabası çox imiş. Lakin təəssüf ki, bu qohumlarla da əlaqələrimiz yoxdur. Bizim nəsildən onları atam Yusiflə onun xalası oğlu Salman dayıdan başqa heç kəs itirib-axtarmazmış.

Gülzar nənəm Mehdiqaranın övladlarının böyüyü imiş. Qardaşı Allahverdini yuxarıda qeyd etdiyim kimi ermənilər öldürübmüşlər. Mehdiqaranın digər qızlarını – Nərgiz xalanı, Tamaşa xalanı görmüşdüm. Çox mehriban, qohumcanlı idilər. Tamaşa xala daha çox zarafatcıl idi. İkisi də Əyin kəndində yaşayırdılar.

Nərgiz xalanın övladları: Ədil, Tofiq, Şəkil. Ədilin övladları: Qabil, Bəbir. Tofiqin övladları: Sahib, Səadət, Nərgiz. Şəkilin övladları: Nübar, Kamal, Nadir.

Tamaşa xalanın övladları: Ruqiyyə, Məhəmmədəli, Salman, Bəşir, Fərəc, Murad. Ruqiyyənin övladları: Rəfail, Raya, Mübariz, Nazilə, Elman. Məhəmmədəlinin övladları: Qənirə, Hüseyn, Mahirə. Salmanın övladları: Möhübbət, Fazil, Əlişir, Fəridə, Tamaşa. Bəşirin övladları: Ofelya, Tahirə, Cavanşir. Fərəcin övladları: Xatirə, Elşən, Rövşən, Elşad. Muradın övladları: Aygün, Lalə.

Bu nəslin ağsaqqalı Salman dayı idi. Onun kimi qohumcanlı adam görməmişəm. Rayon sığorta idarəsinin, maliyyə şöbəsinin müdiri vəzifəsində çalışmışdı. İndi onun yolunu övladları davam etdirirlər.

Bəşir dayı öz elmi, savadı, təşkilatçılıq qabiliyyəti ilə el arasında dərin hörmət qazanan bir insandır. O, Qubadlı rayon partiya komitəsinin ikinci katibi, ispolkomun sədri, Xankəndi Pedaqoji İnstitutunun partkomu vəzifələrində çalışıb. Sonra ADPU-da fəlsəfə kafedrasının dosenti, müdiri vəzifələrində çalışıb.

Mehdiqaranın böyük qızı Gülzar mənim doğma nənəmdir. O, bacılarına nisbətən çox az yaşayıb. Qardaşının ermənilər tərəfindən öldürülməsi ona çox pis təsir edib.

Gülzar çox təmizkar qadın imiş. Bütün qız-gəlin bulaqdan çəkiləndən sonra Qısraq bulağına gedər, qab-qacağı suya çəkər, evə su gətirərmiş. Gülzar nənəmin də, onun həyatdan nakam getmiş bacısı Qəndabın da qəbri Çardaxlı qəbristanlığındadır. Ancaq bu qəbirlər hələ biz uşaq ikən itib-batmışdı.

Bizim nəsil böyük nəsildi, qohum-əqraba çoxdu. Onların hamısı haqqında mənim məlumatım da yoxdur. Ona görə də hər şeyi əks etdirmək iqtidarında deyiləm.

Ata tərəfdən nəsil şəcərəmiz belədir:

Seyidəli ilə Gülzarın nikahından doğulan uşaqlar: Mirağa, Kazım, Firuzə, Yusif, Mehdi, Hafizə. Mirağa əmimlə Sima xanımın nikahından doğulanlar: Fikriyyə, Fikrət, Fəridə, Cəfər. Fikriyyə texnika elmləri namizədidir. İki övladı var: Eldar, Elxan. Eldar həkim, Elxan isə mühəndisdir. Eldarın iki, Elxanın isə bir uşağı var. Fikrət həkim idi. Ailə qurmamışdı. Fəridə həkimdir, tibb universitetində işləyir, Sima adlı bir qızı var. Cəfər pedaqoji universitrtin fizika fakültəsini bitirmişdi. Uzun müddət rəhbər vəzifələrdə çalışıb. İki övladı var: Ülviyyə, Günay.

Kazım əmim ailə həyatı qurmayıb. Yaxşı müəllim imiş. Müharibədən əvvəl ordu sıralarına çağrılıb, müharibə başlayanda xəstəlikdən vəfat edib. Qəbrinin yeri məlum deyil. Hüseyn deyir ki, Lətif dayım ölümcül xəstə imiş. O, sənin Kazım əminə bir inək nəzir deyir. Lətif sağalır və nəzir dediyi inəyi aparıb sizin həyətimizdə bağlayır.

Firuzə bibimin üç övladı olub: Pakizə, Zakir, Sabir. Pakizənin övladları: Gözəl, Nazim, Tahirə, Əziz, Sərdar. Nazim öz ixtisasını dərindən bilən, şəhərdə hörmət qazanan

bir həkimdir. Əziz və Sərdar isə mühəndisdilər. Zakir texnika elmləri namizədir. Sumqayıtda layihə institutunun direktorudur. Üç övladları var: Tərənə, Pərvanə, Pərvin. Tərənə və Pərvanə həkimdirlər. Pərvin isə politoloqdur.

Sabir də mühəndisdir, texnika elmləri namizədidir. İki övladları var. Oğlu Mikayıl rəssam, qızı Ruhiyyə isə həkimdir.

Seyidəlinin dördüncü övladı mənim atam Yusifdir. 1922-ci ildə anadan olub, 1974-cü ildə vəfat edib. Qəbri Qubadlıdadır. Fizika-riyaziyyat müəllimi idi. Uzun müddət məktəb direktoru işləmişdi. Anam Şamama Kərimova ilə nikahından altı övladı dünyaya gəlib: Rafiq, Razim, Qorxmaz, Oqtay, Bəxtiyar, Bayram. Mənim üç övladım var: Gülzar, Gündüz, Gursel. Gülzar Azərbaycan Tibb Universitetinin müalicə fakültəsini bitirib. Həkimdir, tibb üzrə fəlsəfə doktorudur. Gündüz Azərbaycan Dövlət Universitetinin "Sosial siyasi münasibətlər nəzəriyyəsi" fakültəsini bitirib, Azərbaycan Dövlət Televiziyasında və "Mir" televiziyasında redaktor vəzifəsində işləyib. Hazırda özəl sahədə fəaliyyətini davam etdirir. Gursel İqtisadiyyat İnstitutunun "Beynəlxalqiqtisadi əlaqələr" fakültəsini, Amerikada magistratura və doktaranturanı bitirib, elmlər doktorudur.

Razim ixtisasca fizikdir. Sonra ali partiya məktəbini bitirib. Qubadlıda müəllim, partiya komitəsində təlimatçı, şöbə müdiri, ikinci katib, icra hakimiyyəti başçısının müavini vəzifələrində işləyib. Elmi işlə məşğuldur. Üç övladı var. Günel, Tural, Aysel. Hər üçü ali təhsillidir.

Qorxmaz mühəndisdir. İki övladı var: Könül və Yusif. Hər ikisi ali təhsillidir.

Oqtay avtomobil ixtisası üzrə mütəxəssis idi. İki övladı var: Arzu, Aqşin.

Bəxtiyar mühəndis idi. İki övladı var: Samir, Səbinə.

Bayramın övladı yoxdur, Rusiyada yaşayır.

Mehdi əmim itisad elmləri namizədi, dosent idi. Dörd övladı var: Azər, İradə, Rəna, Aydın. Azərin övladları: Əli, Rüfət, Fuad. İradənin övladları: Tanrıverdi, İlqar, Zaur. Rənanın övladları: Cavid, Gülnar. Aydının övladları: Aytən, Roza.

Hafizə bibimin övladları: Validə, Vidadi, Aidə, Nəzakət, Faiq. Validənin övladları: Bəhruz, Solmaz, Babək. Vidadinin övladları: Ceyhun, Hafizə. Aidənin övladları: Aqil, Adil, Araz. Nəzakətin övladı: Şəhram. Faiqin övladları: Yaqub, Aygün, Elgün.

Bizim nəsil şəcərəmiz belədir. İnanıram ki, yeni nəsil də nəcib ənənələri davam etdirəcək. Necə deyərlər, ot kökü üstə bitər.

Ana babam Kərimov Nuşirəvan Kərim oğludur. Onun babasının adı Molla Səfi imiş. Babamın atası Molla Kərim, anası Gövhər. Molla Kərim Gövhərdən qabaq Şahsuvar bəyin bacısı Minəni alıbmış. Minə Dəstəyirddə zəlzələ vaxtı ölüb.

Molla Kərimin Gövhərdən olan övladları: Novhəl, Nuşirəvan, Ruqənd, Səriş**.** Novhəli ermənilər öldürüb daşa hörüblər. Onun Afərimlə nikahından Şövkət doğulub. O, müharibədə həlak olub.

Afərim nənəm Hacı Hüseyn bəyin qızıdır. Hacı Hüseynin qardaşı Şahsuvar bəydir. Yeri gəlmişkən onu da qeyd edim ki, Qasım Qasımzadə Şahsuvar bəyin qızı Arəstənin oğludur.

Hacı Hüseyn bəyin Sürəyya ilə nikahından doğulan uşaqlar: Afərim, Xoşqədəm, Rəxşəndə, Saray, İranəbəyim, Fəti**.** Hacı Hüseyn bəyin Gülzarla nikahından doğulanlar:

Manya, Sonabəyim, Mabəyim, Şükür. Manya xalanın uşaqları: Möyüş, Turab, Tofiq.

Mabəyim pencər yığmağa gedəndə çaya yıxılıb, axıb. Hacı Hüseyn bəy onu sudan çıxaranda görüb ki, öz qızıdır.

Nuşirəvan babamla Afərim nənəmin nikahından doğulan uşaqlar: Kərim, Kazım, Ruqənd, Şamama, İliç, Mais. Kərim dayım müharibədə həlak olub.

Kazım dayımın övladları: Flora, Rasim, Azər, Mahir, Məzahir. Floranın uşaqları: Cəmalə, Pərvin, Günay. Rasimin övladları: Xəyyam, Rəşad. Azərin bir qızı var: Səma. Mahrin iki qızı var: Aytac, Gültəkin. Məzahirin bir qızı var: Cəvahir.

Ruqənd dayımın uşaqları: Mübariz, İradə, Nadir, Rövşən. Mübarizin uşaqları: Ruqənd, Fərid. İradənin uşaqları: Billurə, Bərxudar. İliç dayımın övladları: Cəmilə, Adil, Cəmalə, İlqar.

Mais dayımın uşaqları: Kəmalə, Rəna. Kəmalənin uşaqları: Kərim, Emil. Rənanın uşaqları: Mais, Aygül...

Zaman öz işindədi... Nəsillər bir-birini əvəz edir...

***

Mirağa əmim – Əliyev Mirağa Seyidəli oğlu dövrünün ən tanınmş adamlarından biri idi. İndinin özündə də hansı məclisə düşürəmsə düşüm, onun haqqında yalnız xoş sözlər eşidirəm. Mirağa müəllim mənəviyyatca son dərəcə təmiz, mərd, mübariz, əqidəli bir insan olub.

"Kommunist" qəzetinin 11 mart 1973-cü il tarixli nömrəsini əziz bir xatirə kimi qoruyub saxlamışam. Əmim haqqında son vida sözündə, nekroloqda oxuyuram:

"Sədaqətli kommunist, pedaqoq-alim Mirağa Əli oğlu Əliyev vəfat etmişdir. M.Ə.Əliyev 1912-ci ildə Qubadlı rayonunun Çardaxlı kəndində anadan olmuşdur. 1930-cu ildə Quba Kənd Təsərrüfatı Texnikumunu bitirdikdən sonra

M.Ə.Əliyev Qubadlı və Laçın rayonlarında müəllim işləmiş, Laçın Heyvandarlıq Texnikumunun direktoru, Azərbaycan SSR Xalq Torpaq Komissarlığının inspektoru olmuşdur.

1941-ci ildə M.Ə.Əliyev S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmişdir.

Böyük Vətən müharibəsinin ilk günlərindən M.Ə.Əliyev Sovet Ordusu sıralarında olmuşdur. O, bir sıra komandir vəzifələrində çalışmış, minomyot divizyonunun komissarı, atıcı polk komandirinin siyasi hissə üzrə müavini olmuşdur. Sovet Ordusu sıralarında M.Ə.Əliyevin xidməti 416-cı Taqanroq diviziyasının şanlı döyüş yolu ilə bağlıdır.

Döyüş xidmətlərinə görə M.Ə.Əliyev Qırmızı Bayraq ordeni, iki dəfə Qırmızı Ulduz ordeni ilə və medallarla təltif edilmişdir.

M.Ə.Əliyev ordu sıralarından tərxis edildikdən sonra Bakı Kənd Təsərrüfatı Texnikumunun direktoru, V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun partiya komitəsinin katibi olmuşdur. 1948 - ci ildən M.Ə.Əliyev rəhbər vəzifələrdə işləmiş, Qubadlı, Duvannı, İmişli və Qasım İsmayılov rayon partiya komitələrinin birinci katibi, Azərbaycan Kommunist Partiyası Gəncə Vilayət Komitəsinin ikinci katibi və Kirovabad Şəhər Komitəsinin birinci katibi olmuşdur. 1954-cü ildə M.Ə.Əliyev Azərbaycan KP MK-nın məsul təşkilatçısı, 1954-1955-ci illərdə respublika kənd təsərrüfatı nazirinin müavini işləmişdir. M.Ə.Əliyev 1961-ci ilin oktyabrından V.İ.Lenin adına APİ-də müəllimlik etməyə başlamışdır. Dissertasiya müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almış, ömrünün axırınadək bu institutun fəlsəfə kafedrasının dosenti vəzifəsində işləmişdir.

Mirağa Əli oğlu Əliyevin xatirəsi iş yoldaşlarının, onu tanıyanların hamısının qəlbində həmişə yaşayacaqdır.”

Əmimin dəfn gününü indi də ağrı ilə, əzabla, hüznlə xatırlayıram. Vida mərasimində "Ay Mirağa, ay Mirağa!" deyə-deyə fəryad qoparan, hönkür-hönkür ağlayan xalq yazıçısı Süleyman Rəhimovun səsi indi də qulağımdadır. İkinci fəxri xiyabanda keçirilən matəm mitinqi, əmim haqqında deyilən sözlər elə bil ki, məni qəflət yuxusundan ayıldırdı. Həmişə sadə, təvazökar, mehriban bir insan kimi tanıdığım Mirağa müəllimin bu qədər böyük hörmət sahibi olduğunu elə bil ilk dəfə idi ki, hiss edirdim.

Sonralar əmimin xatirəsinə həsr etdiyim xeyli şeir, "Zəfər yolu" poeması yarandı...

Orta məktəbi təzəcə qurtarmışdım. Universitetin filologiya fakültəsini seçmişdim. Əmim qoymadı, onun istəyi ilə sənədlərimi APİ-nin filologiya fakültəsinə verdim. İlk imtahan yazılı idi. N.Nərimanovun "Bahadır və Sona" əsəri mövzusunda inşa yazıb təhvil verdim. Evə – universitetdən bir tin o tərəfdə yaşayan əmimgilə getdim. Bir azdan əmim özü də gəldi. Onun üzündə xoş bir təbəssüm var idi. Üzümdən öpdü və dedi:

– Qardaşoğlu, savadlı oğlan imişsən. İnşanı yoxlatdırdım, bir dənə də olsa səhvin yoxdu...

Tarix imtahanına hazırlaşırdım. Səhər tezdən imtahan olacaqdı. Gecə saat neçə idi, bilmirəm, ancaq gözümə yuxu getmirdi ki, getmirdi. Birdən qapı açıldı, Mirağa əmim içəri girdi və təbəssümlə dedi:

– Bəsdir oxuduğun, dur yat. Əmin ölməyib ki...

Şifahi imtahanların hamısından "əla" yazdılar mənə. Ən yüksək balla ali məktəbə qəbul olundum. Ancaq daxilən narazı idim. Özüm nə qədər hazırlıqlı olsam da, əmimin sayəsində yüksək bal "toplamağım" heç ürəyimcə deyildi. Ona görə gecəmi gündüzümə qatır, hey oxuyur, oxuyurdum.

Qarşıma məqsəd qoymuşdum ki, ədəbiyyatın, dilin bütün incəliklərini mükəmməl öyrənim.

İlk semestr imtahanından, "Dilçiliyə giriş"dən əla aldım. Azər Hüseynov qiymətimi göstərib soruşdu ki, oxu gör nə yazmışam? Dedim ki, "əla". Gülümsəyib söylədi: Çalış ki, bütün qiymətlərin "əla" olsun!

Sevinə-sevinə əmimgilə getdim. Məndən imtahanların nə vaxt başlanacağını soruşdu. Dedim ki, imtahanlardan birini vermişəm. Bir az tutuldu. Ancaq zaçot kitabçamda "əla"nı görəndən sonra uşaq kimi sevindi, məni təriflədi. Elə o gündən əmimlə mənim aramda mehriban bir münasibət yarandı. Mənim yaxşı oxumağım, qəzet və jurnallarda yazılarımın müntəzəm çap olunması onu çox sevindirirdi.

Çox vaxt Bilgədə – əmimin bağında ikimiz qalırdıq. Bir dəfə məndən soruşdu:

– Farsca bilirsən?

– Elə də yox. Ancaq müəllimim Muxtar Ələsgərzadə məndən razıdı.

Əmim təbəssümlə dedi:

– Onda de görüm: "Bilgənin üzümü şirindi".

Mən gülümsünüb "Ənqure-Bilgə xeyli şirin əst", – deyəndə əmim qəşş eləyib güldü.

O gündən sonra əmim mənimlə zarafatlaşmağı çox sevirdi. Bir dəfə məndən soruşdu:

– Bazarda gülün qiyməti neçəyədi?

Təəccübləndim və çiynimi çəkib dedim ki, bilmirəm.

Əmim gülə-gülə dedi:

– Bəs sənin gül alan vaxtın deyil?!

Rektor Şövqi müəllim, partkom Mürsəl müəllim əmim ilə bərk dost idilər. Əmim də xalq nəzarət komitəsinin sədri idi o vaxt. Universiteti demək olar ki, bu üçlük idarə eləyirdi. Tez-tez bağda bir yerdə olurdular.

İnstitutu bitirməyimizə bir az qalmış bizə təyinat verdilər. Bölgünü Şövqi müəllim aparırdı. Ali məktəbdə işləmək üçün saxlanılan 9 nəfərdən biri də mən idim. Ancaq təyinatdan sonra Şövqi müəllimi işdən çıxartdılar, yerinə Həşim Ağayevi qoydular. Ali məktəbi bitirəndən sonra bizi get-gələ saldılar.

Əmim bərk narahat idi. Birlikdə o zaman institutun təzə partkomu Əhəd Əhmədovun yanına getdik. Əmim israrla mənim işimin niyə düzəlmədiyini soruşurdu. Əhəd müəllim dedi ki, Mirağa müəllim, elə söz var ki, Rafiqin yanında deyə bilmirəm.

Məni çölə çıxartdılar. Birlikdə nə danışdılar, bilmirəm, ancaq onu bilirəm ki, partkomun kabinetindən çıxanda əmimin qanı çox qara idi. Qoluma girdi. İlk sözü bu oldu:

– Qardaşoğlu, kefini pozma! Sizi köhnə rektorun adamları kimi institutda saxlamaq istəmirlər. Dözümlü ol, kimin ki, qarşısına çətinlik çıxır, o, həyatda həmişə böyük adam olur. Ancaq bir şərtlə, gərək ruhdan düşməyəsən, mübariz olasan!

İnstitutu təzəcə bitirmişdim. Hələ iş tapa bilməmişdim. Mirağa əmim mənim çap olunan şeirlərimi yaxın dostlarından birinə, xalq yazıçısı Əli Vəliyevə vermişdi. Sonra mənə belə bir məktub göndərmişdi. Həmin yazı indi də məndə durur: “Rafiq, Əli Vəliyev şeirlərini oxuyub bəyəndi. Verib “Azərbaycan” jurnalının şeir şöbəsinin müdiri Nəriman Həsənzadəyə. Həsənzadə söz verib ki, səni yazıçı və şairlər aləmində tanıtmaq üçün jurnalda məqalə buraxsın. Odur ki, Həsənzadə ilə görüş və jurnalda çap olunmaq üçün yeni şeirlərini ona apar.12 fevral 1971”.

Həmin il “Azərbaycan gəncləri” qəzetində Nəriman Həsənzadənin mənim haqqımda yazdığı “Uğurlu yol” yazısı və “Tələs, ay qatar” şeirim çap olundu.

Mənim uğurlarım Mirağa əmimi çox sevindirirdi. Ancaq təəssüf ki, vaxtsız əcəl onu aramızdan çox tez apardı...

Əmimin ölümündən sonra onun həyatı ilə maraqlanmağa başladım. Rus dilində yazdığı cəbhə xatirələrini Azərbaycan dilinə tərcümə eləsəm də, onu heç harda çap etdirə bilmədim. Ancaq əmim haqda "Zəfər yolu" adlı bir poema yazdım. Onu aparıb xalq yazıçısı Əli Vəliyevə oxudum. Çox xoşuna gəldi. Dedi ki, bu poemanı mütləq çap etdirəcəm. Ancaq təəssüf ki, poemam çap olunmadı, müəyyən parçaları "Sosialist Sumqayıtı" qəzetində işıq üzü gördü. Bu poema 1975-ci ildə, mənim iyirmi beş yaşım tamam olanda yazılmışdı.

Sözün həqiqi mənasında Mirağa əmim döyüş meydanlarında əfsanəvi qəhrəmanlıqlar göstərmişdi. Döyüşlərin birindən sonra onu ən ali mükafata – Sovet İttifaqı Qəhrəmanı adına təqdim edibmişlər. Lakin o zaman Qubadlı rayonunda raykomun birinci katibi işləyən şəxs cavab verib ki, Mirağa Əliyevə bu adı vermək olmaz, ona görə ki, onun həyat yoldaşı türk qızıdır.

Yeri gəlmişkən onu da deyim ki, Sima xanım – Mirağa əmimin həyat yoldaşı çox tanınmış bir kimya müəllimi imiş. O, çox xanım-xatın, görüb-götürmüş, mədəni bir qadın idi. Aramızda əməlli-başlı dostluq var idi. O da əmim kimi məni çox istəyirdi. Bir dəfə necə oldusa xəbərçilikdən söhbət düşəndə o, mənə maraqlı bir hadisə danışdı. Dedi ki, hər bir ailədə söz-söhbət olur. Bir dəfə mən anamla – Gülzar xanımla Mirağanın dalınca nəsə danışmışıq. Bunu eşidən balaca Fikriyyə əmin gələn kimi bizim nə danışdıqlarımızı ona xəbər verdi. Biz rəng verib, rəng aldıq. Mirağanın bərk acığı tutdu. Özü də bizə yox, qızımız Fikriyyəyə. Dedi ki,

adam xəbərçi olmaz. Bu hadisədən həm Fikriyyə, həm də biz əməlli-başlı dərs götürdük.

Mirağa əmim haqqında az məqalə yazılmayıb. Həmin məqalələrdən biri, qocaman jurnalist Mürsəl Qocayevin 3 may 1995-ci ildə "Sərhəd" qəzetində çap edilən "Nağıllaşan ömür" yazısı bu məzmunda idi: "İnsanın özünün nə dünyaya gəlişindən, nə də gedişindən xəbəri olur. Bu iki məqam arasında yaşadığı illər isə onun fəaliyyət dövrüdür. Xoşbəxt o adamdır ki, sağlığında camaatın hörmətini qazana, dünyasını dəyişəndən sonra isə ehtiramla xatırlanıb, ruhuna rəhmət oxuna. Belə adamlardan biri də Əliyev Mirağa Əli oğludur.

Bir çoxları onu Taqanroq adına 416-cı Azərbaycan diviziyasının döyüş şöhrəti ilə ad-san qazanmış zabiti, mülki işlərdə isə bacarıqlı kənd təsərrüfatı mütəxəssisi, qurucu və təşkilatçı, alim-pedaqoq, xeyirxah və qayğıkeş bir insan kimi tanıyırdılar.

1912-ci ildə anadan olmuş Mirağanın yeniyetmə illəri keşməkeşli I Dünya müharibəsi, fevral, oktyabr, aprel inqilabları, vətəndaş müharibəsi, milli qırğın dövrünə düşmüşdür. Bu keşməkeşin içərisində həmişə xoşbəxt bir həyata qovuşmaq arzusu ilə yaşamışdır. Elə bu arzu ilə o, iyirminci illərdə kənddə açılmış ilk məktəbə daxil olmuşdur.

Deyirlər, saf toxum hara düşsə, mütləq cücərər. Elə ibtidai məktəbdə, Quba Kənd Təsərrüfatı Texnikumunda müvəffəqiyyətlə oxuması bunu aydın göstərirdi. O, 1930-cu ildə Qubadlıda müəllim kimi fəaliyyətə başlayır. 1932-35-ci illərdə Laçın Heyvandarlıq Texnikumunda dərs hissə müdiri, sonra isə direktor işləyir. İşgüzarlığına görə Kənd Təsərrüfat Nazirliyində kadr hazırlığı üzrə təlimatçı vəzifəsinə irəli çəkirlər. 1937-ci ildə Bakı Dövlət Universi-

tetinin fizika-riyaziyyat fakültəsinə daxil olub, 1941-ci ildə oranı müvəffəqiyyətlə bitirir.

O, elmi fəaliyyəti davam etdirmək arzusunda idi. Lakin müharibə onun bu arzusunu ürəyində qoydu. Diplomunu almamış həmyaşıdları ilə bərabər döyüşən orduya səfərbərliyə alındı. Hərbi xidmətə 335-ci artilleriya polkunun 8-ci batareyasında sıravi əsgər kimi fəaliyyətə başladı. İki aydan sonra həmin polkun 14-cü batareyasına, 1942-ci ilin fevralında isə 396-cı diviziyanın 696-cı minamyot batalyonuna komissar təyin olunur. Krım işğal edildikdən sonra qısa müddətdə Zaqafqaziya cəbhəsinin siyasi idarəsində çalışır və 1942-ci ilin iyununda 416-cı diviziyanın minamyot batalyonuna komissar təyin olunur. Artıq müharibənin bir ili arxada qalmışdı. O, bu bir ildə diqqətəlayiq döyüş hazırlığı keçmişdi. Buna görə də 1943-cü ilin fevralında diviziyanın 1368-ci polkuna komissar təyin edilir.

Diviziyanın döyüş şöhrəti haqqında çox yazılmış və deyilmişdir. Müharibə illərində respublika qəzetlərində, habelə müharibədən sonra F.E.Bokovun, R.Zeynalov və Brodetskinin "Azərbaycan oğullarının ölməz hünəri", "416 – ataların yolu oğulların yoludur", "Qafqaz dağları ətəklərindən Berlinədək" adlı kitablarında bütövlükdə diviziyanın və ayrı-ayrı döyüşçülərin, zabitlərin, o cümlədən 1368-ci atıcı polkunun komissarı mayor Mirağa Əliyevin döyüş şöhrətindən iftixarla söhbət açılır.

1943-cü il iyul ayında respublika qəzeti "Kommunist"də M.Əliyev haqqında yazılmış "Şərəf və namus yolunda" adlı oçerkdə onun çox strateji əhəmiyyəti olan bir təpədə mövqe tutmuş düşmən arxasına keçmək, kəşfiyyat vasitəsilə onu öyrənmək haqqında qaldırılan təşəbbüs həyata keçirmək üçün 8 gün ardıcıl əməliyyat aparmaqla tapşırığı

layiqincə yerinə yetirməsindən söhbət açılır. Bu əməliyyata görə o, "Qızıl ulduz" ordeni ilə təltif olunur.

Onun ailə arxivində saxlanılan cəbhə xatirələrini vərəqləyirik. Bu xatirələrdə yarım əsr bundan əvvəl keçən qanlı-qadalı illərin nəfəsi duyulmaqdadır.

Əfsanəvi qəhrəman Mirağa Əliyev üç orden və beş döyüş medalını ömrünün sonunadək sinəsində iftixarla gəzdirmişdi. Bunu da ədalət naminə xatırladım ki, böyük şöhrəti, təşkilatçılığı ilə nüfuz qazanmış M.Əliyev daha yüksək səviyyəli döyüş ordenlərinə layiq idi. Hətta onu təltif etmək üçün diviziya rəhbərliyinin müraciəti cavabsız qalmışdı. Çünki onun həyat yoldaşı Sima xanım Osmanlı türkü nəslindən idi.

...Mirağa artıq 1000 sutka idi ki, daim ön cəbhədə ölümlə üz-üzə dururdu. Bu müddət ərzində bərkə-boşa düşmüşdü. Ancaq güllə heç şeyə baxmır. Dnepr çayı, Nikolayev şəhəri ətrafında gedən gərgin döyüşlərin birində – 1944-cü il fevralın 15-də ağır yaralanıb xəstəxanaya düşür. Həmin ilin noyabrına kimi uzun müddət müalicə olunur və dekabr ayında ikinci qrup əlil kimi ordudan tərxis edilir.

Mirağa müəllim 1945-ci ili soyuq səngərlərdə deyil, Bakıda, öz evində qarşıladı. Artıq qələbənin yaxınlığına heç bir şübhə yox idi. Ancaq onun hansı gün qurtaracağını bilmək olmazdı. Nəhayət, dünyanı lərzəyə salan faşizmin məğlub edildiyi tarixi gün – Qələbə günü gəlib çatdı...

İndi qarşıda bərpa və quruculuq işləri dayanırdı. Onun kimi təşkilatçı, işgüzar adamlara isə böyük ehtiyac duyulurdu. Buna görə də onu kənd təsərrüfatı üçün kadrlar hazırlayan texnikuma direktor təyin etdilər. 1948-ci ildə isə onu Qubadlı RPK-nın birinci katibi vəzifəsinə irəli çəkdilər.

Həmin vaxt mən APİ-ni qurtarıb, rayon mərkəzindəki orta məktəbə təyinat almışdım. Mirağa müəllimi institutdan

tanısam da, rayonda necə işləməsi ilə daha yaxından tanıdım. İşlədiyi üç ilə yaxın müddətdə əvvəlki neçə-neçə illərdə görüldüyündən çox mədəni-quruculuq, abadlıq işləri, iqtisadiyyatı yüksəldən tədbirlər görə bildi. Həm də özünün yüksək intellekti, rəftarı, qayğıkeşliyi ilə şəxsi nümunə göstərib camaatın nüfuzunu qazandı.

Sonralar Duvannı, İmişli, Gəncə vilayət, Gəncə şəhər, Goranboy rayon partiya komitəsində birinci katib, kənd təsərrüfatı nazirinin müavini vəzifələrində müvəffəqiyyətlə fəaliyyət göstərməsi məhz onun yüksək mədəni rəftarı, tələbkar, işgüzar adamlara qarşı son dərəcə qayğıkeş olmağı ilə bağlıdır.

O illər çətinliklər çox idi. Müharibə saysız-hesabsız problemlər yaratmışdı. Camaat çox yoxsul yaşayırdı. Kişilərin çoxu cəbhədən qayıtmamışdı. Əsgər ailələri, çoxuşaqlı analar, qocalar, şikəstlər daha çox əziyyət çəkirdilər. Mirağa müəllim işlədiyi rayonlarda qarşıya çıxan bu problemlərin həllində cəbhədə olduğu kimi əsgəri tələbkarlıq və intizam nümunəsi göstərir, camaatı bacarıqla səfərbərliyə alırdı. Məktəb, dəyirman tikdirdi. Yol çəkdirdi, yaşayış evi, istehsalat-sosial əhəmiyyətli obyektlər tikdirdi.

Mirağa müəllim 1961-ci ildən elmi-pedaqoji fəaliyyətini yenidən davam etdirməyə başlamışdı. İxtisasca riyaziyyatçı-fizik olsa da, humanitar elm sahəsində müdafiə etmiş və fəlsəfə kafedrasında çalışmışdır. O, alim kimi də özünün bütün yaxşı keyfiyyətləri ilə çalışdığı elmi kollektivdə yüksək nüfuz sahibi olmuşdur.

Bu günlərdə 1368-ci polkun II batalyonunun keçmiş komsorqu, N.Tusi adına ADPU-nun fəlsəfə kafedrasının dosenti Əlislam Əliyevə “Siz polkunuzun komissarı Mirağa Əliyevi necə xatırlayırsınız?” deyə müraciət edəndə o, böyük iftixarla danışdı:

– Mən onu 1943-cü ildən tanıyıram. Taqanroq, Melitopol uğrunda gedən döyüşlərdə onun göstərdiyi şücaəti indi də xatırlayıram. Mən 1943-cü ilin sentyabrında yaralanıb, əlil kimi tərxis olundum. Müharibədən sonra o, bir sıra rayonlarda rəhbər vəzifələrdə çalışmışdır. Ondan həmişə xoş soraqlar alırdım. Eyni kafedrada işlədiyimiz müddətdə mən onun bütün keyfiyyətlərinə daha yaxından bələd oldum. Mirağa müəllim hələ öz sağlığında onu tanıyanların qəlbində unudulmaz xatirələr yaratmışdır. Xalqımızın belə oğullarını yeni nəsillərə nümunə göstərmək, bu nümunədən tərbiyə işində istifadə etmək müqəddəs borcumuzdur.

Bəli, dünya nə ömrə acıyan, nə yaşa baxan dünyadır. Mirağa müəllim 1973-cü ildə öz dünyasını dəyişdi. İndi onun ömrü artıq nağıllaşmaqdadır. Ancaq bu nağıllar gələcəkdə "biri var imiş, biri yox imiş" kimi sözlərlə başlasa da, əhvalatlar xəyala deyil, burada yazdığımız 1941-45-ci il müharibəsinin real hadisələri, Mirağa kimi real qəhrəmanları olacaqdır. Bu hadisələrin, bu adamların yaddaşlarda nağıllaşması isə nəsillər üçün çox ibrətamizdir".

Mürsəl müəllimin "Nağıllaşan ömür" adlı bu məqaləsini oxuyanda nədənsə yadıma Mirağa əmimin dəfn günü düşdü. Əlislam Əliyevin ağlaya-ağlaya dediyi sözləri elə bil yenidən eşitdim: "Əlvida, mənim komissarım!"

Mirağa müəllim, doğrudan da, əsl qəhrəman idi, şərəfli bir ömür yolu keçmişdi. Onun əməyinin, ömür yolunun lazımi səviyyədə qiymətləndirilməməsi məni həmişə ağrıdırdı. Çalışırdım ki, əmimin xatirəsini əbədiləşdirsinlər. Bir dəfə onun kağız-kuğuzunu vərəqləyəndə əlimə keçmiş cəbhə dostlarından birinin – Mustafa Mustafayevin ünvanı keçdi. Ona məktub yazıb xahiş etdim ki, keçmiş dostu kimi Mirağa Əliyevin xatirəsinin əbədiləşdirilməsi üçün məsələ qaldırsın. Mustafa müəllim 3 fevral 1975-ci il tarixdə

Qubadlıda çıxan "Avanqard" qəzetinə bir məktub göndərdi. Təəssüf ki, nəyə görəsə həmin məktubu dərc eləmədilər. Yaxşı ki, Mustafa müəllim məktubun surətini Ağdaşdan mənə də göndərmişdi. İndi həmin məktubun məzmunu ilə möhtərəm oxucularımı tanış etmək istəyirəm.

"Hörmətli redaksiya! 1973-cü ildə aramızdan getmiş cəsur döyüşçü, bacarıqlı təşkilatçı, mehriban insan Mirağa Əliyevi Qubadlı rayonunda yaşayan hər bir kəs yaxşı tanıyır. Lakin mən onu dar gündə sınanmış dost kimi tanıyırdım. Mənə elə gəlir ki, belə mərd, qayğıkeş insanları təbiət hər deyəndə yetişdirmir.

Mirağa Əliyevlə mən 416-cı Taqanroq dsiviziyasının 1368-ci alayında bir yerdə vuruşmuşam. Mən adi topçu, o isə mayor rütbəsində alayın siyasi hissə üzrə komandir müavini idi. Onun necə cəsarətli olmağını sözlə ifadə etmək çətindir. Lakin nə qədər də olsa, sadə bir epizod danışım:

– Yoldaş komissar, düşmən tanklarını biz özümüz məhv edərik. Arxayın olun, onlar buradaca darmadağın ediləcəklər. Lakin Siz bir az arxaya gedin, burada hər saniyə ölüm gözlənilir.

– Mən top atmağı bacarmasam da, topa güllə verməyi, yeri gələndə sıradan çıxmış bir döyüşçünü əvəz etməyi bacararam. Belə döyüşdə arxada dayanıb tamaşa etmək olarmı? – deyə alay komissarı, mayor Mirağa Əliyev üstümüzə hücum edən düşmən tanklarının məhv edilməsində şəxsən iştirak etdi.

Onu həmişə əsgərlərlə bir səngərdə, əldə silah vuruşan görürdük. O, bizim məsləhətçimiz, yaxın dostumuz, komandirimiz və döyüş yoldaşımız olmuşdur. Mirağa aramızdan getsə də, onun xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Belə bir insanı yetişdirmiş ailəyə, torpağa və cəmiyyətə biz – onun cəbhə dostları həmişə minnətdarıq və arzu edirik ki,

onun doğma vətəni Qubadlıya yolumuz düşəndə bir qabaqcıl məktəbin, kolxozun, küçənin və ya yaxşı bir bulağın Mirağa Əliyev adına olduğunu görək.”

Mustafa müəllimin bu arzusu bir az gec də olsa, həyata keçdi. Hal kənd orta məktəbinə Mirağa Əliyevin adı verildi.

Mirağa əmimin döyüş fəaliyyəti haqqında az-çox yazıblar. Lakin rəhbər vəzifələrdə işlədiyi dövr haqqında yazılar yox dərəcəsindədir. Əmim o qədər təvazökar idi ki, elədikləri haqqında danışmağa qətiyyən xoşlamazdı. Təəssüf edirəm ki, mən də vaxtında onunla birlikdə işləyən adamlarla söhbət etməmişəm.

Əmimin danışdığı bir yumorlu hadisəni indi də xatırlayıram. Çardaxlı Nəzər kişi çox danışqan bir adam imiş. Əmim deyirdi ki, bir dəfə Qubadlıda gedib işlədiyim vaxt Maşınla Çardaxlıya gedirdim. Çox qayğılı idim. Birdən yolun qırağında Nəzər kişinin dayandığını gördüm. Sürücüyə dedim ki, maşını saxlayıb, onu götürsün. Nəzər kişi maşına minən kimi ona on manat verib dedim ki, kəndə çatana qədər bir kəlmə danışma. Nəzər kişi onluğu alıb, bir müddət danışmadı. Birdən qəflətən pulu üstümə tullayıb dedi:

– A kişi, götür pulunu, danışmasam, ürəyim partlayacaq...

17 yanvar 1999-cu il tarixdə Mirağa əmimin oğlu Cəfər dünyasını dəyişdi. Bu dəhşətli xəbəri yağmurlu bir gündə eşitdik. Mən, həyat yoldaşım Fəzilə, qardaşım Qorxmaz və bibim oğlu Sabir Bakıya yollandıq. Qarşıdan gələn maşınların işığından gözüm yolu seçmirdi. Yağış isə yağır, yağırdı. Gözlərim zahiri dünyaya qapanmışdı, daxili dünyam isə kədər bulaşıqlı nur içindəydi. Yadıma uşaqlığımız, gəncliyimiz, Cəfərlə birlikdə keçirdiyimiz günlər dü-

şürdü. Qəlbimə axan göz yaşlarım sevimli əmim oğlu ilə bağlı xatirələrin üstünə səpilirdi...

Cəfər yayda bizim kəndə – Çardaxlıya gələrdi. Birlikdə odun yığmağa, ot biçməyə gedərdik. O, böyük həvəslə işləyər, mənə kömək edərdi. İşlərimizi qurtarandan sonra isə sevimli məşğələmiz futbol oynamaq idi. Özümüz üçün Əliyevlər komandası düzəltmişdik. Paşa müəllimin oğlu Asif də Əliyev olduğu üçün bizim komandada oynayırdı. Eşitdiyimə görə Asif indi Bakının Binəqədi rayonunda polis rəisinin müavini işləyir.

Cəfər çox sadə, istiqanlı, kompaniya sevən bir insan idi. Yeyib-içməkdən xüsusi zövq alardı... İllər keçdi, böyüdük, ali məktəbə qəbul olunduq. Cəfər Moskvada Qubkin adına Geologiya İnstitutuna qəbul olunmuşdu. Sonra əmimin istəyi ilə APİ-nin fizuka fakültəsinə qəbul olundu. Ali məktəbi bitirəndən sonra hərbi xidmətə çağırıldı. Hərbi xidmətdən sonra isə atasının yolunu davam etdirdi, partiya işində çalışdı. O, komsomolun Mərkəzi Komitəsində şöbə müdiri, Bakının 26-lar (Səbayil) rayonunda partiya komissiyasının sədri, təbliğat və təşviqat şöbəsinin müdiri vəzifələrində çalışırdı. Cəfər hələ cavan ikən özünə hörmət qazanmışdı. Çoxlu dostları, tanışları vardı. Sovet İttifaqı dağılandan sonra hansısa bir xarici şirkətdə işləyirdi. Qızlarından yalnız Ülviyyənin toyunu görə bildi. Ülviyyə Kamran Hüseynovun nəvəsi Muradla ailə həyatı qurdu. Həmin vaxt xəstə olduğum üçün toyda iştirak edə bilməmişdim. Cəfər gülə-gülə deyirdi ki, toyda elə bəylə gəlin oynayırdı. Arada Ülviyyəyə dedim ki, gəlin çox oynamaz. Bilirsən mənə nə dedi? Dedi ki, ay ata, bəs nə vaxt oynayacam, öz toyumdu da, qoy oynayım!

Cəfər çox adamlara kömək eləmişdi. Müşgül məsələləri həll etməkdə mahir idi. Eldar Baxışı çox çətinliklə partiya

sıralarına qəbul elətdirdi mənim xahişimlə. “Gənclik” nəşriyyatının direktoru, yazıçı Əzizə Əhmədovaya partiya cəzası veriləndə yenə mənim xahişimlə ona kömək elədi.

Cəfərlə Çardaxlıda, Qubadlıda, Çayzəmidə, Əyində, Bilgəhdə fərəhli günlər keçirmişdik. Səhərin gözü açılmamış çaya gedib Bərgüşadda balıq tutmağı çox xoşlayırdı.

Bir dəfə Cəfər mənə dedi:

– Sən əməlli-başlı şair imişsən ki! Ülviyyəyə müəllim şeir vermişdi əzbərləməyə. Bir də şeirin altına baxdım ki, dərslikdəki “Aydagəzən” şeirinin müəllifi sənsən..

Cəfər təxminən bir il qabaq bərk xəstələnmişdi, 4 nömrəli xəstəxanada yatırdı. Onun yanına getmişdik. Baxşılarımdan nə deyəcəyimi duydu. Gülə-gülə dedi:

– Nə tərs-tərs baxırsan, bir işdi olub da! Qəsdən xəstələnməmişəm ki!

Atamı, Mehdi əmimi aparan dəhşətli xəstəlik – qaraciyər serrozu Cəfərin də yaxasından yapışmışdı. Təbabətdən az-çox başım çıxdığı üçün bilirdim ki, geriyə yol yoxdu. Dəhşətli bir xəbərin nə vaxtsa gələcəyinə özümü hazırlamışdım. Bəlkə də elə buna görə idi ki, bir qədər toxtaq idim. Bəlkə də yaş artıq öz işini görmüşdü. Artıq ölümün haqq işi olduğu ilə barışmaqdan başqa çarəm qalmamışdı. Cəfərin bacısı qızı Sima hönkürə-hönkürə ağlayanda mən də kövrəldim, yadıma Mirağa əmim rəhmətə gedəndə ağladığım günlər düşdü...

Cəfərin yeddisində Kamran Hüseynovla görüşdük. Onun təzəcə çapdan çıxmış “Bir ömrün salnaməsi” kitabı haqqında söhbətləşdik. Dedim ki, Kamran əmi, yadınızdadırsa Eldar Baxışla Sizin yanınıza gələndə Mirağa əmim haqqında çox maraqlı xatirələr danışdınız. Nədənsə kitabınızda bu haqda az yazmısınız.

Kamran müəllim dedi:

– Müharibədən sonra mən Kirov rayon partiya komitəsində katib işləyirdim. Mirağanın səndlərini hazırlayıb Mircəfər Bağırovun yanına apardım. Xahiş elədim ki, Mirağanı bizim rayona ispolkom təyin etsinlər. Mircəfər Bağıov acıqlandı, dedi ki, get öz işinlə məşğul ol! Mirağa Əliyev mənim öz kadrımdı. Onu başqa işə göndərəcəyəm.

Bundan sonra Mirağanı Duvanlı rayon partiya komitəsinə katib göndərdilər. Onun qaynar əmək fəaliyyəti dövrü başladı. Bir sıra rayonlarda rəhbər vəzifələrdə işlədi, özünü bacarıqlı bir təşkilatçı kimi göstərdi.

Mirağa əmim imkanı daxilində hamıya əl tutan, yetim-yesirin qayğısına qalan bir insan olub. Onun Qaçaq Baba adlı bir insanın övladlarına ən çətin məqamda kömək etməsini eşitmişdim. Xeybər Göyyallının və Famil Süleymanovun kitablarında da bu haqda yazılıb.

Famil müəllimin "Ana gördüm, gözü yaşlı" kitabında Mirağa müəllimin xarakterini açan maraqlı bir epizod var. Bu epizodu, hadisəni danışan Qaçaq Babanın oğlu Rəsul müəllimdir: "Yalvar-yaxar sənədlərimi alıb Bakıya gəldim. Tanışlardan biri dedi ki, Kənd Təssərrüfat Nazirliyində kadrlar üzrə nazir müavini Qubadlıdandır. Heç demə bu, mərhum Mirağa Əliyev imiş. O zaman qayda-qanuna möhkəm riayət olunurdu. Mirağa Əliyev isə onun qəbuluna yazılanları on-on, on beş-on beş qəbul edirdi. Mən üçüncü adam kimi onun qəbuluna yazıldım. Qəbula gələnlər əksərən institutu bitirənlər idi. Biz iyirmi nəfər olanda katibə bizi qəbula buraxdı. Birinci iki nəfərin məsələsi həll edildikdən sonra sənədlərimi onun stolunun üstünə qoydular. İndikindən fərqli olaraq o zaman kənd təsərrüfat mütəxəssislərinə böyük ehtiyac duyulurdu. Nazir müavini məndən soruşanda ki, hansı rayondansan, Qubadlıdan olduğumu söylədim.

Hansı kənddən, kimin oğlu olduğumu soruşdu. Dedim ki, Fərcandan Babanın oğluyam.

O, soruçdu:

– Babanın?

Qorxa-qorxa dedim:

– Bəli.

Mənə dedi ki, keç otur arxada. Öz-özümə qaçmaq haqqında fikirləşirdim. Nəhayət, nazir müavini qəbula gələnlərin hamısını yola saldı və məni yanına dəvət etdi. Katibəsinə iki stəkan şirin çay, yağ alıb gətirmək üçün göstəriş verdi. Bundan sonra məndə bir balaca sakitlik əmələ gəldi. Mirağa Əliyev kadrlar şöbəsinə zəng edib dedi:

– Ə, Kərim, Babanın oğlu institutu bitirib gəlib, gəl görək onu hara işə düzəldə bilərik.

Beləliklə, məni kənd təsərrüfat texnikumuna müəllim göndərdilər. Mirağa müəllim mənə dedi: “Get, bala, yaxşı işlə, bir iki aydan sonra bəlkə Şamaxıya gəldim, onda səni direktora tapşıracağam.”

Mən bunu bir ötəri söz kimi qəbul etdim və minnətdarlığımı bildirdim. Lakin 1954-cü ilin noyabr ayında telefon zəng etdi. Dəstəyi götürdüm, danışanın Rəsul olduğunu söylədim. Danışan Mirağa müəllim idi. O, mənə dedi:

– Bu saat get texnikumun direktoru Hüseynov Sadığı götürüb yanıma gəl, mən mehmanxanadayam.

Direktorla Mirağa Əliyevin otağına daxil olduq. Salamlaşandan sonra o, direktora dedi: “Sadıq, bu uşaq yaxşı bir kişinin oğludur. Buna hər cür şərait yarat, yorğan-döşək ver, onun normal yaşamasına şərait yarat, elə elə ki, aylıq maaşı 250 manatdan az olmasın, heç kəsi yoxdur, yetim oğlandır”.

Əlbəttə, Mirağa Əliyevin kömək etdiyi, əl tutduğu adamlar yüzlərlə olub. Hər yerdə onun haqqında xoş sözlər

eşitmişəm. Lakin təəssüf edirəm ki, vaxtında bu deyilənləri, eşitdiklərimi qələmə almaq ağlıma gəlməyib.

Bibim oğlu Zakir Əsədov deyir ki, mənim Gəncədə Yaqub adlı bir dostum var idi. Xahiş elədi ki, dayına de, mənim qohumumu ali məktəbə düzəltsin. Nə qədər istəsə, pul verəcəyik.

Mən Mirağa dayımgilə getdim. Evdə ailə üzvlərindən başqa tanımadığım bir qadın və bir qız var idi. Dayımdan soruşdum:

– Dayı, sən ali məktəbə uşaq düzəldə bilərsən?

Gülümsünüb dedi:

– Düzəldərəm.

Dedim ki, dayı, bir dostum var, onun qohumunu instituta düzəlt, nə qədər istəsən pul da verəcək.

Dayım mənalı-mənalı üzümə baxdı. Dedi ki, bu qadını görürsən, o, sənin atan Mikayılın qohumudu. Heç kəsi yoxdu. Qızını da götürüb mənə pənah gətirib. Dostun pulu başqa adama verib, qohumunu ali məktəbə düzəltdirə bilər, mən isə bu qıza kömək eləməliyəm...

"Azərbaycan" nəşriyyatının həyəti ilə çap sexinə gedirdim. Yolda qarşıma Tarovlu İdris müəllimin oğlu Möhübbət çıxdı. Dedi ki, "Azərbaycan müəllimi" qəzetində Cəfərin ölümü münasibətilə sənə verilən baş sağlığını oxuyub çox pis oldum.

Daha sonra o, bizim nəsildən, onun xeyirxahlığından xeyli danışdı. Dedi ki, 1971-ci ildə institutu bitirib təyinatımı İmişliyə almışdım. Ancaq məni istədiyim kəndə müəllim göndərmirdilər. APİ-də bunu Mirağa müəllimə dedim. O, İmişlinin birinci katibi Niyaz Kərimova zəng eləyib dedi ki, yanına bir oğlan göndərirəm, ona kömək et.

Mən İmişliyə getdim. Katibin qəbul otağında çox adam var idi. Ancaq heç kəsi qəbul etmirdi. Deyirdilər ki, içəridə

şairlər var. Niyaz müəllim Bəxtiyar Vahabzadə ilə, Nəbi Xəzri ilə söhbət edir. Mən katibəyə dedim ki, Niyaz müəllimin yanına məni Mirağa müəllim göndərib. Katibə telefonla bunu deyən kimi Niyaz Kərimov məni mehribanlıqla qəbul etdi. Dedi ki, asan bir işdən ötrü niyə Mirağa müəllimə əziyyət vermisən, get maarif şöbəsinə, səni hansı kəndə istəsən göndərəcəklər.

...Cəfərin yas mərasimi davam edir. Qohumlar, dostlar, tanışlar axın-axın gəlib gedir. Məni dəhşətə gətirən, düşünməyə vadar eləyən budur ki, bizim nəslin yaşayan ağsaqqalı indi mən olmuşam. Adamın kövrək çiyni bu adın ağırlığına tab gətirə bilmir. Gözlərim ağsaqqallarımızı axtarsa da, bilirəm ki, həyatın təkərini geri qaytarmaq mümkün deyil.

Çay gətirən uşaqlardan birinin kimliyini soruşuram. Deyirlər ki, Fikriyyənin nəvəsidi, Eldarın oğlu Əlidi... Ürəyim təsəlli tapır, yaşlı nəsil öz köçünü çəksə də, arxadan yeni nəsil gəlir. İnanıram ki, bu yeni nəslin nümayəndələri də öz dədə-babalarının yolu ilə gedəcəklər...

Bibim Firuzə Seyid Əli qızı çox dünyagörmüş, ictimai hadisələrdən baş çıxaran bir qadın idi. Mən də, qardaşlarım da ona bibi yox, nənə deyirdik. O, saçının birini ağ, birini qara hörüb üç övlad böyütmüşdü: Pakizə, Zakir, Sabir...

Həyat yoldaşı Mikayıl müəllim müharibədə həlak olandan sonra ailənin bütün ağırlığı Firuzə bibimin üstünə düşmüşdü. O, bizim Çardaxlıdakı evimizin qonşuluğunda özünə bir ev tikdirmişdi. Ancaq övladları böyüyüb şəhərə gedəndən sonra kənddəki evini satıb, şəhərə köçmək məcburiyyətində qalmışdı. Ömrünün axırınadək Sumqayıtda yaşadı.

Bibimin çox gözəl yaddaşı və məntiqi var idi. Sözün həqiqi mənasında, o, xeyir-şərin bəzəyi idi. Uşaqdan tutmuş böyüyə qədər bütün qohum-əqrabanı itirib-axtarar, hamını

mehribançılığa səsləyərdi. Firuzə nənənin üz-gözündən nur yağırdı, bütün varlığı ilə dinə inanar, namaz qılar, oruc tutardı.

Firuzə bibimin dediyi sözlərin bir qismi mənim şeirlərimdə yeni bir həyat kəsb eləyib. Ancaq yazıya ala bilmədiyim sözləri daha çoxdu: "Dana-buzovlu yurdda qalmaz", "Özgə özgə itiyini bayatıyla gəzər", "Oğlan evininki alıncadı, qız evininki ölüncədi"...

Təəssüf edirəm ki, bibimin dediklərini vaxtında yazıya almamışam. Elə buna görə də qələmə aldığım nəsil şəcərəsində bəzi natamamlıqlar var.

Firuzə nənə çox təmizkar bir arvad idi. Hər adamın bişirdiyi xörəyi yeməz, sağdığı südü içməzdi... Bir dəfə bizi Əyinə yağ almağa göndərməsi gününü indi də təbəssümlə xatırlayıram. Bu haqda "Gülüş qonaqlığı" adlı bir yazı da yazmışdım...

Firuzə nənə çox fərasətli qadın idi. Şəhərə köçəndən sonra tezliklə bu həyata alışdı. Özü hər yerə gedib-gəlir, bazarlıq eləyə bilirdi. Zakir deyir ki, bir dəfə gördüm ki, nənəm quru balıq alıb gətirib. Soruşdum ki, ay nənə, bu nədi belə? Onun cavabı məni lap güldürdü:

– Bala, gördüm hamı növbəyə durub alır, mən də aldım. Dedilər ki, pivə ilə yaxşı gedir...

Hamımız subay idik. Biz evə gec qayıdanda nənəm bərk narahat olurdu. Bir dəfə şair Tofiq Bayramla mənim işlədiyim yataqxanada görüş təşkil eləmişdim. Tədbirdən sonra başımız yeyib-içməyə qarışdı. Evə lap gec gəldim. Yol boyu fikirləşirdim ki, nənəmə nə cavab verəcəyəm? Elə bu zaman küçədə, su avtomatlarının yanında Zakirə rast gəldim. Siqaret çəkə-çəkə vargəl edirdi. Çox sevindim və soruşdum:

– Qağa, sən də evə indi gedirsən?

– Ə, yox e, nənəm məni sənin dalınca göndərib. Bilirdim ki, harda olsan, evə burdan gələcəksən...

Bir dəfə də Zakir evə çox gec gəlmişdi. Elə qapıdan içəri girən kimi nənəmə danışmağa imkan vermədi. Dedi ki, ay nənə, bu Məhi Əlizadə nə yaxşı adam imiş, sizin hamınızı tanıyır...

Məhi Əlizadə o vaxt daxili işlər naziri idi. Bibimin dediyinə görə bizə qohumluğu çatırdı...

Nənəm Zakiri sorğu-suala tutmaq istədi, o isə dedi ki, ay nənə, bərk yorğunam, qoy yatım, sabah durub söhbət eləyərik.

Səhər tezdən Firuzə nənə yuxudan təzəcə oyanan Zakiri sorğu-suala tutdu:

– Bala, danış görüm Məhi Əlizadəni harda gördün?

Zakir təəccüblə soruşdu:

– Nə Məhi, ay nənə?

– Ə, bəs dünən demirdin ki, Məhi Əlizadə ilə bir yerdə yeyib-içmisən?

Hamımız gülüb bir-birimizə qarışdıq. Sən demə Zakir nənəmi sakitləşdirmək üçün yalandan belə deyibmiş...

Zakir çox gec yatırdı. Bir dəfə bibim bir çaxır alıb gətirmişdi. Hamımız təəccübləndik. Soruşanda ki, ay nənə, bu nədi alıb gəlmisən, nənəm belə cavab verdi:

– Arvadlar danışanda eşitdim ki, bir stəkan "sxoy" çaxır içib yatanda adamın yaxşı yuxusu gəlir...

Bir dəfə də yenə mənim evə gec qayıtdığım vaxtda bibim bərk narahat olub, Razimə deyib ki, get gör qardaşın harda qaldı? Razim isə cavab verib ki, ay nənə, darıxma, uşaq deyil ki, harda olsa gəlib çıxacaq.

Qardaşımın bu cür sakitliyi bibimi bərk əsəbiləşdirib:

– Bala elə atalar doğru deyib ki, qardaş qar kimi soyuq, daş kimi bək olur.

Nənəmlə zarafatlaşmağı xoşlayan Razim də onun dediyi tərzdə danışıb:

– “Nənə, nənə, nənəyə nə?”

Bir dəfə də nənəm Razimi danlayıb ki, bax, Rafiq yaxşı oxuyur, bəs sən niyə pis oxuyursan?

Razim isə gülə-gülə cavab verib ki, ay nənə, onun dərsini oxumağa nə var, məsələ yox, misal yox, oxuduğu kitabların hamısı sevişməkdəndi...

O vaxt Firuzə nənəni ən çox narahat eləyən məsələlərdən biri də Zakirin gec evlənməsi idi. Həmişə deyirdi ki, təki evlənsin, qoy elə gəlin mənə çörəyi şişin ucunda versin...

Bir gün bibim mənə sevinclə dedi ki, bala, bəs xəbərin var, qağan Tofiq müəllimin bacısı qızını istəyir.

– Hansı Tofiq müəllimin, ay nənə?

– Əminin dostu Tofiq müəllimin.

Elçi gedib Qətibə ilə Zakiri nişanladılar. Qətibə qiyabiçi idi. Dərsə gedəndə onu həmişə Bakıya mən aparıb gətirirdim. Başıma çox maraqlı əhvalatlar gəlirdi...

Qətibə ilə Zakir ZAQS-a getməli idilər. Zakir mənə dedi ki, Rafiq, sən get Qətibəni apar ZAQS-n qabağına, mən də gəlirəm.

Qətibəgil səbirsizliklə oğlan evinin təntənəli şəkildə gəlməyini gözləyirmişlər. Məni görəndə çox sevindilər. Soruşdular ki, bəs sizin adamlar hanı? Dedim ki, nə adam, Zakir məni göndərib ki, Qətibəni ZAQS-n qabağına aparım, o da gələcək.

Elə bu sözə bənd imişlər. Evdə bir tufan qopdu ki, gəl görəsən. Qətibə nişan üzüyünü çıxarıb üstümə tulladı. Mən həyəcanlı haldı dedim:

– Əşi, mən neyləyim e, nə istəyirsiniz məndən?

Uzun sözün qısası, Zakirlə Qətibə mehriban bir ailə qurdular. Təranə, Pərvanə, Pərvin dünyaya gəldi. Nənəm elə sevinirdi, elə sevinirdi ki, gəl görəsən.

Donu var qırçın-qırçın,
Özü bala sığırçın.
Tanımırsan, ay nənə? –
Təranənin bacısı
Pərvanəyəm, Pərvanə...

İndi Təranə də, Pərvanə də ana olublar. Nərmin, Gülnur, Aynur adlı körpə balaları var. Burda Nərminin bir sözü yadıma düşdü: “Ata ilə ana işdədi, qar qurtaracaq, bəs mən neyləyəcəm?”

Zakirin toyundan sonra Sabirin növbəsi çatdı. Sabir dostu Fazilin baldızı Xatirə ilə nişanlandı. Zakir, mən, Məhyəddin, Qətibə Laçına gəlin gətirməyə getdik. Səhər saat 5-də Şuşaya çatdıq. Sonra ordan Laçına yollandıq. Dəllək Nəsirin üzümü yola-yola qırxması indi də yadımdadı.

Dolama yollarla Əliqulu kəndinə çatdıq. Mirağa əmimgil də Qubadlıdan bura gəlmişdilər. Kənddəki bulağın üstünə getməyimiz, Aşıq Camalın çalıb-oxuması indi də yadımdadı. Əliqulu bizim Əyin kəndinə bənzəyən gözəl bir kənd idi. Həmin kənddə olan məzəli bir söhbəti yumor guşəsində vermişəm.

Məndə şeirə ilk maraq oyadanlardan biri də bibim oğlu Sabir olub. O, Qubadlıda onunla bir oxuyan sinif yoldaşı Fazil Cəbrayılovun şeirlərini gətirib mənə oxuyardı. Özü də məzəli şeirlər yazardı. Qardaşı Zakirə göndərdiyi məktublar əsasən şeirlə yazılardı:

Əziz qardaşım Zakir,
Səni verənə şükür!
Qaldı çal-çəpər işi,

Pis deyildir gedişi.
Qoca camışı satdıq,
İndi mətləbə çatdıq...

Sabir orta məktəbi bitirəndən sonra şəhərə təhsilini davam etdirməyə getmişdi. Bir gün atam mənə dedi ki, qələm-kağız götür, bir şeir deyim, yaz göndər Sabirə. Atam diqtə elədi, mən aşağıdakı sətirləri yazdım:

Eşşəyi saxladıq, xotuğu satdıq,
İndicə sən deyən mətləbə çatdıq.
Eşşəyi dostumuz Zeynal apardı,
Anan əvəzinə üç yüz qopardı.
Üstünə də bir az atamdan aldı,
Hamısını sizə tez yola saldı...

Bu məktubdan sonra boynuma yük düşdü, mən də başladım şeir yazmağa və bütün ömrümü şeirə, sənətə həsr etdim...

Sabir şeirlərimin ilk tənqidçisi idi. Mənim məktubla yazıb göndərdiyim şeirləri o, təhlil etməyə çalışır, mənə yol göstərirdi. Zakir zarafatla deyirdi ki, biriniz Səməd Vurğunsunuz, biriniz Məmməd Arif...

Mehdi əmim də maraqlı insan idi. Göz açandan hamının ona Mehdi müəllim dediyini eşitmişdim. Tanıdığım adamların hamısı ona məhəbbətlə, hörmətlə müraciət edirdilər. Xüsusilə Sumqayıt şəhərində onu tanımayan yox idi. Hər yerdə əmim haqqında xoş sözlər eşidəndə daxilən fərəhlənmişəm. Onun vəfatı xəbəri isə məni sarsıtdı. Mehdi əmim də özündən sonra belə bir nekroloq "yadigarı" qoyub getdi: "Şəhərimizin pedaqoji ictimaiyyətinə ağır itki üz vermişdir. Qocaman təhsil işçisi, tanınmış ictimaiyyətçi, Azərbaycan Sənaye İnstitutu metodiki şöbəsinin müdiri, iqtisad elmləri

namizədi, dosent Mehdi Əli oğlu Əliyev 1996-cı il avqust ayının 1-də vəfat etmişdir.

Mehdi Əli oğlu Əliyev 1930-ci ildə Qubadlı rayonunun Çardaxlı kəndində anadan olmuşdur. 1946-cı ildə Qubadlı rayon orta məktəbini bitirən Mehdi Əliyev müəllim kimi əmək fəaliyyətinə başlamışdır. O, 1948-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş, 1952-ci ildə təhsilini başa vurduqdan sonra Gəncə Maarif Şöbəsində inspektor vəzifəsində əmək fəaliyyətini davam etdirmişdir. 1953-cü ildən 1959-cu ilədək Bakı Neft Texnikumunda müəllim, şöbə müdiri vəzifələrində işləmişdir.

Mehdi Əli oğlu Əliyev 1959-cu ildən həyatını Sumqayıtla bağlamışdır. O, 1961-ci ilədək Sumqayıt Kimya Texnologiya Texnikumunda şöbə müdiri, 1971-ci ilədək Sumqayıt Politexnik Texnikumunda direktor müavini vəzifəsində çalışmışdır. Sonralar ona yüksək etimad göstərilmiş, Sumqayıt Şəhər Maarif Şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmişdir. Azərbaycan Neft Kimya İnstitutu Sumqayıt filialı fəaliyyətə başlayandan sonra o, bu təhsil ocağına dəvət olunmuşdur. Burada müəllim, baş müəllim, dosent, filial müstəqil instituta çevrildikdən sonra metodiki şöbənin müdiri vəzifəsində işləmişdir.

Mehdi Əli oğlu Əliyev Sumqayıtda gənc kadrların iqtisadi təhsili, təsərrüfat rəhbərlərinin ixtisaslarının artırılması ilə bağlı ümumşəhər miqyasında tədbirlərdə fəal iştirak etmişdir. Azərbaycan Kommunist Partiyası Marksizm-Leninizm Universiteti Sumqayıt filialının direktoru kimi iqtisadi biliklərin təbliği, mütəxəssislərin hazırlanması sahəsində böyük əmək sərf etmişdir.

O, iqtisadiyyatı yaxşı bilən bir mütəxəssis kimi ardıcıl apardığı elmi araşdırmalarla, müxtəlif qəzet və jurnallarda dərc etdirdiyi çoxsaylı elmi-publisistik məqalələrlə respub-

lika miqyasında tanınan bir alim olmuşdur. Mehdi Əliyev elmi axtarışlarını ümumiləşdirib dissertasiya müdafiə etmiş, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır (1971). Mehdi müəllim axtarışlarını davam etdirir, doktorluq dissertasiyası üzərində işləyirdi.

Mehdi Əli oğlu Əliyev Sumqayıt şəhərinin ictimai həyatında fəal iştirak etmiş, dəfələrlə şəhər sovetinə deputat seçilmişdir.

Mehdi Əliyev həyatda həddindən artıq təvazökar, qayğıkeş insan, həm də incə qəlbə malik gözəl ailə başçısı idi. Ömrünün və elmi-pedaqoji fəaliyyətinin ən məhsuldar dövründə həyatdan getmiş əziz dostumuz və yoldaşımız Mehdi Əli oğlu Əliyevin əziz xatirəsi bizim qəlbimizdə və onun yetirmələrinin yaddaşında daim yaşayacaqdır.

Azərbaycan Sənaye İnstitutunun rektorluğu və Həmkarlar İttifaqı komitəsi"

Əlbəttə, bu nekroloq əmimin şərəfli ömür yolu haqqında az söz demir. Ancaq canlı bir insan ömrünü nekroloqa sığışdırmaq mümkündürmü? Onun mərdliyi, kişiliyi, xeyirxahlığı yaddaşlardan silinməyəcək. Mehdi əmim nə qədər adama təmənnasız yardım əli uzadıb: ev, maşın, mebel almağa, işə düzəlməyə kömək edib. Mehdi müəllimin tələbələri respublikamızın ən tanınmış adamlarıdılar.

Mehdi müəllim zahirən qaraqabaq, hər işdə qanun-qayda gözləyən adam idi. Biz cavanlarla arada həmişə interval – pərdə saxlayardı. Ancaq dostları ilə birlikdə olanda o, çox şən, zarafatcıl idi.

Bir dəfə İzzət Sadıqovla ova gedəndə əmim məni də özü ilə aparmışdı. Heç təsəvvür edə bilməzdim ki, Mehdi müəllim ovçuluğu da gözəl bacarırmış. Gözümün qabağında, maşın gedə-gedə göydə vurduğu kəkliklər məni heyrətləndirmişdi.

Əmim şəhərdə yaşasa da, torpağa bağlı adam idi. Sarıqayada o dövr üçün gözəl bir bağ evi tikdirmişdi. O vaxt elə təmtaraqlı bağ evini barmaqla saymaq olardı. Ancaq elə buna görə Mehdi əmimi çox incitmiş, sıxma-boğmaya salmışdılar.

Həmin bağ çox qonaq-qaralı olurdu. Rəhmətlik İzzət həkim, İsmayıl müəllim, Əsgər müəllim, Tofiq müəllim tez-tez bu bağa qonaq gələr, yeyib-içər, zarafatlaşardılar. Hətta bir dəfə əmimgilin bağına xalq yazıçısı Əli Vəliyev də qonaq gəlmişdi.

Mehdi əmim Sumqayıtda çox böyük hörmət, nüfuz qazanmışdı. Axır vaxtlar doktorluq dissertasiyası üzərində işləyirdi. Kağız-kuğuzunu yekə qara sumkasına doldurub bizə gələr, mənə yazılarını redaktə etdirər, makinada yazdırardı.

Bir dəfə ona dedim ki, əmi, yaxşı qələmin var, elmi ümumiləşdirmə qabiliyyətin güclüdü, ancaq heyf ki, sosializm yarışı haqqında kitab yazırsan. Təəccüblə üzümə baxdı. Bir söz deməyib getdi. Sonradan bir dəfə bizə gələndə acı-acı gülümsünərək mənə dedi ki, sən düz deyirmişsən, gərək başqa bir mövzuya əmək sərf edəydim.

Əmimin yolu üstündə həmişə yaşıl içıq yanırdı. Bəzən o, maşınla küçə hərəkətini kobud şəkildə pozsa da, müfəttişlər ona güldən ağır söz deməzdilər. Çünki onların əksəriyyəti əmimin tələbələri olmuşdular.

Əmim istirahət günləri qohum-qardaşın uşaqlarını yığıb bağa işləməyə apardı. Bir dəfə ona dedim ki, əmi, məni niyə bağa aparmırsan? Gülüb dedi ki, sən gedəndə uşaqların tərbiyəsini pozursan, onları da işləməyə qoymursan.

Əmimin dostu, fəlsəfə elmləri doktoru, professor Həsən Sadıqovdan xahiş etdim ki, Mehdi müəllim haqqında bir şey

yazsın. Sağ olsun, sözümü yerə salmadı, "Nurlu simalar" adlı bir yazı yazıb mənə təqdim etdi. Məzmunu belə idi:

"Azərbaycanın qədim diyarlarından olan füsunkar təbiətli Qubadlı mahalı yüzlərlə adlı-sanlı xalq qəhrəmanları, dünya bədii ədəbiyyat xəzinəsinə samballı epopeyalar, romanlar, poemalar bəxş edən nəhəng yazıçılar və şairlər, vətəninə və xalqına sədaqətli sərkərdələr və generallar, çoxsaylı alimlər və ictimai-siyasi xadimlər, fəlsəfi təfəkkürlü müdrik ağsaqqallar və ağbirçəklər, bütün ömrünü gənc nəsillərin maariflənməsinə həsr edən nurlu müəllimlər yetirmişdir.

Qubadlının dilbər guşələrindən olan Çardaxlı kəndində bu elin nüfuzlu ağsaqqalı Seyidəli kişinin ailəsində nəbzləri həmişə Qubadlı ilə vuran üç qardaş, üç ziyalı, üç şəxsiyyət, üç müəllim dünyaya göz açmışdır: Mirağa, Yusif, Mehdi.

Mirağa Əliyevi bütün Azərbaycan tanıyırdı. O, uzun illər respublikanın müxtəlif bölgələrində müəllim, partiya və dövlət xadimi kimi doğma xalqına namusla, vicdanla xidmət etmişdir. Mirağa müəllim insanlığın ən yüksək dəyəri olan "xalq adamı" ləqəbinə layiq görülmüşdür. Bu ad özü dünyasını dəyişdikdən sonra da yaşayır və əbədidir.

1941-1945-ci illərdə 416-cı Azərbaycan diviziyasının yüksək rütbəli qəhrəman zabiti olmuş Mirağa Əliyevin adı xalqımızın XX əsr qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılmışdır. Xalq müəllimi, filosof-alim, siyasi xadim, adlı-sanlı sərkərdə, el ağsaqqalı Mirağa Əliyevin şanlı xatirəsi elimizin qəlbində əbədi yaşayacaqdır.

Qardaşların ortancılı olan Yusif müəllimlə mənim tanışlığım az və ötəri olmuşdur. O, həmişə öz doğma kəndində müəllimlik edirdi. Mən təkcə onun Qubadlı qəsəbəsinin yaxınlığındakı hündür təpənin zirvəsində keçirilən dəfn mərasiminin iştirakçısı oldum. Lakin Yusif müəllimin mərd

adam, sədaqətli dost, dəyərli ziyalı, kənd müəllimi, həmişə köhlən at belində olması haqqında çox eşitmişdim.

Qardaşların kiçiyi Mehdi Əliyev idi. Tale elə gətirdi ki, Sumqayıt şəhərində Mehdi müəllimlə birlikdə 40 ilə qədər müəllimlik etdik. Mən ilk dəfə Mehdi müəllimlə 1961-ci ildə Sumqayıt politexnik texnikumunda tanış oldum. O, burada tədris üzrə direktor müavini işləyirdi.

Təbiət Mehdi müəllimə çox nadir bir xüsusiyyət vermişdi. Onda olan saf insani hisslər, həlim və cəzbedici xüsusiyyət, mərifətli şəxsiyyət davranışı, dolu ziyalılıq, yüksək humanist münasibət, üzündə-gözündə qaynayan nur ilk görüşdən hər kəsi ona vurğun edirdi. Mən də o vurğunlar sırasındaydım.

Mehdi müəllim nadir bir şəxsiyyət idi. Onun daxili aləmi ilə zahiri davranışı həmişə vəhdət təşkil edirdi. Mehdi müəllim sözün tam mənasında insansevər bir adam idi. O, texnikumda işləyəndə də, şəhər maarif şöbəsinin müdiri olanda da, institut partiya təşkilatına rəhbərlik edəndə də, "dayısız", kimsəsiz, əlacsız adamlara həmişə diqqət və qayğı bəsləyirdi, onlara arxa olurdu, düzgün yol göstərirdi.

Mehdi müəllim Sumqayıt şəhərinin ictimai-siyasi, elmi-pedaqoji həyatında çox fəal iştirak edirdi. Şəhər əhalisi arasında onun böyük hörməti var idi.

Mehdi müəllim çox gözəl alim və pedaqoq idi. Onun tədris və tərbiyə metodu tələbə gənclərin milli və bəşəri dəyərlər baxımından şəxsiyyət kimi formalaşmasında müstəsna əhəmiyyət kəsb edirdi. Mehdi müəllim son dərəcə qayğıkeş bir ailə başçısı idi. Gözəl həyat yoldaşı rəhmətlik Roza xanımla birlikdə bütün varlıqlarını uşaqlarının səadətinə və xoşbəxtliyinə həsr edirdilər.

Kainata nur saçan günəş, cəmiyyətə işıq saçanlar isə nurlu insanlardır."

Hafizə Seyidəli qızı mənim kiçik bibimdir. O da sinəsi sözlü, nəğməli, zarafatcıl bir qadındır. Yaqub dayı ilə baş-başa verib ömür sürən Hafizə bibim çox qibtə olunası, mehriban bir ailə sahibidir. Onların Qubadlıda çox dəm-dəsgahlı evləri, həyət-bacaları var idi. Evləri həmişə qonaq-qaralı olardı. Onların qapısı el qapısı idi, hamı, hətta yoldan ötənlər də bu qapını ərklə açar, çay içər, çörək yeyər, sərinləyib, sonra işlərinin dalınca gedərdilər.

Mən orta məktəbin doqquzuncu, onuncu siniflərində oxuyanda bibimgildə qalırdım. Səhərlər hamıdan tez durub tok çaydanını cərəyana qoşar, dərslərimi oxuyardım. Yaqub dayıgilin həyətində gəzə-gəzə şeir əzbərləmək mənim ən sevimli əyləncəm idi.

"Avanqard" qəzetində "Qarğa məhəbbəti" adlı ilk şeirim çap olunmuşdu. Sevincimdən uçmağa qanadım yox idi... Yaqub dayıgilin həyətindəki gilas ağacının lap uca budağına çıxmışdım. "Avanqard"ın redaktoru Famil Həşimov, onun müavini İmamqulu Şahmuradov bir neçə kişi ilə küçədən keçirdilər. Birdən necə oldusa onlar məni ağacın üstündə gördülər. Yol ilə gedə-gedə haqqımda dedikləri xoş sözlər məni elə bil qanadlandırdı. Gilasın ucqar budağında özümü quş kimi yüngül hiss edirdim...

İndi Yaqub dayı ilə Hafizə bibim ömürlərinin ixtiyar, nəvə-nəticəli çağını yaşayırlar. Ancaq bu xoşbəxt günlər kədərlə yoğrulub. Ona görə ki, onlar doğma Qubadlının xiffəti ilə yaşayırlar. Bu da bibimdən eşitdiyim misralar:

Axşam oldu, ditdi yendi heratdan,
Ditdinin dimdiyi vardı poladdan.
Yorğana sancılan iri qanaddan...
Yorğan, ditdi məni həlak elədi...
Axşam oldu, ditdi yendi obaya,
Əti yoxdu tutaq basaq şorbaya,

Əlac budu girək cuna torbaya,
Torba, ditdi məni həlak eylədi...

Bibimin maraqlı sözlərindən ikisi yaddaşıma həkk olunub: "Bir quş uçub, bir budağa sığınıb", "Yiyə gözü – haqq gözü"...

Hafizə bibimin həyat yoldaşı Yaqub dayı çox zəhmətkeş, qohumcanlı, səxavətli, mərd, sözü üzə deyən bir adamdı. O, öz zəhməti ilə Qubadlıda gözəl bir imarət tikdirmişdi, Əyində bağ salmışdı. Heç bir çətinlikdən qorxmurdu. Bir problem yaranan kimi dediyi söz bu olurdu: "Vecinə alma!" Qaçqınlıq da Yaqub dayını əyə bilmədi. Öz əlinin zəhmətiylə Bakının ucqar, mazutlu bir sahəsində özünə gözəl şərait yaratdı...

Bir dəfə Roza bibimin yas məclisində Yaqub dayı ilə xeyli söhbətləşdik. "İsaqın yerinə gərək sən öləydin", – dediyinə görə bibimin xalası qızını ağacın altına salmasından, qaçqınlıq dövründə başına gələn bəzi məzəli əhvalatlardan danışdı...

Yaqub dayı qaçqınlıq dövründə "Azərbaycan" kinoteatrında qarovulçu işləyirmiş. Ora gələn bir neçə məşhur adamlara Yaqub dayı əməlli-başlıca dərs verib.

Bir nəfər yekəxana-yekəxana Yaqub dayıdan soruşub ki, kişi, kənddə nə işində işləyirdin? Sözün tonu onun xoşuna gəlmədiyi üçün ədəbsizlik edib otaqda siqaret çəkən həmin adama deyib:

– Çoban olmuşam, 450 qoyunum olub, ancaq sənin kimi qoyun birincı dəfədi görürəm...

Yaqub dayının xahişini nəzərə alıb, həmin adamın adını yazmadım.

Babam, anamın atası Nuşirəvan Kərimov Qubadlının tanınmış ziyalılarından biri idi. O, 1898-ci ildə anadan olmuş, 1966-cı ildə vəfat etmişdir. Qəbri Xocamsaxlı kən-

dindədir. Babamın babası Molla Səfi, atası isə Molla Kərim imiş. Babam özü də savadlı molla imiş. Sovet hakimiyyəti qurulandan sonra o, müəllimliklə məşğul olur. "Molla müəllim olub, ləzzətə bax, ləzzətə" adlı şeirində babam üstüörtülü şəkildə öz taleyindən söhbət açmışdı.

Yeri gəlmişkən onu da deyim ki, müqəddəs "Quran" kitabını ilk dəfə babamda görmüşdüm. O, gizlicə ipək dəsmalın arasından "Quran"ı çıxarıb oxuyar, hərdən bir o müqəddəs kitabı mənə öpdürərdi.

Qəribədir, bütün bunları anama danışanda o, təəccüblənmişdi. Babam o zaman hökumətin qorxusundan "Quran"ı gizli saxlayırmış.

Babam respublikamızın əməkdar müəllimi idi, "Lenin" və digər ordenlərlə təltif edilmişdi. Ədəbiyyatımızı, xüsusən klassik ədəbiyyatımızı çox gözəl bilirdi. Sonradan öyrənmişdim ki, babam həm də şairdir. O, "Molla Nəsrəddin" jurnalında "İstiot" təxəllüsü ilə öz şeirlərini çap etdirərmiş. O vaxt bu cür satirik şeirləri açıq imza ilə çap etdirmək mümkün deyilmiş.

Şeirin ibtidai qayda-qanunlarını babamdan öyrənmişdim. Qubadlıda – orta məktəbdə oxuyanda bəzən dərsdən sonra kənd uşaqlarına qoşulub Xocamsaxlıya gedərdim. Babam klassık ədəbiyyatdan öyrəndiyimiz "dərslər"i mənə yenidən keçərdi. Səhərin alatoranında yenidən uşaqlıq dostum Mübarəklə Qubadlıya – dərsə qayıdardım. Yolumuz kənd qəbristanlığının yanından, Dəvəuçan deyilən sıldırımdan, sonra dərədən keçərdi..

Ümumiyyətlə, mənim bir ədəbiyyatçı kimi yetişməyimdə, poetik zövqümün formalaşmasında babamın müstəsna xidmətləri olub. 1972-ci ildə, Yerevanda əsgərlikdə olarkən ona həsr etdiyim "Babam" adlı bir şeir yazmışdım. Həmin şeirin son bəndi belə idi:

Sözünə bərbər çətin söz tapam,
Sözü də şeir tək qalıb yadımda.
Mənə çoxlu şeir söyləyən babam,
Özü də şeir tək qalıb yadımda...

Bütün uşaqlar kimi mən də babama çoxlu suallar verərdim. O isə mənim verdiyim qəribə suallar haqqında həvəslə tay-tuşlarına söhbət açardı. Deyərdi ki, bir dəfə mən ona belə bir sual vermişəm: "Ata "dəh" deyirsən gedir, "dübş" deyirsən dayanır, eşşəyə "çu" deyirsən gedir, "toqquş" deyirsən dayanır, keçiyə "he" deyirsən gedir, "heyha" deyirsən qayıdır, qoyuna "kis" deyirsən gedir, bəs nə deyəndə qayıdır?"

Uşaq vaxtı məndə musiqiyə böyük maraq vardı. Darağın üstünə nazik kağız qoyub, balaban kimi səsləndirirdim. Bunu görüb mənə "mandalin", sonra tar aldılar. İlk çalmağa öyrəndiyim hava isə bu idi: "Sudan gələn sürməli qız"...

Babamla mənim aramda olan nağara əhvalatını rəhmətlik Mais dayım həmişə ləzzətlə danışar, qəşş eləyib gülərdi...

İndi də hərdən o günləri xatırlayıb xəyallara dalıram. Maşınla evdən işə, işdən evə gedəndə mənə elə gəlir ki, magistral yol bir çaydı, mənim maşınım isə mühərlikli bir qayıq. Elə bil çay yuxarı, çay aşağı şütüyürəm. Yadıma ötənlər, Ağa çayının sahilindı keçən günlər düşür...

Babamgillə hər il yayda Sisyan dağlarına köçər, bəzən məni də özləri ilə aparardılar. Dəstəyirddə – Dəstə yurdda məni uşaqdan böyüyə hamı tanıyırdı. Hankavan deyilən qəsəbənin üstündəki bir dağın ətəyində alaçıqlarımızı, çadırlarımızı qurub yaşayardıq. İşim dağ-dərəni gəzib dolanmaq, bir də babamın verdiyi məsələ və misalları həll etməkdən ibarət olurdu.

Sonralar mənim şeir yazmağım babamı çox sevindirirdi. Bir dəfə Qasım Qasımzadə Xocamsaxlıya gələndə babam şeirlərimi ona göstərib. O vaxt Qasım müəllim mənə məsləhət görmüşdü ki, daha çox təbiətdən yazım.

Bir dəfə də Qasım Qasımzadə Xocamsaxlıya gələndə oğlu Fəxrəddini də özü ilə gətirmişdi. Biz Fəxrəddinlə tez dostlaşdıq. Evin ikinci mərtəbəsindəki balkonda əvvəlcə mən tarı dınqıldatdım. Sonra onu Fəxrəddinə verdim. Sən demə Fəxrəddin musiqi məktəbinə gedir, gözəl tar çalırmış.

Söhbət əsnasında Fəxrəddin dedi ki, at minmək istəyir. Qasım müəllimgilin başı söhbətə qarışıq olanda mən dayımın qara atını mindim, Fəxrəddin isə atamın "göy dayça" dediyimiz atını. Çaydan keçib, atları üzü Mehrili kəndinə sarı çapdıq. Xeyli gedəndən sonra geri qayıtdıq. Qasım müəllim bizi at üstündə görüb gülümsündü. Zarafatla mənə dedi ki, unutma ha, Koroğlunun özü də şair olub...

Açığı, bu söz mənim canıma yağ kimi yayıldı...

Yeri gəldikcə babam mənə öz şeirlərindən oxuyardı. Həmişə deyərdi ki, ölüb gedəndən sonra şeirlərim itib-batacaq. Təəssüf ki, elə belə də oldu. Düzdür, onun şeirlərinin əlyazmalarından bir qismi məndədir, ancaq bu şeirlərin çoxunu Kazım dayım saxlayırdı. Bəxtimizə qaçqınlıq payı düşəndə həmin əlyazmalarının hamısı, babamın sənədləri, orden və medalları da rayonda qalıb it-bata düşdü...

Mən "Göyərçin" jurnalında təzəcə şöbə müdiri işlədiyim vaxt Qasım müəllim mənə zəng eləyib dedi ki, Rəşid Quliyev adlı bir nəfər var, o, Nuşirəvan babanla maraqlanır. Mənim kitabımda babana həsr etdiyim "Müəllim" şeirini oxuyandan sonra bilib ki, Nuşirəvan müəllim mənim müəllimim olub. Mən də ona sənin telefonunu vermişəm. Zəngləşib söhbətləşərsiniz.

Rəşid müəllim bizim redaksiyaya gəldi. Söhbət zamanı məlum oldu ki, mənim babam Rəşid müəllimin anasına da dərs deyibmiş. O vaxt Rəşid Quliyev ədəbiyyat arxivinin müdiri vəzifəsində çalışırdı. "Molla Nəsrəddin" jurnalında babamın çap olunan şeirlərinin üzünü köçürüb mənə gətirmişdi.

"Ədəbiyyat və incəsənət" qəzetinin 12 dekabr 1986-cı il tarixli 50-ci nömrəsində Rəşid Quliyevin və Qasım Qasımzadənin babam haqqında məqalələri dərc edildi. Bu məqalələrin əlyazmasını qəzetə mən təqdim eləmişdim. Qasım müəllimin məqaləsi göy rəngli mürəkkəblə, xüsusi səliqə ilə yazılmışdı. Sözlər muncuqlar kimi yan-yana düzülmüşdü. Təəssüf edirəm ki, həmin məqalənin əlyazmasını özümdə saxlamamışam. Bəlkə də redaksiyanın arxivində qalır...

Möhtərəm oxucu, indi babam haqqında yazılan həmin məqalələri sizin nəzərinizə çatdırmaq istəyirəm.

## "İstiot" kimin imzasıdır

Uşaqlıqda anamdan belə bir şeir öyrənmişdim:

Deməyəsən bu zəli,
Nə zəli, lap məzəli,
Girmiş imiş bir suya,
Özün vurub yuxuya...

Şeir çox uzun idi, xeyli hissəsini əzbər bilirdim. Anam deyirdi ki, bu şeiri orta məktəbdə ədəbiyyat müəllimimiz yazıb və 30-cu illərdə "Molla Nəsrəddin" jurnalında dərc olunub, özüm Bakıda oxuduğum illərdə görmüşəm.

İşimlə əlaqədar olaraq "Molla Nəsrəddin" jurnalının müxtəlif illərə aid komplektlərini tez-tez vərəqləməli olurdum. Bir gün 1930-cu illərə aid nömrələrə baxdığım zaman

"Zəlili bulaq" adlı bir şeirə rast gəldim. Şeiri başdan-ayağa oxudum. Misralar mənə çox tanış gəlirdi. Ancaq şifahi yayılmış şəklindən bir sıra variant fərqləri var idi. Şeirin "İstiot" imzası ilə dərc olunması isə daha çox maraq doğururdu. Odur ki, həmin imzanı izləməyə başladım və başqa şeirlərinin də bu imza ilə dərc edildiyinin şahidi oldum. "Yeni ocaq" (may, №5, 1930), "Ağlaşma" (yanvar, №1, 1930) və "Zəhmətkeşlərə" (noyabr, №31, 1930) şeirləri bu imza ilə verilmişdi. Bundan başqa eyni üslubda yazılmış və eyni ərazidən bəhs edən "Aşıq" imzalı "Yeni pir" (iyun, № 30, 1930), imzasız dərc olunmuş "Fırıldaqçı molla" (iyun, №22, 1930) felyetonlarının da müəllifinin həmin şəxs olduğunu müəyyənləşdirdim.

Anam demişdi ki, o, kəndimizin məktəb binasına aid də şeir qoşmuşdu. Həmin şeiri asanlıqla tapdım. Çünki şeir imzasız dərc olunsa da ("Görəsən nə vaxt başa gələcək", noyabr, №21, 1930), "Qubadlıdan" rubrikası ilə həmin nömrədə verilən tapmaca mənə kömək etdi.

O nədir ki, zığı var,
Altından çubuğu var,
Pəncərəsi yoxsa da,
Hər yandan işığı var?

Cavabı isə belə idi:

Çəpərədir, zığı var,
Altından çubuğu var,
Gilətağ məktəbidir,
Hər yandan işığı var.

Söhbət Zəngilan rayonunun Gilətağ kəndində o zamankı zəlili bulaqdan və "çəpərə" məktəbdən gedirdi.

Onu da qeyd edim ki, “Molla Nəsrəddin” jurnalının bu çıxışından sonra bulaq təmir edilmiş, məktəb binası tikilib başa çatdırılmışdı.

Bəs həmin şeirlərin müəllifi kim idi? Doğrusu, şeirini əzbər bildiyim müəllimin adını anamdan soruşmamışdım. Bu şeirləri toplayandan sonra onun Nuşirəvan Kərimov olduğunu öyrəndim, yadıma düşdü ki, haçansa şair Qasım Qasımzadənin özünün yazdığı tərcümeyi-halını oxumuşam. Şair göstərirdi ki, Nuşirəvan Kərimov ibtidai məktəbdə ona ilk dərs deyənlərdən biri olub. Əziz müəlliminə həsr etdiyi şeirində də ona minnətdarlığını, şeirə ilkin həvəs oyatdığını bildirmişdir. Buna görə də “İstiot” imzasının müəllifi barədə daha ətraflı məlumat almaq üçün Qasım müəllimə müraciət etdim. Oxucular və “Molla Nəsrəddin” jurnalının tədqiqatçıları üçün maraqlı olacağını nəzərə alıb, onun öz müəllimi barədə xatirəsini redaksiyaya təqdim etməyi lazım bildim.

**Rəşid Quliyev**

***

“Rəşid müəllimin Nuşirəvan Kərimovu yada salıb, onun indiki ədəbi-pedaqoji ictimaiyyətə məlum olmayan fəaliyyətinə dair faktlar üzə çıxarıb, mənim istəkli müəllimim barəsində söhbət salması qəlbimi riqqətə gətirdi. Xəyalım ömrümün uşaqlıq çağlarına qayıtdı. Otuzuncu ildə bizim Xocamsaxlı kəndində məktəb yox idi. Səhər açılar-açılmaz adları yadımda qalan qonşu uşaqları – Canbaxış (indi Baxış müəllim deyirlər), Məryəm, Kərim, Xədicə, Balaxanım, Kazım, Məhəmməd, Dərgah və başqaları bir-birimizi səsləyər, içi kitab-dəftərli, çörəkli-dürməkli, toxunma naxışlı çantalarımızı çiynimizə salıb yola düzəlir, dəstələnib xeyli uzaq Dəmirçilər kəndinə gedərdik. Xeyirxah və səxavətli insan kimi mahalda ad çıxaran Hacı Bədəlin maarifə

bağışladığı binada açılmış məktəbin birinci sinfində oxuyurduq. Yazda, havalı günlərdə Məxmər müəllimə bizi darısqal sinif otağından çıxarar, dərsi çöldə, bağçada, bağda keçərdi. Evə axşama yaxın ancaq ki, gəlib çıxardıq.

Hələ o zaman ictimai fəallığı ilə məşhur olan bizim kəndin, həmçinin Qubadlının savadlı-bilikli kişilərindən sayılan Nuşirəvan Kərimov bir il sonra, 1931-ci ildə Şuşa Pedaqoji Texnikumunu bitirib geriyə qayıdan kimi Xocamsaxlıda ibtidai məktəbin açılmasına nail oldu. Yol yorğunluğundan çanımız qurtardı. Nuşirəvan müəllim özünəxas orijinal pedaqoji üsula və bu sahədə təkrarsız qabiliyyətə malik idi. Uşaqların zehnində təbiət, cəmiyyət hadisələrinə aid ilkin biliklərin bünövrəsini qoymaq bacarığında onun misli-bərabəri yox idi. Əl əməyinə, nəğmə və idmana, ətraf mühiti sevməyə və onun haqqındakı ibtidai təsəvvürü genişləndirməyə xüsusi səy göstərirdi. Üçüncü, dördüncü sinfin uşaqlarına yerli məlumatdan işə yarayan cürbəcür alət, avadanlıq düzəltməyi öyrədirdi.

Məktəbin həyətində yığın-yığın ağac, təkərli araba, maşın modelləri, kürək, yaba, şana, qab-qacaq, xalça, gəbə dəzgahı görərdin ki, bunlar uşaqların qabiliyyətini və əl işinə həvəsini nümayiş etdirirdi. Əyanilik Nuşirəvan müəllimin pedaqoji üsulunun mərkəzində dayanırdı. Dərsdən kənar vaxtlarda da dinclik bilmirdi. Yazda aşıb-daşan Ağa çayının sahilindəki sual-cavablardan birini indiki kimi xatırlayıram:

– Kim deyər, görüm sizdən biriniz bu çaya atılsa, özünü belə bir daşqından necə xilas edər?

Hərə bir cür cavab verdi. Kimi dedi ki, bax, çayın ortasındakı o daşdan yapışaram, kimi dedi ki, haray salaram gəlib çıxararlar və s. Müəllim razılaşmırdı. Növbə mənə çatanda əlacım üzülmüşdü. Dedim: "Ay müəllim, axı özümü

niyə çaya atıram ki, niyə də çıxa bilməyim?" Nuşirəvan müəllim bərkdən güldü və məni bir "sağ ol"la mükafatlandırdı.

O vaxtlar sinfi mübarizənin qızğın dövrü idi. İnqilab, kommuna mövzusunda özü şeirlər yazar, ahəngini, musiqisini də tapıb bizə oxudardı. Nəğmə dərsi çox canlı keçər, ruh yüksəkliyi oyadardı. Nuşirəvan müəllim qoşduğu şərqi üçün müvafiq səhnəciklər də fikirləşib tapardı. Belə bir epizod yadımdadır ki, bir gün sinfin uşaqlarını iki dəstəyə ayırdı. Dəstənin birisi kəndliləri, o birisi fəhlələri təmsil edirdi. "Kəndlilər"in qabağında dayanan uşağın əlində özlərinin ağacdan düzəltdikləri oraq, "fəhlələr"inkində isə çəkic var idi. Hər iki dəstə xorla oxuduqları ümumi sözlərdən – girişdən sonra mətnə uyğun şəkildə bir-birinə xitab edərək yavaş-yavaş yaxınlaşırdılar, əllərindəki oraqla çəkici birləşdirirdilər. Mahnının mətnindəki aşağıdakı misralar yadımda qalıb:

Kommunanın yolun tutub gedirik,
Nikolay yıxılıb, bayram edirik.
Fəhlə qardaş!
Kəndli qardaş!
Birləşərsək ikimiz,
Çox xoş keçər günümüz...

Məzmununda otuzuncu illərin ruhu çırpınan bu misralar indi adi görünsə də, o zamanlar xorla oxunanda dövrə görə necə təsirli səsləndiyini təsəvvürə gətirməmək olmaz. Nuşirəvan müəllimin söz silahının səsi həmişə eşidilirdi. Bu səsdə dövrün koloriti, problemləri, köhnəliyə, nadanlığa qarşı amansız münasibət, yeniliyə çağırış coşqun əks-səda tapırdı. Onun yumor bürüncəkli, satirik tikanlı misraları dildən-dilə düşürdü. Öz sinfi simasını gizlətməklə cilddən-

cildə düşənlər, müftə qazanc naminə “pir” icad edənlər, mülkü əlindən çıxan möhtəkirlərin hər biri öz adı-ünvanı ilə bu silahın hədəfi idi. Müəllim hazırlayan yay pedaqoji kurslarında təhsil alıb dərs demək hüququ qazanmaqdan ötrü adını siyahıya saldırıb əldən-ayaqdan düşən mollanümalar barədə yazdığı sabiranə şeirindən bəzi bəndləri indi də xatırlayıram. Nuşirəvan müəllimin özü də ilk təhsilini mollaxanada almışdı. Buna görə də deyirdilər ki, həmin şeirdə o, özünə də sataşmışdır.

Köhnə fikirlər hanı, təzələnir hər nə var,
Xalq oyanıb büsbütün, kimlər onu aldadar.
Gəldi həvəskar olub kursa bütün mollalar,
Bir mən ölüm diqqət et köhnə, təzə adətə,
Molla müəllim olub, ləzzətə bax, ləzzətə.

Çıxarıb atıb pirə çoxları öz çuxasın,
Geyinib urbaşqanı, düymələyib yaxasın,
Əyninə kostyum taxıb, gizlədibdir əbasın,
Gör necə şax yeriyir, bax bu boya, qamətə,
Molla müəllim olub, ləzzətə bax, ləzzətə.

Nuşirəvan Kərimov 20-30-cu illərdə“Molla Nəsrəddin”in ən fəal müəlliflərindən olmuşdur. Onun yazıları “İstiot” və digər məxfi imzalarla çap edilsə də, bunların kim tərəfindən yazıldığını Zəngəzur mahalında hamı hiss edib bilirdi. O, “Azərbaycan kolxozçusu” və digər mətbuat orqanlarında da kəskin ictimai məzmunlu şeirlərlə çıxış etmişdir. Tərəqqi, maarif mücahidi kimi Nuşirəvan Kərimovun adı mötəbər ziyalılar cərgəsində çəkilməyə başlamışdı. Xidmətləri yüksək qiymətləndirilmişdi. “Lenin” ordeni, “Qırmızı Əmək Bayrağı”, “Şərəf nişanı” ordenləri və medallarla, Respublika Ali Soveti Rəyasət Heyətinin Fəxri

Fərmanı ilə təltif olunmuş, "Əməkdar müəllim" adına layiq görülmüşdü. Yüzlərlə ali təhsilli mütəxəssis, onlarca alim öz mollanəsrəddinçi müəllimini minnətdarlıqla xatırlayır. Onun təlim-tərbiyəsi ilə böyümüş yeddi övladının ikisi cəbhədə həlak olmuş, beşi isə ali təhsil alıb müxtəlif sahələrdə öz atalarının adını ləyaqətlə doğrultmuşlar. Hələ onun yüksək ixtisasa yiyələnmiş sonrakı nəslini, nəvə-nəticələrini demirik. İstedadlı şair Rafiq Yusifoğlu, necə deyərlər, babasına çəkmişdir. Nuşirəvan müəllimin yandırdığı poeziya ocağının kül altda qalan közünü sönməyə qoymamışdır. Mən də ədəbiyyata, şeirə ilk həvəs qığılcımını əziz müəllimimin qaladığı həmin ocaqdan götürmüşəm. Bu mənada ona borclu olduğumu hələ 1949-cu ildə onun yüksək dövlət mükafatı aldığını mətbuatdan biləndə bildirmişdim:

Nuşirəvan müəllim öyrətdi bizə
Yerlərin, göylərin neçə sirrini.
Qatdı şərbət kimi o, dilimizə
Vaqifin, Sabirin şeirlərini.

Al oxu şeirimi, əziz müəllim,
Burdakı mənanı sən öyrətmisən.
Sənə minnətdardır qəlbim, qələmim,
O böyük adınla öyünürəm mən.

Nuşirəvan Kərimovun "Molla Nəsrəddin" və digər mətbuat orqanlarında çıxan, həmçinin əlyazması halında qalan və yaddaşlarda yaşayan əsərlərini toplayıb, saf-çürük edib üzə çıxarmaq onun şagirdlərinin – mənəvi övladlarının borcudur.

**Qasım Qasımzadə**

***

Babam Süleyman Rəhimovun uşqalıq dostu imiş. Eşitdiyimə görə bir dəfə Süleyman Rəhimov babama yazdığı məktubun sonunda zarafatla, ona sataşmaq məqsədiylə yazıbmış: "Nuşirəvan, gör tapsan mənə bir az qurut göndər". Babam isə cavabında eyni ahənglə belə yazıbmış: "Süleyman, xahişini yerinə yetirə bilmədim. Kənddə bir az qurut qalıbmış, onu da Əyindən bir kişi gəlib, hamısını qaxa dəyişib aparıb."

Xocamsaxlıda kəndin adamları yaman qurut sevən olublar. Hətta rəvayətə görə, qarğa sərgidən qurutu götürüb uçanda sahibi onun dalınca qaçır, qayadan yıxılıb ölür.

Əyin kəndində isə gözəl bir armudluq var idi. Camaat armud qaxı kəsib, ondan gen-bol, qənd əvəzinə istifadə edərmiş. Sən demə babam Süleyman Rəhimovun eyhamla vurduğu "zərbəyə" eyhamla da cavab veribmiş...

Atam ilə həm dost, həm də "düşmən" olan bir kişi var idi: Kazım dayım. Mirağa əmim raykom katibi olanda Kazım dayımı kolxoza sədr seçdiribmiş. Atamla anam bir məktəbdə işləyirmişlər. Onların nikahlarının səbəbkarlarından biri də Kazım dayım olub.

Kazım dayım çox həqiqətsevər, doğruçul, eyni zamanda tərs bir adam idi. Ümumiyyətlə, bizim nəsildə, istər ata, istər ana tərəfdən, hamı sərtdir. Kazım dayım öz zəhməti ilə Qubadlıda bir ev tikdirmişdi. O evdə çox olmuşdum. Ancaq qəribə idi ki, dayımgilin qonşusu Hümbətin qızı ilə ailə qurmaq yazılıbmış mənim alnıma. Dayım mənim gələcək həyat yoldaşıma toy münasibətilə bir ayaqqabı alıbmış. Ancaq necə olubsa, bibim qızı Validə ilə Fəzilə həmin ayaqqabını dəyişib, yerinə başqa ayaqqabı götürüblər. Bunu eşidən Kazım dayım çox hirslənib.

Toy günü təyin olunmuşdu: 31 dekabr 1972-ci il. Həyətimizdə çadır qurulmuşdu. Hər şey gözəl idi. Dostlarımdan Zahir Əhmədov öz dost-tanışı ilə gəlib çıxmışdı. Ancaq atamla dayımın tərsliyi bu məclisin ovqatını korlayırdı bir az. Nə dayım güzəştə gedirdi, nə atam. Qalmışdım iki doğma adamın arasında. Tale mənə elə o zamandan "problem-situasiya" yaratmışdı.

Bibim oğlu Zakirlə minnətə getdik, Kazım dayım fikrindən dönmədi ki, dönmədi. Mənim taleyim iki tərsin – atam ilə dayımın əlində titrəyirdi...

Qubadlı tarixində görünməmiş bir iş idi. Bir toy qız evində çalınırdı, bir toy oğlan evində. Kazım dayım isə deyirdi ki, Yusif qəsdən qız evində də toy çaldırır ki, məni əsəbiləşdirsin.

Mais dayım Bakıdan öz ailəsi ilə mənim toyuma gəlmişdi. Ancaq Kazım dayımın hökmündən, hikkəsindən qorxub mənim toyuma gəlmədi. Çox çətin bir psixoloji durum yaranmışdı...

Sonra barışdılar da. Barışmayıb neyləyəsiydilər ki?! Ancaq yaddaşımda o günlərin əzabı kimi yanağımı yandıran göz yaşı qalıb...

Kazım dayım mənimlə fəxr edərdi. Nəinki mənimlə, eləcə də bütün nəsli ilə. Gözəl bir albom düzəltmişdi. Qohum-qardaşın şəkli, onlar haqqında məlumat dayımın diqqəti və səyi sayəsində hopmuşdu bu alboma. Bu mənada nəslimizin ilk tarixini yaratmaq cəhdi də ona məxsus idi.

Bilmirəm nəyə görəsə həmişə mənə deyirdi ki, şair sözü azdı, o sözün yanında bir vergül qoyub, "filologiya elmləri namizədi" sözü də yazdırmaq lazımdır. Mən bu sözü çox vaxt öz imzamdan sonra yazdırıram və həmişə də elə bilirəm ki, Kazım dayımın qarşısında öz mənəvi borcumu yerinə yetirirəm, onun ruhunu sevindirirəm.

Gözəl ailəsi vardı Kazım dayımın. Bəlkə də yer üzündə mənim ən çox sevdiyim, hörmət elədiyim, məni ən çox sevən bir qadın idi dayımın həyat yoldaşı Cəvahir xanım. Səsi heç vaxt qulaqlarımdan getmir. Gülüşü dünyanın ən gözəl gülüşlərindən idi. Qeyrətinə söz ola bilməzdi... Uşaq vaxtı ona dediyim sözü bibim də mənim qızıma deyirdi: "Bibi, manata bişsin, yeyax"...

Üzüm ona görə xoşbəxtdi ki, orada Cəvahir bibinin diş yerləri var. Rəhmətlik məni elə məhəbbətlə dişləyirdi ki...

O da, dayım da tərs idi. Ancaq bəlkə də bu "müqəddəs" tərslik onları qəbir yoldaşı elədi. İkisi də eyni gündə dünyasını dəyişdi, ikisi də eyni gündə dəfn olundu... Bu, görünməmiş bir iş idi...

Daylarımın ən hünərlisi, ən zəhmətkeşi, ən abır-həyalısı, ən "qoluzorlusu" idi Ruqənd dayım. Nədənsə atam bütün dayılarımdan çox onu sevirdi, ona güvənirdi, "kişi belə olar", – deyirdi... Cücə idarəsində müdir işləyirdi bir vaxt. Onun idarə maşınında Sisyan yaylaqlarına köçdüyümüz günlər unudulmazdır. Dayım nəinki ağsaqqal yanında, hətta mənim, öz bacısı oğlunun yanında da siqaret çəkməzdi...

Ruqənd dayım fiziki cəhətdən çox güclü olsa da, özünü həmişə uşaq kimi aparırdı. Bir də Nuşirəvan Kərimovun yanında kimin nə həddi var idi ki, artıq-əskik bir hərəkət eləsin...

Dayım böyük qardaşı üçün bir maşın odun yığıb, onu öz idarə maşınına yükləyib və gətirib Kazım dayımın həyətinə boşaldıb. Bu zəhmət az imiş kimi yorğun-arğın Xocamsaxlıya qayıdanda itmiş qoyunu axtarıb. Gecənin bir aləmi heç kəsə bir söz demədən həyətdəki şam ağacına söykənib, əlini başının arxasına daraqlayıb, nəsə düşünüb, heç kəsə əziyyət vermədən dünyasını dəyişib...

Dayımın qəbrini dərin, çox dərin qazmışdılar. Onun üstünü örtəndə uşaq sadəlövhlüyü ilə düşünmüşdüm:

– Dayım bu daşların altından necə çıxacaq?!

İliç dayım. Yəqin ki, adın etimologiyası maraqlandıracaq sizi, elə deyilmi? Hər dövrün, epoxanın üstündən keçən bulud öz yağışı ilə kiməsə ad gətirdiyi kimi, mənim dayıma da bu adı gətirib. Hər kəs öz dövrünün övladıdı. Heç kəs öz arzusu ilə doğulmur. Tariximizə nəzər salsaq görərik ki, öyünməlidən çox ağlamalı, təəssüflənməli hadisələr gəlib başımıza.

Xatirə albomunda bir şəkil var, daha doğrusu, mənim ömrümün əbədiləşən ilk tarixi bu fotoşəkildir. İliç dayım oturub, onun qucağında körpə bir uşaq var. Yanında isə Kazım dayım əyləşib... O körpə uşaq mənəm, özümü, əlbəttə, tanıya bilməzdim, dayımın dediyi sözlər olmasa. Dayımın dediyinə görə bu şəkildəki ən balacanın – yəni mənim əlimdəki yarpaq bir şam yarpağıdı. Bəlkə ağlı kəsməyən bir uşağın əlində yarpaq tutmasından yaranıb mənim təbiətə sevgim?...

İliç dayım universitetin hüquq fakültəsini bitirmişdi. Əmək fəaliyyətinə indiki Şərur rayonunda milis işçisi kimi başlamışdı. Sonra onun əmək fəaliyyəti respublikamızın digər rayonlarına uzanmışdı: Füzulidə, Zəngilanda, Qubadlıda, Gədəbəydə rəhbər vəzifələrdə işləmişdi, milis rəisi olmuşdu... İşlədiyi hər yerdə özünə dərin hörmət və rəğbət qazanmışdı. O biri rayonlar yadımda deyil, təkcə Qubadlıda 18 il milis rəisi işləmişdi. Hələ ondan inciyən, onun haqqında pis söz deyən bir adam da görməmişəm.

Çiynində paqonlar daşısa da, həmişə sərtlik tələb edən vəzifədə işləsə də, dayım kövrəklərin kövrəyi idi. Qatı cinayətkarlara qarşı amansız olsa da, onların qəlbindəki işıqlı duyğulara da hörmət eləməyi bacarırdı mənim dayım.

Ana babamgil – Nuşirəvan müəllimgil həmişə Sisyan yaylaqlarına köçəndə məni də özləri ilə aparardılar. Uşaqlığımın xeyli hissəsi Dəstəyirddə, Hankavanda, Lalalı yurdda, Mehrili yaylağında, Soyuqbulaqda keçmişdi. O vaxt dayım Şərurda işləyirdi. Çimnaz bibimlə təzəcə ailə həyatı qurmuşdular. İstirahət üçün yaylağa, bizim yanımıza gəlmişdilər. Hamımız bir alaçıqda yaşayırdıq, daha doğrusu, gecələyirdik.

Bir dəfə Hankavanda mağazadan çıxandan sonra erməni dığaları bizi – yaylaqda yaşayan kənd uşaqlarını sıraya düzdülər. Hər uşağa bir şapalaq vurdular, mənə isə dəymədilər. Dedilər ki, sən milis oğlusan. Mən isə milisin oğlu yox, onun bacısı oğlu idim...

Həmin il yaylaqda dayımın sayəsində mən ən hörmətli uşaq idim. O, mənə dəvə yunundan bir kostyum, çalmaq üçün gitaraya bənzər bir alət, mandalina almışdı. “Sudan gələn sürməli qız” mahnısını çalmağı da həmin musiqi alətində öyrənmişdim.

Dayım Füzulidə işləyəndə məni yanına aparmaq istədi, atam razı olmadı. Qubadlı orta məktəbində oxuyanda isə ona təpənin üstündə verilmiş hökumət evində qaldım bir müddət.

İliç dayım həmşə xalqın, haqqın-ədalətin tərəfinfə idi. Ona görə də milis rəisindən çox ağsaqqal kimi ona hörmət edirdilər. Ən səfeh, ipə-sapa yatmayan xuliqan da dayımın bir sözünü iki eləməzdi. Dayım milis işçisindən çox tərbiyəçi idi...

Gədəbəydə milis rəisi işləyəndə də Gədəbəy camaatı ondan bir ağsaqqal kimi razılıq edirdi. Əslən Gədəbəydən olan, elə dayımla yaşıd İnqilab müəllim mənim dayıma dayı deyəndə ürəyimdən yumor dolu bir gülüş boylanırdı...

İliç dayımla bağlı xatirələr, təfərrüatlar az deyildi. Onların hamısını yazmaq fikrində deyiləm.

Qapılarında bir qara qoç saxlayırdılar. Mən rayona istirahətə gedəndə onu kəsdilər. Dayım yuxarı mərtəbədəki otaqlarından mənə bir şüşə araq da gətirdi. Bir az sıxıldığımı hiss eləyəndə dedi:

– Bacıoğlu, nə sıxılırsan, araqdan iç, səkil tikələrdən bas ye...

O zaman "səkil tikə" ifadəsi mənim çox xoşuma gəlmişdi...

Sonra birlikdə toy, yas məclisləri yola saldıq. Şirinli, acılı, fərəhli, qəmli məclislərdə də onu bir el ağsaqqalı kimi müdrik gördüm həmişə.

Dünya qəribə dünyadı. İliç dayıma ata-anasının, qardaşlarının yanında əbədiyyət evi qazanmaq "səadəti" nəsib oldu. Ürəklərdə xoş xatirəsi, bir də namuslu, ləyaqətli övladları qaldı...

Mais dayım ailənin sonbeşiyi idi. May ayında doğulduğu üçün adını Mais qoyubmuş babam. 1938-ci ildə anadan olmuşdu. Tibb texnikumunu əla qiymətlərlə bitirib bir müddət işlədikdən sonra N.Nərimanov adına Azərbaycan Tibb Universitetinə daxil olmuş, oranı müvəffəqiyyətlə bitirmişdi. Dayımın təyinatını Culfaya vermişdilər. Dəmir yolundakı sanitar məntəqəsinin müdiri vəzifəsində işləyirdi. İdarənin QAZ-69 markalı maşını ilə tez-tez Qubadlıya gəlirdi. Sürücüsü Alyoş adında yaxşı bir oğlan idi. Tələbə vaxtı dostum Nizami Xudiyevlə sözləşmişdik ki, birlikdə Naxçıvana gedək. Ancaq təəssüf ki, o vaxt bu bizə qismət olmadı... Yerevandan gələndə qatarla Naxçıvanın ərazisindən keçdiyimi nəzərə almasaq, o tərəflərdə olmamışam.

Ali məktəbə təzəcə qəbul olunmuşdum. Bibim oğlu Zakirlə birlikdə Qubadlıya gedirdik. Qafanda qatardan dü-

şüb yol maşını ilə Çayzəmiyə gəldik. Oradan payi-piyada Qubadlıya sarı yollandıq. Atrizinə çatanda dayımın QAZ-69-u qarşımıza gəldi. Alyoş bizi görən kimi maşını saxladı. Mais dayım, Mirağa əmimin, Mehdi əmimin uşaqları da burada idilər. Sən demə dayım onları qonaq aparırmış. Biz də onlara qoşulub, meşəyə yeyib-içməyə getdik. Təbii ki, məni də ali məktəbə qəbul olunmağım münasibətilə təbrik etdilər...

Dayım bir müddət Culfada işləyəndən sonra yerini Bakıya dəyişdilər. Çox çətinliklə ev aldı. Adi həkimlikdən öz ixtisası üzrə ən yüksək vəzifəyə qalxa bildi. O, respublika dəmir yol idarəsinin baş sanitar həkimi vəzifəsinə qədər yüksəldi və ömrünün sonunadək bu vəzifədə işlədi. Ancaq ömrü çox qısa oldu. Cəmi-cümlətanı 46 il ömür sürdü. Özündən sonra iki övladı – Kəmalə və Rəna yadigar qaldı.

Mais təkcə mənim dayım yox, həm də yaxın dostum, məsləhətçim idi. Onun sözlərinə qulaq asanda həmişə xeyir tapmışdım. Məhz onun təkidi ilə sənədlərimi hazırlayıb Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına vermişdim. Təəssüf ki, Mais dayım mənim müdafiə elədiyim günü görə bilmədi.

Yayda babamgillə Sisyan yaylaqlarına gedəndə Mais dayım da arabir bizi ziyarətə gələrdi. Bir dəfə o, məni "Lalalı yurd" deyilən yaylağa apardı. Dedi ki, həmişə yayda istirahət üçün bu yaylağa gələrdik. Dayım alaçıqlarımızın yerinin, üstündən su tökülən bir daşı göstərib dedi ki, buranın adını "Rafiq ölən yer" qoymuşduq. Uşaq vaxtı sudan ötrü ölürdün. Səni bu daşın üstündən şəlalə kimi axan suyun altına tutduq. Birdən necə oldusa vəziyyətin xarablaşdı. Az qala əlimizdən getmişdin.

Mən bu səfərin xatirəsi kimi 1977-ci ildə "Lalalı yurd-da" adlı bir şeir yazmışdım.

Həyat və ölüm haqqında mənim ilk dəfə düşünməyimə səbəbkar da dayım olub. Yenə də Sisyanda, Dəstəyirddə idik. Qohumumuz Knyazla Mais dayım məni də özləri ilə gəzməyə aparmışdılar. Mənim üçün kirpi oxlarını xatırladan cığadan bir tac hörmüşdülər. Tacın üstünə gül-çiçək də sancmışdılar. Özümü bəxtiyarlar bəxtiyarı hesab edirdim. Mən öz xoşbəxt uşaqlıq dünyama qapılmışdım. Mais dayımla Knyaz isə söhbət edirdilər. Birdən necə oldusa onlar ölüm haqqında danışdılar. Uşaq marağı ilə söhbətlərinə qulaq asdım və eşitdim ki, əvvəl-axır hamı öləcək.

Məni vahimə bürüdü. Hönkür-hönkür ağlamağa başladım. Başıma qoyulan çiçəkli tac da mənim üçün dəyərdən düşdü. Ağlamağımın səbəbini bilməyən dayımgil çox narahat oldular, nə qədər çalışdılarsa, məni sakitləşdirə bilmədilər. Xeyli vaxt keçəndən sonra soruşdum:

– Dayı, mən də öləcəm?

Dayımla Knyaz mənalı-mənalı bir-birlərinə baxdılar və ikisi də məni inandırmağa çalışdılar ki, yox, sən ölməyəcəksən. Lakin bunların heç bir xeyiri yox idi. O vaxtdan ta indiyə qədər istər-istəməz həmişə ölüm haqqında fikirləşmişəm. Ruqənd dayım rəhmətə gedəndə yazdığım bu dörd misra mənim ölüm haqqında düşüncələrimin məhsulu idi:

Bir-bir xatırlayın tez ölənləri,
“Ölüm nə deməkdir?” gedin xəyala.
Cənnət olsa idi, biz ölənləri
Matəmlə, fəryadla salmazdıq yola.

Mais dayım hələ cavan yaşlarından yüksək qan təzyiqindən əziyyət çəkirdi. Ancaq onun ölümü mənim üçün çox gözlənilməz oldu, bütün varlığımı sarsıtdı. Sübh tezdən qardaşım Qorxmaz bizə gəldi. Yaqub dayının qardaşı İsaq kişi xəstə idi. Elə bildim ki, yəqin ona nəsə olub.

– Qorxmaz, İsaq dayıya nə olub?

– Heç nə... Heç öz dayından xəbərin yoxdu... Tez ol, yığış Bakıya gedək...

Elə bil dünya başıma fırlandı. Dayımın cəsədini “morq”dan götürüb Qubadlıya apardıq. Onu Xocamsaxlı qəbristanlığında, düz kümbəzin yanında atasının, anasının, qardaşının qəbirlərinin yanında dəfn elədik.

Qasım Qasımzadənin oğlu Fəxrəddin liftdə qalıb faciəli şəkildə həlak olmuşdu. Surxay müəllim bu xəbəri dayıma deyib. İkisi birlikdə yas yerinə gediblər. Mən də həmin yas məclisində idim, ancaq çox təəssüf ki, orda dayımı görməmişdim. Sonralar Qasım müəllim deyirdi ki, bizdən, yas yerindən yarımçıq çıxdı, “indi gəlirəm”, – dedi, ancaq bir də qayıtmadı...

Görünür yas yerində dayım özünü pis hiss eləyib. Sahilə hava almağa çıxıb və elə oradaca yerə yıxılaraq dünyasını dəyişib.

Dayımın xatirəsinə həsr etdiyim “Ruhunun dalınca” adlı şeirim “Ocaq yeri” kitabımda çap olunub. Sonra “Sükutun dili” adlı başqa bir şeir də yazmışdım bu ağrılı mövzuda.

Dayım həmişə mənə deyərdi:

– Nə əmidən, nə dayıdan, nə anadan, nə bibidən, nə oğul-uşaqdan, nə qohum-qardaşdan sənə Rafiq olmayacaq, özünə fikir ver, ürəyin istədiyi kimi yaşa, heç nəyə, dedi-qoduya fikir vermə.

Dayımın nəvələri dünyaya gəlib. Hətta nəvələrindən biri, Rənanın oğlu onun adını daşıyır. Ancaq Mais dayım artıq yoxdur. Zaman onu öz qanadlarında əbədiyyətə aparıb...

***

Təmizkar bir qadın olan Gülzar nənəm çox tez dünyasını dəyişib. Atam ilk nəvəsinə, mənim qızıma öz anasının adını qoyub: Gülzar.

Qızım Gülzar tibb institutunda oxuyanda professor Qəhrəman Qəhrəmanov, uşaqlıq dostum Canbaxışın dayısı ona dərs deyirdi. İmtahan vaxtı qızımın cavabları onun çox xoşuna gəlib. İmtahandan "Əla" yazandan sonra qızımı sorğu-suala tutub. Deyib ki, ay qızım, sənin adın da, səsin də, sir-sifətin də mənə çox tanış gəlir. De görüm sən hansı rayondansan?

Qızım cavab verib ki, Sumqayıtdanam. Professor yenə də əl çəkməyib. Gülzarın Qubadlıda doğulduğunu biləndə soruşub ki, ay qızım, kimlərdənsən? Qızım Mirağa əmimin adını çəkəndə professorun gözləri işıqlanıb. O nəyisə tapıbmış kimi sevincək deyib:

– Ay qızım, bəs bunu bayaqdan de da. Seyidəli sənin ulu babandı, Gülzar isə qojanın (nənənin) adıdı...

Məni heyrətə gətirən professorun genlər üzrə qızımı tanıması oldu...

Babamın Çardaxlıda tikdirdiyi, mənim doğulduğum və yaşadığım evə kənddə hamı seyidin evi deyirdi. Onu da deyim ki, biz Çardaxlıdan köçəndən sonra bura həkim işləməyə gələn rəhmətlik Mirməhəmməd öz ailəsi ilə birlikdə bizim evimizdə qalıb. Rəhmətlik həmişə mənə əmioğlu deyərdi...

K.Simonovun şeirlərinin birində belə bir misra var: "Sığmaz xəyalına böyük bir vətən, sığar xəyalına doğulduğun kənd". Doğrudan da, belədir. İnsan üçün dünyaya göz açdığı yerdən doğma, əziz heç hara ola bilməz. Mən həmin misraları epiqraf gətirib "Doğulduğum kənd" adlı bir şeir də

yazmışdım. Kəndimiz haqda duyğu və düşüncələrim əks olunmuşdu həmin şeirdə...

Pasportumda yazıldığına görə mən 1950-ci il yanvar ayının 2-də Çardaxlıda anadan olmuşam. Lakin anamın dediyinə görə mən Çardaxlıda yox, Xocamsaxlıda doğulmuşam, özü də yanvarın 2-də yox, 28 dekabr 1949-cu ildə. Pasportumdakı bu dəyişikliyi atam eləyib.

Çardaxlının hər qarış torpağında acılı-şirinli bir xatirə yatır. Bu kəndə Çardaxlı Çənlibel deyilməsində də nəsə bir sirr yatır elə bil. İstər-istəməz "Koroğlu" dastanındakı hadisələr yadıma düşür. "Alı kişi" qolunda təsvir olunur ki, ata-oğul xeyli yol gedəndən sonra bir çayın qırağına çatırlar. Alı kişi oğlundan buranın necə yer olduğunu soruşduqda Rövşən atasına deyir ki, bura ağaclı, otlu bir yerdir, ortadan da bir çay axır.

Mənə elə gəlir ki, təsvir olunan bu yer Qubadlı, çay isə Bərgüşaddır. Çünki Alı kişi deyir ki, oğul, burada qalmaq olmaz, atlanıb dağa qalxmaq lazımdır.

Onlar dağa qalxırlar. Alı kişi oğlundan soruşur:

– Oğul, bəs bura necə yerdir?

Rövşən cavab verir ki, bura bir tərəfi sıldırım qaya, çənli, çiskinli bir dağ yeridir.

Alı kişi oğluna deyir:

– Oğul, mənim axtardığım yer buradır. Buraya Çənlibel deyirlər. Biz burada yurd salmalıyıq.

Qəribədir, bu təsvirləri oxuyanda Qubadlıdan, çayın qırağından atlanıb dağa, Çardaxlıya qalxan ata ilə oğul canlanır gözlərimin önündə. Qızıl qaya, Bal qayası – uşaq vaxtı yan-yörəsində oynadığımız bu yerlər elə bil eynən Alı kişinin dediyi yerlərdir. Sağ tərəfdə, dərədən paqqıldayan Cam bulağı dediyimiz yer isə elə bil "Koroğlu"da təsvir olunan qoşabulaqdır.

Ad da Çardaxlı Çənlibeldi, yer-yurd da eynilə təsvir olunan kimidi. Çardaxlı düzü, Ayıölən, Həcətkə, Götürgə, Bad dərəsi, Dovlu dərə, Top daş, Cərgə daş, Allahverən mərsi, Cam bulağı, Qısraq bulağı, Qarağac bulağı, Pəyhan, Güllü zəmi və s. bu kimi adlar yadıma düşəndə xəyalımda əsrarəngiz bir dünya canlanıb həmişə. Mənim uşaqlığım bu dağlarda, dərələrdə, yamaclarda, pöhrələrdə, meşələrdə keçib. Ot biçmişəm, odun yığmışam, at minmişəm, qoyun-keçi nobatına getmişəm, futbol, çilingağac oynamışam...

Atam **Əliyev Yusif Seyidəli** oğlu (1922-1974) Qubadlı rayonunun Çardaxlı kəndində anadan olmuşdur. O, əmək fəaliyyətinə orta məktəbi bitirən kimi müəllim kimi başlamışdı. Ağdamda ikiillik pedaqoji institutu, sonra indiki ADPU-nun fizika-riyaziyyat fakültəsini bitirmişdi. Uzun müddət Çardaxlı məktəbinin direktoru vəzifəsində çalışan atam sonralar, ailəmiz Qubadlıya köçəndən sonra Tarovlu məktəbində direktor, Qubadlı qəsəbə orta məktəbində dərs hissə müdiri vəzifəsində işləmişdi.

Atam çox baməzə, zarafatcıl bir adam idi. Elə buna görə də rayonda hamı onun xətrini çox istəyirdi. Onun məktəbdə yaratdığı bədii özfəaliyyət kollektivinin fəaliyyəti bütün rayona yayılmışdı. Konsert zamanı göstərilən tamaşalarda atam özü də aktyor kimi iştirak edər, peşəkar bir aktyor bacarığı ilə tamaşaçıları əfsunlayar, onları gözləri yaşarana qədər güldürərdi. “Yeyim, yenəyim” səhnəciyi tamaşaçıların daha çox xoşuna gələrdi.

Atam deyirdi ki, vaxtilə İmran müəllim teatr tamaşalarında daha fəal iştirak edər, mənə isə rol verməzdilər. Lakin bir dəfə tamaşa zamanı İmranın ayağına mıx batdı, elə buna görə də onun rolunu mən ifa etdim. Tamaşa necə uğurlu alındısa, bundan sonra bütün səhnəciklərdə mənə rol verirdilər.

Bizim məktəbimiz Çardaxlıdan bir-iki kilometr aralıda yerləşən bir ikimərtəbəli binada fəaliyyət göstərirdi. Vaxtilə burada Qarağac adlı bir kənd var imiş. Sonra bu kəndin adamları hərəsi bir yerə köçüb gedibmiş. Kənddə salamat qalan yeganə binanı isə təmir edib, məktəb kimi istifadə edirmişlər.

Atam kimi anam **Şamama Nuşirəvan qızı Kərimova** da müəllim idi. Onlar dərsə gedəndə məni də özləri ilə məktəbə aparırdılar. Məni başım qarışsın deyə birincilərlə eyni sinfə qoyubmuşlar, guya mən də məktəbli imişəm. Məktəb yaşım çatmadığı üçün adım sinif jurnalında da yox imiş. Sonradan birinci sinifdə bizə dərs deyən Ziyadxan müəllim atama deyib ki, Rafiq əməlli-başlı oxumağı bacarır, gəl onun da adını jurnala yazaq, bir il havayı vaxt itirməsin.

Mən altı yaşımda məktəbə getdiyim üçün sinif yoldaşlarımın hamısı məndən böyük idi. Kəndimizdəki iki uşaq: Cəfər dayının oğlu Rasim və Lətif kişinin oğlu Muxtar mənim sinif yoldaşlarım idilər. İbtidai sinifdə onlarla bir yerdə oxumuşam. Birlikdə odun yığmağa, ot biçməyə, "yaylım"a – sübhün alatoranında at otarmağa gedərdik. O günlərin xatirəsi kimi "Muxtar idi, Rasim idi, bir də mən" misrasıyla başlayan bir şeir də yazmışdım 1977-ci ildə.

Düz evimizin altından keçən yola poçt yolu deyirdilər. Həmişə bu yolla gəlib gedənlərə həsrətlə, maraqla baxardım. Ürəyimə dammışdı ki, nə vaxtsa bu yol məni uzaqlara, çox uzqalara aparacaq... Kəndin yaxınlığındakı dərədə gur sulu bir bulaq var idi. Adına Qısraq bulağı deyirdilər. Sonradan öyrəndim ki, "qısraq" sözünün mənası "madyan" demək imiş. Bu bulağın suyu çox gur idi. Kənd uşaqları ilə bulağın aşağısında axan suyun qarşısını kəsər, göl düzəldib orda çimərdik. Heyvanları aparıb o bulaqda suvarar, ulağın belinə

yüklənən boş səhəngləri xüsusi qabla su ilə doldurub evə gətirərdik.

Atam rayonda ilk şəxsi maşın alanlardan biri olsa da, maşından çox atı sevərdi. Bir gün atımız yoxa çıxdı. Bir neçə gündən sonra sorağını aldıq ki, atımız Qurdqalağı kəndinin yaxınlığındakı erməni kövşənindədi. Sövdümalı dayının oğlu, atamın xalası nəvəsi Rəfaillə başqa bir ata minib deyilən yerə getdik. Gördüm ki, atımız zəmisi biçilən küləşlikdə otlayır. Tez onun yanına gedib tutdum, cilovu başına saldım. Elə bu vaxt bir neçə erməni gəlib çıxdı. Məndən kimin oğlu olduğumu soruşdular. Biləndə ki, Çardaxlı Yusif müəllimin oğluyam, mənimlə mehriban danışdılar, atı aparmağa icazə verdilər.

Bir dəfə də gündüz kövşənə buraxılan atımız axşam evə gəlib çıxmadı. Bilirdim ki, mütləq Zeyvənin qarğıdalılığında olacaq. Sübh tezdən getdim. Gördüm ki, kəndin gecə evə qayıtmayan atlarının hamısı ermənilərin əkdiyi qarğıdalılıqdadır. Tez onları haylayıb öz kəndimizə sarı qovmağa başladım. Elə bu vaxt qoruqçu Dəli Qevand uzaqdan üstümə qışqırdı ki, dayanım. Mən onun sözünə baxmadım. Atları Çardaxlıya sarı qovmaqda davam elədim. Dəli Qevand isə qışqıra-qışqıra, atını çapa-çapa mənim dalımca gəlirdi. Kəndin qəbristanlığına çatanda o, mənə yetişdi. Qamçısını işə salmaq istəyirdi ki, atam və kəndin digər adamları gəlib çıxdılar.

Çardaxlı məktəbi ətraf kəndlərin şərikli elm ocağı idi. Buraya Çardaxlıdan, Əyindən, Tarovludan, Xələcdən və iki evli Mistandan uşaqlar gəlirdilər. Bu kəndlərdən olan müəllimlər də Çardaxlıda dərs deyirdilər. Bu məktəbdə Çardaxlıdan atam, anam, Əli müəllim, Bahar müəllim, Oruc müəllim, Ədil müəllim, Azad müəllim, Əyindən Eldar müəllim, Azad müəllim, Göyçək müəllim, Süleyman Rəhi-

movun bacısı Səriyyə müəllim, Humay müəllim, Camal müəllim, Xələcdən Həmayil müəllim, Əli müəllim, Tarovludan Ziyadxan müəllim, Qurdqalağından Şəmruz müəllim, Əfruz müəllim, Umud müəllim, Mistandan Məhərrəm müəllim müəllimlik fəaliyyəti ilə məşğul olurdular. Adlarını çəkə bildiyim bu adamların hamısına bu və ya digər dərəcədə borcluyam.

Atam direktor olanda sahibsiz qalan bağ sahələrini çəpərlətmiş, yeni ağaclar əkdirmiş məktəbin həndəvərində gözəl bir bağ yaranmışdı. Hər sinfin öz təcrübə sahəsi var idi. Burada bostan bitkiləri əkilib becərilirdi. Əyinli Mətləb Aslan bəyin bağı deyilən ərazidən qələmə kəsib gətirmək istəyərkən ehtiyatsızlıq etmiş, dəhrə onun boğazının altına ilişmişdi. Atam bundan bərk narahat idi. Mətləb bir xeyli xəstəxanada yatmalı oldu.

Məktəb bağının bağbanlarını: Səfəralı kişini, Məcid kişini, Bəşir kişini yaxşı xatırlayıram. Hərəsinin özünəməxsus xasiyyəti var idi bu adamların. Qış vaxtı bəzi müəllimlər ov etmək məqsədiylə məktəbdə qalırdılar. Mən də bu "ov mərasim"ində qalmışdım bir dəfə. Atam heç nə vura bilməmişdi. Bir gecə isə Eldar müəllim 4, Azad müəllim isə bir dovşan ovlamışdı.

Uşaqlar da, müəllimlər də atamın xətrini çox istəyirdilər. O, hərdən günahkarları şapalaqlasa da, kənd uşaqları bunu "direktor mükafatı" kimi qəbul edərdilər. Çünki atam heç vaxt ədalətsiz iş görmürdü. O, bizə – öz övladlarına qarşı da çox sərt idi. Səhvi olana güzəşt etməzdi. Ona görə də atamdan bərk qorxardıq. Onun "dansıq yumruğu" başımızın üstündən əskik olmazdı. Bizi əməlli-başlı işlədər, zəhmətə alışdırardı. Anamız isə həddindən artıq mülayim idi. Ancaq dərs vaxtı o da güzəştə gedən deyildi.

Mənim uşaq vaxtı necə zəhmətkeş olduğumu hamı bilirdi. Hələ kiçik yaşlarımdan odun yığar, ot biçər, at-eşşəyə yükləyib evə daşıyardım. Çox vaxt hərənin başı özünə qarışdığından adamlar nəinki bir-birlərinə, heç uşaqlara da kömək edə bilmirdilər. Atam qiyabi ali təhsil aldığı üçün yay sessiyası zamanı işin ağırlığı mənim üstümə düşürdü. O günlərin xatirəsini "Ocaq yeri" kitabımda gedən "Taytutan" şeirimdə əks etdirmişəm. Həmin şeir 1977-ci ildə yazılmışdı. Yadımdadır, rəhmətlik Həsən Batıyevlə Məmməd Namaz bir dəfə bizə gəlmişdilər. Həmin şeiri oxuyanda Həsən həyəcanlı səslə demişdi:

– Ayə, lap Rəsul Həmzətovun şeirlərinə oxşayır.

Doğrudan da, o vaxt şeir çap etdirmək çox çətin idi. Tofiq Bayramdan, Qabildən "şeir keçirmək" hər oğula nəsib olmurdu...

Uşaq vaxtı ov hərisi idim. Atamın icazəsi ilə içinə arpa doldurduğum patronlarla güllə atırdım. Ancaq arpa doldurulmuş patronlarla heç nə vurmaq mümkün olmurdu. Sonralar bu silahla çox ov eləmişdim. Təəssüf ki, qaçqınlıq vaxtı atamdan yadigar qalan həmin tüfəng rayondakı evimizdə qaldı. Allah bilir, indi həmin silah hansı alçağın əlinə keçib.

Kəndimizdə xaraktercə bir-birinə bənzəməyən çox maraqlı insanlar yaşayırdı. Əbil əmi, Fərzalı dayı, Fərman dayı, Cəlal dayı, Əbdüləli kişi, Lətif, Nəbi, Mehdi Nəzərov qardaşları, Təhməz kişi, Şahbaz, Böyük Cəfər, Kiçik Cəfər, Qulu dayı, Bəşir kişi, Bəndalı dayı, İsa dayı maraqlı insanlar idilər. Bu siyahıya Məminin, Savalanın, Adıgözəlin, Behbud kişinin, İmamverdinin, Əmirin, Hüseynin, Ağakişinin, Vəlinin, Balının, Çingizin və b. adlarını da əlavə etmək olar. Haxı – Haqverdi də qəribə taleyli insan idi. O, anadan lal doğulmuşdu. Atam ilə çox məzəli zarafatları var idi.

Məcid kişinin oğlu Əhəd kəndimizin ilk şeir yazanlarından idi. Cibindəki üstünə şeir yazılmış qalaq-qalaq kağızları qat kəsmişdi. Onun bu misraları yadımda qalıb:

Yem yemirsiz axurdan,
Geri qalırsız naxırdan.
Kolxozun aktivləri
Doymur araq-çaxırdan,
Ay inəklər, öküzlər...

Onu da deyim ki, adlarını çəkdiyim bəzi adamların şeirdə bədii portretlərini də yaratmağa cəhd eləmişdim bir vaxt.

Vəli briqadir, Ziyad kişi qoruqçu idi. Vəli çox xeyirxah insan kimi yadımda qalıb. Ziyad kişi ilə isə çox vaxt sözümüz düz gəlmirdi. Həmişə deyirdi ki, bu Yusif müəllimin böyük gədəsi canımı lap boğazıma yığıb.

Məktəbin bağında atamın rəhbərliyi ilə ağac əkmək, calaq vurmaq müəllimlərin sevimli əyləncəsi idi. Məktəbin elə gözəl bir bağı var idi ki, nağıllarda deyildiyi kimi "gül gülü, bülbül bülbülü" çağırırdı. Ağacların budağındakı meyvələri yığıb-yığışdırmaq mümkün deyildi. Hər sinfin öz bostan sahəsi var idi. Tərəvəz əkib-becərmək yarışı gedirdi. Bu, şagirdlərin əmək tərbiyəsində çox mühüm rol oynayırdı.

Atam nəinki kəndimizdə, eləcə də rayonda ilk şəxsi maşın alan insan idi. Onun "Moskviç-407" maşınına "Zimbala" deyirdilər. Kənddə, rayonda maşın sürmək üçün düzəməlli yol da yox idi. Atam maşınla rayona gedəndə məni də özü ilə aparardı. Yolda iri daşlar olanda maşını saxlayar, mən düşüb daşı kənara atardım.

Bir dəfə rayonda başım uşaqlarla futbol oynamağa qarışdı. Birdən göy guruldadı. Sən demə atam məni axtarıb tapa bilmədiyi üçün mənsiz kəndə qayıtmaq qərarına gəlib.

Çünki palçıqlı yolla maşının kəndə gedib çıxa bilməsi mümkünsüz bir iş idi.

Atam körpünün üstündə təsadüfən mənimlə rastlaşdı. Maşını saxlayıb hirslə qapını açdı. Mən maşına minən kimi üzümə bir-iki şapalaq vurub maşını sürətlə sürməyə başladı. Maşına "ceyran", "ceyran" deyə-deyə onu sürətlə sürməyə başladı. Yağış başlamamış kəndə çata bildik.

Atam nə qədər zəhmli, sərt olsa da, ürəyi yumşaq idi. Bir dəfə kənd uşaqlarını götürüb Əyinə futbol oynamağa getmişdim. Evə şər qarışanda qayıtdıq. Həyətə çatar-çatmaz atam bizim üstümüzə cumdu. Qaçdıq. Dalımızca bir tolamazda atdı. Salba Həvəsə xalagilin tut ağacına dəyib yerə düşdü. Mən yalandan qışqırıb diz üstə yerə çökdüm. Atam gəlib məni qucağında evə apardı. Elə bildi ki, salba mənə dəyib.

Bir dəfə də Razimlə dalaşdığımız üçün ikimizi də evdən qovdu. Qaranlıqda iki qardaş baş-başa verib bibimgilin pəncərəsinin yanında gizləndik. Atam bizi axtarır, çağırırdı. O, bizim yaxınlığımızda o yana, bu yana getsə də, biz səsimizi içimizə salıb, dinmirdik. Ancaq çox dözə bilmədik. Bizi gülmək tutanda atam qaranlıqda səksəndi, sonra ikimizi də danlaya-danlaya evə apardı.

Atam həm məktəb direktoru idi, həm də kolxozun partkomu. Biçinçilər işləyib yorulanda, ağacın kölgəsinə dincəlməyə gələndə atam kəndlilərin xahişi ilə oxuduğu romanların, povestlərin məzmununu danışar, hamı ona diqqətlə qulaq asardı. Adamların "Zəngəzur" romanının məzmununu necə maraqla dinləmələri indi də yadımdadır.

Atam qabağından yeməyən, heç kəsdən çəkinib qorxmayan bir adam idi. Onun Bəndalı dayı ilə davası haqqında çox danışardılar. Ancaq bu davanın təfərrüatı haqqında heç

nə bilmirdim. Hündüşqaları tövlədən çıxarmaq üstündə kolxoz sədri ilə ağızlaçmasını isə yaxşı xatırlayıram...

Atam həm də qohumcanlı idi. O, həmişə atını minib qohum-qardaşı axtarar, arayardı.

Doqquzuncu və onuncu sinifdə təhsilimi Qubadlıda davam etdirdim. Əvvəlcə İliç dayımgildə qalırdım. Sonra atam məni Hafizə bibimgilə apardı. Dərslərimi, xüsusən ədəbiyyatı və ictimai elmləri yaxşı oxuyurdum. Riyaziyyatı isə tamam yadırğamışdım. Hələ orta məktəbdə oxuyanda "şair" kimi tanınırdım. Məktəbin radio qovşağında Kazım əmimə həsr etdiyim "Tozlu şəkil" şeirimi oxumuşdum. Çıxışımı hamı bəyənmişdi.

Onuncu sinifdə oxuyanda ilk şeirlərim "Avanqard" qəzetində çap olunmağa başladı. Qabil İmamverdiyevlə görüş zamanı oxuduğum şeir isə məni bütün rayonda şair kimi tanıtdırmışdı. Hamı mənə hörmətlə yanaşırdı. Ancaq məktəbdə paxıllığımı çəkənlər də az deyildi. Dikbaşlığım, heç kəsə əyilməməyim rayonun dalaşqan uşaqlarının xoşuna gəlmirdi.

Məktəbdə gərgin mübarizə meydanına düşmüşdüm. Əvvəlcə bütün sinfi mənə qarşı döndərə bilmişdilər. Sonra davakarlığımla, dərslərimi yaxşı oxumağımla, yaxşı futbol oynamağımla, güləşməyimlə çoxlarının rəğbətini qazandım. Bu illərin hadisələrini "Məktəb illəri" povestimdə təsvir etmişəm. Ancaq əsərin qəhrəmanı olan şagird də, müəllim də elə mən özüməm. Şagird şagirdlik dövrümün, müəllim isə müəllimlik dövrümün prototipidir. Nədənsə onları qarşılaşdırmaq fikrinə düşdüm.

İbrahim həkimin qardaşı Tofiq çox lovğa, ətiacı bir oğlan idi. Yaqub, Faiq, Akiflə gəzib-dolaşırdı. Məndən iki yaş böyük idi. Cavab qaytardığım üçün məni dalaşmağa çağırdı. Elə ilk gözlənilməz zərbə ilə onu yerə sərdim. O

qədər döydüm-döydüm ki, üz-gözü torbalandı. Elə bu vaxt İbrahim həkim mənim üstümə gəldi. Elə bildi ki, qarşısından qaçacam. Mən dayanıb gözlədim. Onun qolu boşaldı, sənin böyüyünlə danışacam, – dedi. Təsadüfən həmin gün atam da Qubadlıya gəlmişdi. Məsələni bilib, İbrahim həkimi Qulu həkimin otağına çağırtdırmışdı. Həkim artıq-əskik danışdığı üçün peşimanlamış, atamdan üzr istəmişdi.

Bir dəfə mədəniyyət evinin işçiləri Xocahana konsert verməyə gedirdilər. Onlar məni də özləri ilə apardılar. Fətiyev Rafiqlə İman raykomda işləyən bir nəfəri döydülər, köynəyini cırdılar. Onlar məlum səbəbdən maşından düşüb Qubadlıya qayıtmalı oldular. Sofu İsmayılgilin dəhlizində verdiyimiz konsert indi də yadımdadır. Yaqub tarda çalır, mən isə oxuyurdum. Sonra "Hekayəti-Molla İbrahimxəlili-kimyagər" tamaşasını göstərdik. Rejissorumuz isə Mais idi. Konsertdən sonra Nəsiblə Təvəkkül Sofu İsmayılın xoruzunu tamaşa paltarlarının arasına büküb maşına qoydular. "R" hərfini tələffüz eləyə bilməyən Sofunun ora-bura vurnuxa-vurnuxa dediyi sözlər indi də yadımdadır:

– Xoyuzumu veyin, xoyuzumu veyin!

Orta məktəbi bitirəndən sonra atamla Bakıya getməli idik. Akara (Həkəri) stansiyasında nərildəyə-nərildəyə gələn qatara minib, Bakıya yollandıq. Sənədlərimi universitetə vermək istəsəm də, Mirağa əmim razılaşmadı, nəqdi qoyub nisyə dalınca qaçma, – dedi.

Qəbul imtahanlarını müvəffəqiyyətlə verib, o zamanki Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinə qəbul olundum. Yeni bir dünyaya qədəm qoydum, özümə yeni-yeni dostlar tapdım. Görkəmli ədəbiyyatşünaslar, dilçilər mənə dərs dedilər. A.Dəmirçizadə, A.Hüseynov, F.Qasımzadə, Z.Tağızadə, M.Tahirli, İ.Şıxlı, Ə.Hüseynov, M.Təhmasib, F.Fərhadov, P.Əfəndiyev,

M.Həkimov, K.Qəhrəmanov və başqalarının mühazirələrini indi də yaxşı xatırlayıram.

O vaxt Z.Xəlil "Gənc müəllim" qəzetinin redaktoru idi. Hər şənbə günü tələbə şairlər redaksiyada şeirlərini oxuyur, X.Rzanın, Ə.Hüseynovun, Z.Xəlilin tənqidi qeydlərini dinləyirdilər. "Torpağın yorğanı" adlı şeirim "Gənc müəllim"də dərc ediləndən sonra qəzetin ən fəal, aparıcı müəlliflərindən birinə çevrildim.

Ədəbi-bədii gecələrdə oxuduğum şeirləri tələbə dostlarım həmişə alqışlarla qarşılayırdılar. Xəlil Rza bizim qəlbimizə ilk "inqilab toxumları" səpirdi. "Nə var, nə yoxdur" şeirimi oxuyanda gözəl tənqidçimiz Əhəd Hüseynovun gözlərinin yaşarmasını indi də xatırlayıram. O, kövrəlmiş halda dedi:

– Gör bizim tələbələrimiz nələr haqqında fikirləşirlər?

Əhəd müəllim tələbə şairlərin əsərlərindən ibarət almanax çap etdirmək istəyirdi. Deyirdi ki, kitabın əvvəlinə Rafiqin şeirlərini qoyub rektora – Şövqi müəllimə oxudacam, elə o saat almanaxın çapına icazə verəcək. Lakin Əhəd müəllim bu arzusunu yerinə yetirə bilmədi.

Əhəd müəllim rus ədəbiyyatımdan dərs deyirdi. Hələ onun kimi gözəl mühazirə deyən müəllim görməmişəm. Doğrudur, M.Təhmasibin, İ.Şıxlının mühazirələri də cazibədar idi, ancaq Əhəd müəllim bizi daha çox ovsunlamışdı.

Bir dəfə Əhəd müəllim mənə dedi ki, bir zəmanət mən verim, birini İsmayıı Şıxlı, birini də Antonyan, qoy səni yazıçılar ittifaqına üzv qəbul eləsinlər. Ancaq vaxtsız ölüm Əhəd müəllimin bu arzusunu da gözündə qoydu.

Axırıncı dəfə Yazıçılar İttifaqının qarşısında görüşdük, harada işlədiyimi soruşdu. Dedi ki, APİ-nin yeni rəhbərliyi sənə qarşı ədalətsizlik elədi. Heç belə kadrı da əldən buraxmaq olardı?!

Bir neçə gündən sonra Əhəd müəllimin ölüm xəbərini eşitdim. Tələbə dostum Nizami Xudiyevlə fəxri qarovulda dayanıb, ona son borcumuzu verdik. "Azərbaycan müəllimi" qəzeti 1973-cü ildə Əhəd müəllimin ölümü münasibətilə yazdığım şeiri çap elədi. Bu şeir hamının xoşuna gəldi, xeyli məktublar aldım...

Mən həyatım boyu Əhəd Hüseynov kimi şövqlə mühazirə oxuyan ikinci bir adam görməmişəm. Həmişə mühazirəyə hazırlaşanda Əhəd müəllimi xatırlayıram. Bu, mənim sənət eşqimi, şövqlə mühazirə oxumaq həvəsimi qat-qat artırır.

Birinci kursda antik ədəbiyyatdan mühazirəni bizə böyük şairimiz Sabirin oğlu Məmmədsəlim Tahirli oxuyur, seminarı isə İsmayıl Şıxlı aparırdı. Sonra iş elə gətirdi ki, İsmayıl müəllim bizə üç il dərs dedi. Onun xarici ölkələr ədəbiyyatından oxuduğu mühazirələr hind filmlərini xatırladırdı.

Bir dəfə cəsarətimi toplayıb bir poemamı İsmayıl Şıxlıya verdim. Dəftərimi qovluğuna qoyub apardı. Aradan xeyli keçdi. İsmayıl müəllimdən bir xəbər çıxmadı. Bir gün mühazirədən sonra məni yanına çağırdı və dəftəri özümə qaytardı, dəyərli məsləhətlər verdi.

Müharibə mövzusunda yazdığım "Yox, o yaşayır" poemamdan əvvəl də bu janra müraciət etmişdim. Vura bilməyən böyük daşdan yapışdığı kimi, mən də hələ orta məktəbdə oxuyarkən poemalar yazırdım. Əlbəttə, sənətdən başı çıxmayan adamlar mənim bu cızmaqaralarımı, ilk "sənət" nümunələrimi tərifləyirdilər.

Xoşbəxtəm ki, mənim yazım haqqında ilk tənqidi qeyd söyləyən də sevimli müəllimim İsmayıl Şıxlı olub. İsmayıl müəllimin hələ 17 yaşı tamam olmayan bir gəncin yaradıcılıq nümunəsi haqqında söylədiyi fikirlər mənim üçün çox

qiymətli idi. Yaşıl rənglə yazılan bu yazını – məktubu mənim sənət yolumun üstündə yandırılan ilk işıq hesab edirəm.

"Rafiq! Poemanı oxudum. Çox təsirli və səciyyəvi bir məsələdən bəhs edirsən. Müharibənin yaraları indi də göynəyir. Sən ağır illəri görməsən də, nəfəsini hiss edirsən. Bəlkə də əsərdə qismən öz taleyini, ya da yoldaşlarından birinin faciəsini verirsən. Poema göstərir ki, səndə şairlik istedadı var. Misraların çoxu axıcı və səlistdir. Söz seçməkdə az çətinlik çəkirsən. Lakin yersiz ifadələr, zəif misralar da çoxdur. Unutmaq olmaz ki, qulağa tanış olan misralar, qafiyələr şairi gözdən sala bilər. Səndə belə misralar çoxdur.

Rafiq, bir məsələni də sənə xatırlatmalıyam: sənətin ölümü təkrar və sxematiklikdir. Gərək əsəri elə yazasan ki, başqalarını təkrar etməyəsən, oxucu əsərin əvvəlindən sonunu görə bilməsin. Çox təəssüf ki, səndə bu cəhətlər nəzərə çarpır. Toy olur, müharibə başlayır, sevgililər ayrılır, oğlan cəbhədə ölür, onlardan bir övlad yadigar qalır. Çox deyilib, çox yazılıb. Ona görə də sənin poemanın təsir gücü azdır. Nə üçün? Çünki sən müharibədən yazarkən yeni yol axtarmamısan. Məlum üsulu seçmisən. Əsərin sonunda bir məktubun iki xətlə yazılmasından yaxşı istifadə etmək olardı. Bəlkə də elə bu özü ayrıca bir şeirdir. Burada gözü yolda qalan ananın da, gəlinin də, ata üzü görməyən uşağın da psixologiyasını vermək, səciyyəsini açmaq olardı.

Poema mürəkkəb janrdır. Sən isə hələ bərkə-boşa düşməyibsən, qələmin sənət yollarında az işləyib. Məsləhətim budur ki, əvvəlcə yığcam, mənalı şeirlər yaz, qoy qələmin yetkinləşsin. Həm də çalış məna çox olsun. Ricətlərə az yer ver. Qoy qəhrəman özü görünsün. Sən onları az təriflə. Əgər belə etsən, gələcəkdə yaxşı şeirlər yaza bilərsən.

Hələlik bu qədər.

**Müəllimin: İsmayıl Şıxlı.**

**25.10.1967-ci il”**

Yaradıcılığım boyu İsmayıl müəllimin dediklərinə əməl etməyə çalışmışam. Ona görə mənə elə gəlir ki, bütün yaradıcılıq uğurlarımda İsmayıl Şıxlının xüsusi yeri var. İsmayıl müəllimin bu məktubunun mənim sənətə estetik münasibətimin formalaşmasında mühüm təsiri olub.


Рафиг!
Поеманы охудум. Чох тәсирли вә сәчијјәви бир мәсәләдән бәһс едирсән. Мүһарибәнин јаралары индијә гәдәр көјнәјир. Сән о ағыр илләри көрмүсән дә нифрәтини бәјан едирсән. Бәләкә дә әсәрдә ушағын өз талејини, јаҳуд јолдашларындан биринин фачиәсини верирсән.
Поема кәстәрир ки, сәндә дә шаирлик истедады вар. Шеирләрин чоху ахычы вә сәлисдир. Сөз сечиминдә аз чәтинлик чәкирсән. Лакин јерсиз ифадәләр, зәиф шеирләр дә чохдур. Унутмаг олмаз ки, гулаға хош кәлән шеирләр, гафијәләр шаири көздән сала билир. Сәндә белә шеирләр чохдур.
Рафиг, бир мәсәләни дә сәнә хатырлатмалыјам: сәнәтин өлүмү тәкрар вә схематикликдир. Һәр әсәри елә јазасан ки, башгаларыны тәкрар етмәјәсән, охучу әсәрин әввәлиндән сонуну көрә билмәсин.



Xoşbəxtəm ki, İsmayıl müəllimlə birlikdə "Dəli Kür" filminin ilk tamaşasına baxmışam. Film haqqında dediyim tənqidi fikirləri İamayıl müəllim özünəməxsus bir təbəssümlə qarşıladı. Romana nisbətən filmin çox zəif alınması fikri onun xoşuna gəldi. Bizə filmin bəzi səhnələrinin qayçılanmasından söhbət açdı.

1970-ci ilin yanvarında qatarla səyahətə çıxdıq. Səfərimiz 16 gün çəkdi. Bu 16 gündə Rostovda, Moskvada, Kiyevdə, Leninqradda, Kazanda, Ulyanovskda, Kuybışevdə və başqa şəhərlərdə olduq. Qatar bizim gəzən evimiz idi. İlk dəfə idi ki, Azərbaycandan kənara çıxırdım. "Səyahət dəftərindən" adlı silsilə şeirlər yazmışdım. Həmin şeirlərin bir qismi 2 aprel 1970-ci ildə "Gənc müəllim" qəzetində dərc edildi. Şeirlərim tələbələrin də, müəllimlərin də xoşuna gəlmişdi. Xarici ölkələr ədəbiyyatından paralel patokda mühazirə oxuyan Məmmədbağır Həyatzadə məni axtarıb

tapdı, şeirlərimi çox bəyəndiyini söylədi, təbrik elədi. “Baxışımız öpüşdü” ifadəsi, “Azərbaycan torpağında ürkək olur göyərçinlər Azərbaycan qızları tək” misraları onun çox xoşuna gəlmişdi. “Sən işə bax, “Avrora”dan sağlamlığa top atılır” misralarının sətiraltı mənasını isə yoldaşlarım gizlicə tərifləyirdilər. Bu şeirləri İsmayıl müəllimin bəyənməsi isə mənə lap ləzzət eləyirdi. “İki çay” şeirim onun çox xoşuna gəlmişdi:

Şaxta qılınc kimi kəsir adamı,
Gör necə, gör necə vurub don çayı?
Sanırdım Kükrəyir bizim Kür kimi,
Yox, axmır, yerində durub Don çayı...

Ötən xatirələr çatır dadıma,
Yenə də könlümü götürür fikir.
İki roman düşür bu dəm yadıma:
Birisi “Sakit Don”, biri “Dəli Kür”.

1969-cu ilin oktyabr ayında böyük akt zalında “Dəli Kür” romanının müzakirəsini keçirirdik. Əhəd Hüseynov məruzəçi idi. Mən İsmayıl müəllimə həsr etdiyim “Sevimli müəllimim” şeirini oxudum. Alqış səsləri indi də qulağımdadı. İsmayıl müəllimin mehriban gözləri eynəyin altından gülümsəyirdi. Əhəd müəllim isə iki əlini bir-birinə söykəyib silkələyir, mənə “öpürəm, öpürəm” deyirdi. Bu, mənim ən böyük mükafatım idi.

İndi mənə zəif görünən həmin şeir sevimli müəlliminə bir tələbənin minnətdarlıq duyğuları idi...

1970-ci ildə ali məktəbi bitirdim. Nəzərdə tutulduğu kimi ali məktəbdə saxlanılmamağım mənə bir dərd olmuşdu. Bir neçə yerə işə girməyə cəhd etsəm də alınmadı. Şəhər partiya komitəsinin təlimatçısı işləyən Zakirin dostu Ağahüseyn müəllim məni kimya kombinatının direktorunun

müavininə tapşırmışdı. O da söz vermişdi ki, məni işə düzəldəcək.

Direktor müavini ağsaçlı bir kişi idi. Məni təəccüblə süzdü. Dedi ki, ay oğul, səni işə götürmək problem deyil. Mən əvvəl elə bilirdim ki, sən yaşlı adamsan. Ali təhsilin olsa da, hələ uşaqsan. Sən qızlar yataqxanasında çətin ki, işləyə biləsən. Doğrusu, sənə heyfim gəlir.

O nurani kişiyə minnətdarlıq eləyə-eləyə evə gəldim. Ürəyimdə sevinirdim ki, nə yaxşı işə düzəlmədim. Ancaq Mehdi əmim məni 1 nömrəli tikinti trestinin partkomu Müzəffər Gülümovun yanına göndərdi.

Müzəffər müəllim o vaxt şəhər partiya komitəsi bürosunun üzvü idi. Bir sözünü iki eləyən yox idi. Telefonla Yəhya Əsgərova zəng eləyib dedi ki, yanına ali təhsilli cavan bir oğlan göndərirəm, onu yataqxanaların birinə tərbiyəçi müəllim göndər.

Heç işə girmək istəmirdim.Təsəvvür eləyin ki, böyük arzularla yaşayan bir adam mənzil istismar idarəsi rəisinin qəbulundadır. O, sənə yuxarıdan aşağı baxır.

Yəhya kişi məni bir az çək-çevirə saldı. Mənə də elə bu lazım idi. Mehdi əmimə dedim ki, məni işə götürmədilər. O, hirsləndi, Müzəffər müəllimə zəng vurdu, məni yenidən trestə göndərdi. Müzəffər müəllim telefonla Yəhya Əsgərovun abırını ətəyinə bükdü. Məni yenidən onun yanına göndərdi.

Yəhya kişi başladı ki, ay qardaşoğlu, biz qohumuq. Mehdi müəllimin sözü var niyə mənə demir, başqalarına ağız açır...

Mən Yəhya kişiyə heç qulaq asmırdım. Fikrim onun stolunun üstündəki maşın təkərinin rezinindən düzəldilmiş iri milçəköldürəndə idi...

Yəhya kişi danışdı, danışdı, birdən milçəköldürəni götürüb divara çırpdı. Elə bu vaxt qonşu otaqdan katibəsi gəldi. Gülmək məni tutmuşdu. Özümü güclə saxlayırdım. Sən demə milçəköldürən katibəni çağıran zəngi əvəz edirmiş...

Məni 5 nömrəli fəhlə yataqxanasına tərbiyəçi müəllim göndərdilər. Bir ilə yaxın orada işlədim, zəngin həyat təcrübəsi qazandım. Köhnə tərbiyəçilərin hamısını işdən çıxarmışdılar. Onların yerinə qoyulanların isə hamısı cavanlar idi. Kamran Quliyev, Hüseyn Qəribov, Şəmsəddin Əliyev, Hüsən müəllim və mən...

Əvvəlcə komendatlar bizə yuxarıdan aşağı baxırdılar. Lakin tezliklə öz yumorumuzla, qabiliyyətimizlə, bacarığımızla onları ram elədik. Söyüş söyməkdə heç bir kişidən geridə qalmayan, hamının çəkindiyi Xanım arvad iclasda deyib ki, Rafiq o qədər abırlı, həyalı, mədəni oğlandır ki, mən ondan utanıram. Onun bu sözləri hamını təəccübləndirib...

Xalq yazıçısı Əli Vəliyevlə İnşaatçılar mədəniyyət sarayında keçirilən görüş məni lap məşhurlaşdırdı. Həmin görüşdə çıxışım, Əli müəllimə həsr etdiyim şeir hamının xoşuna gəlmişdi.

Tədbirdən sonra akademik Əsgər Abdullayev məni tərifləyəndə Qasım Qasımzadə gülə-gülə dedi ki, bəs nə bilmişdin, Rafiq Xocamsaxlı suyu içib e...

Əli Vəliyev çox mərd kişi idi. Elə o vaxtdan mənimlə dostlaşmışdı...

Bu görüşdən sonra trestin həyatında bir ədəbi canlanma əmələ gəldi. Tez-tez görkəmli şair və yazıçılarla görüşlər keçirilərdi. Əksər vaxtlarda məruzə ilə mən çıxış edərdim. Hüseyn Abbaszadə ilə görüş zamanı məruzəçi başqa adam idi. Ancaq nədənsə onun çıxışı yaxşı alınmadı. Sözü mənə

verdilər. Çıxışım hamının xoşuna gəldi. Xalq şairi Məmməd Rahim, Qabil, yazıçı Salam Qədirzadə həmin yığıncaqda məni ağız dolusu təriflədilər. Bundan sonra trest rəhbərliyinin diqqət hədəfinə çevrildim. Rəhmətlik Umud Musayevlə əməlli-başlı dostlaşdıq. O zaman o, trest həmkarlar təşkilatının sədri vəzifəsində işləyirdi.

Sonralar Sumqayıtda xalq hakimi işləyən dostum Hüseyn Qəribov həmişə məni görəndə o günləri xatırlayar, mənim yadımda qalmayan zarafat şeirlərimi əzbərdən söyləyirdi.

O vaxt dəbdə olan “Belə ola həmişə” mahnısına qəribə bir parodiya yazmışdım. Bundan sonra adamlar bir-birlərini görəndə salam əvəzinə “belə ola həmişə” deyirdilər.

Komendatlardan bir neçəsinə cinayət işi qaldırmışdılar. Onlardan birinə “belə ola həmişə” deyəndə bərk xətrinə dəymişdi. Bizə yuxarıdan aşağı baxanlara əməlli-başlı dərs vermişdik.

Gör nə qədər qısaltdıq həsrətin mənzilini,
İclasda çıxartdılar Qəzəfərlə Zilini.
Əsgəralı iclasda işə salcaq dilini,
Zaldakılar hamısı başladılar gülüşə,
Belə ola həmişə...

Çox çəkmədi ki, Mehdi əmimi Sumqayıt şəhər maarif şöbəsinə müdir qoydular. O, məni 10 nömrəli məktəbə müəllim göndərdi. Məktəbin direktoru Minarə xanım məni çox mehribanlıqla qarşıladı. Ancaq nə qədər israr etdimsə, onuncu sinifdə dərs deməyimə icazə vermədi, hələ sən özün də uşaqsan, – dedi. Aşağı siniflərdə dərs demək isə mənim üçün maraqsız idi. Elə buna görə də “Bənövşə” adlı ədəbiyyat dərnəyi yaratdım. Yuxarı sinif şagirdlərini çoxusu axışıb bu dərnəyə gəldilər.

Elə bu vaxt dedilər ki, 13 nömrəli məktəbdə yuxarı siniflərdə dərs deyən müəllimə ehtiyac var. Razılığımı alıb mənə o məktəbdə də dərs verdilər. Həvəslə yuxarı siniflərdə dərs deməyə başladım. Şagirdlərlə mənim aramda yaş fərqi o qədər də çox deyildi. Ancaq mən öz gəlişimlə məktəbə yeni bir ab-hava gətirə bilmişdim. "Nə var nə yoxdu", "Araz haqqında düşüncələr" kimi şeirlərimlə uşaqları ovsunlamışdım.

13 nömrəli məktəbin X b sinfində dərs deyirdim. Katibə gəlib dedi ki, Roza müəllimə deyir ki, bizə zəng eləsin. Məlum oldu ki, məni əsgərliyə çağırıblar. 22 noyabr 1971-ci il tarixdə hərbi komissarlığa getdim. 26 noyabrda bizi Biləcəriyə apardılar. Səhərisi gün qatara minib əsgərliyə yola düşdük. İlk dəfə idi ki, atamı bu qədər kövrələn görmüşdüm. O, mənə dedi ki, tez-tez evə məktub yaz, mən heç, anana yazığın gəlsin.

Sumqayıtdan üç nəfər idik: mən, Əliyev Samin və Kərimov Akif. Ancaq Yerevanda bizi bir-birimizdən ayırdılar. Ayın 29-da ilk dəfə əynimə əsgər paltarı geyindim. Əsgər nəğmələrimin ilk səhifələri yaranmağa başladı. Tezliklə uşaqlara isinişdim. Öyrənmədiyim əsgər həyatı başladı. Komandayla yatmaq, komandayla durmaq, komandayla yemək mənə çox şey öyrətdi. Torpağın, daşın üstündə yatmaq mənim üçün adi hala çevrildi. Bir illik əsgərlik dövründə ən çox yuxusuzluqdan əziyyət çəkirdim. Zalımlar heç vaxt ürəyim istəyincə yatmağa qoymurdular.

Xodneviç familiyalı amansız bir komandir batalyonumuz var idi. Hərbi akademiyaya getmək istədiyindən əsgərlərə zülm edirdi. Ancaq bəlkə də onun hesabına idi ki, bizim batalyonda "starik", "molodoy" söhbəti arxa planda idi. Heç kəsə fərq qoyulmur, güzəşt edilmirdi. Mən 30744-cü alayın 5-ci rotasında xidmət edirdim.

6 yanvar 1972-ci ildə ilk dəfə qarovula getdim. Birinci qarovul, 3-cü post, birinci növbə. Onu da qeyd edim ki, qarovulda dayanmaq mənim çox xoşuma gəlirdi. Ona görə ki, postda həmişə tək olursan, düşünməyə, xəyala dalmağa gözəl imkanlar var.

Yanvarın 8-də bibim oğlu Sabirdən məktub aldım. Yazırdı ki, Mirzə İbrahimov Sumqayıta gəlibmiş. Qulam Feyzullayev yığıncaqda çıxış edərək deyib ki, Sumqayıt şairlərinin başlıca qüsuru klassik ədəbiyyatı bilməmələridir.

Mirzə İbrahimov isə bununla razılaşmayıb. Deyib ki, elə gənclər var ki, onların yazılarında klassik ənənələrimizə məhəbbət açıqca duyulur. Məsələn, Rafiq Yusifoğlu belə gənclərdəndir. Sonra soruşub ki, hardadır, gözümə dəymir? Deyiblər ki, əsgərlikdədir.

Bu məlumatı Sabirin yoldaşı Xatirəyə onunla bir məktəbdə işləyən, Sumqayıt ədəbi birliyinin üzvü Malik Şərifzadə deyibmiş.

Doğrusu, bu xəbər məni həddindən artıq sevindirdi. Daha böyük həvəslə klassiklərimizin yaradıcılığını öyrənməyə girişdim.

Hərbi hissədəki günlərimiz təxminən bir-birinə bənzəyirdi. Ona görə də yazdığım gündəlikdən istifadə etməmək qərarına gəldim. Polkda olarkən əsas işimiz təpik döymək, sıravi hazırlıq məşqlərindən ibarət olurdu. İki-üç gündən bir qarovula gedəndə çox sevinirdim. Uzaq qarovullarda postda dura-dura şeir yazdığım günlər də olurdu...

10 mart 1972-ci ildə Yerevandan çıxıb hərbi maşınlarda Eçmiadzinə getdik. Gecə vağzalda qaldıq. Səhərisi gün hərbi maşınları eşalona yüklədik, Böyük Kəsik stansiyasında onları düşürdük. Martın 12-də bərk yağış yağdı. Paltarlarımız su içində idi. Qarayazıya çatdıq. Palçıqdan tərpənmək olmurdu. Yağış yağır, daldalanmağa isə bir yer də

yox idi. Hərbi maşınların içərisində isə oturmağa da icazə vermirdilər. Elə bil təbiət də bizi sifarişlə imtahana çəkirdi.

Yağış yağa-yağa palçığın üstündə çadır qurduq. Səhərəcən yata bilmədim. Əynimizdəki islanmış paltar şaxtadan taxtaya dönmüşdü.

Gecə möhkəm qar yağdı. Hər tərəf dümağ idi.

Martın 13-də elə bil ağappaq bir nağıl, özü də qorxulu bir nağıl dünyasına qədəm qoyduq. Küləkli qar yağırdı. Çölün düzü, çovğun, tufan isə göz açmağa imkan vermir. Qarın, çovğunun altında özümüz üçün səngər qazırıq. Ayın 14-də yarımçıq qalan işlərimizi davam etdirdik. Hava arabir açılsa da, bərk soyuq idi. Axşam üstü havanın qaş-qabağı açıldı bir az. Batalyonun qərərgah rəisi kapitan Beryozka ilə söhbət elədim. Çox yaxşı, mülayim, zarafatcıl bir kişi idi...

Təlim başladı. Çox maraqlı idi. Hərbi maşınlar kalona düzülür. Bayraqların işarəsi ilə "döyüş" başlayır. Maşınlar gedə-gedə qapını açıb yerə tullanırıq. Açığı bu təlim mənim çox xoşuma gəldi.

Martın 18-də çadırları sökdük. İndi qazdığımız səngərlər həm də bizim daldalanacaq yerimiz, "evimiz" idi. Qar yağırdı. Nəm torpağın üstündə uzanıb yatmaq o qədər də asan deyil.

Sən demə insan qədər zərif, insan qədər dözümlü bir məxluq yox imiş. Gecələr çölün düzündə qalasan, külək vıy-vıy vıyıldaya, qar yağa... Elə bil təbiət də bizi imtahana çəkirdi. Təlimdə olduğumuz 16 gündə, daha doğrusu 16 sutkada yuxu üzünə həsrət qalmışdıq. Elə bil müharibə idi. Tanklar ata-ata gedir, fişənglər gecənin qaranlığını işıqlandırırdı.

Martın 24-də təlimin qurtarması haqqında əmr verildi. Rustaviyə getdik. Orada eşalona minib Yerevana yola düşdük.

Qar yağır. Elə bil qışın oğlan çağıdır. Qarayazıdan qayıdandan sonra iki dəfə qarovulda olduq.

Aprelin 3-də sanbata gedib analizlərin cavabını öyrənməli idim. Ancaq sübh tezdən həyəcan siqnalı verildi. Hərbi maşınlara minib Oktemberyan adlanan təlim mərkəzinə getdik. Güclü yağış yağır, külək əsirdi. Gecə daldalanacaq tapdıq. Tentlərin altında bir təhər gecələdik. Səhər hərbi təlim başladı.

Aprelin 6-da Yerevana qayıtdıq. Mənə 7 günlük məzuniyyət verdilər. Tbilisi dəmir yolu ilə Bakıya gəldim. Oradan Qubadlıya getdim. Aprelin 18-də İL-18-lə Yerevana uçdum. Qayğılı əsgər həyatıma davam etdirməyə başladım. İmkan düşəndə Yerevanı gəzirdim.

Orduda belə bir qayda var: qulluq etmək istəmirsən, məcbur edərik, bacarmırsan, öyrədərik. Bu qayda mənim xoşuma gəlirdi. Tez-tez postlara, hərbi təlimlərə gedirdik. Elə olurdu ki, hərbi ləvazimat çiynimizdə 10-15 km. piyada yol gedirdik.

İyunun 6-da yenə həyəcan siqnalı ilə bizi yuxudan qaldırdılar. Silahları götürdük. Bizə həqiqi patronlar verdilər. Sonra məlum oldu ki, bir əsgər postdan avtomatı götürüb qaçıb. Silahlı adamı tərkisilah etmək çox qorxulu idi. Ona görə hamımız həyəcan keçirirdik. Komandir dedi ki, indi sizdən əsl kişilik tələb olunur. Cavan, təcrübəsiz əsgərləri döyüşə aparmırıq.

Gecə çarpayıda paltarlı, silahlı uzanmışdıq. Hər dəqiqə əmr gözləyirdik. Ayın 7-də taktiki təlimə başladıq. Gecə saat 12-də həyəcan siqnalı verdilər. Silahları götürüb həyətə düşdük. Sonra geriyə qayıtmaq əmri verildi.

İyunun 8-də həyəcan siqnalından sonra silahları götürüb parka qaçdıq. Heç polkun ərazisindən çıxmamışdıq ki, bizi

yenidən geri qaytardılar. Hər dəqiqə həyəcan siqnalı gözlənilirdi. Qaçan əsgəri axtarmağa getməliydik.

Bir saatdan sonra yenə həyəcan siqnalı çalındı, biz hərbi maşınlara minib lampa zavoduna sarı getdik. Bizə bir polkovnik rəhbərlik edirdi. Ayrı-ayrı dəstələrə bölünüb, axtarış aparırdıq. Bizim dəstə aşağıdakılardan ibarət idi: Leytenant Arxipov, mən, Kamil Ağayarov, Əhməd Vəliyev və İsaq Məmmədov. Lakin axtarışlar heç bir fayda vermirdi. İyunun 9-da Sultanovla bir kəndin girəcəyində dayanmışdıq. Gələn maşınları saxladıb içinə baxırdıq. Axtarışın rəhbəri olan polkovnik gəldi. Bizə dedi ki, gözləyin, qayıdanda sizi götürəcəyəm. Axşamacan yolun içində qaldıq. Gəlib-gedən maşınları yoxladıq. Gecə kazarmaya gəldik.

İyunun 15-də eşitdik ki, bizim rotanı Tbilisiyə komandirovkaya göndərəcəklər. Əşyalarımızı götürüb Yerevan – Tbilisi qatarına əyləşdik. Ayın 16-da Tbilisiyə gəldik, şəhərdə gəzdik. Sonra Tbilisinin yaxınlığındakı Kodjori istirahət zonasına getdik. Generalların istirahət zonası olduqca gözəl idi. Təbii mənzərələr adamı valeh edirdi. Elə bil istirahətə gəlmişdik. İşimiz isə generallar istirahətə gələnəcən otaqları qaydaya salmaq idi. 18 iyun 1972-ci il tarixdə uşaqları da götürüb yerli camaatın "Koroğlu qalası" dediyi yerə getdim. Qayalardan tuta-tuta, çox çətinliklə qalanın üstünə qalxdıq. Gözümüzün qarşısında əsrarəngiz bir mənzərə canlandı. Qalanın üstündə "Koroğlu qalasında" adlı bir şeir yazdım. Əsgərlik dostlarım həmin şeiri çox bəyəndilər.

İyun ayının otuzunadək Kodjoridə qaldıq. Bizə deyirdilər ki, siz əsgərə yox, kurort adamlarına oxşayırsınız.

Əksər vaxtlar qarovulda olurduq, bəzən də mətbəxə göndərirdilər. Mətbəxdə işləməkdən zəhləm gedirdi, qarovula getmək isə ayrı bir aləm idi. Mən polkda qalıb təpik döyməkdən qarovulda olmağı üstün tuturdum. Boş vaxtla-

rımda icazə alıb şəhərə gəzməyə gedirdim. Mənə tez-tez icazə verdiklərinə görə erməni uşaqları donquldanır, şikayət eləyirdilər. Ancaq onu deyim ki, onlar da mənə hörmət edirdilər.

İyulun 17-də Oktemberyana ezamiyyətə getdik. Rotamızı iki çadırda yerləşdirdilər. Sonra çayın qırağına gedib yuyunduq. Burada gözəl ərik bağları var idi. Siropyan Əhmədlə dalaşmaq istəyirdi, mən araya girdim. Serjant Siropyan dedi ki, Əliyev, sən məni vursan da, üzünə qayıdan deyiləm. Ona görə ki, sənə böyük hörmətim var.

Gündüzlər günümüzü bir təhər keçirirdik. Gecələr isə ağcaqanadlar bizə divan tuturdu. "Sənin öpüşlərin" adlı novellavari balaca yazımı əsgərlik dostlarıma oxudum. Onların çox xoşuna gəldi:

*"Ehtiras lap səni üzür. Qaş qaralan kimi, çöldən, bayırdan əl-ayaq yığışan kimi gizlicə özünü otağıma salırsan. Səhərə qədər nə özün yatırsan, nə məni yatmağa qoyursan. Elə hey məni öpürsən. Üzümdən, gözümdən... Özümü sənin ehtiraslı öpüşlərindən qoruya bilmirəm. Bu qədər şıltaq məhəbbət olarmı? Səhərə qədər yatmağa qoymursan. Səhərə qədər öpürsən, öpürsən, doymursan. Dan yeri sökülən kimi çıxıb qaçırsan. Yalvarıram, bu gecə gəlmə. Daha məndə taqət qalmayıb. Üzüm-gözüm qıpqırmızı qızarıb. Camaat arasına çıxmağa da utanıram. Öpüşlərinin yerini qaşıya-qaşıya qalmışam, Ağcaqanad xanım"...*

Avqustun 3-də yenidən Yerevana qayıtdıq və üçüncü qarovula yollandıq. Qarovul Arzinidədir.

Avqustun 5-də sübh tezdən, saat 5-də bizi yuxudan qaldırıb "strelbişə" apardılar. Adama bir maqazin güllə boşaltdıq. Dedilər ki, ayın 7-də batalyonumuz yenidən təlimə gedəcək. Həmin axşam qarnizon qarovuluna getdik. Burada Məzahir Süleymanzadə ilə tanış oldum.

Avqustun 8-də səhər tezdən hərbi təlimə getdik. Aştarak, Artaşavan qəsəbələrini keçdik. Otu biçilmiş bir sahədə düşdük. Hərəmiz özümüzə bir səngər qazmağa başladıq.

Gecə bizim üstümüzə kəşfiyyatçılar gəlməlidi. Onların məqsədi ya silah aparmaq, ya da kimisə əsir götürməkdi. Ona görə gecə səhərəcən yatmadıq. Hava çox soyuqdur.

Ayın 9-da kəşfiyyatçılar bizə hücum etdilər. Onlara sarı boş patronlarla "güllə" yağdırırdıq. Hərbi maşınlara minib Arziniyə sarı yeni müdafiə mövqeyinə çəkildik. Yolda İbadov Varatnikovun maşınını vurdu. Mənim əlim, leytenantın qıçı əzildi. Sanitar qolumu sarıdı. Mənim əvəzimə səngəri "Şantabayev" – Akif qazdı. Çox istidir. İçməyə bir qurtum su yoxdur.

Axşam üstü külək əsməyə başladı. Gecə isə bərk soyuq oldu. Gizlicə gedib 407-ci hərbi maşında yatdım.

Avqustun 10-da eşitdik ki, 4-cü rotanın əsgərlərini kəşfiyyatçılar tutub aparıblar. Səhər yeməyindən sonra müdafiə mövqeyinə çəkildik. Günorta saat 2-də təlim qurtardı. Hərbi maşınlara minib Yerevana qayıtdıq.

Avqustun 16-da Eçmiadzinə getdik. Hərbi maşınları eşalona yüklədik. Qatarda üç postdan ibarət qarovul təşkil etdilər.

17 avqustda gedib Rustaviyə çıxdıq. Maşınları eşalondan düşürüb Qarayazıya getdik. Yenə də özümüzə səngər qazmağa başladıq. Gizlicə gedib kanalda çimdik.

Qarayazıda gərgin, çətin günlər keçirirdik. Ən çox istidən və susuzluqdan korluq çəkirdik. Əsl əsgər, hərbçi həyatı keçirirdik. Gecələr səngərdə yatır, gündüzlər taktiki hazırlıqla məşğul olurduq. Bizim təlimə əfqanıstanlı hərbiçilər baxırdılar. Məhz buna görə qayda-qanun möhkəm idi.

Qarayazı o qədər böyükdür, tranşeylər, səngərlər o qədər çoxdur ki, adam heç nədən baş aça bilmir.

Avqustun 29-da əsl müharibə ovqatı yaşadıq. Qırıcı təyyarələr havada şığıyır, artilleriya atəş açırdı. Qarayazı od tutub yanırdı. Bizim batalyona odu söndürmək tapşırılmışdı. Günün şiddətli istisi bir tərəfdən, yanğın bir tərəfdən Qarayazını əsl cəhənnəmə döndərmişdi.

Odu təpiklə, "plaş-palatka"larla söndürməyə çalışırdıq. Yöndəmsiz əsgər çəkmələrinin içində ayaqlarımız od tutub yanırdı elə bil. Sonra cərgə ilə düzülüb, güllə ata-ata irəliləyirdik. Tank, hərbi maşın əlindən tərpənmək olmurdu.

Avqustun 30-da general gəlib təlimin qurtarması münasibətilə bizi təbrik etdi. Diviziyanın komandiri dedi ki, hələ dörd gün də Qarayazıda qalacağıq.

Döyüşlərdən sonra siyasi məşğələ keçir, silahları təmizləyirdik. Bizi bir dəqiqə də boş qoymaq istəmirdilər.

Sentyabr ayının birində atıcılıq üzrə batalyonlararası yarış keçirildi. Avtomatlardan "meşin"lərə – hədəflərə atəş açırdıq. Sonra kros yarışı oldu. Günün istisində, çiynində hərbi ləvazimat, başında əlehiqaz qaç görüm necə qaçırsan.

Leytenant Kurinyan bizi incitməyə bəhanə axtarır. 250, 251 nömrəli hərbi maşınlara minib qarğıdalı yığmağa getdik. Güclü külək əsdi. Toz-torpaq adamı göz açmağa qoymurdu.

Sentyabr ayının 2-də Böyük Kəsiyə gəldik. Təsadüfən yerdən bir parça kağız tapdım. Bu rəngli kağızda "Durna", "Sarıköynək" şeirlərimin çap olunduğunu görəndə xeyli sevindim.

Yenə də eşalonla Yerevana qayıtdıq.

Əsgərlikdə xırda xətlə yazdığım gündəliyi indi eynəksiz oxuya bilmirəm. Təfərrüatlar çoxdur. Nə qədər postda durmaq, güllə atmaq, siyasi məşğələdə iştirak etmək olar?!

Bir sözlə, çox maraqlı, əsl əsgər həyatı keçirdim. Xeyli şeir yazdım. Ancaq o şeirlərin hamsını yox, nisbətən uğurlu

hesab etdiklərimi çap etdirmişəm. Yerdə qalan şeirlər zəif təsir bağışlasalar da, mənim əsgərlik illərimdən yadigardır. Mümkün olsa, nə vaxtsa həmin şeirləri də çap etdirəcəyəm. Lap zəif olsalar belə.

Yola salıb ötən günlərimi
Gedirəm üzü sabaha.
Günlərim bir patrona bənzəyir,
Zaman silaha.
Ürəyimdə dünyanın qoyduğu izlər.
Ötən günlərim –
boş qalan gilizlər...

27 dekabr 1971-ci ildə yazdığım bu şeir nədənsə mənə maraqlı göründü. Karantin vaxtı yazdığım bu sətirləri oxuyanda isə üzümə təbəssüm qondu, illərin arxasında qalan günlərimi xatırladım.

Əlimdə avtomat qələm,
Çiynimdə avtomat tüfəng.
Kənardan baxanda
qəşəng görünür, qəşəng.
Qabaqdadır hələ
işlərin çətini, mürəkkəbi.
Avtomatımın patronu yox,
qələmimin mürəkkəbi...

Gündəliyimdəki bir-iki cümləlik qeydlər o günləri dolğunluğu ilə mənim xəyalımda canlandıra bilmir. İllər çox şeyi unutdurub. O günlər boş qalan gilizləri xatırlatsa da, hər halda ömrün izləridi... O günlər mənə çox şey öyrədib, həyatın mənasını anlamağa köməklik edib. Doğrudan da, əsgərliyə kişilik məktəbi deyənlərin sözlərində müəyyən mənada həqiqət var.

Əsgərlikdən 1972-ci il noyabr ayının 4-də qayıtdım. 10 nömrəli məktəbdə müəllimlik fəaliyyətimi davam etdirdim. 31 dekabr 1972-ci ildə Fəzilə xanımla ailə həyatı qurdum. Çox çətinliklə onun təyinatını Qubadlıdan Sumqayıta dəyişə bildik. Əvvəlcə kirayədə qalırdıq. 1974-cü ildə 10-cu mikro-rayonda iki otaqlı mənzil aldım. Mənə 49-cu binanın 3-cü mərtəbəsində 61-ci mənzili vermişdilər.

Bundan əvvəl mənzil bölüşdürmə idarəsinin rəisi mənə order vermədi. Ona ağzıma gələni dedim. Maarif şöbə müdiri Solmaz İbrahimova ilə sözləşdim. Çox əsəbiləşmişdim. "İspolkom"un birinci müavini Vahid Bayramovla pilləkəndə görüşdük. Dedim ki, Sizinlə işim var. Vahid müəllim pilləkənin başından kabinetinə qayıtdı. Başıma gələnləri ona danışdım. Bərk hirsləndi. Dedi ki, arxayın ol, sən mütləq mənzil alacaqsan...

Rəhmətlik Vahid müəllim Mehdi əmimin dostu idi, məni də yaxşı tanıyırdı. Hər səhər dəniz sahilində birlikdə futbol oynayır, dənizdə çimirdik.

Sonra eşitdim ki, Vahid müəllim Solmaz müəllimi də, Rəcəbovanı da yanına çağırıb. Rəcəbova məndən şikayət edib. Vahid müəllim onun sözünü kəsib. Soruşub ki, maarifə neçə mənzil versək, Rafiqə ev düşür? Deyiblər ki, dörd. Vahid müəllim 49-cu binada 4 ikiotaqlı mənzil boşaldıb və deyib ki, Rafiq ev alsın deyə bu mənzilləri sizə verirəm. Ancaq püşk zad atmayın, qoyun bu dörd mənzildən hansını istəyirsə, özü seçsin...

Beləliklə, mənim ən əsas problemlərimdən biri həll olundu. 3-cü mərtəbədəki 61-ci mənzili seçdim. 1989-cu ilə qədər həmin mənzildə ömrümün xoşbəxt günlərini yaşadım. Yaxşı qonşularımız var idi. Onları: İnqilab müəllimi, Arif müəllimi, Naibi, Nəbini, İbrahim həkimi, Salman müəllimi, Beydullanı, Yaqub müəllimi indi də hörmətlə xatırlayıram.

Mənim övladlarım: Gülzar, Gündüz və Gursel bu mənzildə böyüdülər, həmin həyətdə özlərinə ilk dostlar tapdılar.

1973-cü ilin sentyabr ayında 23 nömrəli məktəb açıldı. Minarə müəllimi həmin məktəbə direktor təyin etdilər. O da 10 nömrəli məktəbdəki ən yaxşı müəllimləri seçib özü ilə apardı.

İlk vaxtlar işimiz çətin idi. Hətta partaları da özümüz daşıyırdıq. Sonra işlər qaydaya düşdü. 23 nömrəli məktəb nəinki şəhərin, həm də respublikanın ən yaxşı məktəblərindən biri kimi şöhrət qazandı. Məktəbin iş təcrübəsi yayıldı. Minarə xanımın işgüzarlığı, tələbkarlığı, təşkilatçılıq qabiliyyəti öz bəhrələrini verməyə başladı.

Mən bütün varlığımla ədəbiyyatı şagirdlərimə sevdirməyə çalışırdım. Daim oxuyur, öyrənir, öz bildiklərimi öyrətməyə ehtiyac hiss edirdim. Hələ 1973-cü ilin sentyabr ayında "Azərbaycan müəllimi" qəzetində rəhbərlik etdiyim dərnəyin üzvləri ilə birlikdə şəklim çıxdı. Şəhərin bəzi müəllimləri buna qısqanclıqla yanaşdılar. "Hələ bu nə iş görüb ki, şəkli qabaqcıl müəllim kimi qəzetdə çap olunub?" – deyənlər də tapıldı.

Dərslərimi dinlədilər, məruzələrimə qulaq asdılar, məqalələrimi, şeirlərimi qəzet və jurnallarda oxudular və nəhayət, şəhər miqyasında məni bir yaxşı, yaradıcı ədəbiyyat müəllimi kimi qəbul etdilər. Əlbəttə, bu, məni sevindirirdi. Ən böyük sevincimin mənbəyi isə şagirdlərin sonsuz sevgisini qazanmağım idi. Mən fəxr edirəm ki, həmişə şagirdlərim, tələbələrim tərəfindən sevilən müəllim olmuşam.

Ömrüm-günüm, taleyim məktəblə bağlı olub. Özüm müəllim ailəsində anadan olmuşam. Atamın evi nə vaxtsa məktəbə çevrilib, müəllim ömrünün davamı kimi. Otuz ilə yaxın pedaqoji stajım var, ancaq məktəb mənim üçün adiləşməyib. Hər dəfə bu müqəddəs ocağa qədəm basanda

həyəcanlanır, dərin məsuliyyət hissi keçirirəm. Mənə elə gəlir ki, xalqımızın, vətənimizin taleyi məhz məktəbdə həll olunur. Vətən məktəbdən başlayır. Məktəb vətənpərvər oğullar yetişdirir.

Hər dəfə 23 nömrəli məktəbə gedəndə keçmiş şagirdlərimin, vətən uğrunda şəhid olan qəhrəman oğullarımızın şəkilləri ilə üz-üzə dayanıram, onların ruhu qarşısında baş əyirəm. Məmmədov Rövşən, Musayev Vidadi, Allahverdiyev Baba, Veysov Rövşən, Rəhimov Şəmsəddin və onlarca başqalarının uşaqlıq günləri gözlərim önündən kino lenti kimi keçir. Veysov Rövşən "Vətən" şeirini əzbərləyə bilməmişdi, ancaq vətən uğrunda ölməyi bacardı...

Düşmən sinəmizə çalın-çarpaz dağlar çəkib. Ancaq biz ruhdan düşməməliyik. Onu yadda saxlamalıyıq ki, həmişə azadlığa gedən yollar daşlı-kəsəkli, qanlı-qadalı olmuşdur. Tarix ibrət dərsi olmalıdır. Vaxtilə azərbaycanlı İbrahim xana qarşı azərbaycanlı Qacar döyüşür, öz qılıncımız öz başımıza enirdi. Xanlığın başbilənləri isə rus imperialistlərindən imdad diləyirdilər. O rusların ki, İbrahim xan elə onların əli ilə qətlə yetirildi...

Tarix boyu səhvlər buraxmışıq. Torpağımızın ən dilbər guşələrində namərdlərə sığınacaq vermişik. Necə deyərlər, çörəyimizin duzu olmayıb. İndi o naxələflər üzümüzə ağ olublar, bizimlə torpaq davası eləyirlər.

Vaxtilə hamı şeir yazmaq azarına tutulmuşdu. İndi isə fəhlə də, kəndli də, alim də, mühəndis də... siyasətlə məşğuldur. Vura bilməyən daşın böyüyündən yapışır. Bir var arzu, bir də var reallıq. Uşaq vaxtı adam çox şey arzulayır, böyüdükcə arzular kiçilir, reallaşır. Bu sahədə qonşularımızdan çox geri qalmışıq. Yada Üzeyir Hacıbəylinin fil və siçan haqqında məşhur yazısı düşür.

1973-cü ilin sentyabr ayından 1985-ci ilin fevral ayınadək 23 nömrəli məktəbdə müəllim işlədim. Bu illər mənim həyatımın ən maraqlı illəri kimi yadda qalıb. Bu illərdə şair və yazıçılarla çox maraqlı və mənalı görüşlərin təşkilatçısı olmuşam. Rəsul Rza görüşə gedən deyildi. Ancaq rəhmətlik Vaqif İbrahimin vasitəsi ilə onunla maraqlı bir görüş keçirə bildik. Çıxışım Rəsul müəllimin çox xoşuna gəlmişdi. Məktəbin xatirə kitabında da bu haqda yazmışdı. İndi o kitabın saxlanıb saxlanmadığından xəbərim yoxdu.

Daha sonra Elçin, Hikmət Ziya, Tofiq Mahmud, Nəriman Süleymanov, Ağa Laçınlı, Fikrət Sadıq, Fikrət Qoca, Səyavuş Məmmədzadə, Cabir Novruz və başqalarının məktəbə gəlişi şagirdlərin ürəyində ədəbiyyata marağı daha da artırırdı.

1978-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına qəbul olundum. Filologiya elmləri doktoru Yəhya Seyidovu mənə elmi rəhbər təyin etdilər. Yəhya müəllim nəsr və dramaturgiya üzrə tədqiqatlar müəllifi idi, mən isə poeziyanı araşdırmaq istəyirdim. Yəhya müəllim isə heç cür bununla razılaşa bilmirdi. Qasım Qasımzadə və Yaşar Qarayev hələ aspiranturaya girməmişdən mənə bir mövzu vermişdilər: "Bədii fərdiləşmədə milliliyin təzahürü". Ancaq Yəhya müəllim bu mövzunu da işləməyimə razı olmadı. Axır ki, bir ortaq məxrəcə gələ bildik. "Azərbaycan poemasında konflikt və xarakter" mövzusu Yəhya müəllimin xoşuna gəldi. Dedi ki, gedək ağsaqqalımız Məmmədcəfər müəllimlə məsləhətləşək. İnstituta tez-tez gəlib-getdiyim üçün məni əvvəldən tanıyan Məmmədcəfər müəllim bizi yaxşı qarşıladı, aspiranturaya girməyim münasibətilə məni təbrik elədi. Yəhya müəllim mənim mövzumun adını deyib soruşdu ki, Məmmədcəfər müəllim, görün bu

istiqamətdə tədqiqat işi aparmaq necə olar? Məmmədcəfər müəllim dedi:

– Axı bu mövzu elmə nə verəcək?

Yəhya müəllim özünəməxsus bir səmimiyyətlə söylədi:

– Ay rəhmətliyin oğlu, biz elmə nə vermişik ki, bu da verə. Yazacaq, ümumiləşdirəcək, müdafiə eləyib diplom alacaq, bundan sonra elmə nə verir versin da.

Məmmədcəfər müəllim güldü və həmin mövzunu mənə dissertasiya mövzusu kimi təsdiq elədilər.

Yəhya müəllim həm gözəl insan, həm də çox tələbkar elmi rəhbər idi. Akademiyanın rəyasət heyətində prezident Həsən Abdullayev məndən soruşdu ki, elmi rəhbərin kimdir? Yəhya müəllimin adını çəkəndə, o, üzünü zala tutub Yəhya müəllimi təriflədi, institutun direktoru Mirzağa Quluzadəyə dedi ki, ona bir şöbə müdirliyini də qıymamısınız?

Bu söhbətdən bir-iki ay sonra institutda təzə bir şöbə açıb, Yəhya müəllimi ora müdir qoydular. Yəhya müəllimin vəfatından sonra həmin şöbəyə professor Əkbər Ağayevi rəhbər təyin etdilər.

Həsən Abdullayev biləndə ki, mən şairəm, dedi ki, bir şeirini oxu. Mən "Kənd toyunda" adlı şeirimi əzbərdən söylədim. Şeir hamının xoşuna gəldi. Həsən müəllim o vaxta qədər tanımadığım Fərəməz Maqsudovu qabağa çağırdı və dedi ki, Fərəməz, sən də bir şeir oxu, qoy deməsinlər ki, riyaziyyatçılar şeir yaza bilmir.

Bizi aspirant kimi təsdiq eləyəndən sonra Yəhya müəllim Svetlana Lukyanovadan konflikt və xarakterlə bağlı ədəbiyyat siyahısını alıb mənə verdi. Bu, mənə çox kömək etdi. Hər həftə dərs dediyim Babayev Kərimə ədəbiyyat siyahısı verirdim. Onun bacısı Sima o vaxt akademiyanın kitabxanasında işləyirdi. Mən o qızın təmənnasız köməyini həmişə dərin minnətdarlıq duyğuları ilə xatırlayıram.

Yəhya müəllim tələbkar idi, ancaq ürəyim istəyən kimi dissertasiya yazmağa imkan vermirdi. Heç kəsi tənqid eləməyə qoymurdu. Deyirdi ki, camaatı bizimlə düşmən eləmə.

Dissertasiya tamam olanda gözlənilmədən Yəhya müəllim dünyasını dəyişdi. Mənə Qasım Qasımzadəni elmi rəhbər təyin etdilər. Qasım müəllim hazır dissertasiyamı oxuyub dedi ki, yaxşı qələmin var. Ancaq əsərin üstündə yenidən işləməyini məsləhət görürəm. Sonra o, mənə çox dəyərli məsləhətlər verdi.

Gülə-gülə soruşdum ki, Qasım müəllim, alimləri tənqid etmək olar? Dedi ki, əlbəttə, olar. Ancaq tənqid gərək tənqid xətrinə olmasın.

Mən gülə-gülə Qasım müəllimə bu lətifəni danışdım:

*"Boks yarışında komandalardan birinin ağır çəkili boksçusu xəstələnib yarışa gedə bilmir. Məşqçi bir yekəpər kürdə pul verib deyir ki, bir neçə dəqiqə bu döyüşçünün qarşısında dura bilərsənmi?*

*Kürd deyir:*

*– Niyə durmuram, puluna minnət.*

*Döyüş başlayır. Kürd dayanır, boksçu vurur. Beləliklə, birinci raund qurtarır. Məşqçilər kürdün ağız-burnunun qanını siləndə ona deyirlər ki, bir az da dura bilərsən?*

*Kürd deyir:*

*– Puluna minnət.*

*İkinci raund da beləcə keçir. Məşqçi ağzı-burnu əzilmiş kürdə deyir ki, bir-iki dəqiqə də dayana bilsən, lap aləm olar.*

*Kürd məşqçidən soruşur:*

*– Ay qardaş, durmağına duraram e, ancaq olmaz ki, birini də mən vurum?*

*Məşqçi deyir:*

*– Əlbəttə, olar.*

*Kürd sonuncu raundda bir zərbə ilə boksçunu yerə sərir. Hakim saymağa başlayır:*

*– Bir, iki, üç, dörd, beş...*

*Kürd onun sözünü yarımçıq kəsib soruçur:*

*– Ay qardaş, niyə sayırsan?*

*– Ona qədər sayıram, dursa, səninlə yenidən vuruşacaq.*

*Kürd mənalı-mənalı deyir:*

*– Özünə havayıdan zəhmət vermə. Mən kəli, öküzü sol əlimlə vuranda, bir də yerindən qalxa bilmir. Hələ acıqlanıb bunu sağ əlimlə vurmüşam."*

Lətifə Qasım müəllimin xoşuna gəldi. Dedi ki, yaxşı, sən də kürd qardaş kimi öz məharətini göstər.

Bir-iki aydan sonra dissertasiyanın yeni variantını Qasım müəllimə apardım. O, əsəri oxuyub yaxşı mənada təəccübləndi. Dedi ki, əvvəlki variantla bunun arasında zəmin-asiman fərq var.

Qasım müəllim mənim dissertasiyama belə bir rəy yazdı. Həmin yazının əlyazmasını da indi əziz bir xatirə kimi saxlayırım.

**Rafiq Yusifoğlunun namizədlik dissertasiyası haqqında rəy**

Poema Azərbaycan poeziyasında zəngin ənənə, yeni ideya-bədii siqlətə malik mötəbər janrlardandır. Sosialist realizmi ədəbiyyatının təşəkkülü dövründən başlayaraq bütün mərhələlərdə şairlərimiz bu janr vasitəsi ilə xalqımızın yeni həyat uğrunda mübarizəsində, məişətdə özünü göstərən yeniliyi və ona qovuşmaq yolundakı çətinlikləri əks etdirməyə can atmışlar.

Aspirant Rafiq Yusifoğlunun tədqiqata cəlb etdiyi poemaların yarandığı dövrdə bu janra maraq xüsusilə güclü idi. Şairlərin yaşlı və orta nəsli içərisində həmin illər poema yazmayana çox az rast gəlmək olardı. Bu dövrdə 150-dən

artıq poema meydana gəlmişdi ki, dissertant bunları saf-çürük etmiş, tədqiqatçı səriştəsi ilə müvafiq problemlər ətrafında onları qruplaşdırıb təhlildən keçirmişdir. Təhlillər konflikt və xarakter baxımından aparıldığından, dissertasiya janrın əsas xüsusiyyətləri, mahiyyəti barədə əhatəli və maraqlı məlumat verir.

Əllinci illərin ikinci yarısındakı dövrdə yaranmış poemalarda insan taleyinə münasibət yenilik və köhnəliyin əbədi-əzəli münaqişəsi fonunda müxtəlif üslubla, yaradıcılıq dəsti-xəttilə aşkarlanırdı. Dissertant bu mənada birinci fəsildə həyat həqiqəti və bədii həqiqət meyarına istinadən konfliktin reallığını, tiplərini, poetikasındakı dəyişmə meyllərini müəyyənləşdirməyə, mənəvi-əxlaqi ziddiyyətləri, daxili münaqişə formalarını üzə çıxarmağa səy göstərmiş və məqsədinə nail olmuşdur. Poemalarda xarakterin bədii həllini təhlil edəndə də dissertant bu problemi konfliktdən ayrı götürməmiş, istər müsbət, istərsə də mənfi obrazların xarakterini məhz onların üz-üzə gəldiyi səhnələrdə, epizodlarda müəyyənləşdirib səciyyələndirmişdir. Poemada xarakter məsələsinə estetik yanaşmada müəllifin millilik kateqoriyasını ön plana çəkib problemi realizm baxımından qiymətləndirməsi, eləcə də obrazların nə dərəcədə koloritli verildiyini aydınlaşdırması baxımından maraqlıdır və yenidir. Xarakterin tamlığını şərtləndirən amillər silsiləsindən epizodların, epizodik surətlərin, həmçinin bədii detalın konkret təhlillərlə ümumiləşdirilib bu barədə elmi-nəzəri səviyyədə mülahizə və qənaətlər irəli sürülməsi əsərin orijinal səhifələrindəndir.

Poemaların təhlili bir çox dissertasiyalardakı kimi təsviri xarakter daşımır, əksər hallarda analitik təşrih qaydası, tənqidçi və ədəbiyyatşünaslarla mübahisəyə, polemikaya girişib mülahizə və qənaətlər irəli sürmək yolu ilə aparılmışdır.

Əsərin mühüm məziyyətlərindən biri də müəllifin mövzu ilə əlaqədar ümumittifaq nəzəri fikrinin müasir təcrübəsinə istinad etməsidir. Təhlillərin rus və digər sovet xalqları ədəbiyyatları kontekstində, tipoloji tədqiqat əsasında qurulması da dissertantın ədəbiyyatşünaslığın qabaqcıl meyllərindən səmərəli bəhrələndiyini göstərir. Dissertasiya aydın, səlis elmi dillə yazılmışdır.

Mən Rafiq Yusifoğlunun tədqiqatının ayrı-ayrı hissələrini bir neçə dəfə nəzərdən keçirmişəm, müəyyən kəsir və nöqsanların aradan qaldırılması, əsərin təkmilləşdirilməsi üçün ona yazılı şəkildə konkret tövsiyələr vermişəm. Onun bu göstərişləri yerinə yetirərkən olduqca zəhmətsevər və zəkalı olduğu qənaətinə gəlmişəm. Məncə, bu əsər müəllifin filologiya elmləri namizədi alimlik dərəcəsi alması üçün tələblərə cavab verir. Dissertasiyanı müzakirəyə hazır hesab edirəm.

Elmi rəhbər: **Qasım Qasımzadə**

2 dekabr 1982-ci il."

5 yanvar 1983-cü il tarixdə ədəbiyyat institutunun Azərbaycan sovet ədəbiyyatı və inkişaf etmiş sosializm dövrü Azərbaycan ədəbiyyatı şöbələrinin birgə iclasında mənim dissertasiyam müzakirə edildi. Müzakirədə professor Əkbər Ağayev (sədr), filologiya elmləri doktoru Atif Zeynallı, filologiya elmləri namizədləri Yaqub İsmayılov, Şamil Salmanov, Qurban Bayramov iştirak etdilər. Əsər haqqında çox müsbət fikirlər söylənildi. Həmin fikirlərdən bəzi məqamları ixtisarla verməyi lazım bildim.

"Əsərin həm məzmunundan, həm də strukturundan hiss olunur ki, dissertasiya uzunmüddətli tədqiqatın məhsuludur. Aspirant əsl tədqiqatçılıq yolu ilə gedərək çox aydın, konkret elmi ümumiləşmələr aparmış və bu yolla bütün poemaları tədqiqata cəlb edə bilmişdir.

Struktur tamlığı, nəzəri-metodoloji səviyyəsi ilə seçilən bu dissertasiyada zəngin elmi və bədii faktlar tədqiqata cəlb edilmiş, nəzəri məsələ ilə ədəbi material qovuşuq şəkildə təhlil olunmuşdur.

Tədqiqatçının təsvirçilikdən qaçması, bədii təhlilə daha çox üstünlük verməsi əsərin elmi dəyərini xeyli dərəcədə artırmışdır. Dissertasiyada konflikt və xarakterlə bağlı çox yaxşı bədii təhlillər aparılıb. Bu baxımdan "Təbiət və qəhrəman", "Bədii portret", "Xarakterlərin fərdiləşməsində bədii detalın rolu" adlanan hissələr diqqəti cəlb edir.

Dissertasiyanın dili səlis və rəvandır. Aspirantın yaxşı qələmi var. Tədqiqatın predmetini tam şəkildə əhatə edən bu dissertasiya poemanın müəyyən meyllərini nəzərə çarpdıran yüksək nəzəri səciyyəli bir əsərdir."

Dissertasiya ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasında da müzakirə edildi. Müzakirədə filologiya elmləri doktorları, professorlar, mənim müəllimlərim Xeyrulla Məmmədov, Paşa Əfəndiyev, Mürsəl Həkimov və başqaları iştirak edirdilər. Himalay müəllimin mülahizələri mənim daha çox xoşuma gəldi.

Verilən rəydən bəzi cümlələr:

"Rafiq Yusifoğlunun namizədlik dissertasiyası çox aktual bir mövzuya həsr edilmişdir. Müəllif poema janrının mövzu və problematikasında əmələ gələn dəyişiklikləri müasir ədəbiyyatşünaslığın nəzəri tələbləri baxımından izləmişdir.

Poemalar haqqında yazılmış irili-xırdalı məqalələr müəllifin nəzərindən yayınmır, dissertant tənqidçilərlə polemikaya girişir, öz fikir və mülahizələrini həm ədəbi materiala, həm də müasir ədəbiyyatşünaslığın nəzəri təcrübəsinə istinadən əsaslandırır.

Dissertantın nəzəri hazırlığı, özünəməxsus təhlil üsulu vardır ki, bütün bunlar əsərin oxunaqlığını təmin edən, onun elmi dəyərini artıran cəhətlərdir.

Dissertasiyada dövrün poemalarının inkişafına bir neçə istiqamətdə baxılır və bu inkişafın realist mənzərəsi yaradılır. Əsərin elmi tənqidi məzmununda pafos kifayət qədərdir.

Ədəbiyyat tarixinin konkret dövründə poemanın inkişaf mənzərəsini realistcəsinə canlandıran bu tədqiqat əsəri struktur tamlığı, elmi-metodoloji səviyyəsi ilə diqqəti cəlb edir.

23 may 1984-cü il, protokol №17."

Dissertantın rəsmi opponenti, BDU-nun Sovet ədəbiyyatı tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Cəlal Abdullayev:

"Rafiq Yusif oğlu Əliyevin "Azərbaycan sovet poemasının inkişaf problemləri" adlı namizədlik dissertasiyası mövzusunun aktuallığı, elmi-nəzəri səviyyəsi ilə diqqəti cəlb edir. Müəllif indiyədək sistemli şəkildə öyrənilməyən mühüm bir dövrü – 1956-1965-ci illəri tədqiqat obyekti seçmiş, elmi ümumiləşmələr aparmaq yolu bu illərdə yaranan poemaların əksəriyyətini tədqiqata cəlb etmiş, konkret mərhələdə janrın inkişafının elmi mənzərəsini cızmağa müvəffəq olmuşdur.

Azərbaycan sovet ədəbiyyatşünaslığında ilk dəfədir ki, adı çəkilən mərhələdə yaranmış poemaların ideya-məzmun xüsusiyyətləri, məna və mətləbləri geniş elmi araşdırmaya cəlb olunmuş, poema janrı bədii əsərdə çox mühüm yer tutan konflikt və xarakter kimi mühüm problemlər işığında təhlil olunmuş, janrın inkişaf meylləri, məziyyət və nöqsanları bu baxımdan qiymətləndirilmişdir.

R.Y.Əliyevin tədqiqata cəlb etdiyi ədəbi materiala, onlar haqqında yazılmış məqalələrə, janrın inkişaf problemləri ilə bağlı nəzəri ədəbiyyata yaxından bələdliyi, bədii əsəri duyma qabiliyyəti, ən xarakterik misalları seçə bilmə bacarığı, özünəməxsus təhlil üsulu dissertasiyanın elmi dəyərini xeyli artırmışdır. Hiss olunur ki, dissertantın elmi tezisləri ədəbi material üzərində ciddi tədqiqatın yekunu kimi yaranmışdır. Elə buna görə də onun qənaətləri, gəldiyi nəticələr şübhə doğurmur.

Rafiq Yusif oğlu Əliyevin namizədlik dissertasiyası müasir elmi tələblərə cavab verən sanballı tədqiqat əsəridir. Dissertasiyanın dili səlis və rəvandır."

İkinci rəsmi opponent, filologiya elmləri namizədi, dosent Sadıq Şükürov:

"Əliyev Rafiq Yusif oğlunun "Azərbaycan sovet poemasının inkişaf problemləri" əsəri maraq doğurur, tədqiq olunmayan sahədir. Mövzu sovet ədəbiyyatşünaslığının nəzəri tələbləri ilə üzvi surətdə əlaqələndirilmişdir. Dissertantın üslubu yetkin, hökmləri əsaslıdır".

Filologiya elmləri doktoru Atif Zeynallı:

"Rafiq Yusifoğlu çətin və şərəfli bir vəzifənin öhdəsindən gələ bilmiş, Azərbaycan poeması, onun inkişaf problemləri haqqında sanballı, elmi maraq doğuran bir əsər yaratmışdır. Məni çox maraqlandıran, təmin edən cəhət odur ki, Rafiq Yusifoğlu Azərbaycan poemasının inkişaf tarixini son dərəcə mühüm sənətkarlıq problemləri baxımından izləmişdir. İndiyədək poeziya haqqında yazılan dissertasiyaların hamısında bu məsələ unudulmuşdur. Hələ mən indiyədək poeziya haqqında belə sanballı əsər oxumamışam. Əvvəlki dissertasiyalar sosioloji təhlillərlə doludur. Bu əsərləri oxuyanda bilinmir ki, Müşfiq kimdir, Süleyman Rüstəm kimdir? Onlar ənənələrimizdən, klassik ədəbiyyatımızdan nəyi

götürmüşlər, hansı ənənəyə əsaslanıb novator olmuşlar və i.a.

Mən nahaq yerə bu məsələlərdən ürək yanğısı ilə söhbət açmıram. Əsas məsələ ədəbiyyat və onun yaradıcılıq problemləridir. Biz ədəbi prosesdən, sənətkarlıq məsələlərindən söhbət açmalıyıq. Mənə elə gəlir ki, Rafiq Yusifoğlunun "Azərbaycan sovet poemasının inkişaf problemləri" adlı dissertasiyası bu cəhətdən diqqəti daha çox cəlb edir. Dissertasiyada bədii sənətkarlıq məsələlərinə xüsusi diqqət yetirilmişdir ki, bu baxımdan mən onun müəllifini alqışlayıram. Elə bilirəm ki, Rafiqin əsəri poeziya haqqında yazılmış ən yaxşı dissertasiyadır.

Rafiq Yusifoğlu bizim şöbənin aspirantı olub, öz tədqiqat əsərini gözümüzün qabağında yazıb. O, işgüzarlığı, tədqiqatçılıq səriştəsi, bədii əsərləri qiymətləndirmək bacarığı, təvazökarlığı ilə şöbənin elmi əməkdaşlarının rəğbətini qazanmışdır."

Atif Zeynallının bu çıxışı Əkbər Ağayevi əməlli-başlı qıcıqlandırdı. O, müdafiə zamanı çıxış etmək fikrində deyildi. Ancaq birdən-birə söz istədi. Filologiya elmləri doktoru, professor Əkbər Ağayev dedi:

"Yoldaşlar, bu gün müdafiə olunan dissertasiya hər cəhətdən bizim müasir filologiya elmimizin tələblərinə cavab verən əsərdir. Şöbədə müzakirə zamanı işin bu tərəfinə xüsusi fikir verilmişdir. Deyim ki, qələmi etibarilə, yazı manerası etibarilə Rafiq bişmiş və ərsəyə çatmış, elmi tədqiqatın nə demək olduğunu dərk etmiş hazırlıqlı kadrlardandır. Bu çətin mövzunun özünü də dissertant çox yaxşı həll etmişdir. Ona görə də bəri başdan deməliyəm ki, bütün elmi şura üzvləri ilə birlikdə Atif müəllim kimi istərdim ki, yoldaşların hamısı onun gözəl əsərinə səs versinlər.

Bundan başqa deməliyəm ki, elmi mübahisə zamanı müəyyən yeni fikirlər ortalığa çıxa bilər. Biz çalışmalıyıq ki, bu cür hallarda bir qədər təmkinli olaq, məsələyə soyuqqanlı yanaşmağı və həll etməyi bacaraq. Bir qütbdən başqa qütbə keçmək çox pis haldır. Biz Rafiqin əsərlərinin müsbət xüsusiyyətlərini qiymətləndiririksə, bu o demək deyildir ki, indiyə qədər poeziya haqqında yazılmış dissertasiyaların hamısının üstündən xətt çəkək. Biz gərək məsələnin bu tərəfini də yadımızda saxlayaq. Amma sözün ümumi deyilişindəki pafos yaradıcı şəkildə nəticə çıxarmağa imkan vermir.

Bizim sovet dövrünə aid 150 dissertasiya yazılmışdır və onun əksəriyyəti yaxşı əsərdir. Atif, bu dissertasiyalardan birini sən, birini də mən yazmışam. Yenini qiymətləndirərkən keçmiş nəslin zəhmətini yerə vurmaq düzgün deyil.

Çıxışımın sonunda bir daha qeyd edirəm ki, Rafiq Yusifoğlunun namizədlik dissertasiyası son illərdə yaranmış dəyərli tədqiqat əsərlərindəndir."

Şamil Salmanov: "Yoldaşlar, bəlkə də Rafiq müəllimin dissertasiyası haqqında mənim danışmağım lazım deyildir. Çünki mən bu iş haqqında öz sözümü demişəm. Biz dissertasiyanı şöbədə geniş müzakirə etmişik. Mən deyərdim ki, Rafiq müəllim son dərəcə maraqlı dövrlərdən birini tədqiq edir. Rafiq Yusifoğlunun dissertasiyasında ittifaq konsepsiyası hiss olunur. O ki qaldı mübahisəli mövzunun meydana çıxması haqqında, deyə bilərəm ki, Atif müəllimin həyəcanlarını başa düşürəm. O istəyir ki, janrın sənətkarlıq məsələləri, bizim poeziyamızın tədqiqi daha sanballı, elmi olsun. Amma bununla belə Mustafa Quliyev, Əkbər Ağayev, Səməd.Vurğunun özündən tutmuş gələn bir ənənə vardır ki, onu unutmamalıyıq. Ədəbiyyatı öyrənən, ədəbiyyatın aktual problemləri ilə maraqlanan sosioloji təhlil heç bir zaman ədəbiyyatı perspektivdən məhrum edə bilməz. Məsələn,

Belinskinin təhlilləri başdan ayağa sosioloji təhlillərdir. Ancaq biz bu fikirdəyik ki, sosioloji təhlil özü məzmunlu, zəngin olmalıdır. Onlar tarixi-ictimai hadisələrin qeydə alınması ilə kifayətlənməməli, fəlsəfi yük daşımalıdır. Rafiqin dissertasiyasında da təhlillər məhz bu istiqamətdə aparılmışdır.

Bir neçə kəlmə də dissertantın özü haqqında. Birgə iş prosesində yəqin etmişəm ki, o, nəzəri cəhətdən hazırlıqlı, mədəni və zəhmətkeş adamdır.”

Əziz Mirəhmədov: “Yoldaşlar, mən də Rafiq müəllimin dissertasiya işi haqqında bir-iki kəlmə demək istəyirəm. Müdafiənin gedişi çox işgüzar xarakter daşıyır. Sevindirici haldır ki, ədəbiyyatımızın inkişafında elmi-nəzəri səviyyəcə yüksək bir tədqiqat əsəri yazılmışdır.

Yoldaşlar, biz son zamanlar sənətkarlıq problemlərinə daha çox fikir veririk. İnstitutumuzun planlarında da bu məsələlər diqqət mərkəzində dayanır. Bütünlükdə mən bu əsər haqqında deyilmiş bütün qeydləri dəyərli hesab edirəm.”

Müdafiə, deyilənə görə, çox yüksək səviyyədə keçdi. Əzablı yollar arxada qaldı.

Onu da qeyd edim ki, müdafiədən əvvəl dissertasiyaya nəzəriyyə indeksi vermək təklifləri irəli sürlmüşdü. Professor Abbas Zamanov və professor Pənah Xəlilov bunu israrla elmi şuradan xahiş etmişdilər. Ona görə də dissertasiyaya həmin prizmadan baxmaq üçün elmi şuranın qərarı ilə komissiya yaradıldı. Komissiyanın sədri Yaşar Qarayevin bir-iki cümləsi dissertasiyanın taleyini həll etdi, bununla da mübahisəyə son qoyuldu: “Dissertasiyanın nəzəri səviyyəsi yüksəkdir. Ancaq onu nəzəriyyə indeksi ilə VAK-a göndərsək, zəif görünə bilər. Əksinə, ədəbiyyat tarixi indeksi ilə

göndərsək, nəzəri cəhət dissertasiyanın məziyyəti kimi qiymətləndirilə bilər."

O vaxt dissertasiya mütləq rus dilinə tərcümə edilməli idi. Mənim əsərimi Sara Osmanova rus dilinə tərcümə etdi. Dissertasiyanın sənədlərini isə Məhəbbət xanım hazırladı. Əsəri Moskvaya göndərib intizarla cavab gözləməyə başladım.

Nəhayət, gözlənilən gün gəlib çatdı. Ali Attestasiya Komissiyası mənə filoloji elmlər namizədi alimlik dərəcəsi vermək haqqında dissertasiya şurasının qərarını təsdiq etdi.

Minarə Tahirova Sumqayıt təhsil şöbəsinin müdiri işləyəndə Əli Həsənov şəhər partiya komitəsinin katibi idi. Bir dəfə pioner evində keçirilən bir tədbiri mən aparırdım. Minarə xanım elə oradaca Əli müəllimə dedi ki, Rafiqi məktəb direktoru qoymaq istəyirəm. Əli müəllim də dedi ki, etiraz etmir.

Doğrusu, bu mənim üçün çox gözlənilməz təklif idi. Şagird olanda, tələbə olanda sinif nümayəndəsi, sinif rəhbəri də olmamışdım. Yaxşı yadımdadır, hələ 10 nömrəli məktəbdə işləyəndə məni 8-ci sinfin rəhbəri təyin etmişdilər. Valideyn iclası idi. Uşaqlar məni öz valideynlərinə göstərdilər. Onlar təəccüblə mənə baxırdılar. Ona görə ki, o vaxt çox cavan idim. Fikirləşirdim ki, valideyn iclasında bu saçı-saqqalı ağarmış adamlara nə məsləhət verə biləcəyəm? Elə ona görə də sakitcə çıxıb evə getmək istədim. Yolda qarşımı məktəbin direktoru Minarə müəllim kəsdi, dedi ki, hara gedirsən, valideynlər səni gözləyir. Çar-naçar yuxarı qalxmaq istəyirdim ki, məktəbin arxa qapısını açıb, ikinci növbənin uşaqlarını çölə buraxmağa başladılar. Mən də fürsəti əldən vermədim, onlara qoşulub məktəbdən çıxdım. Elə bununla da mənim sinif rəhbərliyimə birdəfəlik son qoyuldu.

Sonra məni rəhbər vəzifəyə təyin etmək istəyəndə maarif şöbəsinin müdiri Minarə Tahirovanı nə qədər inandırmağa çalışdım ki, məndən direktor olmaz, əl çəkmədi. Xaraktercə mülayim adam olduğumu söyləyəndə o, ciddi şəkildə söylədi ki, mən hələ sənin kimi sərt, ötkəm adam görməmişəm. Sənədlərimi aparmadım. O, özü 23 №li məktəbə gəliib mənim sənədlərimi götürüb apardı. Çox xahiş-minnətdən sonra məni direktor qoymadılar.

Elə bu vaxt tələbə dostum Nizami Xudiyev dedi ki, Rafiq, rektorla – Afad Qurbanovla danışmışam, sənin “Gənc müəllim” qəzetinə redaktor olmağına etiraz etmir. Ancaq gərək bütün günü institutda olasan, rəhbərliyin məruzə və çıxışlarını hazırlayasan.

Soruşdum ki, dolanışıq necədi, dedi ki, bacarıqlı adam üçün çox yaxşıdı, sənin kimisi üçün isə çətin.

Mən dedim ki, müəllim keçmək imkanı varsa, etiraz etmirəm. Dostum qəti şəkildə bildirdi ki, 20 il laborant işləyib müəllim yerinin boşalmasını gözləyənlər var. Çətin ki, müəllim keçə biləsən.

Bu söhbətdən sonra mən “Gənc müəllim” qəzetinə redaktor getməkdən imtina etdim. Elə bu vaxt məni “Göyərçin” jurnalının redaksiyasına şöbə müdiri vəzifəsinə dəvət etdilər. Çox məmnuniyyətlə razılıq verdim. Onu da deyim ki, bu yerə papağını sulayanlar çox idi. Ancaq Tofiq müəllim çox prinsipial hərəkət etdi, hətta rəhbərliklə məsləhətləşmədən məni işə götürdü. Dedi ki, mirzə, mən “Göyərçin” jurnalını çox sevirəm. İstəmirəm ki, məndən sonra redaksiya nadan bir adamın əlinə keçə. Açığını deyirəm ki, mən səni öz yerimə baş redaktor hazırlamaq istəyirəm.

"Göyərçin" jurnalının 40 yaşı tamam olanda "Uç, uç, mənim göyərçinim" adlı yazımın bu sözlərlə başlaması da təsadüfi deyildi;

"Qırx il bundan qabaq "Göyərçin" qanad çala-çala ucqar bir dağ kəndinə, mənim və mənim yaşıdlarımın yanına gəldi. Bu sehrli quş öz qanadlarında bizə şeir, nağıl, hekayə sovqatı gətirmişdi. O vaxt heç mənim ağlıma da gəlməzdi ki, nə vaxtsa "Göyərçin" jurnalının redaksiyasında işləyəcək, balalarımız üçün şeir, nağıl, hekayə yazıb "Göyərçin"in qanadlarında respublikamızın müxtəlif guşələrində, rayonlarında, kəndlərində yaşayan uşaqlara göndərəcəyəm.

"Göyərçin" jurnalının redaksiyasına gəldiyim ilk gün indi də mənim yadımdadır. Jurnalın əməkdaşlarının: Tofiq Mahmudun, Hikmət Ziyanın, Rəşid Əmirovun, Tahirə İsgəndərovanın, Səbiyyə Sadıqovanın elə ilk gündən məni mehribanlıqla qarşıladıqlarını heç zaman unutmaram. Sonradan mənə bu mehriban insanlarla bir yerdə işləmək səadəti nəsib oldu. "Göyərçin"də işlədiyim müddətdə respublikamızın məşhur uşaq yazıçılarını tanıdım, onlarla dostlaşdım. Jurnalda şöbə müdiri, məsul katib işlədim, indi isə bu jurnalın baş redaktoru vəzifəsində çalışıram.

Jurnalda işlədiyim vaxtlarda Nəriman Süleymanov məni "Günəş" jurnalına məsul katib aparmaq istədi, Əmrah Əmrahov dedi ki, yuxarılarla danışmışam, səni "Azərbaycan pioneri" qəzetinə baş redaktor qoysunlar, mən də qoca kişiyəm, gəlim "Göyərçin"də işləyim.

Bu təkliflərə nə Tofiq Mahmud, nə də Hikmət Ziya razı oldu. Dedilər ki, mirzə, sən bizim kadrımızsan, səni heç hara buraxa bilmərik. Onların sözünə qulaq asdım.

Sonradan məni "Savalan" qəzetinə baş redaktor müavini aparmaq istəyəndə maaşa görə razılaşsam da, Hikmət

Ziya qoymadı. Özü ərizə verib şöbə müdiri keçdi, məni məsul katib təyin etdilər ki, maaşım artıq olsun.

Nizami Xudiyev Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri təyin edilən günün səhəri Tofiq Mahmud qayğılı-qayğılı məndən soruşdu:

– Mirzə, nə fikirdəsən, qorxuram Nizami səni yanına apara.

Elə belə də oldu. Hizami məni yanına çağırıb dedi ki, mən burda təzəyəm, yaxın adamlarım yoxdu, gərək gəlib mənə kömək edəsən. Səni özümə müavin götürmək istəyirəm. Ancaq ikimiz də təzəyik, işi bilmirik. Əvvəlcə gəl səni "Xəbərlər"ə işə götürüm, işi öyrən, sonra baxarıq neyləyək.

Beləliklə məni "Xəbərlər" baş redaksiyasında "Elm, mədəniyyət, incəsənət" şöbəsinə müdir təyin etdilər. Doğrusu, iş heç ürəyimcə deyildi. Ancaq tezliklə televiziyaya da alışdım, maraqlı, bəyənilən lirik süjetlər hazırlamağa başladım. Ədəbi dram verilişləri redaksiyası "Qəm karvanı" adlı tamaşamı hazırladı. Mənim şöbəmdə işləyən jurnalistlər bunlar idi: Arif Bahadıroğlu, Gözəl Nəcəfova, Bahadır Şəfi, Hicran Hüseynov, Əli Nəcəfxanlı, Rövşən Vəliyev, Qaraş İsmayılov, Dünya Həsənova, Mahir İmamverdiyev, Esmira Çərkəzqızı və b. Tezliklə adamlara isinişdim, onlarla dostlaşdım. Sədrin adamı olduğum üçün başıma fır-fır fırlanırdılar. Heç kəsin ürəyini qırmaq istəmirdim. Dəqiqəbaşı gəlib məni çayxanaya, yeməkxanaya dəvət edirdilər. Mən burda pis iş görmürdüm. Ancaq dəhşət idi. Fürsət düşən kimi hamı bir-birindən qeybət edirdi.

Baş redaktor işdən çıxarılandan sonra Nizami məni yanına çağırıb dedi ki, hə, nə fikirdəsən, işi bacararsanmı? Qəti şəkildə etiraz etdim. Dedim ki, Nizami, mən emosiya adamıyam, yanaram, səni də yandıraram. Bir xeyli söhbətdən sonra o da mənimlə razılaşdı.

Nizamidən xahiş etdim ki, mənim yerimi dəyişdirsin, razı olmadı. Dedi ki, başqa redaksiyaya getsən, dolanışığın pis olacaq. Bir ilə yaxın bir təhər dözdüm. Lakin gördüm ki, qeyri-sağlam bir mühitdə işləyə bilməyəcəm. Digər tərəfdən də bir əldə iki qarpız tutmaq mümkün deyil. 1997-ci il may ayının 15-də məni "Göyərçin" jurnalına baş redaktor təyin etmişdilər.

1997-ci ilin avqust ayında televiziya ilə vidalaşdım. "Göyərçin" mühiti mənim əsəblərimə sığal çəkdi, ilhamımı qanadlandırdı. "Qəm karvanı", "Həsrət köçü", "Sladkiy dojd" adlı şeir kitablarımı, "Azərbaycan poeması: axtarışlar, perspektivlər" adlı monoqrafiyamı çap etdirdim. Jurnalın yubileyini qeyd elədik, işdə bir canlanma əmələ gəldi, "Göyərçin" müntəzəm surətdə çap olunmağa başladı, onun haqqında yüksək səviyyədə xoş sözlər söylənildi, verilişlər hazırlandı.

"Azərbaycan dünyası" qalereyasında baş rəssam, dostum Arif Hüseynovun təşəbbüsü ilə "Göyərçin"də çıxış edən rəssamların əsərlərindən ibarət gözəl bir sərgi açdıq.

28 fevral 1998-ci ildə "Azərbaycan müəllimi" qəzeti "Balalarımızın sevimli "Göyərçin"i" adlı məqaləmi çap etdi. Məqalənin məzmunu belə idi:

"Azərbaycan uşaq mətbuatı içərisində "Göyərçin" jurnalının özünəməxsus yeri və üslubu var. Bu jurnal 40 illik uşaq ədəbiyyatının bədii salnaməsidir. "Göyərçin"in 40 illik nömrələrini vərəqlədikcə gözlərimizin qarşısında yaxın tarixi keçmişimizin, tərbiyə metodumuzun, həyata, insana, uşağa, təbiətə baxışımızın mənzərələri canlanır. "Göyərçin" jurnalı 40 il müddətində uşaq ədəbiyyatımızın əsas "təsərrüfat sahəsi", "tarlası" olmuşdur. Yazıçılarımız, şairlərimiz məhz "Göyərçin" jurnalında çap olunmaq üçün şeirlər, hekayələr, nağıllar yazmışlar. "Göyərçin" gözəl bir ədəbi

məktəbə çevrilmişdir. Bu məktəb nə qədər yazıçılar, şairlər, rəssamlar ordusu yetişdirmişdir. Bütün bunları nəzərə alan, xalqımızın görkəmli təmsil ustası, həyatının böyük bir hissəsini "Göyərçin"ə həsr edən Hikmət Ziyanın bu sözləri maraq doğurur: "Göyərçin" qartallar yetişdirir.

"Göyərçin" nəinki şairlər, yazıçılar, rəssamlar yetişdirmiş, eləcə də qırx ildə bütün Azərbaycan uşaqlarının təlim-tərbiyəsində mühüm rol oynamışdır. "Göyərçin" uzun müddət kütləvi tirajlarla nəşr edilmişdir. Bu danılmaz bir faktdır ki, Azərbaycanda "Göyərçin" qədər abunəçisi olan ikinci bir jurnal olmamışdır.

Ən görkəmli, tanınmış Azərbaycan yazıçıları "Göyərçin"in balaca oxucuları üçün əsərlər yazmış, bu jurnalla əməkdaşlıq etmişlər.

İftixarla deyə bilərik ki, son qırx ildə yaranan ən gözəl uşaq ədəbiyyatı nümunələri ilk dəfə "Göyərçin" jurnalının səhifələrində dərc edilmişdir. "Göyərçin" indi də bu ənənəni davam etdirir, öz səhifələrində bu günkü həyatımızla bağlı orijinal əsərlər çap etməyə daha çox üstünlük verir.

İndi ağır, çətin məqamda yaşayırıq. Yazıçıların da ilhamı müəyyən mənada soyuyub. Ancaq bu çətin məqamda "Göyərçin"lə əlaqəsini kəsməyən, məhz bizim jurnal üçün yazılar göndərən tanınmış yazıçılara öz minnətdarlığımızı bildiririk.

Bu, məlum həqiqətdir ki, uşaq ədəbiyyatının yaradıcısı uşaq yazıçısıdır. Ancaq çox təəssüf ki, istedadlı gənc qələm sahibləri arasında həyatını uşaq ədəbiyyatına həsr etməyə hazır olan bir yazıçı, şair tanımıram.

Mən Azərbaycan Yazıçılar Birliyi Qəbul Komissiyasının üzvüyəm. Bu yaxınlarda birliyə qəbul etdiyimiz 37 yazıçının arasında bir nəfər də olsun uşaq yazıçısının olmaması yalnız təəssüf doğurur. Gənc qələm sahibləri unutma-

malıdırlar ki, uşaqlar üçün yazıb-yaratmaq çox çətin və şərəfli bir işdir. Uşaq ədəbiyyatı uşağa ana südü qədər zəruridir.

Bir dəfə bir cavan yazıçı Cəlil Məmmədquluzadənin yanına gedib lovğa-lovğa deyir ki, Mirzə, mən istəyirəm ki, uşaqlar üçün böyük bir kitab yazım. Mirzə Cəlil özünəməxsus bir tərzdə sakitcə deyir:

– Bala, məgər uşaqlar üçün əsəri uşaqlar yazır?

Çox təəssüf ki, indinin özündə də uşaq ədəbiyyatını uşaq-muşaq ədəbiyyatı hesab edənlər var. Ancaq belələri unudurlar ki, uşaq ədəbiyyatı ümumi ədəbiyyatın ayrılmaz tərkib hissəsidir. Əslində uşaq ədəbiyyatı ilə böyük ədəbiyyatı arasında çin səddi çəkmək də ağılsızlıqdır. Yaxşı xörəyi həm uşaqlar, həm böyüklər yediyi kimi, yaxşı ədəbiyyat nümunələri də həm uşaqlar, həm də böyüklər üçündür, insan üçündür.

Bu, danılmaz həqiqətdir ki, tərbiyə işi çox ağır, uzunmüddətli əmək tələb edən bir işdir. Qırx ildir ki, "Göyərçin" jurnalı sehrli, ecazkar qüvvəyə malik bir məktəb kimi Azərbaycan uşaqlarının ümumbəşəri mənəvi dəyərlər ruhunda tərbiyə olunması üçün əlindən gələni əsirgəmir. Yeni şəraitdə Azərbaycan uşaqlarını islamçılıq, türkçülük və bəşərilik ruhunda tərbiyə etmək kimi mühüm vəzifələri həyata keçirmək lazımdır.

Azərbaycan müstəqil dövlətdir. Heç bir dövlətin, istər dost, istər düşmən, haqqı yoxdur ki, Azərbaycanın daxili işinə qarışsın. Mənə elə gəlir ki, tərbiyə məsələsi də Azərbaycan Respublikasının daxili işidir. Heç bir ağıllı dövlət, ağıllı ailə başçısı öz uşağının tərbiyəsini özgəyə etibar edə bilməz.

Uzunmüddətli pedaqoji fəaliyyətim zamanı bu qənaətə gəlmişəm ki, uşaqlar yaşın müəyyən həddinə qədər ürəklə-

rinin dərinliklərində müəllimlərinin, valideynlərinin öyüd və nəsihətlərini qəbul etmək istəmir, ona bəzəkli vədlər verən küçə, həyət uşaqlarının sözünə üstünlük verirlər.

Acınacaqlı haldır ki, indi bizdə belə bir vəziyyət yaranmışdır. Öz jurnallarımızın, qəzetlərimizin başı üstündən ayrı-ayrı iş adamlarının, anonim təşkilatların təsis etdiyi qəzet və jurnallar məktəblərə yol açır. Həyət uşaqları öz yaşıdlarını bərbəzəkli vədlərlə aldatdıqları kimi, bəzi mətbuat orqanları da uşaqlarımızı, hətta müəllimlərimizi, məktəb direktorlarımızı aldadırlar. Belələrini "Göyərçin" jurnalının nə məzmunu, nə ondakı yazıların, rəsmlərin gözəlliyi, professionallığı maraqlandırmır.

Bəzi məktəb direktorları ilə söhbət zamanı adamı dəhşət bürüyür. Onları "Göyərçin"in hansı yaşlı uşaqlar üçün olduğu belə maraqlandırmır. Bəziləri deyirlər ki, birinci sinif uşaqları "Əlifba"nı hələ təzə keçirlər, onlar jurnal oxuya bilməzlər. Bəziləri deyir ki, filan qəzeti ona görə alırıq ki, orada ingilis dilində testlər verilir. Bəziləri deyirlər ki, "Günəş" jurnalını ibtidai siniflərdə paylamışıq. Nə fərqi var, "Günəş" də latın qrafikası ilə çıxır, "Göyərçin" də. Burda istər istəməz "fərq"lə bağlı bir lətifə yada düşür.

Elə ölkələr var ki, orda məktəbəqədər yaşlı uşaqlar üçün ayrı, ibtidai sinif şagirdləri üçün ayrı, orta yaşlı sinif şagirdləri üçün ayrı, yeniyetmələr üçün ayrı jurnal çıxır.

"Göyərçin" jurnalı həm məktəbəqədər yaşlı uşaqlar üçün, həm də ibtidai sinif şagirdləri üçündür. Bu jurnalı həm bağça uşaqları, həm də ibtidai sinif şagirdləri alıb oxumalıdırlar. Dövlət təminatında olan "Göyərçin" jurnalının satış qiyməti də, abunə qiyməti də respublikamızdakı jurnalların hamısından ucuzdur.

Bəzi məktəb direktorlarına xatırladırıq ki, ümumtəhsil məktəblərinin ibtidai siniflərində xarici dil tədris olunmur.

Xarici dillər beşinci sinifdən sonra öyrədilir. Bir də öz dilini bilməyən, öz dilində qəzet, jurnal oxumayan uşağın xarici dil öyrənməsi də müəmmalıdır. Xatırladıram ki, Azərbaycan dili müstəqil Azərbaycan respublikasının dövlət dilidir.

Ancaq yaxşı ki, respublikamızda qabaqcıl məktəblər çoxdur. Bu məktəblərin direktorları da, müəllimləri də uşaq mətbuatının, xüsusən "Göyərçin" jurnalının əhəmiyyətini çox gözəl başa düşürlər. Məsələn, Sumqayıtdakı Nizami Gəncəvi adına liseyin direktoru Minarə xanımın dediyi sözləri heç zaman unutmaram:

– Mənim sinif müəllimlərim deyirlər ki, nə yaxşı ki, "Göyərçin" jurnalı var. Kaş bütün ibtidai sinif dərsliklərimiz də "Göyərçin" jurnalı kimi olaydı.

"Göyərçin" ənənəsi olan bir jurnaldır. Təsadüfi adamlar bu jurnalın redaksiyasında işləməyiblər. Burada çalışanların hamısı göyərçin xislətli, ürəyi qanadlı yaradıcı insanlar olub. Yusif Əzimzadə, Hüseyn Abbaszadə, Xalidə Hasilova, Tofiq Mahmud kimi tanınmış yazıçılar jurnalın baş redaktoru, Yusif Hüseynov, Rafiq Mehdiyev, Rəşid Əmirov, Arif Hüseynov kimi tanınmış rəssamlar jurnalın bədii redaktoru vəzifəsində çalışıblar.

Xəlil Rza Ulutürk, Həbibə, Bayram Həsənov, Əbülfəz Hüseyni, Cahangir Məmmədov, Hikmət Ziya, Vaqif İbrahim və başqaları uzun müddət "Göyərçin" jurnalının redaksiyasında işləyiblər. "Gənc yazıçıların Respublika Ədəbi Birliyi" uzun müddət "Göyərçin" jurnalının redaksiyasında fəaliyyət göstərib. Bu jurnalın redaksiyasında, onun divarları arasında nə qədər görkəmli adamın nəfəsi, ruhu var. "Göyərçin" təkcə respublikamızda deyil, ümumittifaq miqyasında tanınan, seçilən bir jurnal olub. Ayrı-ayrı respublikaların uşaq jurnalları "Göyərçin"də çap olunan yazılara səxavətlə yer ayırıb həmişə. "Göyərçin" də öz

növbəsində dünyanın ən tanınmış yazıçılarının uşaqlar üçün yazdıqları şeirləri, hekayələri, nağılları dərc edib, onları Azərbaycan uşaqlarına sevdirib.

"Göyərçin" jurnalının redaksiyasına yazıçılar, rəssamlar, jurnalistlər işləri oldu, olmadı tez-tez gələr, buranın abhavasında durulanar, təzələnərdilər. Redaksiyamıza tez-tez gələn qələm sahiblərindən Məmməd Araz, Məmməd Aslan, Osman Mirzəyev, Tofiq Mütəllibov, Emin Mahmudov, Tofiq Ağayev, Nəriman Süleymanov və başqalarını təbəssümlə xatırlayıram. Onların redaksiya əməkdaşları ilə, xüsusilə də yumor ustası Hikmət Ziya ilə zarafatları yada düşdükcə indi də adamın üzünə təbəssüm qonur.

"Göyərçin" jurnalının redaksiyasına təzəcə işə girmişdim. Tofiq Mütəllibov mənim filologiya elmləri namizədi olduğumu bildiyindən çox ciddi şəkildə dedi:

– Rafiq, sən elmi dərəcəsi ola-ola nə ağılla "Göyərçin"də işləməyə razılıq vermisən?

Mən cavab verməyə macal tapmamış Hikmət Ziya dedi:

– Tofiq, elə bilirsən "Göyərçin"in redaksiyasına sənin kimi adi yazıçıları, şairləri işə götürürük? Yox, səhvin var. "Göyərçin"də işləmək üçün ən aşağısı komsomol mükafatı laureatı olmaq lazımdır.

Hikmət müəllim bunu deyib gülə-gülə Tofiq Mahmudu göstərdi. O vaxt Tofiq Mütəllibovun hələ heç bir fəxri adı, təltifi yox idi. Hikmət müəllim Əməkdar incəsənət xadimi, Tofiq Mahmud isə komsomol mükafatı laureatı idi...

"Göyərçin" jurnalı təkcə uşaqların mənəviyyatını, dünyagörüşünü inkişaf etdirməyə xidmət etməyib, eyni zamanda tədris-tərbiyə kompleksinin hazırlanmasında çox dəyərli, zəngin mənbə olmuşdur. Görkəmli maarif xadimi, pedaqoji elmlər doktoru, professor Zahid Qaralovun bu sözlərində böyük həqiqət vardır: "Biz inanırıq ki, "Göyər-

çin" jurnalı XXI əsrin də ən gözəl uşaq mətbuatlarından biri kimi balalarımızın təlim-tərbiyəsi işində müəllimlərin ən yaxın köməkçisinə çevriləcəkdir."

Yeri gəlmişkən onu da qeyd edim ki, mən jurnalda baş redaktor olandan sonra "Dədə Qorqud" dastanının məzmunu əsasında komikslər hazırlayıb nəşr etməyə başladıq. 14 nömrədə bu mövzuda komikslər çap etmişdik. Elə bu vaxt "Kitabi-Dədə Qorqud"un 1300 illiyini təntənəli surətdə qeyd etmək haqqında qərar çıxdı. Arif Hüseynovun təşəbbüsü ilə dastanın bütün boyları üzrə komiks mətnləri hazırladım. Orxan bu mətnlər əsasında rəsmlər çəkdi. Azərbaycan tarixində ilk dəfə olaraq komikslər kitabı nəşr edildi.

1984-cü ilin 15 iyununda, müdafiəmdə söylədiyim yekun sözündə qeyd etmişdim ki, şəxsiyyətin formalaşmasında mühitin rolu böyükdür. Mənim bir ədəbiyyatşünas kimi yetişməyimdə aspirantı olduğum Nizami adına Ədəbiyyat İnstitutunun, onun elmi əməkdaşlarının çox böyük rolu olub. Mirzağa Quluzadəni, Məmmədcəfər Cəfərovu, Yəhya Seyidovu, Qasım Qasımzadəni, Əkbər Ağayevi, Kamran Məmmədovu, Atif Zeynallını, Mirəli Seyidovu, Əziz Mirəhmədovu, Kamal Talıbzadəni, Yaşar Qarayevi, Şamil Salmanovu və başqalarını dərin minnətdarlıq duyğuları ilə xatırlayıram. Elə indinin özündə də bu institutla daim əlaqə saxlayıram. Gözəl tənqidçi, ədəbiyyatşünas, sadə, təvazökar bir insan kimi tanıdığım Yaşar Qarayev indi də mənim himayədarım, məsləhətçimdir. Mənim "Azərbaycan poeması: axtarışlar, perspektivlər" adlı monoqrafiyamın nəşrində Yaşar müəllimin böyük əməyi var. Kitabımın əlyazmasını oxuyub redaktə etdikdən sonra Yaşar müəllim mənə belə bir məktub yazmışdı:

"Əzizim Rafiq!

Monoqrafiyanı zövqlə, azalmayan maraqla oxudum. Xüsusən yaxın keçmişin böyük epik ənənəsinə verilən təhlil və qiymət metodoloji cəhətdən tarixi-elmi əhəmiyyət kəsb

edir. Nəzərə alsaq ki, "sovet poeması" (klassik anlamda) fenomeninə elmdə, estetikada təməl daşı qoyanlar indi özləri öz xidmətlərinə balta vurmaqla məşğuldur, onda bu əhəmiyyətin dəyəri birə on da artır. Xüsusən, S.Vurğunun, R.Rzanın ən böyük poetik "mən" konsepsiya, proqram əsərlərinə həsr etdiyin səhifələri epik ənənədə "sovet şedevrləri"nə günümüzün ən yaxşı nəzəri-estetik "bəraət sənədləri" kimi qəbul etmək olar. Bu irs uğrunda mübarizədə iştirak etmək üçün əsərin çapını sürətləndirmək lazımdır.

Məncə, əsərdə əhatə olunan poemanın, əsasən sovet dövrü təcrübəsidir: "əsr" sözünü başlığa çıxarmamaq olar. Dolğun, axıra qədər həllini tapan isə toxunduğun problemlərdən yalnız ikisidir: "konflikt" və "xarakter". Digər fəsil adlarını da ixtisar edib, mündəricatda və strukturda yalnız bu ikisini saxlamağa ehtiyac var. Portret, peyzaj, detal, təsvir vasitələri… – hamısı səni ona görə maraqlandırır ki, məhz konflikt və xarakterin açılmasında onların rolu nədən ibarətdir. Eləcə də müstəqil parçalar təsiri bağışlayan və tarixiliklə, folklorla əlaqəyə həsr olunan bölmələri də əsas problemin şərhi üçün zəruri olan halda saxlayıb, həmin iki fəsildə qaynadıb-qarışdırmaq lazımdır. İndiki halda bir müəllifdən, hətta bir əsərdən bir neçə yerdə və bir neçə münasibətlə danışılır. Nəticədə həmin müəllif və əsər barədə yaranmalı olan bütöv obraz, portret parçalanır, yarımçıq olur. Bir az orda, bir az burda…

Həm də aşkar təkrar təsiri bağışlayan səhifələr həcmi artırır. Hansı əsər konflikt probleminin açılmasına ən çox material verirsə, ondan tam halda və bir dəfə bu fəsildə danış, xarakter probleminin şərhinə daha çox qida verən ad və əsərləri həmin fəslə yığ. Üçüncü tərəfdən bu bir də ona görə lazımdır ki, tənqid, elm şeirdən, bədii təcrübənin özündən, nəzəriyyə praktikadan, poeziya poetikadan ayrılıb, hərəsi bir "suverenlik" təşkil etməsin. Ən mühüm problem-

ləri isə iki fəsil və bir giriş daxilində yarımbaşlıqlar kimi vurğulamaq olardı.

"Azərbaycan poeması: axtarışlar və perspektivlər" mövzusunda uğurlu ədəbi-fəlsəfi əsər – ELMİ POEMA münasibətilə səni təbrik edir, kitabın özünü gözləyirəm.

Hörmətlə, **Yaşar Qarayev**

**15.06.1998-ci il."**

Məhərrəm Qasımlı Yaşar müəllimdən mənim monoqrafiyamın səviyyəsini soruşanda o, məmnunluqla deyib:

– Dostumuz çox gözəl, səviyyəli bir tədqiqat əsəri yaradıb.

Açığını deyim ki, ədəbiyyatşünaslığımızın çox görkəmli nümayəndəsindən, "Belinski"sindən bu sözləri eşitmək mənim üçün xoş idi. Deməli, illərlə çəkdiyim zəhmət havayı deyilmiş...

Yeri gəlmişkən onu da deyim ki, ədəbi ictimaiyyət mənim monoqrafiyamı çox yaxşı qarşıladı. Tənqid haqqında keçirilən müşavirədə Anarın monoqrafiyamı dönə-dönə tərifləməsi, əsərin elmi səviyyəsindən, obyektivliyindən danışması məni fərəhləndirdi. Bəxtiyar Vahabzadənin, Qabilin, Fikrət Qocanın, tənqidçi Arif Əmrahoğlunun söylədikləri xoş sözlər mənim sevincimi daha da artırdı. Dostum Nizami Xudiyev dedi ki, sovet dövründə belə əsərlə çıxış etsəydin, sənə heykəl qoyardılar...

Ədəbiyyat institutunda ilin ədəbi yekunlarına həsr olunmuş elmi konfransda tənqidçi Qurban Bayramovun mənim yaradıcılığım haqqında söylədiyi xoş sözlər də yaradıcılıq sevincimi artırdı.

Yazıçılar birliyində uşaq ədəbiyyatına həsr olunmuş müşavirədə Əzizə Əhmədovanın ünvanıma söylədiyi xoş sözləri də mənə çatdırdılar.

Ələviyyə Babayeva da məni həmin iclasda çox tərifləyib, “Göyərçin”in işində əməlli-başlı dönüş olduğunu Tahirə İsgəndərovaya söyləyib.

Əlbəttə, adamın əməyinə verilən qiymət onu fərəhləndirir, daha böyük enerji ilə yazıb-yaratmağa həvəsləndirir. Ömrün əllinci baharına qədəm qoyan bir adamın dönüb keçdiyi yollara baxması, ömründən-günündən yadigar qalan izləri iftixarla seyr etməsi təbii haldır.

Mən müxtəlif məktəblərdə dərs demişəm. Artıq yetişdirmələrimin sayını, hesabını itirmişəm. Taleyimdə izi olan bir elm-təhsil ocağı haqqında da söhbət açmaq istəyirəm: Sumqayıt Pedaqoji Seninariyası.

Bu məktəbin açılması haqqında ilk xəbəri dostum İbrahim Kazımov verib və mənə deyib ki, seminariyanın direktoru Mönsüm Alışov səninlə görüşmək istəyir.O vaxt mən Mönsüm müəllimi tanımırdım. Sonra öyrəndim ki, bacarıqlı, işgüzar bir insandır. Sən demə seminariyanı açmaq təşəbbüsü göstərilərkən burada dərs deyəcək müəllimlərin siyahısında mənim də adımı yazıbmışlar.

1993-cü ildən Sumqayıt Pedaqoji Seminariyasında ixtisas fənnindən, uşaq ədəbiyyatından mühazirələr oxumağa başladım. Mühazirələrimin mətni əsasında bir dərslik yaratdım. “Şirvannəşr”in direktoru Qəşəm İsabəyli onu nəşr etmək istəyirdi. Ancaq maddi vəsait çatışmazlığından bu iş yarımçıq saxlanıldı. İndi də mənim dərsliyim qeyrətli sponsorların yolunu gözləyir.

Yeri gəlmişkən onu da qeyd eləyim ki, mənim bir çox kitablarımın nəşrinə təmənnasız yardım göstərən yeganə insan Tofiq Hüseynov olub. Onun mərdliyi, səxavəti, təvazökarlığı, səviyyəsi, böyük-kiçik yeri bilməsi, qohumcanlılığı, vətənpərvərliyi hər adama nəsib olan xüsusiyyət deyil.

Gələcəyin müəllimi olacaq tələbə qızlara dərs deməyim, onlarla ünsiyyətim mənim yaradıcılığımda sevgi lirikasının yeni çalar kəsb etməsinə zəmin yaratdı. Oxucularımla canlı

ünsiyyət, onların arzu və düşüncələri, ata-analarına deyə bilmədikləri sirri mənə etibar etmələri şeir “karxanamı” boş qalmağa qoymadı, şeir “dəyirmanım” daim su ilə təmin edildi. Bunun üçün bütün tələbələrimə, məni sevənlərin hamısına dərin minnətdarlığımı bildirirəm. Mən elə xoşbəxtlərdənəm ki, müəllim kimi, şair kimi, insan kimi, dost kimi, sirdaş kimi sevilirəm. Həyatımın mənasını təşkil edən bu sevgi məni daha böyük həvəslə yazıb-yaratmağa səsləyir.

Bu dünyada dost sarıdan da korluğum olmayıb. Eldar Baxışla, Ağəddin Mansurzadə ilə, Məmməd Namazla, Tofiq Məmmədlə, Əşrəf Veysəlli ilə, Xasay Cahangirovla, Musa Ələkbərli ilə, Məhərrəm Qasımlı ilə, Vilayət Quliyevlə, Vasif Quliyevlə, Tofiq Xəlilovla, Ələddin Əsədovla, Şamxəlil Məmmədovla, Zahir Əhmədovla, Cavanşir Rəsulovla, Fərhadla, Dövlətlə, Kamranla, Nizami Xudiyevlə, Nizami Abbasovla, Nazim Yusibovla, Əlimövsüm Heydərovla, Elxan Məmmədovla, İxtiyarla, Ağakərimlə, Tahir Feyziyevlə, Akif Allahverdiyevlə, Kərim Məmmədovla, Fazil Muradovla, Yavərlə, Hüseyn Qəribovla, Məmmədəli müəllimlə, Vahid Əlirzayevlə, Ədalət Əsədovla, Vaqif Qurbanovla və onlarla başqaları ilə bağlı xoş xatirələrim var.

Hikmət Ziya, Tofiq Mahmudla Qubadlıya; Hikmət Ziya, Nəriman Süleymanovla Hacıkəndə; Eldar Baxışla, Müsa Ələkbərli ilə Xanlara; Məmməd Namazla Cəbrayıla, Qubadlıya, Yevlağa, Qəbələyə, Goranboya, Mingəçevirə, Tovuza; Hikmət Ziya və Azad Talışoğlu ilə İmişliyə; Zahid Xəlillə, Məmməd Namazla İsmayıllıya, Kürdəmirə; Nurəddin Əliyevlə Astaraya, Lənkərana; Misir Alarlı ilə, Məmməd Namazla Yardımlıya, Cəlilabada; Məhərrəm Qasımlı, Vilayət Quliyev, Tofiq Xəlilov, Ələddin Əsədov və Vasif Quliyevlə Moskvaya, Zahid Xəlillə Qazaxıstana; Zahid Xəlil və Eldar Baxışla Yevlağa, Əli Bayramlıya; Tofiq Mahmudla İmişliyə, Kürdəmirə, Sabirabada; Nazim Yusibovla Moskvaya, Şəkiyə, Oğuza; Tahir Feyziyevlə Qafana,

Çayzəmiyə; İxtiyarla Qaragölə, Gorusa... səfərlərim xoş xatirələr kimi yadımda qalıb.

Ailəvi səfərlərimiz də ömrümüzün ən yaxşı günləri kimi yadda qalıb. Dostum Arif Rəcəbovun ailəsi ilə birlikdə Hacıkənddə, Ukraynada, Çerkassıda, Dnepr sahilindəki Sokirno qəsəbəsində; dostum Səmid Saliqovun ailəsi ilə birlikdə Qubada, dostum Rəşid Babayevin ailəsi ilə Qusarda, Qayabulaqda, Ləzədə keçirdiyimiz günlər unudulan deyil...

Təbiətin əsrarəngiz mənzərələri məni həmişə heyran qoyub. Məni doğma Qubadlının bütün kəndlərinə aparıb gəzdirən dostum İxtiyarı həmişə minnətdarlıqla xatırlayıram. Elə bil ürəyimə dammışdı ki, nə vaxtsa bu yerlərin üzünə həsrət qalacağam. Xınzirəkdə yeyib-içəndən sonra İxtiyarı məcbur etdim ki, Gorus, Çayzəmi tərəfdən Qubadlıya qayıdaq. Ağakərimlə Tahir də bizimlə idilər. Son dəfə gecənin qaranlığında doğma yerləri seyr edirdim. Elə bil qəlbimin işığı bu gözəl mənzərələri daha aydın görməyə yardımçı idi.

Göygölə, Maralgölə gedəndə, kəklikotu, qantəpər dərəndə, Dneprdə katamaranla üzəndə, Qubada yağışın altında kabab çəkəndə, Bərgüşadda, Həkəridə, Ağaçayında çiməndə, balıq tutanda bəxtiyarlar bəxtiyarı idim...

1998-ci ilin avqust ayında Rəşid müəllim bizi ailəlikcə Qayabulağa qonaq apardı. Qusarın meşəsi, çayı, göylərə baş çəkən dağları mənə doğma Qubadlını xatırladırdı. Anarla Qusarçaydan balıq tutanda hərdən mənə elə gəlirdi ki, Bərgüşadın sahilindəyəm. Qarmağımı balıq tərpədəndə ürəyim də həyəcanla döyünürdü...

***

Mənim sənətə estetik münasibətimin formalaşmasında oxuduğum bədii, elmi əsərlərlə bərabər, babam Nuşirəvan Kərimovun, Qasım Qasımzadənin, Əhəd Hüseynovun, İsmayıl Şıxlının, Məmməd Arazın, Tofiq Bayramın və

başqalarının olduqca böyük təsiri olub. Şeirin ibtidai qaydalarını babamdan – Nuşirəvan müəllimdən öyrənmişəm. Təntənəli, pafoslu mövzulardan qaçıb təbiət təsvirlərinə üstünlük verməyimdə Qasım Qasımzadənin məsləhətləri karıma gəlib. Əhəd Hüseynovun, İsmayıl Şıxlının ədəbiyyat haqqında oxuduqları mühazirələrdən başqa, şəxsən mənim yazılarım haqqında söylədikləri fikirlər məni ədəbiyyat haqqında ciddi düşünməyə vadar edib. Öz yazılarım haqqında ən sərt sözü isə Tofiq Bayramdan eşitmişəm.

Məmməd Araz "Ulduz" jurnalında şeir şöbəsinin müdiri işləyirdi. Həmişə onun yanına gedib şeir oxuyar, məsləhətlər alardım. "Bir qurumuş ağac gördüm, qara saçda ağ tük kimi" – şeirlərimin birində olan bu misranı tərifləyən Məmməd Araz həmişə poetik bənzətmələrlə dolu şeirlər yazmağımı məsləhət görərdi.

Məmməd müəllim "Ulduz"da çap olunmaq üçün bir neçə şeirimi seçib götürmüşdü. Ancaq şeirləri çap etməmiş, onu məsul katib qoydular. Təzə şeir şöbəsinin müdiri Tofiq Bayram isə həmin şeirləri oxuyub bəyənmədi. "Bu yerlərin suyundan gəl içək" misrası ilə başlayan ritmik bir şeirimi seçib götürdü, onu da baş redaktor bəyənmədi. Ancaq ruhdan düşmürdüm. Hər dəfə Tofiq Bayrama, Qabilə təzə yazdığım şeirləri aparırdım. Nəhayət, ilk şeirlərim bəyənilməyə başladı. Tofiq Bayram "Düz-əyri", "Pisqaryovda bir heykəl var" şeirimi "Ulduz" jurnalında, Qabil "Palıd ağacı" şeirimi "Ədəbiyyat qəzeti"ndə çap elətdirdi. Bundan sonra müntəzəm surətdə həmin mətbuat orqanlarında şeirlərimlə çıxış eləməyə başladım. Qabilin, Tofiq Bayramın şeirlərimi tərifləmələri məni qanadlandırırdı. Onların tənqidi isə məni yeni-yeni axtarışlara sövq edirdi. Tərifdə həmişə xəsis olan Tofiq Bayramın "Gərək elə yanım" kitabını avtoqrafla mənə bağışlaması sevincimi qat-qat artırmış, məni daha ciddi

şəkildə yaradıcılıqla məşğul olmağa həvəsləndirirdi: “Dostum Rafiqə ən xoş həyat və yaradıcılıq arzuları ilə. Qoy sənin təmiz poetik nəfəsin həmişə uğurlu, həmişə sevindirici olsun! Hörmətlə, Tofiq Bayram”.

Ünsiyyətimiz, şeir-sənət haqqında söhbətimiz Tofiq Bayramla məni dostlaşdırmışdı. Hər məni görəndə deyirdi: “Usuboğlu, millətin kasıb oğlu”. Çox vaxt bir yerdə yeyib-içir, söhbət edirdik. Bir dəfə Tofiq Bayram, Malik Fərrux, adlarını unutduğum bir neçə başqa adam bulvarda gəzişirdik. Necə oldusa söhbət yaşdan düşdü. Tofiq müəllimdən soruşdular ki, Malikin neçə yaşı olar? Dedi ki, 21-22. Malik məndən bir neçə yaş böyük idi. O, Tofiq Bayramdan soruşdu ki, bəs Rafiqin neçə yaşı olar? O, diqqətlə üzümə baxdı və dedi ki, ə, bu qoca qurddu...

Hamımız gülüşdük. Sonra, 17 oktyabr 1970-ci ildə mən “Yaşım az olsa da” adlı bir şeir yazdım. Orada belə misralar var idi: “Yaşlı bir şair də söhbət zamanı zarafatla mənə qoca qurd, – dedi”. Onda mənim 20 yaşım var idi. İndi isə 50 yaşımın tamam olmağına az qalıb. Onda mənim cavan olduğuma inanmadıqları kimi, indi də 50 yaşımın tamam olmağına inanan yoxdu. Deyirlər ki, çox cavan görünürsən, sənin 50 yaşın ola bilməz. Dərs dediyim qızlar deyirlər ki, müəllim, gözəllər, bir də dəniz Sizi cavan saxlayıb.

Tofiq Bayram ağır xəstə idi, infarkt keçirmişdi, gözlərinin də görmə qabiliyyəti bir az azalmışdı. Tofiq Mahmud, Hikmət Ziya və mən onu yoluxmağa getmişdik. Onlar danışırdılar, mən isə səsimi içimə salıb dinləyirdim. Birdən Tofiq Bayram Hikmət müəllimdən soruşdu:

– Ay Hikmət, sizinlə gələn bu oğlan kimdi?

Hikmət müəllim dedi ki, tanımadın, Rafiq Yusifoğludu. Tofiq Bayram gözləmədiyimiz halda həyəcanlandı, yatağından qalxıb məni öpdü, ay sənə qurban olum, – dedi. Hikmət

Ziya ilə Tofiq Mahmud təəccübləndilər. Tofiq Mahmud özünəməxsus tərzdə bərkdən gülə-gülə dedi:

– Tofiq, heç bilmirdim ki, sən Rafiqi bu qədər çox istəyirsən...

Tofiq Bayram dedi:

– Nə danışırsan, biz Rafiqlə o qədər maraqlı günlər keçirmişik ki...

Mənim uşaq ədəbiyyatı ilə ciddi məşğul olmağımda Tofiq Mahmudla Hikmət Ziyanın çox böyük əməkləri var idi. Mən həmişə çalışırdım ki, redaksiyaya apardığım yeni şeirlərlə onları heyrətləndirim. Heç bir söz deməsəm də, buna nail olmağım məni həddindən artıq sevindirir, daha yaxşı, yeni tipli, obrazlı uşaq şeirləri yazmağa həvəsləndirirdi.

Ayrı-ayrı məqalələrimdə, müsahibələrimdə, televiziyada, radioda çıxışlarımda uşaq ədəbiyyatı haqqında öz mülahizələrimi söyləmişəm. Üzə vurmasam da qeyri-adi uşaq şeirlərimlə özüm də fəxr etmişəm. Sevinmişəm ki, mənim qəhrəmanlarım hər şeyə, hər predmetə, əşyaya poetik gözlə baxmağı bacarırlar. Yazda meşələr yaşıllaşanda mənim balaca qəhrəmanım düşünür ki, təbiət insanların yolunun üstündə yaşıl işıq yandırıb. Mənim qəhrəmanım paraşütü uçuşun sonundakı nidaya, dalğaları ağ bayrağa, üçrəngli bayrağımızı "azadlıq yağışından yaranan göyqurşağına, antenanı tilova bənzədir. Mənim balaca qəhrəmanlarım tilovu çox sevirlər. "Trolleybus" şeirimin qəhrəmanı deyir ki, trolleybusu ona görə xəttə bağlayıblar ki, yoldan çıxıb adamları tapdamasın. "Bibər" şeirimin qəhrəmanı ona görə bu sözü tələffüz etmək istəmir ki, birdən ağzı acı olar... "Oğlumla telefon söhbəti" şeirimin qəhrəmanı məktəbə getmək istəmir, deyir ki, bizim müəllim heç nə bilmir, hər şeyi bizdən soruşur.

Uşaqlar əvvəlindən axırı görünməyən, novellavari şeirləri çox xoşlayırlar. Mənim "Ağ yolların yolçusu", "Sehrli vağzal", "Sehrli qazan", "Şirin yağış" və s. kimi şeirlərim məhz gözlənilməz sonluqla bitir.

Ümumiyyətlə mən hay-küyçü poeziyanı sevmirəm. Mənə elə gəlir ki, şeir zərif, incə, məna tutumlu olmalıdır. Şeirdəki ritmi, ahəngdarlığı da çox mühüm şərt hesab edirəm. Obrazlı ifadələr, bir-birinə bənzəməyən qafiyələr, sətiraltı məna şeir üçün çox vacib əlamətlərdir. Poetikanı yaxşı bildiyimdən, öz şeirlərimi ləzzətlə oxuyuram. Yazılarımdakı obrazlar sistemi bəzən özümü də heyrətləndirir. Düşünürəm ki, görən bunları mən necə yazmışam?

Gözəl mahnıları çox xoşlayıram. Mənə elə gəlir ki, mahnının mətni çox vacib şərtdir. Düşünürəm ki, şeir canlı bir varlıqdır, musiqi isə onun əynindəki sehrli bir dondur. Gözəl mətn gözəl musiqi ilə yoğrulub, müğənninin ecazkar səsi ilə dinləyiciyə çatanda möcüzəli bir aləm yaranır. Ancaq çox təəssüf ki, son vaxtlar efirdə çox bayağı mahnılar səslənir. İstedadsız şairlərin, bəstəkarların, müğənnilərin yaratdıqları "əsər"lər oxucuların, dinləyicilərin, tamaşaçıların zövqünü korlayır. Bəzən istedadlı bəstəkarların istedadsız qələm sahiblərinin əsərlərinə müraciət etmələri məni təəccübləndirir. Hətta gözəl musiqi belə primitiv mahnı mətnlərini ört-basdır edə bilmir. Elələri də var ki, musiqini də özü yazır, şeiri də. Adam belə mahnıları dinləyəndə lap dəhşətə gəlir.

Mənim şəxsən tanış olduğum ilk bəstəkar yaradıcılığına, insanlığına hörmət bəslədiyim Elnarə Dadaşovadır. Onunla Hacıkənddə tanış olmuşduq. Sonradan bu tanışlıq dostluğa çevrildi. Elnarə xanım mənim sözlərimə bir neçə mahnı bəstələdi: "Sülh məşəli", "Şaxta baba", "Qar qız"... Birinci mahnını dinləmişəm. O biri mahnılar isə "səslərini"

eşitmədiyim, ancaq mənim şəxsi hesabıma xeyli qonorar gətirən mahnılar olub.

Sonralar Cəlal Abbasov bir neçə uşaq şeirimə mahnı bəstələyib. Gənc bəstəkar Qismət Əliyevin mənim sözlərimə bəstələdiyi "Baxışlar" mahnısını Yaqut Babayeva ifa eləyib. Ancaq mənim ilk populyar mahnım Cavanşir Quliyevin bəstələdiyi "Təzə il" mahnısıdır. Bu mahnını 1997-ci ilin yeni il şənliyində çox istedadlı müğənnilərin birlikdə oxumaları sevincimi daha da artırdı. Mirzə Babayev, İlhamə Quliyeva, Nisə Qasımova, İslam Rzayev, Brilyant Dadaşova və Azər Zeynalovun ifa etdikləri bu mahnı tamaşaçıların çox xoşuna gəldi.

Mənim məhəbbət şeirlərimdə lirik ovqat çox güclüdür. Onların əksəriyyətindən gözəl mahnı çıxa bilər. Televiziyada işləyəndə Dünya ilə Gözəl bu şeirləri böyük maraqla oxuyurdular və deyirdilər ki, nə əcəb bu şeirlərə mahnı bəstələtmirsiniz? Dünya mənə deyirdi ki, Rafiq müəllim, inanın, tam səmimi deyirəm, – Allah səmimi olmayanı öldürsün, – Sizin şeirlərinizi oxuyandan sonra sevdiyim bir çox şairlərin şeirlərini oxuya bilmirəm.

Mənə bir şey də ləzzət eləyirdi ki, dostlarım mənim lirik şeirlərimi telefonla qızlara öz şeirləri kimi oxuyur, onların könlünü alırmışlar. Konkret desək, Məhərrəm Qasımlının, Asif Asimanın bu "təcrübə"sindən digər qələm sahibləri də istifadə ediblər.

Dünya mənim bir neçə şeirimi götürdü ki, bunlara mütləq mahnı bəstələtdirəcəyəm. Aradan bir müddət keçdi. Vüqar Əhməd mənə dedi ki, Nailə və Hikmət Mirməmmədlilər sənin 5 şeirinə mahnı bəstələyiblər. Təəccübləndim və sevindim. Hikmət özü də zəng edib mənə bu haqda məlumat verdi. Sonra dedi ki, vaxtınız varsa, telefonda bir mahnınıza qulaq asın. Nailə xanımın ifasında "Aşiqmi

oldum" mahnısı mənə çox xoş gəldi. Sonra Hikmət gəlib məni evlərinə apardı. Əli Nəcəfxanlı da mənimlə birlikdə getmişdi. Hikmətgilin həyətində oturub çay içə-içə söhbət elədik. Tale məni son dərəcə istedadlı bəstəkarlarla – Hikmətlə, Nailə xanımla beləcə tanış etdi. Nailə mənim mahnılarımı elə gözəl ifa edirdi ki, özümü möcüzəli bir diyarda hiss edirdim. Sonralar bu mahnılar İlhamə Quliyeva, Ağadadaş Ağayev, Zöhrə Abdullayeva, Şamil Kazımov və Mehriban Məhərrəmovanın ifasında efirə "vəsiqə" aldı, dinləyicilərə xoş ovqat bəxş elədi...

Bir dəfə dayım qızı Rəna həyat yoldaşı Bəhruzla, uşaqları Mais və Aygüllə bizə qonaq gəlmişdi. O dedi ki, sənin sözlərinə Nailə Mirməmmədlinin bəstələdiyi bir mahnını "Sara"da eşitdim. Ancaq Kəmaləyə zəng edib Rafiqin mahnısına qulaq as dediyim üçün heç özüm mahnıya düz-əməlli qulaq asa bilmədim.

Səhərisi gün işdən Nailə xanıma zəng elədim, hansı təzə mahnının səsləndiyini soruşdum. O dedi ki, "Sara"da səslənən son mahnının hansı olduğunu söyləyə bilmərəm, ancaq Sizin "Sevgidə geriyə yol yoxdu axı" şeirinizə gözəl bir mahnı bəstələmişəm. Özü də bilirsiniz kim ifa edəcək, gürcü qızı Manana!

Mən güldüm. Nailə xanım səbəbini soruşdu. Dedim ki, Mananaya bir şeir yazmışam. O, ilk dəfə kinoklub verilişində gürcü dilində mahnı oxuyanda o qədər xoşuma gəldi ki... Gürcülərlə çox ünsiyyətdə olmuşam. Ancaq nədənsə bu vaxta qədər mənə elə gəlirdi ki, gürcü dili qeyri-musiqili, kobud dildir. Mananaya qulaq asandan sonra isə heyrətləndim. Onun özü də, səsi də, mahnısı da, adı da o qədər xoşuma gəldi ki, "Manana" adlı bir şeir yazdım.

Sonra həmin şeiri Nailə xanımın xahişi ilə telefonda oxudum. Çox xoşuna gəldi. Dedi ki, Manana hər gün mah-

nını məşq eləməyə gəlir. Dinlədiyi mahnıların içindən sənin sözünə bəstələdiyim mahnını seçdi. İndi sözləri dəqiq öyrənmək, mənasını başa düşmək üzərində işləyir.

Şeiri Nailə xanıma apardım. Dedi ki, üstünə avtoqraf yaz. Köməkləşib rusca bir avtoqraf mətni toqquşdurduq.

Növbəti dəfə Nailə xanımgilə gedəndə dedi ki, şeir Manananın o qədər xoşuna gəldi ki, sevincindən kövrəlib ağladı...

Sonra Nailə xanım Manananın ifasında təzəcə lentə köçürülmüş mahnısını mənə hədiyyə etdi. Kinoklubda Manana lalələrin arasında mənim sözlərimə bəstələnmiş "Sevgidə geriyə yol yoxdu axı" mahnısını elə məharətlə ifa etdi ki...

Doğrudan da, nə sevgidə, nə də həyatda geriyə yol yoxdu. Günlər atını dördnala çapır. Üzü gələcəyə getsək də, boylanıb arxaya, keçdiyimiz yollara həsrətlə baxırıq.

Qazaxıstanda Riqadan olan şair Albert Loçmelislə tanış olmuşdum. O, mənim şeirlərimi böyük maraqla oxuyur, tərifləyirdi. Bir otaqda qalırdıq. Səhər tezdən yuxudan duran kimi deyirdi: "Həyat davam edir"...

İndi də səhər-səhər yuxudan duranda istər-istəməz Albertin həmin sözləri yadıma düşür...

Yeri gəlmişkən onu da deyim ki, Moskvada uşaq ədəbiyyatı ilə bağlı keçirilən üç ümumittifaq seminarında iştirak etmişəm. Xoşbəxtəm ki, sovet məkanında yazıb-yaradan uşaq yazıçılarının əksəriyyəti ilə şəxsən tanış olmuşam. Bu seminarlar mənim uşaq ədəbiyyatına münasibətimi əhəmiyyətli dərəcədə dəyişib. Həmin seminarlar haqqında mətbuatda məqalələrlə çıxış etmişəm. Ona görə bu haqda geniş danışmaq istəmirəm. Təkcə onu qeyd edim ki, 1982-ci ildə ilk seminar vaxtı türk xalqlarının yazıçılarını öz başıma topladım. Türkçülük haqqında elədiyim söhbətlər

onları heyrətləndirdi. Hamımız bir otağa yığışıb yeyib-içəndə dedim ki, onsuz da heç birimiz rusca düz-əməlli danışa bilmirik. Gəlin hamımız öz dilimizdə danışaq, öz dilimizdə şeir oxuyaq.

Qəribə bir gecə idi. Müəyyən dil-ifadə çətinlikləri anlaşılmazlıq yaratsa da, hamı bir-birini başa düşürdü.

Özbək ədəbiyyatşünası Xasanbay Kayumov qardaşım Bəxtiyara deyirdi ki, Rafiq çox böyük adamdı. Qardaşım isə gülürdü, qardaşımı mənə tanıdırsan? – deyirdi.

Üç dəfə dalbadal Moskvada ümumittifaq seminarında iştirak etməyim mənə çox şey öyrətdi. "Günəş" jurnalının redaktoru, dostum Vasif Quliyevlə Moskvada bir aylıq kursda olduğumuz günlər də maraqlı, yaddaqalan idi.

1989-cu ildə Zahid Xəlillə Qazaxıstanda beynəlxalq uşaq ədəbiyyatı günlərində iştirak etdik. Mən Alma-Ataya uçdum, yazıçılar ittifaqına çatandan sonra səhər-səhər dostum Beken İbrahimova zəng etdim. Təəccübləndi. Bilındə ki, Alma-Atada, Yazıçılar İttifaqındayam, tez yanıma gəldi. Riqalı şair Albert Loçmelis də mənimlə birlikdə Taldı Kurqana getməli idi. Yazıçılar ittifaqından xahiş elədilər ki, Beken onu da mənimlə aparsın. Beken bizə öz həyət evlərində gözəl qonaqlıq verdi, beşbarmaq qonaqlığı. Ancaq biləndə ki, xörək at əti ilə bişirilib, iştahım küsdü. Beken bunu başa düşən kimi mənə güldü. O, bizi Taldı Kurqana yola saldı.

Taldı Kurqanda bizi qruplara böldülər. Eston ədəbiyyatşünası Aurila Vinsas, qırğız şairi Xəyalbəy Urmanbetov və mən Təkəli şəhərinə yollandıq. Çox maraqlı görüşlərimiz oldu. Rus dilində çıxışlarımın maraqla qarşılanması özümə də təəccüblü gəldi. Şəhər rəhbərləri mənə deyirdilər ki, lap Mayakovski kimi şeir oxuyursan. Dinləyicilər xahiş edirdilər ki, Azərbaycan dilində şeir oxuyum. Şeirlərin mənasını

başa düşməsələr də, onun ritmi tamaşaçıların, həm də Albert Loçmelisin çox xoşuna gəlirdi.

Alma-Ataya qayıdanda Moytəpə (yağlı təpə) deyilən yerdə bizə yaxşı qonaqlıq verdilər. Süfrədə nə desən var idi. Sən demə qazaxların zəngin milli mətbəxi var imiş.

Yazıçılar qrupuna məşhur uşaq şairi Roman Sef rəhbərlik edirdi. Valentin Berestov, Yakov Akim, Volt Suslov, Sergey İvanov, Leonid Yaxnin və başqaları da bizimlə idilər. Sergey Maxotinlə də Alma-Atada tanış olub dostlaşdıq. O, mənim bir neçə şeirimi rus dilinə tərcümə etdi.

Dostum Sultan Kaliyev Zahid Xəlillə mənə Alma-Atada yaxşı bir qonaqlıq verdi.

Qazaxıstandan zəngin səfər təəssüratı ilə qayıtdıq. Bu haqda mənim "Ədəbiyyat qəzeti"ndə məqaləm çıxdı.

Rəhmətlik Eldar Baxışla daim ünsiyyətdə olurduq. Bir-birimizə öz yeni şeirlərimizi oxuyur, sənət haqqında söhbətlər edirdik. Mağazadan dünya poeziyasının görkəmli nümayəndələrinin əsərlərini alır, onları acgözlüklə oxuyur, müzakirə edirdik. Radioda səslənən "Tərcümə saatı" üçün şeirlər tərcümə edirdik. Mənim diqqətimi ən çox özünə cəlb edən şair Federiko Qarsia Lorka idi. Onun şeirlərini mətbuat üçün yox, elə özüm üçün tərcümə edirdim. Həmin tərcümələri Məmməd Namaza, Eldar Baxışa oxuyurdum. Məmməd Namaz zarafatla deyirdi ki, o gədiyi də (gədəni) tərcümə eləyib öz gününə saldın.

Mən soruşanda ki, hansı gədəni deyirsən, cavab verdi ki, "Larisa Qorkuyu"...

Ancaq etiraf edim ki, Məmməd dili bilməsə də, ağıllı məsləhətlər verirdi. Beləliklə, Lorkanın 3 müəllif vərəqi həcmində şeirlərini dilimizə tərcümə etdim. Həmin şeirlər radioda, televiziyada səsləndi, mətbuatda dərc edildi. 100 cildlik dünya ədəbiyyatı kitabxanasının cildlərinin birində

Qarsia Lorkadan mənim tərcümələrimi vermək planlaşdırılmışdı. Tərcümələr haqqında müsbət rəy də yazmışdılar. Ancaq sovet hökuməti dağılandan sonra, bir çox nəşrlər kimi 100 cildlik də öz fəaliyyətini dayandırdı.

İndi mənim çap olunmamış xeyli tərcümələrim var. Sağlıq olsun, imkan olsa, tərcümələrdən ibarət kitab çap etdirdim bəlkə də...

Eldar Baxışla tez-tez görüşlərə bir yerdə gedərdik. Mənim zövqümə çox inandığından məsləhətlərimə həmişə qulaq asırdı. Məclislərdə bəzən çox açıq-saçıq danışanda mən işarə eləyən kimi, yaxud ayağını basan kimi özünü yığışdırırdı. Dostları həmişə onu xəsis kimi tanıyırdılar. Ancaq Eldar həmişə mənim üçün əli əsmədən pul xərcləyər, yaxud zorla dartıb evlərinə aparardı. Elə olurdu ki, gecə səhərəcən qarşı-qarşıya oturub içə-içə söhbət edərdik. Özü də hər dəfə içəndə mənə sağlıq, bir-birini təkrar etməyən sağlıq dedirtdirərdi.

Onun haqqında bir neçə məqalə yazmışdım. O da mənim haqqımda yaxşı bir məqalə yazmaq istədiyini söyləyirdi. "Aylı çığır" kitabımı əlinə alanda demişdi ki, mənim bu boyda kitabım çıxsaydı, dərdim olmazdı. Ancaq təəssüf ki, Eldar həmin kitab haqqında yazmağa macal tapmadan dünyasını dəyişdi. Ondan mənə yadigar qalan "Ağ saçların işığı" kitabına yazdığı avtoqrafdı: "Xətrini yer üzündə ən çox istədiyim, şair dostum, eloğlum, həmdərdim, həmsevincim Rafiq Yusifoğluna xatirə olaraq. Eldar Baxış, 1985".

1999-cu ildə Eldar Baxışın Yazıçılar Birliyinin Natəvan klubunda keçirilən xatirə gecəsində çıxış edərkən mən onu Dəli Domrula bənzətdim. Heç kəsə boyun əyməyən, Əzrayıla diz çökən Dəli Domrula. Dedim ki, Eldar vaxtilə bir şeir yazmışdı: "Dünya bir futbol topu ola, atasan Pelenin ayağına, vura həqiqətin qapısına." Ömrü boyu həqiqət axtarı-

şında olan Eldar Baxışın özü də bir azadlıq heykəlinə döndü, məzarının baş daşında öz vəsiyyəti ilə "Azadlıq" sözü həkk edildi.

Dərd adamı şair edərmiş. Eldar Baxışın həyat yoldaşı Həcər xanımın bu haqda yazdığı şeirlər məni lap kövrəltdi, heyrətləndirdi. Bu cür misraları Həcər yox, yalnız Eldar yaza bilərdi. Elə bildim həmin misraları Həcərə yazdıran elə Eldar Baxışın ruhudu...

Eldar Baxışın xatirəsinə həsr olunmuş tədbir qurtaranda bir ağsaqqal kişi mənə yaxınlaşdı. Dedi ki, mən Məlik Əhmədli kəndində müəllim işləyən Həsənov Hüseynəm. Atan mənim müəllimim olub. O, son dərəcə gözəl, xeyirxah insan, tanınmış müəllim idi. Mən atan haqqında bir şeir yazmışam, onu sənə göndərəcəyəm.

Bir dəfə redaksiyaya gələndə gördüm ki, stolumun üstündə bir konvert var. Açıb oxudum. Aydın oldu ki, Hüseyn müəllimin atam haqqında yazdığı şeirdi. Həmin yazıya heç bir düzəliş etmədən çap etmək qərarına gəldim.

"Dağlar oğlu, gözəl insan, ən ali valideyn, müəllimlər müəllimi olan riyaziyyat müəllimim, mərhum Yusif müəllimə ithaf edirəm.

Ulu kənd var idi, Çardaxlı kəndi,
Yaman qəribsevər, qonaqpərvərdi.
Nahaq deyilmirdi ziyalı kəndi.
Müəllim var idi, Yusif müəllim,
Onun biliyiylə fəxr eləyirdim.
Onun alim, həkim, müəllim olmuş
Şagirdləri indi kamala dolmuş.
Haça dilli ayğır atı minərdi,
Nal səsindən dağlar, daşlar dinərdi.
Hərdən bir ki, cilovunu çəkərdi,
Səmənd ayğır kəklik kimi səkərdi.

Nalladardı, tumarlardı atını,
Bol edərdi arpasını, otunu.
Yəhərini, yüyənini yağlardı,
Üzəngisi gümüş kimi parlardı.
Əldə jurnal o, sinfə ki girərdi,
Yazı taxtasını təmiz görərdi.
Danışıb sinifə nur ələyərdi,
Çətin məsələlər həll eləyərdi.
Şagirdləri özünə cəlb edərdi,
Qəlbimizə işıq salıb gedərdi.
Biliyini uşaqlara verərdi,
Şagirdləri instituta girərdi.
Zəhmətinin bəhrəsini görərdi,
Əkdiyi ağacdan nübar dərərdi.
Heyf, vaxtsız dünyasını dəyişdi,
Gözümüzdən damcı-damcı yaş düşdü.
Şagirdləri hönkür-hönkür ağladı,
Vaxtsız əcəl sinəmizi dağladı.
Müəllim, məzarın nur ilə dolsun,
Yerin cənnət olsun, ruhun şad olsun.
Səni sevənlərin gözləri doldu,
Üççə gün keçmədi, möcüzə oldu.
Ayğır hey kişnəyib dizin qatladı,
Sahibsiz dözməyib bağrı çatladı.

Hüseyn müəllimin bu yazısı şeir kimi zəif olsa da, onun atama münasibəti qəlbimi iftixar hissi ilə doldurur. Ümumiyyətlə, bizim nəsil haqqında, babalarım, nənələrim, əmilərim, dayılarım haqqında deyilən xoş sözlər mənim məsuliyyətimi daha da artırır. Sevinirəm ki, övladlarımız da nəslin müqəddəs ənənələrini ləyaqətlə davam etdirirlər.

## Yadigar sətirlər

Mən qəribə xarakterli bir adamam. Bir şair, alim, müəllim, insan kimi sevilməyim ürəyimdəki həyat eşqini artırır. Əlbəttə, mənə gələn məktubların hamısını eyni ilə oxucuların mühakiməsinə vermək istəmirəm. Ancaq üzə çıxarılası bəzi məqamları xatırlatmaq bəlkə də pis olmazdı.

***

"XX əsrdə möcüzəyə inanmaq çətindir. Lakin Sizin şeirləriniz mənə möcüzədən də artıq bir qüvvə ilə təsir etdi. Mən yalnız o şairləri sevirəm ki, poeziyası məni heyrətləndirsin, düşündürsün. Poeziya da insan qəlbi kimidir; onu duymasan, bu qəlbin döyüntülərini eşitməsən, kədəri ilə kədərlənib, sevinci ilə sevinməsən, başa düşüb qiymətləndirməyi bacarmazsan. Poeziya sirlə kəşf arasında bir addımdır. Mən Sizin şeirlərinizdən çox şey kəşf etdim. Ən başlıcası budur ki, Sizin özünüzü kəşf etdim, bir insan, eyni zamanda şair kimi. Bunun üçün çox xoşbəxtəm. Etiraf edim ki, psixoloji səhətdən Sizin şeirlərinizi oxumağa hazır deyildim. Ona görə də oxuduqca təəccüblənir, heyrətlənirdim. "Qüvvə yox önümü kəsə", – deyirsiniz. Amma mənə elə gəlir ki, Sizin qarşınızı kəsən ən böyük qüvvə üç almadır... Bundan böyük qüvvə təsəvvür etmirəm. "Bir də yerli çətin başa düşə gəlməni" fikri. Yaxşı ki, yerlı gəlməni başa düşmək istəmir, yoxsa dünya tarazlığını itirərdi.

"Bu üç daş üç kiçik toxuma bənzər" – yoxsa bu toxumları hansı bəxtəvərinsə qəlbində cücərtmək istəyirsiniz?!

On il əvvəl – 1984-cü ildə demisiniz: "Yaş sərhədmi çəkir əsl sevgiyə" və on il sonra 1994-cü ildə deyirsiniz: "Şairlə gözəl yanında yaş çəpər ola bilərmi? Deməli, şair Yusifoğlu yaş məsələsinə – hələ mən Sizin yaradıcılığınıza

tam bələd deyiləm – iki dəfə qayıdıb və yenə də qayıtmaq ehtimalı var.

Mənə elə gəlir ki, şairlər gözləri ilə görür, gözləri ilə duyur və gözləri ilə sevirlər. Yəni şairlərin sevgisi gözdə olur, onun qəlbə heç bir dəxli yoxdur. Ona görə də şeirlərin ünvanı tez-tez dəyişir ki, bu da təbiidir.

Siz hər şeyi deyilmədən duyursunuz. Bunun üçün Sizdə kifayət qədər həssaslıq vardır.

Sizin şeirlərinizi qəlbimə yazdım. Onlar ömürlük məndədir. Heç bir tufan, külək onları qəlbimdən poza bilməz.

"Füzuli danışır" poemasını oxuyandan sonra öz fikirlərimi yazmışdım. Ancaq Sizə verməyə həm utandım, həm də qorxdum. İndi də bilmirəm bu qeydləri Sizə verə biləcəyəmmi?

Sağ olun, duyğulu anlar, bütöv bir ömrə bəs edəcək xatirə bağışladığınız üçün.

Səmimi pərəstişkarınız S.M.

**24.06.1994"**

***

Təbiət yaratdığı canlılara eyni dərəcədə yaşamaq hüququ verib. Payız çiçəyinə də, bahar çiçəyinə də. Birini payız çiçəyi olduğuna görə qınamaq, digərini bahar çiçəyi olduğu üçün göylərə qaldırmaq nə qədər doğrudur?

Bir lələk dilədim durna köçündən,
Qərib olduğunu ürək unutdu...

Əslində ürək qərib olduğunu unutmur. Mən bilirəm ki, Sizin ürəyinizdə mənə yer yoxdur. Əgər olsa belə, yəqin ki, mən orda özümü qərib hiss edərdim. Həmişə öz yurduna, öz ocağına can atan qərib. Ancaq qəribin doğma ocağı, yurdu olsa, o, qərib olmazdı ki?! Sizin ürəyiniz buz deyil. Hətta

ora daxil ola bilməsəm də, kənardan belə onun istisini hiss edirəm. Elə bu da mənə xoşdur. Azacıq bir isti, şam istisi kimi...

Qaldı Sizin qələminizə, onun cəzası çox ağır olacaq. Mən onu illərlə sumkamda gəzdirəcəyəm. Qışda soyuqdan, yazda istidən əziyyət çəkəcək. Mən onunla az, çox nadir hallarda yazacağam. Qələm isə yazmırsa, deməli yaşamır. Mən onun yaşamaq hüququnu əlindən alacağam. Mən onunla ən sevimli şagirdlərimə "5" yazacağam.

Payızdan söz açma, payızdan mənə,
Bir gün öldürəcək bu payız məni...

1994, noyabr.

Çatacaq "Maralı sözlə vuran ovçu"ya. "Şam"

***

"Füzuli danışır" poemasını oxudum. Çox istərdim ki, Füzuli ilə danışım, mümkün olmadı. Təbii ki, onda Sizinlə danışmalı oldum. Heç istəmirdim poema qurtarsın. Çünki elə bil nəğməyə qulaq asırsan, oxuduqca oxumaq istəyirsən, qurtaranda isə fikirləşirsən: nə tez qurtardı, mən ki, heç doymadım?!

Sizin təzə şeirlərinizi çox sevdim. Xüsusilə "Qəlbimdə şam yanırsa" şeirini. Heç bir şeiri bu qədər sevməmişəm. Bəzən təkcə o şeir üçün o qədər darıxıram ki, evə gələn kimi yenidən oxuyuram...

Mən həmişə Sizin ağlınıza heyran olmuşam. "Ağ kağız haqqında üç yozum" şeirini oxuyanda çox heyrətləndim. Mən o poeziyanı sevirəm ki, məni heyrətləndirsin. Sizin şeirlərinizi sevirəm, yalnız o şeirlərinizi ki, hisslərlə yazılıb. Mən qəribə bir qənaətə gəlmişəm. Siz ağıl şairisiniz, hisslər şairi deyilsiniz. Sizin uşaq şeirlərinizi sevməməyimin əsas

səbəbi budur. Mən isə hisslərlə yaşayan adamam, hisslərlə yazılanları daha çox sevirəm. Bəlkə də mənimlə razılaşmadınız, mübhaisə etmirəm. Bir də ki, məni “kal” adlandırırsınız, təbii ki, kal adam şeiri duyub qiymətləndirə bilməz...

**22.11.1994**

***

“Qərb alimlərinin fikrincə, müəllimlər bəşəriyyətin qurbanlarıdır. Bu fikrin nə dərəcədə doğru olduğunu deyə bilmərəm. Amma mənə elə gəlir ki, bu, daha çox şairlərə aiddir. Bütün ömrünü sənətə həsr edən, bəzən də laqeyd insanlar tərəfindən düzgün qiymətləndirilməyən şairlərə. Həmin laqeyd insanlar öz “kal” düşüncələri ilə şairlər haqqında fikir yürüdürlər. Amma düşünmürlər ki, şair haqqında fikir demək üçün gərək mənəvi haqqın ola. Lakin zirvə də var, yamac da. Yamac zirvəyə çata bilməyəndə zirvə yamaca əl uzatmalıdır. Həm də o laqeyd insanlar nə qədər laqeyd olsalar da, öz səhvlərini başa düşməyə qadirdilər.

Günahkaram, nə əmr etsən hazır durmuşam,
Ucalıqdı bağışlamaq, bağışla məni...

“Dənizlə söhbət” çox xoşuma gəldi. İnandım ki, mənim qəlbim arzular qəbristanı yox, arzular diyarı olacaq...

Hələlik.”

***

“Nə qədər qəribə olsa da, mənim sevgimin ünvanı insanlar deyil. Mən sözü, şeiri sevirəm. Bu cəhətdən fanatikəm. Mən Sizi çox istəyirəm, onsuz da bilirsiniz, bunu deməyin mənası yoxdur. Amma istəyirəm yenə biləsiniz: mən Sizi bir insan kimi çox istəyirəm, şair kimi sevirəm.”

**10.01.1995**

***

“Hər insanın daxilində öz zirvəsi var və bu zirvəyə çata bilməyəndə rahat yaşaya bilmir. O zirvələr isə çox ucadır, onlara qalxmaq, həmin başgicəlləndirən yüksəkliyə qovuşmaq, hər alpinistin işi deyil. Mən isə öz daxilimdə bu zirvəni Sizin şerlərinizdən sonra kəşf etmişəm. Yalnız və yalnız bu şeirlər vasitəsi ilə həmin zirvələrə qalxa bilmişəm. Lakin kibrit çöpünə bənzətdiyim şeirlər mənimlə həmin zirvələr arasında sədd çəkir. S.M.” –

Bu sətirlərin müəllifi olan bir tələbə qızın yazıları həmişə məni düşündürüb. Ona yazdığım cavablarda daha çox şeir, sənət haqda öz fikirlərimi izah etməyə çalışmışam. Mən ona yazmışdım:

Şeir şair ürəyinin kardioqramıdır. Mənə elə gəlir ki, şeirdə səmimiyyət yoxdursa, o, şeir deyil. Lirik şeirdə sevən adamın iztirabları, onun qəlbindəki iki “mən”in mənəvi döyüşü özünü göstərməlidir. Bu baxımdan, sənin bəzi iradlarınla razı deyiləm. Şeir canlı bir orqanizmdir. Onun gözəlliyini göstərmək, əsas fikri qabartmaq üçün hazırlıq misraları lazımdır. Məsələn, “Ağlı başında olan qara daşı becərməz” misrasını şeirdən ayırıb təhlil etmək düzgün deyil. Çünki bu misralar mümkünsüzlük içərisindən sıyrılıb çıxan poetik həqiqəti qabartmaq məqsədinə xidmət edib.

Sənin göz yaşlarının gücünə bələdəm mən,
Daşların üstdə düşsə, onları göyərdəcək...

Bu baxımdan “el-aləm qınamamış Siz qınadınız” – qənaəti ilə razılaşmıram. Sənin çox düzgün tapdığın o “bir santimetr” – yaxın ola-ola əlçatmazlığı göstərmək fikri də şeirlərin poetik obrazına təsirsiz qalmayıb. O şeirləri hər dəfə oxuyanda həyəcanlanıram. Çünki burda sevən ürəyin

iztirabları, çıxılmaz vəziyyətin doğurduğu mənəvu burulğanlar, daha doğrusu, onun bədii əksi var.

Naturalizm, eləcə də sənətin sirli-sehrli dünyası haqqında qənaətlərin doğrudur. Ancaq onun tətbiqi məsələsinə gəldikdə...

"Bir axşamın xatirəsi"ni naturalist əsər adlandırmaq və "belə əsərləri mən yalnız bircə dəfə oxuyuram", – demək insafsızlıqdır. Əlbəttə, nəyisə zorla sevdirmək olmaz. Ancaq poetik həqiqəti də nəzərə almaq lazımdır. Belə olmasa, hər bir əsərə "qəmiş qoymaq" olar.

Naturalizm fotosurətə çox yaxındır. Naturalizmdə ən əhəmiyyətli və əhəmiyyətsiz detallar qovuşuq şəkildə verilir. "Bir axşamın xatirəsi"ndə isə "natural cizgilər" – şərab içmək, edilən bütün söhbətlərin təfərrüatları, rəqs, üzün cizgiləri, geyim, saçlar, əllər, dodaqlar və onlarca bu kimi təfərrüatlar yoxdur. Əvəzində ən xarakterik cizgilər lirik qəhrəmanın daxili dünyasına işıq saçır. "Xəyal" həqiqətə layla çalırdı" misrasında nə naturalizm? Bu misranın arxasında məhz sirli, sehrli dünya dayanmırmı?! Həmin misranın adi oxucu üçün poetik açıqlaması: "əllərin əldə, gözlərin gözdə, dodaqların üzdə bəxtiyarlığı" isə həmin poetik funksiyadan başqa, həm də özlüyündə "sevda dünyasının qaranquşları"nın bu ülfətdən, istilikdən xoşhallanıb geri qayıtması, bu ilki baharın mübarək yolunun iki sevən qəlbdən keçib gəlməsi fikrinin "poetik postamenti"dir.

Bir də xatırladıram: şeirə mən həmişə canlı orqanizm kimi baxıram. Onun "orqanlarını" mətndən çıxarıb ayrılıqda qiymətləndirməklə razılaşmıram. Ancaq bilirəm ki, bu "məhəbbətlə yoğrulmuş tənqid" ancaq və ancaq "Bir axşamın xatirəsi" şeirinin üstünə yazıla bilərdi. Qaldı kibrit çöpünə:

İnanmıram ki, kibritdən
Gileyi nurlu şam edir.
O çöp yanıb sönmür, ömrü
Ocaqlarda davam edir.

İkimizin də sevimli şairimiz Əli Kərimin bu misralarına fikir ver:

Başını qoy sinəmə, sual vermə, sevgilim...
Gəl öpüşək, dodaqdan dodağa sözlər keçər.
Deyilməmiş təptəzə, təmiz, sevimli sözlər.

İndi isə onun bu misralarını oxu:

Dedilər dişlərin gül toxumudur,
Bu torpaq ağzımda, ay qız, ək mənim.
Yetişər bir ana günəşsiz, susuz,
Busə söylədiyim o çiçək mənim.

İndi bu misraları "Bir axşamın xatirəsi" ilə müqayisə elə. Gör onların hansında sənin dediyin mənada naturalizm güclüdür?

Əli Kərimi təzədən oxudum. Dostum, sən demə Əli Kərim də "ağıl şairi" imiş. Onun şeirlərinin əksəriyyətində ağıl hisslərdən güclü görünür. Ağıl şeirin özüdür, hisslər onun paltarı...

Mənim sevgidə sənin düşündüyün mənada təmənnam olmayıb. Axı sevginin özündən böyük nə var ki, ondan qiymətli başqa bir şeyin təmənnasında olasan?

Sən özün etiraf etdiyin kimi hərdəmxəyalsan. Mənim isə sevgimin də, poetik duyumumun da özülü xəyallar deyil. Mənim poetik zövqüm elə-belə, bir ilə, beş ilə formalaşmayıb. Bu zövqü mən uzun-uzun gərgin axtarışlarımın, mütaliəmin hesabına zərrə-zərrə, qətrə-qətrə toplamışam. Ona görə də mənim zövqüm hardasa, müəyyən mənada

“qranitləşib”, qaysaq bağlayıb. Mənim poetik duyumum poetikanın sərt qayda-qanunları çərçivəsində formalaşıb. Xatırladıram ki, yalnız sənətin qayda-qanunlarını mükəmməl biləndən sonra onun əsl gözəlliyini görmək olur. Necə deyərlər, “zər qədrini zərgər bilər.” Ona görə də mən sənətin sirlərini sənə öyrətməyə çalışıram. Sən isə “höcət” edirsən, “mənim üçün çətin əsər yoxdur!” – deyirsən. S.Yesenini, S.Vurğunu bəyənmirsən, G.Fəzlinin vurğunusan. Səndə poetik duyum var, ancaq bu yalnız hisslərə əsaslanır. Elə buna görə də adicə bir şeyə görə “Məmməd Araz gözümdən düşdü”, – deyirsən. Sən hər şeyə öz hisslərinin prizmasından baxırsan. Elə buna görə də bu gün sənə pis görünən sabah yaxşı, bu gün gözəl görünən sabah çirkin ola bilər. Hisslər küləyi sənin yönünü tez-tez müxtəlif istiqamətlərə yönəldə bilir. Ancaq mən hər şeirimdə, hər sözümdə özüməm. Zəif və qüvvətli, qaranlıq və işıqlı, kövrək və sərt, incə və kobud cəhətlərim qovuşuq şəkildədir.

“Poetik duyum” məqaləsini əslində elə sənin üçün yazmışdım. Bilirəm, inciyəcəksən, ancaq yenə də deyirəm, mənə elə gəlir ki, sən hələ nə M.Arazı, nə də Ə.Kərimi lazımi səviyyədə duya bilirsən. Ancaq xoşbəxtlikdən sənin qismətinə yaxşı şairlər düşüb. Poetik zövqünün də bu şairlərin əsərləri əsasında formalaşacağına inanıram. Səni ədəbiyyatı mükəmməl bilən, tükü tükdən seçməyi bacaran, obyektivlik hissini heç zaman itirməyən bir ədəbiyyatşünas kimi görmək istəyirəm.

Şairə, sənətkara təkcə şəxsi münasibətlərə görə qiymət vermək nə dərəcədə düzgündür? Həyatda həqiqət hər şeydən qiymətli olduğu kimi, sənətdə də poetik həqiqət əsasdır.

Mən sənə çox minnətdaram, Ona görə ki, hisslərimi ovxardan düşməyə, qələmimi paslanmağa qoymursan. Ona gö-

rə ki, həm mənə şeir yazdırırsan, həm də bu şeirləri özümə təhlil etmyə məcbur edirsən...

Qələm ürəyimin tərcümanıdı. Mən əslində qələmlə sözün başına oyun açıram: əkirəm, becərirəm, məhsul dərirəm. Fikirlərimi şırım açdığım kağızın üstünə səpirəm, bitən də olur, bitməyən də. Ancaq öz şeirlərimi çox zaman amansız şəkildə redaktə edirəm. Ona görə də mənim əlyazmamı oxumaq çətindir.

Mənim ən çox işlətdiyim durğu işarəsi üç nöqtədir... Sözü açıq şəkildə deməyi xoşlamıram. Əsas fikir üç nöqtədən sonra gəlir. Şair təcrübəli bir gid kimi öz oxucusunu sehrli bir dünyaya ötürür, sonra ona mane olmaq istəmir... Mənim uşaq şeirlərimi oxuyan zaman gid kənara çəkilib sənə sərbəstlik vermək istəyəndə onun qoluna girib geri dönürsən, həmin sehrli dünyaya daxıi ola bilmirsən.

**1995, iyun**

Digər bir qızın məktubları da çox maraqlıdır. Həmin məktubların qəribə tarixçəsi var. Günahsız bir insanın işdən qovulmasının qarşısını almışdım. Onun özü yox, rəfiqəsi mənə məktubla minnətdarlığını ifadə eləmişdi...

Həmin qızın məktubu mənim bir misramla başlayırdı:
"Bir sönən sevginin qərib qoruyam"...

"Bu gecə elə qəribə gecədi ki... Ürəyim elə anlaşılmaz duyğularla doludu ki... İşdən evə necə gəldiyimi bilmirəm. Elə bil küçələrlə uçurdum. Hiss edirdim ki, içimdə qeyri-adi bir təlatüm var. Ağlamaq istəyirəm, səhərəcən ağlamaq. İnanın ki, bu böyüklükdə şəhərdə bu dəqiqə məndən qərib, tənha, kimsəsiz heç kim yoxdu. Ürəyim elə bil bu dəqiqə partlayacaq. Bu dəqiqə ancaq bir möcüzə istəyirəm. Elə bu gümüşü gecə, payızın qərib, kövrək nəfəsi, dəniz, bir də Siz... Siz heç nə danışmayasınız. Elə bu günkü kimi. Sakit, bir az bu dünyadan küskün, bir az kədərli, elə özünüz kimi...

O lal baxışlarla eləcə baxasınız. Mənsə ağlayam, ağlayam. O qədər ağlayam ki, o ilahi göz yaşlarına çevrilib Sizin qarşınızda dənizin gümüşü sularına qarışam. Həyatımda ilk dəfədir ki, xoşbəxtlikdən ölmək istəyirəm, ancaq ölmək, Sizin qarşınızda ölmək. İnanın ki, mən Sizin bu böyüklüyünüz qarşısında ancaq ölə bilərəm. Başqa cür minnətdarlığı təsəvvürümə belə gətirmirəm. Qəribədir, o axşam – yer üzündəki ən doğma adamımı itirdiyim o axşam ölmək istəmirdim. O, mənim "qırmızı alma çiçəkli" dünyamın yeganə sakini idi...

İnanın, xahiş edirəm, inanın! Çünki bu dəqiqə bu böyüklükdə dünyada Sizdən doğma mənim üçün ikinci bir adam yoxdu. Mənim qəribə dünyamı, qırmızı alma çiçəkli dünyamı mənə qaytaran müqəddəs insan! Siz artıq o dünyanın sakinisiniz. Bilirsiniz mən necə xoşbəxtəm? Mən bütün ömrümü verməyə hazır idim o dünyanı qaytarmaq üçün. Elə bilirdim heç vaxt qayıtmayacaq. Ancaq bir axşam möcüzə bəxş etdiniz mənə.

"Sənin qınadığın o soyuq şüşə
Şüşə olanacan müsibət çəkib"...

Yox, o ürək artıq şüşə deyil. Bu gecə o ürəyin buzunu sındırdınız. Mənim ürəyimin buzunu sındırmaq hər adama qismət olan xoşbəxtlik deyil ha! Bu gecə o ürəkdən, bu bozluqdan, sevgisizlikdən usanan yer üzünə o qədər ilahi hisslərə bələnmiş qırmızı-qırmızı alma çiçəkləri yağdı ki! Sabah bütün dünya qıpqımızı rəngə bürünəcək..."

Tək bircə saat "Xəbərlər"dən uzaqlaşıb, düz dənizə gedərsiniz. Bir zaman hər səhər görüşünə getdiyiniz o dənizə. "Göyərçin"li günlərin dənizinə. Orada yaralı quşcığaz üçün qəribə bir şeir yazarsınız. Lorkanın şeirlərinə bənzəyən bir nəğmə. Və gözəl bir bahar günündə, qırmızı almalar qıpqırmızı çiçək açanda həmin o nəğməni qıpqırmızı bir alma çiçəyinə büküb Şıxov sahilindəki sonuncu qayanın üstünə

qoyarsınız. Sonra da çıxıb gedərsiniz. Dəniz öz yaralı quşcığazı ilə hədiyyəsini qəbul edəcək. O gün bütün dünyaya qırmızı alma çiçəyi ətri saçan qəribə bir nəğmə sədaları yayılacaq, o gün mədəniyyət şöbəsinin pəncərlərini açmağı da unutmayın...

Yaralı quşcığaz"

***

"Öyrən, yavaş-yavaş özünə öyrən,
Dünyanın hər cürə üzünə öyrən..."

Siz də artıq "Xəbərlər"ə oxşayırsınız. "Xəbərlər"ə niyə belə tez alışdınız? Heyf, heyf! Planetimiz daha gözəl bir insanını, şairini "Xəbərlər"ə qurban verdi.

Bu axşam qəlbimi doğram-doğram edən dərdi, kədəri əritmək üçün ucsuz-bucaqsız, dumduru göylərə, dənizə, bir də elə bu ayazlı, gümüşü gecəyə minnətdaram. Bu axşam burdan dəniz elə cazibədar görünür ki... Ay dənizin üstünə gümüşü bir yol salıb. Sular elə qəribə parıldayır ki, kaş bu gecənin sonu bitməyəydi. Düşünəndə ki, yenə sabah olacaq, işə gedəcəyəm, ürəyim bulanır. Hərdən mənim Sizə elə yazığım gəlir ki... Bax orda hamı bir-birinə oxşayır. Onların heç biri yazıq deyil. Bilirsiz "Xəbərlər" nəyə oxşayır? Elə bil "Xəbərlər" leşdir, işçilər də qarğalar, acgöz, vəhşi qarğalar. Bütün günü pusquda dayanıb imkan düşən kimi o leşi didişdirən, bir tikə qoparmağa can atan qarğalar. (Milyon dəfə üzr istəyirəm, mən Sizdən əvvəl də belə düşünürdüm. Bunlar Sizə aid deyil).

Neçə gündü ki, dəli kimiyəm. Artıq orda otura bilmirəm. İnanın, heç kim, heç nə məni orda saxlaya bilmir. Hətta Siz də. Əvvəllər Siz mənim üçün olduqca qəribə, başqa bir dünyanın adamı idiniz. Siz təsəvvürünüzə belə gətirməzsiniz ki, "Xəbərlər"siz necə darıxırdım. Elə bilirdim ki, Siz orada bizimlə qəribə dünya quracaqsınız, dumduru, yamyaşıl bir dünya. Amma sən saydığını say, gör "Xəbərlər" nə sayırmış! "Xəbərlər" Sizi bizdən alıb, öz dünyasına saldı. Hər-

dən Sizə baxanda elə ürəyim göynəyir ki, elə bilirəm Sizin burda heç kiminiz yoxdu. Bunlar Sizi aldada-aldada öz çirkablarına salacaqlar. Bir gün ayılanda görəcəksiniz ki, daha şeir yaza bilmirsiniz. Yenidən onların içinə qayıdacaqsınız. Amma onda onlar Sizi əvvəlki kimi qarşılamayacaqlar. Nə isə...

Nə olar, qayıdın öz dünyanıza! Yenə də gözəl-gözəl şeirlər yazın! Siz də bizim kimi darıxın. Hərdən o Dağüstü parka qalxın, görün kədərli ağaclar sonuncu kərə öz yarpaq tökümünə necə əzabla baxırlar! Siz Allah o lüt-üryan qalıb sazaqdan üşüyən zərif budaqların arasından dənizə baxın. Elə bil dünyanın ən nəhəng kədəri çöküb dənizin üstünə. Amma kədəriylə, həsrətiylə gözəldi dəniz. Sonra da gəlin iş otağınıza. Onda hətta "Xəbərlər" də gözəl görünəcək. Siz onlara güləcəksiniz. Gülə-gülə hamıdan güclü olacaqsınız. Təsdiq edəcəksiniz ki, bu dünya bir saman çöpünə dəyməz. Axı Sizi ürəkdən istəyən nə qədər dostlarınız var!

Siz işıqlı adamsınız. Dünyanın ən əclaf adamı da Sizin gözlərinizə baxsa, özünü insan şəklində görər. Biz uşaqları da yığın o işığın başına. Onda Siz hamıdan güclü olarsınız.

Niyə özünüzə bu qədər əzab verirsiniz? Yadınızdadı Əkrəm Əylislinin "Gilənar çiçəklərinə dediklərim" əsərindəki Tahir müəllimin uşaqları? Biz də Sizin uşaqlarınız olaq"...

Sizi itirməkdən ölümdən qorxan kimi qorxuram. Çox, lap çox... Heç olmasa baharda qırmızı almalar çiçək açanda, qərib, kədərli bir yay günündə, payızın ən həzin çağında, bəmbəyaz, aydın, süd kimi aydın qış gecələrində, bir də dənizə baxanda bizi xatırlayarsınız. 20 dekabr 1996." –

Bu yazılar mənim "Xəbərlər"də işlədiyim dövrün kənar gözlərlə görünən ən gözəl və ən ağrılı mənzərəsidir. O yazılarda mən varam, televiziya işçilərinin mənə münasibəti var...

Bu da digər məktublardan sətirlər:

“Solğun bir çiçək tək öz baharımı itirmişəm. Ömür baharımı yaşatmaq, xəzələ dönmüş günlərimi unutmaq istəyirəm. Yolumun üstünə gecikmiş sevgi yarpaqları səpələnir. Mənim qismətim imiş bu gecikmiş sevgi. Qışa bənzər bir bahar yaşantısı çökdü qəlbimə. Qeyri-adi bir sevgi könlümə pənah gətirdi. Üşüyən qəlbimin tənhalığını unutdurdu, sirdaş oldu mənə. Sonu görünməyən bir yolun yolçusu oldum. Bu yolun zülməti, sirli-sehrli dolayları olsa da, məni qorxutmurdu. Sizə doğru aparırdı bu yol məni. Ancaq Sizdən uzaqdaydım. Məndən çox-çox əvvəl sevgi aləminin qonağı olub, bu ülvi hissi duyub yaşayanlara öz kövrək misraları ilə həmdəm olan “Qəm karvanı”nı hədiyyə etmişdiniz. Qəlbinizdəki həsrətli məhəbbətin nəmlı harayı idi bu kitab.

“Qəm karvanı” ağ dumana büründü, qəm yağışı səpdi yollarıma. Həsrətin qəlbimə hakim kəsildi, kirpiklərimdən asıldı, xəyalıma həmdəm oldu. Şikəst bir sevgi nəğməsi düşdü dilimə. Yox-yox, bu nəğmə deyildi, qərib sevgimin nisgili, fəryadı idi. Həsrət yüklü bu sevgi kiçik bir yazıya sığan deyil. Yazdıqlarım ağlar məhəbbətimin iki damla göz yaşıdır. Məni qınamayın. Sevgi heç nəyin fərqinə varmadan gəlir insan qəlbinə. Bəlkə də bu hisslər Sizə qəribə gəlir. Ancaq mənim həyatım mavi dünyamdır. Bu mavi dünyamda qərib durna qatarına qoşulub üzü bahara uçmaq, səmanın ənginliklərində damla-damla əriyib yollarınıza nur çiləmək istərdim.

Sizə sonsuz sevgilərimlə bahar ətirli günlər arzulayır, şair dünyanızın nurlu sabahları çox olsun deyirəm.”

***

“Rafiq müəllim, Sizi özümə böyük qardaş bilirəm və Sizin kimi yaxşı insanlara arxalanıb yaşayıram. Tam əmin ola bilərsiniz ki, Sizi dinləyə, başa düşə, sevə bilmişik. Dedikləriniz boşa çıxmayıbdır. Nə qədər tələbənin sevgisini, məhəbbətini qazanmısınız. Ömrünüzün müəyyən bir hissə-

sini mənim saflıq rəmzi kimi qəbul etdiyim uşqalara həsr edən bir insan, şübhəsiz ki, tanınacaq. Çünki o saf dünya insanı paklaşdırır.

Ancaq etiraf edim ki, Sizin səmimiyyətinizin, şair qəlbinizin vurğunuyam. Elə vaxtlar olub ki, Sizi qısqanmışam və evə gələndə kitablarınıza kinli-kinli baxmışam. Siz şairsiniz, çoxları Sizi sevir, mən də o çoxlardan biriyəm."

***

"Yaxın bir dostum var. Son vaxtlar gözümə çox narahat görünürdü. Bir gün ürəyini mənə açdı:

Başa düşməyə çalış məni. Onu sevirəm. Dənizə baxıram, sanki onu görürəm. Aya baxıram, mənə elə gəlir ki, onunla söhbət edirəm. Özü də bilir mənim çəkdiklərimi. Ancaq çox da biruzə vermir. O bilmir ki, heç vaxt heç kim tərəfindən bu məhəbbətlə sevilməyib və sevilməyəcəkdir. Ona yaxınlaşmağa can atdığım halda, sevgim məni ondan çox-çox uzaqlaşdırıb. Bu sevgi həmişəlik olaraq qəlbimə hakim kəsilib. Uyğunsuz bir sevginin oduna alışıb kül olsam belə, yenə sevəcəm. Həyatımı əbədi olaraq nurlandıran sevginin işığında yaşayacağam. Xoşbəxtliyimin əbədiliyi qəlbimdə qaynayan bir saf bulaq olacaqdır. Bəlkə də heç vaxt onu yaxından görməyəcəyəm, qəlbimi titrədən səsini eşitməyəcəyəm. Ancaq xəyalən də olsa o səsi dinləyəcəyəm.

Aramızda olan keçilməz səddi heç vaxt keçmək istəməzdim. Çünki Allahdan istəyim ilahi sevgi olubdur. Bir gün həmişəlik olaraq çox-çox uzaqlara gedərkən ona deyəcəyəm: "Harada olursan ol, kiminlə olursan ol, sən həmişə mənimləsən..."

Sözün doğrusu, ona təsəlli verməyə çox acizlik çəkdim. Ona görə xahiş edirəm, bir vaxt mənə köməklik etdiyiniz kimi, ona da kömək edin, yol göstərin."

***

“Sizi görəndə uşaq kimi sevinirəm. Ürəyim bir yaralı quş kimi çırpınır. Sizinlə keçirilən görüşə getdim. Səsinizi dinləmək üçün çox darıxmışdım. Çox təəssüf ki, ipək qəmə bürünmüş şeirlərinizdən çox az söylədiniz. Böyüklüyünüzün bir tərəfi də budur ki, dodaqlarınızda gülüş, gözlərinizdə sevinc olduğu halda, şeirləriniz üşüməkdən qorxurmuş kimi ipək qəmə bürünüb və bu örtüyün içindən boylanan həsrətli arzuları isə başa düşmək hər oxucuya nəsib olmur. Kaş nə vaxtsa Sizin poetik düşüncələriniz haqqında söz demək mənə də qismət olaydı...

Kölgə kimi gəldim, kölgə kimi də çəkilib getdim...

Mavi dünyamın üstünə qara buludun yaxınlaşdığını hiss edirəm. Qorxuram ki, Sizi sevmək səadətindən məhrum olum. Bu isə mənim üçün dəhşətdir.”

***

“Lorkadan tərcümələrinizi oxudunuz. Paxıllığım tutdu Lorkanın qaraçı qəhrəmanına. Onun daxili azadlığına qibtə etdim.

Şeirləriniz qəlbimdə gözəl hisslərin, duyğuların yenidən vüsət almasına səbəb oldu, məndə yaşamaq həvəsini daha da artırdı. Bu gözəl hisslərə görə Sizə minnətdaram. Arzu edirəm ki, qəlbiniz qəmdən, kədərdən uzaq olsun, xiffət çəkməsin. İndiki kimi həmişə seviləsiniz. Siz buna layiqsiniz.”

***

“Sizin şeirlərinizi oxuyanda təmiz sevginin və saf məhəbbətin hər şeydən yüksəkdə dayandığının bir daha şahidi oldum. Bəlkə də elə buna görə şeirlərinizin vurğununa çevrildim. Sizin şeirlərinizdən qopan həsrət mənim qəlbimə hopdu və ömründə ağlamağı bacarmayan bir qızın göz yaşlarına çevrildi. Görünür Sizin şeirləriniz mənim

qəlbimə ülvi məhəbbət və sonsuz sevgi bəxş etmişdir. Bunun üçün Sizə və Sizin şeirlərinizə ömrüm boyu minnətdaram.”

“Hər yağış yağanda, günəş çıxanda Sizi xatırlayıram.”

Əgər məndən soruşsaydılar Rafiq Yusifoğlu kimdir, fikirləşmədən deyərdim: Rafiq Yusifoğlu Azərbaycan deyilən bir dövlətin seçilən ziyalısı və həmin dövlərin yanan çırağıdır.”

***

“Hörmətli Rafiq müəllim mən Sizi istedadlı, həm də həqiqi mənada vicdanlı bir şair kimi tanıyıram. Sağ olun ki, hay-küyündə çaşıb qaldığım, yad küçələrində, səliqə səhmanında gözlərim böyüyən uzaq Bakı şəhərində ərk yerim, giley yerimsiniz.

**Sərvaz Əsgərov,** İmişli”

“Rafiq, qardaş, salam! Keşən dəfə Vaqif Bəhmənlinin otağında səninlə söhbət elədik. Qardaş, bu saat həm mənəvi, həm də maddi böhran içindəyəm.

Sən bu mərtəbəyə dizin-dizin sürünüb, dişinlə qranit qoparıb, kirpiyinlə od götürüb yüksəldiyin üçün məni yaxşı başa düşərsən. Xahiş edirəm şeirlərimin çapına kömək edəsən.

Dərin hörmətlə, **Əbülfəz Naxçıvanlı.**

18 noyabr 1988-ci il.

***

“Qışı qatara mindirib gətirən şairə eşq olsun.”

**Ələsgər Əlioğlu,** Goranboy

***

“Rafiq müəllim, mən Sizin şeirlərinizin vurğunuyam. İmişli rayonunun Əliqulular kəndində dil-ədəbiyyat müəl-

limi işləyirəm. Sizə bir neçə şeir göndərirəm. Mümkün olsa, çap etməyinizi xahiş edirəm."

**Qəşəm Nəcəfov**, İmişli

Əlbəttə, mənə bu və ya buna bənzər məzmunlu çox məktublar yazılıb. Onların hamısından istifadə etmək imkan xaricindədır. Ancaq o məktubların hamısında mənim ömrümün izləri var. Xoşbəxtəm ki, heç kəsi naümid qaytarmamışam, insanlara əlimdən gələn yaxşılığı eləməyə çalışmışam.

Qızların xatirə dəftərlərinə bir-birinə bənzəməyən xatirələr yazmışam. Yəqin ki, nə vaxtsa, o yazıları bir yerə toplasalar, maraqlı bir kitab alınar. Nümunə üçün həmin xatirələrdən biri ilə tanış olun:

"Vüsalə xanım, mənə elə gəlir ki, adamlara verilən adların üstünə onun gələcək taleyinin işığı düşür. Məsələn, mənim adımın leksik mənası "rəfiq" – "dost" deməkdir. Bəlkə də buna görədir ki, dostlarım çoxdur. İstər uşaqlarla, istər cavanlarla, istər ağsaqqallarla, istər qızlarla, istər oğlanlarla, istər fəhlələrlə, istər ziyalılarla tezliklə dil tapa bilirəm. Bunu sən özün də gözəl bilirsən. Yəqin ki, səni ağlatdığım günlər yadındadır. Elə ağlayırdın, elə ağlayırdın ki... Mənə elə gəlirdi ki, günəş şüasının altında qar qız əriyib suya döndüyü kimi, sən də əriyib yox olacaqsan. Ancaq məhz bu anda mənə o qədər sevimli, o qədər gözəl göründün ki! Elə buna görə də sənə şeir yazdım. Bu misralar sənin həmin anını əks etdirən bədii portretinin cizgiləri idi:

Allah, Allah, bu gözlərin
Yaşı özündən yekədi...

Əsl göz yaşında ya məhəbbət, ya da nifrət var. Sənin göz yaşlarında isə məhəbbət qığılcımları bərq vururdu.

Həmin andakı portretinin uzun illər mənim göz yaddaşımda qalacağına əminəm.

Hə, Vüsalə, mənə elə gəlir ki, sənin adında da taleyinin işığı var. Hər görüşə, hər ünsiyyətə vüsal deyilməz. Vüsal ən əziz adamların görüşüdür. İnanıram ki, hansı bəxtəvərisə öz vüsalınla xoşbəxt edəcəksən. Ancaq kaş həmin bəxtəvər səni olduğun kimi duya biləydi. Kaş sən adicə bir ev xanımına çevrilməyəydin.

Bayronun "Albom üçün" adlı gözəl bir şeiri var. O şeiri çoxdan, lap çoxdan tərcümə eləmişəm, ancaq nədənsə çap olunmayıb. Sənin dəftərinə xatirə yazanda birdən həmin şeir yadıma düşdü və mənə elə gəldi ki, həmin şeiri məhz sənin albomuna köçürmək üçün tərcümə edibmişəm. Doğrudan da, sən buna tamamilə layiqsən. Elə bilirəm ki, Bayron bu şeiri hansısa gözəlin albomu üçün yox, məhz Rafiq Yusifoğlu Vüsalə xanımın albomu üçün yazıb:

Oxşar qəbir səyyahın
Fikrini cəlb edən tək,
Bu saralmış səhifə
Cəlb eləsin sənin də
Fikrini, gözəl mələk.

Yadına düşsə əgər
Səni necə sevirdim,
Məni ölmüş bil onda.
Çünki şairin qəlbi
Dəfn olunub, əzizim,
Sənin bu albomunda...

## Duyumlar, deyimlər
## "Xatirə kəcavəsi" kitabından

Mən bir qədər səliqəsiz işləyirəm. Evdə, işdə üstünə nəsə yazıb üst-üstə yığdığım kağızlar o qədərdi ki... Həmin qeydlər, fikirlər bəlkə də nə vaxtsa şeirə, məqaləyə dönəcək. Bəlkə də heç buna ehtiyac qalmayacaq. Ona görə də həmin qeydlərdən bəzilərinin burada vermək qərarına gəldim.

***

İnsan qarşısına məqsəd qoyub sevmir. Məhəbbət ürəyə ilk bahar kimi xəbərsiz gəlir. Ona görə niyə sevdim sualına cavab vermək çətindir.

Əsl, ağılla, kamalla davam etdirilən sevgi müharibəsi heç kəsi məğlubiyyətə düçar etmir. Döyüşən tərəflərin hər ikisi mənən qalib çıxır. Çünki bu "müharibə" insan ürəyini saflaşdırır, insana insan kimi yaşamağı öyrədir, insanı adi məişət qayğılarının fövqünə qaldırır.

Gülüm, sevgi savaşında
Kim öldürüb, kim öləcək.
Biz uduzsaq da, eybi yox,
Məhəbbət qalib gələcək.

***

Ağrılar, əzablar məhəbbətdən alınan zövqü, həzzi daha da artırır. Bu zövqün, həzzin yanında ağrılar, əzablar heç nədi... Ən yaxşı sevgi daxili dünyanın sevgisidi. Sevgi yaradıcı adamların hisslərini həmişə ovxarlı saxlayır.

***

Nə yaxşı ki, dünyada sevgi var. Nə yaxşı ki, ürək həyəcan keçirmək qabiliyyətini itirməyib. Nə yaxşı ki, "Can vermə qəmi-eşqə ki, eşq afəti-candır" misrasını yazan Füzuli "Yarəb, bəlayi-eşq ilə qıl aşina məni", "Rüsvay gərək həmi-şə aşiq" deyib...

***

Tale bizim aramızda bir santimetr interval yaratsa da, aramızda sözün həqiqi mənasında bir əlçatmazlıq var. Bəlkə də müqəddəs hisslərin qeyri-adiliyi, gücü bundadır...

***

Dünyada yaşanmış, təkrar sevgi yoxdur. Sevmək özü də istedaddır.

***

Özünü gizləməyə, nöqsanlarını ört-basdır etməyə yalnız naqis adamlar çalışırlar.

***

Günəş təzə çıxanda maraqlı olur, günorta isə ondan dal-dalanmaq üçün kölgə gəzirsən. Görünür, məhəbbət də belədir.

***

Yazı masam dalğalar qoynunda sığınacaq tapdığım bir adaya döndü. Qələmim ümidsizcəsinə əyiş-üyüş xətlər çəkdi...

***

Çöldə yağış yağırdı. Birdən mənə elə gəldi ki, o yağış sənin göz yaşlarındı və düz mənim ürəyimə yağır. Onu hisdən, pasaqdan, ötəri sevdaların zir-zibilindən yuyub təmizləmək istəyir.

***

Dəniz də ilhama gələndə çırpınır, özünü didib tökür, təmizlənir, gözəlləşir...

***

Mənim birinci silahım səmimiyyətimdi. Özümü nə həyatda, nə də yazılarımda süni surətdə, qəsdən gizləyə bilmirəm.

***

Mən adət-ənənələrdə, sənətə qiymətdə mühafizəkaram, gözəllər önündə liberalam, yazı-pozuda radikalam.

***

Zənciri təkcə dəlinin boynuna vurmurlar, bəşəriyyəti dəli etmək iqtiarında olan adamların da başına vururlar.

***

Təkcə öz şəxsiyyətini qoruyan, nüfuzunu itirməkdən qorxan adam necə radikal ola bilər? Radikallıq Allahın işidi, hirslənib Kəpəzi uçurur, əvəzində Göygölü, Maralgölü yaradır. Yarada bilməyənin uçurması fəlakətdir.

***

Mən doğmalardan üzrxahlıq diləmirəm. Mənim ürəkdən söydüyüm adamlar, mənim ürəkdən sevmək istədiyim adamlardır.

***

Boş-boş mübahisə, fərdi söz demək iqtidarında olmayanların, özünü kiminsə yanında göstərmək istəyənlərin işidir.

***

Mən şeir yazanda şairəm, yazmayanda adi, apadi bir insan.

***

Böyük adam zəmanəylə tərs gəlir deyə böyük adam olur. Palaza bürünüb el ilə sürünəndən böyük adam çıxmaz.

***

Şair də ağac kimidi, çiçəkləməsə, bar verməz.

***

Pul haqqında fikirləşdiyindən qantəpər yığan qantəpərin, gül satan gülün dəyərini bilmir.

***

Şəhid bulaqlarından axan su deyil, anaların göz yaşıdır.

***

Dilimizdə "kor" sözü var, yəni gözü görməyən. Korlandı sözü var, yəni gözünü itirdi. Gözsüz yaşamağın nə əhəmiyyəti?

***

Səhnə dəyişir, aktyorlar dəyişir, təkcə dəyişməyən bir şey var: Leyli ilə Məcnunun müqəddəs hissləri...

***

Mənim üçün mahnı da insan kimidir; bir adamın səsiylə doğulub, o adamın səsiylə də "ölür". "Ayrılıq" mahnısını ilk dəfə Rəşid Behbudovun ifasında eşitdiyimdən, Ququşun ecazkar səsi də məni ofsunlaya bilmir. Hələ o biriləri demirəm.

***

Sən üzünə ətir vurursansa, özgəyə məhəbbətin var.

***

Siyahı əlimdə, əlim üzümdə qaldı...

***

Səs qocalmır, söz qocalmır.

***

– Adam birini sevər.
– Mən şairəm.

***

Bakuş satmağın ətəyindən tutanlar ucaldı, elmə könül verənlər qaldı sinəsi dağlı.

***

Söz bir ağızdan uçub, neçə qulağa qonur.

***

Söz var incədir, söz var incidir.

***

İstedadsızlığın əsas əlamətlərindən biri də çox danışmaqdır.

***

Evsizim, evsizim, darıxma, axirət evin səni gözləyir.

***

Yatmışları ayıldırlar bəxti yatmışlar.

***

Əgər sənin işin düşsə polisə,
Düzələcək, apardığın pul isə.

***

Ala gözlərinin sağlığına içməkdən, gözümün qarası getdi...

***

Meydan sulayırsa dollar,
Bağlanacaq üzə yollar.

***

Kişi sandığım adamlar
Demə taxtabiti imiş.
Mənim sümük tulladığım
Özgə evin iti imiş...

***

Yaranıbdır göz yaşından, sevgidən
Elə bil göyqurşağıdır məhəbbət.

***

Bu dünyadan o dünyaya
Söylə, kim xeyir aparıb?
Dəvəsi ölmüş ərəbəm,
Başımı şeir aparıb...

***

Bükə bilmək üçün uzun örkəni,
Ən azı doğanaq olasan gərək.

***

Söyüd dibindən keçən arx,
Söyüd baxmırmı üzünə?

***

Arxada ayrılıq, öndə görüş var.

***

Ürəyim çırpınır göyərçin kimi,
Sənin əllərindən qurtula bilmir.

***

Yal verdiyin neçə it
Özgəyə tula oldu.

***

Şəlalə elə bil arfanın simləridi...

***

Nə qədir ağacı əkdim dünyada,
Nə də ki qədrimi bilən olacaq.

***

Uşaq vaxtı sevdiyimiz gözəlləri böyüklər əlimizdən alırdı, böyük vaxtı sevdiyimiz gözəlləri isə uşaq-muşaq alır əlimizdən.

***

Ən istedadlı dövlət xadimini ən istedadsız şairlər tərənnüm edir.

***

Ədəbiyyatı öyrətmək sevməyi öyrətmək kimi bir şeydi.

***

Mənim sərtliyim mənim kövrəkliyimi qorumaq ehtiyacından doğulmuşdur.

***

Dil ədəbiyyatın həm fəhləsi, həm onun mövcudluq formasıdır.

***

Söz fikrin cövhəri, həm də onun paltarıdır.

***

Doğulmamışdan əvvəl adamlar necə xoşbəxt idilərsə, öləndən sonra da elə xoşbəxt olacaqlar.

***

Millətin saqqızını elə oğurlayıblar ki, milli televiziyamız saqqız reklamı verməkdən utanmır.

***

Xalq mahnısı xalqın mənəviyyatının aynasıdır.

***

Azərbaycanda "xor" yoxdu, hamı "solo" oxumaq istəyir.

***

Məcnunu Məcnun, Leylini Leyli edən cəmiyyətin əxlaq qanunlarıdı. Əxlaq qaydalarına qulaq assaydı, nə Məcnun Məcnun, nə Leyli Leyli olardı...

***

Mən şeiri kiminsə xoşuna gəlmək üçün yox, öz ürəyimi boşaltmaq üçün yazıram.

***

Ağac ucaldıqca, onun kökləri torpağın dərin qatlarına işləyir.

***

Camaat sevgilisi ilə dəniz qırağına çıxıb, mən qələmimlə.

***

Ürəyim qəm bulağıdı.

***

Quzuya rəhmi gələn qurda deyirlər ki, dişi yoxdu.

***

Qurunun alovu çoxdu, yaşın tüstüsü.

***

Yağış gölün sifətinə xal düzür.

***

Bizim hamımız ümid saplağından asılan meyvələrik.

***

Hər ürəyin bir açarı var. Ana ürəyinin açarı övladlarının sayı qədərdi.

***

Nehrə çalxalananda yağ ayrandan ayrıldığı kimi, ehtiraslar çalxalananda ağıllı adam kütlədən ayrılır.

***

Makinada yazanların xətti eyni olsa da, üslubu ayrıdı.

***

Zahid Xəlilin yazıçı vəsiqəsi itmişdi, fındıqburun, cırtdan onu çevirib, özlərinə koma düzəltdilər.

***

Dəliliklə ağıllılıq bir almanın iki üzüdü.

***

Uşaq da ağrılardan sonra doğulur, gözəl şeir də.

***

Sadə adamlar əbədi həyata – əbədiyyətə daha yaxındılar.

***

Anası qoz satır, balası naz satır.

***

Ütünü qızdırmasan, adicə bir dəmir parçasıdı.

***

Qaya dünyanın sümüyüdü, torpaq əti, çaylar, bulaqlar qanı.

***

Arı yolu – bir ucu çiçək, bir ucu pətək.

***

Bu müvəqqəti həyatda o qədər sehrli dəqiqələr var ki, onun salnaməsini yaratmaq lazımdır.

***

Puldan girdiyi cibin iyi gəlir.

***

Quş göydə uçsa da, gözü yerdədi. İnsan yerdə gəzsə də, gözü göydədi.

***

Dünya etibarsız deyil, adamlar etibarsızdı.

***

Sağlıq söyləmək içməyə haqq qazandırmaqdan başqa bir şey deyil.

***

Şair ürəyi xılt götürmür.

***

Heyvanların şahı şirdi, adı cəmi üççə səsdən ibarətdi.

***

Seyrək meşədə ağac böyük olur.

***

Kasıbın işi varlının pulunu saymaq olduğu kimi, istedadsızların da işi istedadlıların hər bir yeni addımına qulp qoymaqdır.

***

Mən qonaq gəlmişəm, qınaq gəlməmişəm.

***

Elmin yolu qurtaran yerdə sənətin yolu başlayır. Sənət Allaha elmdən daha yaxındır.

***

Bu günümüzə laqeydliyin zərbəsi tarixə dəyir. Bu günün salnaməsini yazmasaq, gələcəyin tarixçiləri adi şeyləri öyrənməkdən ötrü baş sındırmalı olacaqlar.

***

Napitok içmək, ömrün boyu bir nəfərlə yaşamaq məcburi əmək kimi bir şeydi.

***

Sözün də rəngi, fəsli var. Sifətdə (nitq hissəsində) rəng var. Rəngli söz. Feildə zaman var – hərəkətli söz.

***

“Başqa” sözünə leksik mənası olmayan qoşma deyirlər. Məncə, düz deyil. “Daşqa” – daşı aparan araba; “qaşqa” – qaşın üstündəki ağ, “fışqa”, “sızqa” və i.a.

***

Dialektdə bir söz işlənir: ərəsət, yəni həddindən çox. Başqa bir söz də var: “ərəsən olmaq” – əldən, ayaqdan getmək...

***

Söz hikmət sarayının kərpicləridir.

***

Qan ilə, qada ilə qurulan bir ölkəni necə səssiz-səmirsiz yıxmaq olarmış, Allah?!

***

Torpaq həmişə ayağımızın altındadı, ancaq ona nədənsə ana torpaq deyirik. Adam da anasını tapdayarmı?

***

Dünyanın ən sakit dili, mədəniyyət dili qanımıza hopsa, çığır-bağıra ehtiyac qalmayacaq.

***

Bəlkə də dəlilik dünyanın ilk həqiqətini dərk edəndən sonra yaranır.

***

Bədii əsər bir ağaca, gülə bənzəyir. Kökdən tutmuş ləçəyədək hər komponentin bu canlı orqanizmdə öz yeri, funksiyası var. Bitdiyi torpaq, ab-hava ağaca nə dərəcədə təsir edirsə, mühit də ədəbiyyata elə təsir edir.

***

Bitirdiyi çayıra, tıkana görə qınamayın torpağı. Torpaq ətirli gül-çiçək də bitirir, yaşıl-yaşıl ağac da...

***

Camaat pul qazanıb, mən xətir-hörmət. Pul xərclənib qurtarır, hörmət yox.

***

Çay da hündürlükdən aşağı qaçır.

***

Günəş bəxtəvərdi, eyni vaxtda bütün güllərin, çiçəklərin şehli gözündən öpə bilir.

***

Ocaq yananda birinci çırpı yanır, sel gələndə birinci çör-çöp gətirir.

***

Sənin məhəbbətin mənim ürəyimin zirehidi, qorxmuram odlu baxışlardan.

***

Yan-yana düzülmüş evlər vaqonlardı elə bil. Zamanın qatarı çəkib aparır bu evləri. İllərin dayanacağında bəzi insanlar qatardan düşür, bəziləri isə qatara minir.

***

Sevgi də göz yaşı ilə yoğrulmasa, davamlı olmaz.

***

Rəng gözün bəxşişidi.

***

Ölüm bizə bir adam da yaxınlaşdı.

***

Zəncirli it hürən olur. Hürən itə zəncir vururlar.

***

Kiməsə xəyanət edə bilərəm, ürəyimə yox.

***

Mahnı mətni nə qədər gözəl olsa, bir o qədər yaxşıdır. Musiqi sözün donu olmalıdır. Bir var gözəl donu bir uyuğa – müqəvvaya geyindirəsən, bir də var canlı insana.

***

Ataların gözünə torpaq atmaq üçün doğulur oğullar.

***

Bülbülü gözəl oxuduğu üçün qəfəsdə saxlayırlar.

***

Saç ağardıqca, kostyum qaralır.

***

Quş elə bil deyir: "Sənin lələin varsa, mənim də lələyim var".

***

Ömür yumaq kimi bir şeydi; açılır, açılır, qurtarır...

***

Həya olmasa, həyəcan olmaz.

***

Şairlik də, dünya da insanın özündən başlayır.

***

Çayın önünü kəsəndə bəzən gözləmədiyin halda elə tərəfə axır ki, daha gözəl bir mənzərə yaranır. Söz də belədir.

***

Hər insan ömrü bir baş daşına postamentdi.

***

Kəfənin hansı ağdan, baş daşının hansı daşdan olması dünyanı dərk eləyən adamların düşüncə obyekti deyil.

**PS. Bu sözləri sistemləşdirməyə imkanım olmadı, elə əlimə keçəni yazdım. Ona görə qoy oxucu məni bağışlasın.**

***

Dostum Ağəddin Mansurzadə “168 saat” qəzetinin redaktoru işləyəndə məndən publisist yazılar istəyirdi. Əvvəlcədən nə yazacağımı fikirləşmədən makinanın önündə əyləşirdim. Ağlıma gələn ilk sözü yazırdım və bu, məqalənin adı olurdu. Bir cümləni də sonradan redaktə etmədən yazdığım bu məqalələr qəzetdə çap edilirdi və bəyənilirdi. “Hara gedir bu millət”, “Siyasət”, “Cənnətdən qovulmuşlar”, “İnsan, yaxud “Daşa dönmüşlərə əks eyləmədi fəryadım”, “Nə üzlə qoynuna qayıdacağıq”, “Qəm karvanı”, “Söz” və sair məqalələrim bu qayda ilə yarandı. Ancaq elə yazılarım da var idi ki, birbaşa makinada yazdığım üçün onlarda fikir dağınıqlığı var idi və təbii ki, bu yazıları çap etdirməmişdim. Ancaq həmin yazılardakı bəzi cümlələr indi mənə maraqlı gəldi. Elə buna görə həmin cümlələri də o əhvali-ruhiyyənin, ovqatın yadigarları kimi bu kitaba salıram.

***

Makinamın qapağını elə ovqatla açdım ki, elə bildim pianonun qapağını qaldırdım. Ancaq mən sevgi sevinciylə yoğrulmuş nəğmə yazmaq iqtidarında deyiləm. Mən ömrüm boyu sevgi əzabıyla yaşayan adamam. Öz-özümə hərdən suallar verirəm: “İlahi, bu əziz adamlar mənə əzab verməkdən yorulmurlarmı? İlahi, mən bu dünyaya məni duymayan doğmalarıma əzab-əziyyət vermək üçünmü gəlmişəm? Ümumiyyətlə, uşaqlıqdan bu günədək içimdən gələn səslərə qulaq asmışam, öyüd-nəsihətlərə yox.”

***

Qubadlı haqqında bir fotoalbom var. Qubadlı işğal olunandan sonra yeganə təsəllim bu albomdur. Ona görə yox ki, bu kitab-albomda mənim də adım var. Ona görə ki, burada mənə doğma olan yerlərin ən gözəl guşələri, tarixi

abidələri öz əksini tapıb. Bu albomda mənim, eləcə də Qasım Qasımzadənin üzməyi öyrəndiyi ulu gölün şəkli var. ulu göl adını mən vermişdim əslində göl olmayan, çayın nisbətən gölə bənzər dərin yerinə. Şeirlərimin birində "Dəlik daşın bəlkə Qaçaq Nəbinin boşa çıxan gülləsinin yeridi" misralarına görə Mais dayım məni yüngülcə məzəmmət eləmişdi: "Qaçaq Nəbinin Xocamsaxlıda nə işi, Şahsuvar bəyin adını yaza bilmirdin?" Şahsuvar bəy Qasım Qasımzadənin babası, onun qardaşı Hacı Hüseyn bəy isə mənim anamın babası idi.

Qasım Qasımzadə o xoşbəxtlərdən idi ki, ömrünün son günlərində o göldə çimib halallandı, özünü axirət dünyasına hazırladı. Görəsən bu səadət mənə də nəsib olacaqmı?

İndi o gölə əlimiz çatmır. Qubadlı albomunda isə ulu göl mənə gəl-gəl deyir. Qubadlının bu gözəl mənzərələrini fotoqrafa göstərən, istədiyi yerin şəklini çəkdirən mənim qardaşım, o vaxt raykomun ikinci katibi vəzifəsində işləyən Razim olub.

Xocamsaxlıda bir qala var, ulu qala. İnsan əli ilə təbiətin şərikli yaratdığı möcüzə idi bu qala. "Aylı cığır" kitabımda gedən şeirlərimin birində yazmışdım ki, neçə ki, bizdə bu qeyrət var, bu qalanın sirləri açılmamış qalacaq. Biz bu günümüzə laqeyd ola-ola tariximizi, tarixçilərimizi müəmmalar burulğanına salmırıqmı?

Ağa çayı axa-axa gedir. Ağa çayı üçün nə fərqi var onun sahilində kim yaşayır? Ax, Ağa çayım, sən yəqin ki, ağa övladları üçün darıxmısan. Ax, Ağa çayım, sənin sahilindəki qayalıqda bitən nəhəng dağdağan ağacı dururmu? O dağdağan ağacını heç bir düşmən baltası kəsə bilməzdi. O dağdağan ağacını dibində qumar oynayanlar qurutdular. O ağacın müqəddəsliyini uşaq yaddaşımda həmişə yaşadıram.

***

“Gileylər. Ağlıma gələn ilk söz bu oldu. Makinamın “tərkinə əyləşib” yazdım:

Dərd torpağı gil eylər,
Ömrü üzdü gileylər.
Bülbülə nə eyləsə,
Özgə etməz, gül eylər.

Yazdıqca elə bildim ki, at nalının səsini eşidirəm. Elə bildim ki, mənim barmaqlarım işlədikcə, atam sirli-sehrli dünyadan at çapa-çapa mənə sarı gəlir.

İstəyirdim giley yazım. Yaxşı ki, alınmadı. Görünür “Peyğəmbərlərdən sonra şairlər gəlir” deyən Nizami sözü havaya sovurmayıbmış. Ulu Allah qəlbi təmiz olanları sevir.”

***

“Qarmaq. Oğlum mənim xahişimi yerinə yetirib, qarmaqlar alıb gətirib. Yadıma dostum Tahirin sözləri düşür: “Qarmaqla balıq tutmaq pulsuzluq əlamətidir”...

Nə vaxtsa mühazirələrimdə tələbələrimə demişəm: məhəbbət soxulcan kimi bir şeydi, onu qarmağın ucuna taxıb, sevimli balığa tullayırsan. Əgər məhəbbət olmasa, bəlkə də insanlar övlad böyütməyin əzabına qatlaşmazdılar. Məhəbbət olmasa, heç bir qadın uşağın batmış əskisini yumazdı.

Adamlar bazara doluşublar. Onların dilindəki şirin söz qarmağın ucundakı soxulcanı əvəz edir elə bil. Acından əziyyət çəkən, pulu olmayan insanlar isə çoxsaylı qarmaqların yanından o yana, bu yana üzən balıqları xatırladır...”

**15.05.1996**

**"Mənə sevməyi öyrət, yaxud..."**

Sumqayıt Sənaye Universitetinin dosenti Cəlaləddin Vəliyev dedi ki, hələ həyatımda Sizin qədər cazibədar dərs keçən müəllim görməmişəm. Ancaq təəssüf ki, Siz mənə yaxşı yazmağı öyrədə bilmədiniz.

Cavabında dedim ki, ədəbiyyatşünaslar yazmağın qaydasını şairlərdən yaxşı bilirlər, ancaq özləri yazmağı bacarmırlar. Dünyada çox şeyi öyrətmək olur, elmi də, ədəbiyyatın qaydalarını da, ancaq yazmağı öyrətmək sevməyi öyrətmək qədər çətindi. Sevmək özü də bir istedaddır. Bu istedadı isə heç bir müəllim verə bilmir, istedad Allah payıdır.

**20.12.1995**

**"Ah narı narı, narı..."**

"Bahadır adını ona kim vermişdi bilmirəm. Ancaq səsi Bahadır səsi idi. Həmişə onu xatırlayanda bu məşhur xalq mahnısı yadıma düşür. Orta məktəbdə bir oxumuşduq. Hamımız səsinin sehrinə vurulmuşduq. Bahadırın vurduğu zəngulələr indi də qulağımda səslənir. Dünyasını vaxtsız dəyişən Bahadır Həkəri bir səsə dönüb mənim xatirəmdə yaşayır."

**13.07.1996**

**Dünya Azərbaycanlılarının Həmrəylik Günü**

Bu münasibətlə mənə çıxış eləmək tapşırdılar. Dedim ki, yaxşı, çıxış eləyərəm, problem deyil.

Məndən əl çəkmədilər. Dedilər ki, gərək hazırlaşasan, bu günün tarixindən danışasan. Xalqımızın keşməkeşli tarixi vərəq-vərəq canlandı gözüm önündə. Gördüm ki, bu tarixdə

həmrəylikdən çox mənəmlik iddiası, "məndən ötdü, qardaşıma dəydi" iddiası var...

Həmrəy həmfikir deməkdir. Mənə elə gəlir ki, hamının həmrəyliyi bütün məqamlarda mümkün deyil. Yer üzündə nə qədər fərd varsa, bir o qədər müxtəlif fikir, müxtəlif rəy var. Rəsmi qanunla istənilən səviyyədə həmrəylik yaratmaq olmaz. Lakin xalqın ümumi taleyi müəyyən mənada həmrəy olmağa səsləyir bizi. Xalqın nümayəndələri nə qədər fərqli düşünsələr də, onlar bir məqamda istər-istəməz birləşirlər: hamısının bir vətəni, bir dili var. Vətəni, onun ərazi bütövlüyünü, xalqı, onun dilini, adət-ənənələrini, əxlaqını qorumaq üçün birləşmək mütləq lazımdır. Biz ilin bu günündə - 31 Dekabrda rəsmi qanunla həmrəy olmaq istəyirik. Bəli, bəli, həmrəy deyilik, həmrəy olmaq istəyirik. Ancaq elə xalqlar var ki, ilin bütün günlərində həmrəydilər, elə buna görə də çox zaman udan onlar, uduzan biz olmuşuq.

Vaxtilə belə bir şüar dəbdə idi: "Bütün ölkələrin proletarları, birləşin!" K.Marksın "Kommunist partiyasının manifesti" əsərindən götürülmüş bu cümləyə qarşı vaxtilə etiraz səsini ucaldanlar tapılırdı. Sovet dövründə çəkilən, adını unutduğum bir filmdə maraqlı bir səhnə yadımda qalıb. Qadının övladlarını əsgərliyə – müharibəyə aparmaq istəyirlər. O, qəzəblə, kinayə ilə deyir: "Qoy bütün dünyanın proletarları mənim Saşamsız, mənim Vanyamsız birləşsinlər."

Doğrudan da, şüar ilə xalqı birləşdirmək olmaz. Xalqı birləşdirmək üçün onun milli şüurunu oyatmaq lazımdır. Alverçi, qazanc psixologiyası isə çox zaman milli şüuru üstələyir. Vaxtilə bir şeirimdə yana-yana yazmışdım: "Bu millətə "Şirvan" (pul) ver, keçsin Qarabağından...

Xalqı milli ruhda böyütmək, tərbiyə etmək üçün müəllimlərin, tərbiyəçilərin, şair və yazıçıların, ümumiyyətlə

bütün ziyalıların üstünə böyük məsuliyyət düşür. Uşağına saqqız alanda, yalançı partladıcı maddə alanda pulunu qızırğalanmayan valideynlər "Göyərçin" jurnalına abunə yazılanda, milli ruh aşılayan kitabları alanda tərəddüd edirlərsə, hansı milli şüurun inkişafından söhbət gedə bilər?

Həmrəylik yolu gözəl sənət əsərlərinin içindən keçir. Yaşasın ədəbiyyatımızı, incəsənətimizi, musiqimizi sevənlər, onu təbliğ edənlər. Həmrəylik sevgi işidi. Yaşasın sevənlər! Ürəyində vətən sevgisini pul, qazanc sevgisi üstələyənlərin həmrəyliyinə inanmıram.

## Məzəli söhbətlərdən

***

– Ananın böyük oğlusan, özünü yığışdır.

– Anam böyük oğlundan razı qalsaydı, ikincü, üçüncü, dördüncü, beşinci, altıncı oğlunu dünyaya gətirməzdi...

***

– Ata, qocalarla uşaqları yaxınlaşdıran nədir?

– Uşaqların da xırda hərfləri gözləri almır, böyüklərin də. Uşaq kitablarının hərfləri böyükdür. Qocalar da hərfləri böyütmək üçün eynək taxırlar.

***

– Gündüz, yadındadı, mənə deyirdin gəl bir az söhbət eləyək?

– Yadımdadı. O vaxt sən mənimlə söhbət eləmirdin ha, deyirdin ki, yat, sabah söhbət eləyərik.

***

Gülzar: –Ata, öpəndə qızları öpürsən, yumruq vuranda mənə vurursan.

Gülzar: – Ata, Allahın altında sənin bütün hərəkətlərini lentə almaq mümkün olaydı, Lyü de Fyünes sənin yanında yalan olardı.

***

Sürücü:

–Vəsiqə olmasa, görən bu adamlar neyləyər?

Mən:

– Avtobus sürər...

***

– Keçən parlamentlə bu parlamentin fərqi nədi?

– Keçən parlamentdə həvəskar artistlər çox idi, bu parlamentdə peşəkarlar.

***

– Ayə, evimi düzəldə bilmerəm.

– Şairlər evə baxmırlar, çölə baxırlar.

***

– Nə üçün yun pambıqdan bahadı?

– Çünki yun ətin üstündə bitir, pambıq torpağın.

***

Bir dostum xahiş elədi ki, bu yazını redaktə elə, sənə qonaqlıq verəcəm. Bu münvalla neçə yazı redaktə elədim.

Bir gün dostum mənə dedi:

– Sənə verəcəyim qonaqlıqların hamısını birləşdirib, bir yaxşı qonaqlıq verəcəm.

Zarafatla dedim:

– İşi ayrı-ayrı gördürürsən, qonaqlığı niyə birləşdirirsən?

***

Axşam konyak içmişdim. Səhər-səhər dənizə gedəndə ürəyim bulanırdı. Gursel soruşdu:

– Ata, nə olub sənə?

– Klapanları yandırmışam.

– 93 əvəzinə 76 işlədəndə belə olar da...

***

Aşura günü dənizə gedirdik. Corat məscidinin yanında qırğın-qiyamət idi. Hacı dostumun darvazasına çatdanda Gursel gülə-gülə dedi:

– Ata, indi dostun zəncir vura-vura çıxacaq...

***

Bir dostum dedi:

– Piyanlıqda elədiklərimi xatırlayanda utanıram.

Gülə-gülə dedim:

– Niyə ayılırsan ki, niyə də utanasan?

***

Qardaşım oğluna dedim:

– Samir, mənim şeirimi de görüm?

– Hansı şeirini?

– “Sənin haran ağrıyır”.

– Yox, o, mənim şeirimdi...

***

Ağa məndən soruşdu:

– Rafiq əmi, bu maşın birinci “vıpusk”du?

Həyat yoldaşım dedi:

– Ağa, Rafiq əmin hər şeyin birincı “vıpusk”unu alır.

– Bəs onda necə olub ki, Sizi alıb?

***

– Ağa, maşında bir şey var, onu yuxarı qaldırarsan?

– Baş üstə, qaldıraram.

Yoldaşım dedi:

– Ağa, Rafiq əmin kabinetini bəy otağı kimi bəzəyir.

Ağa bic-bic güldü:

– Rafiq əmi, indi yuxarı gəlini qaldırmalıyam?

– Yox, sən xalçanı götür, gəlini özüm qaldıracam.

***

Oğlum soruşdu:
– Nə üçün gəlin ağ geyinir?
– Ər evi gor evidi, bala. Gora gedəndə də ağ kəfən geyirlər.

***

Vahid dedi:
– Şair, gəl yarı yarı içək.
Zarafatla dedim:
– Yarı, yarı bölmə!

***

Zülfüqar Qodmanlı soruşdu:
– Rafiq, o mükafat nə idi sənə verdilər?
– Doğrusu, mən də birinci dəfə alırdım deyə bilmədim...

**29 aprel 1999-cu il tarixdə Sumqayıt şəhərindəki 23 №li məktəbdə Rafiq Yusifoğlu ilə görüş zamanı Hökumə Əfəndiyevanın çıxışından sətirlər**

“Ömür yolum üstə yanır,
Taleyimin ülkəridi.
Qubadlı sazdı, simləri
Bərgüşadla Həkəridi.
O sazın səsi altında
Yerimişik ayaq tutub.
O çayların laylasından
Xəmirimiz maya tutub.

Bu sözlərin müəllifi, Qubadlı adlı bir məkanın alim oğlu, şair oğlu Rafiq Yusifoğlu bu gün qonağımızdır. Unudularmı o illər? 12 il Rafiq müəllim 23 №li məktəbdə gündüzlər söz sənətini uşaqlara öyrətdi, onların qəlbinə yol açdı, gecələr onların inşalarını oxudu, yoxladı, yorulmadı. Amma

onun ürəyi dolu idi və bunlar 45 dəqiqəlik dərsin imkanlarına sığmırdı. Deyirəm vərəqləyək bir şair ömrünü səhifə-səhifə.

Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Yazıçılar Birliyi Qəbul Komissiyasının üzvü, filologiya elmləri namizədi, "Göyərçin" jurnalının baş redaktoru Rafiq Yusifoğlu 1950-ci ildə Çardaxlı kəndində müəllim ailəsində anadan olub. 1970-ci ildə ADPU-nun filologiya fakültəsini bitirib. Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına qəbul olunub. Əla qiymətlərlə oranı bitirəndən sonra "Azərbaycan sovet poemasının inkişaf problemləri" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alıb, "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" adlı doktorluq dissertasiyasını tamamlayıb. Həmin əsər 1998-ci ildə "Elm" nəşriyyatında çap olunub.

Bir müddət Azərbaycan Dövlət Televiziyasının "Xəbərlər" baş redaksiyasında "Elm, mədəniyyət, incəsənət" şöbəsinin müdiri vəzifəsində çalışıb. 1997-ci ildən isə "Göyərçin" jurnalının baş redaktorudur. Beynəlxalq uşaq ədəbiyyatı günlərində, Moskvada keçirilən üç ümumittifaq seminarında respublikamızı ləyaqətlə təmsil edib. Əsərləri müxtəlif dillərə tərcümə edilib, dərsliklərə düşüb. Çoxlu kitabları nəşr olunub.

Görürsünüzmü, gözəl, mənalı bir ömür yolundadır Rafiq müəllim? O, sözlə ülfət bağlayıb, ona könül verib. Rafiq müəllim bir şair kimi sözün keşiyində durub, onu qoruyub. Beləcə sözü qoruya-qoruya, cilalaya-cilalaya neçə-neçə poetik şeir kitabları yaradıb. 1989-cu ildə "Ətirli düymələr" kitabına görə Azərbaycan Yazıçılar İttifaqının, mətbuat komitəsinin və gənclər ittifaqının mükafatına layiq görülüb. "Vətən" ali ədəbi mükafatının laureatıdır. "Qəm

karvanı" poeması əsasında hazırlanmış eyni adlı televiziya tamaşası və şeirləri əsasında hazırlanmış "Bütün Azərbaycan əsgər olmalı" adlı ədəbi tamaşası dövlət televiziyası ilə dəfələrlə nümayiş etdirilib və qızıl fondda saxlanılır. Onun "Yadında saxla", "Yumruq kimi birləşməsə elimiz" kimi şeirləri günün nəbzini tutan gözəl nümunələridir.

Əziz balalar, bilirsiniz Rafiq müəllim sizi necə istəyir, sizin üçün nə qədər şeirlər yazıb? Heç bilirsiniz sizi necə adlandırır?

Hamısı göyçək balalar,
Kəlməsi çiçək balalar.

Mən bilirəm ki, siz də onu çox istəyirsiniz və şeirlərini sevə-sevə oxuyursunuz.

Ən zərif hisslərdən yaranan, pıçıldaşan yarpaqlarla, xışıldayan otlarla, şırıldayan sularla həmsöhbət olan mahnılar. Gah baharda sular kimi axıb çağlayan, dənizdə tufan kimi coşub çağlayan, gah da həzin-həzin dilə gələn mahnılar. Sizsiz necə yaşamaq olar? Rafiq müəllimin də sözlərinə bəstələnmiş nə qədər gözəl mahnılar var...

Uşaq qəlbinə yol tapmaq hər yazıçıya nəsib olan xoşbəxtlik deyil. Çünki uşaq qəlbi heç bir təbliğata, heç bir təhrikə baxmayan xüsusi bir aləmdir ki, onun öz qanunları, öz gözəllik ölçüləri, öz bədii estetık meyarları vardır. Bu aləmə daxil olub orada yer tutmaq, bu pak uşaq dünyasının romantik xəyalına qanad vermək üçün uşaqlaşmaq, onlarla qaynayıb qarışmaq lazımdır. Bu baxımdan cəsarətlə demək olar ki, Rafiq müəllimin uşaq şeirləri əvəzsiz sənət nümunələridir. Rafiq müəllimin uşaq qəlbinə yol açan, uşaq aləminin təsvirini verən şeirlərinin günün ən vacib məsələsi olan uşağı düşündürmək, hər şeyi ona hazır verməmək, müstəqilliyə alışdırmaq kimi tələbələrinə son dərəcə uyğun gəldiyinin, Rafiq Yusifoğlu ilə Səməd Vurğunun fikirlərinin

üst-üstə düşdüyünün şahidi oluruq. O, uşaq ədəbiyyatının gözəl nümunələrini yaradarkən son dərəcə böyük və xeyirli bir iş görmüşdür və ilk növbədə biz müəllimlərə şagirdləri tərbiyələndirmək işində əsl köməkçi olmuşdur.

Əziz balalar, bu çətin zamanda "Göyərçin" jurnalının nəşri o qədər də asan başa gəlmir. Amma siz o jurnalı oxuyanda, sevinəndə, nəticə çıxaranda Rafiq müəllim bütün çətinlikləri unudur.

Bu jurnalı oxuyarkən tariximizi öyrənirik. Tarix isə yalnız salnamələrdə yatıb qalmır ki... Tarix maşına vurulan güzgüyə bənzəyir. Biz geriyə baxıb, irəli getməliyik.

Rafiq müəllim, bu gün çox xeyirxah iş görmüsünüz. Ataları, anaları, müəllimləri – hamını bir yerə toplamısınız. B.Vahabzadə deyirdi ki, vətən eşitdiyimiz laylalarda, nağıllarda bizim ruhumuza süzülür, orda məskən salır. Uşaqlıq insan ömrünün bünövrə daşıdır. Ağıl, düşüncə, zövq, ruh, istedad, qabiliyyət bu dövrdə formalaşır. Amandır, analar, nənələr, babalar, uşaqlara sirli, möcüzəli nağıllar danışaq, onlara uçmaq üçün qanad verək. Rafiq müəllim burada da köməyimizə gəlir. Görün o, uşaqlar üçün "Ağıl döyüşü" adlı neçə gözəl bir nağıl-poema yazıb?!

Rafiq müəllim, bir şeirinizi oxudum, çox kövrəldim. "Sən isə deyirsən özünü qoru"... Yadıma Rəsul Rza düşdü, yaman olur anlamaq dərdi.

Rafiq müəllim, bax səhərdən uşaqlar nə qədər şeirlərinizi əzbər dedilər. Elə zalda oturan uşaqların hamısı Sizi oxuyur, sevir. Ona görə də deyirəm ki, bütün gül balaların xətrinə, bütün Sizi sevənlərin xətrinə özünü qoru! Qarşıda yarım əsrlik yubileyin durur. Qarşıda neçə-neçə manhıların yazılmamış sözləri durur... Bu yollarda sənə can sağlığı, böyük uğurlar arzulayıram. Həmişə belə məclislərin əziz qonağı olasan."

***

Nəinki yazılarda, məktublarda, görüşlərdə, hətta insana ünvanlanan avtoqraflarda belə onun ömrünün izlərini görmək mümkündür. Bu da avtoqrafdan bəzi sətirlər:

"Məndən xətt yadigarı istəyən şair qardaşım Rafiq Yusifoğlu, nə yazım ki, sənin səmimiyyətini, paklığını, qürurunu, başabaş ər oğlu ərliyini orada əks etdirə bilim?! **Məmməd Aslan**. 21.XI.1981."

"Səmimi şeirlər müəllifi, gözəl ürəkli, təvazökar qələm dostum Rafiqə xoş arzularla. **S.Rüstəmxanlı.**11.01.1983"

"Xətrini həmişə əziz tutduğum gözəl şair, müəllim Rafiq bəyə ən uğurlu yaradıcılıq istəklərimlə birlikdə. **Fikrət Sadıq.** 11.03.1983."

"Özünə və yaradıcılığına böyük hörmət bəslədiyim Rafiq qardaşıma yadigar. **N. Həsənzadə.** 30.06.1984."

"Əzizlərimin sırasında sandığım, bu kitabdakı tiplərə, naqislərə acı-acı gülməyə mənəvi haqqı olan gözəl şairimiz Rafiq Yusifoğluya. **Hikmət Ziya.** 22.10.1986."

"Gözəl şairimiz, böyük ümidlər bəslədiyim sevimli dostumuz Rafiq Yusifoğluya. Uğurlar, qardaş! **Hikmət Ziya.** 21.01.1987."

"Gözəl şair, o qədər də gözəl insan, qələm dostum Rafiq Yusifoğluna. **Məmməd Araz.** 06.09.1989."

"Şair dostum, gözəl xasiyyətli, dəyişməz əqidəli Rafiq Yusifoğluna **Müzəffər Şükür Məchuldan** ən xoş arzularla. 13 yanvar 1997."

# MƏQALƏLƏR, ESSELƏR

## ƏDƏBİ MÜLAHİZƏLƏR, ƏDƏBİ MÜBAHİSƏLƏR

Makinam! Səni incitdiyimə görə üzr istəyirəm. Onu da deyim ki, adın mənə doğma olmasa da, səni sevmişəm. Sən mənim ömür-gün dostuma, sirdaşıma, həmdərdimə, həmsevincimə çevrilmisən uzun illərdən bəri. Onu da deyim ki, birbaşa makinada yazmağı mərhum şairimiz, tələbə vaxtı sıx ünsiyyətdə olduğum Xəlil Rzadan öyrənmişəm.

Xəlil Rza rəsmi şəkildə mənim müəllimim olmayıb, ancaq mən onu həyatımın müəyyən mərhələsinin, gənclik illərimin müəllimlərindən biri sayıram, ondan çox şey öyrənmişəm. Yaradıcılığımın milli istiqamətə yönəlməsində onun əvəzsiz xidməti var.

Xəlil Rza bizdən yuxarı kursda oxuyan bir qrupa ədəbiyyat nəzəriyyəsindən dərs deyərdi. Tez-tez onun dərslərində iştirak edərdim. Ancaq Xəlil müəllim ədəbiyyat nəzəriyyəsindən başqa hər şeydən danışardı...

"Nə var, nə yoxdur" şeirimi 1970-ci ildə Sumqayıtdakı 1 nömrəli Tikinti Trestinin 5 nömrəli yataqxanasında şairlərlə görüş zamanı oxuyandan sonra kiçik bir məclisdə – o vaxtın termini ilə desək, "bədii hissə"də Söhrab Tahirin söylədiyi sözləri xatırlayıram: "Bir var deyəsən ki, Kirovun heykəlini qıyma-qıyma doğrayaram, bir də var ki, Rafiq qardaşımız kimi deyəsən: "On bir Xreptovı küçəsi varsa, bircə Qaçaq Nəbi küçəsi yoxdu"...

Bir də bu yerdə istər-istəməz sevimli müəllimim, tanınmış tənqidçi Əhəd Hüseynovu xatırlamalı oluram. 1969-cu ildə tələbə şairlərin şeirlərindən ibarət almanax tərtib etmək nəzərdə tutulmuşdu. Gənc şairlər şeirlərini oxuyurdular.

Mənə də növbə çatdı. "Nə var nə yoxdur", "Araz haqqında düşüncələr" şeirlərimi oxuyub qurtaran kimi Əhəd müəllim çox kövrəldi, gözlərində yaş muncuqladı. Dedi ki, məni kövrəldən odur ki, gör bizim cavanlar nə haqda fikirləşirlər?!

Nə isə... Bu haqda fikirləşməyi, yazmağı mənə təlqin edən də yenə Xəlil Rza idi...

İllər keçdi. Bir müddət orta məktəblərdə müəllim işlədim, həmkarlarımla ünsiyyətdə oldum. Dünyanın bərkinəboşuna düşəndən sonra gördüm ki, İlahi, ədəbiyyat müəllimlərimizin əksəriyyətində elementar poetik duyum yoxdur. Bu bir yana qalsın, onların ədəbiyyat haqqında təsəvvürləri o qədər dar, o qədər bəsitdir ki... Uman yerdən küsərlər. Müəllimlərin müəllimlərini, o cümlədən ilk növbədə X.Rzanı xatırladım. Düşündüm ki, niyə mərhum şairimiz qapını daldan bağlayıb tələbələrinə Söhrab Tahirin, bir də öz şeirlərini oxuyanda unudurmuş ki, Azərbaycan ədəbiyyatı təkcə X.Rza, S.Tahir deyil?! Niyə o, eləcə də digər ixtisas müəllimləri unudurmuşlar ki, ədəbiyyat nəzəriyyəsinin əsaslarını öyrətmək daha vacib məsələ imiş mütəxəssis hazırlığında?!

İndi qəribə bir zəmanə gəlib. İxtisaslarını bilməyənlər uşaqalarımızı şikəst eləyirlər, bu sahədə məlumatsızlıqlarını gizləmək üçün siyasətdən dəm vururlar. Adi poetık duyumu, yazı mədəniyyəti olmayanlar "şairə, yazıçıya, dramaturqa" dönüblər. Kitabları çap olunur, əsərləri tamaşaya qoyulur, yaradıcılıq gecələrində primitiv cızmaqaralar gözəl ədəbiyyat nümunəsi kimi gözə soxulur. Təki vətəndən, xalqdan, azadlıqdan danış...

Nə isə... Söhbət təkcə bunda deyil. Xəlil Rza mənim üçün ən sevimli adamlardan biridir. Ancaq mən ümumi ədəbiyyatımızı daha çox sevirəm. İstəyirəm ki, mühiti nə-

zərə almamış heç kəs ittiham olunmasın. Elə bu haqda redaksiyaların birində söhbət etdik. Əlimin altında olan zəngin faktlar əsasında sübut eləməyə çalışdım ki, yazıçı mühitin övladı olduğu üçün dövrün həm mənfi, həm də müsbət cəhətləri onun yaradıcılığında öz bədii əksini tapmalıdı.

Mənimlə razılaşdılar. Xahiş elədilər ki, bu haqda bir məqalə yazım. Əhdimə xilaf çıxmadım, yığcam bir məqalə yazdım. Adını da qoydum "Aysberq". Ancaq redaktor dostum məqaləni çap eləməkdən imtina elədi. Mənə məsləhət gördü ki, nüfuzlu yaradıcı adamlarla münasibəti korlamayım. Ancaq öz-özümə fikirləşdim ki, yaradıcılığına və şəxsiyyətinə hörmət etdiyim vətənpərvər qələm sahibləri həqiqət aşiqləri olduqları üçün həqiqətdən inciməzlər.

Xülasə, həmin məqaləni olduğu kimi "168 saat" qəzetinə təqdim edir və həyatını xalqın azadlığı uğrunda mübarizəyə həsr edən X.Rzanın ruhu qarşısında baş əyirəm.

## AYSBERQ

Mənə elə gəlir ki, həqiqi sənət əsəri, sənətkar şəxsiyyəti aysberqi xatırladır. Onun görünən tərəfindən çox görünməyən tərəfi var. Təəssüf ki, adi oxucu, kütlə əsərə ancaq görünən tərəfə əsasən qiymət verir. Belələrini sənətkarlıq məsələləri heç düşündürmür də...

Azərbaycan yazıçılarının doqquzuncu qurultayında X.Rzanın çıxışı məni bir ədəbiyyat nəzəriyyəsi ilə, ədəbiyyat tarixi ilə məşğul olan tədqiqatçı kimi narahat elədi. X.Rza S.Rüstəmin "Ömrüm, günüm, səadətim oktyabr yaşındadır, partbiletim sol cibimdə, ürəyimin başındadır" misralarını nümunə gətirəndən sonra elə bir cümlə işlətdi ki, dilimə gətirməyə belə utanıram.

Həmin qurultayda Türkiyədən, İrandan, Özbəkistandan və başqa ölkələrdən də qonaqlar gəlmişdilər. Cavad Heyət çıxışında dedi: "Xəlil Rza bir təpik özgəyə vuranda, ikisini özümüzə vurur."

"Azərbaycan uşaq ədəbiyyatı antologiyası"nı ("Xazardan asqan şomol") bizə ərmağan gətirən özbək yazıçıları O.Koçqar və Y.Qasımov təəssüflə mənə dedilər ki, heç təsəvvür eləməzdik ki, Azərbaycan yazıçılarının belə səviyyəsiz qurultayı olar.

Doğrusu, bu söz mənə yaman yer elədi. Fikirləşdim ki, "Lenin" poemasını yazıb dövlət mükafatı alan R.Rzadır, bəs X.Rza niyə onun adını çəkmədi? Lenin haqqında, partiya haqqında S.Vurğundan çox yazan yoxdur, bəs X.Rza niyə onun adını çəkmədi? "Leninlə söhbət" poemasını yazan B.Vahabzadədir, X.Rza niyə onun adını çəkmədi?

Əlbəttə, bu siyahını istədiyimiz qədər uzada bilərdik. Ancaq buna heç lüzum da görmürük. Çünki Əli Kərim kimi gözəl, "siyasətdən uzaq" Azərbaycan şairi də Lenindən məhəbbətlə söhbət açıbsa, deməli məsələnin başqa bir tərəfi də var. "Yest takaya partiya" şeirini yazan X.Rzanın "günah"ı S.Rüstəmin "günah"ından az deyil. Ona görə ki, S.Rüstəm yuxarıdakı şeiri otuzuncu, X.Rza səksəninci illərdə yazıb. Şairin "Silahım" şeirindəki bu misralara fikir verək:

Mənə elə gəlir ki, Lenin mənim qəlbimdə
Mənimlə bir doğulub.
İnsanlığın atası anama oğul olub.
Lenin azadlıq eşqi, Lenin azadlıq nuru,
Tarix boyu can atmış bəşər Leninə doğru,
Lenin bəşərə doğru.
O mənim varlığımda yaşayır məslək kimi,
Köksümdə ürək kimi...

Bu tipli misraların sayını istədiyimiz qədər artıra bilərik. “Lenin cüt gözümdə, nəbzimin vurğusunda, ürəyimin ən təmiz duyğusunda yaşayır”, – deyən X.Rza, əgər bu şeiri də xatırladıb, ədəbiyyatımızın ümumi nöqsanlarından danışsaydı, cəllad pəncəsinin altında yaranan sənət əsərlərindən söhbət açsaydı, onu yalnız alqışlayardıq.

Məlumdur ki, klassik poeziyamızda şairlərimiz öz əsərlərini Allahın, Peyğəmbərin tərifi ilə başlayırdılar. Sovet dövründə heç kəs bu cəsarəti edə bilməzdi. Ancaq S.Vurğun kimi qüdrətli bir nəfəsə malik şair öz sözünü həmişə sətiraltı da olsa deyə bilirdi. Özü də sənətin yüksək vüsəti ilə. “Vaqif” dramını xatırlayaq. Müəllifin əsəri Vidadinin aşağıdakı sözləri ilə başlamasını təsadüfi hesab etmək olarmı?

Xudaya, insanın halı yamandır,
Nələr çəkdiyimiz sənə əyandır.
Mənası varmıdır min təriqətin,
Aç, aç qapısını sən həqiqətin...

Adi oxucu misranın zahiri tərəfindən yapışıb tənqidə keçəndə heç adamın vecinə də deyil. Ancaq ömrünü ədəbiyyata həsr edən bir şəxs kütlə səviyyəsində danışanda adam özünə yer tapa bilmir.

Yaxud, S.Vurğunun “Oktyabr” şeirinə nəzər salaq:

Sən ellər toyusan, ellər bayramı,
Könüllər mülkünün laləzarısan.
Mən səndən almışam eşqi, ilhamı,
Sən şair ömrünün ilk baharısan.

Şeiri oxuduqca S.Vurğun qələminin ecazkar gücü adamı heyran edir. Bizə irad tutarlar ki, şair oktyabrı tərənnüm edib. Xeyir, şair əslində arzuladığı bir bayramdan söhbət açır. Şeirin bir yerində də oktyabr sözü yoxdur. İstəyirsiniz

şeirin sərlövhəsini dəyişib “28 may” qoyaq və Ə.Cavad da daxil olmaqla müasir şairlərimizin üçrəngli bayrağımıza, müstəqilliyimizə həsr etdikləri şeirlərlə onu müqayisə edək bədii sənətkarlıq baxımından. Hə, bu, şeirin zahiri tərəfini görənlərə qətiyyən sərf etməz.

“Lenin” poemasını yazan R.Rza görəsən nəyə görə bu misranı qələmə alıbmış: “Aydındır şeirin dili, nadan min il oxuya, yenə bir şey anlamaz...”

Orta məktəb müəllimləri R.Rzanı mənim gözümdən elə salmışdılar ki, heç onun əsərlərini də oxumaq istəmirdim. Çünki etiraf etməliyik ki, ədəbiyyat müəllimlərimiz çox səviyyəsizdirlər. Şeir əzbərləməklə, tarixi faktlar göstərməklə ədəbiyyatçı oımaq mümkün deyil. Ədəbiyyatçıda ən azı poetik duyum olmalıdır. R.Rzanın “Lenin” poemasını görürlər, “Bağları sarı qum basdı” misrasının mənasını anlamırlar. “Lenin” poemasını gözə soxanlar “Qızılgül olmayaydı”nı bəyənmirlər. “Dana və balaca qız” şeirini oxumağa çoxunun hövsələsi çatmır. Çünki belələrinin gözü ancaq dananı görür.

R.Rzanın bir şeiri var: “Pəncərə”.

Pəncərəni açsam,
bol-bol hava gələr, üşüyərəm.
Pəncərəni bağlasam,
bir otaq havam qalar,
isti olar, töyşüyərəm...

Adi oxucunun dayazlığını dərk edən şair axırda kinayəyə keçir və deyir: “Üşüsəm yaxşıdı, ya töyşüsəm?”

Burada pəncərə simvolik obrazdır. Pəncərə ağızdır. Onu açsan, üşüyəcəksən, səni də Sibirə sürgün olunanların taleyi gözləyir. Pəncərəni (ağızı) bağlayıb danışmayanda isə partlayırsan, vicdan əzabı çəkirsən.

Son illərdə Azərbaycan poeziyasının tədqiqi ilə məşğul olduğumdan, əlimin altında kifayət qədər fakt var. Ona görə heç kəs istedadlı şairləri tənqid etmək hesabına hörmət qazanmağa çalışmasın Əli Kərim demişkən: “Zülməti korlar da görür, oğulsan, işığı gör”. Bəli, gəlin işığı görək, işığa doğru gedək...

**“168 saat” qəzeti, 4-11 avqust 1994.**

## AZƏRBAYCAN UŞAQ POEMALARININ İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Azərbaycan uşaq şairlərinin ən çox müraciət etdikləri ədəbi janrlardan biri də poemadır. Bu da təsadüfi deyildir. Zəngin ənənəyə malik olan bu janr sənətkarlara uşaqların həyatının maraqlı lövhələrini canlandırmaq, onların mükəmməl bədii obrazlarını yaratmaq imkanı verir. Uşaq üçün görümlülük, süjet, hadisə əsas olduğundan, təhkiyə üslubunda yazılmış poemalar, nağıllar daha çox maraq doğurur.

Müxtəlif ədəbi nəsilləri təmsil edən Azərbaycan şairlərindən M.Müşfiq, R.Rza, M.Rahim, M.Dilbazi, M.Rzaquluzadə, M.Seyidzadə, T.Elçin, Q.Qasımzadə, Ə.Kərim, T.Mahmud, M.Günər, İ.Tapdıq, M.Aslan, Z.Xəlil, M.Namaz, A.Kəmərli, E.Baxış, A.Əlizadə, Q.İsabəyli, Ə.Əlioğlu və başqalarının uşaqlar üçün yazdıqları poemalar, mənzum nağıllar mövzu rəngarəngliyi, bədii sənətkarlıq məziyyətləri ilə diqqəti cəlb edir.

Uşaq poemalarının əksəriyyətində xeyirlə şərin əbədi-əzəli münaqişəsinin bədii əksi ön planda dayanır. Nüvəsində xeyirlə şərin mübarizəsi dayanan konfliktlərin bədii həlli tərbiyəvi əhəmiyyət kəsb edir. Ona görə ki, belə əsərlərdə uşaq ədəbiyyatı üçün son dərəcə vacib olan bir mövzu – xeyirxahlıq, mərdlik təbliğ olunur.

M.Müşfiqin “Vuruşmalar”, “Qaya”, “Şəngül, Şüngül, Məngül”, “Kəndli və ilan” poemaları çoxdan yazılmalarına baxmayaraq indi də sevilə-sevilə oxunur. Ona görə ki, bu əsərlər həssas şair müşahidəsinin, yaradıcılıq axtarışlarının yekunu kimi meydana gəlmişdir. Bu əsərlərdə şair uşaqlara çox ciddi, sosial məsələlərdən sadə bir dillə söhbət açır.

“Vuruşmalar” poemasında bədii konflikt varlılar və yoxsullar arasındakı zidd münasibətləri əks etdirir. Şair öz oxucularına sadə, anlaşıqlı bir dillə dünya müharibəsinin yoxsullara gətirdiyi fəlakətdən söhbət açır.

M.Müşfiqin folklor materiallarına yaradıcı yanaşması, hadisələri müasir dövrlə əlaqələndirməyə çalışması, mövzuya uyğun forma tapması onun “Şəngül, Şüngül, Məngül”, “Kəndli və ilan” mənzum nağıllarının uğurunu şərtləndirən cəhətlərdəndir.

Poemada hər şeydən əvvəl xarakter olmalıdır. Ona görə ki, xarakterlərin mübarizəsi dramatizm doğurur. Xaraktersiz isə heç bir dramatik başlanğıcdan söhbət gedə bilməz. Bu sözlər uşaq poemalarına da aiddir. Təcrübə göstərir ki, uşaqlar kəskin dramatik konfliktə malik əsərləri daha maraqla oxuyurlar.

M.Seyidzadə folklordan yaradıcı şəkildə bəhrələnməyi bacaran yazıçılarımızdandır. Onun poemalarının, mənzum nağıllarının əksəriyyətinin bədii konflkti xeyirlə şər arasındakı münaqişəni əks etdirir. “Qoçaq Yaşar”da konflikt Yaşarla Baltadiş, “Çəkməçi”də çəkməçi Fərhadla zalım, xəbis şah, “Yel yerişli dayça”da zəhmətkeş Piri ilə evlər yıxan Orxan, “Su pərisi”ndə balıqçı İlqarla ölkənin şahı arasındakı ziddiyyətlərin bədii inikasıdır.

Poemada konfliktin bədii həlli də son dərəcə təbii olmalı, hadisələrin ümumi inkişafından doğmalıdır. Ona görə ki, bu mübarizədə kimin: xeyirin, yoxsa şərin, tənbəlin,

ya qoçağın, mərdin, ya namərdin qələbə çalmasının böyük tərbiyəvi əhəmiyyəti vardır.

M.Seyidzadənin poemalarında, mənzum nağıllarında da xeyirxahlığı təmsil edən qüvvələr şər qüvvələrə qalib gəlirlər. Yaşar, Fərhad, Piri və İlqar öz ağılları, dərrakələri, zəhmətsevərlikləri, mənəvi saflıqları ilə seçilirlər. Haqqında söhbət açdığımız əsərlərin süjetləri ayrı olsa da, qəhrəmanların taleyləri arasında bir uyğunluq vardır.

M.Dilbazinin uşaqlar üçün yazdığı poemalar, mənzum nağıllar da maraq doğurur. "Reyhan", "Xeyir və şər", "Balaca dostlarım", "Sevinc dünyası", "Babaların su həsrəti", "Qardaşlar", "Günəş eşqi" və s. kimi poema-nağılların mərkəzində də xeyirlə şərin mübarizəsi dayanır. Şair maraqlı süjetlər, hadisələr vasitəsi ilə uşaqları düzlüyə, doğruçuluğa, vətənpərvərliyə, xeyirxahlığa səsləyir.

M.Rzaquluzadə uşaqlar üçün poemalar, nağıllar yazarkən təkcə nağıl intonasiyasını saxlamaqla kifayətlənmir, xalqdan alınmış süjetləri dövrün tələbi ilə yeni istiqamətdə işləyir. Onun rəvayətlərdən istifadə edərək yazdığı "Torağay", "Gözəllik", "Aslan ürəyi", "Rəssam və hökmdar", "Uzun və böyük", "Yuxu dərmanı", "Adam – alim", "Qoruqçu", "Uşaq və at", "Körpələr", "Qurbağacıq", "Dirilik suyu", "Şirinbulaq" və sair əsərlərin hamısı öz məzmunları etibarilə ibrətamizdir. Şair balaca oxucularını heç kəsi yamsılamamağa, məddahlıq etməməyə, təmizliyə, saflığa, böyüklərə hörmət etməyə, təbiəti sevməyə səsləyir. Bu əsərlərdə nacinslik, lovğalıq, sözünün, özünün yerini bilməmək, natəmizlik, qorxaqlıq, nadanlıq tənqid hədəfinə çevrilir. Şairin "Qaranquş yuvası", "Zər yazılı mərmər kitab", "Məktəbə gedir Tokay", "Bakının axşamları", "Yaz yuxusu", "Sirli saz", "ovçu Elişlə qoçaq Aytəkinin nağılları"

və s. poemaları da öz ideya-bədii dəyərini itirməyən uşaq əsərləridir.

R.Rzanın “Təranənin oyuncaqları”, “Heyvanların yuxusu” poemaları Azərbaycan uşaq ədəbiyyatının gözəl nümunələridir. Xüsusilə birinci poemada balacaların xarakteri, onların arzu və düşüncələri, zəngin mənəvi dünyaları öz dolğun bədii əksini tapmışdır.

Uşaqları əməyə məhəbbət ruhunda tərbiyə etmək ədəbiyyatın qarşısında duran başlıca vəzifələrdəndir. Sadəcə əmək mövzusunda əsər yazmaqla, aktual mövzu arxasında gizlənməklə bu vəzifənin öhdəsindən gəlmək mümkün deyildir. Aktual mövzu öz yüksək bədii həllini tapanda əsər uğurlu və sirayətedici olur. Bu baxımdan Teymur Elçinin “Küsdü, barışdı Mərcan”, Əli Kərimin “Dənizdə şəhər”, Məstan Günərin “Din-dan”, Tofiq Mahmudun “Qəhrəman” poemaları maraq doğurur.

“Küsdü, barışdı Mərcan” poemasının balaca qəhrəmanları – İlqar,Vüqar, Elşən qayğıkeş, zəhmətsevər uşaqlar kimi yadda qalır. Onlar əl-ələ verib yağışın altında qalan pişiyə – Mərcana bir evcik tikirlər. Poemada uşaqların iş prosesinin təsviri olduqca canlı çıxmışdır.

“Dənizdə şəhər” poeması əfsanəvi Neft Daşlarının əməkçilərinə, “Qəhrəman” poeması isə Sosialist Əməyi Qəhrəmanı Sərdar İmrəliyevə həsr olunub.

“Din-dan” poemasında əmək cəbhəsində nəsillərin bir-birini əvəz etməsi prosesi çox canlı, təbii boyalarla öz bədii əksini tapmışdır. Dəmirçixanadan həmişə çəkic, zindan səsləri gəlir. Lakin müharibə düşəndən dəmirçilər cəbhəyə yollandığı üçün bu səslər kəsilir. Aradan bir müddət keçir. Kənd uşaqları – Bədir və Qədir cəbhəyə getmiş cavanları əvəz edirlər. Din-dan səsləri yenidən hər yanı bürüyür.

Vətənpərvərlik tərbiyəsində bədii ədəbiyyatın təsir gücü böyükdür. Bu mövzuda yazılmış poemalar içərisində Fikrət Sadığın "Vətənin əl boyda daşı" poemasını xüsusi qeyd etmək lazımdır. Bu poema istər məzmunu, istərsə də ideya-bədii keyfiyyətləri ilə öz aktuallığını heç vaxt itirməyən əsərdir. F.Sadıq öznəməxsus təhkiyə üslubuna yenə də sadiq qalır. Düşmən elçisinin əvvəlcə Metenin poladüz göy qılıncını, sonra göydəmir atı, daha sonra "Ölü çöl"ü istəməsi fonunda əfsanəvi qəhrəmanın xarakteri mərhələ-mərhələ açılır.

F.Sadıq həmin əsərin üstünə yenidən qayıtmağa mənəvi ehtiyac hiss etmiş, poemanı təzə fəsillərlə zənginləşdirmişdir. İstər poemaya nəsrlə yazılmış giriş, istər proloq, istər uşaqların "mərə-mərə" oyununun təsviri və s. babalarımızın həyatı, məişəti, vətən sevgisi haqqında poetik salnamə yaratmaq arzusuna xidmət etmişdir. Poemada şair qədim türk xalqlarının tarixinə nağıl, əfsanə prizmasından baxmışdır.

Tofiq Mirzənin "Bir topa daş", Aslan Kəmərlinin "Yadigar nağıl" poemaları vətənpərvərlik mövzusunda yazılmışdır. Ancaq yeri gəlmişkən onu da qeyd edək ki, dövrümüzün ab-havasını əks etdirən vətənpərvərlik mövzulu poemalara böyük ehtiyac vardır.

Müasir uşağın maraq dairəsi olduqca genişdir. O, nəinki adi həyat hadisələri ilə, heyvanlarla, quşlarla, bitkilərlə, habelə elm və texnikanın nailiyyətləri ilə, kosmosla maraqlanır. Teymur Elçinin "Qızulduz, Yaşar və Nur nənə", Əli Kərimin "Paşa, ulduzlar, uşaqlar" poemalarının qəhrəmanları da məhz belə uşaqlardır. Bu əsərlərdəki hadisələr uşaq fantaziyasına uyğundur.

Uşaqların həyatına, onların qəribə hərəkətlərinə, arzu və düşüncələrinə həsr olunmuş poemalardan Teymur Elçinin

"Tuk-tuk, tak-tak", İlyas Tapdığın "Cığal Bilal", Məstan Günərin "Fərdi azarkeş", Zahid Xəlilin "Səməndər", Məmməd Namazın "Qoşqar, Könül, dəniz" poemaları maraq doğurur.

Təzə dil açanlar üçün nəzərdə tutulan "Tuk-tuk, tak-tak" poemasının qəhrəmanı Turac yuxuda ikən onun dostları – pişik, it, xoruz, inək qapını döyüb öz dostlarını yuxudan oyatmaq, onunla oynamaq istəyirlər. Turacın dostlarının istər zahiri əlamətləri, istərsə də xasiyyətləri elə aydın təsvir olunub ki, babanın "Bu nədir?" sualına təzə dil açan uşaq asanlıqla cavab tapa bilir. Poemanın tapmacavari formada qurulması balacaların hadisələrə daha diqqətlə qulaq asmalarını təmin edir. Adlarını çəkdiyimiz əsərlərin qəhrəmanları – Bilal, Səməndər, Mürşüd, Qoşqar, Könül maraqlı bədii obrazlar kimi yadda qalır.

Təbiət gözəlliklərini uşaqlara sevdirmək, ağaclar, quşlar, heyvanlar haqqında poetik bir dillə söhbət açmaq həm balaca oxucuların dünyagörüşlərinin genişlənməsinə, həm də onların estetık zövqünün formalaşmasına mühüm köməkdir. Bu baxımdan İlyas Tapdığın "Meşənin mahnısı" poeması diqqəti cəlb edir. Əsərdə meşəni göz bəbəyi kimi qoruyan meşəbəyinin, habelə Azərbaycan təbiətini vurğunluqla tərənnüm edən Səməd Vurğunun maraqlı bədii obrazı yaradılıb.

Tofiq Mahmud təbiəti duyan, onu vurğunluqla tərənnüm edən, hər otu, hər çiçəyi xarakterik cizgilər vasitəsi ilə balaca oxuculara təqdim edən şairlərimizdəndir. Bu baxımdan onun "Meşənin rəngləri" adlı poeması daha çox diqqəti cəlb edir. Bədii sözün qüdrətinə arxalanan şair meşənin müxtəlif, bir-birinə bənzəməyən lövhələrini yaradır. Bu lövhələr tez-tez dəyişdiyindən təsvirlər yorucu təsir bağışlamır. Şair gah yağışlı, gah dumanlı, çiskinli, gah günəşli havalar-

da, gah səhər, gah günorta, gah axşam, gah gecə vaxtı oxucunu meşəyə qiyabi səyahətə aparır. Ayrı-ayrı, bir-birinə bənzəməyən lövhələr hamısı birlikdə meşəni tam təsəvvür etmək imkanı yaradır.

“Abşeronun sahilləri” poemasında Orxan və Süsənin yaddaqalan bədii obrazı yaradılmışdır. Şair Abşeronun öznəməxsus gözəlliklərinə bu balaca qəhrəmanların gözü ilə baxmağa çalışmış, hadisələrə maraqlı, uşaq xarakterinə uyğun bədii forma tapa bilmişdir.

T.Elçinin, F.Sadığın, H.Ziyanın, M.Aslanın, Z.Xəlilin, Q.İsabəylinin, M.Namazın, E.Baxışın poemalarında folklor motivləri olduqca güclüdür. Yaxşı cəhətdir ki, bu şairlər xalq arasında yayılmış hər hansı nağılı, əfsanəni nəzmə çəkmək yolu ilə getmir, xalq yaradıcılığından yaradıcı şəkildə bəhrələnirlər. Onların əsərlərinin süjet və kompozisiyasından, bədii formasından çox, ideya-məzmunu, ruhu folklora yaxındır. Bu şairlərin qələmindən çıxmış poemaların əksəriyyəti xalq yaradıcılığını mükəmməl bilən, uşaq psixologiyasına yaxından bələd olan sənətkar təxəyyülünün məhsuludur.

T.Elçinin “Toğrul babanın nağıl ağacı” poeması ayrı-ayrı ibrətamiz nağılların birləşməsindən əmələ gəlmişdir. Əsərə verilmiş obrazlı ad poemanın ideya-məzmununu dərindən anlamağa kömək edir. Uşaqlar öz kökləri ilə torpağa, xalqın adət-ənənələrinə möhkəm bağlanan bir ağacın – Toğrul babanın başına toplaşıb onun nağıllarını maraqla dinləyirlər.

Əgər “Kilimçi”də məşhur xalq oyunundan danışılırsa, “Ağ göyərçin” nağılında yoxsul bir ananın balalarına sonsuz məhəbbəti tərənnüm olunur. “Elçi gəldi Təpəgöz” nağılında xalq müdrikliyinin, hazırcavablığının şahidi oluruq. “Nar

bağı"ndə əsrlərcə xeyirlə şər arasında gedən mübarizə yeni şəkildə öz poetik əksini tapıb.

Nağıl formasında yazılmış əsərləri uşaqlar daha maraqla oxuyurlar. Babalar heç vaxt baş qatmaq xətrinə nağıl söyləməyiblər. Nağıllarda həmişə dərin ictimai məzmun olmuş, xalqın arzu və istəkləri bu və ya digər şəkildə onlarda öz bədii əksini tapmışdır.

T.Eıçinin "Səyahət" poeması bütünlükdə şair təxəyyülünün məhsuludur. Əsərin mövzusu keçmişdən deyil, müasir həyatımızdan götürülmüşdür.

M.Aslan uşaqlar üçün yazılmış gözəl şeirlərin, hekayələrin, poemaların müəllifidir. "Sağalmaz yara" əsərində şair həm mənəvi saflığın xəbislik üzərində qələbəsini, həm də anaların balalara sonsuz məhəbbətini əks etdirməyə müvəffəq olmuşdur. "Qoca müəllim" poemasında isə ağsaqqala, böyüyə hörmət motivləri ön plana çəkilmişdir. Döyüşdən qəhrəman kimi gələn bir gənc kəndlərində öz heykəli ilə qarşılaşır. O, qoca müəllimini gecə ikən yanına çağırtdırıb deyir: "Bir vaxt mənə demişdin ki, dünya dağılsa, səndən adam olmaz. İndi görürsən ki, mən qəhrəmanam."

Qoca müəllimin cavabı çox mənalıdır. O deyir ki, qəhrəmanlığına sözüm yoxdur. Ancaq gecənin bu vaxtında ayaq üstə durmağa taqəti qalmayan şikəst müəllimini öz ayağına gətirmək insanlıq deyil. Görünür o vaxt acıqlanıb sənə dediyim sözdə həqiqət var imiş.

Belə bir atalar sözü var: "Böyük sözünə baxmayan böyürə-böyürə qalar". M.Aslanın digər bir əsərində – "Dəvələr niyə gövşəyir" poemasında köşəyin simasında anasının sözünə baxmayanların aqibəti ümumiləşdirilmişdir.

"Tənha ev" mənzum nağılında el-obadan ayrı düşüb insan kimi yaşamağın qeyri-mümkünlüyü maraqlı bir süjet ətrafında təbii boyalarla əks olunub. Cavanlıqlarında meşə-

nin gözəl bir guşəsində ev tikib yaşayan Abbas baba və Gülgəz nənə ömürlərinin son çağlarında dərk edirlər ki, eldən ayrı yaşamaq nəinki mümkün deyil, həm də insanın faciəsidir.

M.Aslanın "Umsuq ayı", "Səhəri kim açır" poemalarının da tərbiyəvi əhəmiyyəti vardır.

Tanınmış uşaq yazıçısı Məmməd Namaz öz balaca oxucuları üçün xeyli poema, mənzum nağıl yazmışdır. Onun belə əsərlərinə misal olaraq "Analar kövrək olur", "Uruz da bir Uruzdu", "Dörd ürək, dörd vətən", "Sarıköynəklər şəhərdə", "Yuxuda gül görən qız", "A balıqlar, ayıq olun" nağıl-poemalarını göstərə bilərik. "Uruz da bir Uruzdu" nağıl-poemasında Uruzun qəhrəmanlığa səsləyən laylalar altında böyüməsi, onun cəngavərliyi, hünəri bədii təsvirin mərkəzindədir. Poemada qəhrəmanlığa, vətənpərvərliyə çağırş motivləri ön plandadır.

Zahid Xəlilin "Sərçələr", "Qaraqulaq ağ küçük" poemalarında zalımlığa, oğruluğa el nifrəti simvolik şəkildə ümumiləşdirilmişdir. Hər iki poemanın konflikti haqqın, ədalətin qələbəsi ilə öz bədii həllini tapır. Şairin "Ovçu Paşabəlanın macəraları", "Sıfırın nağılı", "Dəcəl çəpiş və qumral quzu", "Siçanların kələyi", "Çinarların yuxusu" poemaları uşaq ədəbiyyatımızın maraqlı, tərbiyəvi əhəmiyyətə malik nümunələridir.

İstedadlı şair Eldar Baxışın uşaqlar üçün yazdığı poemalar istər mövzu aktuallığı, ideya-bədii məzmun, istərsə də bədii sənətkarlıq baxımından diqqəti cəlb edir. Eldarın "Nəbinin nağılı" poemasının mərkəzində əfsanəvi xalq qəhrəmanı Qaçaq Nəbinin taleyi dayanır. Sadə, oynaq dildə yazılmış bu əsərin ən yaxşı cəhəti odur ki, uşaqlığı kənddə keçən Nəbinin xarakterinin xalq təfəkküründən süzülüb

gələn nağıllar, əfsanələr, qəhrəmanlıq dastanları zəminində formalaşmasını göstərməyə nail olub.

“Qaravun dərənin uşaqları” dramatik poemadır. Əsərin qəhrəmanlarını: Bəyaz nənəni, Turalı, Selcanı, Tuncəli müharibədə qəhrəmanlıqlar göstərən, döyüşdən sonra başını aşağı salıb quruculuq işləri ilə məşğul olan insanların taleyi maraqlandırır. Onların axtarış aparıb davadan ən gec qayıdan döyüşçülərdən birini tapmaları, onun şərəfinə abidə ucaltmaları poemada öz maraqlı bədii əksini tapmışdır. Əsərin mərkəzində sadə, təvazökar insana qayğı problemi dayanır.

“Ördək şəhərə gedir” əsl uşaq poemasıdır. Əsərin çox sadə süjeti var. Müəllif ördəyi qatara mindirib şəhərə aparır və yenidən kəndə qaytarır. Yolda, eləcə də şəhərdə ördəyin başına qəribə əhvalatlar gəlir.

Həyatın, cəmiyyətin inkişafı ilə bərabər, müasir insanın, o cümlədən uşağın da xarakterində müəyyən dəyişikliklər əmələ gəlir. İndiki uşaq otuz-qırx il bundan əvvəlki uşaq səviyyəsində deyildir. Onun yaşayış tərzi də, dünyagörüşü də, həyata münasibəti də, mühakiməsi də əvvəlki illərin uşaqlarından seçilir. Tez-tez valideynlərdən bu sözləri eşitmək olur: indiki uşaqlar  möcüzədir.

Şairlərimiz, yazıçılarımız heç vaxt bu həqiqəti, indiki uşaqların möcüzə olduğunu unutmamalı, yeni dövrün uşaqları üçün yeni tipli əsərlər, poemalar yazılmalıdır. İndiki uşaqların həyatına həsr olunmuş, onların mükəmməl bədii obrazı yaradılmış poemalara böyük ehtiyac vardır. Ümid etmək istərdik ki, XXI əsrdə şair və yazıçılarımız balalarımızın sevincinə səbəb olan, onların mənəvi-əxlaqi təkamülünə kömək edən, milli mənlik şüurunun oyanmasına zəmin yaradan, bədii dəyəri ilə diqqəti cəlb edən əsərlər yaradacaqlar.

## "UŞAQLAR ÜÇÜN YAZMAQ ÇƏTİN VƏ ŞƏRƏFLİDİR"

Tənqidçilərin birinci ümumittifaq seminarında

Bu yaxınlarda Moskvada gənc tənqidçilərin birinci ümumittifaq seminarı keçirilmişdir. On gün davam edən seminarda uşaq və gənclər ədəbiyyatının aktual problemləri geniş müzakirə olunmuşdur. Respublikanın gənc tənqidçilərini şəhərimizin sakini, şair Rafiq Yusifoğlu təmsil etmişdir. Onun seminarla bağlı qeydlərini oxucularımızın diqqətinə çatdırırıq.

"Uşaq və gənclər ədəbiyyatının həmişə diqqət mərkəzində olması heç də təsadüfi deyildir. Seminarı "Yunost" jurnalının baş redaktoru, şair A. Dementev açdı.

Uşaq ədəbiyyatını öyrənən beynəlxalq cəmiyyətin prezident müavini İ.P.Motyaşovun, RSFSR Yazıçılar İttifaqı idarə heyətinin katibi, SSRİ Dövlət mükafatı laureatı A.Q.Aleksinin, SSRİ Yazıçılar İttifaqının bədii tərcümə şurasının məsul katibi V.X.Qəniyevin, tənqidçilərdən B.P.Aleksandrovun, S.L.Slojenkinanın, V.İ.Maslovskinin, L.E.Razqonun məruzələrində müasir uşaq ədəbiyyatının inkişaf perspektivləri, uğurları və nöqsanları öz əksini tapmışdı.

Pedaqoji elmlər doktoru Y.A.Azarovun, fəlsəfə elmləri namizədi E.P.Vasilyevanın, pedaqoji elmlər namizədi E.İ.İvanovanın məruzələri seminar iştirakçılarının marağına səbəb oldu.

V.İ.Aleksandrov, V.M.Akimov, D.V.Krasnovski, A.İ.Pistunova və İ.İ.Strelkovanın rəhbərlik etdikləri qruplarda gənc tənqidçilərin yaradıcılıq nümunələri geniş müzakirə

olunurdu. Biz tənqidçi İ.İ.Strelkovanın qrupuna düşmüşdük. Qrupumuzda məndən başqa Estoniya, Özbəkistan, Ukrayna, Qırğızıstan və Qazaxıstanın gənc tənqidçiləri iştirak edirdilər.

Seminar iştirakçılarının uşaq kitab evində, "Detskaya literatura", "Molodaya qvardiya", "Malış" nəşriyyatlarının, "Detskaya literatura", "Pioner" jurnallarının əməkdaşları ilə görüşü maraqlı oldu."

**"Sosialist Sumqayıtı", 10 dekabr 1982-ci il.**

## GƏNC TƏNQİDÇİLƏRİN İKİNCİ ÜMUMİTTİFAQ SEMİNARI

Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin "Uşaq ədəbiyyatını daha da inkişaf etdirmək tədbirləri haqqında" qərarından sonra ölkəmizdə uşaq və gənclər üçün ədəbiyyata maraq güclənmiş, SSRİ xalqlarının dillərində bir çox gözəl əsərlər yaranmışdır.

Bu yaxınlarda SSRİ Yazıçılar İttifaqı idarə heyətinin və ÜİLKGİ Mərkəzi Komitəsinin qərarı ilə ölkəmizin paytaxtı Moskvada gənc tənqidçilərin İkinci Ümumittifaq seminarı keçirilmişdir. On gün davam edən bu seminarda uşaq və gənclər ədəbiyyatının aktual problemləri geniş müzakirə olunmuşdur. Respublikamızın gənc tənqidçilərini filologiya elmləri namizədləri Vilayət Quliyev və Rafiq Yusifoğlu təmsil etmişlər. Aşağıda Rafiq Yusifoğlunun seminardan qeydlərini dərc edirik.

Səməd Vurğun "Balalarımız üçün gözəl əsərlər yaradaq" adlı məqaləsində yazırdı: "Biz uşaqla danışdığımız za-

man insanla danışdığımızı, uşaq üçün yazdığımız zaman insan üçün yazdığımızı unutmamalıyıq."

Doğrudan da, uşaqları sevmədən, onların psixologiyasına yaxından bələd olmadan gözəl sənət əsərləri yaratmaq mümkün deyildir. Uşaq ədəbiyyatı ümumi ədəbiyyatın ayrılmaz tərkib hissəsidir. Bu ədəbiyyatın qarşısında gənc nəsli tərbiyə etmək kimi çox mühüm bir vəzifə dayanır. Bu baxımdan uşaq və gənclər ədəbiyyatının həmişə diqqət mərkəzində olması təsadüfi deyildir.

Tənqidçilərin ikinci ümumittifaq seminarını Sosialist Əməyi Qəhrəmanı S.V.Mixalkov açdı. O, uşaq və gənclər ədəbiyyatının qarşısında duran vəzifələrdən danışdı. Qeyd olundu ki, vətənpərvərlik və əmək tərbiyəsində, uşağın xarakterinin formalaşmasında bədii ədəbiyyatın təsir gücü böyükdür. Lakin aktual mövzu arxasında gizlənməklə bu vəzifənin öhdəsindən gəlmək mümkün deyildir. Mövzu öz yüksək bədii həllini tapanda əsər müvəffəqiyyətli və sirayətedici olur.

Məruzəçilərin əksəriyyəti əsasən bi fikirdə idilər ki, uşaqlar üçün yazılmış əsərlərdə hər cür həyati problem qaldırmaq olar və bu zəruridir. Burada əsas məsələ mövzunun öz yüksək bədii həllini tapa bilməsidir.

Həyatın, cəmiyyətin inkişafı ilə bərabər, müasir insanın, o cümlədən uşağın da xarakterində müəyyən dəyişikliklər əmələ gəlir. İndiki uşaq 30-40 il bundan əvvəlki uşaq səiyyəsində deyildir. Onun yaşayış tərzi də, dünyagörüşü də əvvəlki illərin uşaqlarından seçilir. Tez-tez valideynlərdən bu sözləri eşitmək olur: indiki uşaqlar möcüzədirlər.

A.Q.Aleksin öz məruzəsində çox doğru qeyd etdi ki, zəngin xarakter yaratmaq uşaq ədəbiyyatının qarşısında duran ən mühüm yaradıcılıq problemlərindəndir.

Fəlsəfə elmləri namizədi Y.P.Vasilyevanın, pedaqoji elmlər namizədi E.İ.İvanovanın, psixologiya elmləri namizədi Z.N.Novlyanskayanın məruzələri seminar iştirakçılarının marağına səbəb oldu.

Etiraf olundu ki, müasir uşağın maraq dairəsi genişdir. O, nəinki adi həyat hadisələri ilə, heyvanlarla, quşlarla, bitkilərlə, habelə elm və texnikanın nailiyyətləri ilə maraqlanır.Təbiət gözəlliklərini uşaqlara sevdirmək, ağaclar, quşlar, heyvanlar haqqında poetik bir dillə söhbət açmaq həm balaca oxucuların dünyagörüşünün genişlənməsinə, həm də onların estetik zövqünün inkişafına mühüm köməkdir.

Qruplarda gənc tənqidçilərin yaradıcılıq nümunələri müzakirə olunurdu. Mən və V.Quliyev qocaman tənqidçi L.E.Razqonun qrupuna düşmüşdük. Qrupumuzda bizdən başqa Moskva və Leninqradın gənc tənqidçiləri də iştirak edirdilər.

Seminarda qeyd olundu ki, uşaq və gənclər ədəbiyyatının tədqiqi hələ günün tələbləri səviyyəsində deyildir. Düzdür, ayrı-ayrı kitablar haqqında resenziyalar yazılır, ancaq təəssüf ki, belə məqalələrdə çox zaman təsvirçilik elmi təhlili üstələyir.

Uşaq kitab evində müasir şair və yazıçılardan Valentin Berestov, Vladimir Jeleznikov, Roman Sef, Yuri Kuşak və Boris Kamovla seminar iştirakçılarının görüşü keçirildi. Yazıçılar tənqidçiləri maraqlandıran suallara cavablar verdilər, öz yaradıcılıq planlarında söhbət açdılar.

"Detskaya literatura" jurnalının yaradıcı heyəti ilə tənqidçilərin görüşü də maraqlı idi. Etiraf olundu ki, uşaqlar üçün çap olunan əsərlərin böyük bir qismi zəif, yaxud orta səviyyəli əsərlərdir. Adi oxucu yaxşını pisdən seçməyə

çətinlik çəkir. Elə buna görə də tənqidçilərin məsləhətinə xüsusi ehtiyac duyulur.

Yekun iclasında seminar rəhbərlərinin hesabatı dinlənildi. "Detskaya literatura" jurnalının baş redaktoru S.P.Alekseyev gənc tənqidçilərə yeni yaradıcılıq nailiyyətləri arzuladı.

**"Ədəbiyyat və incəsənət" qəzeti, 21 mart 1986-cı il.**

## KİTAB BAYRAMI

Son illərdə ölkəmizdə uşaq ədəbiyyatına maraq xeyli güclənmişdir. Təsadüfi deyil ki, hər il ayrı-ayrı respublikalarda ənənəvi kitab bayramları təşkil olunur.

Bu il uşaq ədəbiyyatı günləri Qazaxıstanda keçirildi. Yazıçılar Qazaxıstanın dörd: Aktubinsk, Kustanay, Pavlodar və Taldı Kurqan vilayətlərində çıxış etdilər.

Kitab bayramında Azərbaycan uşaq yazıçılarını Zahid Xəlil və bu sətirlərin müəllifi (Rafiq Yusifoğlu) təmsil edirdi. Z.Xəlil Aktubinskə, mən isə Taldı Kurqana ezam olunmuşdum.

Vilayətdə bizi çox yaxşı qarşıladılar. Məlum oldu ki, Qazax xalqı toy-bayram əhvali-ruhiyyəsindədir. Onlar da bizim kimi ilk dəfə Novruz bayramını təntənə ilə qeyd ediblər.

Əvvəlcə vilayət partiya komitəsində yazıçılarla partiya işçilərinin görüşü keçirildi. Vilayət partiya komitəsinin katibi Q.Tanirberqenova yoldaş Taldı Kurqanın keçmişi, bu günü və gələcəyi haqqında yazıçılara məlumat verdi. Taldı Kurqanda iştirak edən yazıçıların nümayəndə heyətinin başçısı Roman Sef qonaqpərvər qazax xalqına, onun ziya-

lılarına, qulluqçularına, fəhlələrinə öz minnətdarlığını bildirdi.

Şəhərin mərkəzi kitabxanasında dəyirmi stol arxasında söhbət oldu. Kitabxana işçiləri, müəllimlər, ayrı-ayrı peşə və sənət sahibləri çıxış etdilər, yaxşı uşaq kitablarının azlığından şikayətləndilər. Yazıçılardan Roman Sef, Yuri Kuşak, Anna Mass, Leonid Yaxnin. Viktor Lunin, Albert Loçmelis, tənqidçi Aurila Vinsas və başqaları oxucuların suallarına cavablar verdilər. Onlar müasir uşaq ədəbiyyatının qarşısında duran problemlərdən danışdılar.

Səhərisi gün bizi qruplara ayırıb, vilayətin ayrı-ayrı rayonlarına göndərdilər. Aurila Vinsas (Vilnüs) və mən Təkəli şəhərinə getdik.

Təkəli çox mənzərəli bir yerdə, Yeddi suyun (yeddi çayın) çağladığı ərazidə yerləşir. Dağlar qoynunda salınmış bu şəhər öz gözəlliyi, təmizliyi ilə diqqəti cəlb edir.

Şəhər mədəniyyət sarayı bayramsayağı bəzədilmişdi. Məktəblilər son dərəcə maraqlı kompozisiya ilə çıxış etdilər. Sonra söz bizə verildi. Aurila Vinsas müasir ədəbiyyatın problemlərindən danışdı. Mən isə daha çox şeir oxumağa üstünlük verdim.

Səhərisi gün şəhər musiqi məktəbinin binasında dil-ədəbiyyat müəllimləri ilə bizim görüşümüz oldu. Müəllimlər ədəbiyyatın tədris problemlərindən danışdılar. Biz onların verdikləri suallara cavablar verdik.

Şəhər texniki peşə məktəbinin şagirdləri ilə keçirilən görüş də maraqlı idi.

Martın 26-da bizi Taldı Kurqandan Alma-Ataya yola saldılar. Yolüstü Çokan Vəlixanovun qəbrini ziyarət etdik, onun adını daşıyan dövlət muzeyinə baxdıq.

Martın 27-də bütün vilayətlərdə olan yazıçılar Alma-Ataya toplaşmışdılar. Kitab bayramında ADR-dən, Bol-

qarıstandan, Çexoslovakiyadan, Polşadan, Vyetnamdan və Monqolustandan da yazıçılar, tənqidçilər, naşirlər gəlmişdilər.

Səhər-səhər Qazax ədəbiyyatının banisi Abayın heykəli önünə gül dəstələri qoyduq. Pionerlər sarayında kitab bayramının təntənəli açılışı oldu. Yazıçılar, eləcə də məktəblilər çıxış etdilər. Günün ikinci yarısında Yazıçılar İttifaqında Mətbuat konfransı keçirildi. Qazax uşaq ədəbiyyatının ağsaqqallarından biri, Müzəffər Alimbekov yazıçıların Qazaxıstana gəlişini fərəhli hadisə kimi qiymətləndirdi. Mətbuat konfransında nümayəndə heyətinin başçısı Sergey İvanov, tənqidçi B.Aleksandrov, yazıçı və şairlərdən Y.Akim, V.Berestov, Y.Kuşak, Z.Xəlil, R.Sef və başqaları çıxış etdilər. "Yaxşı uşaq ədəbiyyatı uşağa ana südü kimi gərəkdir" – Z.Xəlilin bu fikri maraqla qarşılandı.

Mətbuat konfransından sonra bizi yenidən qruplara bölüb, ayrı-ayrı məktəblərə göndərdilər. R.Sef, A.Mass, L.Yaxnin, V.Lunin, A.Loçmelis və mən Alma-Atadakı 27 nömrəli orta məktəbdə çıxış etdik.

Çıxışlarımız maraqla qarşılanırdı. Lakin Qazaxıstanda milli məktəblərin azlığı yazıçıların təəssüfünə səbəb oldu. Ancaq qeyd elədilər ki, son illərdə milli mədəniyyətə, doğma dilə münasibət tamamilə dəyişib, Qazaxıstanda iki dillilik, daha doğrusu qoşa dillilik problemi meydana çıxıbmış.

Yazıçılardan A.Mass, N.Lemm, V.Lunin, Vasil Dovjik və Eslam Zikibayev respublika uşaq kitabxanasında keçirilən "Nə? Harda? Nə vaxt?" adlı ədəbi oyunda iştirak etdilər. Finalda 28, 30 və 131 nömrəli məktəblərin şagirdləri çıxış edirdilər. Fasilə vaxtı yazıçılar öz əsərlərindən nümunələr oxudular.

V.İ.Lenin adına sarayın qarşısındakı meydanda çıxış etdik. Mənim "Morkov" ("Kök") şeirimi çox yaxşı, alqış-

larla qarşıladılar. Şənliklərdə məşhur Qazax yazıçılarından Həmid Erqaliyev, Adi Şəripov, Siqinqali Seitov, Saken İmanasov, Seyidhəmid Berdiqulov, Kazıxan Aşipov, Nukasım Kazıbekov və başqaları iştirak edirdilər.

Ayın 28-də Qazaxıstan Yazıçılar İttifaqında müasir qazax uşaq ədəbiyyatına həsr olunmuş müşavirə keçirildi. İclası Oljas Süleymenov açdı. M.Alimbekov müasir qazax uşaq ədəbiyyatı haqqında məruzə etdi. Məruzə ətrafında çıxışlar oldu.

Martın 29-da kitab bayramının bağlanışı oldu. Qazaxıstan Yazıçılar İttifaqı idarə heyətinin katibi Ulubəy İspəyov, polyak şairi, "Plomeçek" jurnalının baş redaktoru Tedeuş Xudı, Vyetnam yazıçısı To Xoay, belorus şairi Vladimir Lipski, Ukrayna şairi Anatoli Kaçan, Azərbaycan yazıçısı Z.Xəlil, rus yazıçılarından S.İvanov, Y.Akim və başqaları çıxış etdilər. Sonra böyük bayram konserti oldu.

Qazax mətbuatı bizim tədbirləri geniş işıqlandırırdı. "Drujnaya rebyata" qəzeti Z.Xəlilin uşaq ədəbiyyatı haqqında mülahizələrini, mənim bir şeirimi çap eləmişdi.

Qalan iki günü ekskursiyaya həsr etdik. Şəhərin görməli yerlərini, muzeyləri gəzdik. Medeoda olduq. Bir sözlə, Qazaxıstan torpağından xoş xatirələrlə ayrıldıq.

**"Ədəbiyyat və incəsənət" qəzeti,**
**14 aprel, 1989-cu il".**

## "TORPAĞIN ƏTRİ"

Filologiya elmləri doktoru, professor Qulu Xəlilovun "Torpağın ətri" adlı yeni kitabının mərkəzində aktual problem – torpaq və insan problemi dayanır. Müəllif yazır: "Torpaq ona görə doyumsuzdur, güclüdür ki, orada həyatın əlamətləri – yaşayış vasitələri tükənməzdir. İnsanın mənəvi və ruhi dünyasının, maddi varlığının mənbəyi və beşiyi olan torpaq onun zəruri tələblərini ödəyəndə əziz, doğma olur, anaya çevrilir".

Q.Xəlilov zəngin fakt və rəqəmlərlə, görkəmli alimlərin, yazıçıların əsərlərinə, qəzet və jurnal məqalələrinə, statistik məlumatlara, görüşüb tanış olduğu yüzlərlə adamın arzu və təkliflərinə əsaslandığından, onun mülahizələri, gəldiyi qənaətlər çox tutarlı, inandırıcı təsir bağışlayır. Bu işdə tədqiqatçılıq səriştəsi müəllifin köməyinə gəlmiş, onun kitabının bədii və elmi dəyərini xeyli artırmışdır. İnamla demək olar ki, "Torpağın ətri" kitabında toplanmış oçerklər həssas sosioloji tədqiqatın məhsuludur.

"İnsanlıq, paklıq o yerlərdə lövbər salır ki, orada qayğı, saflıq, təmizlik hakimdir. Təbiəti müflisləşdirmək, yoxsullaşdırmaq, torpağı yetimləşdirmək, insanların ruhunu yoxsullaşdırmaq deməkdir.

...Torpağın da dili var, o da insan kimidir. O da bəzən nəfəs almaq, dincəlmək istəyir, onu furqon atına döndərib hər şeylə yükləmək, şah damarını çəkib sormaq, kəmfürsətlikdir, insafsızlıqdır. Torpaqdan gözəlliyin üzülməsi faciədir, fəlakətdir".

Yaxşı cəhətdir ki, Q.Xəlilovun irəli sürdüyü bu tezislər havadan asılı qalmır, faktlar və rəqəmlərlə, müəllifin şahidi olduğu hadisələrlə daha da əyaniləşir, konkretlik kəsb edir.

"İstisu" qeydlərində Kəlbəcərin füsünkar təbiəti, bu dilbər guşədə yaşayanların arzu və düşüncələri, məişət tərzi, "Gözəllik diyarı" adlanan yazıda isə Gədəbəyin özünə-məxsus təbiəti, rayonun sosial-iqtisadi problemləri geniş əks etdirilir.

Həyat üçün zəmin yaradan on bir iqlim növünün doqquzunun Azərbaycan torpağında olması, onun yeraltı və yerüstü sərvətlərinin bütün dünyada məşhurluğu, insanların vətənimizi əsl cənnətə döndərmək uğrunda apardıqları mübarizə müəllifin qəlbini iftixar hissi ilə doldurursa, gördüyü qüsurlar, ana torpağa ögey münasibət onu narahat edir, həyəcanlandırır.

"Torpağın ulu tərənnümçüsü" adlı oçerkdə müəllif yazıçı və şairləri torpağı, təbiəti S.Vurğun kimi vurğunluqla sevməyə, tərənnüm etməyə səsləyir. O, S.Vurğun poeziyasının qüdrətli dili ilə təbiətə zülm edənləri, heyvanları, quşları rəhmsizcəsinə qıranları, meşələrə əl qaldıranları ittiham edir, onları saflığa, təmizliyə, ucalığa, Azərbaycanın şöhrətini, gözəlliyini daha da uzaqlara çatdırmağa çağırır.

Q.Xəlilov pambıqçılarımızın, tütünçülərimizin, üzümçülərimizin, maldarlarımızın əməyi haqqında bu işlərə yaxından bələd olan mütəxəssis kimi söhbət aça bilir.

İnsanın təbiətə, zümrüd donlu meşələrimizə, şəfa qaynağı bulaqlarımıza, öz mənbəyini dağlardan götürüb, tarlalarımıza həyat gətirən bol sulu çaylarımıza, gözəlliyi dillərdə dastan olan göllərimizə, bərəkətli tarlalarımıza biganə münasibəti müəllifin haqlı narahatçılığına, həyəcanına səbəb olur: "Torpaq çox dözümlüdür, təmkinlidir, qayğıkeşdir. Lakin torpaq insandan onun nemətlərinə laqeydlik, baxımsızlıq görəndə, kəmfürsətlik hiss edəndə sakit-sakit, tədricən insana elə zərbələr vurur ki, onu sonradan heç nə ilə əvəz etmək mümkün olmur.

...Torpağa əl qaldırmaq, onun yaratdıqlarının qədrini bilməmək, onu nankorcasına qəhr etmək insanın öz keçmişinə, təməlinə, bel sütununa balta endirməsi deməkdir.” – Çox doğru, məntiqi cəhətdən əsaslandırılmış fikirlərdir.

Kitabda toplanan bütün oçerklərdə Azərbaycan torpağını, yurdumuzun əsrarəngiz təbiətini dərin məhəbbətlə sevən bir alim – vətəndaş ürəyinin döyüntülərini hiss edirik.

**“Sovet kəndi”, 7 sentyabr 1985-ci il.**

## İLKİN BEŞİYİMİZ, SON ÜNVANIMIZ

İnsan yarandığı gündən torpağa güvənir, torpağa arxalanır. Torpaq qayğıkeş bir ana kimi insanı bəsləyir; yedirdir, içirdir, geyindirir, isti qoynunda ona sığınacaq verir. Torpaqla insan arasında ana-bala ünsiyyəti olub həmişə. Öz övladlıq borcunu dərindən dərk edən, ana torpağı qayğı ilə əkib-becərən, qadir əməyi ilə onun şoran sahələrini də yararlı hala salan, dilbər guşəyə döndərən fədakar insanların əməyi hər cür tərifə, alqışa layiqdir.

Azərbaycan torpağının istər yeraltı, istər yerüstü sərvətləri bütün dünyada məşhurdur. Lakin torpaq bu sərvətləri insana elə-belə, havayı vermir. Bunun üçün zəhmət çəkmək, alın təri axıtmaq, torpaqla bağlı peşə və sənətlərə mükəmməl yiyələnmək lazımdır. Əgər torpaq anadırsa, zəhmət atadır. Bütün yerdə qalan nemətlər: taxıl, meyvə, tərəvəz, pambıq, tütün və s. torpaq ananın və zəhmət atanın övladlarıdır.

Torpağın qədrini bil,
Torpaq məhək daşıdır.
Səp qoynuna, söyləsin
Nə pisdir, nə yaxşıdır.

O, safları bitirir,
Çürükləri itirir.

Bilmirəm səbəb nədir, təbiət torpaq deyəndə birinci növbədə gözlərim önündə meşə canlanır. Meşə yaşıl bir dənizdir, sağlamlıq dənizi. Bu dənizin qoynuna baş vurmaqdan, sap kimi nazik cığırlarla gəzib dolanmaqdan, belinə örkən dolanmayan qocaman ağacların önündə dayanıb düşüncələrə dalmaqdan həmişə zövq almışam. Mənə elə gəlib ki, meşə təbiətin ürək sözüdü. Ağacları, kolları qırmaq meşənin sözünü ağzında qoymaq, onu susdurmaq kimi bir şeydir. Ağaclar torpağın bağrından fışqıran yaşıl fəvvarələrdir. Onları qırmağı bu fəvvarələrin ağzına çiv-tıxac vurmağa bərabər tutmuşam. Gəzib dolandığım Çayzəmi, Seytas, Başarat, Fərcan, Süsən, Leşkər, Top, İsmayıllı, Qəbələ, Oğuz, Quba, Qusar, Lənkəran, Şuşa meşələri yaddaşıma ən əziz xatirə kimi həkk olunub. Hələ Hacıkənd, Göygöl zonasında olan meşələri demirəm.

Yadıma Bəsitçay vadisindəki nadir, özü də təbii çinar meşəsi düşür. Başı buludlara dəyən bu nəhəng çinarlar adamı heyran edir. Onların hərəsi gözlərimdə əfsanəvi qəhrəman Anteyə çevrilir. Ayağı torpaqdan üzülməyəndə arxasını yerə vurmaq mümkün olmayan qüdrətli qəhrəmana. Sevinirsən kı, Avropada birinci, dünyada ikinci yeri tutan təbii çinar meşəsi də doğma Azərbaycanımızdadır. Sısqa sulu Bəsitçaya, nəhəng gövdəli çinarlara baxa-baxa öz-özümə pıçıldayıram:

Suyu gur deyil deyə
Danlamayın Bəsiti.
Sahilində bu qədər
Çinar birib, bəsidi...

Meşə bizim xalqımızın əvəzsiz sərvətidir. Fərli övlad el sərvətini artırmaq qayğısına qalıb həmişə. Fərsiz övladınsa əlindən el malını dağıtmaqdan başqa bir şey gəlmir. Yadıma məşhur rus yazıçısı M.Prişvinin sözləri düşür: "Təbiəti qorumaq vətəni qorumaq deməkdir". Bu, doğrudan da, belədir.

Respublikamızın ayrı-ayrı rayonlarında, yaşayış sahələrində meşə zolaqları salmaq, yaşıllıq işləri görmək artıq ənənə halını alıb. Bu, çox yaxşıdır.

Elə rayonlar da vardır ki, onun torpaqlarında təbii meşə zolaqları uzanıb gedir. Buralarda süni meşə salmağa, becərmə işləri aparmağa da ehtiyac yoxdur. Təkcə ürəyində insaf olsun. Cavan pöhrələrə əl qaldırma. Qoy onlar boy atıb zümrüd donlu meşəyə çevrilsinlər.

Hər dəfə Qubadlıdan üzü yuxarı, Çayzəmiyə sarı gedəndə yolun ətrafında bitən saysız-hesabsız palıd, ulas, vən pöhrələrinə həsrətlə, ümidlə baxıram. İndiki pöhrələr də elə uşaqlıqda gördüyüm pöhrələr boydadı. Elə bilməyin ki, torpağın gücü, imkanı elə bu qədərdi. Yox, qətiyyən belə deyil. Bu pöhrəliklərə baxanda istər-istəməz yadıma insanlara od bağışladığı üçün cəzalandırılıb çarmıxa çəkilən Promotey düşür. Hər gün qartallar onun içini, içalatını didim-didim edib yeyirlər. Sabah yenə də daxili üzvlər bərpa olunur.

Bu pöhrələr də gözümdə insanlara təmiz hava, sağlamlıq gətirən yaşıllıq "tanrı"sına çevrilir. Bədxah əllər hər il onları doğrayır. Səbirli ağaclar isə için-için ağlaya-ağlaya yenidən göyərir, boy atır, yaşıllaşır, dirçəlirlər.

Yol boyu tək-tək qalan, kölgəsində bir sürü yerləşən nəhəng ağacları seyr etdikcə öz-özümə deyirəm: sağ əliniz bu günahsız pöhrələrin başına!

Dörd yanı tutan pöhrələrə ümidlə, inamla baxıram. Fikirləşirəm ki, kaş adamların ürəyində bir qırıq insaf ola,

bu füsünkar gözəlliyə qıymayalar. Təbiət bu bir qırıq insafı çox yüksək qiymətləndirərdi. Dağların qoynunda iri-iri ağaclar sıralanar, göz oxşayan, zümrüd donlu yeni bir meşə sahəsi yaranardı. Bu, kor qalmış bulaqların gözünü sevinc yaşları ilə doldurardı...

Məni boşalan, kimsəsizləşən, yetim qalan, tədriclə yer üzündən silinən kəndlərimizin taleyi çox narahat edir. Doğulduğum Çardaxlı kəndinin qonşuluğunda Qarağac adlı abad bir kənd varmış. Mən o kəndi görməmişdim. Lakin o kəndin insanlar üçün yadigar qalan sonuncu binasını ömrüm boyu unuda bilmərəm. Bu ikimərtəbəli binada Çardaxlı kənd məktəbi yerləşirdi. Atam həmin məktəbin direktoru idi. Məktəbin gözəl bir bağı var idi. Biz bu bağda torpağa məhəbbət dərsi öyrənmişdik. O bağ şagirdlərin əli ilə çəpərlənmişdi. Təzə-təzə ağaclar əkilib peyvənd edilirdi. Bağın məhsulunu yığıb-yığışdırmaq olmurdu. Hər sinfin öz torpaq sahəsi var idi. Əkib-becərən, əlinun bəhrəsini dadan uşağın sevincini təsəvvür edirsinizmi? Torpağa bağlı, onun dilini yaxşı bilən bağbanları – Səfəralı kişini, Məcid kişini unutmaqmı olar?

Bir dəfə uzun illərin ayrılığından sonra kəndə gedəndə gözlərimə inana bilmədim. Nə binadan, nə də ağaclardan əsər-əlamət qalmışdı. Sən demə insafsız və düşüncəsiz bir təsərrüfat rəhbəri əkin sahəsini genişləndirmək fikrinə düşüb. O bağın, o məktəbin yerində şum görəndə Sultanbud meşəsinə əl qaldıranlar yadıma düşdü. Elə qəzəbləndim, elə kövrəldim ki... Nəticədə “O bağın ağacları” adlı bir şeir yarandı və onun son misraları belə idi:

Əziz bala, zərrə qədər
Yalan yoxdu sözlərimdə.
Bax, o bağın ağacları
Bitib mənim gözlərimdə...

Azərbaycan torpağı çox bərəkətlidi, məhsuldardı. Bizim çoxumuzun, şəhərdə yaşayanların qismətinə isə Abşeron torpağı düşüb. Yaxşı ki, vaxtilə ilanlar mələşən səhraların – boz torpaq sahələrinin ağzına vurulan gözəgörünməz paslı qıfılın açarı tapılıb. Mən son illərdə zəhmətkeşlərə paylanan bağ sahələrini nəzərdə tuturam. Əsrlər boyu insan əlinin qayğısına, tumarına həsrət qalan torpaq huşdan təzə ayılan xəstə kimi göz açıb gülümsəyir, cana gəlir. Yaşıl bir ordu şəhərin hisi-pası, zəhərli havası ilə döyüşə hazırlaşır...

Şoran torpaqlarda, qumsallarda salınan bağları, bostanları görəndə istər-istəməz bu qənaətə gəlirsən ki, pis, bəhrəsiz torpaq yoxdur, pis təsərrüfatçı, tənbəl adam var. Görünür atalar torpaq haqqında bu sözü havayı deməyiblər: “Öldür məni, dirildim səni”.

Bir dəfə Sumqayıtın 12-ci mikrorayonu ilə üzbəüz, dəmir yol xəttinin yanı ilə cərgələnmiş bostanlardan birinə yolum düşdü. Cərgə-cərgə düzülmüş ləklərə baxanda heyrətimi gizlədə bilmədim. Torpaq insan əllərinin qayğısını necə də gözəl qiymətləndirir, mükafatlandırırmış... Bunlar adicə ləklər deyildi, insan əlləri ilə torpağa yazılmış, könül oxşayan şeirin misraları idi elə bil...

Mən ekoloji problemi ön cərgədə dayanan Sumqayıt şəhərində yaşayıram. Burada havanın, suyun, torpağın zəhərlənməsi hamı kimi məni də narahat edir. Yaxşı ki, zəhmətkeşlərin havanı, suyu, torpağı təmizləmək, “ölü zona”nı diriltmək harayı yüksək dairələrdə də əks-səda tapıb. Lakin hələ görüləsi işlər çoxdur. Ancaq pis cəhət odur ki, hamı “gözləmə” prinsipini üstün tutur. Adamlara elə gəlir ki, danışmaqla, tənqid etməklə iş bitir. Görüləsi işi onların özü yox, kimsə kənar qüvvə gəlib görməlidir.

Sumqayt gündən-günə böyüyür, qol-qanad atır, şaxələnir. Lakin yaşıllıqla binaların boy artımı arasında müqa-

yisə edilməz dərəcədə böyük fərq var. Çünki ağac əkmək, onu böyütmək qayğı, diqqət, vaxt tələb edir.

Hər il yaşıllaşdırma idarəsinin işçiləri ağac əkirlər. Ancaq çox çəkmir ki, əkilən fidanlar quruyur. Bəlkə bunun günahı torpaqdadır? Xeyir, qətiyyən belə deyil. Ağacları vaxtlı-vaxtında suvarmaq, onları becərmək unudulur, kimsənin yadına düşmür. Gələn il qurumuş ağacların yerində təzələrini əkirlər. Deməli, torpağa, onun yaşıllaşmasına çəkilən xərclər havaya sovrulur.

Biz balalarımızı torpağa məhəbbət ruhunda tərbiyə etməliyik. Təəssüf ki, bu işdə nöqsanlarımız həddindən artıqdır. Uşaqlar körpə ağacların qol-budağını qırır, öz yaşadıqları binanın divarlarını cızıq-cızıq eləyib biabırçı hala salır, lifti, ictimai nəqliyyatı imkanları daxilində şil-küt eləyirlər. Böyüklər isə laqeyd tamaşaçı mövqeyi tuturlar.

Hünərin var uşağa gözün üstündə qaşın var de. Ata-anası tapança kimi üstünə atılacaq. Valideyni belə olanın uşağından daha nə gözləyəsən?

Yaşıllığı sevən şəhərlilər həyətlərdə əkdikləri ağacların, gül-çiçəyin dövrəsinə çəpər çəkirlər. Bizcə, bu, yaşıllığı qorumaq üçün ən asan, sadə yoldur. Gərək biz uşaqları elə tərbiyə edək ki, ağacların dövrəsinə yöndəmsiz çəpərlər çəkməyə ehtiyac qalmasın.

Torpaq bizim həm ilkin beşiyimiz, həm də son ünvanımızdır. Ona görə torpağın qədrini bilmək hamının müqəddəs borcudur.

**“Azərbaycan təbiəti” jurnalı,**
**1990, №5.**

# EKOLOJİ TƏRBİYƏ

Torpaq, hava, su, od – bu dörd müqəddəs ünsür Allahın insanlara, canlılara bəxş etdiyi böyük nemətdir, yaşamaq zərurətini təmin edən başlıca amillərdir. Lakin bütün insanlar bu müqəddəs nemətlərin qədrini, qiymətini bilirmi, bir parçası olduğu təbiəti lazımi səviyyədə qoruya bilirmi?

Azərbaycan torpağı əsrarəngiz gözəlliyə malikdir. Onun başı qarlı uca dağları, bol sulu çayları, bulaqları, gölləri, dənizi, meşələri, yamacları, çəmənlikləri, düzləri var. Torpaqlarımızın altı da, üstü də sərvətlə doludur. On bir iqlim qurşağının doqquzunun Azərbaycanda olması da xalqımızın xoşbəxt taleyinə yazılıb. Ancaq görək bu xoşbəxtliyin qədrini hamımz lazımi səviyyədə bilirikmi?

Uzun illər sərvətlərimiz: neftimiz, qazımız, yeraltı, yerüstü xəzinəmiz, meşələrimiz talan olub. Nemətlər bolluğundan lazımi səviyyədə, qədərincə istifadə edə bilməyən insanlar təbiətin sinəsinə çalın-çarpaz dağlar çəkiblər.

Uzaq getməyək, elə götürək yaşadığımız Sumqayıtı. Yaxın vaxtlarda əlli yaşı tamam olan bu şəhər insan əlləriylə salınıb. Yurdumuzun bütün rayonlarından, şəhərlərindən, kəndlərindən Sumqayıta axın başlayıb. İş, xoş güzəran ardınca Sumqayıta gələnlər qazanc əldə etsələr də, ev-eşik sahibi olsalar da, onun zəhərli havasını udmağa başlayıblar. Sumqayıtda tikilib istifadəyə verilən nəhəng kimya zavodları böyük bir ölkəni – SSRİ-ni məhsulla təmin eləyib. Necə deyərlər, şəhərimizdəki zavodların istisinə özgələr isinib, tüstüsünə isə özümüz boğulmuşuq...

SSRİ dağıldıqdan sonra bütün sənaye müəssisələri, o cümlədən Sumqayıtın zavodları da iflic vəziyyətinə düşdü. Zavodlar sökülüb talandı. Buna sadəlövhcəsinə sevinənlər də oldu. Dedilər ki, Sumqayıtın havası əsl yaylaq havasına

çevriləcək... Millət qazanc dalınca zavodlardan çıxıb, bazarlara üz tutdu. Bu bazar iqtisadiyyatına keçid də xalqımıza bir bazar psixologiyası gətirdi. Bazar da özü ilə bərbər yeni-yeni problemlər yaratdı. Köhnə problemlərdən də hələ yaxa qurtara bilməmişik.

Nədir bu köhnə, həllini gözləyən problemlər? Zəhərlənmiş torpaq, hava, su... Yaşayış üçün təhlükəli olan istehsalat tullantıları...

Əlbəttə, bu problemlərdən yaxa qurtarmaq o qədər də asan deyildir. Bütün bu işləri görmək uzun vaxt, bir dəlinin quyuya atdığı daşı çıxarmaq üçün neçə-neçə ağıllının baş sındırması tələb olunur.

İnsan ən ali məxluqdur. Onun kimi qurub-yaradan başqa bir varlıq yoxdur yer üzündə. Təbiəti korlayan, məhv eləyən, oturduğu budağı kəsən də elə insanın özüdür. Ekologiyanı korlayan da insandır, təbiətə vurulan yaraları sağaltmaq istəyən də..

Elmin, texnikanın inkişafı ilə bərabər meydana gələn ekoloji problemləri həll etmık üçün birinci növbədə ekoloji mədəniyyət formalaşdırılmalıdır. Ümumi mədəniyyətimizin tərkib hissəsi olan bu mədəniyyəti formalaşdırmaq üçün ekoloji tərbiyənin prinsipləri müəyyənləşdirilməlidir. Təkcə müəllimlər yox, yaşlı, təcrübəli adamlar da ekologiyamızı korlayanlara qarşı barışmaz mövqe tutmalı, yeni nəsli yeni ruhda tərbiyə etməyə çalışmalıdırlar.

Sumqayıt Xəzərin sahilində salınmış gözəl bir şəhərdir. Düzdür, Abşeron torpağı şorandır, orada ağac əkib becərmək asan məsələ deyil. Ancaq bütün bunlara baxmayaraq, şəhərimizdə xeyli ağac əkilib becərilmişdir. Xüsusilə sahil parkını çox xoşlayırdım. Buradakı səliqə-səhman göz oxşayırdı. Necə deyərlər, burada gül-gülü, bülbülü çağırırdı. Eşitdiyimə görə bu parkda şəhərin əhalisinin sayı qədər

qızılgül kolları əkilibmiş. Parkdakı uca boylu ağaclar göz oxşayırdı. Adama elə gəlirdi ki, meşədəsən. Bu park həm insanların istirahət yeri idi, həm də havanı təmizləyən əvəzsiz təbii süzgəc...

Bəs indi bu parkın vəziyyəti necədir? Hanı əvvəlki səliqə-səhman? Hanı əvvəlki ağaclar? Nankor əllər bu ağacları qırıb talamaqla şəhərimizə böyük ziyan vurub...

Ağac ömrü insan ömrünü xatırladır. Ağac gözəllikdir, həyat rəmzidir. Ağac əkənlər, bağ salanlar dünyanın ən savab işini görənlərdir. Abşeron kimi bir yerdə bağ, xiyaban salmaq qəhrəmanlıqdır. Bir ağacı yaşatmaq, onu boya-başa gətirmək insan tərbiyə etmək kimi çətin və şərəflidir. Bakının, Sumqayıtın suyundan istifadə etdiyi Ceyranbatan gölünün ətrafında gözəl bir meşə zolağı salınıb. Bəs indi Ceyranbatan meşəsi nə gündədir? Bu kötüklər bir zaman öz çiyinlərində ağac ömrünün ağırlıqlarını daşıyıblar. İndi isə onlara baxanda adamın ürəyi ağrıyır. Bəlkə də hansısa işbaz bu qırılmış ağacların yerində restoran tikdirmək istəyir, bunu bilmirik. Ancaq onu bilirik ki, təbiət nə vaxtsa insandan intiqam alacaq. Yeni ağac əkməmiş boya-başa çatmış ağacları doğrayanlar xalqımızın qarşısında məsuliyyət daşıyırlar.

Təəssüf ki, ədəbiyyat və incəsənət tariximizə də çoxlarımızın münasibəti belədi: yenini yaratmamış köhnəyə balta çalmağa hər dəqiqə hazır olanlar var.

Mən televiziyada işləyən vaxt Ceyranbatan meşəsinin bu günü haqqında kəskin tənqidi süjetlə çıxış etdim. Bu, böyük əks-sədaya səbəb oldu. Kəsilmiş ağacların yerində yeni ağaclar əkdilər. Bu xeyirxah işi də ekran vasitəsilə işıqlandırdım. Yadımdadır, hər Ceyranbatanın yanından keçib işə gedəndə görkəmli şairimiz Məmməd Aslan yeni

əkilən ağacları göstərib zarafatla televiziya işçilərinə deyirdi: “Rafiq meşəsi”...

Təəssüf ki, bu ağac əkilməsi də kompaniya xarakteri daşıdı. Tezliklə kababxanalar, özü də itirilmiş torpaqlarımızın, çaylarımızın, göllərimizin adını daşıyan kababxanalar gənə kimi Ceyranbatan meşəsinin canına darışdı. Təəssüf ki, bu məsələ haqqında da hələ bir ölçü götürən yoxdur.

Zəhmətkeşlərin çəkdikləri əmək göstərir ki, Abşeron torpağı qumsal olsa da, burada hər cür ağac əkib becərmək mümkündür. Sumqayıtın təzə salınmış 18-ci mikrorayonunda, 35 №li məktəbin həyətində əkilib becərilən ağaclar dediyimə gözəl sübutdur. Ancaq bu ağaclar çox böyük zəhmət bahasına başa gəldi. Uşaqlar, hətta böyüklər bu ağacları imkan düşəndə qırıb talayırdılar. Axırda direktor məktəbin həyətini hasarlatmaq məcburiyyətində qaldı. Tezliklə ətraf məktəblərin də həyəti hasara alındı.

Bu hasarlara baxanda həmişə qəlbimdən qəribə hisslər keçib. Düşünmüşəm ki, kaş tərbiyə işimizi elə qura biləydik ki, hasara ehtiyac qalmasın, hündürmərtəbəli binaların balkonundan zibili xəcalət çəkmədən yerə tullamasınlar.

Şəhərin təmizliyinə nəzarət hamının borcudur. Bunun üçün məktəblərdə, əhali arasında ekoloji tərbiyə məsələləri ön planda dayanmalıdır.

## YUMRUQ KİMİ

Çox şey sərhəddən başlayır. Xalq, ölkə haqqında ilk təsəvvür də sərhəddə oyanır. Sərhəddini bilməmək, tanımamaq mənviyyatını itirmək kimi bir şeydi. Lakin təəssüflər olsun ki, uzun illər biz bunu unutmuşuq. Bədxah qonşularımız isə illərlə ərazilərimizə burun soxublar, mənəviyyatımızı təhqir hədəfi seçiblər. Ancaq biz onları qardaş deyə

bağrımıza basmışıq. Uf demədən, qızırğalanmadan vətən torpağının ayrı-ayrı parçalarını onlara güzəştə getmişik.

Ermənilər Yerevandan vurub gəlib Qızıldaşda özlərinə bağ evləri tikib yerlərini möhkəmləndirəndə bizim yaydan-yaya Vəldüzündə çadır evlər qondarıb istirahət etmək istəyən qubadlılara qəzəbimiz tutub. Rəhbərliyin qərarı ilə yaylağa köçmək qadağan edilib. Qonşularımız gözəl-gözəl evlər ucaldanda biz özümüzünkülərə çadır qurmağı da qadağan eləmişik. Bütün bunların nəticəsidir ki, gözəlliyini alaçıqlarımız, çadırlarımızla pozmaq istəmədiyimiz dilbər guşə – Vəldüzü indi qonşularımızın şum yerinə, əkin sahəsinə çevrilib. Elə bil ki, ermənilər Azərbaycanın özünü də əsrlərin şahidi olan nəhəng ağaclar kimi kökündən çıxarıb atmaq istəyiblər.

Ancaq əyri oturub düz danışaq. Tənbəlliyimizdən bu torpaqda heç iz də qoymamışdıq. Doğrudur, Zöhrab Məmmədovun Qubadlıda katib olduğu vaxtlarda bu sahədə müəyyən işlər görülmüşdü. Vəldüzündə ikimərtəbəli, yaraşıqlı bir restoran binası ucaldılmışdı. Bir az ondan aşağıda qonaq evi tikilmişdi. Çayzəmidə pansionat tikmək planlaşdırılırdı. Buraya Qubadlıdan asfalt yol çəkilmişdi. Lakin qonşularımız bu işdən bərk narahat oldular. Elə şərait yaratdılar ki, özümüzünkülər öz əlləri ilə çəkdikləri yolu uçurub dağıtdılar. Vəldüzü əldən çıxdı. “Azərbaycan” restoranının hərfləri tökülmüş adını özümüzə göz dağı elədilər.

Pansionatın tikintisi üçün yeni yer ayrıldı. Armudluğun başında, səfalı bir yerdə bünövrə qazıldı, xeyli iş görüldü. Ancaq qonşularımızın azğınlığı adamların əl-qolunu yenə də soyutdu. İndi elə şərait yaranıb ki, Əyindən o tərəfə aşıb, öz torpağımıza getməyə belə cəsarətimiz çatmır. Necə deyərlər, yavaş-yavaş öz içimizə çəkilirik. Sərhəd kəndlərimizi bo-

şaltmaqla təcavüzkar qonşularımıza yeni meydan veririk. Ancaq sözün düzü, kəndlərimizi özümüz öz xoşumuzla boşaltmağa başlamamışıq. İllər boyu yaşayış üçün yaxşı şərait, iş yeri olmadığından cavanlar üz tutublar şəhərə.

Nədənsə ilk vaxtlar bu, heç kəsi narahat etməyib. Zavodlarda, mədənlərdə qəhrəmanlıq göstərən gəncləri alqışlamışıq. M.Hüseynin "Abşeron" romanının qəhrəmanı Tahir Bayramlı kimi kəndə qayıtmaq istəyənləri fərari adlandırmışıq. S.Vurğunun "Muğan" poemasının qəhrəmanı Sarvanı Topçu meşəsindən ayırıb zərbəçi tikinti qəhrəmanına çevirmişik.

Bu və ya buna bənzər ədəbi qəhrəmanlara oxşamaq istəyi də gənclərimiz arasında az rol oynamayıb. İllər boyu özümüz oturduğumuz budağı özümüz baltalamışıq. Bir vaxt ayılıb görmüşük ki, kəndlərimiz kimsəsizləşib, yetimləşib. Təkcə torpaqdan ayrıla bilməyən qocalar öz dədə-baba yurdlarını tərk etməyiblər. Onlar da dünyanı tutub durmayacaqlar ki?!

Rayon mərkəzində özlərinə iş tapanların isə qarşısına başqa çətinliklər çıxıb. Hər gün ucqar dağ kəndlərindən payi-piyada rayon mərkəzinə, işdən sonra yorğun-arğın kəndə qayıdan adamların vəziyyətini özünüz təsəvvür edin. Yağışlı, qarlı günlərdə isə gediş-gəliş daha da çətinləşir. Elə buna görə də kənddə yaşayanların böyük bir qisminin rayon mərkəzinə köçüb orada məskunlaşması da təbii prosesin nəticəsidir.

Bir tərəfdən Qubadlının böyüməsi, əhalinin artımı adamı sevindirirsə, digər tərəfdən ucqar dağ kəndlərinin boşaldılması dərin təəssüf və narahatçılıq doğurur.

Qonşu ölkənin tək bircə kəndində – Zeyvədə yaşayan əhalinin sayı Qubadlının bütün sərhəd kəndlərində yaşayanların sayından qat-qat çoxdur.

İşlərini ehtiyatlı tutan qonşularımız həmişə sərhəddə öz mövqeylərini möhkəmləndirməyə çalışıblar. Adamların yaşayışı üçün hər cür şərait yaradıblar. Biz isə çox gec ayılmışıq...

İndi-indi kəndlərə asfalt yol çəkmək haqqında düşünürük. İndi-indi başa düşürük ki, yol mədəniyyətin başlanğıcıdır. Pis-yaxşı müəyyən işlər görülüb. Ucqar dağ kəndlərinə – Çardaxlıya, Əyinə, Aşağı Cibikliyə, Göyyala və başqa kəndlərə yol çəkilib. Çardaxlıda, düz sərhəddə bir neçə yaşayış evi tikilib. Orada artezian quyusu vurulur. Müəyyənləşdirilib ki, bu ərazidə çox güclü su mənbəyi var. Əgər quyu istifadəyə verilsə, rayonun bir neçə kəndinin su problemi birdəfəlik həll oluna bilər. Ancaq hələ ki, görüləsi işlər çoxdur.

Hamımız ağzımızı açanda alovlu-alovlu danışırıq. Ancaq təəssüf ki, çoxumuz öz işimizin ustası deyilik. Peşəmizi, sənətimizi alayarımçıq bilməyimiz də ümumi işimizə çox böyük əngəl törədir. Qonşularımız daş-qayanın qoynunda əzəmətli şəhər ucaldır, biz isə adicə artezian quyusunu qaza bilmirik hələ də... Ona görə ki, bir tərəfdən işə can yandırmırıq, digər tərəfdən isə...

Məncə, öz işinin öhdəsindən ləyaqətlə gəlmək vətənə ən yaxşı xidmətdir...

Bütün günahları adamların üstünə atmaq, onları tənbəllikdə, işbilməzlikdə günahlandırmaq da ədalətli olmazdı. Yuxarıdan verilən ağılsız qərarlar respublikamızın bu ucqar guşəsinə də öz təsirini göstərib.

Təkcə bir faktı xatırladım. Bir vaxt üzümçülüyün inkişafına xüsusi diqqət yetirilirdi. Rayonun dəmyə ərazisində sürətlə üzüm bağları salınırdı. Peşəsindən, sənətindən asılı olmayaraq hamı bu işə cəlb edilirdi. İşlər öz qaydasına düşən vaxt ağılsız bir qərar – alkoqolizmə qarşı mübarizə

haqqındakı qərar camaatın əziyyətinin, eləcə də bu işə sərf olunan vəsaitin üstündən çalın-çarpaz xətt çəkdi. Adamların əli işdən soyudu. Heç hara daşıyıb aparmaq mümkün olmayan iri çənlər isə göz dağına çevrildi.

Bütün rayonlarda olduğu kimi Qubadlıda da bu və ya buna bənzər problemlər çoxdur.

Qubadlı kiçik rayon olsa da, qeyrət sipəridir. O, Ermənistanın Qafan, Gorus kimi iri sənaye, kənd təsərrüfatı rayonları ilə üz-üzə dayanıb. Ancaq təəssüf ki, respublikamızda elə adamlar var ki, sərhəd rayonlarında yaşayanları hünərsizlikdə, qorxaqlıqda təqsirləndirirlər. Onlara elə gəlir ki, Qubadlını ancaq qubadlılılar, Laçını ancaq laçınlılar, Zəngilanı ancaq zəngilanlılar qorumalıdırlar.

Bizim bütün səhvlərimizin də, məğlubiyyətimizin də məhz bu qeyri-sağlam düşüncədə – “məndən ötdü, qardaşıma dəydi” psixologiyasında axtarmaq daha ədalətli olardı.

“Harda birlik, orda dirlik” – deyən babalarımızın sözündə böyük həqiqət vardır. Təəssüf ki, hələ çoxumuz tayfa psixologiyasından uzaqlaşa bilməmişik.

Mən öz yazımı aşağıdakı misralarla bitirməklə xalqımızı birliyə, sərhədlərimizi möhkəmləndirməyə çağırıram:

Nə vaxtacan yurdumda yad gəzəcək,
Ürəyimiz haqsızlığa dözəcək? –
Yağı bizi tapdayacaq, əzəcək
Yumruq kimi birləşməsə elimiz...

**“Fəryad” qəzeti,**
**16 iyul 1991-ci il.**

## HARA GEDİR BU MİLLƏT

Ürəyimdə neçə günün ağrısı, əzabı səngimək bilmir. Sən demə dünyanın ən ağır cəzası insanın öz vicdanı ilə üz-üzə durması imiş... Xəyalımda böyük Füzulinin bir misrası canlanır: “Dərd çox, dərman yox, düşmən qəvi, tale zəbun”. Və görürəm ki, bu misra təkcə mənim yox, ömrü boyu el dərdi çəkən, xalqın maariflənməsi üçün əlindən gələni əsirgəməyən, cəhalət mühitinin qurbanı olan Mirzə Fətəli Axundovların, Seyid Əzim Şirvanilərin, Mirzə Ələkbər Sabirlərin, Abbas Səhhətlərin, Cəlil Məmmədquluzadələrin boyuna biçilib...

Möhtərəm oxucu birdən elə bilər ki, mən öz adımı bu dahilərin sırasına salmaq iddiasındayam, xeyir, əsla belə deyil. Ancaq 25 ildir ki, bu görkəmli şəxsiyyətlərin həyat faciəsi haqqında öz şagirdlərimə, tələbələrimə yana-yana danışıram. Necə deyərlər, bir növ onların dərdini özümün-küləşdirmişəm, əriyib bu dahi sənətkarların estetik dünya-larına qovuşmuşam. Zaman elə gətirib ki, indi mənim qismətimə onların “qəm karvanının sarbanı” olmaq düşüb.

Xalqın bu “qəm karvanı”nı görkəmli sənətkarlarımız neçə-neçə əsrlərin o başından bu günümüzədək gətirib çıxa-rıblar. Bu qəm karvanının yükü neçə-neçə kitabların, qəzet-lərin, jurnalların üstünə hopub. Ancaq indi elə bir zəmanə gəlib ki, “qarın dərdi” mənəviyyatı üstələyib. Mirzə Cəlil demişkən, üstünə xalqımızın mənəviyyat tarixi yazılan kitablarımızın, jurnallarımızın vərəqlərini nökərlər “samovar alışığı” eləyir, alverçilərimiz bu vərəqlərə tum büküb satır, qarnından, cibindən başqa heç nəyi düşünməyən qızlarımız, oğlanlarımız isə küçə boyu, ictimai nəqliyyatda günəbaxan qabıqlarını tüpürə-tüpürə yol gedirlər...

Vallah, adam dəhşətə gəlir. Öz-özünə fikirləşirsən, İlahi, bu millət bu yerişlə hara gedir?!

“Hara gedir bu millət” adlı şeiri mən yazsam da, oradakı sualları mən versəm də, əslində bu şeirdə də, o suallarda da Mirzə Fətəli, Seyid Əzim, Mirzə Ələkbər, Abbas Səhhət, Mirzə Cəlil ruhu var...

Respublikamız müstəqillik yollarında ilk kövrək addımlarını atır. Ölkə başdan-başa böhran içindədir. Ancaq inanıram ki, hər şey qaydasına düşəcək. Lakin mənəviyyatımıza biganəliyin ağrı-acılarını hələ çox çəkəcəyik...

Ən dəhşətlisi odur ki, bizim əksəriyyətimizi mahiyyətdən çox zahiri tərəf maraqlandırır. Müstəqillik qazanan kimi atdığımız ilk addım əlifbanı dəyişmək oldu. Ancaq unuduldu ki, söhbət hansı əlifbadan yox, nəyin necə yazılmasından getməli imiş...

1989-cu ildə Qazaxıstanda beynəlxalq uşaq ədəbiyyatı günlərində mən də iştirak edirdim. Çokan Vəlixanovun ev muzeyinə getmişdik. Divarda əski əlifba ilə birlikdə kirillə də yazılar var idi. Bunu görən Yuri Kuşak sakitcə Roman Sefə dedi ki, bu xalqın öz əlifbası da olmayıb. Mən istər-istəməz söhbətə qoşulub dedim:

– Yura, Sizcə ingilislər mədəni xalqdı?

...

Bəs fransızlar, almanlar necə?

– Əlbəttə.

– Axı bunların heç birinin öz əlifbası yoxdu, hamısı latın qrafikalı əlifbadan istifadə edir...

Yuri Kusak gülümsündü və mənim nə demək istədiyimi başa düşdüyünü söylədi..

Əlifba təzə dəyişiləndə populist çıxışlarla millətin gözünə kül üfürənlər dedilər ki, tez bir zamanda latın qrafikalı yeni əlifba ilə bizə lazım olan əsərlər buraxacayıq.

Ancaq tezliklə məlum oldu ki, nəinki kitablar, hətta respublikada latın qrafikası ilə nəşr edilən yeganə uşaq jurnalı “Göyərçin”i müntəzəm çıxarmağa belə pulumuz yoxdur. Əgər belə idisə, niyə yorğanımıza görə ayağımızı uzatmadıq?

İndi yeni qrafika ilə dərs keçən uşaqlarımız oxumağa ədəbiyyat tapa bilmirlər. Halbuki dünyanın ən gözəl yazıçılarının əsərləri toplanmış əlli cildlik uşaq ədəbiyyatı dəsti həlim, kövrək uşaq nəfəsi üçün qəribsəyib.

“Yetmiş ildə ədəbiyyatımız, mənviyyatımız kor qoyuldu” deyənlər tam haqlı deyillər. Çox demirəm, elə bir-iki faktı nəzərə çatdırmaq kifayətdir. Bu illərdə Azərbaycan xalqının tarixində ilk dəfə ensiklopediya hazırlanaraq nəşr edilib. Dörd cildlik izahlı lüğət, dilçilik lüğətləri işıq üzü görüb. Klassıklərimizin əsərləri, dünya ədəbiyyatının ən seçmə inciləri dönə-dönə çap olunub, ədəbiyyat tarixi yazılıb və i.a.

Bir pisin acığına yüz yaxşını məhv etməyə nə dərəcədə haqlıyıq? Əlifbanı dəyişməyə etiraz etdiyinə görə Mirzə İbrahimovu təhqir edənlər, əsərlərini dərslikdən çıxaranlar niyə onun misilsiz xidmətlərini unudurlar?

Yüksək vəzifədə ola-ola Azərbaycanda dövlət dilinin Azərbaycan dili olması barədə ilk dəfə fərman verən Mirzə İbrahimov olub axı?! Özü də sovet hökumətinin qılıncının dalı da, qabağı da kəsdiyi bir vaxtda. Mirzə İbrahimovun nəsr əsərlərinin doxsan faizindən çoxu indi də öz aktuallığını saxlayır. Ədəbiyyatımızın, xüsusən folklorun və klassik ədəbiyyatımızın tədqiqi sahəsində Mirzə İbrahimovun apardığı vicdanlı işi bir ədəbiyyat institutunun gördüyü işlə müqayisə etmək olar müəyyən mənada. Kimisə qaldırmaq xətrinə kimisə vurmaq çox ləyaqətsiz bir işdir.

İndi orta məktəbdə dərsliklər çatışmır. Bir tərəfdən də dolanışıq hayına qalanların od qiymətinə kitab almağa imkanları yoxdur. Bunun zərbəsi isə xalqımıza, onun mənəviyyat tarixinə dəyir.

Rəhmətlik Mirzə Cəlilin felyetonlarından birinin təxmini məzmunu belədir: "Atımı bir erməni məhləsindən sürdüm, gördüm ki, bir erməni uşağı kitab oxuyur, o birilər isə qulaq asırlar. Atımı bir müsəlman məhləsindən sürdüm, gördüm ki, uşaqlarımız pişiyin quyruğuna konserv qutusu bağlayıb ora-bura qovurlar"...

Qəbrin nurla dolsun, Mirzə Cəlil, bizim bugünkü məğlubiyyətimizin kökünü, mənbəyini çox gözəl müəyyənləşdirə bilmisən.

Mən də öz gələcək çətinliklərimizi bu gün görürəm, haray salmaq istəyirəm, ancaq səsimə səs verən yoxdur, hamı öz qarnının hayındadır.

Bu günlərdə həyətlərdən birindən keçirdim. Gördüm ki, balaca uşaqlar "bazar-bazar" oynayırlar. Oyuncaq piştaxtalar cərgəsi düzəlmişdi. Gələcəyin bazar adamları payız otlarını kökündən çıxarıb "göy dəstləri" bağlamış, piştaxtanın üstünə düzüb müştəri haraylayırdılar. Müştərilər saqqız kağızlarını pul yerinə onlara uzadır, çənə-boğaz edirdilər.

Doğrusu, bu mənzərə məni dəhşətə gətirdi, üşəndirdi. Öz-özümə dedim: "İlahi, sən bizi görəcəkli günlərdən saxla. İlahi, hara gedir bu millət?"

**"168 saat" qəzeti, 1995.**

## SİYASƏT

Dünyanı bu söz yiyələri idarə edirlər. Mənə elə gəlir ki, siyasət adamları obyektlə subyekt arasında körpüdürlər. Onların öz subyektiv fikirləri olsa da, bu fikirlər obyektiv reallığa əsaslanır. Bu obyektiv reallığın içərisində həm də subyektlərin arzu və istəklərini öyrənmək, onların hamısını ümumiləşdirib nəticə çıxarmaq, bütün bunlardan sonra gələcəyin sosial siyasət proqnozunu hazırlamaq və strategiyaya, proqnozlara uyğun taktika seçmək bacarığı dayanır.

Dünyanı idarə eləyən elə gözəgörünməz qüvvə var ki, onun arzusunu, alnımıza yazdığı "yazını" təshih etmək qüdrətində deyilik. Ancaq "səndən hərəkət, məndən bərəkət" qənaəti də elə-belə yaranmayıb. Balaca bir nəlbəkidə, yaxud hovuzda balaca bir yarpağın üstünə qalxan qarışqa kimi həmin balaca yarpağı nicat yolu sayırıq özümüzə. Balaca bir qarışqa balaca bir yarpağı dərk edə bilmədiyi kimi, biz də kainatın balaca bir predmetini, yer kürəmizi, onun üstündə yaşayan canlıları, xalqları, millətləri, ailələri, hətta bir insan orqanizmini, ürəyin, beyininin sirlərini lazımınca dərk etmək iqtidarında deyilik. Ancaq çoxlarımız sinəmizə döyüb özümüzü siyasət adamı hesab edirik.

Vura bilməyənlərin böyük daşdan yapışmaq xasiyyəti irsən bizim çoxumuza keçib.

Mənə elə gəlir ki, bütün qabiliyyətlərin cövhəri genlərdən, irsiyyətdən gəldiyi kimi, siyasət adamının da fitri istedadı olmalıdır. Fitri siyasət istedadı.

Ancaq təbii ki, bütün toxumlar münbit torpaqda inkişaf elədiyi kimi, siyasət adamları da müəyyən siyasi mühitdə formalaşa bilirlər. Əgər mühit yoxdursa, toxum nə qədər saf olsa da, onun cücərmək, bitmək ehtimalı yoxdur.

Heç bir subyekt, tarixi şəxsiyyət təbiət və cəmiyyətin obyektiv qanunauyğunluqlarını nəzərə almadan uğur qazana bilməz. Heç bir qüdrətli subyekt tarixin təkərini geri döndərmək iqtidarında deyil.

Təsəvvür edin ki, bir milləti bir salın üstünə mindirib bir çayın axarına buraxıblar. Bu salı geri qaytarmaq, axına sarı üzdürmək heç kəsin qüvvəsi daxilində deyil. Ancaq həmin salın üstündə elə bir subyekt, şəxsiyyət ola bilər ki, salın, o cümlədən də onun üstündəki adamların hansı sahilə çıxmasının faydalılığını əvvəldən dərk edə bilsin. Bütün tarixi şəxsiyyətlər, liderlər məhz belə adamlar olublar. Onların hamısını mühit yetişdirib. Ancaq hamı yox, məhz fitri istedadlı, tale üzünə yar olan, naxışı gətirən tarixi şəxsiyyətlər səviyyəsinə yüksələ biliblər.

Fəlsəfədə belə bir qanun var: kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi qanunu. Çaydanın içindəki su isinir, isinir, qaynayır və buxara çevrilir. Su soyuyur, soyuyur, soyuma o dərəcəyə çatır ki, kəmiyyət dəyişməsi keyfiyyət dəyişməsinə səbəb olur, su buza çevrilir. Su vedrəyə damır, damır, nəhayət, hansısa "xoşbəxt damcı" düşən kimi "inqilab" baş verir, su vedrədən daşır. Həmin xoşbəxt damcı özü kimi damcıları ayağının altında postamentə çevirən, tale üzünə yar olan tarixi şəxsiyyətə, liderə çevrilir.

Nə vaxtsa "Qələbə bayrağı" adlı bir şeir yazmışdım. Qələbə bayrağını Rexstaqın üstünə sancan Yeqorov və Kantariyanın tarixi xoşbəxtliyindən çox, onları bu zirvəyə qaldıranların taleyi məni düşündürmüşdü. Yazmışdım ki, iyirmi iki milyon cəsəd Yeqorovun və Kantariyanın ayaqları altında postamentdir. Onlar məhz iyirmi iki milyon damcının üstünə düşüb vedrəni daşdıran iyirmi iki milyon birinci

və ikinci damcılar olduqları üçün "xoşbəxt" idilər. Ancaq Eynşteynə Allah rəhmət eləsin, dünyada hər şey nisbi imiş...

Eynşteyn dedim, yadıma onunla bağlı bir əhvalat düşdü. Eynşteyn mühazirə oxumaqdan bezibmiş. Bir gün görkəmli alim onun məruzəsinin mətnini əzbər bilən sürücüsünə həvalə edir ki, məruzə eləsin. Deyir ki, kim nə biləcək Eynşteyn sənsən, yoxsa mən.

Bu münvalla sürücü mühazirə oxuyur, Eynşteyn isə zalda əyləşib öz dünyasına qapılır, mürgüləyir. Məruzə qurtaran kimi bir nəfər sual verir. Sürücü özünü itirmir. Bərkdən deyir:

– Siz mənə o qədər asan sual verirsiniz ki, ona hətta mənim sürücüm də cavab verə bilər.

Sonra o mürgülü Eynşteyini yuxudan oyadıb söz kürsüsünə qaldırır və özü isə rahatca keçib onun yerində əyləşir.

Bax, bəzi əzbərçi siyasət adamları da mühazirələrinin mətnini qurtaran kimi özlərinə insanlar arasında havadarlar, köməkçilər axtarmağa çalışırlar. Ancaq bizdə siyasətin alimləri çox azdır, bəlkə də heç yoxdur.

Dünyanı, özünü dərk edən adamlar təvazökar olublar həmişə. Heç vaxt sinələrinə döyüb lovğalanmayıblar. Hətta kənardan baxanlara bir qədər "kəmsavad" təsiri bağışlayıblar. Ümumdünya cazibə qanununu kəşf eləyən bir adamın böyük və kiçik pişik üçün qapıda ayrı-ayrı deşik açdırmaq istəyi kinayəli gülüşə səbəb olub.

Siyasət adamlarını həmişə siyasi mühit yetişdirib. Əsl siyasətçilər həmişə aysberqi xatırladıblar. Ümumi qələbənin xətrinə qurbanlar verməkdən belə çəkinməyiblər. Onların üzü "çoxüzlülər prizması"nı xatırladıb. Başqa sözlə desək, siyasətin və siyasət adamının bir üzü olmayıb. Ancaq bu siyasi maskalar onun ürəyindəki əsl amalın – strategiyanın

həyata keçirilməsi üçün öz taktiki xidmətlərini yerinə yetirib, şəxsiyyətin əlində qüdrətli vasitəyə çevrilib. Siyasət adamları öz hisslərini cilovlamağı bacarıblar həmişə. Yoxsa bir gözəlin xalına şəhərləri qurban verməyə hazır olandan nə siyasətçi?

Siyasət ərəb mənşəyli sözdür və bir neçə mənası var. İzahlı lüğətdən öyrənirik ki, siyasət dövlətin, partiyanın və hər hansı bir ictimai qrupun daxili, dövlət və beynəlxalq münasibət məsələlərində fəaliyyətidir.

Canlı dildə siyasət həm də hiylə, fənd, biclik, hiyləbazlıq, fəndgirlik mənasını da verir. Başqa sözlə desək, ayının min oyunu var, o da bir armudun başındadı. Siyasətçinin də min bir oyunu öz idealına, strategiyasına müxtəlif vasitələr, taktikalarla xidmət etməsindədir.

Həyatımızı elə bir mərhələsi var idi ki, hamı şeir yazmaq azarına tutulmuşdu. Ağsaqqallardan tutmuş birinci sinifdə oxuyan uşağadək hamı: bu sahədə istedadı olan da, olmayan da şeir yazırdı. İndi isə elə bir zəmanə gəlib ki, burnundan uzağı görməyənlər də özlərini siyasətçi hesab edirlər.

Nə vaxtsa ürəyimdəki bu ağrı poetik misralara çevrilmişdi.

Minib süpürgəsini küçə boyu sürüyür,
Siyasət meydanında at çapır süpürgəçi...

Çox təəssüf ki, indi çoxları bu azara tutulub. Bunun da əsas səbəbi odur ki, hələ peşəkar siyasətçilərimiz azdır. Siyasi savadı olanların siyasi təcrübəsi, siyasi təcrübəsi olanların isə siyasi savadı, mədəniyyəti yoxdur.

Bu sahənin gələcək mütəxəssislərinə heç bir peşəkarlığı olmayan müəllimlər ordusu dərs deyir. Burada istər-istəməz

adamın yadına bir atalar sözü düşür: “Ağası gülüm olanın başına külüm olar”...

Mənə elə gəlir ki, politologiya ixtisası üzrə təhsil alan tələbələrimizə yüksək səviyyədə qayğı göstərilməlidir. Çünki gələcəyin siyasətçilərini məhz bu ixtisas sahiblərinin arasında axtarmaq lazımdır. Necə deyərlər, üzgüçülük yarışında iştirak etmək üçün güləşçılər, futbolçular, boksçular arasından yox, məhz üzgüçülər arasından adamlar seçmək lazımdır.

İndi elə “siyasət adamları”na rast gəlirəm ki, istər istəməz yadıma Mayakovskinin aşağıdakı misraları düşür:

Əgər sənin kimilər sənətkar adlanırsa,
Allah vursun sənəti...

Əgər siyasi cəhətdən küt, burunlarından uzağı görməyənlər özlərini siyasətçi adlandırırlarsa, Allah vursun belə siyasəti...

Yadıma bir hikmətli xalq məsəli düşür: “Xarratlıq meymun işi deyildir”...

Arzum budur ki, respublikamızda tükü tükdən seçməyi bacaran siyasətçilər ordusu yetişsin. Çünki siyasət sözünün bir mənası da “cəza”dır.

Böyük Füzuli anasının dili ilə Leyliyə deyir:

Neylərsən əgər atan eşitsə,
Qəhr ilə bizə siyasət etsə?

Bəli, görkəmli siyasətçiləri, sosioloqları, politoloqları olmayan xalqı zaman özü cəzalandıracaq...

**“168 saat” qəzeti, 21-28 dekabr 1995-ci il.**

## "CƏNNƏTDƏN QOVULMUŞLAR"

Cənnət nədir? – Ağlıma gələn ilk sual bu oldu yazı makinasının arxasına əyləşəndə... Bircə onu bilirik ki, onu eşitmişik ki, cənnət o biri dünyadadı. Bizim yaşadığımız bu dünya isə Ulu Allahın bizə verdiyi "dədəboyu"du... Allah bizi bu dünyada sınağa çəkir və çiyinlərimizdəki mələklərin dəqiq haqq-hesabı bizi ya cənnətə, ya da cəhənnəmə yönəldəcək. Ancaq cəhənnəmdən geriyə dönən yoxdu ki, soruşasan: bu cəhənnəm necə olan şeydi?!

Ona da cəhənnəm deyərəm, adamlara macal, aman verərmi bu qaynar  qır qazanından çıxıb bir anlıq da olsa cənnətə – yaşadıqları, qədirlərini bilmədikləri  bu dünyaya dönsünlər?! Bəs cənnətdən dönən necə?! Nənəsi ölmüşdü cənnəti görənlərin, bu üfunətli, kirli, yamaqlı, oğrulu-quldurlu, qəssablı... dünyaya cənnəti görən yenidən qayıdarmı?

Qalmışam iki sual arasında. O dünyadakı adamları bilmirəm, bu dünyadakı adamlardan eşitdiyim sözlərin, arzuların təxmini məzmunu belədir" "Ölsəydim, canım qurtarardı", "Çətini ölüncədi"...

– Ay-hay, bəs cənnət, cəhənnəm?

Nə o fikrə haqq verə bilirəm, nə bu fikrə... Mənim də öz dünyam, düşüncə tərzim var... Yenə ulu, lap ulu, ulular ulusu ilk əcdadımız Adəm və Həvvanı xatırlayıram.

Onlar Allahın iradəsi ilə cənnətdə dünyaya göz açmışdılar, ancaq Həvva nənəmiz qadağan olunmuş buğdanı daddığına görə ulu babamızla ulu nənəmiz bizim bu kirli-pasaqlı, ölümlü-itimli dünyamıza, Məhəmməd Hadi demişkən "matəmgah"a sürgün olunmuşdular.

Adəm peyğəmbərdən sonra dünyaya nə qədər peyğəmbər gəlib, ancaq heç kəs adəm övladını bütünlükdə cənnətə qaytara bilmir ki, bilmir...

Cənnət əlini, dilini dinc qoymayan, nəfsini boğa bilməyənləri, tör-töküntüləri bu matəmgahda – fırıldaqlar dünyasında əlini, dilini dinc qoya bilərdimi? Bu xasiyyətlə, xislətlə bəşər yenidən cənnətə dönə biləcəkmi?

Bu yazımı da Allahın adıyla başlamışdım, bu cümləmi də Allahın adıyla qələmə alıram. Müqəddəs "Quran"da cənnət ortasından çaylar axan... bir diyar, məkan kimi təsvir edilir... Allahım, bağışla məni, elə bil mən o cənnətdə olmuşam... Bəli, bəli, olmuşam, qədir-qiymətini bilmədiyimə görə oradan qovulmuşam. Allahım, bəlkə də insanın hər yeni nəslini eyni sınağa çəkir, eyni qanmazlığı, naşükürlüyü gördüyünə görə onları bir-bir cənnətdən qovursan?

İnsanın cənnəti doğulduğu yerdi. Mən öz cənnətimi Qubadlıda, Çardaxlıda, Xocamsaxlıda görmüşəm... Mən bu yerlərin cənnət olduğunu sezmişəm, ancaq ətrafımdakılar məni lağ-lağı yağmuruna, dansıq, qınaq yağmuruna tutublar.

Çayda uşaqlara qoşulub çimmişəm, dansıyiblar, məzəmmət eləyiblər; balıq tutmuşam, dansıyiblar, məzəmmət eləyiblər; payi-piyada dağları qarış-qarış gəzib ov eləmişəm, dansıyiblar, məzəmmət eləyiblər; gülmüşəm, dansıyıblar; ağlamışam, dansıyıblar; lətifə danımışam, dansıyıblar; araq içmişəm, dansıyıblar; susmuşam, dansıyıblar; həqiqəti demişəm, dansıyıblar; kiməsə mehribançılıq göstərmişəm, dansıyıblar; kimisə öpmüşəm, dansıyıblar; kimisə söymüşəm, dansıyıblar; hirsimi udmuşam, dansıyıblar; sözü qanmayan adamı şapalaq altına salmışam, dansıyıblar... Ancaq bu dansıqlar altında da öz cənnətimi görmüşəm: Çardaxlıda, Xocamsaxlıda, Əyində, Çayzəmidə, Başaratda...

... Bir yandan da yuxular mənə rahatlıq vermir. Görünür cənnətdən qovulmuşların işidi cənnəti yuxularında görmək. Ayrı düşdüyümüz müqəddəslərimizin, atalarımızın, babalarımızın, nənələrimizin qəbri uyuyan torpaqlarımız girir yuxuma həmişə... Bərgüşadın, Həkərinin, Ağa çayının üstündəki körpülərlə o baş, bu başa yeriməkdən əhədim kəsilib. Gah bu körpülər uçur, gah da yurd yerlərimiz, bulaqlarımız, çaylarımız, kəndlərimiz, qəbristanlarımız mənə gəl-gəl deyir. O kəndlərə qayıtmaq imkanımız olmasa da, kaş o doğma qəbristanlıqlarımızda, əzizlərimizin, doğmalarımızın arasında uyumağı Allah çox görməyəydi bizə, Eldar Baxış!

Bu gecə səni yuxumda görmüşəm... Yorğan-döşək tığının – yükünün üstündə uzanmışdın, özü də mənim dayımgilin həyətində. Sonra necə oldusa, səni bir divanın üstündə uzanan gördüm, üstünə yorğan örtüb: Eldar, sənə soyuq olar, – dedim... Bulaqlar yaxında çağlayırdı, çaylar lap yaxında şırıldayırdı...

Yuxularımı qatıb-qarışdırdım bir-birinə... Bu yazının ilk cümlələrini yazanda özümdən asılı olmayaraq ağlıma gələn “dədəboyu” sözü səni yadıma saldı, qardaş! Lakin sözümün axarını dəyişmək istəmədim, bəlkə də səndən yazmaq üçün səndən ayrılmaq və sənə qayıtmağı ulu Tanrı özü məsləhət bilmişdi mənə?!

Bilmirəm, bilmirəm, bilmirəm... Bircə onu bilirəm ki, sən ağır yatağa düşəndən sonra mənim də gecəm-gündüzüm olmayıb. Dərdini yüngülləşdirmək, səninlə söhbət etmək istəmişəm, ancaq bu mənə qismət olmayıb. Rəsmi bir məclisdə “cənnətdən qovulmuşlar”ın – qubadlıların Sumqayıtın N.Nərimanov adına klubdakı bir toplantısında sənin “ölüm” xəbərini rəsmi kürsüdən deyiblər... Mənim keçirdiyim hissləri bəlkə də təsəvvür eləyə bilməzsən. Ancaq bu düzü-

nəqulu şair dünyasında sən demə rəzil bir siyasət dünyası da var imiş...

Mənə söz verdilər. Sənin adınla başladım çıxışımı, kövrəldim. Sən demə elə sənin dirilməyin bircə dost kövrəlməyindən asılı imiş... Məndən sonra xitabət kürsüsünə qalxan, bu dəhşətli xəbəri bizə gətirən adam özü söylədi ki, Rafiq müəllim, narahat olmayın, Eldar Baxışın ölüm xəbəri yalan imiş...

Səndən mənim "nənəm" – nənəmin adını daşıyan həkim qızım tez-tez xəbər gətirərdi... Eşitdim o ağır günlərində bir neçə dəfə sayıqlayıb məni xatırlamısan, məni imdadına çağırmısan. Yanına gələnləri tanımamısan, ancaq yaddaşındakı doğma adamları ölüm ayağında da unutmamısan...

Səninlə xəstəxanada görüşəndə əlimi tutub buraxmaq istəmirdin. Bacın Ceyran: – Eldar, tanıdın? – deyəndə cavabın bu oldu: – Necə tanımadım, Rafiq Yusifoğlu... Qubadlı meşələri... Bir də heç kəs olmayanda, ikilikdə mənə verdiyin sual: – Rafiq, maşınlasan? "Məni burdan xilas elə" harayın...

Sən israrla məni yanında saxlamaq, nəsə demək istəsən də, həkimlərin qərarı qəti oldu. Məni palatadan çölə çıxardılar...

Mən bilirdim ki, dilin topuq vura-vura nə demək istəyirsən. Sən – cənnətdən qovulmuşlardan biri mənə qoşulub öz doğma Qubadlımıza qayıtmaq istəyirdin...

O cənnətin nə demək olduğunu evindən-eşiyindən ayrı düşənlərdən sən çox bilirdin bəlkə də, Eldar Baxış... Qarlı bir gündə Zəngilandan Qubadlıya getdiyimiz gün yadındadımı? Əvvəl bizi qarşılayan Zakirgildə, sənin bacıngildə oturduq, sonra mənim qardşım Razimgildə... Daha sonra mənim "dəliliyim" başıma vurdu. Dedim ki, bu dəqiqə durub Çayzəmiyə getməliyik. Sağ olsunlar, sözümü yerə salmadılar. Razimin, raykomun ikinci katibinin maşınında

dağlara yol aldıq. Kim bilir, bəlkə də o vaxt Əvəz kişi də, Razim də, Zakir də ürəklərində bizə söyürdülər... Ancaq bizim heç nə vecimizə deyildi. Füsünkar bir nağıllar dünyasında, cənnətlər cənnətindəyduk... Hər yan qurşağadək ağappaq qarla örtülmüşdü. Meşə sükut eləyib bizi dinləyirdi. Çay bizi görüb elə bil kövrəlmişdi... Ay başımızın üstündə qəmli təbəssümlə gülümsəyirdi...

Sən isə birdən-birə siyasətə başladın... Mən sözünü ağzında qoydum, dedim ki, hamısı cəhənnəm olsun, Eldar! Bizim bu cənnətimizi siyasət havası ilə korlama... Yəqin ki, o günlər sənin də yadındadır...

Sonra yenə mənim şıltaqlığım tutdu, geri qayıdanda maşına minmədim ki, minmədim... Sən də mənə qoşuldun... Ağappaq, cənnət yolları ilə Çayzəmidən Atrizinə sarı yol aldıq... Bizi arxadan müşahidə edən doğmalarımız, kənd adamları bəlkə də ürəklərində bizi söyürdülər... Bizim isə dünya vecimizə deyildi. Biz öz cənnətimizdə bəxtiyarlar bəxtiyarı idik...

Birdən güllə açıldı... Bir az qorxduq, həm də özmüzü sındırmayıb zarafatlaşdıq. Çünki o vaxt Sumqayıt hadisələri olmuşdu, siyasət qazanının qayır-qayır qaynayan vaxtı idi... Çayzəmiyə də ağıllı adamların güzarı düşmürdü. Ancaq biz... Şairin ağlı olsa, niyə şair olurdu ki?!

Səhəri gün şəhərə qayıdanda bizi Həkəriyə – Akaraya, qatar ayağına aparan Zakirin maşını "Ceyran bulağı"nın yanında xarab oldu. Mən dilxor idim. Sən birdən mənim oxuya-oxuya sükutu pozan bir qaratoyuğa baxdığımı gördün. Gülə-gülə soruşdun

– Rafiq Yusifoğlu, o qaratoyuq nə deyir?

İkimiz də güldük. Mən bir söz demədim, ancaq ağappaq cənnət dünyasından bizi qapqara qaratoyuğun yola salması da bəlkə alın yazısı imiş?

Qaraçı yurdunda günəşin batmasını seyr etdiyimizi, Hat kəndində, Başaratda qırxbuğum yediyimizi xatırlayırsanmı? Gecə bulağın üstündə Qasım Qasımzadə, Qulu Xəlilov, Zöhrab Məmmədov və Nəriman Qasımoğlu ilə səsimizi içimizə salıb gecə quşlarının nəğməsini dinlədiyimiz necə, yadındadırmı? Bəs Müskanlıda toyda süzdüyümüz, mənim atamla bizim həyətdə qədəh qədəhə vurduğumuz, çayda balıq tutduğumuz, Yavərgilin qapısından axan Bərgüşadın bizə "gətirdiyi" balıq, zarafat sovqatını necə, unutmamısan ki?!

Bəli, qardaşım, o yerlər bizim içindən çaylar axan, quşları məhəbbət mahnısı oxuyan, bulaqları abi-zəmzəm olan, çiçəkləri ürək oxşayan, leylələri köçməyi tərgidən, insanları dünya malına qızırğalanmayan cənnətimiz idi... Biz də ulu babamız, ulu nənəmiz kimi o cənnətdən qovulmuşuq...

Yüz-yüz xeyirxah işlər görürük, dua edirik, Allahın böyüklüyünü indi-indi dərk eləyib ona yalvarırıq, özümüzü oda-közə vururuq, onunla, bununla düşmənə çevrilirik...

Amma məni müəmmalı bir sual narahat edir: görəsən bizi – elindən, obasından didərgin salınmışları – "cənnətdən qovulmuşlar"ı geriyə – doğulduğumuz torpağa, atalarımızın, babalarımızın, sənin isə hətta övladının da üz qoyduğu cənnətimizə döndərə biləcəkmi apardığımız mübarizə?

**19.02.1995**
**"Müxalifət" qəzeti, 27 aprel 1996-cı il.**

## İNSAN, YAXUD "DAŞA DÖNMÜŞLƏRƏ ƏKS EYLƏMƏDİ FƏRYADIM"

Dünyada insan qədər həssas, kövrək, insan qədər zərif, insan qədər inkişaf etmiş, insan qədər dözümlü, insan qədər kinli, insan qədər qəddar, insan qədər təbii axardan çıxan, insan qədər ikiüzlü, insan qədər təbiətin ümumi qanunauyğunluqlarını pozmağa qadir və meyilli ikinci bir qüvvə yoxdur. Deməli, hardasa mədəniyyətin yüksək "zirvə"sindən sonra, dağın o biri üzündə mədəniyyət pərdəsinə bürünmüş qəddarlıq uyumaqdadır. Bəlkə də ulu babamızın, ulu nənəmizin – Adəmin, Həvvanın ağlının ucbatından cənnətdən qovulub bu kirli, kinli-küdurətli dünyaya düşmüşük. Biz də heyvanlar kimi, daha doğrusu, digər canlılar kimi yaşamaq uğrunda mübarizəyə qoşulmuşuq. Öldürmək, kimisə məhv etmək bizim də yaşayış təminatçımıza çevrilib. Quzu kimi günahsız olanda səni qurd kimi basıb yeyirlər, qurd kimi qəddar olanda neçə-neçə quzu taleyinin əzrayılına çevrilirsən...

Ağıl nə vaxtsa insanın köməyinə çatıb. İnsan ağlı ilə yeməyin yeni-yeni növlərini kəşf etməyi, paltar toxuyub geyməyi, canlılar arasında ilk dəfə əkməyi, biçməyi, üyütməyi, xəmir eləməyi, bişirməyi öyrənib və öz ağlının ucbatından bütün yaratdıqlarını dağıtmağın, məhv etməyin yolunu da kəşf və tətbiq edib. İnsanı canlı aləmdən, digər varlıqlardan ayıran da onun elmi, biliyi, düşüncəsi, nəinki özünü, bütün canlıları, bütün məxluqları məhv etməyə sövq eləyən də onun ağlı, biliyi, istedadıdır.

Çox qəribə bir təsadüf: görkəmli rus yazıçısı Leskovun "Uyuq" hekayəsini oxuduğum bir gündə yadıma düşdü ki, sabah tələbələrimə Məhəmməd Hadinin həyat və yaradıcılığı haqqında söhbət açmalıyam...

Leskovdan sonra Hadiyə qayıtmaq bir az çətin oldu mənim üçün. Ancaq heyrətə gəldim. Ayrı-ayrı ədəbi, sosial-ictimai mühitdə böyüyən, ayrı-ayrı ədəbi cərəyanların nümayəndələri olan, bir-biri ilə heç zaman görüşməyən, bir-biri haqqında heç bir məlumata malik olmayan sənətkarların fikirləri arasında bir ortaq məxrəc tapa bildim. Məhz bu ortaq məqam mənim düşüncələrimin yarış meydanına çevrildi...

“Uyuq” əsərinin qəhrəmanı, adi, adidən də adi bir insandır. O, təmizlik, düzlük, xeyirxahlıq mücəssiməsidir. Həbsdən qurtarıb qızı ilə birlikdə ucqar bir kəndə qayıdan bu kişi üçün dünyanın özü bir məhbəsdir. Dustaqxanadakı uca hasarlar, nəzarət burda olmasa da, insanların qeyri-insani münasibəti, onların uydurduqları əxlaq qanunları dünyanı əməlli-başlı məhbəsə çevirir. Keçmiş cani ölüb canını qurtarır, onun heç bir günahı olmayan qızı isə insanlar arasında insan tapa, ədalət tapa bilmir. Hər şeyi dünyanın təbii axarı yox, insanların – ali məxluqun yazıb qoyduğu qanunlar idarə eləyir.

Məhz belə bir qıza havadarlıq elədiyinə görə Silva (“Uyuq”) cəmiyyətdən qaçmaq qərarına gəlir. Burada “Leyli və Məcnun”da səhralara üz tutan müqəddəs, ürəyi sevgiylə dolu Məcnunun taleyi və onun sözləri yada düşür: “Çoxdur bəni adəm içrə bidad...”

“Palaza bürünüb el ilə sürünməyən”, yaşadığı cəmiyyətin insan mənəviyyatını, arzularını buxovlayan əxlaq qanunlarından kənara çıxdığı üçün Məcnun “dəlilər dəlisi” hesab edilsə də, Qeys əslində yaşadığı, qonşuluq elədiyi bəşər övladının fövqündə dayanır. Heyvanlar, quşlar onu daha yaxşı başa düşürlər.

Bəlkə də bütün bunları qələmə alan ulu Füzuli inkişafın təbii axarını pozan, öz ağlı, zəkası ilə, uydurma qanunları ilə

vəhşilər vəhşisinə çevrilən insana – öz həmcinsinə “nifrət”ini bildirmək istəyirmiş?!

Məcnun kimi Selivanı da cin, şeytan, yaxud onların qulluqçusu hesab edən əhli-bəşərə sonra, çox-çox sonra məlum olur ki, “uyuq” əslində onların özləri imişlər...

Dünyada bəlkə də Hadi kimi facıəli həyat keçirən ikinci bir şair olmayıb. Əlbəttə, Seyid Əzimləri, Sabirləri, Abbas Səhhətləri əzən mühit onu da əzib. Ancaq L.Tolstoy demişkən: “Bütün xoşbəxt ailələr bir-birlərinə bənzəyirlər, bədbəxtlərin isə hərəsi bir cür bədbəxtdir”...

Hadi qələm dostlarından, əsrdaşlarından daha bədbəxt idi. Atası çox erkən ölmüşdü, anası onu və bacısını atıb başqa kişiyə ərə getmişdi. Ana nənəsi öləndən sonra Hadi və onun bacısı lap taleyin umuduna qalmışdı. Oxusa da, təhsil alsa da, Şərq və Qərb alimlərinin, filosoflarının əsərlərini öyrənsə də, tale ona yar olmamışdı ki, olmamışdı...

Üç il dünya müharibəsinin iştirakçısı olmuşdu. Millətin, bəşəriyyətin acınacaqlı taleyi onu sarsıtmışdı. Hadi dünyada riyakarlıqdan, qəddarlıqdan başqa heç nə görməmişdi.

XX əsr Azərbaycan şeirinin görkəmli nümayəndəsini qızlar məktəbinə görüşə dəvət etmişdilər. Daxilən gözəllər gözəli olan Hadi əyninə geyməyə zahiri bir insan libası tapmamışdı ki, gözəllərin hüzuruna getsin, onların qarşısında çıxış etsin. Hadi insan, müasir insan görkəminə uyuşmayan görkəmi ilə “utanır”dı, əynində ən müasir dəbli geyimlər olan, daxili dünyaları isə eybəcər, vəhşiləri xatırladan “insan”lar isə heç nədən utanmırdılar. Çünki həya yalnız həyalılara məxsus sifətdir.

Hadinin zahiri görkəmi insanları dəhşətə gətirirdi, insanların iyrənc daxili aləmləri Hadini... İnsanlar zahiri görünüşlərinin pozulmaması üçün hər cür alçaqlığa hazır idilər, Hadi isə daxili dünyasına, mənəvi aləminə xələl

gəlməsin deyə heç kəsə əyilməzdi. Demokratik Azərbaycan Respublikasının nazirlərindən biri onu küçədə görüb yanına çağıranda, bədbəxt şairə himayədarlıq etmək istəyəndə Hadi yenə də daxili dünyasının işığına sığınmış, vüqarını sındırmamış, "şairlə nazirinki tutmaz", – deyib, uzaqlaşmışdı...

"İnsanlığın tarixi faciəsi"ni məhz Hadi yaza bilərdi. Çünki Hadi bu dünyaya həmin faciəni yaşamaq və bu faciənin bədii əksini yaratmaq üçün gəlmuşdi.

Həyatın səsləri guşumda həp fəryad şəklində,
Bu insanlar ki, qardaşdır və lakin yad şəklində.
Bu torpaq qanlı ovlaqdır, bəşər səyyad şəklində,
Bəniadəm yerin üstündə həp cəllad şəklində...

Bəli, bundan acı həqiqət yoxmuş dünyada. Kainata öz zəkası ilə meydan oxuyan insan öz qəddarlığı ilə əfsanəvi obrazları, cini, şeytanı kölgədə buraxıb həmişə...

"Buğda yeyib cənnətdən qovulan" gündən başlayıb insanın tarixi facıəsi. Cənnətdən qovulan bu insanlar cənnətə qayıtmaq üçün dəridən, qabıqdan çıxırlar: müqəddəs yerləri ziyarət edirlər, oruc tuturlar, namaz qılırlar... Ancaq tərəzidə addımbaşı soydaşlarına kəf gəlməyi, kasıbın dərisini soymağı, "imanlarını tərəziyə qoymağı", hakimiyyət kürsüsünə qalxmaqdan ötrü "Şəhidlər xiyabanı" salmağı da unutmurlar...

Hadiyə görə dünya matəmgahdır. Məhəbbət müvəqqəti, ədavət isə daimidir. Fərəhlər təməlsiz, matəmlər, qəmlər isə təbiidir. Ürəyi şad olan yoxdur, "könüllər həpsi virandır"... "İnsanların gözləri qəm bulağıdır. Bəşər tarixi matəmdir". "Səadət ancaq lüğət yarpaqlarına sayə salmışdır"...

Bütün bunlar doğuluşu da, ölümü də kimsəni maraqlandırmayan, el üçün ağladığı üçün gözsüz qalan, yazıları kimi

məzarı da bəşərin gözündə "itkin düşən", "qeyb olan" ziyalılarımızın – insanlar insanı olanların taleyidir.

Bir dəfə gələcəyinə böyük inam bəslədiyim, poetik duyumuna inandığım dil-ədəbiyyat müəllimlərimizdən biri – Ədalət Əsədov mənə belə bir sual verdi:

– Rafiq müəllim, məni çoxdandır bir sual düşündürür. O sualın cavabını heç bir kitabda tapa bilməmişəm. Bəlkə Siz mənə kömək eləyəsiniz?

– Buyur, Ədalət müəllim.

– Görəsən romantik şairlərimizdə vətən sevgisi niyə güclüdür?

– Ədalət, möhlət ver, fikirləşim...

Bu sual mənə veriləndə romantik şairimiz Hadinin həyat və yaradıcılığını təzəcə oxumuşdum. Ancaq bu bəşər övladının taleyini lazımı səviyyədə dəyərləndirə, özümünküləşdirə bilməmişdim. Evə qayıdanda yol boyu romantik şairlərimizdən birinin həyatına və yaradıcılıq nümunələrinə mənə verilən sual prizmasından baxdım və mənə elə gəldi ki, həmin sualın cavabını tapmışam...

Məhəmməd Hadi doğma atasını çox erkən itirdi. Anası Məhəmməd Hadini atıb başqasına ərə getdi. Nənəsi bu dərdlərə dözməyib dünyanı tərk elədi. Sevimli əmisi qızı ona yox, varlı bir tacirə ərə getdi. Ədalət müəllim, Məhəmməd Hadinin bu fani dünyada vətəndən başqa doğma heç kəsi, heç kimi yox idi axı?! Bəs o kimi sevməli idi? Çünki dünyada heç kəs onu vətən torpağı kimi duya, qiymətləndirə, ağuşuna çəkib ovundura bilməmişdi. Bu qüdrətli şairin misraları da mənim cavabımın doğruluğunu təsdiqləmirmi?

Dağa dersəm eşidər, sonra verər əks-səda,
Daşa dönmüşlərə əks eyləmədi fəryadım...

**16.10.1995**

# SINAQ İLLƏRİ

Son illər müstəqilliyə qədəm qoyan respublikamız özünün ağrılı-acılı günlərini yaşayır. Müharibə böyüklərin də, uşaqların da ürəyinə çalın-çarpaz dağ çəkmişdir. Kəndlərimiz, şəhərlərimiz bir-birinin ardınca işğal olunmuş, var dövlətimiz çapılıb talanmış, evlərimiz xaraba qoyulmuşdur. Yurdsuz-yuvasız qalan soydaşlarımız pərən-pərən düşmüş, hərə bir kəndə, bir şəhərə pənah aparmışdır. Müharibə Dağlıq Qarabağın hüdudlarından kənara çıxmış, onun dəhşətli alovu Laçını, Kəlbəcəri, Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını, Zəngilanı yandırıb külə döndərmişdir.

Bu torpaqların igid oğulları özlərindən qat-qat hərbi imkanlı, uzun illər müharibəyə gizlicə hazırlıq görmüş "arxalı köpəklər"ə qarşı silahsız olsalar belə, mərdliklə vuruşur, torpaq uğrunda şəhid olmaqdan belə çəkinmirdilər. Düşmənin nə qədər canlı qüvvəsi, texnikası vurulmuşdu...

Doğulduğum torpağı itirmək qorxusu ürəyimin başında sağalmaq bilməyən bir xəstəlik kimi baş qaldırmışdı. Ancaq camaatı heç vaxt ümidsiz görməmişdim. Mərmilər dolu kimi yağanda torpaq sığınacalarda daldalanan adamlar ara sakitləşəndə heç nə olmayıbmış kimi öz işlərinin dalınca yollanırdılar. Uşaqlar məktəbə getməkdən, dərs oxumaqdan belə qalmırdılar. Dava isə öz işindəydi. Evlər dağılır, adamlar yurd-yuvasız qalır, müqəddəs torpaq uğrunda şəhid olurdular.

1993-cü ildə, avqustun yeddisindən on doqquzunadək Qubadlıda oldum. Demək olar ki, hər gün döyüş gedirdi. Nəinki böyüklər, hətta uşaqlar da atılan mərmilərin səsindən onun növünü, bizimkilərinmi, düşməninmi atdığını bilirdilər.

Uşaqlarla daha çox ünsiyyətdə olurdum. Onlara qoşulub çaya gedir, balıq tutur, əsrarəngiz gözəlliyə malik Qubadlını seyr etməkdən doymurdum. Elə bil ki, doğulduğum torpaqla, yurdla vidalaşmağa gəlmişdim...

Ən güclü atəş səslərini Qubadlıda eşitsəm də, müharibənin dəhşətlərini Cəbrayıl ərazisinə qədəm basanda hiss elədim. Burdan ta Saatlıyadək adam, maşın, mal-qara, qoyun sürüsü əlindən tərpənmək mümkün deyildi. Yolun sağ və solunda o qədər qaçqın ailəsi var idi ki, gəl görəsən. Kimi yorğan-döşəyi torpağın üstünə tökmüşdü, kimi kolkosdan, çör-çöpdən körpələrə daldalanacaq düzəltməyə çalışırdı.

Mollaburan kəndinin sakini Xasay kişinin dediyi sözləri heç vaxt unuda bilmərəm:

– Bala, üstümüzə yağış kimi yağan mərmiləri, güllələri, arvadların şivən-qiyamatını eşitməsəniz, müharibənin nə demək olduğunu hiss etməzsiniz.

Qaçqın uşaqlardan birinin o birinə söylədiyi söz məni daha çox kövrəltdi.

– Kaş nə varsa hamısını yığıb aparalar, ancaq evimizi yandırmayalar.

Qaçqınların, o cümlədən uşaqların gün-güzaranı çox ağırdır. Ancaq onların heç biri vətən torpağına qayıtmaq ümidlərini itirməyiblər.

İnanırıq ki, azad Azərbaycanımız bu ağır sınaq illərindən uğurla çıxacaq. Ancaq bunun üçün hərə öz əlindən gələni etməyə hazır olmalıdır.

**“Göyərçin” jurnalı, №3-6, 1994-cü il.**

# QUBADLIYA DOĞRU

Ürəyim maşınımdan qat-qat sürətlə sənə doğru uçan müqəddəs vətən torpağı, məni bağışla! Düz üç il səkkiz aydan sonra sənə doğru üz tutmuşam. Ürəyim həyəcandan nanə yarpağı kimi titrəyir... Az qala hər çuxurunu əzbər bildiyim yollarını belə yadırğamışam. Bəlkə sən də yadırğamısan bizi. İncimirəm, haqqın var... Həmişə bu yolu ailəmlə birlikdə gedərdim. Bu gün isə ayrı bir məqsədlə yollarına üz tutmuşuq...

"Zaman" qəzetinin əməkdaşları, Türkiyədən gələn canı bir, qanı bir qardaşlarımız müqəddəs qurban bayramı münasibəti ilə, sınıq ürəkləri yamamaq ümidi ilə tələsirlər.

Maşın mənim maşınımdan qat-qat sürətlidir... Ancaq elə bilirəm ki, sükan arxasında əyləşən, öz baş redaktoruna "abi" deyə müraciət edən Rəcəb qardaşım maşını çox yavaş sürür...

Evimizə gedən yolların çiçəyi elə bil təzəcə çırtlayıb, ay Allah! Özümdə-sözümdə deyiləm. Qan qardaşım, "Zaman" qəzetinin baş redaktoru Ersin Demirçi məni ürkək, təzə tanış olanların suallarına tutub. Qısa cavablar verirəm. Gah Hacı Muradın qəbrindən danışırıq, gah Turqut Ozaldan. Gah Atatürkdən danışırıq, gah Heydər Əliyevdən. Gah musiqidən danışırıq, gah poeziyadan. Yavaş-yavaş doğmalaşırıq bir-birimizə. Yolu yaxşı tanıdığım, bələdçilik etdiyim üçün Ersin bəy mənə gid deyir. Mən Məmməd Səid Ordubadidən söhbət açıram, sözün başqa yönümünü xatırladıram...

Ersin bəy mənim adımın etimologiyasını soruşur, mən onun. Mənim adımın "rəfiq" – dost demək olmasını o özü tapır. Onun adının mənasını isə birlikdə müzakirə edirik. "Er" – "erkən"; "sin" – "yaş"; "er" – "ər" və s.

Ərsin sözü yadıma düşür. Ərsin – xəmiri doğrayan alət. Ersin bəyin xoşu gəlir bu sözdən. Deyir ki, xəmir, çörək müqəddəsdi. Bəlkə mənim adımın etimologiyası elə burdan qaynaqlanıb?!

Beləcə bir-birimizə isinişə-isinişə, doğmalaşa-doğmalaşa yol gedirik. Gözüm isə yollardadı... Ürəyimdən bir arzu keçir: bir möcüzə olaydı, Ersin bəyi, Türkiyədən gələn qonaqlarımızı birbaş Qubadlıya – doğulduğum məkana qonaq aparaydım... Onlarla birlikdə Həkəridə, Bərgüşadda, Ağa çayında balıq tutaydıq, Çayzəmiyə çıxaydıq, yolüstü mənim Çardaxlıdakı ata evimi ziyarət edəydik... Ersin bəyə Qızıldaşı, Vəldüzünü, Xocamsaxlını, Ayöləni, Qızılqayanı, Pəyhanı, Mistanı, Cibiklini, Xallavanı, Seytası, Əyini... göstərə biləydim...

Birdən xəyaldan ayrılıram. Bizim getdiyimiz maşın İmişlidən o tərəfə keçə bilmir. Yolumuz qaçqınların məskunlaşdığı çadır şəhərciyində qırılır... Ancaq qaçqınlar bizi necə məhəbbətlə, təmtaraqla qarşılayırlar, İlahi! Elə bil vətənin bir parçasını Allah-Təala bizim simamızda onlara ərməğan göndərib...

Uca-uca saraylarından, imarətlərindən düşüb çadırlara sığınan soydaşlarımız mənən nə qədər uca, yüksəkdirlər, İlahi! Onların ürəyinə səbr ver, Allahım! Bəlkə də bu çadırları göstərə-göstərə qədirbilməzləri haqq yoluna çağırırsan, Allahım?

Peşman-peşman geri, Bakıya qayıdırıq... Ancaq Ersin bəylə bir-birimizə danışdığımız folklor nümunələri, xalq hikmətləri ürəyimizdə öləziməkdə olan işıqları yenidən közərdir. Gözlərimizi yummuşuq... Maşın Bakıya doğru şütüyür... Mənim xəyallarım isə geriyə – Qubadlıya doğru can atır...

**1996**

## BƏS SUMQAYIT KİMİNDİR?

Ağır cərrahiyyə əməliyyatından sonra həkimlərin qəti göstərişi bu oldu: "Sizə qətiyyən əsəbiləşmək olmaz". İnsafən, evdə, ailədə, işdə, qohumlar, dost-tanışlar arasında hamı çalışır ki, mən əsəbiləşməyim. Ancaq xalqımızın belə gərgin günlərində, addımbaşı ədalətsizliklə üzləşdiyimiz bir vaxtda əsəbləri cilovlamaq olmur. Lakin mən heç də məlum məsələlərdən söhbət açmaq istəmirəm. Bu haqda çox yazılıb, çox danışılıb.

Bir insan, vətəndaş, ziyalı kimi məni, hər şeydən əvvəl, xalqımızın gələcəyi olan uşaqların təlim-tərbiyəsi məsələsi narahat edir. Təəssüf ki, "Uşağı bələkdə, gəlini gərdəkdə tərbiyə edərlər", – deyən ata-babalarımızın öyüd-nəsihətlərini sözdə qəbul etsək də, heç birimiz bu sahədə səmərəli fəaliyyət göstərmir, prinsipial mövqedə dayanmırıq.

Uzun müddət doğma şəhərimizdə – Sumqayıtda müəllim işləmişəm. Balalarımızın Azərbaycan xalqının adına layiq övladlar kimi böyüməsində əlimdən gələni əsirgəməmişəm. Çalışmışam ki, övladlarımızın qəlbinə milli ruh hakim olsun, onlar saxta yox, əsl vətənpərvərlər kimi yetişsinlər, özlərinə tənqidi yanaşmağı bacarsınlar.

İndi xeyli vaxtdır məktəbdən ayrılmışam. Ancaq "peşə xəstəliyi" davam edir. Həyətdə, küçədə, ictimai nəqliyyatda – ümumiyyətlə hər yerdə dərin bir peşə marağı ilə uşaqları, yeniyetmələri müşahidə edirəm. Səliqə-səhmanlı, mədəni, böyük-kiçik yeri bilən, öz hərəkətlərini ölçüb-biçməyi bacaran uşaqları, yeniyetmələri, gəncləri görəndə qəlbim iftixar hissi ilə dolur, ürəyimdə onların valideynlərinə, eləcə də Azərbaycan xalqına göz aydınlığı verirəm.

Ancaq təəssüf ki, çox zaman belə olmur. Ürək ağrısı ilə də olsa deməliyəm ki, rast gəldiyim uşaqların əksəriyyəti belə deyil. Mirzə Cəlilin ifadəsi ilə desək, onların çoxunun sevimli əyləncəsi "pişiyin quyruğuna konserv qutusu bağlayıb" o yan, bu yana qovmaqdır.

Mən 18-ci mikrorayonda yaşayıram. Ona görə bu mikrorayonun uşaqları ilə daha çox üz-üzə gəlirəm. Maşallah, hamısı boy-buxunlu, yarlı-yaraşıqlı, çiçək kimi uşaqlardır. Əyin-başları da pis deyil. Yamaqlı paltarda gəzənə çətin ki, rast gələsən. Ancaq təəssüf ki, onların zahiri görkəmləri ilə tərbiyələri tərs mütənasibdir. Bir sözlə, zahiri görkəm ön, tərbiyə arxa plandadır.

Mikrorayonda bir uşaq görməmişəm ki, əkilən ağaclara qulluq eləsin. Ancaq əvəzində təzəcə fidanları, ağacları dartıb qoparanlara, kökündən çıxaranlara tez-tez rast gəlirəm. Amma məni bu düşüncəsiz nadinclərdən çox onların hərəkətlərinə laqeyd baxan böyüklər əsəbiləşdirir.

Mikrorayonumuzda iki məktəb yerləşir. V.İbrahim adına məktəbin direktoru Nazim Yusibov mənim köhnə dostlarımdandır. Biz onunla tez-tez dərdləşirik. Bu yaxınlarda məktəbə gedəndə gördüm ki, qanı bərk qaradır. Xahiş etdi ki, gəl gedək, öz gözlərinlə görəsən...

Tənək qaldırmaq üçün düzəldilən gözəl çardaq darmadağın edilmişdi. Ona baxanda ürəyim ağrıdı. Əlbəttə, yenidən dəmir hasar da çəkdirmək olar, çardaq da düzəltmək mümkündür, sınan şüşələrin əvəzinə təzələrini də salmaq olar, ancaq məni dəhşətə gətirən öz oturduğu budağı kəsməyə hazır olan bir nəslin yetişməsidir. Elə bir nəslin ki, millətin gələcək taleyi nə vaxtsa onlardan asılı olacaq.

Özü də ən dəhşətlisi budur ki, uşaqlar etdikləri nalayiq hərəkətləri şüursuz şəkildə yox, bilərəkdən edirlər. Keçən il məktəbin həyatində min bir əzabla əkilib becərilmiş ağac-

lardan bir neçəsi belə "qəhrəmanlar" tərəfindən amansızcasına kəsilmişdi...

Bir dəfə televiziyada bir verilişə baxırdım. İnşaatçılar tərəfindən qırılmış bir kabeldən söhbət gedirdi. Jurnalist günahkarlardan birinə müraciət etdi. Gözləyirdim ki, bu "saqqallı uşaq" səhvini boynuna alacaq. Ancaq o, utanıb-qızarmadan dedi:

– Mənim telefonum yoxdur, qoy başqalarınınkı da işləməsin.

Dəhşətə gəldim. Öz-özümə dedim ki, İlahi, sən özün bizi özümüzdən hifz elə! İlahi, bu məntiq bizi hara aparır? Yadıma mikrorayona gələn ümumi telefon kabelini göyərti bağlamaq məqsədilə kəsənlər düşdü.

Həyətdə iki uşaq maşınımı cızıq-cızıq eləmişdi. Valideynlərinə şikayət elədim. Utanmaz-utanmaz dedilər:

– Yaxşı eləyiblər, maşını həyətdə saxlama, onlar da cızmasınlar.

Beləsinə daha nə deyəsən? Onun uşağında daha hansı tərbiyədən söhbət gedə bilər?

Üç-dörd günün söhbətidir. İki uşaq həyətdəki maşınlardan birinin üstündə "qaçdı-tutdu" oynayırdı. Onlar əllərindəki taxta parçası ilə maşını döyəcləyirdilər. Böyüklər isə laqeyd-laqeyd onlara baxırdılar. Uşaqlara acıqlandım. Lakin heç onların vecinə də deyildi. Böyüklər arasında bu balaca "qəhrəman"lara qahmar çıxanlar da tapıldı:

– Ay kişi, sənin maşının deyil ki, nə işinə qalıb?! Uşaqdılar da, qoy oynasınlar.

Qəbrin nurla dolsun, Ələkbər Sabir. Sənin məşhur ifadən yadıma düşdü: "Dinmə, uşaqdır uşağım..."

Mənə ən çox əzab verən, ürəyimi ağrıdan bir məsələni də qeyd etmək istəyirəm. Abunə yazılsaq da, qəzet, jurnal, məktub üzünə həsrətik. Özümüz alıb aşağı mərtəbəyə vurdu-

ğumuz fərdi poçt qutularının hamısı bu "qəhrəman uşaqların" məqsədyönlü fəaliyyəti nəticəsində sındırılmışdır. Qəzetə, jurnala, hətta özgəyə gələn məktuba da birinci rast gələn ata malı kimi utanıb eləmədən götürüb aparır. Heç fikirləşmirlər ki, ay balam, bunun sahibi var axı?

Möhkəm poladdan seyfvari bir poçt qutusu düzəltdirmək istədim. Oğlum dedi ki, ata, onsuz da xeyri yoxdu, açıb götürə bilməsələr də, od vurub poçtun içindəkiləri yandıracaqlar...

Hə, belə-belə işlər. Danışanda ağzımıza çullu dovşan sığışmır, döşümüzə döyə-döyə mədəniyyətdən, qeyrətdən, xeyirxahlıqdan danışırıq. Ancaq bilmirik ki, bu tərbiyə ilə bizi gələcəkdə nələr gözləyir.

Məlum hadisə ilə bağlı indi hamının – alverçinin də, rüşvətxorun da qəlbində vətənpərvərlik hissi baş qaldırıb. Uşaqları da bu ruhda tərbiyə etmək meyli güclənib. İş o yerə çatıb ki, təzə dil açan uşağa da öyrətmişik ki, desin: "Qarabağ bizimdir!". Əlbəttə, bu yaxşıdır. Lakin ən dəhşətlisi odur ki, dilindən həmin kəlmə düşməyən uşaqlar, yeniyetmələr bilərəkdən məktəblərin şüşələrini qırır, nəinki ictimai ləvazimatı, məktəbin divarlarını, hətta öz yaşadıqları binanın bloklarını da ədəbsiz kəlmələrlə bəzəyir, zibili balkondan aşağı vızıldadır, liftdən tualet kimi istifadə edir, avtobusların oturacaqlarını kəsib doğrayır və i.a. Bələlərindən ürək ağrısı ilə soruşmaq istəyirəm: "Ay əzizlərim, iki gözlərim, üzünü görmədiyiniz Qarabağ sizindir, bəs bu Sumqayıt kimindir?"

**"Sumqayıt" qəzeti, 26 mart 1991-ci il.**

PS. Bu da məqlənin doğurduğu əks-səda:

## "BƏS SUMQAYIT KİMİNDİR?"

Biz, 21 nömrəli məktəbin XI a sinif şagirdləri sevimli şairimiz Rafiq Yusifoğlunun "Sumqayıt"ın 26 mart 1991-ci il tarixli 35-ci nömrəsində dərc olunmuş "Bəs Sumqayıt kimindir?" sərlövhəli məqaləsini böyük həvəslə oxuyub müzakirə etdik.

Doğrusu, Rafiq müəllimin toxunduğu məsələlərlə razılaşmamaq mümkün deyil. Etiraf edək ki, çox yerdə öz malımıza, mülkümüzə qeyri-sağlam münasibətlə yanaşırıq. Yaramaz hallara qarşı qəti mübarizə aparılmalıdır. Bunları görəndə adam fikirləşir ki, düşmən bundan artıq daha bizə nə edə bilər, elə özümüz özümüzə qənim deyilikmi?

Bu qərara gəlmişik ki, məktəbyanı və həyətyanı sahələrdəki yaşıllığa nümunəvi qaydada qulluq göstərək.

Ürəyimizdən xəbər verən məqaləyə görə Rafiq müəllimə minnətdarlığımızı bildiririk.

**Təranə Hacıyeva,**
21 nömrəli məktəbin XI sinif şagirdi.

**"Sumqayıt" qəzeti, 16 aprel 1991-ci il.**

# DƏNİZ HAQQINDA DÜŞÜNCƏLƏR

Dəniz – sirli-sehrli nağıllar dünyasıdı elə bil. Dünya yaranandan dəniz nağıl danışır, nəğmə oxuyur insanlara... Bir nağıl isə bitib-tükənmək bilmir ki, bilmir... Dəniz nağıl danışa-danışa neçə-neçə insan nəslini əbədiyyət yuxusuna göndərir...

Dəniz ləpələrin diliylə nəğmə oxuyur. Dalğalar elə bil ki, nəhəng bir pianonun dilləridir... Külək sehrli barmaqlarıyla heyrətamiz, bənzərsiz bir simfoniya çalır. Bu simfoniyanı dinləməyi bacarıb, onu duyanlar dünyanın xoşbəxti olan gözəllik aşiqləridir...

Dəniz elə bil ki, içi möcüzəylə dolu sirli, sehrli bir kitabdır. Hər dalğa onun bir səhifəsidir. Küləyin ecazkar barmaqları əsrlər boyudur ki, bu kitabı vərəqləyir, vərəqləyir, oxuyur, oxuyur...

İnci, mirvari olur dənizin qoynunda. Ancaq bu inciləri tapmaq hər qəvvasa nəsib olurmu? Hər alim mənalar dənizinə baş vurub oradan dürr, inci çıxara bilirmi?

Dəniz sahildən başlayır. Dəniz sahildə qurtarır. Sahillər dalğa ömrünün zirvəsidir. Dalğa qoşunu, dalğa karvanı öz qəfiləsini sahilə çəkməkdən yorulmur ki, yorulmur. Dalğa bilir ki, sahildə onun ömrü tükənəcək. Ancaq sevdiyi kəsin ayağına baş qoyub ölmək səadət deyil bəs nədir?!

Hər səhər yuxudan durub dənizin görüşünə tələsirəm. Hələ heç kəs dalğa qollarını bu məhəbbətlə boynuma dolamayıb, məni qoynuna almayıb. Hələ heç kəs ayaqlarımı bu məhəbbətlə qucaqlamayıb. Hələ heç kəs bu məhəbbətlə məni duzlu öpüşlərə qərq eləməyib...

Sən dənizin qoynunda günəşin doğmasını görmüsənmi? Heç qızıl zolaqlı günəşə doğru üzmüsənmi? Bəs gecələr gözlərin dənizin sinəsindəki aylı cığırda gəzibmi? Heç dəni-

zə yağış yağanda çimmisənmi? Dənizin qoynunda arxası üstdə uzanıb göydə uçan quşlara baxmısanmı?!

Oy, dünya necə gözəldi! Döşəyi dənizin mavi suları, yorğanı günəşin zərrin şəfəqləri olanlar bəxtəvər deyil, bəs nədir?

Balıqlar yanında ora-bura şütüyür. Quşlar göyə meydan oxuyur, sevgi ürəyə. Bilmirsən balığa qoşulub üzəsən, ya quşa qoşulub süzəsən – uçasan? Allahım, dünya necə gözəldir! Allahım, sevmək necə gözəldir! Allahım, yaşamaq necə gözəldir! Allahım, nə yaxşı ki, məni duyumlu insan yaratmısan, nə yaxşı ki, gözəllikdən zövq almağı, sevməyi, sevilməyi bacarıram...

Dəniz hər gün yenidi, bənzərsizdi. Hər dalğa bir gözəldi, hər dalğanı yalnız bircə dəfə görə bilirsən. Dalğalar bir-birinə bənzəsə də, onların təkrarı yoxdur...

Dəniz kükrəyir, dalğalar şahə qalxıb. Dəniz elə bil ki, dalğa qanadlarını açıb uçmaq istəyir. Dalğa dalğanı qovur, ancaq heç bir dalğa o birinə çata, qovuşa bilmir ki, bilmir.

Dəniz kükrəyir, dalğalar sehrli pilləkənləri xatırladır. Dalğalar sahilə can atan möcüzəli eskalator kimi özü ilə sevgi, sevinc sovqatı gətirir ürəyi sevdalı insanlara...

Ağ-ağ dalğalar dənizin əlində ağ bayrağa da bənzəyir. Lakin dəniz ağ bayraq qaldırsa da, təslim olmaq istəmir ki, istəmir...

Dalğalar sahilə ütü çəkir elə bil. Ləpədöyən hamar, hap-hamardı...

Elə ki, Xəzri kəsir, dənizin əsəbləri də yumşalır. Gilavar dənizə tərsinə bir sığal çəkir, dalğalar sahili ütülədiyi kimi, o da dənizə ütü çəkir elə bil. Sular aynaya dönür. Dəniz təmizlənir, billurlaşır... Belə havada su qılınc kimi kəsir adamı. Suya girəndə ağızdan qopan ləzzətli “oy” nidası “hələ yaşamağa dəyər”, – söyləyir elə bil.

Dənizlə üz-üzəyəm. Elə bil ləpələr ürəyimdə pıçıldayır. Dəniz dalğa qollarını məhəbbətlə boynuma dolayır, ləpə dodaqlarıyla üzümdən öpür... Dəniz sehrli bir əbədiyyət nəğməsi oxuyur. Dəniz ürəyində dalğalar kükrəyən sevdalı insanları öz qoynuna səsləyir...

Gecələr ay, gündüzlər günəş dənizdə öz əksinə baxıb bəxtiyar-bəxtiyar gülümsəyir. Dənizə pənah gətirən sevdalı ürəkləri ləpələrin nəğməsi, günəşin mehriban təbəssümü öz dünyasına qaytarır...

Yaxşı ki, dəniz var, yaxşı ki, günəş var, yaxşı ki, ay var, yaxşı ki, sevdalı ürəklər var, yoxsa bu gözəl dünya kimlərin umuduna qalardı?

Dənizin yaşı dünyanın yaşı qədərdi... Ancaq dəniz həmişə canlıdı, ürəyi sevgi ilə doludu... Dəniz qoca ilə qocadı, cavanla cavan. Böyüklə böyükdü, uşaqla uşaq. Şən ilə şəndi, dərdli ilə dərdli. Müdriklə müdrikdi, dəli ilə dəli. Dəniz ona baxan insanın daxili dünyasının aynasıdır. Dəniz sevənlə sevgi dilində danışmağı bacarır...

“Ən gözəl dəniz keçilməmiş olanıdı”, – deyib Nazim Hikmət. Ancaq keçilmiş dəniz varmı? Yaşanmış, təkrar sevgi varmı?

Dəniz də sevgi kimi əbədidi...

**1998**

# SÜJET MƏTNLƏRİ

Televiziyada işləyəndə "Xəbərlər"ə lirik bir ovqat, yeni bir ab-hava aparmışdım. Hazırladığım lirik süjetlər, səsim hamının xoşuna gəlirdi. Tamaşaçıların zəng eləyib xoş söz söyləmələri isə adama ləzzət eləyirdi. Teleşirkətin sədri Nizami Xudiyev zarafatla mənə deyirdi ki, camaat boynu-yoğun kişilər çəkib pul qazanır, sən isə ot-çiçək, dağ-daş çəkirsən...

Açığı gördüyüm işdən zövq alırdım. Çox çətinliklə də olsa xeyli süjet hazırlamışdım. Ancaq çox təəssüf ki, mən xəstəxanada yatanda arı kimi min bir zülümlə yığıb saxladığım süjetlərin üstünə bir boynuyoğun siyasi icmalçının çıxışını yazmışdılar. O süjetlərin çox az bir hissəsi məndə qalıb. Onların bəzilərinin mətnlərini yadigar qalsın deyə kitaba daxil edirəm.

20 Yanvara həsr etdiyim süjeti "letuçka"da təriflədilər. Xocalı faciəsi ilə bağlı süjeti efirə verəndən sonra Esmira Çərkəzqızı gəlib məni öpdü, süjetə baxa-baxa ağladığını söylədi.

Televiziyadan gedəndən sonra istədim ki, bir veriliş açam. Ancaq oğlum Gündüz dedi ki, ata, otur yerində. Səninlə ot-çiçək, təbiət çəkməyə kim getmək istəyəcək? Yenə əsəbiləşib kiminləsə dalaşacaqsan. Bir az fikirləşəndən sonra gördüm ki, oğlum düz deyir.

***

O gecə azadlıq mücahidlərimiz vətənə atılan güllələri öz ürəklərinin başında soyutdular. İgidlərin hər yarasının yerindən bir qızıl qərənfil boylandı, üçrəngli bayrağımızın qırmızısına yeni bir çalar gətirdi. Güllələr haqq-ədalət deyən dillərə, təzəcə qönçələyən qərənfillərə dəydi...

Qaçmağa da qoymadı, namərd dörd yanı kəsdi.
Vətənimin gülləri harayıma tələsdi.
Qərənfil, bu meydana can verməyəmi gəldin?
Yaralı igidlərə qan verməyəmi gəldin?

O gecə vətən torpağı qanlı göz yaşları içində bəxtəvərlər bəxtəvəri idi. Ona görə ki, onun övladlarının: gül satanından tutmuş aliminə, fəhləsindən tutmuş nazirinə, uşağından tutmuş böyüyünə qədər hamısının ürəyi eyni ahənglə, azadlıq eşqi ilə döyünürdü. O gecə ürəklərdə qönçələyən çiçəklər güllələrin sınağına çəkildi. O gecə hakimiyyət başındakı səriştəsiz rəhbərlər millətin qurduğu simvolik dar ağacından dəhşətə gəlirdisə, digərləri donqarını qəbir düzəldən qorbaçovların hüzurunda diz çöküb, boğaz çəkib vəzifə arzulayırdılar.

O gecə bir ayrı gecə idi. O gecə:

Rahat, zəngin otağında süslənib,
Bizə tələ quranları tanıdıq.
El sözünün arxasında gizlənib,
Nala-mıxa vuranları tanıdıq...

Qurbanlar bahasına olsa da, millətin oyanışı üçün o gecə lazım idi. Azadlıq səhəri yurdumuza o gecənin içindən keçib gəlirdi...

O gecə əliyalın, ürəyi arzularla dolu adamlar imperiya ordusunu mənən darmadağın elədi. O gecə xalqın ürəyi bəlkə də ilk dəfə olaraq eyni ahənglə döyündü. O gecə millət öz dostunu, düşmənini tanıdı. O gecə neçə-neçə vətən övladının qızıl qan püskürən yarası azadlıq səhərinin dan ulduzuna çevrildi...

***

“Həyat var ki, ölümdən də zəhərli,
Ölüm var ki, həyat qədər dəyərli” –

Bu gün yeddi ildir ki, öz ölümləri ilə insanların ürəyindəki azadlıq, müstəqillik eşqini dirildən 20 Yanvar şəhidlərinin xatirəsi böyük ehtiramla yad edilir. Tarixin yaddaşına pozulmaz imza atan şəhid məzarları maqnit kimi yeddi milyonluq xalqı özünə sarı çəkir. Müxtəlif xarakterlı, müxtəlif əqidəli insanların ürəyi eyni ahənglə döyünür. Şəhidlərin ruhuna olan dərin ehtiram milləti, xalqı üçrəngli azadlıq bayrağımızın altında bir yumruq kimi birləşməyə səsləyir.

Bu gün şəhidlər xiyabanına doğru axan insan seli kəsilmək bilmir ki, bilmir. Bu gün vətən torpağında boy atan milyonlarla qərənfil ürəyi azadlıq eşqi ilə döyünən insanların əlində torpaq uğrunda həlak olan, sinələrini vətənə atılan güllələrin önünə sipər edən igid oğullarımızın, qızlarımızın məzarı üstündə toxtamağa tələsir...

***

Qar... Hər dəfə sən yağanda sevinirəm... Bütün içim-içalatım, zehnnim-düşüncəm sənin ağlığından zövq alır, ləzzət çəkir. Sən təbiətin qaldırdığı ağ bayraqsan. Ancaq heç kəsə təslim olmaq istəmirsən, əksinə, bütün insanları özünə təslim edirsən... Kimi sənin gözəlliyinin qarşısında təslim olur, kimi də sərtliyin, soyuqluğun, amansızlığın...

Qış... Sən bütün təbiətin, o cümlədən də təbiətin bir parçası olan insanları əsrlərdən bəri sınağa çəkməkdən yorulmursan ki, yorulmursan...

Tutdu bərələri, tutdu düzləri,
Sümükdən, ilikdən gəlib keçdi qış.
Bizdən ayrı düşən qərib kəndlərin
Elə bil boyuna kəfən biçdi qış...

Bu qışın qarı da o biri qışların qarına bənzəmədi, beləcə yağdı... Bu qışın qarının altında bizdən ayrı düşən evimiz-eşiyimiz ağappaq yuxular gördü... Onun yuxusuna yurdumuza uzanan qapqara əllər girdi, diksindi, qar örtüyünü üstündən atmağa, övladlarını haraya çağırmağa başladı...

Darıxma, doğma torpaq, sənin ağ atlı oğlanların qara-qara qüvvələrin üstündən çalın-çarpaz xətt çəkəcək, səni tezliklə ağ günlərə qovuşduracaq. Sənin üstünə yenə də ağappaq qar yağacaq. O ağappaq qar insanların ürəyindən kini-küdurəti siləcək, onları insan kimi yaşamağa səsləyəcək...

***

Osvensim! Salaspilis! Xatın! Buhenvald! Xocalı! Şərin meydan suladığı şəhərlər, kəndlər, düşərgələr... İnsanlıq simasını itirən qəddar ermənilərlə həvirləşən 366-cı alayın zabitləri, əsgərləri misli görünməmiş bir faciə törətdilər Xocalıda... Bir yandan amansız şaxta qılınc kimi kəsir, bir yandan da yanan evlərin tüstüsü göylərə bülənd olurdu. Ayaqyalın, başıaçıq çöllərə düşən qız-gəlinin, arvad-uşağın naləsi ürəkləri yandırıb yaxırdı. Günahsız körpələrin, qadınların, kimsəsiz qocaların ömrünə nöqtə qoyurdu atılan namərd güllələri. Dişinə qədər silahlanmış şər qüvvələr bir eli pərən-pərən salanda bacarıqsız rəhbərlərimiz vəzifə kürsüsündə mürgü döyürdülər...

Qar üstündə qalan cəsədlər qəbir üzünə həsrət qalmışdı. Düşmənə əsir düşüb min bir işgəncəyə məruz qalanların isə ürəyindən qəfil gülləyə tuş olmaq arzusu keçirdi.

Hər papaqlı layiq deyil kişi adı daşımağa,
Biz almasaq bu qisası haqqımız yox yaşamağa!
Haqqımız yox yaşamağa! Haqqımız yox yaşamağa!

***

Dörd fəsil dünyanın dörd üzü, zamanın dörd təkəri, ilin dörd sehrli sözüdü... Ürəyin dörd xanası, dörd sevinci, dörd əzabıdı. Təbiətə açılan dörd sehrli qapıdı... Təbiərin sirli-sehrli bahar qapısını açanda əsrarəngiz mənzərələr adamın ürəyini oxşayır. Elə bil köçəri quşların qanadında gəlir ilk bahar. O, təbiətin əlini elə hərarətlə sıxır ki, ağacların gözündə sevinc yaşları tumurcuq-tumurcuq gilələnir. Beyni qan baharla mübarizədə aciz görünən qış təslim olmaq istəmir, elə bil döyüşə-döyüşə dağlara çəkilir. Meşələr yolların, cığırların önündə yaşıl işıq yandırır. Buludlar dolmuş gözlərini sıxır, sevinc yaşları torpağa da sevinc, səadət gətirir. Çöllərə, düzlərə rəngbərəng xalı döşəyir bahar. Ağaclar çiçək gözlərini açıb gülümsəyir. Arılar güllərin ətirli ovcunda bəxtiyarlar bəxtiyarına dönür...

Nəğməkar quşlar göyə, sevən ürəklər sinəyə, gözəllik insana meydan oxuyur. Hər bahar gələndə ürəkdəki arzular da qönçə tutur...

...Günəş məhəbbətlə üzə güləndə
Dirçəlir, gül açır quru yamaclar.
Cavanlar var deyə bahar gələndə
Çiçək açmasınmı qoca ağaclar?

***

Bahar təbiətin cavanlığıdı. Ancaq ağacların "saçı" dümağdı... Budaqlardan düşən ağ qarın yerində ağ çiçəklər boylanır. Təbiətin ağ günləri başlayır. Çiçəklər budaqlara qar kimi səpələnib. Təbiət elə bil ağ bayraq qaldırıb. Ancaq o, təslim olmaq fikrində deyil. Təbiət insanları özünə əsir edib. Məhəbbət də ilk bahar kimi gəlir ürəyə. Qəlbə sevgi dolanda arzular qönçələyir.

Bu yazın odlu nəfəsi gəlib içimdən keçəcək,
Ağ don geyinən ağaclar elə bil gəlin köçəcək...

***

Ulu Murov, ulu Murov! Bağışla, bir dəfə də olsun sənə qonaq gələ bilməmişəm, o ucalığa yüksəlib, səninlə həmsöhbət ola bilməmişəm. Ancaq adın, ucalığın xəyalımda müqəddəslik simvoluna çevrilib. Ulu Murov, sənin qoynunda ulu əcdadlarımızın ruhu yaşayır. Ulu Murov, ulu əcdadlarımızın ilk nəslindən tutmuş ta bu günkü nəslinəcən hamını tanıyırsan. Hamımız bir yuvanın quşu olsaq da, hamımız eyni istiqamətə uçmuşuqmu?

Ulu Murov, ululardan ulusan, hələ neçə-neçə nəsillər yola salacaqsan... Baxıb görəcəksən ki, kim sənin ətəyində yaşamağa layiqmiş, kim yox... Ulu Murov, qarını vətən oğulları üçün kəfənə döndərməyi də bacarmısan. Ulu Murov, "ağ kəfən" içində olsan da, həmişə dirisən, həmişə yaşayırsan. Ulu Murov, qoynundan pərən-pərən düşən, ayaqyalın, başıaçıq səni tərk edən övladlarını qınama. Xalqımızın keşməkeşli tarixinə həmişə olduğu kimi elə o ucalıqdan bax! Ulu Murov, xalqımız üçün namusdan uca heç nə yoxdu, bilirsən... Ulu Murov, namusunu qorumaqdan ötrü özünü ətəyindən axan çaylara atıb öldürənlərin ruhuna bağışla səni tərk edənləri. Ulu Murov, onları qınama, ulu Murov, onsuz da özün hər şeyi bilirsən. Ulu Murov, darıxma, sənə layiq oğullar kimi qoynuna qayıdacağıq...

***

Bu gün sevgi günüdü... Məhəbbət isə nə gün tanıyır, nə ay. Bu ilahi hiss bəlkə də ulu Allahın insanlara bəxş etdiyi ən müqəddəs, ən qiymətli paydır, sovqatdır. Ürəyi sevgi alovunda bişənlərin əlindən pislik gəlməz. Bəlkə də ulu Allah sevgini onun dərgahına təmiz, pak getmək üçün insanların ürəyinə salıb ki, onlar müqəddəs sevgi nuruyla yuyunsunlar, paklansınlar. Bəlkə də cənnətin yolu sevgidən,

məhəbbətdən başlayır. Bəlkə də sevgi elə insan ömrünün cənnətidi, bundan xəbərimiz yoxdu?!

Sevənlərin gözündə dəniz də gözəldi, çay da; başı qarlı dağlar da gözəldi, gül-çiçəkli yamaclar da; otlar da gözəldi, çiçəklər də; quşlar da gözəldi, kəpənəklər də... Əgər ürək sevgiyə əsir olmasa, bu dünya nə qədər adiləşərdi... Hər şey gözəlliyini itirər, ürəklərdə həyat eşqi sönərdi...

Sevgi də istedad kimi Allah sovqatı, Allah payıdır. Əsl sevənlər sevginin şirin əzabından zövq almağı bacaranlardı, "Yarəb, bəlayi-eşqa qıl aşina məni", – deyənlərdi. Sevdalı günlərini xatırlayıb "İlahi, sən məni özümə qaytar" yazanları da başa düşmək çətin deyil. Sevgi insan ömrünü nurla doldurub həmişə:

Yanımdan bir xəfif külək keçibdir,
Ürəyim titrəyən payız nanəsi.
Gözlərin könlümü vətən seçibdir,
Şükür ki, nurlanıb qəm viranəsi...

Nə yaxşı ki, sevdalı ürəklər, sevdalı gözlər var. Yoxsa bu dünya adilərin adisinə çevrilərdi; nə dənizə baxan olardı, nə çaya, nə bulaqların nəğməsini dinləyən tapılardı, nə yarpaqların pıçıltısını...

Sevgi qocanı da, cavanı da həmyaş eləyir. Sevgi Əslini Kərəmə, Sənanı Xumara... doğmalaşdırır... Sevgi nə kasıb tanıyır, nə varlı; nə uşaq tanıyır, nə böyük; nə millət tanıyır, nə din... Sevgi Allahdan aşağıda yaşasa da, hər şeydən yuxarıdadı, ucadadı. Nizami demişkən:

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz ey dünya, nədir dəyərin?

***

İnsan ürəyində güllərə məhəbbət olub həmişə. Təbiətdəki gül-çiçəyə heyranlıqla baxanların ürəyindən gül əkib becərmək arzusu boylanıb. Qayğıkeş əllərin nəvazişindən xumarlanıb, qəlbi gözəllik eşqi ilə döyünənlərə meydan oxuyan güllər. Sanki onlar insanın torpaqdan baş qaldıran arzularıdır. Əsrlər boyu, insan insan olduğunu dərk edəndən, gül məhəbbətin, sevginin, ən ülvi hisslərin ifadəçisinə çevrilib. Ən sevimli adamlarla görüşəndə də, ayrılanda da onlara gül bağışlamışıq.

Gül təbiətin ən gözəl neməti, gözəlliyin tacıdı. Gül görəndə gözlər gülür, gözlər güləndə ürək sevdayla dolur, ürək sevdayla dolanda həyat eşqi coşub çağlayır, insan insan olduğunu dərk eləyir...

***

Qanadı olmaq bəlkə də dünyanın ən böyük səadətidi. Qanadı olanlar göy üzündəki mələklərə daha yaxındılar. Böyük-böyük planetlər, səyyarələr arasında Yer kürəmizin özü də qanad çalan bir quşu xatırladır. Dünyada qanadı sınıq quşdan bədbəxt bir məxluq yoxdu. Arzuları daşa dəyən insan da qanadı sınıq quşa bənzəyir.

Ürəyinə sevinc, sevgi dolan insan qanadlı bir quşa çevrilir. Bəlkə də quşlarla sevdalı ürəklərin qohumluğu var? Bəlkə də quşlar göy üzündə qanad çalan sevdalı ürəklərdi?! Quş olmaq istəyi körpəlikdən qəlbimizi çulğayıb. Lacivərd göylərdə qanad çalan quşlara qoşulmaq, uçmaq arzusu baş qaldırıb ürəyimizdə. Bizdən ayrı düşən doğma torpaqlarımızı, evimizi, eşiyimizi, dağımızı, dərəmizi, çayımızı, bulağımızı, tarlalarımızı, biçənəklərimizi, pöhrəliklərimizi, me-

şələrimizi görmək arzusu ürəyimizdə baş qaldıranda istər-istəməz bunu söyləmişik: "Kaş bir quş olaydım!"

Quşlar göy üzünün bəzəyidi. Torpaqda bir-birinə bənzəməyən güllər, çiçəklər göz oxşadığı kimi, göylərdə qanad çalan quşlar da ürəyimizdə həyat eşqi oyadır, bizi arzuların qanadında uçmağa səsləyir.

Quşlar uçan çiçəkləri, uçan gülləri xatırladır... Quşların nəğməsi ürəklərimizi sevgiylə doldurur. Nağıllarımızda hansı bəxtəvərinsə başına dövlət quşu qonur...

İnsan quşa həsəd çəkib həmişə. Quşun təmizliyinə, ülviliyinə inanıb. Quş dimdiyində məktublar göndərib. Quş dimdiyi onun ürəyinə uzaq-uzaq diyarlardan sevgi toxumu gətirib...

Göydə uçan ağ bulud
Zərif tülə bənzəyir.
Səmanın yaxasında
Quşlar gülə bənzəyir.

Sanki bizi çağırır,
Gəl-gəl deyir göy özü.
Əgər quşlar olmasa,
Qəribsəyər göy üzü.

Mənə göy üzü verin,
Göy vətən əvəzidi.
Quşu quşa döndərənə
Ucalmaq həvəsidi...

# MÜSAHİBƏLƏR

## "QIRX BEŞ DƏQİQƏLİK HƏYAT DƏRSİ"

Şəhərimizin hörmətli ziyalılarından birinin – filologiya elmləri namizədi, şair Rafiq Yusifoğlunun 45 yaşı tamam olur. Bu münasibətlə qələm dostumuzu təbrik edir, ona uğurlar diləyirik. Əməkdaşımızın onynla apardığı müsahibə ilə tanış olun.

**– Rafiq müəllim, 45 yaş Sizin üçün nə deməkdir?**

– Qırx beş dəqiqəlik həyat dərsi. Ancaq bu dərsin hər saniyəsi mənim üçün əzizdi...

**– Dərs dediniz, Sizin müəllimlik fəaliyyətiniz yada düşdü. Ümumiyyətlə, müəllimlik Sizin üçün nədir?**

– Yer üzündə müəllimlikdən çətin, müəllimlikdən şərəfli ikinci bir peşə tanımıram. Mən müəllim ailəsində doğulmuşam. Valideynlərim riyaziyyat müəllimi olublar. Mənimsə qismətimə filoloqluq düşüb. İyirmi üç ildən çox pedaqoji stajım var. Yetişdirmələrimin xoş sorağı artıq respublikamızın müxtəlif guşələrindən, idarə və müəssisələrindən gəlir. Bu, bir müəllim kimi məni sevindirir.

**– Siz "Yurdum, yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır" adlı şeir kitablarının müəllifisiniz, Yazıçılar İttifaqının üzvüsünüz. "Ətirli düymələr" kitabınız Azərbaycan Yazıçılar İttifaqının, Azərbaycan Mətbuat Komitəsinin və Azərbaycan Gənclər İttifaqı Mərkəzi Komitəsinin mükafatına layiq görülüb. Əsərləriniz dərsliklərə düşüb, ayrı-ayrı dillərə tərcümə olunub. İndi Sizin hansı əsəriniz işıq üzü görmək növbəsindədir?**

– Çətin bir şəraitdə yaşayırıq. İndi əsasən istedadsız, ədəbiyyata, sənətə heç bir dəxli olmayan pullu adamların kitabları çap olunur. Ömrünü ədəbiyyata, incəsənətə həsr edənlərin əlindən, təəssüf ki, o sənət sevinci də çıxıb. Əlbəttə, saray şairləri istisnadır. "Yazıçı", "Gənclık" nəşriyyatlarına neçə il bundan qabaq iki ayrı-ayrı şeir kitabımın əlyazmasını təqdim etmişəm. Qarsia Lorka poeziyasından etdiyim tərcümələr "Yazıçı"da müsbət rəylə birlikdə "yatır". "Azərbaycan uşaq ədəbiyyatı" dərsliyim "Şur" nəşriyyatında "mürgüləyir". Bundan başqa evdə hazır nəsr kitabımın, lətifələrimin əlyazmaları, eləcə də bir neçə kitablıq şeirlərim, tərcümələrim var. "XX əsr Azərbaycan poemasında sənətkarlıq xüsusiyyətləri" adlı monoqrafiya üzərində işləyirəm. Ancaq onu da çap elətdirə biləcəyimə gümanım azdır.

– **Rafiq müəllim, Siz əvvəl pedaqoji universitetin fililogiya fakültəsini, sonra isə Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasını bitirmisiniz. Filologiya elmləri namizədisiniz. "Göyərçin" jurnalının redaksiyasında məsul katib işləyirsiniz, dərs deyirsiniz. Alimlik, şairlik, jurnalistlik və müəllimlik bir-birinə mane olmur ki?!**

– Yox, əksinə, onlar bir-birini tamamlayır. Müəllim də, şair də, jurnalist də, tərcüməçi də elmsiz, mütaliəsiz bir qara qəpiyə dəyməz. Yazmaq üçün gərək öyrənəsən. Öyrətmək üçün də öyrənməlisən. Mən təkcə kitablardan yox, dərs dediyim tələbələrdən də çox şey öyrənirəm. Onlarla mənim aramda həmişə səmimi münasibət olub. Onlar hətta ürək sirlərini mənə açmaqdan, məsləhətləşməkdən belə çəkinməyiblər. Bu, mənim üçün ən böyük mükafatdır.

– **Dediniz ki, riyaziyatçı ailəsində doğulmusunuz. Bəs Sizdə ədəbiyyata, sənətə meyl hardan yaranıb?**

– Ana babam Nuşirəvan Kərimov mollanəsrəddinçi şairlərdən idi. Onun "Molla Nəsrəddin" jurnalında "İstiot" təxəllüsü ilə xeyli şeiri çap olunub. Babam klassık ədəbiyyatımızın, xüsusən Füzuli poeziyasının bilicilərindən idi. O, mənim ilk sənət müəllimim olub.

**– Əziz müəllimlər sırasına daha kimlərin adını əlavə edə bilərsiniz?**

– İsmayıl Şıxlının, Əhəd Hüseynovun, Mirzə Cavadın, Məmmədhüseyn Təhmasibin, Əzəl Dəmirçizadənin, Feyzulla Qasımzadənin, Qasım Qasımzadənin...

**– Siz Qubadlıda dünyaya göz açmısınız. Doğulduğunuz torpaq üçün darıxmırsınızmı?**

– Darıxmırsan da sözdü. O torpağın hər otu, çiçəyi, ağacı, kolu, dağı, dərəsi, çayı, bulağı üçün burnumun ucu göynəyir. İndyəcən bilmirdim, sən demə bizim nəslin taleyinə elə əzəl gündən qaçqınlıq, köçkünlük payı düşübmüş. Bibimin dediyinə görə ulu babam Seyid İbrahim Cənubi Azərbaycandan Zəngəzura, Qafan rayonuna gəlibmiş. Əsrin əvvəlində, erməni-müsəlman davasında, daha dəqiq desək 1918-ci ildə babam Seyidəli ailəsi ilə birlikdə Qubadlının Çardaxlı kəndinə gəlib, orda yurd-yuva qurub. Sən demə Qubadlıda da həmişəlik yaşamaq qismətimiz deyilmiş. İndi o torpaqda mənim babalarımın, nənələrimin, atamın, dayılarımın müqəddəs qəbirləri uyuyur... Doğma torpağımızın namərd tapdağından xilas olacağı günü səbirsizliklə gözləyirəm.

**– Ömrünüzün ən bəxtiyar anları hansıdır?**

– Xocamsaxlıdakı ulu göldə, şəlalənin altında, Çardaxlının Qısraq bulağının buz kimi soyuq suyunda, Bərgüşadda, Həkəridə çimdiyim, Çayzəmidə, Kəpəzdə dumanlı-çıskinli, qarlı havalarda gəzdiyim, Çardaxlıda aya baxıb kövrəldiyim, Şuşada xarıbülbül dərdiyim günlər unudulmazdır...

– **Ömrünüzün ən dəhşətli anlarını necə, xatırlayırsınızmı?**

– Əlbəttə. Sevimli dayımın ölüm xəbərini aldığım gün, cərrahiyyə əməliyyatına getdiyim və Qubadlının işğalı günü ömrümün ən dəhşətli anlarını yaşamışam.

– **Bəsdir kədərdən danışdığımız. Bilirəm ki, Sizdə güclü yumor duyumu var. Özünüzün, dostlarınızın, tanışlarınızın başına gələn çoxlu əhvalatları toplayıb qələmə almısınız. Sizcə, yumora məhəbbətinizi şərtləndirən amillər hansılardır?**

– Onu bilirəm ki, yumor gərək qandan gəlsin. Atalar yaxşı deyib ki, quyuya su tökməklə dolmaz. Təəssüf ki, hamıda yumor duyumu yoxdur. Mənim atam çox baməzə adam idi. Onun lətifələrini biz tərəfin adamları indi də danışırlar. Digər tərəfdən, insanın düşdüyü mühitdən də çox şey asılıdır. Mənim oturub-durduğum, çörək kəsdiyim adamların çoxunda yumor duyumu var. Yəqin ki, mənə onların da təsiri olub..

– **Bəs poeziya Sizin üçün nədir?**

– Üzünü ancaq onu duyanlara göstərən mələk...

– **Hansı şairləri sevirsiniz?**

– Füzulini, Səməd Vurğunu, Lorkanı, Nazim Hikməti, Əli Kərimi, Məmməd Arazı...

– **Hansı şairləri sevmirsiniz?**

– Kim şairdisə, onu sevirəm

– **Ən çox sevdiyiniz əyləncə?**

– Ləpədöyəndə ayaqyalın gəzmək, payızda meşədə gəzmək.

– **Sirriniz olurmu?**

– Şairin sirri qəzetdə, ya jurnalda üzə çıxır. Yiyəsi sözünü götürür, qalanları ilə işim yoxdu..

– **Nəhayət, ənənəvi bir sual: yaradıcılıq planlarınız?**

– Elə bir planım yoxdur. Şeiri planla yazmaq olmur. Oxuyuram, yazıram, dərs deyirəm, özüm öz başımı qatıram ki, dərd məni üstələməsin. Hər halda hələ ümidimi itirməmişəm.

**– Müsahibə üçün sağ olun**

– Siz də sağ olun...

**"168 saat" qəzeti, 22-29 dekabr, 1994.**

## YAZIÇI VƏ ZAMAN

**"Göyərçin" jurnlının baş redktoru Rafiq Yusifoğlu uşaq ədəbiyyarı barədə mövcud vəziyyətdən söhbət açır.**

Şair Rafiq Yusifoğlu qələmini daha çox uşaq ədəbiyyatı sahəsində sınayır. Son ildə onun dörd kitabı çap olunub. "Qəm karvanı" və "Həsrət köçü" kitabında şairin gənclik illərindən bəri qələmə aldığı lirik şeirlər toplanmışdır. Uşaqlara həsr etdiyi incə ruhlu şeirləri isə "Şirin yağış" kitabına daxil edilmişdir. Ötən il "Elm" nəşriyyatında çap olunan "Azərbaycan poeması: axtarışlar və perspektivlər" monoqrafiyası isə XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətlərindən bəhs edir. Uşaq şeirlərindən ibarət on çap vərəqi həcmində nəzərdə tutulmuş yeni kitabı isə 1994-cü ildən işıq üzünə həsrət qalıb.

– Əksər qələm sahibləri kimi uşaq ədəbiyyatı ilə məşğul olmaq ağlıma da gəlmirdi. Mən də çoxlarının düşündüyü kimi uşaq şeirləri yazmağı asan iş hesab edirdim. Sən demə xırda bir predmetdən də böyük əsərlər yaratmaq mümkün imiş, – deyə Rafiq müəllim ədəbiyyatın bu sahəsinə gəlişini xatırlayır. – Hələ ali məktəbdə oxuyarkən yazılarımı tez tez Zahid Xəlilə göstərirdim. Bir gün o mənə dedi ki, sənin yazılarında maraqlı uşaq ovqatı var. Bəlkə bu istiqamətdə

qələmini sınayasan? Elə bil yuxudan ayıldım. “Pioner” jurnalında dərc etdirdiyim “Qağayılar”, “Quzular” şeirləri oxucuların böyük marağına səbəb oldu. Sonra isə bitkilərdən bəhs edən şeirlərimi Zeynal Cabbarzadənin qayğısı sayəsində çap etdirdim. Bu, mənim üçün gözlənilməz hadisə idi. Çünki o vaxt mən yaşda silsilə şeirlərlə çıxış edən şairlərə çox az rast gəlmək olardı.

Bundan sonra “Göyərçin” jurnalı ilə əməkdaşlıq etməyə başladım. 1985-ci ildə həmin jurnalda şöbə müdiri, sonra isə məsul katib kimi fəaliyyətə başladım. Mərhum şair Tofiq Mahmudun vəfatından sonra isə redkollegiyanın qərarı ilə “Göyərçin” jurnalına baş redaktor təyin edildim. O vaxtdan yaradıcılığımı uşaq dünyasının şeir dili ilə tərənnümünə yönəltmişəm. Həm də Sumqayıt Pedaqoji Seminariyasında uşaq ədəbiyyatından mühazirələr oxuyuram.

– **Pedaqoqların fikrincə, uşaq aləminə nüfuz etmək o qədər də asan məsələ deyil. Siz bir mütəxəssis kimi buna nə dərəcədə nail olmusunuz?**

– Adətən uşaqlar körpə yaşlarından hər şeylə maraqlanır və qəribə suallar verirlər. Bax əsas məsələ də buradan başlayır. Gərək uşağın maraqlandığı hər şeyi onun başa düşəcəyi formada çatdırmağı bacarasan. Yoxsa onu iyrəndirə bilərsən və sənə heç vaxt inanmaz. Uşaq həmişə həqiqəti axtarır, böyüklər isə onu deməkdən çəkinirlər.

Mənə elə gəlir ki, uşaq təfəkkürü böyüklərinkinə nisbətən daha çox poetizmə meyllidir. O, bədii həqiqəti özününküləşdirə bilir. Məsələn, gülün, ağacın, quşun ağlamasına inanır. Nənələrin söylədiyi əfsanəvi nağılları gerçəklik kimi qəbul edir. Eyni zamanda həmişə ədalətin zəfər çalacağına inanır. Məhz buna görə bütün klassiklər uşaqlar üçün yazdıqları əsərləri nikbin sonluqla tamamlayırlar. Nağıllarda da belədir. Ola bilsin ki, saydığım xüsusiyyətlərə sadə-

lövhlüyün də təsiri var. Ancaq bu, adətən uşağın dünyanı özünəməxsus şəkildə dərk etmək cəhdi kimi özünü göstərir.

Sergey Mixalkov deyir ki, uşaqla oynamağı bacarmayan uşaq yazıçısı ola bilməz. Mən bu fikri həmişə yadımda saxlayıram və yeri gəldikcə ona əməl edirəm. Doğrudan da, uşaqlar məni çox sevirlər. Bəlkə də bu, uzun müddət müəllim işləməyimlə əlaqədardır. Ancaq şeirlərimin onları nə dərəcədə qane etdiyini deyə bilmərəm. Çünki uşaq yazıçısı aşpazı xatırladır, müəllim isə xörəkpaylayanı. Ən gözəl əsəri belə pis müəllim pinti xörəkpaylayan kimi gözdən sala bilər. Yaxud ortabab əsəri uşağa gözəl hisslər aşılayan şəkildə təbliğ edə bilər.

Məşhur yazıçı Bernard Şou əsərlərinin dərsliyə daxil edilməsinə razı olmayıb. Səbəbini soruşanda cavab verib ki, uşaqlar məni sevməyəcəklər, mən Şekspiri sevmədiyim kimi...

– **Sizin yaradıcılığınız təkcə uşaq ədəbiyyatı nümunələri ilə məhdudlaşmır. Qələminizi başqa mövzularda da sınamısınız. Həmin mövzulardan uşaq şeirini necə fərqləndirirsiniz?**

– Mənə elə gəlir ki, ədəbiyyat elə ədəbiyyatdı. Uşaq ədəbiyyatı, böyük ədəbiyyatı şərti bölgüdür. Ən gözəl xörəyi uşaq da yeyir, böyük də. Əsər də bunun kimi. Yaxşı uşaq ədəbiyyatı nümunələri həm də böyüklər üçündür. Ancaq uşaq şairinin əlavə bir xüsusiyyəti olmalıdır – pedaqoji istedad.

– **Rafiq müəllim, Azərbaycan uşaq ədəbiyyatının bu gün üzləşdiyi əsas problem hansıdır?**

– Ürək ağrısı ilə qeyd etmək lazımdır ki, ədəbiyyatın bu sahəsi ilə məşğul olmaq istəyən yoxdur. Son illər redaksiyamıza bir nəfər də olsun gənc qələm sahibi müraciət etməyib. Bir neçə il əvvəl bu mövzuda seminarlar, hətta konfranslar

keçirilir, tanınmış qələm sahibləri öz fikir və mülahizələrini bölüşürdülər. Biz də bu tədbirlərdə iştirak edir, görüb-götürürdük. İndi bu məsələlər tamamilə unudulub, demək olar ki, yox dərəcəsindədir.

Məni narahat edən cəhətlərdən biri də budur ki, ədəbiyyatı dəyərləndirmə meyarı itib. Babadan, nənədən, vətəndən yazmaqla öz işlərini bitmiş hesab edən qələm sahibləri əsərin sənətkarlıq xüsusiyyətlərinə fikir vermirlər. Son illər televiziyada göstərilən bayram tədbirlərində, yığıncaqlarda uşaqların dilindən yaxşı şeiri çox az eşidirəm. Yaxşı əsərlər isə şəxsi arxivlərdə yatıb qalır, onları ədəbi tərtibatla çap etdirmək imkan xaricindədir.

İttifaq dağılandan sonra Sergey Mixalkov mənə və ölkənin digər uşaq yazıçılarına göndərdiyi məktubda uşaq ədəbiyyatını məhv olmaqdan qorumaq, xilas etmək üçün əl-ələ verməyimizi, onu xilas etməyi xahiş edirdi. Bu, çox dahiyanə irəli sürülmüş bir təklif idi. MDB ölkələri içərisində uşaq ədəbiyyatını məhv olmaqdan xilas edən ilk respublikalardan biri Azərbaycan oldu. Bu gün də ədəbiyyatın bu sahəsinə aid tutarlı əsərlərimiz var. Ancaq əsas problem onu oxuculara çatdırmaqdadır. Bu problemi heç mətbuat vasitəsi ilə də həll edə bilmirik...

Götürək baş redaktoru olduğum "Göyərçin" jurnalını. Vaxtilə 270 min tirajla yayımlanan bu jurnalı indi min, iki min nüsxəsini çətinliklə satdıra bilirik. Doğrudur, dövlət jurnalın nəşrini öz üzərinə götürüb. Ancaq bununla hər şey bitmir. Pistona, saqqıza pul verən valideynlər nədənsə "Göyərçin" jurnalının uşaqların təlim və tərbiyəsinə müsbət təsir göstərdiyini yaddan çıxarırlar.

İndi mühitin təsiri ilə uşaqlar da tamam dəyişib. Əvvəllər şeir əzbərləmək, nağıl öyrənmək haqda düşünənlər

indi pul barədə, xarici filmlərdə olduğu kimi nəyisə partlatmaq, kimisə döymək barədə fikirləşirlər.

Ədəbiyyatın əsas məsələsi cəmiyyəti tərbiyə eləməkdir. Ona görə də biz elə əsərlər yazmalıyıq ki, uşaqlar pulu saqqıza, pistona yox, kitaba, jurnala versinlər.

**Şərif Ağayar**
"Panorama" qəzeti, 23 mart 1999-cu il.

## "PƏNCƏRƏM DƏNİZƏ BAXIR"

– **Rafiq müəllim, Siz qələm sahibisiniz. Sumqayıtın portretini yaratmaq istəsəniz, ön plana nəyi çəkərdiniz?**

– Dənizi və onun qoynundan təzəcə qalxan günəşi. Çünki Sumqayıtda yaşadığım 33 ilin ən gözəl səhərləri mənim üçün dənizdən və onun qoynundan qalxan günəşdən başlayıb. Xoşbəxtəm ki, evimin pəncərəsindən dəniz görünür. "Pəncərəm dənizə baxır" adlı bir uşaq şeirimin lirik qəhrəmanı da elə mən özüməm.

Pəncərəm dənizə baxır,
Onu aydınca görürəm.
Mən yuxudan duran kimi
Dənizə salam verirəm.

Mavi sular gülümsəyir,
Ləpələr keçir hücuma.
Açıb dalğa qollarını
Dəniz deyir: – Gəl qucuma!

33 ildir ki, hər səhər Xəzərin sahilinə qaçmaq, günəşlə dənizin "qolboyun" olduğu vaxt dalğaların qoynuna baş vurmaq ən böyük əyləncəmdi. Bu, əslində əyləncə də deyil,

ömrümün həyat eşqi ilə, bəxtiyarlıqla dolu bənzərsiz günləridi. Günəşin Xəzərin qoynundan boylandığı vaxt təbiətin ilhamlı anlarıdı. Hələ suların qoynundan günəş kimi sıyrılıb çıxan gözəllərin şair ovqatına elədiyi təsiri, başımın üstündə uçuşan quşları demirəm. Həmişə bu mənzərədən zövq ala-ala düşünmüşəm: "İlahi, görəsən məndən bəxtəvər adam varmı?"

Hələ tələbəlik illərimdən Sumqayıt, ələlxüsus onun dənizi, sahilkənarı parkı məni maqnit kimi özünə çəkib. Günəş dənizdə çiməndə ürəyi həyat eşqi ilə dolu sumqayıtlılar da – Mehdi müəllim, İzzət həkim, Tofiq müəllim, İsmayıl müəllim, Vahid Bayramov, onlarca başqaları da zarafatlaşa-zarafatlaşa dənizdə çimir, günəş boy verib Xəzərdən ayrılanda onlar da öz iş-güclərinin dalınca gedərdilər. Elə o gündən dənizin qoynundan boylanan günəş mənim şair xəyalımda Sumqayıt insanlarının simvoluna çevrilib. Aramızda yaş fərqi çox olsa da, dəniz məni – adicə bir tələbəni adlarını çəkdiyim və çəkə bilmədiyim vəzifə sahibləri ilə dost-sirdaş eləmişdi...

– **Ədəbiyyatımızda Sumqayıt lazımınca vəsf olunubmu?**

– Xeyir. Nəbi Xəzrinin "Sumqayıt səhifələri" poeması hələlik Sumqayıta həsr olunmuş ən yaxşı əsərdir. Zülfüqar Qodmanlının "Zəminə" poeması da Sumqayıtı qurub-yaradanlardan birinə həsr olunub. Ancaq mənə elə gəlir ki, Sumqayıtın adına layiq əsərlər hələ yazılmayıb. Ədəbiyyat Sumqayıtı qurub-yaradanların əməyi ilə müqayisədə çox zəif görünür..

– **Respublika ziyalılarının Sumqayıta laqeyd münasibəti var. Tez-tez deyirlər ki, bura fəhlə şəhəridir, fəhlə psixologiyası ön plandadır. Buna münasibətinizi bilmək pis olmazdı...**

– Mənim Sumqayıtla qiyabi tanışlığım doğma Çardaxlıda Firuzə bibimdən eşitdiyim bu "atalar sözü" ilə başlayıb: "Ərsizlərə ər Sumqayıt, yersizlərə yer Sumqayıt." Doğrudan da, kəndimizdən Sumqayıta gedənlər tezliklə ailə qurur, ev-eşik sahibinə çevrilirdilər Etiraf edim ki, o vaxt qulağımda kinayə kimi səslənən bu sözdə indi ayrı çalarlar, həqiqət, özü də müdrikcəsinə, yumorla ifadə edilmiş bir həqiqət görürəm. Sənaye nəhənginə çevrilən Sumqayıt nəinki Azərbaycanın, eləcə də SSRİ-nin müxtəlif guşələrində yaşayan, qəlbi romantika ilə dolu gəncləri ahənrüba kimi özünə doğru çəkirdi. Pərvanələr işığa sarı uçduqları kimi, gənclər də səadət, xoşbəxtlik dalınca Sumqayıta üz tuturdular. Bəlkə də buna görədir ki, Sumqayıt təkcə istehsalat şəhəri yox, həm də gənclər, romantiklər şəhəri olub həmişə. Taleyini bu şəhərlə bağlayan gənclər ad-san, xətir-hörmət sahibinə çevrilirdilər.

Sumqayıt iri sənaye şəhəri olduğu üçün əhalinin əksəriyyətini fəhlələrin təşkil etməsi də təbii idi. Ancaq eyni zamanda Sumqayıtda ziyalılar – alimlər, şairlər, müəllimlər, həkimlər, mədəniyyət işçiləri, mühəndislər ordusu yetişməkdə idi.

Sumqayıta ilk dəfə 1966-cı ilin yayında gəlmişəm. Ali məktəbə qəbul olunandan sonra atam məni ilk dəfə Bakıdan Sumqayıta, Mehdi əmimgilə gətirdi. Sabunçu vağzalında elektrik qatarına əyləşdik. Sumqayıta çatanda ilk təəssüratım indi də yadımdadı. Adamlar qatardan düşüb payi-piyada şəhərə doğru addımlayırdılar. Qəribədir, vağzal o vaxt mənə qarışqa yuvasını xatırladırdı. Bir-birinin ardınca düzülüb Sumqayıta doğru gedənlər isə zəhmətkeş qarışqalara bənzəyirdilər...

Qəribədir ki, mən ali məktəbi bitirəndən sonra əmək fəaliyyətimə tərbiyəçi müəllim kimi başlamışam. Elə buna

görə də fəhlə psixologiyası haqqında az-çox təsəvvürüm var. O vaxtın fəhlələri dünyanın ən hörmətli, nüfuzlu adamları idilər. Sabirin qəhrəmanı olan "pulsuz kişilər" deyildilər. Fəhlələr həm də söz vurğunu kimi yadımda qalıblar. Trest-də, fəhlə yataqxanalarında keçirdiyimiz görüşləri, kitab mü-zakirələrini indi də yaxşı xatırlayıram. Əli Vəliyev, Bayram Bayramov, Məmməd Rahim, Hüseyn Abbaszadə, Salam Qədirzadə, Qabil, Məmməd Araz, Söhrab Tahir, Tofiq Bayram, İlyas Tapdıq, Şamil Xurşud, Sərdar Əsəd, Vaqif İbrahim və digər tanınmış qələm sahibləri ilə keçirdiyimiz görüşlərdə fəhlələrin şeir-sənət biliciləri kimi çıxış etmələri, məncə, təsadüfi deyildi. Elə fəhlə tanıyırdım ki, onun poetik duyumu bəzi ədəbiyyatçılardan güclü idi...

Sadə əmək adamları təbii olurlar. Elə buna görə də bütün yaradıcı insanlar kimi mənə də onlarla oturub-durmaq özünü çəkən vəzifə sahibləri ilə ünsiyyətdən daha xoşdur. Sumqayıt sadə, təbii adamlar şəhəridir. Hərə gəldiyi kənd-dən, obadan bu şəhərə bir bənzərsiz ab-hava gətirib. Sumqa-yıt haqqında düşüncələrimi 1981-ci ildə yazıb çap etdirdiyim bir şeirdə ifadə etmişəm.

Dil açıbdır neçə gəncin şirin diləyi,
Ürəyində tikmək, qurmaq həvəsi gəlib.
Bu şəhərə neçə düzün gülü, çiçəyi,
Neçə dağın könül açan havası gəlib...

– **Azərbaycan tarixində Sumqayıtın yeri və rolu?**

Mənim fikrimcə, Azərbaycan Sumqayıtdan başlanır. Ona görə ki, Azərbaycanın elə bir kəndi, şəhəri yoxdur ki, onun övladı Sumqayıtda yaşamasın. Sumqayıt böyük Azər-baycanın kiçik modelidir. Burda yerlibazlıq arxa plandadır. Bütün rayonların, kəndlərin adamları bu şəhərdə doğmala-şıb, bir-birlərinə qaynayıb-qarışıblar.

Sumqayıt həm də inqilab beşiyi olub. Azğın düşmənlərimizə qarşı ilk etiraz dalğasının Sumqayıtda qalxmasını da təsadüfi hesab etmirəm.

Sumqayıt həm də Azərbaycan iqtisadiyyatının inkişafı üçün strateji əhəmiyyəti olan bir şəhərə çevrilə bilər.

**– Sumqayıt yazarları ildən-ilə çoxalır. Onların əsərlərindəki yenilikləri, tapıntıları yaşatmaq üçün ilk növbədə nə lazımdlr?**

– Hər bir körpənin dil açıb ilk dəfə "ana", "ata", "vətən" deməsi, ilk qədəmlər atması, böyüməsi, sevməsi həmin adamın özü üçün yenilikdi... Ancaq biləndə ki, səndən əvvəl "ana", "ata", "vətən" deyiblər, anamız torpağın üstündə gəziblər, seviblər, məsələ bir qədər başqalaşır.

Yadımdadır, anam dərs dediyi uşaqlara fizikadan bir qanunu izah edirdi. İçi su ilə dolu qəhvədanın lüləyindən üfürəndə qabarcıqların əmələ gəldiyini görən Paskalın öz qanununu kəşf etdiyini söyləyəndə indi diş həkimi işləyən uşaqlıq dostum Rövşən dedi:

– Bıy, ay müəllim, mən bunu Paskaldan qabaq bilirdim.

İndi gənc yazıçılarımızın bir qismi ədəbiyyat tariximizi bilmədiklərindən elə sanırlar ki, yazdıqları hər bir söz kəşfdir. Ədəbiyyatda yeni fikir demək üçün heç vaxt öz bədii dəyərini itirməyən "köhnə"ni, ədəbi irsimizi, eyni zamanda müasirin olan insanların daxili dünyasını öyrənmək lazımdır. Ədəbiyyatın, dilin qanunauyğunluqlarından xəbəri olmayanların əsl sənət əsərləri yaradacaqlarına inana bilmirəm.

Bir məsələni də xatırlatmaq yerinə düşərdi. Yuxarıda dediklərimə əməl etməklə də iş bitmir. Tarixdə qalacaq söz demək üçün birinci növbədə istedad lazımdır. İstedadı paslanmağa qoymayan isə zəhmətdir, axtarışdır. Ancaq zəhməti məcburi əmək kimi yox, məhəbbətlə çəkmək

zəruridir. Zəhmətin özündən, yaradıcılıq axtarışlarından zövq almağı bacarmaq lazımdır. Çünki əsl yaradıcılıq sevgi işidir. Bütün yeniliklər ilk növbədə sevginin meyvələridir...

Ən pis cəhət odur ki, indi çap olunmaq qat-qat asanlaşıb. Mətbuat orqanları da çoxalıb. Pul tapan hər bir adamın öz cəfəng yazılarını, cızmaqaralarını kitab halında nəşr etdirmək imkanı var. Necə deyərlər, "kim kimədi"?

Bizim ədəbiyyata gəldiyimiz vaxtlarda isə "Ədəbiyyat və incəsənət" qəzetinin şöbə müdiri Qabildən, "Ulduz" jurnalının şöbə müdiri Tofiq Bayramdan "şeir keçirmək" hər oğulun işi deyildi. Tanınmış yazıçılar da şeirləri bəyəniləndə sevinirdilər. Tofiq Bayramın Xəlil Rzanın şeirlərini necə geri qaytardığını indi də xatırlayıram. Əli Vəliyev bir cavan yazıçının şeirlərini çap olunmaq üçün "Ulduz" jurnalına təqdim eləmişdi. Tofiq Bayram bu yazıları çap eləmədi. Əli müəllimin necə əsəbiləşməsi indi də yadımdadır...

O vaxt zəif yazıya güzəşt yox idi. Kitab çap etdirmək isə daha çətin idi. Nəşriyyatların planına düşmək müşkül bir məsələ idi. Plana düşənlərin də plandan çıxarılmaq qorxusu var idi...

İndi isə cavan yazıçılarımızın böyük bir qismi özlərindən əvvəlki nəsilləri oxumaya-oxumaya bəyənmir, dahilik iddiası ilə öz "əsər"lərini çap etdirirlər. Bu yazıları oxuyanda görürsən ki, özündən müştəbeh şairlərin əsərlərində nəinki poetikaya, şeir texnikasına, hətta adicə dil, üslub, ifadə qaydalarına da riayət olunmur.

Şillerin bu kəlamını gənclik illərində özümə həyat devizi seçmişdim: "Madam ki, həyat qarşıma çətinlik çıxardır, deməli, məndən böyük adam hazırlamaq istəyir." Təəssüf ki, indiki gənclər sənətkarlıq meyarları baxımından heç bir çətinliyə rast gəlmirlər. Bu isə əsl istedadların lazımi səviyyədə yetişməsinə mane olur.

Ancaq bütün bunlarla bərabər deməliyəm ki, Sumqayıtda istedadlı gənclər də az deyil. İnanıram ki, onlar gərgin yaradıcılıq axtarışları aparsalar, öz sənətlərinin fəhləsi olsalar, çox şeyə nail ola biləcəklər.

– **Əvvəllər peşələri bir-birindən tez ayırmaq olurdu. Bazar iqtisadiyyatına keçdiyimiz üçün elə bil bazara düşmüşük. Yazıçını kimyaçıdan, inşaatçını şairdən ayırmaq olmur. Bu nədir, yeni cəmiyyətin qanunauyğunluqlarıdır?**

– Tanıdığım bir qarmonçalan var idi, həm də fotoqraflıqla məşğul olurdu. Qarmonçalanlar ona şəkil çəkə bildiyinə, fotoqraflar isə qarmon çaldığına görə hörmət edirdilər. Əsl sənət yarımçıqlığı sevmir. Xalqın bu fikirlərində də böyük həqiqət var: "Zər qədrini zərgər bilər". "Boz dünya" şeirimdə verdiyiniz sualın cavabı var: "Boz şeirlər, mahnılar dönüb boz bir buluda, üstümüzə yeriyir söz bozara-bozara."

Çox təəssüf ki, cızmaqaraçılar oxucunun zövqünü korlayırlar. Ən qorxulusu isə imkanlı cızmaqaraçılardır. Onlar asanlıqla kitablar çap elətdirir, mətbuata, televiziyaya yol tapır, yaradıcılıq gecələri keçirir, ən tanınmış ədəbiyyat və incəsənət xadimlərinə öz "əsər"lərini təriflətməyə nail olurlar.

Çox təəssüf ki, ədəbi zövqə malik tanınmış adamları həyat bir qarın yeməyin xətrinə boğazdan yuxarı tariflər söyləməyə vadar edir. Təriflənən cızmaqaraçı özündən o qədər müştəbehləşir ki, ən istedadlı, təvazökar, tariflərdən qaçan sənətkarları tənqid eləyir. Adamı dəhşət bürüyür. Daşın halına kəsək ağlayır.

Əsl sənəti qorumaq üçün yazıçı, şair təkcə yaxşı əsərlər yazmaqla kifayətlənməməli, istedadlı qələm dostlarının təbliğatçısı olmalıdır. Əgər istedadlılar bir-birlərinə kömək

etməsələr, ədəbiyyatımızı çayırlardan təmizləmək mümkün olmayacaq.

**– Xaricdə hər hansı bir yaradıcının əsəri alınır. Bu da bir növ biznesdir. Bizə elə gəlir ki, respublikada Çingiz Abdullayevin əsərlərindən başqa kütləvi şəkildə satışa gedən kitaba rast gəlməzsən. Bu, nədən irəli gəlir? Yazıçı oxucunun tələbatını duymur, ya oxucu oxumağa meyl etmir? Sizin münasibətiniz.**

– Mənə elə gəlir ki, ədəbiyyat sevgi işidi. Sevgini, məhəbbəti isə hərraca qoymaq olmaz. Əsl yazıçı, mütəfəkkir "palaza bürünüb el ilə sürünən" deyil, dabanından soyulsa da, daş-qalaq edilsə də, öz əqidəsindən dönməyəndi... Nəsimini, Sabiri, Mirzə Cəlili xatırlasaq, kifayətdir. Əsl yazıçı oxucunun səviyyəsinə enməməli, onu öz səviyyəsinə qaldırmağa çalışmalıdır.

**– Çox vaxt deyirlər ki, yazıçı olmaq üçün uşaqlıqdan vergi lazımdır. Ancaq Höte özünün "Faust" əsərini 70 yaşında yazıb...**

– Yaxşı yazıçı olmağın meyarı istedaddı, yaş deyil. İstedadlı qələm sahibi hər yaşda gözəl əsər yarada bilər. Balıqçının tilovuna həmişə qızıl balıq düşmür axı?! Yazıçıların bütün əsərləri eyni səviyyədə olurmu? Əgər Lermontov 27 yaşında ömrünü başa vurmuşdusa, Sabir 43 yaşında öz şeirini çap etdirə bilmişdi. "Molla Nəsrəddin" jurnalı olmasaydı, Sabir inqilabi satiramızın banisinə çevrilə bilərdimi? Son dərəcə istedadlı bir insan olan Mirzə Fətəli Axundov Mirzə Şəfi Vazehlə rastlaşmasaydı, bəlkə də dahi mütəfəkkir səviyyəsinə yüksələ bilməzdi.

İstedadın inkişafı üçün mühit olduqca mühüm şərtdir. Ağac hansı yaşında olursa olsun, çiçək açırsa, cavandı, bar verəcək. Sənətkar da belədi. Mənə elə gəlir ki, böyük əsərlər

(həcm nəzərdə tutulmur) yazmaq üçün böyük həyat təcrübəsi, böyük hazırlıq lazımdır...

**– Yazıçı və şairlərin çoxusu öz əsərlərini gecələr yazır. Deyilənə görə gecələr ilhamverici pərilər yazıçının çiyninə qonur və yazıçının qələmi məhsuldar işləməyə başlayır. Siz necə, nə vaxt yazırsınız?**

– İlham gecə-gündüz bilmir. Tar-saz çalınmazdan əvvəl kökləndiyi kimi, şair ürəyi də yazacağı mövzunun ab-havası ilə köklənməlidi. Bu zaman yaradıcı insanın əlində qələm mizraba, tazanəyə çevrilir. Elə ola bilər ki, bazar vurhavurunda, avtobus bashabasında şeirin toxumu, ilk misrası ürəyinə düşə bilər. İlham vaxt-vədə bilmir, gecə də gələ bilər, gündüz də. İlhamı gələndə şairin “ilanboğan” vaxtı olur həmişə... Ancaq iri həcmli əsərlər yazmaq üçün mütləq oturmaq, gərgin işləmək lazımdır. Bəzən elə olur ki, yazı prosesində qələm nəzərdə tutduğun sözü yox, tamam başqa şey yazır.

Məşhur fransız yazıçısı Jül Renar öz gündəliyində yazırdı ki, əsl yazıçı gündə 18 saat işləməlidi. Cavan vaxtı onun bu sözlərini epiqraf gətirib yazmışdım ki, gündə 18 saat yox, 18 dəqiqə işləyə bilsəydim, yəqin ki, dahi olardım.

Yaradıcılığı doğum prosesinə oxşadanların sözündə də həqiqət var. Hər hansı bir mövzunun “toxumu”, ilk detalı ürəyə düşür, yavaş-yavaş öz bədii formasını tapır və bundan sonra yazı prosesi başlayır. Arzularda, xəyallarda olanlar “qələm körpüsü”ndən keçib, həyata atılır.

Əgər yazıçı yaradıcılıq prosesində qəhrəmanın ağrı-acılarını, arzu və düşüncələrini “öz qələminin köynəyindən keçirəndə” həyəcanlanmırsa, onun əsəri də sirayətedici ola bilməz.

Maraqlı bir faktı xatırlatmaq istəyirəm. Balzak roman üzərində işləyirmiş. Qulluqçu ona qəhvə gətirəndə qışqırıb

haray salır ki, Balzak öldü. Göz yaşları içində başını qaldıran yazıçı deyir: “Balzak ölmədi, Qori ata öldü”...

Məni sevən və mənim sevdiyim gözəllər çoxdu. Ancaq onların heç biri mənim ilham pərim deyil. Naqillər birləşəndə işıq yarandığı kimi, gözə görünməyən ilham pərisinin “gözləri gözümə sataşanda” ürəyimdə söz közərir, nurlanır. İlham pərisi tez-tez öz yerini, cildini dəyişir. O, gah dənizin, gah füsunkar göllərin, gah qıjıltılı çayların, şəlalələrin, çeşmələrin, gah ayın, gah günəşin, gah dağın, gah dərənin, gah otun, gah çiçəyin, gah zümrüd donlu meşələrin, çiçəkli bağların, gah gül qoxulu körpələrin, gah da nazlı güllərin gözü ilə gözümün içinə baxır. Harda gözəllik, sevgi varsa, ilham pərim pıçıltı ilə məni ora səsləyir. İlham pərimin üzünü bir dəfə də olsun görməmişəm. Onun bədii portretini çətin ki, yarada bilərəm. Hərdən mənə elə gəlir ki, bu pəri elə mənim içimdə əyləşib, mənimlə birlikdə nəfəs alır, sevinir, dərd çəkir, həyəcanlanır, sevir, nifrət edir...

Ancaq nəyəsə heyrətlənəndə, ilham pərisinin sevimli üzünü elə bil ki, görürəm...

**– Sizi gecə şirin yuxudan ayıldıb, öz şeirlərinizdən birini oxumağı xahiş etsələr, ilk anda hansı şeir yada düşər?**

– Mən hər şeyin təbii axarını xoşlayıram. Gecə məni yuxudan oyadıb “şeir oxu” deyən adama ürəyimdə də olsa, söyərdim. Bir var suyu nasosla vurasan, bir var öz təbii axarı ilə gələ. Özünü məcbur eləyib şeir yazmaq, şeir oxumaq ürəyi zorlamaq kimi bir şeydi. Poeziya isə, hər şeydən əvvəl, sevgi işidi..

Yaxşı yadımdadır, Çayzəmidə təbiətin gözəlliyindən heyrətə gəldiyim, duyğulandığım bir vaxtda bir nəfər mənə dedi ki, şeir oxu. Daxilən bərk əsəbiləşdim. Xahiş elədim ki, mane olma, qoy təbiətin oxuduğu şeiri dinləyim. Dostum

yenə əl çəkmədi. "Şair şeir yazanda birinci növbədə oxucunu düşünməlidir, – dedi. Bu söhbətdən sonra "Şeir yazanda" adlı bir cavab şeiri yarandı 1984-cü ildə...

**– Bilirik ki, sözün qüdrəti böyükdür. Keçən əsrdə Sankt-Peterburq şəhərində A.Puşkinin heykəlinin açılışında Dostayevski dahi şair, sözün böyüklüyü, bəşəri, müqəddəs anlayışları haqqında elə təsirli çıxış edir ki, 25 il bir-birindən küsmüş iki knyaz barışır. Siz sözü necə qiymətləndirirsiniz?**

– Puşkinin heykəlindən danışdın, bir lətifə yadıma düşdü. İki atıcılıq üzrə idman ustası Puşkinin heykəli qarşısından keçəndə biri o birinə deyir:

– Hələ belə tarixi ədalətsizlik görməmişəm. Hədəfə düzgün vuran Dantesdi, heykəli isə Puşkinə qoyublar...

O ki, qaldı verdiyin sualın cavabına, söz haqqında yeni söz demək çətindi. Ona görə ki, söz ilahi bir qüvvəyə malikdir. Söz hikmət xəzinəsinin ən qiymətli incisidir. Sözün işığında haqqın nuru var. Ulu Nizami inci tək sözlər seçməyi, az danışıb, az dinməyi, sözünün yerini bilməyi insanın ən ali keyfiyyəti hesab edirdi. Füzuli təsadüfi demirdi ki, ilahi feyzdən bir xəzinədir söz. Sözün şeirin qiyməti onun düzlüyündədir.

Sokrat "Söz əsər etməyənə çubuq da kömək etməz", Şekspir "Xoş söz dəmir qapılar açar" qənaətinə təsadüfi gəlməmişdi. "Şirin dil ilanı yuvasından çıxardar" kəlamında da sözün qüdrəti xatırlanır. Sözlə ən çox oynayan, onun nazını çəkən şairlərdi. Şairin gözlərinə gözəl görünən kimi söz onun qəlbində ulduzlar kimi sayrışır. Şair müəyyən mənada söz ağacına bənzəyir. Arıya da oxşarı var şairlərin.

Söz hikmət sarayının kərpicləridi. Xalqımızın keşməkeşli tarixi də sözlər vasitəsi ilə bizə yadigar qalıb. Hikmətli sözü onu yaradanın abidəsi hesab edirəm.

İnsanlar da sözlər kimidi. Sözlər ümumi lüğətin tərkib hissəsi olduğu kimi, insanlar da cəmiyyətin tərkib hissəsidi. İnsanlarsız cəmiyyət yoxdu, sözlərsiz dil. Dilin lüğət tərkibindəki sözlər də cəmiyətdəki insanları xatırladır. Dildə hər sözün, cəmiyyətdə hər insanın öz yeri var. Sözünün yerini bilmək, onun məna çalarlarını unutmamaq çox vacib məsələdir.

Sözlər və insanlar. Onlar bir-birlərinə çox oxşayırlar. Söz insanın düşüncələrinin, sevgisinin, nifrətinin, ağrısının, əzabının obrazıdır. İnsanı qiymətə mindirən də, onu qiymətdən salan da sözdür. İnsanlar da, sözlər də təklikdə qiymətli görünməyə bilər. Dildə hər sözün öz yeri olduğu kimi, cəmiyyətdə də hər insanın öz yeri var. Dünyada nə sözün, nə də insanın yeri boş qalmamalıdı. Bu insan öldüsə, onu başqası əvəz etməlidi, bu söz "öldü"sə, onun yerindən başqa bir söz boy atmalıdı. Bəzi adamlarda leksikonumuzda vətəndaşlıq hüququ qazanmış alınma sözləri qovmaq, onun yerinə başqa söz gətirmək meyli var. Mən bunu ədalətsizlik hesab edirəm.

Bir söz o biri sözə lazımlılığını sübut eləyir, rəqibini vurub "öldür"mür, dilin lüğət tərkibindən özünə havadarlar çağırmır. İnsanın isə havadarları həmşə onun yanındadır.

Sözlər lüğətdə əlifba sırası ilə düzülür. Ancaq eyni hərflə, eyni səslə başlayan sözlər bir-birlərinə zahirən oxşadıqları kimi, eyni boy-buxunda olan, hətta eyni nəslin nümayəndələri bir-birlərindən öz sözləri ilə seçilirlər. Söz onu deyənin, danışanın, yazanın səviyyəsinin ən ədalətli meyarıdır.

Söz məqamında gözəl olduğu kimi, insan da öz yerində olanda gözəldi. Söz dilin lüğət tərkibində həmişə "növbə gözləyir", özünü gözə soxmağa çalışmır. Söz sərrafı məqam gələndə ümumi boy sırasında heç nə ifadə etməyən həmin

sözü tapıb yerinə qoyur və beləliklə yeni bir məna kəsb edir. Dilimizdə hər cür söz var, onu qaydasınca düzən sənətkar lazımdı. Hər cür insan, peşə sahibi var, onu öz yerinə təyin edən rəhbər lazımdır. Söz də, insan da öz yerini tapanda gözəl olur.

Pablo Neruda yazırdı: "Mənim həyatım sözlərdir, gözəl sözlər. Mən sözlər içində yaşayıram, özüməməxsus olan bir nağıl sarayı kimi"...

Sualın cavabı çox uzandı. Yadıma Lev Tolstoyun çox işlətdiyi bir söz düşdü: "Uzun yazdığım üçün məni bağışlayın, qısa yazmağa vaxtım olmadı."

**– Sumqayıt və Rafiq Yusifoğlu yaradıcılığı. Paralellər varmı?**

Təxminən mən də Sumqayıtın yaşıdıyam. O, məndən bir yaş böyük olsa da, Sumqayıtla dostam, sirdaşam. Yaradıcılığıma Sumqayıt ədəbi mühitinin çox böyük təsiri olub. İnamla deyə bilərəm ki, altmışıncı illərin ikinci yarısında və yetmişinci illərdə Sumqayıt ədəbi mübarizə meydanına çevrilmişdi. Bu mübarizənin fəxri rəhbərləri isə Süleyman Rüstəm və Rəsul Rza idi. Onlar tez-tez Sumqayıta gəlir, ədəbi qüvvələrlə görüşür, söhbət edirdilər. Xasay Cahangirovun rəhbərlik etdiyi ədəbi birliklə Vaqif İbrahimin yaratdığı Əli Kərim adına poeziya klubu yaxşı mənada üz-üzə dayanmışdı. Demək olar ki, hər həftə Sumqayıtda ədəbi gecələr, müzakirələr, görüşlər keçirilirdi...

**– On üçüncü sualdır ki, Sizə verirəm. 13 rəqəminə münasibətiniz?**

– 13 rəqəminə hamı nəhs deyir. Elə buna görə də mən hələ uşaqlığımdan bu rəqəmi sevmişəm. Özü də hər ayın 13-də şairanə, qeyri-adi günlərim olub çox zaman. Sumqayıtda ilk dərs dediyim, ədəbi dərnək yaratdığım məktəblərdən biri də 13 nömrəli məktəb olub...

**– Yeri gəlmişkən, müəllimlik fəaliyyətiniz Sizin yaradıcılığınıza necə təsir edib?**

– Ali məktəbi bitirəndə doqquz nəfər məzunu universitetdə saxlamaq qərara alınmışdı. Lakin təyinatdan sonra, dövlət imtahanı vaxtı bizi köhnə rektorun – Şövqi Ağayevin adamları kimi işə qəbul etmədilər. Mirağa əmim mənə toxtaqlıq verdi. Sumqayıtda işləməyimi məsləhət gördü. Doğrusu, heç orta məktəbdə müəllim olmaq istəmirdim. Ancaq taleydən qaçmaq olmazmış. İndi 29 illik pedaqoji stajım var. Tələbələrimin, yetişdirmələrimin sayını-hesabını itirmişəm. Xoşbəxtəm ki, dərs dediyim uşaqların məhəbbətini qazanmışam. Sumqayıtda hansı idarəyə, məktəbə gedirəmsə gedim, öz keçmiş tələbələrimlə rastlaşıram. Onların mənimlə hərarətli görüşləri ürəyimi qürur hissi ilə doldurur.

Mən ədəbiyyatımızın təbliği ilə məşğul ola-ola başa düşmüşəm ki, insanlar üçün necə əsərlər yazmaq lazımdır. Öyrəndiklərimi öyrətməkdən həmişə zövq almışam. Müəllimlik məni daim oxumağa, öyrənməyə sövq edib. Həm də tələbələrim mənim ilk oxucularım olublar. Həmişə öz oxucularının arasında olmaq yaradıcı adam üçün hava-su kimi zəruridir. L.Tolstoy əbəs yerə deməyib ki, yazıçı qatarda gedəndə də ümumi vaqonda getməlidir.

**– Siz uzun illərdir ki, “Göyərçin” jurnalının baş redaktorusunuz. Jurnalın problemləri, ümumiyyətlə, bu çap orqanlarının uşaqların tərbiyəsindəki rolu...**

– Yusif Əzimzadə, Hüseyn Abbaszadə, Xalidə Hasilova və Tofiq Mahmuddan sonra balalarımızın sevimli jurnalı “Göyərçin”in baş redaktoru olmaq mənim üçün çox məsuliyyətli və şərəfli bir işdir. Bir vaxt ayrı-ayrı məktəblərdə uşaqların tərbiyəsi ilə məşğul olurdumsa, indi bütün respublika uşaqlarının təlim-tərbiyəsində mənəvi məsuliyyət

daşıyıram. 1958-ci ildən nəşr olunan "Göyərçin" jurnalı "Əlifba"dan sonra ən dəyərli oxu vəsaiti olub. İbtidai siniflər üçün dərsliklər yazılanda ən mötəbər mənbə kimi "Göyərçin" jurnalına istinad edilib. Bu jurnal dövlət təminatındadır, məktəblilər üçün ən zəruri, gərəkli bir jurnaldır. Yazıçıların, pedaqoqların dediklərinə görə indi jurnalımız daha gözəl, məzmunlu nəşr edilir. Əlbəttə, bütün bunlar məni sevindirir. Ancaq ən böyük çətinliyimiz yayım işi ilə bağlıdır. Vaxtilə 270 min tirajla nəşr olunan bu jurnalın sayı indi kəskin şəkildə azalıb. Bu, bizi narahat edir. Ancaq inanıram ki, bütün bunlar müvəqqəti çətinliklərdir. "Göyərçin"in XXI əsrdə də ən gözəl uşaq dərgisi olacağına inanıram.

**– Çox vaxt şikayətlənirik ki, dövlət orqanlarında məmurlar formalizmlə məşğul olur, hər bir yeniliyin qarşısına sədd çəkir və sair. Məgər belə hadisələr yaradıcı təşkilatlarda azmı olur? Peşəkar səviyyədə yazılan bir pyes Mədəniyyət Nazirliyində ilişib qalır, televiziya ekranlarına çıxmayan maraqlı verilişlərimiz də tamaşaçılarını gözləyir və sair. Bütün bunlara münasibətiniz?**

– Mirzə Cəlil qəbul otaqlarını müdirlərin "intizar otağı" adlandırmaqda haqlı idi. Ümumiyyətlə, rəsmiyyətlə yaradıcılıq tutmur. Çox vaxt yaradıcı adamları əsərin bədii keyfiyyətindən çox qazanacaqları pul maraqlandırır. Elə buna görə də tamaşalar çox zəif alınır. Efirdə səsləndirilən mahnıların bayağı sözləri isə adamı lap dəhşətə gətirir. Zəif, primitiv əsərlər, tamaşalar, mahnılar insanların ədəbi zövqünü korlayır. Bütün bunlar bir yaradıcı adam kimi məni çox narahat edir.

**– Stolüstü kitablarınız hansılardır?**

– Stolüstü kitablarım tez-tez dəyişir. Həmişə eyni ovqatda yaşamağı sevmirəm. Hər meyvənin öz dadı olduğu kimi, hər əsərin də öz gözəlliyi var.

**– Sizi lətifə ustası kimi də tanıyırlar. Bir lətifə danışsaydınız pis olmazdı.**

– Yumor duyumu da Allah vergisidi. Özü də qəribədir ki, xarakterсə ciddi olan adamlarda bu hiss həmişə "dişi ağaranlar"dan güclü olur. Özümü lətifə ustası hesab etmirəm, ancaq ömrüm boyu lətifə azarkeşi olmuşam.

Bir dəfə qələm dostum Ağəddin Mansurzadə evə parça alıb aparır. Parçanı bəyənməyən həyat yoldaşı kinayə ilə deyir ki, kişi, heç səndə zövq yox imiş. Ağəddin deyir:

– A mollanın qızı, məndə zövq olsaydı, səni niyə alırdım?

Onu da deyim ki, mənim ilk lətifələrimi elə qələm dostum Ağəddin Mansurzadə çap eləyib. "Güldürmək bizdən, gülmək sizdən" rubrikası altında çap edilən lətifələrin həcmi üç müəəlif vərəqindən çoxdur.

**– Sumqayıtlılara arzunuz?**

– Arzum budur ki, Sumqayıt yaşıllıqlar şəhərinə çevrilsin. Ürəkdəki bütün tumurcuq, qönçə arzular yarpaqlasın, çiçək açsın. Bütün sumqayıtlılara sevda dolu ömür, səadət, xoşbəxtlik arzulayıram. İstəyirəm ki, Sumqayıtın küçələrində qarşıma çıxan qızlar, oğlanlar öz zahiri və mənəvi gözəllikləri ilə, mədəni rəftarları ilə qibtə hissi doğursunlar.

Müsahiməni apardı: **Eyruz Məmmədov**

**Aygün Hacıyeva, Eyruz Məmmədov. "Sumqayıtım mənim", "Sumqayıt" nəşriyyatı, 1999.**

# MƏZƏLİ ƏHVALATLAR

## TƏBƏSSÜM ÇİÇƏKLƏRİ

(“Xatirə kəcavəsi” kitabından)

Yer üzündə təbəssümdən gözəl şey yoxdu bəlkə də... Təbəssüm insan ovqatının ən füsunkar çiçəyidi. Üzə təbəssüm qonursa, insan bəxtəvərlər bəxtəvəridi, xoşbəxtdi. Təbəssüm qönçədi, gülüş açılan çiçək... Təbəssümün də, gülüşün də ətri var çiçəklər, güllər kimi. Müşfiq demişkən: “Nə gözəl yaraşır insana gülmək.” Ancaq bəzən elə olur ki, qaraqabaq adamlarda yumor duyumu o birilərdən daha güclü olur. Gülüşün, təbəssümün özü də yumor duyumunun göstəricisidir. Ancaq təəssüf ki, bəzən mənasız-mənasız gülənlərin qəlbində yumor duyumu o qədər də güclü olmur.

Allah sənə rəhmət eləsin, Molla Nəsrəddin, Allah sənə rəhmət eləsin, Mirzə Cəlil! Birincini bilmirəm, ikinci ciddi olub, qaraqabaq olub. Ancaq o qaraqabaq adamın gülüşü, yumoru XX əsri başdan-başa nura bələyib. Mirzə Cəlil gülüşünün işığında millət papağını qarşısına qoyub fikirləşib, özünü tanıyıb...

Bəlkə də yer üzündə ən böyük xalq öz dərdinə yumor prizmasından baxa bilən xalqdır. Yumor duyumunun özü də Allah vergisidir. Əsl yumor “çöpəgülən”lərin yox, ciddi adamların ürəyində məskən salır...

Ömrüm boyu lətifə azarkeşi olmuşam. Onu dinləməyi də, danışmağı da çox xoşlamışam. Bu lətifələrin əksəriyyəti lətifə deyil, konkret ünvanda yaşayan adamların başına gələn məzəli əhvalatlardır. Nə qədər fikirləşsən, beləsini qondara bilməzsən. Çünki bunlardakı yumor həyatın özündən doğan yumordur.

Dostum Nazim Ulubəy oğlu ilə Şəkiyə gedəndə başımıza lətifəyə bənzər o qədər hadisə gəldi ki, o qədər danı-

şıb-güldük ki, ağlıma qəribə bir fikir gəldi: dost-tanışın başına gələnləri qələmə almaq... Ancaq xeyli fikirləşəsi oldum. Qorxdum ki, məndən inciyələr. Elə buna görə də adları dəyişmək istədim. Ancaq sonra gördüm ki, belədə qətiyyən ləzzəti, dadı-duzu olmayacaq. Əvvəlcə doğulduğum Qubadlıda baş verən məzəli əhvalatları qələmə aldım. Bunların arasında öz atamın başına gələn əhvalatlar da var. Onun adını da eyni ilə saxlamışam ki, başqları məndən inciməsinlər.

İlk dəfə bu lətifələri qələm dostum, "168 saat" qəzetinin sabiq redaktoru, Ağəddin Mansurzadəyə verib xahiş elədim ki, bunları çap eləsin. Əvvəlcə razı olmadı. Ancaq ilk nümunələri çap eləyəndən sonra oxucu rəyini nəzərə alaraq o, fikrini dəyişdi. Xahiş elədi ki, qəzetin hər nömrəsi üçün belə yazılar hazırlayım. Həmin məzəli əhvalatlar "Güldürmək bizdən, gülmək sizdən" başlığı altında çap olundu. Bir də baxıb gördüm ki, xeyli məzəli əhvalat qələmə almışam.

Dostlarımın məsləhəti ilə bu yazıları ömrümün əllinci baharına həsr etdiyim "Xatirə kəcavəsi" kitabına salmaq qərarına gəldim.

Əziz oxucularım, arzum budur ki, üzünüzdən heç vaxt təbəssüm əskik olmasın. Kitabımı oxuyub qurtaranların üzündə təbəssüm görmək mənim ən böyük mükafatlarımdan biridir.

**PS.** "Seçilmiş əsərləri"mə topladığım lətifələrin hamısını yox, özümün, o cümlədən də şəxsən tanıdığım adamların, yazıçıların başına gələn məzəli söhbətləri daxil eləmək qərarına gəldim. Ona görə ki, əslində bu lətifələrin hamısında mən varam, əhvali-ruhiyyəm, ovqatım var...

## MÜƏLLİM DEMƏYİN

Evin böyük uşağı olduğumdan göz açanda dayılarımı görmüşəm. Onlar anama bacı dediklərindən, mən də dayılarımı təkrarlamışam və anama bacı demişəm...

Anam məktəbdə müəllim işləyirdi. İlk dəfə idi ki, məni də özü ilə məktəbə aparmışdı. Uşaqlar anama müəllim deyəndə ağlaya-ağlaya onların üstünə cumub dedim:

– Köpək uşağı, bacıma müəllim deməyin...

## GÖZÜMÜ YUMANDA

Hər səhər sübh tezdən dənizə getdiyim üçün tez yatmağı vərdiş eləmişəm. Bir dəfə qohumlarımızdan biri təəccüblə soruşdu:

– Ay Rafiq, qaranlıq düşməmiş necə yatırsan?

Gülə-gülə dedim:

– Gözümü yumanda qaranlıq olur da...

## PEDAQOJİ TƏCRÜBƏDƏ

Sınaq dərsim idi. Bir şagirddən dərs soruşurdum. Qız dərsə yaxşı hazırlaşmamışdı. Hıqqına-hıqqına bir cümlə deyib, dayandı. Bilmirəm necə oldusa, kinayə ilə dedim:

– Nə oldu, benzin qurtardı?

Arxadan bir oğlan söz atdı:

– Xeyir, müəllim, "astanovka"dı...

Uşaqlar gülüşdülər. Vəziyyətdən çıxmağa çalışdım. Üzümü oğlana tutub dedim:

– Astanovkadısa, gəl düş...

Belə deyib ona sinfin qapısını göstərdim...

## ATIN YERİŞİ

Bir dəfə dərsə gecikdiyim üçün sürətlə gedirdim. Bir də gördüm ki, dostlarımdan biri məni səslədi. O, tələsmir, yavaş-yavaş mənə yaxınlaşırdı. Yanında da tanımadığım yaşlı bir adam var idi. Dostum mənə sataşdı:

– Nə yaman yorğa gedirsən, ə?

İstər-istəməz, özümdən asılı olmayaraq dedim:

– Atın yerişi eşşəyinkindən fərqlənməlidi də...

Dostum pərt oldu. Bir ay mənimlə küsülü qaldı ki, o nə söz idi mənə dedin...

## PULSUZLUQ ƏLAMƏTİ

Yayda rayona getmişdim. Ən yaxşı istirahətim çaya gedib balıq tutmaq idi.

Bir dəfə dostum Tahir Feyziyev bizə gəlib məni soruşub. Deyiblər ki, uşaqlarla çaya balıq tutmağa gedib.

Tahir özünəməxsus şəkildə deyib:

– Əmimin canı haqqı, kitab oxumaqdı, televizora baxmaqdı, günorta yatmaqdı, qarmaqla balıq tutmaqdı, – bunların hamısı pulsuzluq əlamətidi...

## CİBİM

Bir dostum məni şəhərdə maşınsız görüb təəccübləndi:

– Maşının xarabdı?

Acı-acı gülümsünüb dedim:

– Maşınım xarab deyil e, cibim xarabdı...

## ŞAPQA

Qubadlıya, evimizə getmişdim. Başıma o vaxt dəbdə olan meşin – dəri şapqa qoymuşdum. Anam bunu görüb hirsləndi:

– Bu nədi başına qoymusan?

Gülə-gülə dedim ki, çox dəbdə olan şapqadı, görməmisən, Vaqif Hüseynov da başına o şapqadan qoyur.

Anam daha da əsəbiləşdi:

– Bunu başına qoyub Vaqif Hüseynovun yanına gedərsən, rayona gələndə başına adam papağı qoy...

## KAPOT

Atışmanın vurhavur vaxtında ailəlikcə Qubadlıda, ata evimizdə idik. 1993-cü il avqust ayının 18-də maşının "sveça"larını – alışma şamlarını təmizləyirdim. Səhərisi gün şəhərə qayıtmaq fikrində idim. Birdən Qubadlını dəhşətli "Qrad" – top atəşinə tutdular. Qardaşım həyəcanla hamıya əmr etdi ki, hamınız qaçın "akop"lara. Mən isə şamlar əlimdə çaşıb qalmışdım. Birdən həyat yoldaşım həyəcanla mənə dedi:

– Nə gözləyirsən, kapotu ört, kapotu ört...

## SƏNİ BİLİRƏM

Böyük oğlumgilin sinfinə dərs deyirdim. Bir oğlan dərsə hazır gəlməmişdi. Onu danlayıb hirsli-hirsli soruşdum:

– De görüm evdə nə iş görürsən?

Oğlan qızardı. Mənim oğlum isə arxadan suflyorluq elədi. Pıçıltı ilə dedi:

– Ev süpürürəm, zibil atıram...

Üzümü ona tutub dedim:

– Səni bilirəm e, bundan soruşuram...

## "LYUBOVNİK"

Yuxarı siniflərdə oxuyanda oğluma Azərbaycan dili və ədəbiyyatdan özüm dərs deyirdim. Bir gün Gursel yalvardı ki, ata, sabah məndən dərs soruşma. Acıqlanıb o biri otağa

qovdum, dedim ki, xeyiri yoxdu, sabah “Ana və poçtalyon”u səndən soruşacam. Get əzbərlə. Oğlum çox dilxor halda şeir əzbərləməyə getdi.

Elə bu zaman mərhum bir müğənnimizin lent yazısını göstərdilər. Böyük oğlum soruşdu:

– Ata, deyirlər ki, bu qadını “lyubovnik”inin oğlu öldürüb, düzdü?

– Heyf ki, öldürüb. Belə müğənniyə adam əl qaldırardımı?

Elə bu vaxt qapı açıldı. Gursel nə isə deyib, qapını örtdü. Evdəkilər gülüşdülər, mən bir şey başa düşmədim.

Gündüz dedi:

– Ata, eşitdin Gursel nə dedi?

– Yox, nə dedi ki?

– Acığın tutmaz ki?

– Yox.

– Mənə dedi ki, ataya de, kişi kimi söz verirəm, onun sevgililərinin heç birini öldürməyəcəm. Ancaq bircə şərtim var ki, sabah məndən dərs soruşmasın...

## ONA GÖRƏ Kİ...

Bir dəfə kiçik oğlum məndən soruşdu:

– Ata, nə üçün ölülərin üstündə ərəbcə oxuyurlar?

Gülümsünüb dedim:

– Ona görə ki, adamların hamısı öləndən sonra ərəbcəni başa düşürlər.

## ZƏBT

Qaçqınlar Sumqayıtdakı binalara doluşanda oğlum gülə-gülə mənə dedi:

– Ata, ermənilər Qubadlını zəbt elədi, qubadlılar da Sumqayıtı...

## AYAQQABI

Gündüz özünə ayaqabı almaq məqsədiylə bir neçə gün ustaya kömək elədi. Çox ayaq üstə durduğundan axşamlar onun ayaqları bərk ağrıyırdı. Bunu görən Gursel gülə-gülə dedi:

– Gündüz, belə getsə, ta heç sənə ayaqqabı lazım olmayacaq...

## EVİM YIXILIB

Dostlarımdan birinin, daha doğrusu, Nazim müəllimin qızına dərs deməli oldum. Bir neçə dərsdən sonra evdə anası soruşub:

– Rafiq müəllim necə dərs keçir?

– Yaxşı dərs keçir e, ancaq mənim evim yıxılıb...

Təəccüb eləyiblər. Səbəbini soruşanda deyib:

– Mən zəifəm, o isə o qədər şey soruşur ki...

## HANSI DİLDƏ OLACAQ

Uşağı özəl universitetlərin birinin tibb fakültəsində oxuyan valideyn lovğa-lovğa deyirdi:

– Bilirsiniz, ən əsası odur ki, bu universitetdə təhsil ingiliscədi...

Gülümsünüb zarafatla soruşdum:

– Bəs oğlun həkim olanda müalicəni hansı dildə aparacaq?

## ƏMİ, QORXMA

Dostlarımdan biri uşağın əlində qəşəng bir bıçaq görür. Bilmir ki, nə yolla bıçağı ondan alsın. Ağzını, üzünü qırışdırır, gözlərini bərəldir ki, uşaq bəlkə bıçağı atıb qaça. Uşaq isə heç nə olmayıbmış kimi dostuma deyir:

– Əmi, qorxma, qulağını kəsməyəcəm!

## MİLLİ

Bilmirəm nədənsə həmişə milli televiziya deyəndə üzümə acı təbəssüm qonur. Düşünürəm: televiziya elə milli olar da. Bir də ad dəyişməklə mahiyyət dəyişirmi?

Oğlumla Bakıya gedirdik. Keçmiş qızıl ordu meydanındakı abidəni sökmüş, dairəni təzəcə daraldıb, asfalt tökmüşdülər. Ancaq asfalt pıtır-pıtır idi.

Oğlum təəccüblə soruşdu:

– Ata, bu nə cür asfaltdı?

Gülümsünüb dedim:

– Milli asfaltdı, bala.

## ON İKİNCİ “MƏMMƏD”

Məmməd Namaz yolda oğlum Gurselə rast gəlib, onu maşina götürür. Benzin dolduranda deyir:

– A Gursel, bu məndən 12 “məmməd” istəyir, məndə isə cəmi 11 “məmməd” var.

Gursel gülə-gülə deyir:

– Məmməd əmi, satıcıya de ki, on ikinci “məmməd” də elə mən özüməm…

## SINMAQ EHTIMALI

Gursellə səhər-səhər dənizdən qayıdırdıq. Arxadan addım səsləri gəlirdi. Dikdaban səsindən aydın idi ki, gələn qadındır. Dönüb arxaya baxmağa utanırdım, ancaq maraq da mənə güc gəlirdi.

Oğluma dedim:

– Gursel, nədəndisə, kişilərin başı, arvadların isə ayaqqabılarının dabanı həmişə dik olur.

Gursel güldü:

– Ata, ikisinin də sınmaq ehtimalı çoxdu…

## MOBİL TELEFON

Mobil telefonun təzə çıxan vaxtı meşədə gəzirdik. Birdən telefonum zəng çaldı. Oğlum Gündüz bizimlə hal-əhval tutdu, necə istirahət etdiyimizi soruşdu. Dedim ki, meşədə gəzirik, hər şey gözəldi.

Bizə bələdçilik edən yerli sakinlərdən biri təəccüblə soruşdu:

– Ay Rafiq müəllim, Gündüz nə bildi ki, meşədəsiniz, bura zəng elədi?

## XİYAR

Qardaşım Bəxtiyar qışda rayona gedəndə xiyar alıb aparıbmış. Bunu görən balaca Günel təəccüblənib və deyib:

– Bıy, xiyar, nətərsən?

## GÜL

Gül alıb anasının məzarını ziyarət eləməyə gedən qadına uşaq deyir:

– Ana, bəs mən nə vaxt sənin qəbrinin üstünə gül aparacam?

## ŞORBA

Uşaq nənəsinə deyir:

– Nənə, şorba yemə, sonra ölərsən, baş daşına yazarlar ki, şorba yedi, öldü.

## MƏNİ KƏS

Kənddə yaşayan tələbə müəlliminə qoyun gətirib ona deyir:

– Müəllim, məni kəsmə, qoyunu kəs!

## SEVİLLƏ SÖHBƏT

– Bu qələm kimindi?
– Mənim.
– Kağız kimindi?
– Mənim.
– Seva kimindi?
– Mənim.
– Fəzilə nənə kimindi?
– Mənim.
– Nəcabət nənə kimindi?
– Rəşid babanın.
Sevil əlini əlinə vurub güldü və dedi:
– Ay səni, Rafiq baba, güldürdün məni!

## ƏN ÇOX SEVDİYİN RƏNG

Bir uşaqdan soruşdum:
– Ən çox sevdiyin rəng hansıdı?
– Qırmızı.
– Nə üçün qırmızını sevirsən?
– Ona görə ki, qarpız qırmızıdı.

## BİRİ ARTIQDI

Məktəbdən gələndə Ayseldən soruşdum:
– Aysel, neçə dərsiniz var idi?
– Dörd.
– Neçə almısan?
– Bir dənə “5”.
– Bəs dörd dərsə bir “5” az deyil?
– Yox, hələ biri də artıqdı…

## LAXLAYIR

Balaca vaxtı Ayseldən soruşdum:
– Niyə yeriyəndə ayağını sürüyə-sürüyə gedirsən?
- Əmi, ayağımı sürümürəm e, ayaqqabım laxlayır.

## HARDAN BİLİRSƏN

– Bilirsən heç sənin üçün nə qədər darıxmışam?
– Bilirəm.
– Hardan bilirsən?
– Deməyəcəm…

## DÜNYANIN MƏRKƏZİ

Bir nəfər məndən soruşdu ki, Rafiq müəllim, nə üçün eviniz belə ucqardadır? Gülüb dedim ki, mən harda yaşayıramsa, elə bilirəm ki, dünyanın mərkəzi oradır.

## MENYU

Bir dostum məni evlərinə qonaq çağırmışdı. Ayrı bir dostumla onlara getdik. Ev sahibi isə arabir yazı-pozu ilə məşğul idi. Allaha yalvarırdım ki, bu haqda söz-söhbət salmasın.

Elə bu vaxt dostum "sandıq ədəbiyyatı"nı ortaya tökdü və hərəmizə bir yazı verdi ki, yemək hazır olanacan oxuyaq başımız qarışsın.

Mən cızmaqara oxumaqdan canımı qurtarmaq üçün zarafata salıb soruşdum:

– Qardaş, bu menyudu?

Hamı güldü...

## KAŞ SƏN DƏ

Seminariyada dərs dediyim qızlardan biri aprelin birində məni aldatmaq məqsədiylə dəhlizin o başından qışqıra-qışqıra, həyəcanla dedi:

– Ay müəllim, maşınınızı həyətdən apardılar.

Halımı pozmadan dedim:

– Kaş sən də içində gedəydin!

Uşaqlar gülüşdülər...

Növbəti dərsdə o biri qrupun uşaqlarından başqa bir qız dedi:

– Müəllim, maşınınızın təkəri boşalıb.

Dedim ki, özünü havayı yerə yorma, aldatma günü olduğunu bilirəm. Yuxarıdakı əhvalatı danışıb dedim ki, bax sizi də o qız kimi pərt eləyərəm ha!

Başqa bir qız dedi:

– Ay müəllim, elə bilirsiniz pərt olub, tay da ürəyindən xəbər vermisiniz...

## O QƏDƏR ÖPDÜM Kİ

Seminariyanın qızları yalvardılar ki, onlara şeir oxuyum. Əlimə keçən balaca bir şeiri oxudum Axırıncı misralar belə idi:

O qədər öpdüm ki, mən bulaqların gözündən,  
Qismətimə onlardan ayrı yaşamaq düşdü...

Şeir uşaqların xoşuna gəldi. Gözdən öpməyin ayrılıq əlaməti olduğunu bəziləri birinci dəfə idi ki, eşidirdilər. Onlardan biri dilləndi:

– Elə zəhlən gedən adamın gözündən öpəsən, bir də onunla görüşməyəsən...

Dedim:

– Heç adam da sevmədiyi adamın gözündən öpər?

Birdən ayrı bir qız soruşdu:

– Müəllim, bəs hardan öpsən, heç vaxt sevdiyindən ayrılmazsan?

Hamımız gülüşdük...

## İLAN

Sumqayıtda gözəl bir bina var. Ona divarlara dırmaşan sarmaşıqlar xüsusi gözəllik verir. Vaxtilə şəhər partiya komitəsinin binası idi. Sonra adına el arasında "bəyxana" dedilər. İndi icra hakimiyyətinin binasıdı.

Həmin binanın qarşısındakı S.Vurğun adına mədəniyyət sarayında mənzil bölgüsü idi. Bizi də dəvət etmişdilər. Söhbət o qədər uzandı ki, aclıq bizə güc gəldi. Milis sistemində işləyən bir dostum başının dəstəsi ilə çölə çıxanda qolumdan tutub məni də özləri ilə apardı. Binaya baxanda istər-istəməz onlara dedim ki, görün necə gözəl binadı! Heç harda beləsini görməmişəm.

Dostum soruşdu:

– Rafiq müəllim, deyirlər ki, bu sarmaşıqların arasında ilan var, görəsən düzdü?

Dedim:

– Sarmaşıqların arasını deyə bilmərəm, amma binanın içi ilanla doludu...

Hamı mənim sözümə güldü...

## KİMİ OXUYURSAN?

İbrahim İlyaslı deyir ki, Rafiq müəllim, Sizin lətifələrinizi oxuyub gülürdüm. Mövlam Hüseynli təəccüblə bir qarşımdakı kitaba, bir də mənə baxıb soruşdu:

– Molla Nəsrəddini oxuyursan?

Gülə-gülə cavab verdim:

– Yox, Rafiq Yusifoğlunu oxuyuram.

## İÇƏNDƏ YAZDIQLARIM

Bir dəfə şair dostum Əşrəf Veysəlli mənə dedi:
– Rafiq, görürsən içməməyin xeyrini? Maşallah, çoxlu kitabların çap olunub!
Gülə-gülə dedim:
– İçəndə yazdıqlarımı ayılanda çap etdirmişəm...

## NƏSƏ ÇATIŞMIR

Bir dostum zarafatla dedi:
– Deyirlər ki, şairlərdə nəsə çatışmır...
Cavab verdim:
– Elə ona görə həmişə axtarırıq da...

## SƏNDƏ NƏ VAR Kİ

Cavan vaxtı ədəbi birliyə gedirdik. Bir dəfə orda söhbət zamanı dedilər ki, bəzi məşhur şairlər var ki, cavanlardan fikir oğurlayırlar.
Bir istedadsız qələm sahibi təəccüblə dilləndi:
– Balam, imanımı yandıra bilmərəm, heç mənim şeirlərimdən oğurlamayıblar.
Özümü saxlaya bilməyib dedim:
– Səndə nə var ki, nə də oğurlayalar?!

## SƏN DURSAN

Sumqayıtdakı 23 nömrəli məktəbdə yazıçı Elçinlə görüş keçirdik. Görüşdən sonra yaxşı bir banketimiz oldu. Araqlar qurtaranda mən hərdən durub, arxada qoyduğumuz içkilərdən gətirirdim.
Bir dəfə də ayağa duranda Fikrət Qoca gülə-gülə dedi:

– Ay Rafiq, ta durma, sən bir də dursan, biz ayağa dura bilməyəcəyik...

## SÖZÜNÜ DE

Xalq yazıçısı Əli Vəliyev əmim Mirağa Əliyevlə dost idilər. Ona demişdi ki, qardaşoğlunun nə işi olsa, zəng eləyib desin, kömək eləyim.

Bir dəfə kitabımın çapına kömək eləsin deyə Əli Vəliyevə zəng vurdum. Həyəcanla gözlədim. Birdən dəstək götürüldü. Mən "alo" deyən kimi xəttin o başından Əli müəllimin zəhmli səsi eşidildi:

– Ha...

Çaşdım. Birtəhər özümü təqdim eləməyə çalışdım.

– Əli müəllim, Rafiq Yusifoğludu Sizi narahat eləyən. Necəsiniz?

Yenə Əli müəllimin zəhmli səsi eşidildi:

– Sözünü de...

## AYIB GECİKƏNLƏRƏ OLSUN

Bir dəfə toy məclislərində necə oldusa, Əli Vəliyevgilin masasında məni də əyləşdirdilər. Adamları saat altıya çağırmışdılar. Ancaq camaat hələ toplaşmamışdı. Altı tamam olan kimi Əli müəllim saatına baxıb əlini çörəyə uzatdı və dedi:

– Di başlayın.

Ağsaqqallardan biri ona dedi:

– Əli müəllim, hamı bizə baxır, ayıbdı, bir az gözləyək, qoy camaat toplaşsın.

Əli müəllim ciddi şəkildə dedi:

– Ayıb gecıkənlərə olsun. Məni altıda toya çağırıblar, altıda da yeməyə başlamalıyam...

## MİLLƏTƏKƏN

Əli Vəliyev həmişə cavanlardan soruşardı:

– Neçə uşağın var?

Elə ki, bir, iki deyirdin qaş-qabağını sallayırdı, elə ki, üçdən keçirdin üzü işıqlanırdı:

– Halal olsun, sən millətəkənsən. Bir uşaq atanın, bir uşaq ananın əvəzidi, sonrakılar isə millət üçündü...

## İÇMƏRƏM

Bu əhvalatı hərə bir cürə yazır, bir cürə yozur. Ancaq mən hörmətli xalq yazıçımız Əli Vəliyevin öz dilindən eşitdiklərimi yazmaq istəyirəm.

Sumqayıtdakı Texniki İnstitutda (İndiki SDU-da) Əli Vəliyevlə gözəl bir görüş keçirildi. Həmin tədbirdə mən də iştirak eləyirdim və Əli müəllimə həsr elədiyim bir şeiri oxudum. Görüşdən sonra o zamankı "Bülbül" kafesində yaxşı bir banket verdilər. Araqlar, konyaklar süfrəyə düzülmüşdü. İzzət həkim, Mehdi müəllim, Hikmət Ziya, Hüseyn Abbaszadə və başqaları məclisdə idilər. Deyib-gülür, zarafatlaşırdılar. Hüseyn Abbaszadə Əli müəllimdən xahiş elədi ki, içməklə bağlı başına gələn maraqlı əhvalatı danışsın.

Əli müəllim şirin bir söhbətə başladı:

– Mən "Kommunist" qəzetinin redaktoru idim. Naxçıvanda keçirilən bir mühüm iclasda iştirak edirdim. Birdən bütün zal lərzəyə gəldi. Xəbər gəldi ki, bəs kişi gəlir. Mircəfər Bağırov içəri girəndə elə bil qaravuş toyuq-cücənin üstünə şığıdı. Hamının nitqi qurudu. Bağırov söz kürsüsünə çıxıb alovlu bir nitq söylədi. Muxtar Respublikanın rəhbərlərini tənqid elədi. İclas qurtaranda mənə amiranə bir tərzdə dedi:

– Getdik!

Elə bil yer-göy başıma fırlandı. Ürəyimdə dedim ki, bu nə iş idi mən düşdüm? Ayaqlarım sözümə baxmadı. Kişi getdi, mən isə yerimdə donub qaldım. Aradan bir az keçmişdi ki, Bağırovun köməkçisi gəlib mənə acıqlandı:

– Nə dayanmısan? Kişi səni bayaqdan gözləyir...

Mən ona qoşulub Bağırovun maşınının yanına getdim. Qapılar açıq idi. Bağırov mənə əmr elədi ki, maşına oturum. Mən arxada oturmaq istəsəm də, o, buna imkan vermədi. Məni qabaqda əyləşdirib özü arxada əyləşdi.

Maşın tərpənəndə elə bil ürəyim qopdu. Dizlərimin titrədiyini hiss edirdim. Elə bil ki, kişinin gözləri kürəyimi yandırırdı. Dönüb arxaya baxmağa da qorxurdum.

Nəhayət, maşından düşüb, rəhbər üçün hazırlanan xüsusi otağa keçdik. Görünür kimsə mənim ömrümdə içki içmədiyimi ona xəbər veribmiş... Bağırov stolun üstünə konyak və iki qədəh qoydu. Rumkaları doldurub dedi:

– Götür!

Həyəcanla dilləndim:

– Yoldaş Bağrov, mən içən deyiləm.

Bağırov hirsli-hirsli məni süzüb dedi:

– Götür dedim. Bu qədəhləri içirik yoldaş Stalinin sağlığına!

Ədə, mənim ağzım nə idi ki, Stalin yoldaşın sağlığına içməyim? Gözümü yumub qədəhi başıma çəkdim. Başım o saat dumanlandı.

Qədəhlər növbəti dəfə doldurulanda, əlimi rumkanın ağzına qoyub, daha içməyəcəyimi bildirmək istəyəndə dedi ki, əlini götür. Bu qədəhləri də yoldaş Bağırovun sağlığına içəcəyik.

Öz-özümə dedim ki, ədə, bu nə iş idi mən düşdüm? Ancaq ayrı bir çıxış yolu görmədim. İkinci qədəhi boşaldanda hiss elədim ki, yer ayağımın altından qaçır. Ancaq elə bil bir az ürəkləndim.

Üçüncü rumka doldurulanda yalvarıcı səslə içə bilməyəcəyimi söylədim. Bağırov yenə hökmlü səslə dedi:

– Əlini rumkanın ağzından çək. Bu qədəhi də Əli Vəliyevin sağlığına içəcəyik.

Həyəcandan, bir az da bu zəhrimarı bir də içmək qorxusundan əlimi rumkanın ağzına bərk-bərk tutub dedim:

– Yoldaş Bağırov, üz vurmayın, ta heç yoldaş Stalinin də sağlığına olsa içən deyiləm...

## O MƏSƏLƏ

Azərbaycan Yazıçılar İttifaqı Həmkarlar Təşkilatının hesabatı imiş. Təşkilatın sədri, yazıçı Ənvər Yusifoğlu çıxış eləyirmiş:

– Azərbaycan Yazıçılar İttifaqı Həmkarlar Təşkilatı hesabat dövründə aşağıdakı işləri görmüşdür.

1. Makinaçı Tereza Akopovnanın evinin suvağı qopduğu üçün ona 50 manat yardım edilmişdir.

2. Makinaçı Tereza Akopovnanın oğlu əsgərlikdən gəldiyi üçün ona 20 manat məbləğində yardım edilmişdir.

3. 8 Mart bayramı münasibətilə Tereza Akopovnanya...

Əli Vəliyev hirslə natiqin sözünü kəsir:

– Ənvər, bu Əli Qara oğlunu qəbrə qoyasan, sən Terezanı o məsələ... Yoxsa bu nədi Azərbaycan Yazıçılar İttifaqı Həmkarlar Təşkilatı il boyu Terezaya işləyib?!

## SƏHƏR GƏLİB APARARSAN

Yazıçılar Birliyində mənim 50 illik yubileyim qeyd olunandan sonra Qabil müəllimin israrlı istəyi ilə yığcam bir qonaqlıq verdim. Qabil müəllim, Fikrət Sadıq, Balasadıq, Əli Səmədli, qardaşım Razim, dostum Tahir Feyziyev və mən maraqlı, duzlu-məzəli bir gün keçirdik.Yeyib-içmək çox uzandı. Məclis qurtarandan sonra Qabil dedi:

– Rafiq, maşınlasan?
– Bəli.
– Sumqayıta gedirsən?
– Bəli.
– Yolüstü Balasadığı da Razin qəsəbəsində düşürərsən?
– Qabil müəllim, Sumqayıt hara, Razin hara, özü də mən gecə maşın sürə bilmirəm ha.

Qabil müəllim özünəməxsus bir tərzdə dedi:
– Hə, başa düşdüm, onda səhər-səhər gəlib apararsan.

## BU AĞILIN YİYƏSİ

Qabil, Fikrət Sadıq, Əli Səmədli, Balasadıq, mən, qardaşım Razim və dostum Tahir bir məclisdə əyləşmişdik. Tahir özünəməxsus tərzdə dedi:

– Əmimin canı haqqı, bu Rafiqdə baş yox imiş...

Zarafatı başa düşməyən şairlər hirslənəndə Tahir dedi:

– Mən Rafiqin kitablarını oxuyub heyrətə gəlmişəm. Öz-özümə demişəm ki, görəsən bu ağılın yiyəsi niyə ömrü boyu mənim kimi avaralarla oturub durub?

Daha sonra Tahir əlavə etdi:

– Rafiqi karamel fabrikinə direktor qoysalar, qorxusundan bir konfetin arxasını da dişləməz…

## QUŞBAZ

Çoxdan məni görməyən dostlarımdan biri oğlum Gündüzdən soruşur ki, atan nə işlə məşğul olur? Gündüz isə "Göyərçin" jurnalında baş redaktor işlədiyimi, jurnal buraxdığımı nəzərdə tutub zarafatla deyir:

– Atam "Göyərçin" uçurdur.

Dostum təəccüblə Gündüzün üzünə baxır və soruşur:

– Atan quşbazdı?

## ERKƏK GÖYƏRÇİNLƏR

Rəhmətlik Tofiq Mütəllibov bizim redaksiyaya gəlirmiş. Küçədə iş yoldaşımız Tahirə İsgəndərovaya rast gəlib ondan zarafatla soruşub:

– Tahirə, erkək göyərçinlər yerlərindədilər?

## "CÜCƏLƏRİM"

Bir dəfə şairlərdən kimsə Tofiq Mütəllibova deyib:

– Ay Tofiq, "Cücələrim" az qalıb bütün dünyada səslənsin, heç ondan pul-zad almısan?

Tofiq Mütəllibov cavab verməyə macal tapmamış Hikmət Ziya deyib:

– Tofiq "Cücələrim"dən az qala yüz qoyunun pulunu çıxardıb...

## QONORAR

Yeri gəlmişkən "Cücələrim" mahnısı haqqında belə bir cümlə işlətməyi bəzi yazıçılar çox xoşlayırdılar:

– "Cücələrim"! Sözləri Abbas Səhhətin, musiqisi Qənbər Hüseynlinin, qonorarı Tofiq Mütəllibovundur...

## TÜFƏNG

Tofiq Mütəllibov həmişə olduğu kimi "Göyərçin" jurnalının redaksiyasına gəlir. Görür ki, redaksiyada Hikmət Ziyadan başqa heç kəs yoxdu. Salamlaşandan sonra üzünü ona tutub ciddi şəkildə soruşur:

– Hikmət, bəs tüfəngin hanı?

– Nə tüfəng?

– Bəs qarovulçu deyilsən? Qarovulçunun tüfəngi olar da...

## PENCƏYİN TƏRS ÜZÜ

Bu söhbəti bizə Tofiq Mütəllibov özü danışmışdı.

Bir dəfə televiziyada bəstəkar Nəriman Məmmədovun 50 illik yubileyinə həsr olunmuş veriliş hazırlanırmış. Studiyada verilişin çəkilişi zamanı bəstəkarın bir sıra mahnılarına mətn yazmış şair Tofiq Mütəllibovu da dəvət edirlər. Həmişə səliqə-səhmanı sevən, geyimə xüsusi diqqət yetirən Tofiq Mütəllibov bəstəkar dostunu diqqətlə süzüb deyir:

– Pencəyin xoşuma gəlmir. Niyə bir abırlısını geyinməmisən, axı camaat sənə baxacaq?

Bəstəkar pərt olur. Tez pencəyin astarını çevirib, üstündəki xarici etiketi göstərır:

– Sən nə danışırsan, görmürsən bu xarici pencəkdi?
Tofiq Mütəllibov ciddi şəkildə deyir:

– Hə, başa düçdüm. Onda pencəyi tərsinə gey ki, baxanlar onun "inportnı" olduğunu görsünlər...

## HÜNDUŞQA

Rəhmətlik Tofiq Mütəllibovla aramızda bir hünduşqa zarafatı var idi. Tofiq Mahmudun kiçik qızı Süsənin toyunda o, yenə bu söhbəti salanda yazıçı Sabir Əhmədov dedi:

– Uşaqlar, hünduşqa dediniz, yadıma maraqlı bir əhvalat düşdü. Anam kənddən mənə yekə bir hünduşqa göndərmişdi. Ayağı bağlı quşu evin bir küncünə atıb, bunu neyləyəcəyim, necə kəsəcəyim, necə yolub bişirəcəyim haqda düşünəndə qapının zəngi çalındı. Qapını açanda gördüm ki, kəndçimiz Sərdar Əsəddi.

Hal-xoşdan sonra Sərdarın gözü evin bir küncünə atılmış hünduşqaya sataşdı və dedi:

– Ay Sabir, bu lap bizim kəndin hünduşqasına oxşayır.

Dedim:

– Düz tapmısan, qismət səninkidi, götür apar.

Sərdar sevinə-sevinə hünduşqanı apardı.

Aradan bir neçə ay keçmişdi. Kəndə getmişdim. Anam məndən soruşdu:

– Ay Sabir, sənə bir hünduşqa göndərmişdim e, onu neylədin?

Gülümsünüb dedim:

– Ay arvad, sən nə qəribə sual verirsən? Hünduşqanı neyləyərlər?

– Orası elədi e, a bala, ancaq bir dərd məni öldürür...

– Nə dərd, ay ana?

– O hünduşqanın ayağına bağladığım yaylığı qonşumuzun anasının başında görmüşəm...

## QAZLARIN SÖHBƏTİ

Tofiq Mahmud, Hikmət Ziya və mən Qubadlıya gedirdik. Yolda maşının qabağına çıxan qazlar çığırışdılar. Hikmət Ziya üzünü bizə tutub soruşdu:

– Bilirsiniz bu qaz o biri qaza nə deyir?

– Nə deyir?

– Deyir ki, bu şairlərdən ağlım heç bir şey kəsmir...

## OTUZ İLDİ

Qubadlıda, bizim həyətdə oturub çay içirdik. Qatara tələsirdik, bizi aparmağa isə maşın hələ gəlməmişdi. Bir az narahat idik.

Dostumuz Tahir Feyziyev maşını olan qonşunu çağırdı. O, həyətdə kimlərin olduğunu görsə də, heç görüşməyə də gəlmədi. Üzünü döndərib getdi. Hikmət Ziya dedi:

– Uşaqlar, otuz ildi atdan, eşşəkdən yazıram, amma hələ beləsinə rast gəlməmişəm.

## GÜLMƏK

Bir dəfə redaksiyada zarafatlaşır, lağ-lağı eləyirdik. Hikmət Ziya yaxın vaxtlarda infarkt keçirən rəssamımız Rəşid Əmirovdan soruşdu:

– Ay Rəşid, bu ürəyim elə vurur, vurur, səncə qorxulu bir şey yoxdu ki?

Rəhmətlik Rəşid müəllim dedi:

– Ay Hikmət, narahat olma, vurub, vurub, axırda dayanacaq.

Özümü gülməkdən saxlaya bilmədim. Hikmət müəllimin mənə acığı tutdu. Soruşdum ki, ay Hikmət müəllim, axı mən neylədim ki, acığınız tutdu?

Hikmət müəllim hirsli-hirsli dedi:

– Bu gün üçüncü dəfədi ki, mənim əleyhimə gülürsən...

## SƏN BİZƏ QOŞULMA

Bir dəfə yazıçı Əlibala Hacızadə bizim redaksiyaya gəldi. Gördü ki, işçilərin hamısı redaktorun otağındadı. Elə bildi ki, çox ciddi işlə məşğul oluruq. Salamlaşandan sonra dedi:

– Görürəm ki, nəsə ciddi məsələ müzakirə eləyirsiniz, mən sizə mane olmayım.

Mən gülə-gülə dedim:

– Əlibala müəllim, Siz bizə mane olmursunuz. Ancaq iş adamısınız, bizə qoşulsanız biz Sizə mane ola bilərik...

Hamı güldü...

## ŞAĞANDA GÖRÜŞ

Bizi Şağan məktəbinə görüşə çağırmışdılar. Tədbir yaxşı keçdi. Bizə çoxlu gül dəstələri verdilər. Sonra məktəb direktorunun otağında xudmani bir qonaqlıq verdilər. Sən

demə gülləri gətirən kişi də burada imiş. Bir az yeyib-içib açılışandan sonra o, üzünü zarafatcıllığı ilə diqqəti cəlb edən Hikmət müəllimə tutub dedi:

– Dayan, dayan, sən mənə yaman tanış gəlirsən...

Hamımız gülüşdük. Dostumuzla Hikmət Ziyanın söhbəti alındı. O dedi ki, bu güllərin hamısını özü əkib-becərib. Sonra zarafatla soruşdu ki, heç bilirsiniz bu güllərin hər birinin qiyməti neçəyədi?

Hikmət müəllim soruşdu:

– Neçəyədi?

– Biri əlli manat.

– Doğrudan deyirsən?

– Həri.

– Onda bu güllərin hamısını sənə 25 manatdan verirəm, götür apar...

## SADƏ SÜJET

Şairlərdən kimsə Hikmət Ziyaya rast gələndə deyir:

– Ay Hikmət, gəl sənə əla bir mövzu verim, təmsil yaz.

Təmsilçi diqqətlə qələm dostunu dinləyir. Ancaq mövzu xoşuna gəlmir. Təbəssümlə deyir:

– Bu mövzu o qədər sadə süjetə malikdi ki, elə onu sən özün də yaza bilərsən...

## LİRİK ŞEİRLƏR

Nəriman Həsənzadə zarafatla Hikmət Ziyaya deyir:

– Ay Hikmət, bu heyvanlar qurtarandan sonra sən necə təmsil yazacaqsan?

Hikmət Ziyaya gülə-gülə cavab verir:

– Heyvanlar qurtarandan sonra mən də sənin kimi lirik şeirlər yazacam...

## BU HARA MALIDI

Hikmət Ziya ilə Emin Mahmudov "Azərbaycan pioneri" qəzetində işləyirmişlər. Redaktor Əmrah Əmrahov Moskvadan təzə gəlibmiş. O, dostlarını çağırır ki, gəlin Moskva konfeti ilə çay içək.

Hikmət Ziya konfeti götürüb ağzına qoyur, çaydan bir qurtum içib soruşur:

– Əmrah müəllim, bu konfet hara malıdır?

Sualı ciddi qəbul eləyən, onun sətiraltı mənasına fikir verməyən Əmrah müəllim deyir:

– Moskva malıdı.

Bu sual-cavab bir neçə dəfə təkrar olunur. Hikmət Ziya bir konfet də götürüb ağzına qoyur və soruşur:

– Əmrah, dedin bu hara malıdı?

Əmrah müəllim dinməyə macal tapmamış Emin Mahmudov deyir:

– Yağı malı...

## ELƏMƏYİNƏ, NAZ ELƏ

Bir gün yenə şairlərlə oxucuların görüşü imiş. Məclisdə qələm adamları ilə birgə Hikmət Ziyanın dostu, alim Şövqi Göyçaylı da iştirak eləyirmiş. Görüş çox yaxşı keçib. Ənənəvi qaydada tədbirin əsas hissəsindən sonra qonaqlar banketə dəvət olunublar. Bəzi qələm adamları üzrxahlıq eləyib, evə tələsdiklərini bildiriblər. Şövqi Göyçaylı isə dilboğaza qoymadan, vacib işi olduğunu söyləyib. Çarəsiz ev sahiblərinin yumşaldığını görən Hikmət Ziya Şövqi müəllimin qulağına pıçıldayıb:

– Eləməyinə naz elə,
Amma bir az az elə...

## OXUSA, VERMƏZ

Nəriman Həsənzdə "Ədəbiyyat qəzeti"nin redaktoru olanda Tofiq Mütəllibovla kabinetdə oturub söhbət edirmiş. Elə bu vaxt Hikmət Ziya içəri girib. Xoş-beşdən sonra təzə şeirlərini Nəriman müəllimə verib. Nəriman Həsənzadə şeirləri oxuyanda Tofiq Mütəllibov Hikmət Ziyanı cırnatmaq məqsədiylə deyib:

– Hikmət, görürsən, Nəriman sənin şeirlərini oxuyur, mənim şerlərimi isə oxmamış mətbəəyə göndərir.

Söz altında qalmayan Hikmət Ziya deyir:

– Tofiq, Nəriman oxumur ki, sənin şeirlərini verir, oxusa verməz...

## YAZIR E...

Bir dəfə Ağəddin Mansurzadə ilə Məmməd Namaz eyni vaxtda mənimlə Bakıya – işə getməli oldular. Maşında üçümüz idik. Onlar elə bərkdən danışa-danışa mübahisə eləyirdilər ki, səsdən qulaq tutulurdu.

Həmişə mən onun yanında bunu, bunun yanında onu yamsılayanda dostlarım uğunub gedirdilər. Ağəddin deyirdi:

– A, toçnı Məmmədsən e...

Məmməd isə gözləri yaşara-yaşara gülür və deyirdi:

– Qadan alem, məni də yamsıla görüm!

Deyirdim:

– Səni yamsılaya bilmirəm.

Amma Məmməd də, Ağəddin də yaxşı bilirdilər ki, onları yamsılayıram, porodiya edirəm...

Nə isə... Onların mübahisəsinin şirin yerində birdən Ağəddinin gözləri mənə sataşdı və tez Məmmədə dedi:

– Ə, danışma, yazır e...

Məmməd acıqlı-acıqlı dedi:

– Guya səni yazmer, səni məndən çox yazer...

## SEVGİ ŞEİRLƏRİ

Ağəddin Mansurzadəyə bir silsilə yeni sevgi şeirləri oxudum. Gözünün birini yumub, tərs-tərs mənə baxdı:

– Əclaf, deyəsən vurulmusan!

– Vurulmaq pisdi ki?! Sən canın bu şeirləri qəzetinin növbəti nömrəsində çap eləyərsən.

O, razılaşdı. Ancaq aradan neçə ay keçsə də, şeirlərimi çap eləmədi ki, eləmədi.

Bir gün ona dedim:

– Ay zalım, şeirləri vaxtında çap eləmədin, onun lirik qəhrəmanı məndən küsdü.

Ağəddin ciddi şəkildə dedi:

– Əcəb elədim. Mən dostumun ailəsinin dağılmasına razı ola bilməzdim...

## BAŞMAQ TAYI

Bir dəfə Eldar Baxış bizə gəlmişdi. Oturub yaxşıca yeyib-içdik. Sonra Eldar dedi ki, mən mütləq Bakıya getməliyəm. Ancaq səhər saat 12-də səni Sumqayıtda, 10-cu mikrorayonda yaşayan qohumumgilin evində gözləyəcəm.

Aşağı düşüb Eldarı ötürəndə gördüm ki, nəsə narahatdır, yaxşı yeriyə bilmir. Səbəbini soruşanda dedi ki, ayaqqabımın bir tayı ayağımı yaman sıxır. İçməkdən ayaq şişməz ki?

Gülüb dedim:

– Nə bilim, ay Eldar.

Nə isə. Onu yola salıb evə qayıtdım.

Səhər Eldarın qohumugilə getməyə hazırlaşanda gördüm ki, kiçik qardaşım Bayram ayağının bir tayına başmaq geyinib, o birisinə yox. Soruşdum ki, bəs başmağın o biri tayını niyə geyməmisən? Dedi ki, axtardım, tapmadım.

Sözümüz elə bununla da bitdi.

Vədələşdiyimiz kimi düz saat 12-də Eldarın qohumugilin qapısını döydüm. Qapını Eldar açdı. Dəhlizin işığını yandıranda ayaqqabı dolabında eynən bizim başmağa bənzəyən bir başmaq gözümə sataşdı. Ürəyimdə dedim ki, yəqin bunların da bizim başmaq kimi başmağı var.

Elə bu vaxt Eldar dilləndi:

– Ay Rafiq, başıma bir iş gəlib axı?

– Nə iş?

– Yadındadı, dünən sizdən çıxanda dedim ki, ayaqqabı ayağımı sıxır?

– Hə, yadımdadı. Nə olsun ki!

– O olsun ki, axsaya-axsaya bir təhər gedib Bakıya çıxdım. Ayaqqabımı soyunub uzananda ayağımın ağrısı kəsdi. Səhər yuxudan durub ayaqqabımı geyinən kimi yenə ayağımın ağrısı başladı. Bir zülümlə gəlib Sumqayıta çıxmışam. Burda çəkmələrimi çıxaranda gördüm ki, bir tayının içi qırmızıdı, bir tayınınki qara. Diqqətlə baxıb nə görsəm yaxşıdı?

– Nə gördün?

– Gördüm ki, çəkməmin birinin içində başmaq tayı var. Sən bilən, onu bura kim qoymuş olar?

Gözlərim yaşaranadək güldüm. Sən demə Eldar bizdən çıxanda ayağını başmaqqarışıq ayaqqabının içinə soxubmuş...

## O DA SİZİN KİMİ

Bir dəfə Eldar Baxış hardasa yeyib-içəndən sonra bizə gəlmişdi. Bir araq da bizdə boşaltdıq. İki ayağını bir başmağa dirədi ki, dur gedək Xasay Cahangirovgilə. Nə qədər onu dilə tutmağa çalışdımsa, xeyiri olmadı. Bir zülümlə gedib Xasaygilin blokuna girdik.

Eldar heç ayaq üstə dura bilmirdi. Paltosunun çiyni divara dəydiyindən əhəngə batmışdı. Ona görə qanım lap qara idi.

Qapını Xasayın yoldaşı açdı. Salamlaşdıq. Eldar Xasayı soruşdu. Dedilər ki, yoxdur evdə.

Eldar israrla soruşdu:

– Bəs Xasay harda ola bilər?

Xasayın yoldaşı başdan ayağa qədər Eldarı süzüb dedi:

– Nə bilim, indi yəqin o da sizin kimi hansısa "podyezddədi..."

## TURŞU

Bir gün dostum Vahid bizə gəlmişdi. Evdə məndən başqa heç kim yox idi. Stolun üstünə yemək və araq qoydum. Qədəhləri dolduranda Vahid soruşdu:

– Evdə turşu yoxdu?

Qaşqabaqlı halda dedim:

– Turşunu neyləyirsən, üzümə bax iç da...

## KƏRPİC

Vahidlə neçə dəfə dostumuz Akifi axtardıqsa, tuta bilmədik ki, bilmədik. Məsləhətləşdik ki, başqa əlacı yoxdu, bazar günü sübh tezdən, camaat yuxudan durmamış onlara gedək...

Belə də etdik. Qapını yuxulu-yuxulu açdılar. Vahidlə bir-birimizin üzünə baxıb qımışdıq.

Xeyli söhbət elədik, imkan tapıb bir-birimizə göz vurduq.

Ağanı çörək almağa göndərdilər. Handan-hana qayıdıb gəldi. Mətbəxdəki mübahisədən belə başa düşdük ki, deyəsən çörək ala bilməyib.

Akif oğlunu səsləyib soruşdu:

– Ağa, ala bilmədin?

– Ata, aldım e, ancaq başqa çörək yox idi, kərpicdi...

Gülə-gülə dedim:

– Ağa, gətir o kərpicləri vur bizim başımıza...

## İDMAN

Bir nəfər zındıq adam sorğu-sualı ilə lap zəhləmi tökmüşdü. Birdən o, gözləmədiyim halda məndən soruşdu:

– Siz idmanla məşğul olursunuz?

Ciddi şəkildə dedim:

– Bəli.

– İdmanın hansı növü ilə məşğulsunuz?

– Ağırlıqqaldırma ilə...

– Bir təkana nə qədər qaldıra bilirsiniz?

– Yüz qram...

Cavabım duyumsuz "dostumu" açmadı:

– Şair, mən zarafat eləmirəm, ciddi soruşuram. Onu bil ki, idman eləməyəndə ürək tez qocalır. Ürəksiz də nə şair?

Gülümsünüb dedim:

– Heç narahat olma. Ürəyin ən gözəl idmanı sevgidi, məhəbbətdi. Allaha çox şükür ki, o, mənim ürəyimdən heç zaman əskik olmayıb.

## ARİSTOKRAT İÇKİSİ

Uzun illərin söhbətidi. Dostum Nazimlə yeyib-içməyə getmişdik. O, mənə dedi:

– Qardaş, araq bizi öldürdü. Gəl şampan içək. Şampan aristokrat içkisidi...

Etiraz eləmədim. Qərara gəldik ki, ikimiz bircə şampan içəcəyik.

İçə-içə söhbətə başladıq. Bir şampan dönüb oldu altı. Ayrılıb evə getdik. Şampan məni elə şampan probkasına

döndərmişdi. Gecə yata bilmədim. Səhər dostumla görüşəndə ona dedim:

– Qardaş, şampan, doğrudan da, aristokrat işkisidi. Onu ancaq aristokratlar içməlidi...

## "SLED-MLED", "İZ-MİZ"

Bir dəfə günorta evə gələndə gördüm ki, evdə kiçik oğlumdan başqa heç kim yoxdu. Könlümə yeyib-içmək düşdü. Yaxşı yeyib-içdim. Sonra oğlumu yanıma çağırıb dedim:

– Tez buraları elə yığışdır ki, "sled-mled", "iz-miz" qalmasın.

Oğlum gülə-gülə dedi:

– Ay ata, bu mümkün deyil axı?

Acıqlandım:

– Necə mümkün deyil?

– Ona görə ki, əsas "sled" sən özünsən, anam evə gələn kimi biləcək ki, içmisən...

## QANMAMIŞAM

Dostum Nazimi məktəb direktoru təyin edirmişlər. Nazirlikdə onun sənədlərinə baxanda nazir müavini, rəhmətlik Əlimirzə müəllim təəccüblənib:

– Necə, necə? Sən ticarətdə işləmisən?

Dostum tələsik cavab verib:

– Yoldaş nazir, uşaq olmuşam, qanmamışam...

## YEKƏ AĞAC

Dostum Nazimdən soruşublar:

– Yenə Rafiq Yusifoğlu ilə Şəkiyə gedib-gəlirsən?

Qaşqabağını sallayaraq deyib:

– Yox, onunla yol getmək mənə sərf eləmir.

Təəccüblə soruşublar:

– Ay qardaş, siz ki, yaxın dostsunuz, söhbətiniz yaxşı tutur?!

– Elə olmağına elədi, amma...

– Nə amma?

– Onunla gedəndə cibimdə pul qalmır.

– Pulun bura nə dəxli var?

– Var, var, özü də böyük dəxli var. Harda yekə ağac görür, maşını saxlayır ki, düş burda yeyib-içək. Andıra qalmış yollar da yekə ağacla doludu...

## ARALI AYAQLAR

Bir məktəb direktoru olan dostum ayaqlarını bir-birindən aralı qoyub dəhlizdə dayanıbmış. Elə bu vaxt zəng çölə vurulub. İbtidai sinifdə oxuyan uşaqlar ora-bura qaçmağa başlayıblar. Qaçdı, qovdu oynayan bir uşaq onu tuta bilməsinlər deyə direktorun ayaqlarının arasından keçib qaçıb. Direktor onun yaxasından yapışıb hirsli-hirsli deyib:

– Ay əclaf, bura adam keçənmi yerdi? İndi məni şikəst eləmişdin...

## MƏN O DEYİLƏM

Nazim müəllimə dedim ki, bəs sabah dostum Şamxəlillə sənin məktəbinə gələcəyik.

Evdə çox gözlədim, Şamxəlil gəlib çıxmadı. Elə bu vaxt qapının zəngi çalındı. Gördüm ki, gələn Şamxəlil yox, elə boy-buxunda ondan geri qalmayan bacanağım Ağakərimdi. Xoş-beşdən sonra onu da götürüb Nazimin məktəbinə getdim. Dostum bizi çox yaxşı qarşıladı. Dedi ki, gəlin vaxt itirməyək, söhbətimizi restoranda eləyərik...

Məclis düzəldi, nə düzəldi. Ağakərim danışmaq istədikcə ona işarə elədim ki, dinmə. O, mənim nə demək istədiyimi başa düşdü. Heç cıqqırını da çıxarmadı.

Nazim ilk qədəhi Şamxəlil müəllimin sağlığına qaldırdı. Üzünü Şamxəlil hesab elədiyi Ağakərimə tutub, – həmişə Siz gələsiniz, – dedi.

Aradan bir xeyli keçdi. Nazim yenə Ağakərimə Şamxəlil müəllim deyə müraciət edəndə Ağakərim dözə bilmədi:

– Ay qardaş, deyəsən siz məni dolamısınız? Mən "Azərbaycan müəllimi" qəzetinin şöbə müdiri Şamxəlil müəllim deyiləm e, Nasoslu məktəbinin riyaziyyat müəllimi Ağakəriməm.

Nazim çaşdı. Tərs-tərs mənim üzümə baxdı:

– Hə?

– Hə...

– Tay mənim sənə sözüm yoxdu...

## DÜŞƏ BİLMİRƏM

Qohumların birinin toyunda məni tamada seçdilər. Bərk yeyib-içəndən sonra evə gəldim. Necə yatdığım yadımda deyildi.

Gecənin bir aləmi yuxudan ayıldım. Adəti üzrə çarpayıdan düşmək istədim. Ancaq nə qədər çalışdımsa, mümkün olmadı. Yoldaşım soruşdu:

– Nə istəyirsən?

– Heç nə. Ancaq nə qədər istəyirəm çarpayıdan düşüm, düşə bilmirəm.

Söz ağzımdan çıxan kimi hamı gülüb bir-birinə qarışdı. Dedilər ki, səni çarpayıya qaldıra bilmədik, ona görə də yerini elə döşəmədə salmışıq...

## ÖRDƏK ƏHVALATI

Qusarda, Qayabulaqda istirahət edirdik. Dostum Rəşidin oğlu Vüqarın danışdığı bir olmuş əhvalat çox xoşuma gəldi.

Kəndlərin birində araq çəkirmişlər. Araq çəkəndən sonra tutun cəciyini bir kənara boşaldırlar. Necə olursa, ördəklər gəlib bu cəciyi yeməyə başlayırlar. Bir azdan spirt öz təsirini göstərir. Ördəklərin hamısı ölü kimi yerə uzanır. Bunu görən ev sahibi vaysınır. Ördəklərin tükünə heyfi gəldiyi üçün onları yolur, lüt, ətcəbala, ölmüş sandığı ördəkləri isə küllüyə tullayır.

Aradan bir neçə saat keçir. Toranlıq düşəndə ev sahibi əvvəlcə elə bilir ki, onu qara basır. Baxıb görür ki, spirtin təsirindən ayılan ətcəbala ördəklər yanlarını basa-basa həyətə sarı gəlirlər…

## QƏÇREŞ, QARABULAQ

Milli Məclisin deputatları, əslən Qubadan olan Hikmət müəllim və Həmdulla müəllim bizi Qəçreşə qonaq aparmışdılar. Deyib-gülür, zarafatlaşırdıq. Danışdığım ördək əhvalatı onların çox xoşuna gəldi. Hikmət də olmuş bir əhvalat danışdı.

Qusarda "Qarabağ bizimdir!" şüarı altında əzəmətli mitinq keçirilirmiş. Bir-birini əvəz edən natiqlər öz həyəcanlı çıxışlarını "Qarabağ bizimdir!" şüarı ilə bitirirmişlər.

Hay-küydən bərk narahat olan, bir az kefi yuxarı ağsaqqallardan biri söz kürsüsünə qalxır. Elə bilir ki, mübahisə Quba camaatı ilə Qusar camaatı arasında gedir. Ona görə camaatı sakitləşdirmək məqsədiylə ağsaqqal deyir:

– Ay camaat, nahaq dava-dalaş salırsınız. Lap dövri-qədimdən Qəçreş Qubanın olub, Qarabulaq Qusarın. Hamınız dağılışın evinizə, boş yerə mübahisə etməyin…

## QANACAĞI OLAN...

Laçının Alıqulu kəndinə gəlin gətirməyə getmişdik. Həyətdə böyük çadır – mağar qurmuşdular. Stolun üstündə səhər yeməyi üçün hər şey var idi. Bolluq zamanı idi. Yağ, bal, qaymaq, qatıq...

Qonaqların ən cavanı biz idik. Ağsaqqallar yuxarı başda qız evinin ağsaqqalları ilə əyləşmişdilər. Tərəflərdən heç kəs artıq-əskik danışmaq istəmirdi. Araya sükut çökmüşdü. Qızın atası rəhmətlik İdris müəllim arada gəzib süfrəyə nəzarət edirdi.

Birdən həmin kəndin sakini, Aşıq Camal adlanan bir nəfər məclisin sükutunu pozdu:

– İdris müəllim, bu stolun arağı, konyakı hanı?

Sual bizim də ürəyimizdən idi. Ancaq ağsaqqalların yanında öz istəyimizi dilimizə gətirə bilməzdik. Ona görə hamımız maraqla İdris müəllimə baxırdıq ki, görək nə deyəcək.

Yazıq kişi bir qədər çətinə düşdü, ancaq vəziyyətdən çıxmaq üçün dedi:

– Camal, narahat olma, araq da olacaq, konyak da. İndi hələ səhər-səhərdi da, qoy camat çaylarını içib, çörəklərini yesinlər, günorta baxarıq...

Camal yenə səsiylə bir dedi:

– Ay rəhmətliyin oğlu, nə səhər, nə axşam, sən arağı, konyakı qoy stolun üstünə. Qanacağı olan içsin, olmayan heç içməsin!

## TRAVMATOLOQ

Bir nəfər "siyasi rəqib"imə münasibətimi öyrənmək məqsədiylə mənə dedi:

– Ay qardaş, həkim getsin həkimliyini eləsin. Başa düşə bilmirəm, travmatoloq – sınıqçı milli məclisin nəyinə lazımdı?

Gülümsünüb cavab verdim:

– Bu deputatları ki, biz seçirik, milli məclisə bir yox, bir neçə travmatoloq lazım olacaq...

## SABUN

Bir nəfər mənə dedi ki, deputatlığa namizədlərdən biri indi də camaata sabun paylayır.

Acı-acı gülümsünüb dedim:

– Bircə kəndirimiz çatışmır...

## XAŞ

Kofelərdən birinə deputatlığa namizədlərin şəkli vurulmuşdu. Yuxarıda isə iri hərflərlə bu sözlər yazılmışdı:

– Xaş!

## PLATFORMA

Bir qadın deputatlığa namizədlərdən birinə yaxınlaşıb soruşur:

– Filankəs müəllim, Sizin platformanız necədi?

Namizəd tez əlini cibinə salıb iki "Şirvan" çıxarır, onu qadına verib deyir:

– Az, al bunları, get işinin dalınca...

## TALIŞ EVİ

İmza toplanan zaman oğlum mənə dedi:

– Ay ata, talış evi Qubadlı evindən yaxşı imiş...

Təəccüblə soruşdum:

– Bu nə sözdü deyirsən?

Oğlum bic-bic gülümsündü:

– On Qubadlı evinin qapısını döyürsən, beş pasport ya çıxır, ya çıxmır. Bir talış evinə getdim, stolun üstünə on iki pasport qoydular.

## QARMAQLAR

Seçicilərlə görüşlərin birində ağlıma qəribə bir fikir gəldi. Dedim ki, dəryada təkcə bir balıq üzür. On iki balıqçı əlində tilov o balığı tutmaq istəyir. Hərə balığı aldatmaq üçün qarmağın ucuna bir şey taxıb: biri yağ, biri sabun, digəri pul, biri saqqız, mənim kimi kasıb isə söz...

## QANACAĞA İŞLƏYƏN

Bir rəqibimin vəkili "muzdlu köməkçilər"in passivliyindən qəzəblənib.

– Vicdansızlar, pulu alıb ciblərinə qoyanda yaxşıdı, səs verməyə adam gətirəndə pis...

Mənim vəkilim Vahid müəllim gülərək deyib:

– Ay dadi-bidad, indi qanacağa işləyən yoxdu, hamı pula işləyir...

## FOTOQRAF

Fotoqraf şəkil çəkirdi. O qədər ora baxın, bura baxın deyirdi ki, lap bezdim. Gülə-gülə dedim:

– Qardaş, sən şəkil çəkmirsən e, ürək çəkirsən!

## BİR SƏSİN ON MÜŞTƏRİSİ

Ali məktəblərin birində kafedra müdiri seçirmişlər. Bir nəfərin namizədliyi irəli sürülüb. Hamı səsvermədən qabaq namizədi tərifləyib. Gizli səsvermədə isə cəmi bircə nəfər onun lehinə səs verib.

Adamlar bir-bir “dostlarına” yanaşıb ona təskinlik verir, deyirlər:

– Ay müəllim, əlimdən nə gəlir ki, bir səsim var idi, onu da verdim sənə.

Bu münvalla beş-altı nəfər professora yanaşır. Axırda yazıq kişi dözə bilmir, hirslə deyir:

– Ay əclaflar, etibarsızlar, bəsdirin də yalan dediniz! O bir səsi özümə mən özüm vermişdim...

## VECİNƏ ALMA

Bir dəfə qaynanam rayondan hər qızının adına bir bağlama qovurğalıq buğda göndərmişdi. Bağlamaların hamısı necə oldusa bizə gəlib çıxdı. O vaxt mənim maşınım yox idi. Məmməd Namazdan xahiş elədim ki, gəl bu buğda torbasını atım sənin maşınına, işdən qayıdanda zəngləşək, onu böyük bacanağımgilə verib, sonra evə gedək. Arxayın ol, sonra sənə qonaqlıq da verəcəm.

Razılaşdıq. Bacanağımgilin həyətinə gəldikdə gördüm ki, onun maşını həyətdədi. Məmmədə dedim ki, düş qalxaq evə. Dedi ki, qardaş, mən professor-murafessorla danışa bilmerəm, özün tez çıx, gəl gedək qonaqlığımı ver.

Əl çəkmədim. İkimiz birlikdə əlimizdə buğda torbası evə qalxdıq. Evdə Sərdar müəllimdən başqa heç kəs yox idi. Gördük ki, işdən təzə gəlib, yemək yeyir. Dedi ki, qaynananız sizi çox istəyir, xoş gəlmisiniz.

Keçib əyləşdik. Məmmədlə Sərdarı tanış elədim. Bacanağım içi ağzınacan içkilərlə dolu barı açıb soruşdu:

– Nə içəcəksiniz?

Baxdıq ki, barda pivə, araq, konyak, viski var. Hörmət əlaməti olaraq üzümü Məmmədə tutdum ki, istədiyini desin.

Barı dolu görən Məmməd bacanağıma dedi:

– Qəti vejina alma, hamısın içejiyik...

Onun dediyi kimi də oldu. Bar boşalandan sonra Məmmədlə ikimiz Sumqayıta gəldik

Aradan bir heçə gün keçəndən sonra qaynım bizə gəlmişdi. Gülə-gülə dedi:

– O nə oyundu Sərdarın başına açmısınız?

Mən güldüm. Yaşar dedi:

– Siz gedəndən bir az sonra onlara getmişdim. Gördüm ki, Sərdar kiçik qızı Nigara deyir:

– Bala, mən utanıram, deyə bilmirəm. Nənənə zəng eləyib de ki, bizə pay göndərəndə Rafiq əmidən göndərməsin...

## İŞIQ

Bir dəfə pivəxanada qulağım çaldı ki, məndən lətifə danışırlar. Bəlkə də məni tanıyırmışlar, bəlkə də yox. Ancaq onu bilirəm ki, sakitcə hər şeyə qulaq asdım.

"Dostum" mənim üzümə belə baxmadan danışırdı:

– Rafiq Yusifoğlu cavan vaxtı redaksiyaların birinə şeir aparıb. Yazıların hamısı bədbin ruhlu imiş. İşıqlı idealları təbliğ edən şair – şöbə müdiri ona deyib:

– Bu yazıları çap eləyə bilmərik.

– Niyə?

– Hamısı bədbindi, heç birində işıq yoxdu.

Rafiq Yusifoğlu deyib:

– İndi neyləyim, mantyor çağırım şeirlərimə işıq çəksin?

## SƏNİNLƏ İÇİR

Akifin yoldaşı bir gün mənə şikayət elədi ki, Akif həmişə içir, evə baxmır.

Təəccüblə dedim:

– Mən heç Akifi piyan görməmişəm.

Qadın acı-acı güldü:

– Əlbəttə, sən onu piyan görə bilməzsən, axı o həmişə səninlə içir...

## TARİXƏ DÜŞMƏK YOLU

Adımı kitablarda, əsərlərimi dərsliklərdə görən bir nəfər mənə dedi:

– Qardaş, sən xoşbəxt adamsan, adın tarixə düşüb.

– Sənə nə olub ki? Gec-tez sənin də adın düşər tarixə...

– İndən belə mənim əlimdən nə gələr? Adımın tarixə düşməsi üçün bircə yolum qalıb...

– O nə yoldu elə?

– Gərək "krupnıy" bir əclaflıq eləyəm...

## FÜŞTÜRÜK

Qusara toya getmişdim. Bir məktəb direktoru ilə tanış olduq. Məlum oldu ki, o, bizdən cəmi bir kurs yuxarıda oxuyurmuş.

Ordan-burdan söhbətləşdik. Direktor keçmiş tələbə yoldaşlarımızdan birini soruşub dedi:

– Rafiq müəllim, filankəs yenə qarmon çalır?

Gülümsünüb zarafatla dedim:

– Yox, qarmona xəyanət eləyib, başqa işlə məşğul olurdu, indi onu da əlindən aldılar.

– Bəs indi nə işlə məşğuldu?

– Heç, bekardı, əli cibində füştürük çalır…

## XEYİRİ YOXDU

Pedaqoji seminariyada işləyən müəllimlər dedilər ki, bəs xəbəriniz var, deyirlər ki, elmi dərəcəsi olanların maaşını artıracaqlar.

Mönsüm müəllim dedi:

– Qağa, sevinməyin, xeyiri yoxdu, bu ziyalı tayfasının maaşı heç vaxt ona bəs eləməyib. Qaynar peçin üstünə su düşəndə "cızz" eləyib buxarlandığı kimi, ziyalının maaşı da o saat buxarlanır...

## MƏSLƏHƏT

Bir qız mənə dedi ki, Rafiq müəllim, dünyada yeganə adamsınız ki, özüm özümlə elədiyim söhbəti Sizinlə edirəm. Hərdən Sizi görəndə susuramsa, elə bilməyin ki, sevgim azalıb. Çətin vəziyyətə düşmüşəm, mənəvi böhran içindəyəm, mənə bir məsləhət verin.

Ciddi şəkildə dedim:

– Bu işdə məsləhət çox zaman kara gəlmir. Yaxşı olar ki, öz ürəyinin səsinə qulaq asasan.

Qız gülə-gülə dedi:

– Ay Rafiq müəllim, ürəyimin səsinə qulaq assaydım, indi Sizin ailəniz çoxdan dağılmışdı!

## UNUDULAN AD

Məni çox istəyən tələbə qızlardan biri kitabımı gətirdi ki, bura avtoqraf yazın. Tərslikdən onun adını unutmuşdum. Çarəsiz qalıb soruşdum:

– Adın nədi?

– Ay müəllim, nə tez unutdunuz, Esmiradı.

– Adını unutmamışam e, qəsdən soruşdum ki, görüm mənim yanımda həyəcandan öz adını unutmamısan ki?!

## ƏN MÜQƏDDƏS

Sevinc adlı bir qız məndən soruşdu:
– Rafiq müəllim, Sizcə, ən müqəddəs nədi?
– Ürəkdəki sevgi.

## BU ŞƏHƏRDƏ

İki dostumla küçədə gəzirdim. Təsadüfən qarşıma keçmiş tələbələrim olan bir neçə qız çıxdı. Onlarla öpüşüb görüşdük. Bundan başqa o qədər dost-tanışla salamlaşıb hal-əhval tutdum ki, mənimlə gəzintiyə çıxan dostlarım darıxdılar. Qulağım çaldı ki, onlardan biri o birisinə deyir:

– Şairin bu şəhərdə öpüşmədiyi qız, araq içmədiyi kişi yoxdu…

## SEVGİ

Tələbələrimdən biri – Məmmədova Aynurə dərsdə dedi ki, müəllim, sevgi nə olan şeydi, onu yavaş-yavaş xırdalayın görək…

Gülə-gülə dedim ki, bir belə adamın yanında sevgini necə xırdalayım? Sevgi elə şeydi ki, ancaq onu ikilikdə qaldıqda xırdalamaq olar.

## DÜNYAYA YENİDƏN GƏLSƏYDİNİZ

Təzə birləşmədə dərs deyirdim. Gözəl bir qız əlini qaldırıb sual vermək istədiyini bildirdi. O dedi:

– Rafiq müəllim, dünyaya yenidən gəlsəydiniz haranı vətən seçərdiniz?

O dəqiqə cavab verdim:

– Sənin ürəyini…

## AVTOQRAF

Bir qarımış qıza kitab bağışlayanda belə bir avtoqraf yazıbmışam: "Əziz filankəs xanım, gün o gün olsun ki, "Xatirə kəcavəsi"ni oxuyub qurtaran kimi, gəlinlik kəcavəsinə əyləşəsən."

Aradan bir müddət keçdi. Bir gün həmin qızla rastlaşanda dedi ki, Rafiq müəllim, kitabınızı oxudum, ancaq təəssüf ki, gəlinlik kəcavəsinə əyləşə bilmədim.

Gülə-gülə dedim ki, ola bilməz. Sən kitabın hamısını oxudunmu?

Cavab verdi ki, doğrusu, tam oxumamışam, vərəqləmişəm.

– Onda günah özündədi. Mən yazmışdım ki, kitabı oxuyandan sonra… Əgər oxusaydın, indi çoxdan əyləşmişdin gəlinlik kəcavəsində…

## VEDRƏ

Ömrüm boyu heç kəsə vedrə bağlamağı xoşlamamışam. Ancaq vedrə haqqında olmuş bir əhvalatı yazıya almaq qərarına gəldim. İstədim ki, bu məzəli hadisə bizim günlərdən gələcəyə yadigar qalsın...

Sumqayıtda ilk dəfə komendant saatı elan edilən bir vaxtda bu qaydaların mahiyyətini başa düşmədiklərindən onu pozanlar da az deyildi. İki məktəbdən iki uşağın intizamsızlığına görə, şəhər xalq təhsili şöbəsində həmin məktəbin direktorlarına töhmət verirlər.

Məlum olub ki, uşaqlardan biri tanka daş atıb, digəri isə gecə saat 12-dən sonra vedrə əlində zibil atmağa gedib. Hər iki uşaq yaxalanıb. Günahı isə yazıq, günahsız məktəb direktorlarının üstünə atıblar.

Direktorlardan biri öz kəskin etirazını bildirib:

– Mən bu qərarla razı deyiləm.

Soruşublar:

– Niyə?

Deyib:

– Bu qədər ədalətsizlik olmaz axı? Üstündə sovet gerbi olan tanka daş atan uşaqdan ötrü də töhmət, əlində zibil dolu vedrə olan uşaqdan ötrü də töhmət?

Yerdən direktorlardan biri həmkarına qahmar çıxıb:

– Ay yoldaşlar, düz deyir da! Zibil vedrəsindən ötrü nə töhmət?

Bundan sonra başqaları da öz münasibətlərini bildiriblər. Vedrə sözü o qədər təkrarlanıb ki, müdafiə olunan direktorun xətrinə dəyib, elə bilib ki, həmkarları onu dolayırlar. Ona görə də dostlarına bərk acığı tutub, deyib ki, qurtarın da bu vedrə söhbətini... Bununla da müzakirə bitib.

İclasdan sonra dostlar bir direktorun ad gününə gedəsi olublar. Vedrə söhbəti istər-istəməz orada da təkrarlanıb. Yenə töhmət alan direktor hirslənib:

– Ə, kişisiniz, ta qurtarın da, bu vedrə söhbətini. Mənim əsəblərimlə oynamaq xoşunuza gəlir?

Hamı susub. Ancaq canında şeytan oynayan şəkili dostum fürsət taparaq bayıra çıxıb. Kababxana işçisinə pul verərək xahiş edib ki, biz yemək yeyib çıxanda, qapının düz ağzına bir vedrə qoyarsan...

Onlar razılaşıblar. Aradan xeyli keçib. Dostlar yeyib-içib, zarfatlaşıb bayıra çıxanda töhmət alan direktoru qabağa salıblar. Onun gözü vedrəyə sataşanda, o biri canıyanalıqla vedrəyə bir təpik vurub və deyib ki, bu andır vedrə bizdən əl çəkmir da...

Töhmət alan direktorun qəzəbi tüğyan edib. Dostlarının hamısını söyüb biabır eləyib, sağollaşmadan çıxıb gedib...

Axşam vedrəni qapının ağzına qoyan şəkili balası o biri məktəblərin direktorlarına zəng eləyib deyib ki, bəs filan məktəbdə məktəblərə pulsuz vedrə paylayırlar...

Hə, səhər vedrə ovqatıyla açılır. Dostlarını söyüb onlardan ayrılan direktorun yanına vedrə diləyi ilə gələnlər o qədər olur ki, yazığın əsəbləri tab gətirmir, təzyiqi qalxır. Onu birtəhər stolun üstünə uzandırıb, sakitləşdirici verirlər. Elə bu vaxt məsələdən xəbərsiz başqa bir məktəbin direktoru içəri girir. Bunu görən xəstə direktor başını qaldırıb hirsli-hirsli deyir:

– Alçağın biri alçaq, sən də vedrəyə gəlmisən?

Təbii ki, o biri direktor da dilini dinc qoymur. "Alçaq sənin özünsən", – deyərək çıxıb gedir.

Elə bu vaxt məktəblərdən birinin milliyyətcə rus olan təsərrüfat hissə müdiri içəri girib vedrə soruşur.

Özünü saxlaya bilməyən direktor "poşyol" sözünü deyəndən sonra özündən gedir. O, ayılanda görür ki, söydüyü rus deyinir:

– Görürsünüz bu millətçiləri? Mən rusam deyə mənə vedrə vermirlər.

Hiddətdən əsən direktor katibəsinə deyir:

– Aaaz, məktəbdə nə vedrə var yığ ver bu ... aparsın, bəlkə mənim canım qurtara...

## ƏKƏCƏK

Bir müəllimdən həyətdə işləyən kişinin kimliyini soruşdum. Dedi ki, tanımıram.

Dedim:

– Sən bilən kişi bu qədər yeri əkib qurtara biləcək?

Müəllim təbəssümlə dedi:

– Əkməyinə əkəcək, ancaq o, yeri əkib qurtaran kimi direktor da onu əkəcək...

## HARDAN BİLDİN?

Bolluq vaxtları idi. Hökumət evinin birinci mərtəbəsindəki yeməkxanada nahar eləyirdim. Ona görə işçilərin hamısı məni tanıyırdı. Bufetdə bir qaraşın, əsmər qadın işləyirdi.

Bir dəfə növbəyə durub toyuq almaq istəyirdim. Məndən qabaqda iki-üç nəfər var idi. Danışıqlarından hiss olunurdu ki, içiblər. Onlar toyuq çəkdirdilər. Qadın toyuğun arxa hissəsini tərəziyə qoyanda oğlanlardan biri dedi:

– Xala, hardan bildin mən ... yeyənəm?

– Qadın onu tərs-tərs süzüb dedi:

– Ağzından gələn ... iyindən bildim...

## KİM İÇMİRSƏ

Dostum Nazimlə Şəkiyə getmişdik. Dostlarımız – Rafiq müəllim, Zülfüqar həkim və Fərhad bizi aparıb yaxşı qonaqlıq verdilər. Süfrəyə araq gəldi. Nazimlə bir-birimizin üzünə baxdıq. O gülümsünüb dedi ki, Rafiq, mən and içmişəm araq içmirəm, sən isə and içməmis içmirsən. Andı pozmaq günahdı. Heç olmasa sən dostlarımızla yüngülvarı da olsa yoldaşlıq elə.

Heç birimizin içmək istəmədiyimizi görən Nazimin kəndçisi Fərhad dedi:

– Əşi, 50 qram araqla Sizə nə olasıdı, hərəniz bir az için.

Pedaqoji məktəbin direktoru Rafiq müəllim Fərhadın sözünü kəsdi:

– Üz vurma, kim ki, içmir, yəqin onun bir problemi var. Ya xəstədi ona içmək olmaz, ya içəndə əsəbiləşir, dava-dalaş salır, ya da arvaddan qorxur.

Mən gülə-gülə cavab verdim:

– Eh, ay qardaş, bunların biri olsa, dərd yarı idi, bizdə bunların üçü də var e!

## İKİ QORXU

Dənizə gələn kişilərdən biri özü ilə həmişə it də gətirir. Zarafatla Firdovsiyə dedim ki, qardaş, əcəb işə düşmüşəm. Dənizə gəlirəm, itdən qorxuram, gəlmirəm dostumuzdan…

## FİT

Təsadüfən qırmızı işıqda yolu keçdim. Elə bu vaxt fit çalındı. Maşını saxlamadım, daha sürətlə sürüb uzaqlaşmağa çalışsam da, fit səsi aydınca eşidilirdi. O yan-bu yana baxsam da, yol polisi görməyib təəccübləndim.

Sən demə radioda səslənən estrada mahnısının arasında tez-tez fit verirmişlər…

## ŞƏKİL

Mənə dedilər ki, rayonlar haqqında bir kitab buraxıblar. Bizim rayonun simvolu kimi bir yoluq təpə, bir də o təpədə otlayan eşşək şəkli veriblər. Bu haqda nə fikirdəsiniz?

Belə cavab verdim:

– O bizim rayonun simvolu deyil, bizim rayonu yuxarı dairədə təmsil eləyənin şəklidi.

## QƏRİBƏ ADAM

Dalğalı bir havada dəniz sahilində yazı-pozu ilə məşğul olurdum. Dostum Rəfail bağa gedəndə məni sahildə görür. Məndən xəbərsiz yanıma gəlir. Onu qəflətən yanımda görəndə diksinib fikirdən ayrıldım. Dostum gülə-gülə dedi ki, ay Rafiq, sən nə qəribə adamsan.

Gülümsünüb cavab verdim ki, mənim qəribəliyim qəribliyimdən doğur…

## YAĞIŞLI HAVADA

Yağışlı bir gündə dənizə getmişdim. Dalğalar kükrəyib daşır, gözəl yağış yağırdı. Bu səhər məndən başqa heç kəs dənizə gəlməmişdi. Ancaq belə nadir bir havada səhər-səhər sahildə tək gəzməyin də ayrı ləzzəti var idi…

Səhərisi gün dənizə gedəndə dostlarımdan biri mənə sataşaraq dedi:

– Dünən səni dəniz sahilində görüblər. Dedilər ki, səndən və bir itdən başqa heç kəs yox imiş…

Dəniz dostlarımız gülüşdülər. Mən də özümü sındırmadan cavab verdim:

– Düz deyirlər. O it həmin gün yağışdan qorxub sahilə gəlməyən dəniz dostumu əvəz eləyirdi.

Yenə hamı gülüşdü.

Dostum da özünəməxsus tərzdə güldü:

– Elə bilirdim ki, söz altında qalan deyilsən, ancaq bu cavabı gözləmirdim.

Başqa bir dostumuz gülümsünüb əlavə etdi:

– Allah üzümüzə baxıb ki, it cəmi bircə dənə imiş…

## LİFT

Seminariyada dərsdə idim. Arada pəncərəm oldu. Paltomu geyinib qardaşımgilə getdim ki, bir tikə çörək yeyib qayıdım. Liftin düyməsini basıb içəri girdim. Elə lift təzəcə hərəkət eləmişdi ki, işıqlar söndü.

Uzun söhbətdən sonra liftçi qadınlar gəlib lifti yuxarı qaldırdılar. Qadınlardan biri ayağının birini liftin bir, o birisini o biri qapısına dirəyib soruşdu ki, qardaş, gör burdan çıxa bilərsən?

## İCAZƏ

Dərsdən qalmağı xoşlamıram. Ona görə həmişə icazə alsam da, çox zaman vaxtında gəlib dərsə çata bilmişəm.

Bir dəfə vacib işim olduğu üçün Müzəffər müəllimə dedim:

– Sən kişilik elə sabaha mənə icazə ver, mən də əvəzində kişilik eləyib dərsə gəlim.

## YUBİLEY

"Sumqayıt" qəzetinin redaktoru Kamran Hacıyev mənim yubileyimdən sonra zarafatla dedi:

– Sən Sumqayıtın tarixində inqilab elədin.

Təəccüblə soruşdum ki, nə inqilab?

Gülümsünüb dedi:

– İndiyəcən biz görmüşdük ki, Bakıdan şair gətirib Sumqayıtda ona yubiley keçirirlər. İndi isə ilk dəfədi ki, Sumqayıtdan şairi aparıb onun yubileyini Bakıda qeyd eləyirlər…

## FİL DOKTORU

Rayonların birində məni süfrə arxasında əyləşənlərə təqdim eləyib dedilər ki, bəs Rafiq müəllim filologiya elmləri doktorudu.

Aradan bir xeyli keçmiş bir nəfər mənə yanaşıb soruşdu ki, heyvanxanada nə qədər fil var?

Onu başa düşmədiyimi söyləyəndə dostumuz təəccüblə soruşdu:

– Bəs sən fil doxturu deyilsən?

## SU

Ağəddin Mansurzadə zəng edib soruşdu ki, suyunuz gəlir? Dedim ki, su üzünə həsrətik, bircə üzümdə su qalmışdı, onu da tökdülər.

## MÜŞKÜL İŞ

Bir qələm adamı həmişə tədbirlərdə yersiz şəkildə zarafata salıb mənim saçımın tökülməsindən danışırdı. Axır ki, bir gün çıxış eləyəndə dedim ki, ay müəllim, sənin bircə saçın məndən artıqdı. Ədəbiyyatda da, elmdə də səndən qabaqdayam... Sənin təzədən bir fərli əsər yazmağın mənim başıma təzədən tük gəlməyi kimi müşkül bir işdi...

## AT, İT

Sahildə gəzişirdik. Necə oldusa uşaq vaxtı at çapmağımdan söhbət açdım. Xatirələr çözələndi… Zarafatla dedim ki, bir vaxtlar at oynadırdım, indi…

Dəniz dostum Əjdər sözümü yarımçıq kəsib dedi:

– Rafiq müəllim, bir vaxtlar at oynadırdın, indi də it oynadırsan…

## DARAQ VƏ PAPAQ

Toya getmişdim. Bir tanış kişi güzgünün qabağında dayanıb başını darayırdı. Məni görən kimi zarafatla dedi ki, Rafiq müəllim, Sizin işiniz yaxşıdı, darağa pul vermirsiniz…

Mən də cavabsız qalmadım:

– Düz deyirsən, elə sənin də işin pis deyil, papağa pul vermirsən…

Sözümün mahiyyətinii başa düşənlər güldülər… Kişi isə udquna-udquna qaldı…

## AĞSAQQALLAR ŞURASI

Bakıdakı 46 nömrəli məktəbdənkənar tərbiyə işi mərkəzinin direktoru Rafiq müəllimin kabinetində Zahid Xəlil, Oqtay Rza və mən çay içə-içə söhbət eləyirdik. Birdən Oqtay müəllim üzünü mənə tutub ciddi şəkildə soruşdu:

– Professor, sən bilərsən, Budaq Budaqovun ağsaqqallar şurası harda yerləşir?

Mərhum akademikin bir neçə ay bundan qabaq dünyasını dəyişməsi yadıma düşdü və zarafatla dedim:

– Fəxri xiyabanda.

Hamı güldü. Sonra Oqtay müəllim də bizə qoşuldu… Dedi ki, bu lap əsl lətifə oldu…

## MƏŞHUR ADAMLAR

Ədəbiyyat institunda doktorluq müdafiəsi olası idi. Hələ iclas başlamamışdı. Qəzənfər Kazımovla qapının ağzında dayanıb söhbət eləyirdik. Gələnlər bizə salam verib hal-əhval tutur, sonra bizdən aralanırdılar.

Qəzənfər müəllim soruşdu:

– Ay Rafiq, bunlar kimdi belə?

– Nə bilim, mən də tanımıram.

Qəzənfər müəllim gülə-gülə dedi:

– Biz çox məşhur adamlarıq.

Təəccübləndim:

– Niyə belə deyirsiniz?

– Görmürsən, gələn-gedən bizə salam verir, adımızla müraciət edir, biz isə heç onları tanımırıq...

## ƏVVƏL ÇALINAN HAVA

Qəzənfər Kazımov danışır ki, Tofiq Hacıyevlə bir kəndçimizin toyuna getmişdik. Toy sahibi bizi məcbur elədi ki, oynayaq. Tofiq durmadı, mən çarəsizlikdən oynamağa başladım. Gördüm ki, Tofiq mənə baxıb qəşş eləyir. Əyləşəndə soruşdum ki, nəyə gülürdün? Dedi ki, ay Qəzənfər, sən indi çalınan havaya yox e, əvvəl çalınan havaya oynayırdın…

## "İNSTRUKSİYA"

Qardaşım Bəxtiyar deyir ki, bir qonşumuz var, ürəyindən əməliyyat olunub. Həyətdə gəzəndə bir klok dərman verdi ki, Bəxtiyar, bunu qoy sənin yanında dükanda qalsın, axşam nəvəmi göndərərəm gəlib aparar. Dedim ki, nə olar, qoy qalsın. Axşam nəvəsi gələndə sənin uşaq kitablarından birinə özüm avtoqraf yazıb oğlana verdim ki, aparıb oxuyarsan.

Səhərisi gün həmin kişi gələndə dedi ki, Bəxtiyar, dərman klokuna sən nəsə qoymuşdun?

– Əlbəttə, qoymuşdum. Həmişə nəvəni tərifləyirdin ki, yaxşı oxuyur, mən də ona qardaşımın kitablarından birini bağışladım.

Kişi gülümsünüb dedi:

– Ay kişi, mən də uşağın əlindən kitabı alıb yenidən kuloka qoymuşam ki, əl vurma, bu kitab deyil, tənzifin, dərmanların "instruksiya"sıdı…

## NƏ HƏKİMİDİ?

Yenə Bəxtiyar deyir ki, Yusifin toyunda "Şeron" qrupunun uşaqlarına dedim ki, bəs ağsaqqallar adından filologiya elmləri doktoru, professor Rafiq Yusifoğluya söz verin. Ad yadınızda qalmayacaqsa, yazıb verim. Dedilər ki, o nə sözdü, müəllimi biz də tanıyırıq.

Bir az aralanmışdım ki, oğlan məni çağırıb soruşdu:

– Ay qardaş, dedin Rafiq müəllim nə həkimidi?

## SƏSİNİ EŞİTDİM

Uzun müddət bizim redaksiyada çalışan Səlim müəllim “Azərnəşr”də işləyəndə onun otağında bir kişi bir qadını öpür. Bunu kimsə görür və müdiriyyətə xəbər verir. Məsələ çox ciddiləşir. Öpüşənləri işdən qovmaq, onlara partiya cəzası vermək istəyirlər.

Həmişə təmiz, yalan danışmayan adam kimi tanınan Səlim müəllimi çağırıb soruşurlar:

– Səlim, filankəs filankəsi öpəndə sən gördünmü?

Çətin vəziyyətə düşən Səlim müəllim deyir:

– Yox, görmədim, amma marçıltı səsi eşitdim…

## KİŞİ DƏ VAR, CEYİL DƏ

Aptek müdiri işləyən dəniz dostumuz Rəfail dekabr ayında səhər-səhər dənizə gedir. Yayda olduğu kimi paltarını soyunub, o baş, bu başa qaçır. Dəniz sahilində it gəzdirən bir uşaq ona təəccüblə baxır.

Rafail uşağı cırnatmaq məqsədiylə hər onun yanından keçəndə soruşur:

– Ə, bu kənddə bir kişi yoxdu, gəlib mənimlə idman eləsin, dənizdə çimsin?!

Uşaq heç nə demir. Dostumuz idmanı qurtarıb dənizə girəndə uşaq onu çağırır:

– Əmi, əmi, kəndimizdə kişi də var, ceyil də, ancaq sənin kimi başdan xarab yoxdu…

## GÜLMƏLİDİ, YA AĞLAMALI?

Dostum Hüseyn Qəribov deyirdi ki, kəndə gedəndə dildən pəltək, ağıldan yüngül bir kəndçisi ondan soruşub:

– Sən iki institut qurtarmısan?

– Bəli.

– Sənə iki sual versəm olar?

– Olar.

– De görüm “O olmasın, bu olsun” ağlamalıdı, ya gülməli?

– Gülməli.

Kəndçisi ona dirsəyini göstərərək deyib:

– Bilmədin. Kişi xərc qoyub arvad alır, qızı isə başqasına verirlər. Bunun nəyi gülməlidi? Adamın yazıq Məşədi İbadın halına lap ağlamağı gəlir...

Dostum gülümsünəndə kəndçisi ona ikinci sualı verib:

– “Leyli və Məcnun” gülməlidi, ya ağlamalı?

– Ağlamalı.

–Yenə bilmədin. Gülməlidi. Kişi bir heyvərə qızdan ötrü dəli olub səhraya düşürsə, bu gülməli deyil, bəs nədi?

## SUTQALIQ

Bu hadisəni Tofiq Bayram rəhmətlik özü danışmışdı mənə. Bəstəkarlardan biri şairlərlə tanış olmaq istəyirmiş. O, Tofiq Bayramdan xahiş eləyir ki, şair dostlarını yığ gətir, onlarla tanış olum. Qonalığı da mənim boynuma.

Tofiq Bayram öz dostları ilə gəlib çıxır. Onları bəstəkarla tanış edir.

Atif Zeynallı deyir:

– Axşam üç araq içmişəm, başım partlayır.

Rəfiq Zəka onun səsini kəsir:

– Araq yaxşıdı e, mən iki konyak vurmuşam, hələ də özümə gəlməmişəm.

O biri şair tutovkadan danışanda bəstəkar üzr istəyib Tofiq Bayramı kənara çəkir. Yavaşcadan onun qulağına deyir:

– Ay Tofiq, buralarda budkadan-zaddan yoxdu, hərənizə bir yüz alım?

Tofiq Bayram gülə-gülə deyir:

– Ay bədbəxt oğlu, bunlar butkalıq deyil e, sutqalıqdı!

## SƏRDAR AĞACI

Bu lətifəni də mənə rəhmətlik Tofiq Bayram danışıb. Yazıçılar İttifaqının qarşısındakı qabığı soyulmuş ağacı bizə göstərən Tofiq müəllim bizdən soruşdu:

– Uşaqlar, bilirsiniz bu ağacın adı nədir?

Hamımız çiynimizi çəkdik. O isə gülə-gülə dedi ki, bu ağacın adı Sərdar ağacıdı...

Yazıçılar hərəsi bir maşın alır. Sərdar Əsədin isə maşın almağa pulu çatmır. Elə buna görə də gedib yaxşı bir at alır. Onu minib yazıçılar ittifaqına gəlir və atı bu ağaca bağlayır. Maşınlar gələndə hürkən at dartınır, həyəcanla kişnəyir. Mirzə İbrahimovun zəhmli katibəsi Kübra xanım başını pəncərədən çıxarıb Sərdar Əsədi çağırır:

– Ay yoldaş Sərdar, ay yoldaş Sərdar, bu nə hoqqadı çıxarırsınız?

Sərdar Əsəd cavab verir:

– Kübra xanım, yazıçılar ittifaqının o qədər eşşək üzvü var ki, qoy bir dənə də at üzvü olsun...

## ULDUZLAR

Tofiq Bayram möhkəm yeyib-içib evə gəlibmiş.Onu yatağa uzadıb yerini rahatlayandan sonra hərə öz işi ilə məşğul olur. Tofiqin oğlu ulduzlarla, kosmonavtika ilə maraqlanırmış. Elə buna görə də ulduzları seyr etməkdən xüsusi

zövq alırmış. Həmin axşam da göyə baxanda qəribə, fərqli bir ulduz görən uşaq həyəcanla deyir:

– Ulduz...

Bunu eşidən Tofiq Bayram soruşur:

– Ədə, "üçulduzdu", yoxsa "beşulduz"?

## ELAN

Səməd Vurğun, Süleyman Rüstəm və Sabit Rəhman Moskvada imişlər. QUM-da gəzəndə onlar Sabit Rəhmanı itirirlər. Görürlər ki, univermağın radio qovşağında itən uşaqları tapmaq üçün elan verirlər. Onlar da elan verib Sabit Rəhmanı tapmaq istəyirlər. Dostlarının adını elan şöbəsinə verəndə onlardan soruşurlar ki, bəs itən uşağın atasının adı nədi? Səməd Vurğun acıqlı-acıqlı deyir:

– İt oğlu.

Radio qovşağında belə bir elan səslənir: "Sabit Raxman İt oqlı, vas roditeli işut!"

## QƏHRƏMAN

Süleyman Rəhimova Azərbaycan yazıçıları, mədəniyyət işçiləri, incəsənət xadimləri arasında ilk dəfə Sosialist Əməyi Qəhrəmanı adı veriləndə bir cavan yazıçı Süleyman Rüstəmi cırnatmaq məqsədilə soruşur:

– Süleyman müəllim, necə bilirsiniz, adaşınıza bu ad düşürmü?

Süleyman Rüstəm təbəssümlə cavab verir:

– Düşür, əzizim, düşür! Nəinki epopeya, qalın-qalın romanlar müəllifi Süleyman Rəhimovun özünə, həm də kim onun əsərlərini oxuyub qurtara bilibsə, ona da Sosialist Əməyi Qəhrəmanı adı düşür...

## İKİNCİ DƏFƏ

Qabil Nəsimi haqqında gözəl bir poema yazır. Əsərdən ayrı-ayrı parçalar radioda, televiziyada səslənir. Poema hissə-hussə "Azərbaycan" jurnalında çap olunur. Sonra hər hissəsi ayrı-ayrılıqda kitab şəklində nəşr edilir və hər dəfə şairə yüksək qonorar verilir.

Daha sonra üç kitab birləşdirilib qalın bir kitab halında nəşr edilir və əsərə dövlət mükafatı verilir.

Bunları eşidən Süleyman Rüstəm təbəssümlə deyir:

– Qabil Nəsimini ikinci dəfə soydu...

## ZƏHƏR

Bu lətifəni mənə gözəl tənqidçi, unudulmaz müəllimim Əhəd Hüseynov danışmışdı. Yazıçılar pambıqçılarla görüşə gedibmişlər. Mehdi Hüseyn də onlarla imiş. Bu görkəmli yazıçı əsərləri kəskin tənqid etdiyindən qələm dostları ondan çəkinirmişlər.

Süleyman Rüstəm pambıq kollarının arası ilə gəzərkən qəflətən onun qarşısına bir ilan çıxır. Gürzə dik quyruğu üstündə qalxıb Süleyman Rüstəmlə üz-üzə dayanır və dilini çıxarır. Şair qorxa-qorxa ondan soruşur:

– Ay Allahın heyvanı, məndən nə istəyirsən?

Birdən möcüzə olur. İlan dil açıb deyir:

– Zəhər!

Süleyman Rüstəm tələsik cavab verir:

– Onda get Mehdi Hüseynun yanına. Ünvanı səhv salmısan...

## XALQ MƏNİ ÇOX İSTƏYİRMİŞ

Hüseyn Arif yolda bir cavan şairə rast gəlir. Kövrək səslə deyir:

– Xalq məni yaman çox istəyirmiş...

– Ay Hüseyn müəllim, hardan bildin?

– İndicə məscidin yanından keçirdim Hamı mənim adımı çəkib, başına, sinəsinə döyürdü. Atamın göru haqqı, nə Bəxtiyarın adını çəkirdilər, nə də Nəbinin. Elə hamı deyirdi:

– Ya Hüseyn! Vay Hüseyn!

## ÖZÜNÜ BİABIR ELƏMƏ

Bir səhər Hüseyn Arif xaş yeyib buğlana-buğlana evə gələndə görür ki, bir cavan adam idman paltarında ora-bura qaçır. Oğlan Hüseyn müəllimə salam versə də, şair əvvəlcə həmin adamı tanımır. Onu yanına çağırb soruşur:

– A bala, niyə belə eləyirsən?

Alnından tər süzülən cavan yazıçı, Rəfiq Zəka deyir:

– Hüseyn müəllim, idman sağlamlıqdı, idman ömrü uzadır.

Rəfiq Zəkanı səsindən tanıyan Hüseyn Arif özünəməxsus yumorla deyir:

– A bala, özünü biabır eləmə. Uzaqbaşı bir il, ya iki il fərq eləyər.

## AXIR Kİ...

Yazıçılar İttifaqında iclas imiş. Əli Kərim arxa cərgədə oturub gizlicə siqaret çəkirmiş. Bir yazıçı israrla söz istəyir və çıxıb danışır. O, söz kürsüsündən aşağı düşəndə Əli Kərim mənalı-mənalı deyir:

– Çoxdan idi ki, çalışırdı özünü biabır eləsin, axır ki, məqsədinə çatdı...

## DÜNYA GÖZƏLLƏŞİR

Gözəl şairimiz Əli Kərim məclisdə çox danışmağı xoşlamazmış. Qədəhi başına çəkəndən sonra təbəssümlə deyərmiş:

– Dünya yavaş-yavaş gözəlləşir.

## İÇİN QURTARSIN

Nəğməkar şair İslam Səfərli üzünü qələm dostlarına tutub deyərmiş:

– Qardaşlar, bu araq milləti qıracaq, için qurtarsın!

## AYILMAQ TƏHLÜKƏSİ

“Ədəbiyyat qəzeti”nin əməkdaşları yeyib-içəndən sonra redaksiyada nərd oynayırmışlar. Birdən rəhmətlik Məmməd Əkbər həyəcanlı səslə deyib:

– Yoldaşlar, ayılmaq təhlükəsi var!

## YÜZ ƏLLİ

Axşam evlərində möhkəm yeyib-içən Qabil səhər yuxudan ayılanda görür ki, başı bərk ağrıyır. Öz-özünə deyir ki, bir yüz əlli içsəm, başımın ağrısı kəsərdi. Ancaq nə qədər axtarırsa, görür ki, evdə bir damcı da içki qalmayıb. Bilməyib ki, neyləsin. Yolda araq axtara-axtara gedib çıxıb iş yerinə. Qapını açıb, əyləşib stulunda.

Qabil yüz əlli qram haqqında fikirləşən vaxt süpürgəçi qapını açıb ki, otaqları təmizləsin. Sübh tezdən Qabili işdə görən qadın təəccüblə soruşub:

– Qabil müəllim, heç bilirsiniz saat neçədi?

Qabil fikirləşmədən cavab verib:

– Yüz əlli.

## VIŞKA

Bu əhvalatı mənə xalq şairi Qabilin özü danışmışdı. Demişdi ki, istəsən, bunu yaza da bilərsən…

Televiziya komitəsinin təzə yaranan vaxtı imiş. Ənvər Əlibəyli sədr, Seyfəddin Dağlı sədr müavini, Rauf Kazımovski baş rejissor, Qabil isə redaktor imiş. Otaqda onlarla birlikdə mühasib də əyləşirmiş.

Bir gün Qabil içəri girib salam verəndə heç kəs onun salamını almır. Qabil pərt olur və deyir ki, yoldaşlar, bu nə hərəkətdi eləyirsiniz?

Ənvər müəllimin işarəsi ilə hamı otaqdan çıxır. Qabillə tək qalan sədr ona deyir:

– Qabil, sən qəzetdə işləmisən, qəzət harada çap olunur?

– Mətbəədə.

– Ay sağ ol! Mətbəədə növbətçi, onun buraxılışına məsul adam olur?

– Olur, Ənvər müəllim.

– Qabil, bax bizim də mətbəəmiz bu "vışka"dı. Ora da çıxıb növbə çəkmək lazımdı. Mən arıq adamam, ora çıxsam, külək məni aparar. Rauf o qədər kökdü ki, ora qalxa bilmir. Bu yazıq Seyfəddin "vışka"ya çıxıb düşməkdən ölüb. Gərək sən də növbətçi olasan.

Qabil narahatçılıqla deyir ki, Ənvər müəllim, məni heç əsgərliyə də aparmayıblar. Mən "vışka"ya çıxa bilmərəm.

Ənvər müəllim onu dilə tutmağa başlayıb:

– Qabil, bu o qədər də pis şey deyil. "Vışka"ya çıxanlara əyninə geymək üçün isti tulum, yemək üçün sala, içmək üçün spirt də verirlər.

Qabil bir qədər yumşalır. Sonra nə fikirləşirsə, Ənvər müəllimə deyir:

– Ənvər müəllim, heç sala da istəmirəm, spirt də. Sizin xətrinizə "vışka"nın yarısınacan çıxaram, ancaq yayda.

Ənvər Əlibəyli ciddi şəkildə deyir ki, yox, Qabil, belə olmaz. Əgər belədisə, gərək ərizə yazıb işdən çıxasan.

Qabil aşağıdakı məzmunda bir ərizə yazır: “Vışka”ya çıxmıram, işdən çıxıram”.

Ənvər müəllim ərizənin üstünə səliqəli xətlə dərkənar qoyub mühasibə göstəriş verir ki, Qabilə haqq-hesab verilsin.

Sonra ərizəni Qabilə verib deyir ki, bunu mühasibə ver, sənə pul da verəcəklər. Qabil hirslənir. “Pul Sizin təpənizə dəysin!” – deyib qapını çırpanda işçilər gülməyə başlayırlar.

Məlum olur ki, onlar Qabillə zarafat eləyirmişlər.

## PİVƏ

Qabil maşını pivəxananın yanında saxlayıb doyunca pivə içir. Çölə çıxanda görür ki, yol müfəttişləri dayanıblar maşının yanında. Onlar maşına yaxınlaşan Qabildən soruşurlar:

– Yoldaş, bu maşın Sizindi?

– Bəli.

– Zəhmət olmasa sənədlərinizi verin.

– Nöşün?

– Ona görə ki, içkilı vəziyyətdə maşın sürmək olmaz.

– Nə olsun ki, içmişəm, məgər mən maşın sürürəm?

– Bəs indi oturub sürməyəcəksən?

– Yox. Gəzəcəm, ulduzlara baxacam, nə vaxt ayılsam, onda maşına minib evə gedəcəm.

Qabil bunu deyib o baş, bu başa gəzməyə başlayır. Müfəttişlər çar-naçar çıxıb getməli olurlar...

## NƏ BİLƏSƏN

Mirmehdi Seyidzadə gözəllərin vurğunu imiş. Həmişə aktrisalarla oturub durar, onlara pul xərcləməkdən zövq alarmış. Bir dəfə Əbülhəsən onu bərk danlayır:

– Əzizim, əzizim, bu nə işdi görürsən? Heç sənə yaraşarmı? O aktirisalarla az otur-dur, onlarla az laqqırtı vur.

Mirmehdi Seyidzadə gülə-gülə deyib:

– Əbülhəsən, Əbülhəsən,
Dadmamısan, nə biləsən?!

## TƏYYARƏ

Bir gözəl xanımın boynundan təyyarə şəkilli qızıl medalyon asılıbmış. Onunla üz-üzə gələn şair Rüfət Zəbioğlu heyranlıqla baxırmış. Bunu hiss eləyən qadın acıqlanır:

– Nə maddım-maddım baxırsan, ədə, təyyarə görməmisən?

Rüfət dərindən bir ah çəkib cavab verir:

– Təyyarə görməyinə görmüşəm, amma belə aeredrom görməmişəm...

## AND

Şairlərin çox içməyinə işarə vuran Fikrət Sadıq həmişə deyirdi:

– Araq içirik, çay içirik, and içirık. Səhərisi gün hər şey yenidən təkrar olur.

## MÜSİBƏT

Fikrət Sadıqgil bir kababxanaya yeyib-içməyə gedirlər. Kababçı deyir ki, lülədən başqa heç nə yoxdu. Fikrət Sadıq üzünü dostlarına tutub deyir:

– Burda verirlər lülə,

Onu da ancaq lülə...

Lakin dostları onun sözünə qulaq asmırlar. Oturub yeyib-içirlər. Özü də onlara əməlli-başlı hesab oxuyurlar.

Çölə çıxanda "Təbəssüm" kafesinə narazılıqla baxan Fikrət Sadıq həmişə olduğu kimi sözü tərsinə oxuyub deyir:

– Müsibət. Bu kafenin adı müsibətdi...

**BAĞ**

Bir nəfər Fikrət Sadığı elə hey söhbətə tutur, onu bezdirir. Yorucu suallardan sonra belə bir sual verir:

– Fikrət müəllim, bağınız var?

Fikrət müəllim ciddi şəkildə cavab verir:

– Var.

– Hardadı?

– Bude, ayaqqabımın üstündə...

**PUL**

Bir gün Ağəddin Mansurzadəyə deyiblər:

– Sən talışsan.

Soruşub:

– Nədən bildin?

– Ona görə ki, pula "pül" deyirsən...

**İSTƏYİR İNGİLİS DİLİNDƏ OXUSUN**

Ağəddin Mansurzadənin qohumlarından birinin uşağı rus sektorunda oxuyurmuş. Bir gün uşaq danışanda Ağəddin onun ləhcəsinə gülür və deyir:

– Köpək oğlunun talışı, ingilis dilində oxutsan belə, talışdı ki, talış...

## ELƏ MƏN DƏ TALIŞAM

Bir gün kimsə Ağəddingilin evinə zəng edib Elxanı soruşur. Ağəddin deyir:

– Kimdi danışan?

– Tanışdı.

– A bala, elə mən də talışam, de görüm kimsən?

## NƏ YEYİB ONU ƏKDİRİB

Bir gün bir talışla bir ermənistanlı qohum olur. Toyda çıxış edən Ağəddin Mansurzadə təzə qohumlarına deyir:

– Elə bilirsiniz biz talışların əlindən kələm əkməkdən başqa bir şey gəlmir?! Neyləyək, köpək oğlunun rusu, nə yeyib, onu da əkdirib da bizə...

## OĞUL

Ağəddin Mansurzadəyə deyiblər:

– Oğlun səndən yaxşı yazır.

Ağəddin cavab verib:

– Belə də olmalıdı. Burda təəccüblü nə var ki?! Mən savadsız Mansur kişinin oğluyam, o isə yazıçı, jurnalist Ağəddin Mansurzadənin oğludu...

## AXMAĞAM

Ağəddin Mansurzadə "Bakı" qəzetində işləyəndə bir neçə gün dalbadal Ənvər Məşədiyevə yemək alır. Bir gün necə olursa, Ənvər qabağa düşür. Ancaq təkcə özünə yemək alıb gedir. Onun bu hərəkəti Ağəddinə çox pis təsir edir. Hirsli-hirsli Ənvərə deyir:

-Əclaf, dünən sənə yeməyi kim aldı?

– Sən.

– Bəs srağagün?
– Sən.
– Bəs tasrağagün?
– Sən.
– Əclaf, bəs onda mənə niyə yemək almadın?
Ənvər bic-bic gülümsəyib deyir:
– Mən sənin kimi axmaq deyiləm ki, hər yoldan ötənə yemək alım?!

## İÇMƏK

Bir dəfə Ağəddin Mansurzadə hardasa deyir ki, əclaf Məmməd Namaz yaman ləzzətlə araq içir. Söz Məmmədin qulağına çatır. O, acıqlı-acıqlı Ağəddinə deyir:
– Niyə orda-burda ağzına gələni danışıb məni pis tanıdersən?
Ağəddin Mansurzadə deyir:
– Əclaf, bir yaxşı keyfiyyətin var, o da içməkdi. Səni tərifləmişəm da...

## KİŞİ ODUR Kİ...

Ağəddin danışırdı ki, bir nəfər Lənkəran tərəfə gəzməyə gedibmiş. Çəltik becərən ayağı zığlı, palçıqlı qadınları görəndə yanındakına bərkdən deyir:
– Vay dədəm vay, kişiləri bu qadınlarla necə yatırlar?
Qadınlardan biri bu sözü eşidib qonağa cavab verir:
– Sizin xanım-xatın arvadlarınızla hamı yatar. Kişi odur ki, bizim kimi arvadlarla yatsın...

## ... YEMƏ

Bir dostu talışa acıqlanır, onu tənbeh edir:
– Sən nə kişisən ki, arvaddan qorxursan?
– Xeyir, mən arvaddan qorxan kişilərdən deyiləm.

– Bəs elədisə, arvadın sənə deyəndə ki, ... yemə, səsini niyə kəsdin?

– Külüm ağlına! Pis söz demədi ki... Dedi yemə, ye desəydi, gör onun anasını necə ağlar qoyurdum. Bədbəxt qızı qoyarmı mən murdar şey yeyəm?

## MƏN GETMİRƏM HA...

Məmməd Namaz təzə maşın alanda ailəsi ilə birlikdə Mir Sabirgilə qonaq gedir. Məmmədin möhkəm içən olduğunu bilən Mir Sabir süfrəyə araq qoymağa məcbur olur. Məmməd içdikcə, o, elə bil tikan üstündə oturubmuş. Araq yarıdan keçəndə Mir Sabir həyəcanlanır və Məmmədə xatırladır ki, maşın sürəcək.

Məmməd gülə-gülə deyir:

– A qadan alem, heç narahat olma, mən araq içəndə maşın sürmerem ha, eləcənə yatıb qalerəm içdiyim yerdə...

## XOKKU

Məmməd Namazın lirik şeirlərini oxuyan arvadı bərk hirslənir və deyir ki, bu nədi yazmısan, özünü yığışdır...

Məmməd deyir:

– Qadan aleym, bu xokkudu, yapon şeiridi, ona oxşadıb yazmışam dana...

Arvadı Leyla acıqlı-acıqlı deyir:

– Bu xokku deyil, hoqqadı... Sənin növbəti hoqqan...

## YOX BİR...

Məmməd Namaz yolun kənarında duran bir adamın yanında maşını saxlayıb deyir:

– Ayə, Sumqayıta getmersənmi?

– Bəli, Sumqayıta gedirəm..

– Di otu dana... Tez elə görüm..

Kişi maşına əyləşir. Elə bir az gedən kimi Məmməd deyir:

– Bax, səndən pul alacam ha!

Bunu eşidən kişi hirsli-hirsli deyir:

– Saxla, saxla, ələ! Hələ bu da maşını saxlayıb zorla məni götürdüyüdü... Yox bir, hələ buna pul da verəcəm?

## YEYİB-İÇMƏK

Bir dəfə kitab çap etdirmək istəyən Xudaqulu Canıyev Məmməd Namaza qonaqlıq verir. Xudaqulu nə qədər kitabdan, yazı-pozudan söhbət salırsa, görür xeyiri yoxdu. O çox deyir, Məmməd az eşidir. Axırda qonaqlıq verən bu diqqətsizliyə dözə bilmir və hirslə deyir:

– Məmməd, deyəsən mən ünvanı səhv salmışam. Bəs sən nə bacarırsan?

Məmməd cavab verir:

– A qadan alem, mənim bacardığım da budu dana, yeyib içmək...

## DANIŞMIRAM HA

Məmməd Namaz iclasda danışanda "Gənclik" nəşriyyatının direktoru, yazıçı Əzizə Əhmədova ona bərk hirslənir:

– Mənim redaktoruma bax e! Ay Məmməd, sənin yazılarını oxuyuram, pis yazmırsan, danışığını eşidəndə məni təəccüb bürüyür. Məəttəl qalmışam, bu səviyyə ilə sən o şeirləri necə yazmısan?

Məmməd Namaz kəkələyə-kəkələyə cavab verir:

– Qadan aleym, ay Əzizə xanım, mən şeir yazanda danışmerəm ha, eləcənə yazerəm geder...

## GÖZÜMƏ GİRƏCƏK

Məmməd Namaz yeyib-içəndən sonra dostu, rəhmətlik Tofiq Məmmədə deyir:

– Ay Tofiq, qədrimi bilmersən. Sən öləndən sonra gəlib qavrının (qəbrinin) üstündə bir ağac əkəcəm.

Tofiq Məmməd hirsli-hirsli deyir:

– Lazım deyil. Sən əkdiyin ağacın zoğu məni qəbirdə də rahat qoymayacaq, uzanıb gəlib gözümə girəcək…

## MƏN ADAM AXTARIRAM “BƏKLƏMƏYƏ”

Sumqayıtda türk liseyinin təzə açıldığı bir vaxtda onun direktoru İlyas Ayaydın 35 nömrəli məktəbin direktoru Nazim müəllimin yanında imiş. Birdən məktəbin qocaman müəllimlərindən biri, coğrafiya elmləri namizədi Hacı Ağayev gəlir. Nazim müəllim onu İlyas bəylə tanış edir.

Hacı müəllim deyir ki, dərs versəniz, mən də işləyərəm sizin yanınızda.

İlyas bəy razılaşır. Ayrılanda deyir ki, Hacı müəllim, yanıma gələrsiniz, bekliyorum.

Baməzə Nazim müəllim bic-bic güləndə Nacı müəllim hirsli-hirsli deyir:

– Axmaq oğlu axmaq, mən adam axtarıram “bəklə-məyə”, bu da məni “bəkləmək” istəyir….

## ƏZİZLƏRİN İÇSİN

Görkəmli sənətkarımız Səməndər Rzayevin yanına gələn dayısı ona deyir ki, Səməndər, bala, vaxtın olar, gedək bir başımızı açıb əməlli-başlı söhbət eləyək?

Səməndər əlini əlinə sürtə-sürtə deyir:

– Ay dayı, vaxt sənə qurbandı.

Onlar telestudiyadan çıxanda dayısı deyir:

– Ay Səməndər, buralarda çayxana yoxdu, çay içə-içə dərdləşək?

Dilxor olan Səməndər ciddi şəkildə deyir:

– Dayı, çayı əzizlərin içsin, mən işə qayıtmalıyam.

## ÖZÜ OXUSUN

Zəbi müəllim şəhər partiya komitəsində işləyən vaxt imiş. Onlar avtobusla Bakıya gedirmişlər. Bekar oturmağı xoşlamayan Zəbi müəllim özü ilə bir topa qəzet götürübmüş. O, avtobus hərəkətə gələndə qəzetlərdən birini açıb sakitcə oxumağa başlayır. Tanışlardan biri onu lağa qoymaq məqsədiylə deyir:

– Ay Zəbi müəllim, nə yazırlar e qəzetlərdə?

Zəbi müəllim cavab verir:

– Yazırlar ki, hər qurumsaq özü qəzet alıb oxusun.

## HƏKİMƏ GÖSTƏR

Bir nəfər zarafatla Zəbi müəllimə deyir:

– Gözümə birtəhər dəyirsən...

Zəbi müəllim tez cavab verir:

– Gözünü həkimə göstər.

## PSİXOLOQ

Psixologiya müəllimi bir tələbə qızın pis hərəkətlərindən, müəllimi saya salmamasından gileylənirdi. Müəllimlərin bir neçəsi, o cümlədən mən də təəccübləndim:

– Balam, o qız ki, yaxşı qızdı!

Başqa bir müəllim dedi:

– Onun psixologiyasını bilsən, çox yaxşı uşaqdı...

## İKİ SÖZ

Bostançı bostanda işləyirmiş. Təsadüfən onun yanına bir aşıq gəlir. O, sazını köynəkdən çıxarıb çalır, oxuyur. Bostançı çox kövrəlir və aşığa deyir:

– Sağ ol, qardaş, məhsul yetişəndə gələrsən, sənə yer-yemiş verərəm.

Aşıq çıxıb gedir. Təsadüfən vədənin tamamında bostançının yanına gəlir ki, bəs mənim qarpız-yemiş payımı ver.

Bostançı təəccüblənir:

– Nə pay, ay qardaş?

– Bəs yadında deyil, o vaxt sən bostanda işləyəndə mən çalıb oxudum, sənin çox xoşuna gəldi. Dedin ki, bostan vaxtı gələrsən, sənə yer-yemiş verərəm.

Bostançı gülümsünür:

– Hə, yadıma düşdü, ay aşıq! O vaxt sən bir söz dedin, mənim xoşuma gəldi, mən də bir söz dedim, sənin xoşuna gəldi. Ta indi heç birimizin bir-birimizə borcumuz yoxdu...

## ALNIMA YAZILIBSA

Bir müəllim gecə məktəbində dərs deyirmiş. Dərsə cəmi bircə uşaq gəlibmiş. Şagird müəllimə yanaşaraq deyib:

– Ay müəllim, məndən başqa dərsə gələn yoxdu, buraxın gedim evə.

Müəllim razılaşmayıb. Onu sinfə göndərib ki, get otur, indi gəlirəm. Zəng içəri vurulanda müəllim sinfə girəndə nə görsə yaxşıdı?! Görüb ki, həmin şagird pəncərədən keçib ağaca, oradan da yavaş-yavaş yerə düşür. Müəllim nə qədər çağırırsa, uşaq qayıtmır. Kişi hirslənib deyir:

– Ay bala, sən öləsən qaçmağın xeyiri yoxdu, ha bu alnıma sənə dərs demək yazılıbsa, mütləq deyəcəm...

# QUBADLI BƏZƏMƏLƏRİ

## ÜNVAN

Atam Yusif müəllim Qubadlıda ev tikdirib ora köçəndən sonra Tarovlu kəndində məktəb direktoru işləyirdi. Hər gün rayon mərkəzindən – Qubadlıdan kəndə gedər, dərslər qurtarandan sonra evə qayıdardı...

Qonşularımız raykomun birinci katibi Məsudə Rüstəmova, milis rəisi, dayım İliç Kərimov, təmir-tikinti idarəsinin rəisi İsfəndiyar Cəbrayılov və bizdən bir az yuxarıdakı təpənin üstündə ev tikdirən maarif şöbəsinin müdiri Fərhad Namazov idi. Yandakı dərəni isə Ələsgər kişi çəpərləmişdi ki, ev tikdirsin.

Bir gün atamdan soruşublar:

– Yusif müəllim, Sizin ünvanınız necədi?

O, ciddi şəkildə cavab verib:

– Körpü döngəsi, Ələsgər dərəsi, Fərhad təpəsi, tuzlar məhləsi, Tarovlu fəhləsi...

## DADAŞIN TOYU

Dadaşın toyu imiş. Beş-altı kişi çağırıblar. Cəmi bir hünduşqa bişiribmişlər. Süfrədə bircə araq var imiş.

Yusif müəllimi həmişə olduğu kimi tamada seçirlər. Süfrədə araq olduğundan dindar adamlar yeməyə də əl vurmurlar. Tamada təkbaşına hünduşqanı yeyir və sağlıq deyə-deyə arağın hamısını içir. Toydan çox razı halda evə qayıdır və deyir:

– Toylarda bircə Dadaşın toyu...

## YARADICILIQ PLANI

Şəhərdən gələn jurnalistlərdən biri kəndləri gəzib qocalarla söhbət edir, qəzet üçün material hazırlayırmış. Çardaxlı kəndinə gələndə idarənin qabağındakı kəndlilərdən soruşur ki, bəs bu kəndin ən yaşlı kişisi kimdisə, məni onun yanına aparın.

Kənd həyatı haqqında bəsit təsəvvürlü jurnalisti Cəlal dayının yanına aparırlar. Hal-xoşdan sonra jurnalist ordan, burdan suallar verib özü üçün qeydlər aparır. Sonra Cəlal dayının yaşını soruşur. Kişinin 90 yaşı olduğunu bilən jurnalist ona sağlamlıq, uzun ömür arzulayandan sonra belə bir sual verir:

– Cəlal dayı, yaradıcılıq planların?

İxtiyar qoca bir şey başa düşmür. Yerli jurnalist onu başa salmağa çalışır:

– Cəlal dayı, qonağımız soruşur ki, indiyəcən nə iş görmüsən, sonra hansı işlər görməyi planlaşdırırsan?

Cəlal dayı gülümsünüb deyir:

– Küləşi qurtarmışam, keçmişəm erməni qarğıdalısına...

## TORPAQ MƏNİMDİR

Əslən Çardaxlıdan olan Məşədi Murad çox cəsur, qüvvətli bir kişi imiş. Onun əkin sahəsi ilə qonşu Zeyvə kəndində yaşayan bir erməninin əkin sahəsi arasında sərhəd iri bir qaya imiş. Gecə Məşədi Murad həmin qayanı itələyib Zeyvə tərəfə aparармış. Səhər on-on beş dığa daşı hıqqına-hıqqına itələyib əvvəlki yerinə qaytarармışlar.

Bu hadisə dönə-dönə təkrar olunurmuş. Axırda ermənilər rus naçalnikinə şikayət edirlər. Naçalnik deyir:

– Məşədi mömin adamdır. Yalandan "Quran"a and içməz. Sabah onu çağırtdırıb müqəddəs kitaba əl basdıraram.

Bu xəbər Məşədi Murada çatır. Tez barmağını dişləyir. Çarığını çıxarıb, içini həyətdəki torpaqla doldurur və yenidən geyinir.

Səhərisi gün adamlar həmin qayanın yanına toplaşırlar. Naçalnik Məşədi Muraddan soruşur:

– Məşədi, and iç ki, bu torpaq sənindir, mən də inanım. Birdəfəlik bu mübahisəli məsələni həll eləyək.

Məşədi əlini "Quran"a basıb and içir:

– Bu müqəddəs kitaba and olsun ki, ayağımın altındakı torpaq mənimdir.

## QIZDIRMA

İlyas inək almaq istəyirmiş. Eşidir ki, Çardaxlıda yaxşı bir inək var. Ancaq qorxur ki, dağ havasına öyrəşən heyvan nisbətən aran hesab edilən rayon mərkəzində xəstələnə. Ona görə qonşuları İslah kişigilə məsləhətə gedir:

– İslah dayı, dünyagörmüş adamsan. Heyvandarlıqdan da az-çox başın çıxır. İstəyirəm bir inək alam...

– Allah xeyir versin.

– Çox sağ ol, ay İslah dayı. Bilmək istəyirəm ki, Çardaxlıdan aldığım inək Qubadlıda qızdırmaz ki?!

İslah ciddi şəkildə deyir:

– Nə deyim, bilmirəm. Ancaq mən bizim uşaqların anası Süsən xalanı otuz ildən çoxdu o kənddən alıb gətirmişəm, hələ ki qızdırmayıb...

## CƏVİZİN DİBİ

Çardaxlıdan bir nəfər Xələc kəndindəki bir dul qadını evlərinə gətirir. İki-üç gün bir yerdə yaşadıqdan sonra onların sözü düz gəlmir. Arvad hirsli-hirsli deyir:

– Məni hardan gətirmisən, apar qoy ora!

Kişi dillənir:

– Səni dədən evindən gətirməmişəm ha, cəviz ağacının dibindən gətirmişəm. Həmin yerə qədər səni apara bilərəm, dur düş qabağıma...

## GECƏNİZ XEYİRƏ QALSIN

Bir nəfər Qubadlıda həkimin göndərişi ilə rentgen otağına girir. Rentgenoloq onu necə lazımdırsa müayinə edir, qaranlıq otaqda döş qəfəsinin şəklini çəkir.

Xəstə rentgen otağından çıxıb o biri müalicə həkiminin yanına gedəndə deyir:

– Doktor, gecəniz xeyirə qalsın!

## YAS YERİNDƏ

Cavanşir kişi çox duzlu-məzəli adam idi. Bir dəfə yas yerində Ağdamdan gələn bir qohumumuz – Nəsir əmi ağsaqqallara dedi ki, bizim rayonun adamları nədənsə qəbristana yaxşı baxmırlar. Onun dövrəsinə mütləq hasar çəkdirmək lazımdı.

Cavanşir dayı o saat söhbətə qoşuldu:

– Ay Nəsir müəllim, ölü çıxıb qaçajax, hasarı neyniyirik?

Hamını güımək tutdu. Nəsir əmi isə özünü sındırmayıb sözünə davam etdi:

– Hasar olanda mal-heyvan qəbristanlığa girə bilməz, yaşıllıq olar.

Yenə Cavanşir kişi özünü saxlaya bilmədi:

– Ay irəhmətdiyin oğlu, yaşıllığı neynirik, ölü otduyajax?

## GÖZÜNƏ GİRSİN

Rayonda milis rəisi işləyən dayım xalası oğlunu, Cavanşir kişinin qaynı Tofiqi özünə sürücü götürmüşdü. Bakıda həkim işləyən Mais dayım Cavanşir kişi ilə söhbət etməkdən, onunla zarafatlaşmaqdan xüsusi zövq alardı. Bir dəfə o, mənim yanımda Cavanşir kişiyə dedi:

– Cavanşir, gözün aydın. Tofiq milis idarəsində işə düzəlib...

Cavanşir dedi:

– Ondan mənə nə, ay doxdur?

– Necə mənə nə? İndi altında maşın var. Ora-bura gedəndə səni də maşına götürüb istədiyin yerə aparar.

Cavnşir kişi dedi:

– Yolda görəndə məni tapdalamasın, maşına götürməyi gözünə girsin.

## SAL TÖVLƏYƏ

Əli müəllimgildə toy imiş. Hörmətli qonaqlar üst mərtəbədə yeyib-içirmişlər. Kənd adamları üçün isə ayrı yer düzəldilibmiş.

Birdən həyətdə hay-küy qopur. Əli müəllim elə bilir ki, hörmətli qonaqlar gəlib. Qapının yanovundan başını çıxarıb soruşur:

– Ay uşaq, kimdi gələn?

Əli müəllimin həyat yoldaşı deyir:

– A kişi, narahat olma, Murtuzdu.

Ev sahibi ciddi şəkildə əmr edir:

– Sal tövləyə...

## EVDƏ KƏSƏRSƏN

Mədət kişinin davamlı olaraq oğurluqla məşğul olduğunu bilən milis rəisi onu maşınına mindirib yol gedə-gedə çox danlayır. Deyir ki, belə işlər nə yaşına, nə də müqəddəs peşənə yaraşar...

Söhbət eləyə-eləyə sürünün içindən keçirlər. Kəndin bərabərinə çatanda rəis maşını saxlatdırır ki, Mədət kişi düşüb getsin. Geriyə baxanda görür ki, maşının içində bir toğlu var. Rəis təəccüblə soruşur:

– Ay kişi, bu nədi belə?

Mədət kişi gülə-gülə deyir:

– Yoldaş nəçənnik, sürünün içindən keçəndə əlim dinc durmadı, qaldırıb qoydum maşının içinə. Aparıb evdə kəsərsən, arvad-uşaq yeyər...

## TƏLƏSİRSƏN, DÜŞ

Bir dəfə cavan bir oğlan yolun kənarında dayanıb maşın gözləyirmiş. Poçtda sürücü işləyən Əli kişi onun yanından keçəndə oğlan əl qaldırır. Əli dayı maşını saxlayıb, onu götürür. Adəti üzrə yenə də maşını asta sürətlə sürür. Tələsən cavan lap hövsələdən çıxır. Kobud şəkildə deyir:

– Ay kişi, maşını bir az bərk sür da!

Oğlanın komtaylığı, danışıq tərzi Əli kişinin xoşuna gəlməsə də, özünü o yerə qoymur. Sakitcə soruşur:

– Bala, tələsirsən?

– Tələsirəm.

Əli kişi maşını saxlayıb deyir:

– Ay bala, tələsirsənsə, düş piyada get. Mən bundan artıq sürətlə maşın sürə bilmərəm.

## BOZ AT

Toyların birində bir nəfər içkili sərsəri kinayə ilə deyib ki, Zəngəzur zonasından iki kişi çıxıb: biri Qaçaq Nəbi, biri də Boz at.

Zaldakıların əksəriyyəti hırıldayıb. Təhqirə dözə bilməyən bir adam mikrafona yaxınlaşaraq deyib:

– Ay qardaşlar, bacılar, məndən əvvəl danışan dedi ki, bəs filan zonadan iki kişi çıxıb: Qaçaq Nəbi və Boz at. Həm bu sözün müəllifindən, həm də onu gülüşüylə təsdiqləyənlərdən soruşuram: "Qaçaq Nəbinin kişiliyini hamı bilir, bəs bu Boz atın kişiliyini harda görmüsünüz?"

## GÖZÜM AYDIN

Əslən Qubadlıdan olan bir tələbə riyaziyyatdan imtahan verirmiş. Çəkdiyi biletin suallarından heç birinə cavab verə bilməyən oğlan görür ki, müəllim ona "qeyri kafi" yazmaq istəyir. Tez ona – Qara Bəhrama deyir:

– Bəhram müəllim, mən Qubadlıdanam e...

Bəhram müəllim bərk hirslənir. Yüksək, hamının eşidə biləcəyi bir səslə deyir:

– Belə gözlərimin ikisi də aydın ki, sən Qubadlıdansan. Mən sənə dörddən artıq qiymət yaza bilmərəm.

## QAZLI SU

İmtahan vaxtı bibim oğlu Zakirə qarşı ədalətsizlik eləyən bir müəllim deyib:

– Hirslənmisən, gəl su iç.

Zakir özünəməxsus yumorla cavab verib:

– O su qazlıdı, müəllim, özünüz için, mən gedib adi su içərəm.

## QUBADLI UŞAQLARININ İŞİ

Qubadlıda, düz dağın üstündə bir radio quraşdırılmışdı. O danışdıqca səsi bütün rayonu başına götürürdü.

Bir gün Zaman kişi qoltuğunda bir topa qəzet küçə ilə gedirmiş. Radioda Flora Kərimovanın mahnısını verirmişlər. Birdən mahnınının bu sözləri səslənir:

– Dayan, zaman, dayan!

Zaman kişini elə bil tok vurur. Qəzetlər qoltuğundan yerə düşür. Acıqlı-acıqlı öz-özünə deyir:

– Köpək uşağı, bunların hamısı Qubadlı uşaqlarının işidi...

## BURDA BELƏ OLANDA

Hərbi toplar təzə gələn vaxt ondan necə istifadə etməyin qaydalarını bilmirmişlər. Topun üzünü Gorusa sarı döndərirlər. Ancaq yaddan çıxdığından, lülənin qapaqlarını açmağı unudurlar. Elə buna görə də atəş açılanda topun arxa tərəfindəki adamlar pis günə düşürlər. Atəşin dalğası onları yerə sərir.

Bir nəfər handan-hana özünə gəlib gicəllənə-gicəllənə yerindən qalxır. Yoldaşlarını topun arxa tərəfində yerə uzanılı vəziyyətdə görəndə həyəcanla belə deyir:

– Vay dədəm vay, burda belədisə, indi yəqin Gorusda bir nəfər də salamat adam qalmayıb...

## ALAZAN, SƏNƏ ŞÜKÜR

Ermənilər Qubadlıya əvvəlcə “Alazan” raketləri atırmışlar. Bu, o qədər də dağıntıya səbəb olmurmuş. Camaat əməlli-başlı öyrəşibmiş bu raketlərə. Hətta snayperlər onu

havada vura da bilirmişlər. “Qrad” düşəndə isə hər şey dəyişir, dağıntılar, itkilər əvvəlkindən qat-qat çox olur. Mərmi partlayanda arvadlardan biri dizlərinə döyə-döyə deyir:

– “Alazan”, sənə şükür, “Qrad”, oy, oy, oy...

## YENƏ BAŞLADILAR

O qədər atışma olurmuş ki, adamların qulağı əməlli-başlı dolubmuş. Əliquluuşağı kəndində arvadlar həyətdə sac asıb yuxa bişirirmişlər. Birdən atışma başlayır. Arvadlar heç yerlərindən də tərpənmirlər. Yuxa yayan arvadlardan biri işinə davam edə-edə deyir:

– Qərəgeymişlər yenə başladılar...

## 56 SƏS

Qardaşım danışır ki, Azərbaycanda ilk prezident seçkisi idi. Tapşırmışdılar ki, rəqəmləri elə göstərin ki, bir az inandırıcı olsun. Raykomun nümayəndələrindən biri kimi məntəqəyə getmişdim. Məntəqə sədri ilə çölə çıxdıq ki, seçki məntəqəsinin katibi rahatca öz işini görsün.

Bir azdan katib çölə çıxıb nəticələri elan elədi. Seçicilərin səksən yeddi faizinin prezidentin – Ayaz Mütəllibovun lehinə səs verdiyini söylədi.

Məntəqə sədri katibi kənara çəkib ona nəsə dedi. Bir xeyli söhbətdən sonra onların davası düşdü. Yaxınlaşıb səbəbini soruşanda sədr hirsli-hirsli dedi:

– Bu zalım oğlu nə iş görürmüş ki, prezidentin əleyhinə 56 nəfər səs verib?

Gülümsünüb dedim:

– Narahat olma, onsuz da ümumi nəticəyə təsir eləmir. Bəs demokratiya necə olmalıdır?

Sədr əsəbi-əsəbi dedi:

– Ay qardaş, sən nə danışırsan? Məni yandıran odu ki, elə səsverməyə cəmi 56 adam gəlmişdi, onlar da belə...

## NİYƏ GƏLMİSƏN

İmran müəllim parka gedəndə görür ki, şəhərdən gələn qonaqlar çayxanada oturub çay içirlər. Onlara deyir:

– Ə, durun ayağa. Çay nədi içirsiniz?

Sonra o, oğlu Akifin şəhərdəki qonşusu, sürücü Cəfəri və onun köməkçisini evlərinə aparır. Hünduşqa kəsdirib, kabab bişirtdirir. Gözəl bir süfrə hazırlatdırır. Qədəhlərə araq süzəndə qonaqların biri qarşısına qoyulan rumkanı kənara çəkir və deyir:

– Dayı, mən araq içən deyiləm.

İmran müəllim onu tərs-tərs süzüb deyir:

– A bala, araq içmirsənsə, bəs mənim evimə niyə gəlmisən?

## QIZIL

Bir gün İmran müəllimin kefi aşağı imiş. Qonşuları Orucalı ilə Aydını çağrıb deyir:

– Ə, bala, ya oğlum Akif, ya siz. Vəziyyətim xarabdı, birdən qəflətən ölüb eləyərəm, qızılların yerini deyə bilmərəm. Gedin o bostanın ayağındakı yeri iki metr dərinliyində qazın, orda qızıl basdırmışam. Özünüzə də götürərsiniz, Akifin də payını göndərərsiniz.

Qonşular cani-dildən işləyirlər. Yeri iki metr dərinlikdə qazırlarsa da, bir şey çıxmır. Başıalovlu İmran müəllimin yanına gedirlər:

– Baba, dediyin yeri iki metr dərinliyində qazdıq, ancaq bir şey çıxmadı axı?!

İmran müəllim siqaretə bir qullab vurub deyır:

– İndi bu köhnə tualetin qutusunu aparın qoyun o təzə qazdığınız quyunun üstünə, sonra gəlin yeməyimizi yeyib, arağımızı içib, qızıl kimi söhbətimizi eləyək.

## DÖŞƏKÇƏ

Bir kişi arıq, arvadı isə kök imiş. Onlar birlikdə qonşuya qonaq gedirlər. Ev sahibləri onları mehribanlıqla qarşılayırlar. Qadın uşağa deyir ki, tez get içəridən iki döşəkçə gətir, əmi ilə xala altlarına qoyub otursunlar.

Arıq kişi arvadını uşağa göstərib deyir:

– Ay bala, bir döşəkçə mənə gətirsən, bəsdi, arvadımın öz döşəkçəsi var...

## BƏLİ, YORĞAYAM

Bir nəfər danışırdı ki, yaxşı yeyib-içmişdik. Küçədə durub söhbət eləyirdik. Birdən yanımızdan gözəl bir qadın keçdi. Hamımız hayıl-mayıl qalmışdıq. Bir nəfər dilini dinc saxlaya bilməyib, yavaşca dedi:

– Nə yorğa gedir, ə?

Qadın sözü eşitdi. Dönüb səkiyə çıxdı. Əlini belinə qoyub, qalib bir əda ilə dedi:

– Bəli, yorğayam. Özü də əvvəl yorğa deyildim. Məni belə yeriməyə ərim öyrədib. Könlünə yorğa qadın düşübsə, arvadını göndər ərimin yanına, bizim kişi onu da yorğa eləsin...

## BAŞ HƏKİMİ

Baş həkim vəzifəsində çalışan dostum Akifin bacısı qızı Ülviyyənin qolu bərk ağrıyırmış. Onu dayısının yanına gətirirlər. İstəyirlər ki, məsləhət alsınlar. Anası deyir:

– Ülviyyə, aç dayın qoluna baxsın.

Ülviyyə acıqlı-acıqlı deyir:

– Ay ana, dayım baş həkimidi e, məni qol həkiminə aparın.

## BƏRBƏRXANADA

Feyziyev Tahir Bakıda üzünü qırxdırırmış. Bərbər çox pul qoparmaq məqsədiylə müştərinin o yanına, bu yanına keçib soruşur:

– Qədeş, icazə verersən, üzünü protiv qırxardım. Nə deyirsən?

Tahir ciddi şəkildə deyir:

– Bax gör QAİ yoxdusa, bas get...

## BU MİLLƏTİN HAMISI

Avtobusda yaxşı geyimli, sir-sifətdən mədəni bir qadın təsiri bağışlayan adam özündə-sözündə deyilmiş, üst-başına da nəzarət etməyi unudubmuş. Hərə bir söz deyib, hərə bir cür onu qınayıb.

Birdən dostum Tahir Feyziyev özünü saxlaya bilməyib:

– Ay qardaşlar, ay bacılar, qınamayın bu yazığı. Əmimin canı haqqı, badımcan, teksun qurtarandan sonra bu millətin hamısı bu vəziyyətə düşəcək...

## SAXLAYIRDI, ELƏ

Tahir Feyziyev danışırdı ki, Qubadlıda bir uşaq ağaca tut yeməyə çıxıbmış. Birdən necə olursa, ayağının altındakı budaq qırılır, uşaq yerə yıxılır və qıçı sınır. Səsə qonum-qonşu tökülüb gəlir. Hərə bir cür toxtaqlıq verməyə çalışır. Bir arvad isə deyir:

– Bala, şükür elə, səni Allah saxlayıb.

Uşaq ağlaya-ağlaya deyir:

– Saxlayırdı, elə ağacın başında saxlayaydı da, hazır gül kimi tutumu yeyirdim...

## HƏKİM NƏ DEYİR

Uşaqlıq dostum Maarif xəstələnibmiş. Qızdırma içində yanırmış. Kasıbçılıq vaxtı imiş. Onu yoluxmağa gələnlərin demək olar ki, hamısı əliboş gəlirmiş. Ancaq adamlar sözləşibmişlər kimi hamısı eyni sualı verirmiş:

– Maarif, həkim deyir ki, nə ye?

Bir dəfə belə, iki dəfə belə, axırda aclıqdan əziyyət çəkən Maarif deyir:

– Həkim deyir ki, cücə "bubbu"su ye, Tamaşanın küçüyünün başın ye...

## MÜDİRLİK İDDİASI

Balay tikinti idarəsinin rəisi imiş. Rayona təzə katib gələndə onu işdən çıxarıb yerinə başqa bir adam qoyur. Ancaq Balaya söz verir ki, idarə müdiri yeri boşalan kimi onu işə təyin edəcək.

Bir gün Balay eşidir ki, səhiyyə şöbəsinin müdirini işdən çıxarıblar. Tez katibin yanına gedir. Xahiş eləyir ki, onu boşalan yerə müdir qoysunlar.

Katib təəccüblənir:

– Ay Balay, sən nə danışırsan! Sən həkim deyilsənsə necə səhiyyə şöbəsinin müdiri ola bilərsən?

Balay gülür:

– Yoldaş katib, tikinti idarəsinə təzə təyin elədiyin müdir də inşaatçı yox, müəllimdir. Bəs onu niyə müdir qoydun?!

## DEYƏSƏN AĞILLANMISAN

Qohumumuz Salman dayının qızı uşaq vaxtı çox dəcəl imiş. Bir dəfə Kazım dayımgildə o qədər ora-bura tullanır ki, dayım üz-gözünü qırışdıraraq deyir:

– Bax, mən dəliyəm, sakit oturmasan, səni öldürəcəm...

Uşaq qorxur və sakitləşır. Aradan bir-iki gün kecəndən sonra o, yenə dayımgilə gəlir və nadinclik eləyir. Evdə qonaq var imiş deyə dayım bir söz demir. Uçaq təəccüblə ona yaxınlaşıb deyir:

– Kazım dayı, deyəsən ağıllanmısan...

## ANA SÜDÜ, DAĞ ÇİÇƏYİ

Evdə puldan söhbət düşüb. Kimsə deyib ki, atalar düz deyib ki, pul əl çirkidi...

Təzəcə çayxana işlətməyə başlayan dayım oğlu Mahir deyib:

– Mən ölüm əskik-əskik danışmayın. Pul ana südü, dağ çiçəyidi...

## SABAHINIZ XEYİR

Baqi gecə bir qohumugilə getməli olur. İçəri girən kimi süfrəyə baxıb deyir:

– Sabahınız xeyir!

Qohumlar bu sözdən bir şey anlaya bilmirlər. Elə bilirlər ki, Baqi içkili olduğu üçün gecə ilə gündüzü qarışıq salıb. Məzəmmətlə deyirlər:

– Ay Baqi, gecənin yarısında bizə niyə "sabahınız xeyir" – deyirsən? Bizimlə məzələnirsən, nədi?

Baqi deyir:

– Ay kişi, nə məzələnmək? Gördüm hamınız şirin çay içirsiniz, ona görə belə dedim. Şirin çayı səhər-səhər içirlər axı?!

## TOYBAŞI

Baqi toybaşılıq eləyirmiş. Hərə bir sifariş verib, öz havasını çaldırır, mağardan çıxmaq bilmirmiş. Toybaşını lap bezdiribmişlər. Sifarişçilər elə hey onun baş-beyinini aparırmışlar. Yazıq kişi hirslənərək deyib:

– Ay bala, elə gərək çadırın içində oynayasınız, çalırlar da, çıxın çöldə nə qədər istəyirsiniz oynayın da!

## TABUTDAN ÇIXAN ƏL

Baqi piyada kənddən rayon mərkəzinə gedirmiş. Bir yük maşını gəlib onun yanında saxlayır. Baqi kuzaya qalxanda sürücü xəbərdarlıq edir:

– Baqi dayı, qorxma, rayonda adam ölüb, tabut düzəltdirib aparırıq.

Baqi maşina minir. Bir az yol gedəndən sonra yağış başlayır. Baqi islanmasın deyə tabutun qapağını açıb içəri uzanır və qapağı üstünə çəkir.

Sürücü yenə də yolda maşını saxlayıb rayona gedən bir neçə adamı götürür. Xeyli yol gedəndən sonra birdən Baqi tabutun qapağını aralayıb əlini çölə çıxarır ki, görsün yağış kəsib, yoxsa yox. Bunu görən adamlar qorxudan qışqırır və özlərini maşından yerə atırlar…

## BALA, SƏN DƏ YAPIŞ

Bir nəfərin anası rəhmətə gedir. Şəhərdən başıalovlu kəndə yola düşür. Həyətlərinə çatanda özünü cənazənin üstünə yıxıb, hönkür-hönkür ağlayır. Dostu onun qolundan tutub kənara çəkir.

– Ay qardaş, ağsaqqal kişisən, toxtaq ol, uşaqların ürəyini üzmə. Sən belə eləyəndə bəs o birilərə nə deyək?

Onlar gəzə-gəzə qonşu həyətə gedirlər. Kənddə yaşayan kişi şəhərdən gələn dostuna deyir:

– Ay qardaş, anan ölüb, Allah rəhmət eləsin. Bu, həyatın qanunudu. Xətrinə dəyməsin, bizim camaat bir az davşalaqdı. Nə eləyirsən, söz eləyirlər, qulp qoyurlar. Heyf deyil ruslar, onlar bizdən qat-qat ağıllı və təmkinlidilər. Doğmaları, yaxın adamları öləndə içib onu yad eləyirlər. Həm sakitləşirlər, həm də ağlayırlar. Ancaq bizimkilər lağloğazdan başqa bir şey bilmirlər...

– Düz deyirsən, qardaş, lap ürəyimdən xəbər verirsən.

– Ay filankəs, sən dünyagörmüş bir adamsan. Ona görə bilirəm ki, təklifimdən inciməzsən. Kim nə biləcək, gəl gedək ağacın dibində gizlədiyim tut arağından adama bir əlli qram vuraq...

Şəhərdən gələn acıqlanır:

– Ə, nə danışırsan, bizi biabır eləmə. Eşidən, bilən nə deyər?!

– Qardaş canı, heç kəs bilməyəcək...

Bu münvalla köhnə qədəh dostları nəfslərini saxlaya bilmir, ac qarına bir araq içirlər. Sonra onlar otdan-pencərdən ağızlarına alıb çeynəyir, arağın qoxusunu itirmək istəyirlər. Camaatın yanına qayıtmaq istəyəndə özünü rahat hiss eləyən anası ölən kişi deyir:

– Ay qardaş, tələsmə. Yuxarı qalxsaq, bir də bura enə bilməyəcəyik. Gəl elə o biri arağı da içək, sonra gedərik...

Dostlar elə belə də edirlər. Elə təzəcə sağlıq deyə-deyə axırıncı badəni də içib qurtarıbmışlar ki, həyətdə şivən səsi yüksəlir. Məlum olur ki, meyiti yerdən qaldırıb, dəfn eləməyə aparırlar.

Dostlar tələsik, bir-birlərindən tuta-tuta cənazəyə yaxınlaşırlar. Biri bir tərəfdən, o birisi isə o biri tərəfdən yapışır. Tabutu qaldırırlar.

Ağsaqqallar dostların ləngərli yerişindən məsələnin nə yerdə olduğunu anlayırlar. Tez cavanları göndərirlər ki, onları əvəz etsinlər. Anası ölən hönkürə-hönkürə kənara çıxır. Oğlanlardan digəri kənddə yaşayan dosta yaxınlaşıb yavaşcadan deyir:

– Ay dayı, sən kənara çıx, yerinə mən girim.

Ayaq üstə güclə duran kişi cavab verir:

– A bala, sən də yapış, ancaq mənimlə işin olmasın! Mən cənazədən əlimi çəksəm, gedə bilməyəcəm, yıxılacam...

## BİR LAPET ADAM

Baqidən soruşurlar ki, sən bilən bu qaçqınlar bir də geri, öz evlərinə qayıda biləcəklərmi?

Baqi deyir:

– Qayıtmağına qayıdacaqlar, ancaq hamısı yox, bir lapet adam qayıda, ya qayıtmaya...

## SEYTASA DUYUĞA GETMƏKDƏNDİSƏ

Kənddə rəhmətə gedən olur. Hərəyə bir iş tapşırırlar. Baqiyə isə deyirlər ki, sən isə Seytasa gedib, ordakı qohum-qardaşa duyuq eləyərsən – xəbər verərsən.

Baqi çox fikirləşir, başa düşür ki, qış günündə Qubadlıdan taksi tutub Seytasa getmək çox çətin məsələdi. Ona görə də bu tapşırığın icrasından imtina edib deyir:

– Yox, qardaşlar, mənə ayrı iş verin! Qışın bu oğlan çağında Seytasa duyuğa getməkdəndisə, bu rəhmətliyin yerində qəbirdə yatmaq ondan yaxşıdı...

## AT ÖLDÜ

Baqinin qonşusunun atı xəstələnir. Hamı hiss eləyir ki, bu atdan ta at olmaycaq.

Elə bu vaxt Baqi deyir:

– A kişi, ümidini üzmə. Onun ağzına bir az araq töksən, düzələcək.

"Suda boğulan saman çöpündən yapışar", – deyirlər. Qonşu çar-naçar bir araq alır. Zorla bir-iki qurtum atın ağzına tökür. At elə bil bir az dirçəlir.

Aradan bir az keçir. Baqi qonşuya uşaq göndərir ki, get o yarımçıq arağı al gətir.

Araq gələn kimi Baqi onu içir və yatır.

Bir az keçəndən sonra qonşunun atı ölür. Bunu görən ev sahibinin oğlu narahatçılıqla Baqinin həyat yoldaşını səsləyir:

– Ay xala, ay xala, at öldü, Baqi əmim nə təhərdi?

## ÖLMƏYİN MƏSLƏHƏTDİ

Baqi özünü yoxlatdırmaq üçün həkimin yanına gedibmiş. Müayinədən sonra ona deyiblər ki, mütləq əməliyyat olunmalısan, özü də nə qədər tez olsa, bir o qədər yaxşıdır.

Baqi razılaşır. Ancaq həkimə deyir ki, bir evə gedim, arvad-uşaqla məsləhətləşim, sonra gələrəm.

Baqi əməliyyat üçün nə qədər xərci çıxacağı ilə maraqlanır. Ona əməlli-başlı qiymət oxuyurlar. Çarəsiz kişi evə gedir və bir də xəstəxanaya qayıtmır.

Bir gün o, təsadüfən küçədə həkimi ilə rastlaşır. Həkim deyir:

– Hə, Baqi kişi, arvad-uşaqla məsləhətləşdinmi? Onlar nə qərara gəldilər?

– Bəli, həkim, məsləhətləşdim. Dedilər ki, əməliyyata o qədər pul xərcləməkdənsə, elə ölməyin məsləhətdi...

## O TƏRƏFƏ GEDƏNDƏ, BU TƏRƏFƏ GEDƏNDƏ

Baqinin qaçqınlıq dövrü imiş. Yeyib-içəndən sonra Sumqayıtda yaşadığı evin həyətində oturar, xəyallara dalarmış.

Həyətdə bir lal uşaq var imiş. Baqi mürgüləyəndə uşaqlar gəlib onun burnuna çubuq uzadır, məzələnirmişlər. Həmin lal uşaq da uşaqların elədiyini təkrarlayır. Elə bu vaxt Baqi yuxudan ayılıb, həmin uşağa bir şapalaq vurur. Uşaq ağlaya-ağlaya qaçır və dili açılır. Oğlanın valideynləri sevindiklərindən bilmirlər nə eləsinlər. Baqiyə şirinlik verir, ona öz təşəkkürlərini bildirirlər.

Bir gün Baqi yenə yeyib-içəndən sonra həyətdə özünü günə verir, mürgüləyirmiş. Bir də görür ki, kimsə onu səsləyir:

– Baqi dayı, Baqi dayı.

Baqi gözlərini açıb görür ki, onu yuxudan eləyən bir hamilə gəlindi. O, bir söz deməyə macal tapmamış gəlin deyir:

– Baqi qardaş, deyirlər ki, Sizin nəfəsiniz çox ağır, əliniz isə yüngüldü. Mənim dörd uşağım var, hamısı da qızdı. İstəyirəm ki, bu dəfə oğlum olsun. Mənə bir xeyir-dua verin.

Baqi qadını diqqətlə süzüb deyir:

– Ay bacı, bir o tərəfə get görüm!

Qadın əmri yerinə yetirir.

Baqi deyir:

– Bəsdi, indi də qayıt mənə sarı gəl.

Qadın gələ-gələ Baqinin üzünə baxır və baxışları ilə ondan imdad diləyir.

– Ay bacı, deyəsən bu dəfə oğlun olacaq. O tərəfə gedəndə oğlan görsənir, bu tərəfə gələndə qız. İnşallah arzularına çatarsan.

Aradan bir-iki həftə keçir. Həmin qadının əkiz uçaqları olur: biri oğlan, biri qız...

## BA...

Alkoqolizmə qarşı mübarizə haqqında qərarın təzə çıxan vaxtları imiş. Sahə müvəkkili qəbirqazan Rəhmanı yenə kefli görüb acıqlanır, onu yanına çağırıb deyir:

– Ə, Rəhman, yekə kişisən, indi sənin yeyib-içən vaxtındı?!

Söz Rəhmanın xətrinə dəyir:

– Ma nə olub, ə?

– O olub ki, həm ağsaqqal kişisən, həm də özün bilirsən ki, təzə rəhbər içməyə icazə vermir...

Rəhman elə bilir ki, mislis idarəsinə təzə rəis qoyublar. Ona görə də soruşur:

– İndi sizin böyüyünüz kimdi?

– Bəs bilmirsən, Qorbaçovdu.

İlk dəfə bu adı eşidən Rəhman təəccüblənir:

– O kimdi elə, kimlərdəndi?

– Kim olacaq, SSRİ-nin böyüyü...

Rəhman daha də təəccüblənir:

– Ba, bəlim (məgər) Brejnyevi çıxarıblar?!

## SÜPÜRGƏ

Bir nəfər pampal cavanı evləndirmək istəyirmişlər. Qohumlar münasib bir qız gözaltı eləyirlər. Elə şərait yaradırlar ki, qızla oğlan bir həyətdə tək qalıb danışa bilsinlər. Qız nə qədər gözləyirsə, oğlan nə yerindən tərpənir, nə də dillənib bir söz deyir. Çarəsiz qalan qız uzun, üzücü sükutdan bezib, ayağa qalxır və həyəti süpürməyə başlayır. Birdən oğlan özünü cəmləşdirib deyir:

– Süpürgəni yeyim, az...

Qız onu tərs-tərs süzüb cavab verir:

– Əlimdəki köhnədi, örüşdə təzəsi var...

## DOLMA

Qivamigil meşədə möhkəm yeyib-içirlər. Bir də başları ayılır ki, qaranlıq düşüb. Yaxınlıqdakı uçuq evlərdən birinin içinə girib, orada gecələməyi qərara alırlar. Qapının ağzına kol-kosdan, tir-tikandan, şax-şəvəldən yığıb bağlayırlar ki, canavar, çaqqal onlar yatanda içəri girə bilməsin.

Bu münvalla onlar yatırlar. Səhər yuxudan duranda görürlər ki, qapı əvvəlki kimi şax-şəvəllə örtülüdü. Ancaq

divara baxanda onları gülmək tutur. Sən demə arxa divar tamamilə uçub dağılıbmış.

Onlar özləri özlərinə gülürlər. Elə bu zaman kiminsə gözü Fəxrəddinə sataşır. Görürlər ki, onun ovurdu əməlli-başlı şişib. Hamı qorxur. Elə bilirlər ki, yazığı gecə ilan çalıb. Onu götürüb cəld xəstəxanaya aparırlar. Həkim onu diqqətlə müayinə edir. Fəxrəddin ağzını açanda ovurdundan yekə bir dolma çıxır.

Sən demə o, dolmanı ağzına qoyan kimi yuxuya gedibmiş.

## PALÇIQ MƏSƏLƏSİ

Əvəz kişi ev tikdirir, divar hörürmüş. Günorta yeməyinəcən işləyir. Elə bu vaxt Nəsiblə Təvəkkül gəlib çıxırlar. Salam verib deyirlər:

– Əvəz dayı, gəlmişik sənə kömək eləməyə.

Kişi razılıq eləyir:

– Çox sağ olun, ay bala. Allah razı olsun. Ancaq günorta yeməyinin vaxtıdı. Gəlin birlikdə yemək yeyək, sonra işləyərik.

Onlar evə keçirlər. Əvəz kişi bir tut arağını ortaya qoyub gedir ki, şoraba, yemək gətirsin. Qayıdanda görür ki, Nəsibgil arağı içiblər. Kişi çarəsiz qalıb bir araq da gətirir. Onu da içəndən sonra dostlar əməlli-başlı piyan olurlar. Aşa-aşa, bir-birindən tuta-tuta həyətə çıxırlar.

Nəsib dili topuq vura-vura deyir:

– Əbəz dayı, indi palçığı harda qatejex, burda, yoxsa çayın qırağında?

Əvəz kişi onları tərs-tərs süzüb deyir:

– Gedin, bala, gedin, çayın qırağında...

# MƏKTUB

Səməd dayı Azərbaycan, Sövdümalı kişi isə erməni meşəsinin meşəbəyisi imiş. Müştəri gələndə o bunun, bu isə onun ərazisindəki ağacları qırdırıb satdırırmış. Ona görə də bir-birlərini görməyə gözləri yox imiş.

Bir gün Sövdümalı Səmədin erməni dostlarını görüb onlara deyir ki, bəs Səməd kişini maşın vurub, qılçalarının ikisi də sınıb. İndi yazıq kişi evdə yatır.

Bir dəstə erməni Səmədi yoluxmağa gedəndə görürlər ki, kişi siqret çəkə-çəkə həyətdə gəzişir.

Xoş-beşdən sonra qonaqlar Sövdümalının dediklərini ona çatdırırlar.

Səməd cin atına minir, Sövdümalını söyür. Deyinə-deyinə onu yoluxmağa gələnlərə yemək-içmək verir, əməlli-başlı xərcə düşür.

Səhərisi gün Səməd kişi at belində iş yerinə gedəndə dərənin o tayında Sövdümalını görür. Onu çağırıb deyir:

– Sövdümalı, Sövdumalı, ə, bəri gəl, sənə sözüm var...

Sövdümalı arif adam imiş. O saat başa düşür ki, vəziyyət nə yerdədi. Ona görə özünü bilməməzliyə vurub deyir:

– Səməd dayı, nə sözün var, elə ordan de, eşidirəm.

Səməd şirin dilini işə salıb deyir:

– Ə, sözüm yoxdu, sənə məktub var e, gəl bəri, verim apar.

Sövdümalı gülə-gülə deyir:

– Səməd dayı, məktubu aç, bərkdən oxu, eşidirəm...

## RAZI DEYİLSƏN

Çərəli kəndindən bir kişini müharibə vaxtı əsgərliyə çağırırlar. Kişinin könülsüzlüyünü görən hərbi komissar ondan acıqlı-acıqlı soruşur:

– Necə, necə, sən vətəni qorumaq üçün əsgərliyə getməyə razı deyilsən?

Kişi dili dolaşa-dolaşa deyir:

– Mən razıyam e, arvadım razı deyil...

## GÜLƏŞ

Çərəli kəndində iki kişini bir-biri ilə güləşdirirlər. Hər dəfə eyni adam yıxılır və yerə dəyən kimi qəribə səs çıxarır...

Adamlar gülə-gülə ondan soruşurlar:

– Sən nə üçün hər dəfə yıxılandan sonra qalib kimi nərə çəkirsən?

Kişi üstünü çırpa-çırpa yerdən qalxıb deyir:

– Pəhlivan olmuyajıyıx ha?!

## HÖCƏT

Dostum Kərim danışır ki, bir dostumuz bizə qonaqlıq verməli idi. Kişi kimi söz verdiyi vaxtda da gəlib bizim hamımızı restorana apardı. Yaxşı yeyib-içdik. Dostumuz qalxıb hesabı vermək istəyəndə qoymadıq, o biri pullu, ancaq xəsis dostumuzla məzələnmək istədik:

– Sən öl olmaz, bu qardaşımız yaman höcətdi, dedi, qurtardı. Hesabı o verəcək.

Boynuna yük düşən xəsis qardaşımız qabağa keçdi. Nə qədər hesab verdiyini bilmirik, ancaq yanımıza qayıdanda gördük ki, qanı lap qaradı. Narahatçılıqla soruşduq:

– Ay qardaş, sənə nə oldu?

Dostumuz hirsli-hirsli dedi:

– Bir də mənə höcət deyənin, o məsələ...

Gözlərimiz yaşarana qədər güldük...

## QAZIIN SÖNDÜRÜLMƏSİ

Dostum Kərim şəhərə təzə gəlibmiş. Qohumlarıgildə qalırmış. Ona tapşırırlar ki, evdən çıxanda qazı söndürmək yadından çıxmasın.

Bir neçə saatdan sonra geri qayıdanda görürlər ki, ev-dən qaz iyi gəlir. Tez pəncərələri, qapıları açırlar. Qohumu hirsli-hirsli Kərimə deyir:

– Ə, bəs sənə tapşırmamışdım ki, qazı söndür?

Kərim deyir:

– Vallah üfürüb söndümüşdüm...

## BU VAXTA ANA-BACI QALAR

Yağışlı havada yoldan keçən bir maşın palçıqlı suyu piyadanın üstünə çırtladır. Sürücü güzgüdən görür ki, kişi təpədən dırnağa su içindədi. Çox pis olur. Maşını geri verib üzrxahlıq eləyir.

– Ay qardaş, bağışla, qəsdən eləmədim. Sən Allah ana-bacı söyüşü eləmə!

Üst-başı palçıq içində olan adam hirsli-hirsli deyir:

– Ay bala, təəssüf ki, xahişini yerinə yetirə bilməyəcəm. Ay rəhmətliyin oğlu, indiyə ana-bacı qalar?!

## GÜLLƏ

Rayonda posta gedib növbə ilə keşik çəkirmişlər. Bir nəfərin növbəsi çatanda getmək istəmir, deyir ki, onsuz da mənim getməyim havayı işdi, güllə atmağı da bacarmıram.

Bir nəfər özünü saxlaya bilməyib acıqlanır:

– Tüfəng ata bilmirsən, bilmirsən, heç olmasa bir güllə də soyuda bilməzsən?

## İKİ PƏZƏVƏNG ÜZ-ÜZƏ

Bu əhvalatı mənə möhkəm yeyib-içən bir dostum danışıb. O deyir ki, toyda özümdən betər çox yeyən bir adamla üz-üzə düşdüm. İkimiz də qaranəfəs yeməyə başladıq. Qarşımdakı gördü ki, ondan geri qalan deyiləm. Aramızda zarafatımız da var idi. Birdən o, mənə dedi:

– Qardaş, belə getsə, yarım saata süfrənin üstündə heç nə qalmayacaq. Gəl bir şərt kəsək.

Təəccüblə soruşdum:

– Nə şərt?

Dostum ciddi şəkildə dedi:

– Əti çeynəməmiş udan köpəkoğludu...

## QAZANCIN NƏDİ?

Bizim rayonda bir nəfər xam at öyrətmək, əhliləşdirmək ustası imiş. Bir dəfə ondan soruşublar:

– Qardaş, çətin, xatalı işlə məşğulsan. Heç olmasa normal qazancın olurmu?

Xam atları əhliləşdirən adam and-aman eləyib deyir:

– Adın haqqı, atın təpiyindən ... başqa heç bir qazancım yoxdu...

## BEŞ MANATIN ÇATISI

Bir dostum deyir ki, qarşıda müfəttiş olduğunu bildiyim üçün əvvəlcədən təhlükəsizlik kəmərini taxdım. Bütün qaydaları gözləməklə onun yanından keçmək istəyəndə maşınımı saxlatdırdı. Təhlükəsizlik kəmərini göstərib dedi:

– Beş manatın çatısı nədi salmısan boynuna? Çıxart haqqımı ver...

## NƏ SINDIRIM

Toy imiş. Oynayanlara şabaş verirmişlər. Şaxı arvadın əlinə də bir üç manatlıq verirlər. Bu, qadına çox pis təsir edir. Çalğıçılara acıqlanıb, onları susdurur. Sonra üzünü şabaş verənə tutub deyir:

– Bu cırım, bu cındırım,
Üç manata nə sındırım?!

## SİZ ÖZÜNÜZÜ...

Qivami Qafanda yeyib-içib, mehmanxanada qalırmış. Elə bilir ki, birinci mərtəbədir. Özünü üçüncü mərtəbədən atır və ayağının biri sınır. Onun ayağını gibsə qoyurlar.

Bir neçə gündən sonra rayona qayıdan Qivami dostugilə gedir. Təsadüfən dostunun anasının da ayağı sındığı üçün gibsdə imiş. Qivami qadını diqqətlə süzüb ciddi şəkildə soruşur:

– Şabı bacı, siz də özünüzü üçüncü mərtəbədən atmısınız?

## ÇIRTMA

Bir cavan oğlan danışır ki, avtobusla Qubadlıya gedirdim. Ağdamda maşına beş-altı sərxoş cavan daxil oldu. Arxada mənim yanımda oturdular və meyxana deyib, çırtma vurmağa başladılar. Tərs-tərs mənə baxıb əmredici bir tərzdə dedilər:

– Nə gözünü döyürsən, çırtma vur, alə!

Əlacım nə idi ki? Başladım iki əlimin ikisi ilə də çırtma vurmağa. Bu münvalla həmin cavanlar bütün avtobusdakı adamlara çırtma vurdurmağa başladılar. Qəribə bir mənzərə idi. Arvad, uşaq, böyük, kiçik, hamı çırtma vururdu. Təkcə bir nəfərdən başqa. Pəncərənin yanında əyləşən şlyapalı qocaya çırtma vursaydın, qanı çıxardı. Hiss olunurdu ki, bərk əsəbiləşib...

Elə bu vaxt sərxoşlardan biri onu gördü. Arxadan durub, onun yanına getdi və dedi:

– Day-day, sən niyə çırtma vurmursan?

Kişi bir söz deməyib, üzünü döndərəndə sərxoş acıqla onun çiyninə bir dürtmə vurub dedi:

– Şırtma vur, alə!

Birdən kişi gözlənilməz halda çırtma vurmağa başladı və pəncərədən baxa-baxa dedi:

– Necə zibilə düşmüşük e...

## UTANMAQDAN KEÇİBDİ

Xocamsaxlı Şamxal dayı danışırdı ki, qız-gəlin əvvəlcə toyda utana-utana oynamağa başlayır. Əllərini yavaş-yavaş yellədə-yellədə elə bil ki, deyirlər:

– Utanıram, utanıram...

Bir az keçəndən sonra toyçulara göz eləyib, zirək, yüngül hava çaldıran qadınlar, süzə-süzə əllərini sürətlə o yana, bu yana hərəkət etdirir, elə bil ki, belə deyirlər:

– Utanmaqdan keçibdir, utanmaqdan keçibdir...

## TA SƏNİNLƏ MƏNİMKİ QURTARDI

Deyilənə görə, bu lətifəni Nazim Hikmət Göygöldə bir ziyafət vaxtı danışıbmış.

İki bacı var imiş. Biri abırlı, həyalı, müsəlmançılığın bütün qaydalarını gözləyən, o birisi isə...

Məhz həmin bacı əməli-saleh bacısına deyir ki, ay bədbəxtin qızı, bu beş günlük dünyadan kam al, onsuz da hamımız əvvəl-axır ölüb gedəcəyik.

Bir gün belə, beş gün belə, müasir bacı əməli-saleh bacısının saqqızını oğurlayır və onu bir yeyib-içmək məclisinə aparır. Ancaq nə qədər eləyirlərsə, qız spirtli içki içmək istəmir. Yenə bacı şirin dilini işə salır:

– Ay bədbəxt, mən də sənin bacınam. Əgər o pis şey olsa, heç özüm içərdimmi? Bax, görürsən, mən içəndə əhvalım yaxşılaşır. Sən də bir rumka iç, xoşuna gəlməsə, ta içməzsən.

Şeytan əməli-saleh bacını yoldan çıxarır. O da məclisdəkilərə qoşulub, bir qədəh boşaldır.

Növbəti dəfə şərab süzüləndə bacı unudulur, onun qədəhi boş qalır. Keflənmiş qız rumkasını qabağa itələyib deyir:

– Bəs mən?

Bu münvalla məclis davam edir. Kişilər, qadınlar yeyib-içəndən sonra rəqs edirlər. Çadrasını hələ də başından çıxarmayan mömin bacı da rəqs meydanına çıxır. Hər əlini yellədikcə, günahkarcasına deyir:

– Allah, günaha yazma! Allah, günaha yazma!

Bir azdan sonra içkinin təsiri ilə o, qızışır, çadranı başından çıxarıb yerə atır və deyir:

– Allah, ta səninlə mənimki qurtardı! Allah, ta səninlə mənimki qurtardı!...

## AT KUZAYA

Qubadlıda maşına yol pulu vermək dəb deyildi. Kəndə gedən adamlar bir yük maşınına minib yuxarı kəndlərə sarı gedirmişlər. Hərəsi öz evinin yanına çatanda maşını saxlatdırıb düşür, sürücüyə sağ ol deyib gedirmişlər.

Sürücü lap bezibmiş. Növbəti sərnişin də əvvəlkilərin sözünü təkrarlayır:

– Sağ ol, qardaş!

Sürücü bərkdən deyir:

– At kuzaya!

## "DVA UŞİ"

Bir nəfər əsgərlikdən təzə gəlibmiş. Hamı ilə rusca danışırmış. Babası nəvəsinin bu hərəkətindən lap bezibmiş. Ancaq nəvə dediyindən dönmür, harda daş görür, "kamen, kamen", harda qoyun görür "baran, baran" deyə təkrarlayırmış ki, dili yadırğamasın...

Bir gün babası ona deyir ki, a bala, çəpərimiz tökülüb, yabanı götür, gedib bir az tikan qırıb gətirək.

Nəvə soruşur:

– Baba, çto takoy yaba?

Baba hirslənir, iki barmağını yaba kimi bir-birindən ayırıb deyir:

– Bala, "dva uşi", "dva uşi"...

**"QRUD"**

Kiçik qaynım partiya məktəbində oxuyurdu. Bütün kənddə böyüyən adamlar kimi o da rus dilini pis bilirdi. Ancaq istiqanlı, mehriban olduğu üçün hamı onun xətrini çox istəyirdi.

Qaynım partiya məktəbinin bufetinə gedir. O, toyuğun döş hissəsindən alıb yemək istəyirmiş. Çoxdan tanıdığı bufetçiyə üzünü tutub deyir:

– Sveta, day mne qrud...

Bufet adamla dolu imiş. Adamlar gülüşüblər. Sveta qıpqırmızı qızarıb.

Qaynım sözünü bir də təkrar edəndə rus qadın utana-utana deyib:

– Namiq, kak tebe ne stıdna?

Namiq özünü doğrultmağa çalışıb:

– Day mne kurinnıy qrud...

Bufetdəkilərin hamısı gülüşüb. Sveta da onlara qoşulub...

**ATANA LƏNƏT**

Bu hadisəni mənə əslən Məzrə kəndindən olan rəhmətlik Xasay Cahangirov danışıb.

İclas olmalıydı, məni şəhər partiya komitəsinə çağırıb tapşırdılar ki, bu məzmunda Sosialist Əməyi Qəhrəmanı Murad Zeynalov üçün bir çıxış yaz. Çıxışın mətnini hazırlayıb, makinada yazdım və aparıb verdim. Oxuyub bəyəndilər.

Təsadüfən həmin iclasda özüm də iştirak edirdim. Sözü Murad kişiyə verən kimi, o, kürsüyə qalxıb, cibindəki kağızı

çıxardı. Hıqqına-hıqqına, höccələyə-höccələyə bir-iki cümlə oxudu. Sonra mikrafonun önündə "atana lənət, bunu yazan!" – deyib, kağızı cibinə soxdu və ağzına gələni danışmağa başladı.

## KƏNDƏ TEZ ÇATAN İŞIQ

Bu olmuş əhvalatı mənə usta Vaqif danışıb. Cəbrayılın Dağ Tumas kəndində bir kişi işıq xətlərini təmir eləyirmiş. Oğlunu göndərir ki, gedib dağın başından baxsın, qonşu kənddə işıq yanan kimi xəbər versin, o, işi dayandırsın. Uşaq qonşu kənddə işıq yandığını görüb evə qaçır ki, atasına xəbər versin. Evə qayıdanda görür ki, atasını tok vurub. Handan-hana özünə gələn kişi oğluna acıqlanır ki, niyə vaxtında xəbər eləmədin?

Oğlu ağlaya-ağlaya and-aman eləyir ki, qonşu kənddə işıq yanan kimi qaça-qaça gəldim. Ancaq mən neyləyim ki, işıq məndən tez çatıb evə…

## YARIM SAAT QABAQ

Qaçqınlıq dövrü şəhərə gələn, Bakıda doqquzmərtəbəli binalardan birində sığınacaq tapan kişinin arvadı ona deyir:

– Ay kişi, acından qırıldıq. Get gör yeməyə nə tapırsan.

Kişi həyətə düşür. O mağaza sənin, bu mağaza mənim, rastına düşəndən alıb geri qayıtmaq istəyəndə məskunlaşdığı evi tapa bilmir. Görür ki, binaların hamısı bir-birinə oxşayır. Nə qədər ora-bura vurnuxsa da, qaldıqları evi tapa bilmir ki, bilmir. Həyətdə oynayan uşaqları yanınına çağırıb soruşur:

– A bala, yarım saat bundan qabaq məni buralarda görməmisiniz?

## DƏMİR MANATLIQLAR

Dəniz dostum, uzun müddət mağaza müdiri işləyən Novruz deyir ki, sovet vaxtında satıcılardan biri gəldi ki, Novruz müəllim, bir oğlan var, üstündə Leninin şəkli olan bir manatlıq dəmir pulları istəyir. Deyir ki, yığın, hər axşam gəlib aparacam.

Təəccübləndim. Dedim bəlkə burda bir iş var. Oğlanı çağırıb soruşdum:

– Ay bala, əvvəlcə de görüm neyləyirsən o qədər dəmir pulu, sonra verim.

Oğlan dedi:

– Ay kişi, nə işinə qalıb, verirsən ver, vermirsən gedib başqa mağazadan götürərəm.

Onsuz da dəmir pulu verməyə yer axtarırdım. İşçilərə dedim ki, hər axşam ona verdiyi kağız pulun müqabilində dəmir pul versinlər.

Aradan bir müddət keçdi. Bir gün o oğlan mənə yanaşıb dedi ki, müəllim, ta dəmir pul almayacam, lazım olmadı. Səbəbini soruşanda dedi:

– Oturub-durduğum bir adam var idi. Məni kasıb olduğuma görə lağa qoyur, Lüt Kərim deyirdi. Bir gün yeyib-içəndə ona dedim ki, mənim pulum sənin çəkindən ağırdı. Beş-altı aydan sonra pullarımı da, səni də çəkdirərik… Ona görə gündəlik çax-çuxumu dəmir pula dəyişirdim…

– Bəs indi niyə yığmırsan dəmir pulları?

– Daha lazım olmadı. O harın gədəni tutub dama basdılar… Yəqin ki, türmədə arıqlayıb çöpə dönəcək. Mənim yığdığım dəmir pulun çəkisi onsuz da ondan ağır olacaq…

## NƏZİR

Kənddə bir arvad toyuq nəzir demişdi ki, "Baharın on yeddinci anı" filminin qəhrəmanı ölməsin.

## TAMADANIN MÜAVİNLƏRİ

Yaxın adamlardan birinin toyu idi. Zəngilanın maarif şöbə müdiri, rəhmətlik Yədulla müəllim tamada idi. O, mikrafonla elan etdi ki, ağsaqqallardan ikisini: Salman müəllimi və Mehdi müəllimi özümə müavin seçirəm.

Polis sistemində rəhbər işdə işləyən bir nəfərə söz verdilər. Məclisə dəxli olmayan, ordan, burdan əzbərlədiyi şeir parçalarını üyüdüb tökdü. Heç bir effekt alınmadığını görüb hırıldaya-hırıldaya dedi:

– Tamadanın iki müavini var, ikisi də keçəldi...

Yenə heç kəs gülmədi...

Aradan xeyli keçdi. Söz professor Salman Qarayevə verildi. O, mənalı bir sağlıq deyib, bəylə gəlini təbrik etdi, sonra üzünü özündən qabaqkı çıxışçıya tutub dedi:

– Mənim milis qardaşım bir-biri ilə əlaqəsi olmayan şeir parçalarını deyəndə qorxdum ki, bu adam toyun axırına qədər danışıb qurtarmaya. Yaxşı ki, belə olmadı. Ancaq o dedi ki, tamadanın iki müavini var, ikisi də keçəldi. Neyləyək, milisoner qardaşım, biz işimizi başımızla görürük.

Mən dünyagörmüş bir kişiyəm. Sənə bir məsləhətim var. Çalış sən də başını işlədəsən. Söz verirəm ki, əgər başın işləsə, gələn toylardan birinə kimi sənin də saçın töküləcək... Amma başın işləsə ha!...

# ŞƏKİ BƏZƏMƏLƏRİ

## EŞŞƏK HARALIDI?

Sumqayıtda yaşayan bir şəkili doğma diyara gedibmiş. Şəkinin küçələrindən birində dayanıb dostlarını gözləyirmiş. Bir də görür ki, bir kişi eşşəyi qabağına qatıb ona sarı gəlir. Kişi şəhərdən gələn qonağa nəzakətlə salam verir. Sən demə, o, həmin adamı tanıyırmış...

Şəhərdən gələn şəkili sir-sifətindən kəndçilik yağan eşşək sahibi ilə məzələnmək fikrinə düşür və soruşur:

– A kişi, haralısan?

– Ha cözuu yeyim, Göynükdənəm.

– Bəs bu eşşək haralıdı?

– Əsli Şəkidəndi, ancaq indi köçüb Sumqayıtda yaşayır...

## BELORUS

Şəkinin kəndlərindən birində bir kişi yaşayırmış. Onun oğlu əsgərlikdən qayıdanda özü ilə bir qız gətirir. Qız elə sarı imiş, elə sarı imiş ki, qaynatası onu görəndə oğlunu məzəmmət edir:

– A köpək oğlu, urusetdə bir düz əməlli urus qızı tapmadın alıb gətirəsən, bu nə qızdı belə?

Oğlu gülə-gülə, zarafatla deyir:

– Ay dədə, bu urus deyil e, belorusdu.

Kişini od götürür. Tərs-tərs gəlininin o tərəfinə, bu tərəfinə baxıb oğlunu söyür:

– Ay köpək oğlu, məni dolamısan, belorusdusa bəs bunun lapeti hanı?

## FATMA

Seçki günü məntəqə ətrafında bir şey satmağı qəti qadağan eləyirlər. Lakin iki nəfər bu qaydanı pozur. Onları tutub rəisin yanına aparırlar.

Rəis alverçi kişini də, arvadı da danlayır. Üzünü arvada tutub soruşur:

– Sənin adın nədi?

– Fatmadı.

Rəisin üzünə təbəssüm qonur. Gülümsəyə-gülümsəyə deyir:

– Bacı, bəxtin gətirib. Mənim həyat yoldaşımın da adı Fatmadı. Ona görə səni bağışlayıram. Get, bir də belə iş görmə.

Qadın gedəndən sonra rəis hirsli-hirsli üzünü kişiyə tutub soruşur:

– Ay kişi, bəs sənin adın nədi?

– Yoldaş rəis, Məmmədiyyədi, ancaq uşaq vaxtı elə mənə də Fatma deyirdilər...

## HA ÇALIŞIRDIM

Bir şəkili bərk xəstələnir. Arvad-uşaq onun başına toplaşır. Kişinin vəziyyəti getdikcə xarablaşır. Arvad təlaşla soruşur:

– Ay kişi, bəlkə deməyə bir sözün var?

Kişi əlini həyətə sarı uzadır, ancaq bir söz deyə bilmir. Onun vəziyyəti daha da pisləşir. Həkim çağırırlar. Dava-dərmandan sonra o, gözünü açır. Arvad fürsətdən istifadə edib soruşur:

– Ay kişi, bayaq nəsə demək, yaman gün üçün gizlədiyin qızılların yerini göstərmək istəyirdin. Cözuu yeyim, əluu hara sarı uzadırdın?

– Arvad, heç hara uzatmırdım, ha istəyirdim ki, baş barmağımı o biri iki barmağın arasına keçirim, alınmırdı ki, alınmırdı...

## ALTERNATİV

Seçkilər zamanı deputatlığa Hacı dayının da namizədliyini verirlər. Kişi elə bilir ki, ta elə deputatdı. Bir gün onu seçkiqabağı seçicilərlə görüşə aparırlar. Görür ki, bir cavan, sütül oğlan da onun yanında oturub. Soruşur ki, bu kimdi? Deyirlər ki, Hacı dayı, bu sənin alternativindi.

Hacı dayı bir şey başa düşmür. Soruşur:

– Ha cözuu yeyim, alternativ nədi?

– Hacı dayı, alternativ odu ki, ikinizin də namizədliyiniz verilib. Ancaq camaat ikinizdən birini deputat seçəcək.

Aradan xeyli keçir. Hacı dayını yox, o biri cavan oğlanı deputat seçirlər. Hacı dayı çox pərt olur. İşsiz qalmasın deyə dəlləkliklə məşğul olmağa başlayır.

Bir gün onu sünnət toyuna çağırırlar. Hacı dayı bütün dəllək ləvazimatını hazırlayıb yanına qoyur. Uşağı kirvənin qucağına verirlər. Hacı dayı işə başlamaq istəyəndə gözləri kirvəyə sataşır. Elə bil kişini tok vurur. Görür ki, kirvrə onun yerinə deputat seçilən oğlandı. Ülgücü yerə qoyub deyir:

– Üz vurmayın, ha bu uşağın alternativi olmasa, sünnət eləyən deyiləm, seçib özüm istədiyimi kəsəcəm...

## İYNƏ

Bir cuhud Şəki bazarına bir yeşik iynə aparır. Birini bir manatdan satmaq istəyəndə onun başının üstünü bir şəkili alverçi alır:

– Ay kişi, iynənin birini neçəyə verirsən?

– Birini bir manata.

– Neçə iynən var?

– Min dənə.

Şəkili tez cibindən min manat çıxarıb iynəsatana verir və deyir:

– Hamısını bir yerdə alıram.

Onlar razılaşırlar. Səhərisi gün cuhud bazara çıxanda görür ki, həmin şəkili iynələri qoyub, birini bir manatdan satır. Təəccüblə soruşur:

– Ay qardaş, səni heç başa düşmürəm. Bu iynəni bir manatdan alıb, bir manatdan satmaqla axı nə qazanırsın?

Şəkili özündən razı halda gülümsünüb deyir:

– İynəyə yaxşı bax!

Cuhud diqqətlə iynələrə baxır, ancaq bir şey başa düşmür. Şəkili təkrar eləyir:

– Dedim saa iyniyə yaxşı bax! Sən satdığın bir iynəni iki yerə bölmüşəm. Bir tərəfinin ucunu mijdəmişəm, o biri tərəfinin dalından deşik açmışam.

## ELƏ XEYİR İŞİNİZ VAR İDİ...

Bir şəkilini qaynanası lap onun canını boğazına yığıbmış. Axırda dözə bilməyib prokurorun yanına gedir. Başına gələnləri bir-bir danışır. Sonra deyir ki, istəyirəm arvadı öldürüm.

Prokuror da qaynanasından yanıqlı imiş. Şəkiliyə deyir ki, onsuz da bu işi görürsən, elə mənim də qaynanamı öldür. Əvəzində məhkəməyə tapşıraram sənə az iş verər.

Şəkili razılaşır. Hər iki qaynananı öldürür. İş gəlib çıxır məhkəməyə. Prokuror xalq hakimindən xahiş edir ki, qatilə az iş versin.

Məsələnin nə yerdə olduğunu bilən hakim hirsli-hirsli deyir:

– Qətiyyən sizə kömək eləyə bilmərəm.

– Axı niyə?

– Elə xeyir işiniz var idi, bəs niyə mənə də deməmisiniz?!

## ARABA

Daşağıl kəndindən bir nəfər eşşək arabası ilə oduna gedir. Xeyli işlədikdən sonra odunu arabaya yükləyir. Arabanın yükü o qədər ağır olur ki, eşşək nə qədər dartınırsa, onu yerindən tərpədə bilmir. Kişinin odunu boşaltmağa heyfi gəlir. Düçünür ki, arabanı birtəhər itələyib yola, üzüyenişə çıxara bilsə, onu aparmağa eşşəyin gücü çatacaq.

Sonra o, hıqqına-hıqqına arabanı dikin başına çıxara bilir. Elə ki, eniş başlayır, eşşək onu itələyən arabanın, içindəki ağır yükün qarşısında dura bilmir. Araba elə sürətlə aşağıya, kəndə sarı gedir ki, kişi sevinir. O, nə qədər qaçırsa, arabaya çata bilmir ki, bilmir. Döngəyə çathaçatda eşşək yıxılır, araba onun başının üstündən aşıb daşa dəyir və parça-parça olur.

Kişi gəlib çatanda eşşəyi yerdə uzanılı görür. Odun sarıdığı sicimi, bir də arabanın salamat qalmış bir təkərini çiyninə alıb, eşşəyi qabağına qatır. Eşşək axsaya-axsaya darvazadan içəri girəndə kişinin arvadı eyvana çıxır. O, bir

axsayan eşşəyə, bir də çiynində araba təkəri olan ərinə baxıb, təşvişlə soruşur:

– Ay kişi, nə olub?

– Heç, arvad, "avariya" eləmişik...

## ŞAMPAN

Dostum Şəkiyə gedəndə özü ilə araq, şampan alıb aparıbmış. Oturub içmək istəyəndə o, şampanı açıb dayısının rumkasına süzür ki, qoca kişidi, qoy bundan içsin.

Dayısı acıqlanıb:

– Ə, bacıoğlu, bunu rədd elə o yana... Görmürsən içindən tüstü çıxır, bu adamın nəfəsini kəsər, mənə də özün içəndən süz.

## ŞİRİN ÇAXIR

Bir şəkiliyə dostu deyib:

– Bəlkə bu gün çaxır içək?

Şəkili tərs-tərs qədəh yoldaşını süzərək deyib:

–Yox, içə bilmərəm. Adın haqqı, ömrümdə bir dəfə şirin çaxır içmişəm, onda da gedib arvadı boşamışam.

## CÖVRİ-CƏFA, ŞÖVQİ-ŞƏFA

Şəkidə bir əməli-saleh kişi var imiş. Bir dəfə o, Yevlağa gedir. Elə bir məclisə düşür ki, hamı araq içirmiş. Onu nə qədər dilə tuturlarsa, içmək istəmir ki, istəmir.

Başı dumanlanan cavanlar zarafat etmək məqsədiylə onu yerə yıxıb, ağzına zorla araq tökürlər. Kişi çaçiyir, gözləri kəlləsinə çıxır. Handan-hana özünə gəlir və əhvalı düzəlir.

Xatakarlar bu xəbəri onun özündən əvvəl Şəkiyə çatdırırlar. Hamı təəccüb edir. Başqa bir dindar adam dostunu dilə tutur, bu xəbərin doğru olub-olmadığını soruşur. Kişi naəlac qalıb, hər şeyi olduğu kimi danışır.

O biri şəkili maraqla soruşur:

– Ha cözuu yeyim, ha bu arağın dadı nə təhərdi?

– Düzdü əvvəl içəndə adama çox cövri-cəfa verir, ancaq bir az keçəndən sonra şövqi-şəfa cövri-cəfanı üstələyir...

## PUL

Şəkili dostum ali məktəblərin birində müəllim işləyən bir dostunu ilk dəfə Şəkiyə aparıbmış. Yazıq müəllim Şəki haqqında o qədər lətifə eşidibmiş ki, hər şeyin doğruluğuna inanırmış. O, üzə vurmasa da, gizli bir xof içindəymiş.

Dostlar avtobusla Şəkiyə gedib çıxırlar. Taksi tutub Oraban kəndinə getmək istəyirlər. Bir maşın saxlatdırırlar. Sürücü üzündən lotuluq yağan məzəli bir kişi imiş. Ondan soruşublar:

– Bizi Orabana aparassan?

Sürücü müştəriləri təpədən ayağa süzür və deyir:

– Nə verəssuuz?

Şəkili dostum dillənməyə macal tapmamış, onun qonağı həyəcanlı səslə deyib:

– Pul, pul...

## ŞƏKİDƏ TOY

Şəkidə toy imiş. Nağaraçı bir çubuqla yekə nağaranın üstündən, o biri çubuqla isə altan döyəcləyirmiş. Guppultudan qulaq tutulurmuş...

Hərə bir sifariş verirmiş Qonaqlardan biri nağaraçının yanına gedib, onun cibinə çoxlu pul basır. Nağaraçı soruşur:

– Ha indi saa nə çalım?

– Nə çalırsan çal, fərq eləməz, amma çombağın ikisini də üstdən vur.

## SİYAHI

Oraban Şəkinin ən gözəl, səfalı kəndlərindən biridir. Dağların qoynunda, meşənin ətəyində yerləşən bu kənddən təbiət heç nə əsirgəməyib. Kəndin ortasından axan kiçik dağ çayı öz şırıltılı nağməsi ilə insanlara layla çalır, suyu ilə bağ-bostana həyat verir.

Dostum Nazim Ulubəy oğlu əslən bu kənddən olduğundan, mən də arabir onunla orabana gedir, adamlarla görüşür, hal-əhval tutur, məzəli söhbətlərinə ləzzətlə qulaq asırdım. Diqqətimi ən çox özünə çəkən orabanlıların yumor duyumu idi.

Keçən payız Daşağıl çayının sahilindəki çayxanada oturub çay içəndə dostum mənə olmuş bir əhvalat danışdı. İkimiz də gözlərimiz yaşaranadək güldük.

Kənd sakinlərindən biri – Hacıbala dayı dükançı imiş. Qocaldığı üçün gözləri yaxşı görmürmüş. Bundan istifadə edən uşaqlar ona dəmir manat əvəzinə çoxuşaqlı analara verilən medalları sirişt eləyib, konfet alırmışlar.

Bir dəfə pulları sayan vaxt Hacıbala kişinin ona kömək edən oğlu bərk təəccüblənir. Görür ki, daxıl medalla doludur. Təəccüblə atasından soruşur:

– A kişi, bu qədər medalı hardan almısan?

Hacıbala kişi əvvəlcə heç nə başa düşmür:

– Nə medal, a bala, onlar hamısı dəmir manatlardı.

Kənd uşaqlarına, onların xasiyyətinə yaxşı bələd olan oğlu məsələnin nə yerdə olduğunu atasına başa salır. Hacıbala kişi bərk dilxor olur, hirslənir.

O gündən sonra dükançı uşaqlara heç nə satmır, deyir ki, gedin analarınızı bura göndərin.

Bir gün belə, beş gün belə, axırda mağazaya ehtiyacı olan qadınlar bir-bir Hacıbala kişinin yanına getməli olurlar. Kənd arvadları ağızlarını açmamış dükançı onları sorğu-suala tutur:

– Hələ əvvəlcə deyin görüm neçə uşağınız var?

Qadınların biri üç, o biri beş deyir. Hacıbala kişi hər kəsin medalını yavaş-yavaş özünə qaytarıb tapşırır:

– Medalı götürün, əvəzində bir belə pul gətirərsiniz.

Arvadlar əvvəlcə bir şey başa düşmürlər. Sonra onlar uşaqlarının əməlindən xəbər tutur, deyinə-deyinə evə qayıdırlar.

Aradan bir xeyli keçir. Bir dəfə lotulardan kimsə əlində qəzet içəri – dükana girir. Ordan-burdan söhbət eləyəndən sonra Hacıbala kişi soruşur:

– A bala, o qəzetdə nə yazıblar, dünyada nə var, nə yox?

– Hacıbala dayı, elə bir şey yoxdu, başdan ayağa siyahıdı...

– O nə siyahıdı elə, a bala?

– Heç, çoxuşaqlı anaların siyahısıdı. Bizim kənddən də xeyli adama qəhrəman ana adı veriblər.

Bunu eşidən Hacıbala kişi bərk dilxor olur. Qəzeti alıb tərs-tərs siyahıya baxır və deyir:

– Vay dədəm vay, evim yıxıldı.

Oğlan soruşur:

– Sənə nə oldu, Hacıbala dayı?

– A bala, ta bundan artıq nə olasıdı? Bu andır medalları bir müsibətlə yiyələrinə paylayıb qurtarmışdım, bu uzunluqda siyahı da bir yandan çıxdı...

## BƏS NİYƏ GETMİRSİNİZ?

Oraban çayın bir, Küngüt isə o biri sahilindədir. Bir gün iki orabanlı bu tərəfdən, iki küngütlü o biri tərəfdən çayın sahilinə gəlirlər. Bir-birləri ilə uzaqdan-uzağa hal-əhval tuturlar. Orabanlılar soruşurlar:

– Ay qardaşlar, hara gedirsiniz?

– Orabana.

İndi də küngütlülər soruşurlar:

– Bəs siz hara gedirsiniz?

– Küngütə.

Küngütlülər ayaqqabılarını çıxarıb, çırmanır, çaydan keçib, Oraban tərəfə adlayırlar. Orabanlılar isə sakitcə dayanıb, çaya baxırlar. Küngütlülər təəccüblə soruşurlar:

– Ay qardaşlar, bəs siz Küngütə getmirsiniz?

– Gedirik.

– Onda bəs nəyi gözləyirsiniz?

– Gözləyirik ki, çayın suyu kəsilsin, sonra o taya keçək.

## YER AZDI

Şəkili dostum Nazim müəllim bir məclisə gedibmiş. İçəri keçmək istəyəndə kimsə deyib:

– Yer azdı.

Dostum ciddi şəkildə deyib:

– Mən yeraz deyiləm, şəkiliyəm.

## TÜNDDÜ

Dostum Nazim danışır ki, kirayədə qalan vaxtım idi. Bir gün atam dayımla Şəkidən Sumqayıta gəlmişdi. Tez tədarük gördük. Günortaya yaxşı bir süfrə açdıq. Ancaq bir məsələ çətin idi. Atamın yanında heç birimiz içməyə cəsarət etmirdik. Ancaq içkisiz məclisin nə ləzzəti?

Çox düşündüm, daşındım, axırda bir çıxış yolu tapdım. Badamlı şüşələrinin ikisinə araq doldurub, ağzını bağladım. Dayımla atam üçün süfrəyə bir araq qoyduq. Onlar yavaş-yavaş içməyə başladılar. Qardaşıma və dayım oğluna əvvəlcədən xəbərdarlıq etmişdim ki, vəziyyət nə yerdədi. İşarə vurduğum şüşələrdən "badamlı"nı böyük stəkanlara süzdüm ki, guya biz su içirik. Uşaqlara bərk-bərk tapşırdım ki, içəndə üz-gözlərini qırışdırmasınlar.

Nə isə... Dayım bir sağlıq dedi. Atamla rumkaları toqquşdurdu və onlar içdilər. Rumkanı yerə qoyan kimi atam əl atıb mənim ağzınacan dolu stəkanımı başına çəkdi. Rəng verib, rəng aldım.

Atam stəkanı yerə qoyandan sonra xeyli nəfəs çəkə bilmədi. Dayım mat-mat onun üzünə baxıb soruşdu:

– Ay Ulubəy, nə oldu sənə?

Handan-hana özünə gələn, dili söz tutan atam dedi:

– Adın haqqı, bunların suyu bizim araqdan tünddü...

## ARTIQ OLAR

Şəkili dostum Nazim məktəbdə zavxoz, təsərrüfat hissə müdiri işləyirdi. Bir dəfə o, yay tətilində məktəbə gedəndə görüb ki, süpürgəçi qadın qapının ağzında oturub özünü yelləyir. Nazimi görən qadın şikayətlənib:

– Ay müəllim, yaman istidi, işləmək olmur.

Nazim qadını dolamaq məqsədilə soruşur:

– Tamara xala, sən bilən isti yüz dərəcə olar?

Arvad dərhal cavab verir:

– Başın haqqı, hələ ondan da artıq olar.

Payını alan zavxoz çıxıb gedir, gözünün altı ilə geri baxanda görür ki, süpürgəçi ona “alle” verir...

## TOYUQ

Bir şəkili həkim işləyən arvadından soruşub:

– Nə qədər maaş alırsan?

Arvad o saat cavab verib:

– On üç min...

Kişi öz başına bir qapaz vuraraq deyib:

– Kül mənim başıma, səni saxlayınca, bir toyuq saxlasam, ondan sərfəlidi. Nə bahalı geyim, palto, plaş istəyəcək, nə ayaqqabı, nə də cib xərcliyi, yol pulu. Qabağına gündə bir ovuc dən töksəm, ən azı gündə bir yumurta verəcək. Otuz yumurtanın da qiyməti, azı on beş min manatdı.

## VERMEŞİL

Bir nəfər banklardan birinə küllü miqdarda pul qoyubmüş. Eşidəndə ki, vəziyyət xarabdı, bankın bağlanmaq təhlükəsi var, gedib ki, pulunu çıxarsın.

Ona deyiblər:

– Sənə qaytarmağa nəğd pulumuz yoxdu, istəsən, pulun əvəzində sənə 50 min manatlıq vermeşil verə bilərik.

– Ay səni belə-belə olasan, ömrümün axırına kimi mən vermeşil yeməliyəm?

# KİTABIN İÇİNDƏKİLƏR

## Hağıllar və rəvayətlər

Tapmacalar ölkəsi....................................................................3
Palıd ağacının nağılı.............................................................. .5
Bitdilicə...............................................................................8
Baş və dil...........................................................................11
Dağ və dəniz.......................................................................12
İt oğlu it.............................................................................12
Qarışqaların söhbəti.............................................................13
Bulud qoçlar, günəş nənənin susəpəni və çiçəkli körpü.............13
Qış nənə və onun oğulları.......................................................15
Ağac, sağsağan və koronavirusun nağılı....................................17
Kim nə eləyir özünə eləyir......................................................23
Elm və Helm.......................................................................24
Keçi..................................................................................26
Yağış suyu..........................................................................27
Ziyarət...............................................................................28
Əriştə.................................................................................28
Dəllal.................................................................................29

## Okeanın o tayında

Fatehin məktubu...................................................................30
Babacanın bağı.....................................................................30
Fatehin rəsmləri....................................................................31
Fatehin inşası.......................................................................31
Ulduzlar.............................................................................32
Fatehin təbriki......................................................................33
Köç....................................................................................33
Vətən ətri............................................................................33
Fateh..................................................................................34
Köməkçi..............................................................................34
Mən də nənəyəm...................................................................35
Get babanı çağır....................................................................35
Ad günü...............................................................................35
Kitabxanaya qarovul çəkən küçük..............................................35
Yer təmizdi, ya skamya...........................................................36

Əl-ələ....................................................................................37
Şəkil çəkdirməyə gələn quşlar.............................................38
Tutuquşular..........................................................................38
Babanın köynəyini geyinən sarı şarın nağılı..............................39
Sən də mənə çəkmisən.........................................................41
Fatehin saldığı şəhər.............................................................42
Fatimənin çəkdiyi çəkillər.......................................................43
İstiot və duz..........................................................................44
İlk dərs günü.........................................................................45
Fatimənin xahişi....................................................................46
Malyuska və çanaqları...........................................................47
Sörfinq..................................................................................48
Quş beyni..............................................................................51
İngiliscə, Azərbaycanca.........................................................52
Fatimənin falı........................................................................53
Papaq tullamalı qapı..............................................................54
Dondurma.............................................................................54
Sakit okeanın sahillərində......................................................55
Badımcan dolması.................................................................56
Fatehlə söhbət.......................................................................57
Bir manata bir günlük səyahət...............................................57
Yer fırlanırsa..........................................................................60
Babanın kəpənəyi..................................................................61
Fatimənin ləpədöyəndə çəkdiyi rəsmlər.................................62
Hasarı qoruyan rəsmlər.........................................................63
Medalyon..............................................................................65
Çəkməli çiçəklər....................................................................66
İtən fındığın tapılması............................................................68
Bitdilicə, Civirtdək və Yer kürəsi............................................69
Nağıl qəsrində........................................................................80

**“Xatirə kəcavəsi” kitabından**

Ömrün izləri........................................................................108
Yadigar sətirlər.....................................................................242
Duyumlar, deyimlər..............................................................260
Mənə sevməyi öyrət, yaxud....................................................275
Ah narı, narı, narı..................................................................275
Dünya Azərbaycanlılarının həmrəylik günü............................275

Məzəli söhbətlərdən........................................................................277

**Məqalələr, esselər**

Ədəbi mülahizələr, ədəbi mübahisələr......................................285
Aysberq...........................................................................................287
Azərbaycan uşaq poemalarının ideya-bədii xüsusiyyətləri........291
Uşaqlar üçün yazmaq çətin və şərəflidir....................................301
Gənc tənqidçilərin ikinci ümumittifaq seminarı........................302
Kitab bayramı.................................................................................305
Torpağın ətri...................................................................................309
İlkin beşiyimiz, son ünvanımız....................................................311
Ekoloji tərbiyə................................................................................317
Yumruq kimi...................................................................................320
Hara gedir bu millət.......................................................................325
Siyasət.............................................................................................329
Cənnətdən qovulmuşlar.................................................................334
İnsan, yaxud daşa dönmüşlərə əks eyləmədi fəryadım..............340
Sınaq illəri......................................................................................345
Qubadlıya doğru.............................................................................347
Bəs Sumqayıt kimindir..................................................................349
Dəniz haqqında düşüncələr...........................................................354
Süjet mətnləri.................................................................................357

**Müsahibələr**

Qırx beş dəqiqəlik həyat dərsi.......................................................366
Yazıçı və zaman..............................................................................370
Pəncərəm dənizə baxır...................................................................374

**Məzəli əhvalatlar**

Təbəssüm çiçəkləri.........................................................................390
Müəllim deməyin. Gözümü yumanda. Pedaqoji təcrübədə.......392
Atın yerişi. Pulsuzluq əlaməti. Cibim. Şapqa.............................393
Kapot. Səni bilirəm. “Lyubovnik”...............................................394
Ona görə ki. Zəbt............................................................................395
Ayaqqabı. Evim yıxılıb. Hansı dildə olacaq. Əmi, qorxma.......396
Milli. On ikinci “Məmməd”. Sınmaq ehtimalı..........................397
Mobil telefon. Xiyar. Gül. Şorba. Məni kəs...............................398
Sevillə söhbət. Ən çox sevdiyim rəng. Biri artıqdı....................399

Laxlayır. Hardan bilirsən. Dünyanın mərkəzi. Menyu.............400
Kaş sən də. O qədər öpdüm ki.... ...........................................401
İlan. Kimi oxuyursan...........................................................402
İçəndə yazdıqlarım. Nəsə çatışmır.........................................403
Səndə nə var ki. Sən dursan..................................................403
Sözünü de. Ayıb gecikənlərə olsun........................................404
Millətəkən. İçmərəm............................................................405
O məsələ. Səhər gəlib apararsan............................................407
Bu ağılın yiyəsi. Quşbaz.......................................................408
"Erkək göyərçinlər". "Cücələrim". Qonorar. Tüfəng...............409
Pencəyin tərs üzü. Hünduşqa.................................................410
Qazların söhbəti. Otuz ildi....................................................411
Gülmək. Sən bizə qoşulma. Şağanda görüş.............................412
Sadə süjet. Lirik şeirlər.........................................................413
Bu hara malıdı. Eləməyinə naz elə..........................................414
Oxusa, verməz.Yazaır e.........................................................415
Sevgi şeirləri. Başmaq tayı....................................................416
O da sizin kimi.....................................................................417
Turşu. Kərpic........................................................................418
İdman. Aristokrat içkisi..........................................................419
"Sled-mled", "iz-miz". Yekə ağac...........................................420
Aralı ayaqlar. Mən o deyiləm..................................................421
Düşə bilmirəm.......................................................................422
Ördək əhvalatı. Qəçreş, Qarabulaq.........................................423
Qanacağı olan.......................................................................424
Travmatoloq. Platforma.........................................................425
Bir səsin on müştərisi. Vecinə alma........................................427
İşıq.......................................................................................428
Səninlə içir. Tarixə düşmək yolu. Füştürük.............................429
Xeyiri yoxdu. Məsləhət.Unudulan ad.......................................430
Ən müqəddəs. Sevgi. Dünyaya yenidən gəlsəydiniz................431
Avtoqraf. Vedrə.....................................................................432
Əkəcək.................................................................................434
Hardan bildin. Kim içmirsə.....................................................435
İki qorxu. Fit. Şəkil. Qəribə adam...........................................436
Yağışlı havada. Lift................................................................437
İcazə. Yubiley. Fil doktoru......................................................438
Müşkül iş. At, it. Daraq və papaq............................................439

Su. Ağsaqqallar şurası. Məşhur adamlar....................................440
Əvvəl çalınan hava. “İnstruksiya”, “Nə həkimidi”....................441
Səsini eşitdim. Kişi də var, ceyil də..........................................442
Gülməlidi, ya ağlamalı. Sutqalıq..............................................443
Sərdar ağacı. Ulduzlar...............................................................444
Elan. Qəhrəman.........................................................................445
İkinci dəfə. Zəhər.......................................................................446
Xalq məni çox istəyirmiş. Özünü biabır eləmə. Axır ki...........447
Dünya gözəlləşir. İçin qurtarsın................................................448
Ayılmaq təhlükəsi. Yüz əlli.......................................................448
“Vışka”.......................................................................................449
Pivə.............................................................................................450
Nə biləsən. Təyyarə. And. Müsibət...........................................451
Bağ. Pul. İstəyir ingilis dilində oxusun....................................452
Elə mən də talışam. Nə yeyib, onu əkdirib...............................453
Oğul. Axmağam..........................................................................453
İçmək. Kişi odur ki. Yemə..........................................................454
Mən getmirəm ha. Xokku. Yox bir............................................455
Yeyib-içmək. Danışmıram ha....................................................456
Gözümə girəcək. Mən adam axtarıram. Əzizlərin içsin............457
Özü oxusun. Həkimə göstər. Psixoloq.......................................458
İki söz. Alnıma yazılıbsa...........................................................459

## Qubadlı bəzəmələri

Ünvan. Dadaşın toyu.................................................................460
Yaradıcılıq planı. Torpaq mənimdir...........................................461
Qızdırma. Cəvizin dibi...............................................................462
Gecəniz xeyirə qalsın. Yas yerində...........................................463
Gözünə girsin. Sal tövləyə.........................................................464
Evdə kəsərsən. Tələsirsən, düş..................................................465
Boz at. Gözüm aydın. Qazlı su...................................................466
Qubadlı uşaqlarının işi. Burda belə olanda...............................467
Alazan, sənə şükür.....................................................................467
Yenə başladılar. 56 səs..............................................................468
Niyə gəlmisən. Qızıl..................................................................469
Döşəkçə. Bəli, yorğayam...........................................................470
Baş həkimi. Bərbərxanada. Bu millətin hamısı.........................471
Saxlayırdı, elə. Həkim nə deyir. Müdirlik iddiası.....................472

Deyəsən ağıllanmısan. Ana südü, dağ çiçəyi............................473
Sabahınız xeyir.. Toybaşı. Tabutdan çıxan əl...........................474
Bala, sən də yapış.................................................................475
Bir lapet adam......................................................................476
Seytasa duyuğa getməkdənsə. At öldü.....................................477
Ölməyin məsləhətdi...............................................................478
O tərəfə gedəndə, bu tərəfə gedəndə.......................................478
Ba..........................................................................................479
Süpürgə. Dolma.....................................................................480
Palçıq məsələsi.......................................................................481
Məktub..................................................................................482
Razı deyilsən. Güləş. Höcət....................................................483
Qazın söndürülməsi. Bu vaxta ana-bacı qalar...........................484
Güllə. İki pəzəvəng üz-üzə. Qazancın nədi...............................485
Beş manatın çatısı. Nə sındırım. Siz özünüzü...........................486
Çırtma. Utanmaqdan keçibdi..................................................487
At kuzaya. “Dva uşi”..............................................................489
“Qrud”. Atana lənət...............................................................490
Kəndə tez çatan işıq. Yarım saat qabaq...................................491
Dəmir manatlıqlar..................................................................492
Nəzir. Tamadanın müavinləri...................................................493

**Şəki bəzəmələrindən**

Eşşək haralıdı. Belorus..........................................................494
Fatma. Ha çalışırdım..............................................................495
Alternativ..............................................................................496
İynə. Belə xeyir işiniz var idi. Araba........................................498
Şampan. Şirin çaxır................................................................499
“Cövri-cəfa, şövqi-şəfa”.........................................................499
Pul. Şəkidə toy......................................................................500
Siyahı....................................................................................501
Bəs niyə getmirsiniz. Yer azdı.................................................503
Tünddü. Artıq olar.................................................................504
Toyuq. Vermeşil.....................................................................505

**Rafiq Yusifoğlu**

(Əliyev Rafiq Yusif oğlu)

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

**XIII cild**

Bakı, ADPU nəşriyyatı, 2023

Rəssamlar: İlqar Tofiqoğlu
Kübra Əkbərova

Korrektor: F.Əliyeva

Arzu və təkliflərinizi bu ünvana göndərməyi xahiş edirik:

rafig_yusifoglu@mail.ru

***Çapa imzalanmış 12.10.2023-cü il***
***Kağız formatı 60x84 $^{1/16}$, çap vərəqi 32***
***Sifariş 51, sayı 200***

***ADPU-nun nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+99412) 493-74-10***
***E-mail: poliqrafiya@mail.ru***